DİLSUZ DÜNYAMALIYEV



# SÖZ GÜLÜSTANI

«ASPOLİQRAF»
BAKI-2020



**Dünyamalıyev Dilsuz**

**D96 Söz gülüstanı** *(roman, povest və esselər)*.

Bakı, «Aspoliqraf», 2020, 392 səh.

Azərbaycan Respublikasının Əməkdar müəllimi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, «Qızıl qələm» mükafatı laureatı Dilsuz İsa oğlu Dünyamalıyev «Qağayı nəğməsi», «Ömrün payızı», «Tale yollarında», «Hikmət çələngi», «Gecikmiş etiraf», «Sənli günlərim», «Söz inciləri», «Meteorit ömrü» və «Mərhəmət işığı» kitablarının müəllifidir.

Müəllif «Söz gülüstanı» kitabı ilə yenidən oxucularının görüşünə gəlib. Bu kitab, demək olar ki, «Hikmət çələngi» və «Söz inciləri»nin davamıdır.

Maraqla qarşılanacaq bu kitabda da oxucular həyat hikmətlərinə baş vuracaq, qədimlərdən süzülüb gələn hikmətli sözlər, rəvayətlər, görkəmli şəxsiyyətlər haqda maraqlı esselərlə öz biliklərini zənginləşdirəcəklər.

**D $\frac{4702060201}{053}$ 2020**

**© «Aspoliqraf», 2020**

# Müəllifdən

Hörmətli oxucularım, hələ uşaqlıq illərindən folklor nümunələrinə qulaq asmağa, öyrənməyə maraqlı olmuşam. Dünyalarını dəyişmiş atam Dünyamalıyev İsa Qara oğlunun, anam Dünyamalıyeva Gülxanım Xudu qızının, əmim Dünyamalıyev Zeynal Qara oğlunun uzun qış gecələrində kürsü başında danışdıqları nağıllar, dastanlar, əfsanələr, rəvayətlər, hikmətli sözlər, uşaqları sehrli bir aləmə aparardı. Atam arada vaxt tapanda danışdıqları folklor nümunələrini bizdən soruşardı. Evin böyük uşağı olduğuma görə çalışardım ki, atamın suallarına cavab verim. Onun suallarına yaxşı cavab verməyəndə bizi arada bir müddət bu nağıllar aləminə qonaq etməzdi. Atam ərəb və fars dillərini, aşıq sənətini mükəmməl bildiyinə görə, el arasında deyildiyi kimi, sinədəftər insan sayılırdı. Atam sazı, əmimsə balabanı məharətlə ifa edərdilər.

Orta məktəb, eləcə də ali məktəb illərində məni tutan, xoşuma gələn folklor nümunələrini toplamağa başladım. O illərin xatirələri olan belə albomlarımı bu gün də saxlayıram. O dövrdə topladığım nümunələrin bir qismi «Qabaqcıl», «Şərq qapısı», «Azərbaycan müəllimi», «Azərbaycan gəncləri» qəzetlərində dərc edilmişdir.

Müəllimlik fəaliyyətimə başladığım ilk illərdən folklor nümunələrini və aforizimləri toplamağa başladım. Məktəbdə apardığım ədəbiyyat dərnəyində də bu işi davam etdirdim. Şagirdlərimə tapşırmışdım ki, folklor nümunələrini nənə və babalarımızdan öyrənib toplasınlar. İndi də yadımdadır. Sevimli şagirdlərimdən olan Aqil Əsgərov babası Hüseyn əmidən (Allah rəhmət eləsin) öyrəndiyi bir çox hikmətli sözləri dəftərə yazıb gətirmişdi: «Durna öz başçısını qabaqda görməsə, sırası pozular», «Tütün kolu başın aşağı əyməklə

ondan bənövşə iyi gəlməz», «Yaxşılığı dəryaya atsan, ada bitirər», «Hərzə sözün lərzə cavabı olar» və s.

Çalışırdım ki, topladığım nümunələri əsasən yaşlı insanların dilindən eşidəm. O illərdə kəndimizdə Yasin, Vəliyulla, Qənbər, Vəli kimi sinədəftər kişilərdən topladığım bir xeyli nümunəni o vaxtkı V.İ.Lenin adına APİ-də (İndiki APU) folklorşünaslıqdan bizə dərs deyən sevimli müəllimimiz Paşa Əfəndiyevə verdim. Bundan çox razı qaldı. Mənə də təklif etdi ki, institutu qurtarandan sonra onun rəhbərlik etdiyi kafedrada qalım, bu sahədə müdafiə edim. Lakin ailə vəziyyətim buna imkan vermədi.

Uzun illər ərzində topladığım, xalqım, el-obam üçün dəyərli bildiyim belə nümunələr əsasında «Hikmət çələngi» (2012-ci il), «Söz inciləri» (2016-cı il) kitablarım ərsəyə gəldi. Bu kitablar oxucular, ədəbiyyat müəllimləri, sözə qiymət verən ziyalılar tərəfindən maraqla qarşılandı. Kitablar haqda mətbuatda, radio və televiziyada fikirlər səsləndirildi.

Bu dəfə sizlərə təqdim etdiyim «Söz gülüstanı» bir növ «Hikmət çələngi» və «Söz inciləri» kitablarının davamıdır. Çalışmışam ki, bu kitabda da əhəmiyyətli bildiyim folklor nümunələrini, tarixi şəxsiyyətlərin, görkəmli şair və yazıçıların həyatlarından bəhs edən maraqlı esseləri də kitab aşiqlərinin nəzərinə çatdıram. Həm də islam dininin mənəvi, əxlaqi dəyərlərindən bəhs edən qiymətli sözlər, rəvayətlər də bu kitabda yer alıb. Burada Ulu Peyğəmbərimizin bir qiymətli hədisini qeyd etmək istəyirəm.

Bir məclisdə əsabələrdən biri Ulu Peyğəmbərimizdən soruşdu:

– Ulu Peyğəmbərimiz, istərdim biləm ki, hansı səslər sizə daha çox xoş gəlir?

O böyük əhli-ürfan, zəka sahibi velə cavab verdi: «Alim yazdığı zaman kağız üzərində eşidilən xışıltısı, yer şumlayan əkinçinin kotanının çıxardığı səs, bir də təlimdə, döyüşdə eşidilən əsgər sümbələrinin səsi».

Bu bir neçə sətirlik hədisdə nə qədər dərin mənalar yatdığını ayıq oxucu o saat anlayar.

Ona görə də bu kimi əhvalatların da kitaba salınmasını lazım bilmişəm. Hazırcavab, baməzə insanlar türk dünyasında, eləcə də ölkəmizdə həmişə olub. Molla Nəsrəddinin, Bəhlul Danəndənin, Əbül Fərəcin adlarını çəkmək kifayət edər. Belə insanlar yaxın keçmişdə, bu gün də var və gələcəkdə də olacaqdı.

Əvvəlki kitablarımda gözəlliklər məskəni Keçili kəndində söz-söhbətləri indi də xatırlanan Kərbəlayı Həmzənin, Həsənqulu və Yəmən kişinin baməzə, düşündürücü əhvalatlarını toplamışdım. Bu kitabda da S.Vurğun, H.Cavid, S.Rəhman, H.Arif, Qabil, Xan Şuşinski, M.S.Ordubadi, Abdal Qasım, Habil Kaman və başqalarının haqqında olan lətifə və rəvayətlərin qismən toplanmasına nail olmuşam. İnanıram ki, indiki nəsil də, gələcək nəsillər də kitabı oxuyanda həmin söz sahiblərini də minnətdarlıqla xatırlayacaqlar

Qeyd edim ki, vaxtilə topladığım yüzlərlə aforizmlər və aforistik ifadələri nəşr etdirə bilməmişəm. Tale yar olarsa, gələcəkdə bunların, eləcə də «Qarabağım–qan yaddaşım» kitabının da tamamlanmasına çalışacağam.

İnanıram ki, həmin vaxta qədər də düşmən tapdağında olan torpaqlarımız mənfur düşmənlərimizdən təmizlənəcək, «Cıdır düzündə» qələbə paradı keçirəcəyik.

***Qeyd:*** *Folklor nümunələrinin toplanmasında yaxından köməyinə görə yaxın dostum, istedadlı ədəbiyyat müəllimi İdris Mustafayevə və sevimli şagirdim Aqil Əsgərova minnətdarlıq edirəm.*

# Zirvələrə gedən cığırlar

Azərbaycan Respublikasının Əməkdar müəllimi, Azərbaycan Yazıçılar Birliyinin üzvü, «Qızıl qələm» mükafatı laureatı, 2002-ci ildə Bakı şəhərində keçirilən «İlin müəllimi» müsabiqəsinin qaliblərindən biri olan Dilsuz Dünyamalıyevin nəşr edilən, oxucu sevgisi qazanan kitablarını vərəqlədikcə 60-cı illərdə Çay Şahbuz orta məktəbində keçirdiyimiz şagirdlik illəri bir kino lenti kimi gözlərim önündən keçdi. Hələ o illərdə şagird yoldaşım çalışqanlığı, istedadı ilə sinfimizdə fərqlənirdi. Məktəbin bədii özfəaliyyət dərnəyində həmişə baş rolların ifaçılarından biri kimi nəzəri cəlb edirdi. Bədii kitablara vurğunluğu, mütaliəsi ilə də şagird yoldaşlarımızdan seçilirdi. Sonralar o, vaxtkı Lenin adına APİ-ni qiyabi yolla bitirən Dilsuz Dünyamalıyev əsl mənada müəllim, mahir pedaqoq kimi Şahbuz rayonunda, eləcə də respublikamızda fərqləndi, ad-san qazandı. Keçili kənd orta məktəbində direktor işlədiyi 11 il ərzində bu məktəbin yetirmələrinin sədası SSRİ məkanında eşidilməyə başladı.

Dilsuz müəllim o illərdə öz sözünü, ürək çırpıntılarının ifadəsini bədii yaradıcılıqda da deməyə başladı. Onun bütün mənalı ömür yolu daima axtarışlarda olub. Topladığı folklor nümunələrindən birini nəzərinizə çatdırmaq istəyirəm: «Həkimi fonendoskopsuz, müəllimi axtarışlarsız təsəvvür etmək olmaz».

1974-cü ildə Naxçıvan yazarlarının yaradıcılıq nümunələrinin toplandığı «Arazın işıqları» almanaxında Dilsuz müəllimin də bir neçə hekayəsi dərc edilmişdi. Orada dərc

edilən «Məhəbbət abidəsi» adlı hekayədə əsas surət olan Mənsurun dilindən aşağıdakı fikirlər səslənir: «Ömrüm boyu dolaşıb axtarıram dünyanı, axtardığımı tapıram. Tapanda itirirəm ki, bir də axtarım. Qoy ömrün günləri daima axtarışlarda olsun».

Şagird yoldaşım–ədəbiyyat aləmində öz sözünü deyən Dilsuz Dünyamalıyevin də ömür karvanı daima axtarışlarda olub. Bu estafet bu gün də davam edir.

Müəllifin «Qağayı nəğməsi» (2006-cı il), «Ömrün payızı» (2009-cu il), «Tale yollarında» (2010-cu il), «Hikmət çələngi» (2012-ci il), «Gecikmiş etiraf» (2013-cü il), «Sənli günlərim» (2015-ci il), «Söz inciləri» (2016-cı il), «Meteorit ömrü» (2018-ci il), «Mərhəmət işığı» (2019-cu il) adlı sanballı, oxunaqlı kitabları məhz bu axtarışlar nəticəsində yaranmışdı. Bu illərdə müəllif həm də folklor nümunələrinin, tarixi rəvayətlərin toplanması ilə də daima məşğul olmuşdur. Oxucular, xüsusilə ədəbiyyatçılar üçün «Hikmət çələngi» və «Söz inciləri»müəllifin uzun illər axtarışları nəticəsində meydana gəlmişdir. Sevindirici hal budur ki, bu kitablar ədəbiyyat həvəskarlarının stolüstü kitabına çevrilmişdir.

Hörmətli qələmdaşım Hacı Dilsuz Dünyamalıyevin «Hikmət çələngi» və «Söz inciləri»nin davamı olan «Söz gülüstanı» adlı kitabı da ədəbiyyatımızda yeni uğur sayıla bilər.

Onu da qeyd edim ki, müəllifin gərgin axtarışları nəticəsində topladığı qiymətli folklor nümunələrinin bir qismi Azərbaycan EA-nın Naxçıvan Bölməsinin nəşr etdirdiyi «Azərbaycan nağılları», «Naxçıvan folklor antologiyası» və digər kitablarda dərc edilmişdir. İstedadlı tədqiqatçı olan bu ədəbiyyat aşiqi bu nümunələri əsasən canlı tarix olan yaşlı insanlardan toplamışdı. Belə nümunələrdən bəzilərinə nəzər salaq: «Söz var el içində, söz var ev içində», «Söz var gülə tutarlar, söz var külə», «Yeriyən gətirəcək, oturan itirəcək», «Düşüncən nədirsə, ömrün-günün də odur», «Hər qabın öz qapağı yaxşıdır», «Pulunu əziz edən özünü zəlil edər», «Xoşbəxtlik sənin deyil, xoşbəxtliyin qapısın dö-

yənindir», «Yaxşı atın arpasın, tənbəl atın qamçısın hazır saxla» və s.

Kitabda toplanan tarixi şəxsiyyətlər haqda maraqlı esselər və məsəllər inanıram ki, bu kitabın da oxunaqlı olmasına səbəb olacaq, müəllifə oxucu sevgisi qazandıracaqdır.

İstedadlı qələmdaşımızı bir daha təbrik edir, ondan yeni-yeni kitablar gözləyirik. İnanırıq ki, Dilsuz müəllim bu yaşında da zirvələrə gedən cığırlarla bundan sonra da inamla irəliləyəcək.

**Əbülfəz Muxtaroğlu**

*Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair, filologiya üzrə fəlsəfə doktoru, dosent*




# *Məsəllər, rəvayətlər, esselər, hekayətlər*

## ƏMƏLİNİN BARINI DƏRDİ

Bir yaşayış məntəqəsində bir ailə yaşayırdı. Ailənin güzəranı ortabab səviyyədə idi. Övladları yox idi. Evin kişisi bədxasiyyət, tündməcaz bir adam idi. Acından ölənə bir loxma çörək də verməzdi. Həyat yoldaşı isə çox mehriban, ləyaqətli xanım idi. Ailə dağılmasın deyə, kişinin qəbahətlərinə dözürdü. Bir dəfə bayram ərəfəsi idi. Bütöv bir toyuğu bişirib ortaya qoymuşdular. Elə yeməyə başlayanda qapı döyüldü, cırım-cındır paltarda ortayaşlı bir kişi içəri girdi. Ac və xəstə olduğunu, ona əl tutmalarını xahiş etdi, yalvar-yaxar elədi.

Bu haldan bərk qəzəblənən ev sahibi ayağa durdu, ondan imdad diləyən zavallı insanı təhqir etdi, itələyib qapıdan bayıra saldı. Geri qayıdanda da arvadını da acıladı və dedi:

– Ac-yalavacları bu qapıya sən dadandırmısan. Belə adamlar bir də bu qapıya gəlsə, aşınınsuyunu verəcəyəm.

Ərinin daha da özündən çıxacağını bilən qadın bir söz demədi. Doluxsunmuş halda bir-iki tikə yeyib süfrədən çəkildi. Aradan bir müddət keçmişdi. Ərinin qabalıqlarına dözə bilməyən qadın ərindən boşandı, uzaq bir şəhərdə yaşayan qohumlarının yanına getdi. Keçən müddətdə kəmhövsələ ərin də işləri tənəzzülə uğradı, oğru-quldur var-yoxunu ələ keçirdi. Kişi ortalıqlarda sərgərdan qalmışdı. Neçə il sonra bu kişidən ayrılan qadın yaşadığı yerdə bir nəfər mehriban, xeyirxah insanla yenidən ailə qurdu. Bir-birin başa düşür, çox mehriban dolanırdılar.

Bir gün bu mehriban ailə süfrə açmışdı. Neçə il qabaq olduği kimi, yenə süfrəyə bişirilmiş bütöv bir toyuq qoyulmuşdu. Elə bu vaxt qapı döyüldü, yaşlı bir dilənçi içəri girdi. Ac və xəstə olduğunu bildirdi, ona yardım etmələrini istədi. Ev sahibi tez ortadakı toyuğun ətini tən yarı böldü. Arvada da dedi ki, əlavə yemək şeyləri və paltar da qoyub o zavallı insana versin. Belə xoş üzlə yola salınan səfil kişi gedə-gedə ev sahiblərinə dua-səna edirdi.

Evə qayıdanda qadın ərinə dedi:

– O kişini tanıdım. Mənim əvvəlki ərim idi

Kişi də qadınına dedi:

– Yadıma düşdü. Mən də o vaxt sənin köhnə ərinin qapıdan təhqir edib qovduğu həmin insanam

Bəli, hər bir kəs etdiyi əməlin qarşılığını görür, əkdiyi ağacın meyvəsini dərir. Ona görə də insanlığımızı, xeyirxahlığı heç vaxt unutmamalıyıq. Atalarımız demişdir: «Nə töksən aşına, o da çıxar qaşığına». Kim necə ağac əkərsə, onun da barını dadar.

## MƏRHƏMƏTLİ HÖKMDAR

Qədim bir ölkənin çox ədalətli, xeyirxah hökmdarı vardı. Əlsiz-ayaqsızların, yoxsulların hamisi idi. Başqa yerlərdə olduğu kimi bu ölkədə də qara qış öz ömrünü başa vurmuş, allı-güllü bahar yer üzünə qonaq gəlmişdi. Hər tərəfdə insanların üzünə gülümsəyən bahar nəfəsi, bahar rayihəsi duyulurdu. Belə bir vaxtda bu ədalət hamisi olan hökmdar da sarayın güləfirəngi adlanan hissəsinə çıxıb baharın gəlişini seyr edir, qəlbində ülvi hisslər yaranırdı. Hökmdar Ulu Yaradana şükürlər, dualar edirdi ki, nə yaxşı qarlı-boranlı qış arxada qaldı, gül-çiçəkli bahar qonaq gəldi. İnsanların güngüzəranında nisbətən yaxşılıq olacaq. Suların şırıltısı, nəğməkar quşların xoş avazı hökmdarın üz-gözünə xoş təbəssüm oyatmışdı.

Bu vaxt sarayın mühafizə işçilərindən biri ilə vəzir hökmdarın hüzuruna daxil oldu.

Mühafizəçi sözə başladı:

– Ey böyük hökmdarımız, hüzuruna bir cinayətkarı gətirmişik. O, sizin haqqınızda nalayiq sözlər danışırdı. Ona cəza verilməsi üçün sizin hökmünüzü gözləyirik!

Bu vəziyyətdən qanı qaralan hökmdar üzünü vəzirə tutdu:

– Vəzir, mənim yerimə sən olsaydın, necə hərəkət edərdin? Hansı qərarı verərdin?

Vəzir cavab verdi:

– Mən o caninin boynunu vurdurardım ki, başqalarına da dərs olsun. Bir də hökmdar haqda heç kəs hərvü-hədyan danışmasın.

Sifəti bir az da qaralan hökmdar sinirli halda dedi:

– Elə yaxşı ki, mənim yerimdə olmamısan! Yoxsa çox bədənlər başsız qalardı. Böyük Tanrımızın hökmü ilə qarlı-çövğunlu günlər arxada qalıb. İsnaların üzünə, bütün varlığına gülümsəmək, insanları qurub-yaratmağa həvəsləndirmək üçün bahar şəfəqləri yer üzünə gözəllik bəxş etməyə başlayıb. Biz də öz əməllərimizlə bu ülviyyəti, qüdsiyyəti daha da gözəlləşdirməliyik. Ona görə də həmin cinayətkar dediyiniz şəxs əfv olunur və heç kimin ona bir söz deməyə haqqı yoxdur. Bizi yaradan varlıq bağışlayan olduğuna görə biz də bağışlayanlardan olmalı, rəbbimizin kölgəsində dayanmalıyıq.

## İNSANIN İÇİNDƏ OLAN QURD

Baba sevimli nəvəsinin əlindən tutub, təbiətin qoynuna aparmışdı. O, yolboyu nəvəsinə maraqlı nağıllar, rəvayətlər, şeirlər söyləyir, növbəti gəzintidə əvvəl danışdıqlarını nəvəsindən soruşardı. Həm də maraqlı təbiət hadisələri, təbiətin insan həyatı ilə əlaqəli olması haqda söhbətlər aparır, nəvəsinin elə uşaqlıq illərindən dünyagörüşünün formalaşmasına çalışırdı. Nəvəsinin ətraf aləmlə, təbiətlə bağlı suallarına həvəslə cavab verirdi. Onlar gəzə-gəzə kiçik bir çayın kənarına gəldilər. Dağ çayının soyuq suyu ilə əl-üzlərini, qıçlarını yudular. Nəvə çayın kənarındakı qum üzərində müxtəlif şəkillər cızmağa başladı. Göy çəmənin üstdə uzanan babanı bir azdan yuxu apardı. Ayılanda gördü ki, nəvəsi əlindəki çubuqla qumluğun kənarında sürünən iki qurdu qurdalayır. Onları süründükləri yerdən geri qaytarmaq istəyir.

Nəvə babasının ayıldığını görüb, həmin qurdlar haqda suallar verməyə başladı. Baba da belə yerlərdə, su kənarında yaşayan qurdlar haqda bildiklərini nəvəsinə danışdı. Əlavə olaraq nəvə babasından soruşdu:

– Bu qurdlar insan həyatı üçün qorxulu deyil ki?

– Yox, oğlum, belə qurdlar təbiət üçün xeyirlidir, insan üçün də heç bir qorxusu yoxdu. Qorxulu qurd insanın daxilində yaşayır. İnsanın daxilində iki cür qurd yaşayır. Biri xeyir əməllərin simvoludu, biri isə şər əməllərin. Onlar daima bir-biri ilə mübarizə aparır. Xeyir əməllərə səsləyən qurd insanı yaxşı işlər, xeyirxah əməllər arxasınca getməyə çağırır. O biri qurd isə pis əməllərə, şər işlərə həris olduğuna görə insanı bu sahəyə yönəltmək istəyir. Aralarında bu qurdların mübarizə gedir. Xeyirlə şərin, qaranlıqla işığın mübarizəsi kimi.

– Baba, axırda onların hansı qalib gələcək?

– İnsan o qurdlardan hansının tərəfində dursa, hansına sığal çəksə, o da qalib gələcək. Allahımız insanı təbiətin şah əsəri yaradıb. Yaxşı və şər əməllərə yiyələnmək də insanın özündən, iradəsindən asılıdır.

## ANA DUASI

Bistan həzrətləri ağlı, biliyi, zəkası ilə Yaxın Şərqdə tez bir müddətdə şöhrət tapan ürfan sahiblərindən biri olmuşdu. İlahiyyat, fəlsəfə, nücum və fiqh elmlərini dərindən öyrənmişdi. Bir neçə xarici dil bilirdi. Həm də yüksək səviyyəli pedaqoq kimi şöhrət qazanmışdı.

Bir gün bir böyük məclisdə söhbət edərkən onu yaxından tanıyanlardan biri dedi:

– Ey dahi insan, gənc yaşından belə yüksək mərtəbəyə, vəzifə kürsüsünə çatmısan, elm və ürfan sahibi olmusan. Buna biz də sevinirik. Ancaq izah elə görək gənc yaşlarından çoxlarının qalxa bilməyəcəyi yüksək səviyyəyə necə çatmısan?

O hörmət-izzət sahibi belə cavab verdi:

– Anamın duası və gərgin zəhmətin səviyyəsində.

Sual verən şəxs yenə dilləndi:

– Bütün analar övladlarına dua-səna edər. Bəs sizin ananız sizə necə dualar etdi?

– Atam dünyadan vaxtsız köç etmişdi. Uşaqlıqdan təlim-tərbiyəmlə anam məşğul olurdu. Əhli-ürfan sahibi olmağım

üçün bütün varlığı ilə çalışırdı. Yeniyetməlik dövrümdə anam xəstələnmişdi. Axşamdan xeyli keçmiş anam məndən sərin su istədi. Kuzəni əlimə alanda gördüm ki, su yoxdu. Tez boş kuzəni götürüb aralıda olan bulağa yollandım. Suyu doldurub geri qayıtdım. Anamın başı üstə gələndə gördüm ki, anamı yuxu aparıb. Onu yuxudan durquzmağa qıymadım. Gedib yatmadım ki, anam duranda suyu verim içsin. Lakin anam hava işıqlananda yuxudan ayıldı. Məni başı üstə əlimdə kuzə görəndə dedi:

– Ay oğul, məgər bu vaxta qədər yatmamısan?

Cavab verdim ki, yatmamışam. Burda dayandım ki, yuxudan duranda suyu sənə verəm.

O, mənim başımı oxşadı, minnətdarlıq etdi. Vəziyyəti nisbətən yaxşılaşmışdı. Durub namaz qılmağa başladı. Namazdan sonra dua edərkən o axırda əllərini İlahi dərgahına qaldırıb dedi:

– Ey Ulu Yaradan, hamının balasını pənahında saxla, mənim balam da onların içində! Onun elmini, zəkasını, ağlını nurlandır. Onun uca mərtəbəyə çatmasına özün kömək ol. Bütün mətləblərin açarı sənin əlindədi.

Anamın bu duaların eşidəndən sonra məndə bu inam yarandı ki, çalışmağım, ağır zəhmətim və anamın dualarının hesabına Ulu Yaradan məni də, elm və insanlıq aləmində yüksək səviyyəyə qaldıracaq. Şükürlər olsun ki, anamın duaları çin oldu.

## ANA ƏLLƏRİ

Keçmiş əyyamda bir ana atasını vaxtsız itirmiş azyaşlı oğlu ilə çox çətinliklə ömür sürürdü. Ana hələlik şux və təravətli idi. Ərinin ölümündən sonra ona elçi düşənlər də olmuşdu. Ancaq bu fədakar ana elçiləri rədd etmiş, bütün həyatını oğluna həsr edəcəyi haqda qərar vermişdi. Gün-güzəran ağır idi. Bir tikə çörəkdən ötəri sübhdən axşam düşənə qədər imkanlı adamların evlərində çalışardı ki, oğlu korluq çəkməsin, əsl insan kimi böyüsün. Ananın əlləri işləməkdən həmişə qabar-qabar olardı.

İllər arxada qalmış, ananın oğlu böyümüş, təhsili də uğurlu olmuşdu. Oğul gendən bəyəndiyi zahirən gözəl bir qıza vurulmuşdu. Fikrini qızın rəfiqəsi vasitəsi ilə qıza bildirmişdi. Qızın cavabı belə olmuşdu: «Özünə yaxşı iş qursun, kasıblığın daşını atsın, onda fikrimi bildirərəm».

Oğlan var gücü ilə çalışmağa başladı. Bir neçə ilə özünü düzəldə bildi. Qıza yenidən sifariş göndərdi. Onsuz yaşaya bilməyəcəyini bildirdi. Qız ona belə cavab verdi: «Bu şərtlə onunla ailə quraram ki, anası toyumuzda iştirak etməyəcək və bizimlə yaşamayacaq. Bu, mənim qəti qərarımdı».

Oğlan çox pis vəziyyətdə qaldı. Nə anasından keçə bilirdi, nə də sevdiyindən. Fikirli halda yoluna davam edirdi. Təsadüfən sevimli müəllimi ilə yolda rastlaşdı. Vəziyyəti ona bildirdi, ondan məsləhət istədi. Müdrik insan olan müəllimi dedi:

– Get səhərə qədər ananın əllərini, qıçlarını yu. Üç gün sonra yanıma gələrsən, son sözümü onda deyəcəyəm.

Oğul belə də etdi. Ananın qabarlı əlləri, işləməkdən qıçlarında görünən zolaq-zolaq damarlar elə bil oğlanı silkələdi, ayıltdı. Deyilən vaxt ustadının yanına getdi. Müəllimi ondan nə qərara gəldiyini soruşdu. Oğlan ananın qabarlı əlləri, qıçlarında bayıra çıxmış damarları haqda danışdı. Doluxsunmuş halda ananın haqqını itirməyəcəyini bildirdi.

Şagirdinin başını sığallayıb dedi:

– Mən elə belə də bilirdim. Şükürlər olsun ki, zənnimdə yanılmadım. Ananın südü, haqqı halalın olsun. Özünə yenidən sevgili yar tapa bilərsən, ancaq ananı tapa bilməzsən.

**TAYKEŞ AYAQQABI**

***(Gülməcə)***

Bir kişi vardı. Gün-güzəranı yaxşı deyildi. Uşaqlıqdan əliəyri öyrənmişdi. İmkan düşən kimi başqasına kələk gəlmək, başqasının malını oğurlamaq peşəsi idi. Bir gün bu kişi bir ayaqqabı mağazasına daxil oldu. Ora-bura vurnuxandan sonra ayaqlarına uyğun ölçüdə bir cüt ayaqqabı istədi. Onu kə-

nardan müşayiət edən satıcı qız onun istədiyi ölçüdə bir cüt ayaqqabını kişiyə verdi. Kişi çəkinə-çəkinə qıza dedi:

– Yanımda pulum yoxdu. Pulu səhər gətirsəm, olar?

– Olar, əmi, səhər, yəqin ki, gətirərsən.

Bunu gözləməyən kişi ayaqqabını qoltuğuna vurub tez aradan çıxdı ki, birdən peşmanlayarlar.

Kişi gedəndən sonra ikinci satıcı ayaqqabını verən satıcıya iradın bildirdi. Tanımadığı adama niyə etibar etməsinin səbəbin soruşdu.

– Arxayın ol, ayaqqabını taykeş vermişəm. Sabah mütləq ayaqqabıları bura gətirəcək.

## ALLAH SEVDASINI UCA TUTMAQ

Bir ərəb ölkəsində bir nəfər imkanlı, xeyirxah insan yaşayırdı. Əlsiz-ayaqsıza, yetim-yesirə əl tutmağı xoşlardı. Ancaq həmişə bu qism insanlara elədiyi yardımları başqa insanların gözü qarşısında edər, bununla özünü insanlara daha yaxından tanıtmaq, şöhrət pilləsinə qalxmaq istərdi. Bu xeyirxah insanın qonşuluğunda bir kasıb, imkansız, çoxuşaqlı ailə yaşayırdı. İmkan arayırdı ki, buralarda camaat çox olan vaxt bu ailəyə yardım eləsin. Onun bu xeyirxahlığını ətrafındakılar da görsün. Lakin hələlik belə bir imkan, şərait ələ düşməmişdi.

Bir dəfə yenə tezdən bu kasıb ailənin evlərinin yaxınlığından iş yerinə gedirdi. Gördü ki, atın üstdə böyük bir xurcun olan şəxs atını o evə tərəf sürür. Daldada dayanıb bu atlı ilə maraqlandı. Gördü ki, atlı atını düz həmin ailənin uçuq-sökük darvazasının qənşərinə sürdü. Ağır xurcunu yerə qoydu. Gətirdiklərini darvaza önündə boşaltdı, boş xurcunu da atın yəhəri üstünə atdı. Sonra qapını döyəclədi və atına minib oradan tez uzaqlaşdı.

Bir azdan ev sahibi qapını açdı, qapı önündə qoyulan bağlamlara baxdı. O tərəf-bu tərəfə boylandı ki, bunların kim tərəfindən qoyulduğunu bilsin. Ancaq gözünə heç kim dəymədi. Qoyulan əşyaları içəri daşıdı.

Bu mənzərəni seyr edən xeyirxah insan öz əməlindən xəcalət çəkdi. Həzrət Əlinin (ə) bir aforizmi yadına düşdü: «Kimsəyə yardım edəndə sağ əlin verdiyini sol əl bilməməlidir. Onsuz da bütün əməllərimiz Tanrı qarşısında aşkardır!».

Gedə-gedə öz-özünə dedi: «Uca Yaradan, günahlarımı bağışla. Mən Allah sevdasını unudub, şöhrət sevdasını uca tutmuşam. Bu gündən Allah sevdasını uca tutmağa çalışacağam».

**YALANDAN QORUNAQ**

Bir abid, görkəmli din alimi, imanlı, təqvalı əməli ilə sözü bir olan şeyx var idi. O, hər məclisdə, xüsusilə məsciddə cümə söhbətlərində insanlara əxlaqi dəyərlərə malik əhvalatlar danışar, insanların doğru, düzgün yolu tutmaları üçün bacarığını edərdi. Sözü ilə əməlinin vəhdəti və iman işığına arxalanması ona böyük nüfuz qazandırmışdır. Hamı çalışırdı ki, gücləri çatan çərçivədə bu abidin sözlərindən ibrət götürsünlər.

Bir gün məsciddə cümə söhbətləri zamanı bir nəfər bu alimə üz tutdu:

– Ey böyük insan, Ulu Yaradan sizin dualarınızı eşidər. Son olaraq bizlərə dua et.

Alim əllərini göy səmtinə tutub:

– Ey böyük Yaradan mübüvətin, bağışlayan olmağın xatirinə and verirəm: Mənim xalqımı yalandan qoru!

Məclis əhli salavat verib, duanı təkrar etdilər

Bayaq bu alimə müraciət edən şəxs yenə dilləndi:

– Ey şeyx, nə üçün quraqlıqdan, qasırğadan ötəri dua etmədiniz, yalandan qorunmaq haqda dua etdiniz?

Şeyx belə cavab verdi:

– İnsanlar çox çalışsalar, əsab-əziyyətə qatlaşsalar, sən dediyin məsələlərin fəsadların aradan qaldıra bilərlər. Ancaq yalan insanlar arasında geniş yayılsa, bir vərdiş halın alsa, onda ölkə içəridən dağılar, insanların bir-birinə inamları itər, bununla da cəmiyyətdə görünməmiş fəsadlar insanlara fəlakət gətirər.

## SEVDİYİNƏ GÜZƏŞTƏ GETMƏ

İraq ölkəsində bir görkəmli, dərin bilikli, oxuduğu kitabların sayı-hesabı bilinməyən, bir neçə xarici ölkədə dərs almış dahi bir şəxs yaşayırdı. Tarixi, astronomiyanı, filologiyanı, fəlsəfəni, nücum və fiqhi dərindən öyrənmişdi. Məktəbdarlıq işləri ilə məşğul olur, onların kamil insan kimi formalaşmasına çalışırdı. Bu elm nurundan bəhrələnmiş şəxs həftənin bir gününü «Məsləhət günü» elan etmişdi. Bu bir gündə yaxınlardan, uzaqlardan xeyli insan onun qəbuluna gələr, onun məsləhətlərindən bəhrələnərdilər. Həm də məsləhətə gələn insanlardan heç bir təmənna ummaz, pul da almazdı. Xeyli uzaqda yaşayan, həm də kitab, elm, öyrənmək aşiqi olan başqa bir insan da bu alimin sorağın eşitmişdi. Ancaq xeyli uzaqda yaşadığına, maddi durumu da yaxşı olmadığına görə «Məsləhət günü»ndə gəlib iştirak edə bilmirdi. Ona görə bu xeyirxah, insanların dərdinə çarə etməyə çalışan, heç kimdən dəyərli məsləhətlərini əsirgəməyən böyük alimə bir məktub yazdı. Məktubda elminə, zəkasına, dərin ağıl, kamal sahibi olmasına görə ona minnətdarlıq etmiş, Allah-taaladan ona xoşbəxt həyat arzulamışdı.

Son olaraq məktubunda belə bir cümlə də yazmışdı: «Çox xahirş edirəm ki, məktubuma yazacağınız cavabda mənə bir nəsihət də yazasınız».

Bir müddət sonra məktubuna cavab aldı. O görkəmli alim nəsihət olaraq aşağıdakı fikri yazmışdı: «Ən çox sevdiyinizə güzəştə getməyin, ona qarşı sərt olun, sizi üstələməsinə imkan verməyin».

Məktubu alan şəxs əvvəl çox sevindi, ancaq ona yazılan nəsihəti oxuyanda qanı qaraldı. Öz-özünə dodaqaltı pıçıldadı: «Bu necə nəsihətdi ki, adı şöhrət zirvəsində dayanan alim mənə yazıb. Mənim sevimli həyat yoldaşım mənim yolumda hər cür cəfaya dözər, mən də onun yolunda nəyi bacararamsa, onu etməyə hazıram». Bir-iki yaxın adamına da məktubu oxutdu. Ancaq onlar da bir mətləb anlaya bilmədilər. Kişi hazırlıq gördü, alimlə görüşmək, yazdığı hikmətin mənasın anlamaq üçün yola düşdü. Nəhayət, çox çətinliklə gəlib alim

yaşayan yerə çatdı və onunla çox mehriban, səmimi görüşdü. Axırda alimin yazdığı hikməti açıqlamasını xahiş etdi. Əlavə də qeyd elədi ki, mənim sevimlim olan xanımım mənim yolumda həyatını da qurban verməyə hazırdır. Gülümsəyən alim dilləndi: «Nəsihəti düzgün dərk edə bilməmisən. Bütün insanların ən sevimlisi onun nəfsidir. Nəfsin qulu olan, nəfsə güzəştə gedən insanı həmişə fəlakət gözləyər. Həyatda nəyə güzəştə getsən, o, sənə dost olar, ancaq nəfsə güzəştə getsən, sənə düşmən olar».

## ÜMİDİ İTİRMƏMİSƏN

Üç kişi təxminən 50–55 yaşlarında idilər. Birdən-birə xəstələndilər. Üçü də eyni vaxtda laborator həkimin qəbulunda oldular. Onların üçünü də eyni həkim yoxlayıb, analiz verməyə göndərmişdi. Üç gündən sonra analizin cavabın alıb müalicə həkiminin qəbuluna getdilər. Həkim hər üçünün analizinin cavabına narazı halda başını bulayıb dedi:

– Mən başqa həkimlərdən fərqli olaraq hər şeyi açıq, olduğu kimi danışan adamam. Analiz cavablarınızdan görünür ki, üçünüzün də xəstəliyi sağalmaz xəstəlikdir. Ömrünüzün bitməsinə az qalıb. Heç olmasa bu müddətdə gedin əylənin, gəzin, istirahət edin.

Bundan sonra üzünü birinci xəstəyə tutdu:

– Bu müddətdə nə işlə məşğul olacaqsan?

Xəstə cavab verdi:

– Keçən illər ərzində başım iş-gücə o qədər qarışıb ki, ailə üzvlərimizlə bir yerdə nə doyunca istirahət edə bilmişik, nə də söhbət. Bir dəfə də olsun birlikdə gəzintiyə çıxmamışıq. Qalan qısa müddətdə gedib buraxdığım nöqsanları düzəltməyə çalışacağam.

Sonra həkim ikinci xəstədən soruşdu:

– Sən neyləmək fikrindəsən?

– Mən ticarət adamı olduğuma görə çox vaxt günüm yad yerlərdə keçib. Ailəmizin üzvləri ilə, qohum-qəbilə ilə oturub bir doyunca danışmamışam. Onların dərd-səri ilə maraqlan-

mamışam. Allah-təala mənə xeyli var-dövlət qismət eləyib. Ancaq bu günə qədər bir yetim-yesirə, kasıb-kusuba əl tutmamışam. İstəyirəm ömrümün qalan günlərini buraxdığım səhvlərin düzəlməsinə sərf edəm. Günlərimi ailəmizlə, qohumlarımla birlikdə keçirəm, yetim-yesirə, kasıb-kusuba əl tutam. Dünyadan köçəndə də elədiyim bu xeyirxah işlərlə təsəlli taparam.

Həkim üçüncü xəstənin fikrin soruşdu.

Üçüncü cavab verdi:

– Mən hələ ümidimi itirməmişəm, ümid işığı məni yaşadacaq. Mənim fikrim həkimi dəyişməkdir.

Xəstələrindən bu sözləri eşidən həkim gülümsünərək dedi:

– Mən bu vəziyyətdə özünüzü necə aparacağınızı yoxlamaq istəyirdim. Mən sizi yoxlamaq üçün dedim ki, ağır xəstəliyə düçar olmusunuz. Əslində heç biriniz xəstə deyilsiniz. Əvvəl danışan ikiniz həyatınızda buraxdığınız səhvləri etiraf etdiniz. Qısa müddətdə səhvlərinizi düzəltməyə çalışacağınızı bildirdiniz. Buna görə də sağ olun! Ancaq hər bir insan övladı ömürboyu elə yaşamalıdır ki, dünyadan xəcalət, əliboş köçməsin.

Üçüncü yoldaşınız daha çox xoşuma gəldi. O, möhkəm iradəsi ilə ümid işığına üz tutdu. Sizdən üstün, iradə, dözüm sahibi olmasını sübut elədi. Eşq olsun həyat eşqi ilə çarpışan belə səbatlı insanlara!

## KƏRİM XAN ZƏNDİN ALDIĞI CAVAB

Kərim xan Zəndin İranda hakimiyyəti dövrü idi. Səhər yenicə açılmışdı. Bir nəfər hay-harayla saraya girməyə çalışırdı. Gözətçi əsgərlər də onu içəri buraxmaq istəmirdilər. Səsə Kərim xan Zənd bayıra çıxdı. Əsgərlərə göstəriş verdi ki, o şəxsi saraya buraxsınlar.

Saraya daxil olan həmin kişiyə Kərim xan Zənd üz tutdu:

– Nə olub, niyə belə hay-haray salmısan?

– Gecə oğrular evimə daxil olub, bütün var-yoxumu oğurlayıb aparıblar.

– Bəs sən hardaydın ki, oğrular da sənin var-dövlətini oğurlayıblar?

– Mən yatmışdım

– Niyə yatırdın ki, oğrular da bu oyunu çıxardalar?

Bu sözlərdən şikayətçi bir az susdu. Ancaq sonda dedi:

– Mən elə bilirdim ki, siz oyaqsınız, ona görə yatmışdım. Yoxsa yatmazdım.

Bu sözlərdən xan bərk tutuldu. Ancaq sonra göstəriş verdi ki, kişinin oğurlanan var-dövlətinin əvəzin xəzinədən ödəsinlər.

Sonralar bu kişinin Kərim xan Zəndə verdiyi cavab dillərə düşdü, xalq arasında zərbi-məsəl kimi işlənməyə başladı.

Doğrudan da, belədir. Hökmdarı, dövlət məmurları ayıq olan, qanun-qaydaya əməl edilən ölkədə oğurluq da olmaz, əmin-amanlıq hökm sürər.

## XEYİRXAH İNSANIN QƏRARI

Bir əyalətdə halallığı, xeyirxahlığı ilə tanınan imanlı bir şəxs yaşayırdı. O, gözəl bağban, hər bir ağacın dilini bilən əmək adamı idi. Bir-birinin yaxınlığında, ayrı-ayrı yerlərdə iki bağ əmələ gətirmişdi. Çəkdiyi zəhmət hədər getmirdi. Ailəni əsasən bağın gəliri ilə dolandırırdı. Kişinin üç oğlu vardı. İllər arxada qalmış, bu imanlı kişi də qocalmışdı. Bağın meyvəsindən qonum-qonşuya, kasıb-kusuba həmişə pay verərdi. Ancaq bu halal insan görürdü ki, oğlanları torpağa bağlı adam deyillər. Ticarətə, sənətkarlığa meyillidilər. Fikirləşirdi ki, nə edim ki, öləndən sonra da adım yaddaşlarda qalsın. Buna görə də belə bir qərar verdi. Nisbətən aralı olan bağın kənarındakı ağaca bir yazılı lövhə vururdu. Lövhədə yazılmışdı: «Ehsan bağı». Ömrünün son illərində meyvələr yetişəndə aşağı təbəqənin insanları «Ehsan bağı»nın yanına gələr, bu xeyirxah insanın göstərişi ilə bağın meyvəsin yığıb aparırdılar, bağı əkən adama dua-səna edərdilər. Atalarının bu hərəkəti oğlanlarının xoşuna gəlməzdi. Ancaq atalarının qabağında bir söz də deməzdilər.

Əyyam dolandı, bu himmətli kişi qəfildən dünyasını dəyişdi. Bağda meyvələrin yetişən vaxtı idi. Atanın yas mərasimi qurtarandan sonra oğlanları qərara aldılar ki, atalarından

yadigar qalan «Ehsan bağı»nın meyvəsini daha heç kimə verməsinlər, aparıb bazarda satsınlar. Bu qərarı axşam qəbul etmişdilər. Səhər açılan kimi meyvə yığımına «Ehsan bağı»ndan başlayacaqdılar.

Böyük oğlan gecə bir yuxu gördü. Yuxuda gördü ki, həmin bağa göydən bir parça od düşdü, o oddan «Ehsan bağı» alışmağa başladı. Ataları da kənarda dayanıb narazı baxışlarla oğlanlarına tamaşa edirdi.

Yuxunun zəhmi oğlanı çox qorxutmuş, bərk tərləmişdi. Yerindən hövlanak qalxdı, ətrafa boylandı. Ancaq nə atasını, nə də bağı görə bildi. Qardaşlarını yanına çağırdı, gördüyü yuxunu onlara da danışdı. Belə qərara gəldilər ki, atalarının qəbul etdiyi qərarı pozmasınlar, atalarının ruhu onlardan inciməsin. Həmin bağın meyvəsini yenə ehsan olaraq kasıb-kusuba paylasınlar.

## ÜZÜNÜ TANRIYA ÇEVİRMƏK

Bir ustad müəllim böyük pedaqoji ustalığı, şagirdlərinə verdiyi gözəl təlim-tərbiyə üsullarına görə şöhrət və hörmət sahibi olmuşdu. Şagirdlərinə təlqin etdiyi mənəvi tərbiyəni, əxlaq, insanlıq məsələlərini Tanrı adı ilə bağladı. İstəyərdi ki, şagirdləri də Tanrı yolundan kənara çıxmasınlar.

Bir gün yenə şagirdlərinə kamillik dərəcəsinə çatmağın yollarından, Tanrının insanlar üçün vacib bildiyi yol-ərkandan danışırdı. Şagirdlərindən biri icazə alıb söz istədi və dedi:

– Ey hörmətli müəllim, siz söhbətlərinizin çoxunda bizə Tanrı ucalığından, Tanrının buyurduqlarının fəzilətlərindən söhbət açırsınız. Bizi də bu yolu səsləyirsiniz. İstərdim ki, Tanrını mənə göstərəsiniz. Mən Tanrını görməyincə onun bizlərə buyurduğu hikmətləri qəbul edə bilmərəm.

Müəllim bir az fikrə getdi. Sonra sinfin arxa divarının dibinə addımladı. Ordan həmin şagirdinə dedi:

– Məni görürsənmi?

– Xeyr, mən sizi görmürəm. Sizi necə görə bilərəm? Axı, siz mənim arxamdasınız.

Müəllim cavab verdi:

– Bəli, oğlum, necə ki, sən Allaha tərəf üz çevirməmisən, Allahı da görə bilməyəcəksən. İlahinin buyurduqlarını da qəlbən qəbul etməyə səbrin və qüvvən çatmayacaq.

## ATA UCALIĞI

Bir ölkədə əməkçi, halallığı ilə seçilən xeyirxah, imanlı bir kişi yaşayırdı. Bu kişi həyat yoldaşı ilə birlikdə dörd oğul böyütmüşdü. Son illərdə bu cəfakeş kişinin həyat yoldaşı dünyadan qəfil köç etdi. Bundan sonra kişi yenidən evlənmədi. Uşaqları təkbaşına böyütdü. İllər arxada qalmışdı. Artıq, qocalığın dərdisəri kişini yaxalamışdı. Təklikdə özü-özünü idarə edə bilmirdi.

Bir gün böyük oğul qardaşların atası yaşayan evə çağırdı. Onlara dedi:

– Bu gündən atamı mən aparıb saxlayacağam. Bunun əvəzində onun var-dövlətinin hamısı sizə qalacaq. Nə deyirsiniz, razısınızmı?

Üç qardaş fikirləşdi ki, yəqin böyük qardaşımızın ağlı çaşıb. Ona görə də üçü də belə bölgüyə razılıqlarını bildirdi.

Böyük qardaş qoca atasını evlərinə apardı. Arvadı ilə birlikdə ataya çox gözəl qayğı göstərməyə başladılar. Kişi oğlundan da, gəlinindən də çox razı idi. Həmişə onlara duasəna edirdi.

Nəhayət, pirani ata da bir gün bu fani dünya ilə vidalaşdı. Böyük oğlu təntənəli yas mərasimi keçirdi, yas başa çatdı.

Böyük oğul bir gün yuxuda atasının nurani simasın gördü. Ata yuxuda ona dedi:

– Qəbiristanlıqda yuxarı tərəfdəki qəbirin yaxınlığındakı yastı daşın altında iyirmi tümən pul var. Ancaq gedib götürmə, əlindən tez oynayıb çıxacaq.

Oğlan nişan verilən yerə getmədi. Səhər yenə yuxu gördü. Bu dəfə də ata yenə dedi:

– Dediyim daşın yanındakı yumru daşın da altında iyirmi tümən pul var. Ancaq bərəkəti olmayan puldu. Götürsən də xeyir görməzsən.

Oğlan üçüncü gecə də yuxu gördü. Yuxuda ata yenə dedi:

– Həmin yastı daşın aşağı küncündə bir tümən pul var. Get onu götür, sənə xeyiri olar.

Oğlan səhər həmin yerə getdi, bir tümən pulu tapdı. Bu bir tümənə bir balıq aldı. Balığın qarnın yırtanda oradan iki ədəd dünyanın ən qiymətli ləli çıxdı. Aparıb onları hökmdara verdi. Bunun əvəzində hökmdar ona xeyli qızıl verdi. Həmin gündən bu oğlan ən varlı, xoşbəxt yaşayan insanlardan biri oldu. Həm də xeyirxahlıqda, kasıb-kusuba əl tutmaqda atasının yolunu davam etdirdi. Tanrının sevimli bəndələrindən biri oldu.

## ALLAHIMIZ BAĞIŞLAYANDIR

Bir həbəşistanlı çox günahlar, qəbih hərəkətlər etmişdi. Artıq yaşlaşırdı. Fikirləşdi ki, elədiyim bəd əməllərin, günahların bataqlığında boğulub öləcəyəm. Gedim Allah Rəsulundan dərdimə dava istəyim. Həmin şəxs gəlib Rəsulullahı tapdı. Dərdini söylədi, dərdlərinə çarə istədi.

Peyğəmbər (s) buyurdu:

– Tövbə qapısı həmişə açıqdır. Sidq ürəklə tövbə etsən, yenidən günah çirkabına batmasan, Allahımız səni bağışlayar. Axirət dünyasına üzüağ gedə bilərsən.

Kişinin üzünə təbəssüm qondu. Peyğəmbərin (s) ətəyindən, əllərindən öpdü. Durub əvvəl evlərinə yollandı. Yenidən yuyundu, xahiş-minnətlə qonşuda yaşayan din xadimini evlərinə dəvət etdi. Allahın Rəsulu ilə etdiyi söhbəti ona da danışdı və tövbə etmək istədiyini bildirdi. Din xadimi də dilləndi:

– Bəzi insanlar «tövbə» edəndən sonra nəfslərinə qalib gələ bilmir, «tövbə»ni pozurlar. İlahi dərgahında böyük günah sahibi olurlar. Əgər sən də belə edəcəksənsə, «Qurana» əl basmağın sənə «fəlakət» gətirər və mənim üçün də ağır anlar olar.

Kişi yenidən and-aman elədi, sözündə qəti olduğunu bildirdi və «Quran»a əl basdı.

Üzünü din xadiminə tutdu:

– Əgər bizi Yaradan bu qədər mərhəmətlidirsə, bu bəndə kimdir ki, bundan sonra səhv yola ayaq ata?!

## DİOGENİN CAVABI

Qədim Yunanıstan olimpiya oyunlarının vətəni olmuşdur. İlk olimpiya oyunları Olimp dağının ətəyində yerləşən Olimp şəhərində keçirilmişdir. Maraqlıdır ki, məşhur riyaziyyatçı alim Pifaqor da olimpiya yarışlarında iştirak etmiş, yumruq döyüşündə qalib olmuşdur.

Rəvayətə görə, Yunanıstanın məşhur alimlərindən olan filosof Diogen də gedib olimpiya oyunlarında bir tamaşaçı kimi iştirak edirmiş. Ölkə hökmdarının göstərişi ilə olimpiya oyunlarının açılışını rəmzi mənada bildirən lenti Diogen kəsirmiş. Bir dəfə də yarışların sonunda yarışların qalibi kimi ilk çələngi Diogenin başına qoyurlar. Hamı bu görkəmli şəxslə yaxın olmaq, ondan bir söz eşitmək arzusu ilə onunla söhbət etməyə çalışırdı. Diogenin başında qalib çələngini görən bir nadan ona yaxınlaşıb deyir:

– Siz cansız-cüssəsiz bir adamsınız. Bəs bu qalib çələngini necə qazandınız? Hansı idman növündə qalib gəlmisiniz?

Diogen bu nadana belə cavab verir:

– Ən böyük qalib mənəm. Çünki mən ən yırtıcı düşmən olan nəfsə qalib gəlmişəm. Nəfsə qalib gəlmək hər insanın işi deyil.

## ATA VƏ OĞULLARI

Bir atanın dörd oğlu vardı. Özü də bağçılıq, əkinçiliklə məşğul olurdu. El arasında deyildiyi kimi: «Çörəyi torpaqdan çıxırdı». O, çöldə olan torpaq sahəsinin yanında olan bulağın başına bir armud ağacı əkmişdi. Buralardan keçənlər həm bu sərin suyu olan bulağı qazıb aşkar edənə, həm də bulağın başına kölgə salan, dadlı meyvələr yetirən armud ağacını əkənə rəhmət oxuyar, dua-səna edərdilər».

Bu əməkçi kişi yaşa dolmuşdu. Bir qış çöldə əkdiyi armud ağacı yadına düşdü. Oğlunun birinə dedi:

– Get, çöldə əkdiyim armud ağacından mənə bir xəbər gətir.

Oğlu deyilənə əməl etdi. Qayıdanda atasına dedi:

– Çox çirkin ağacdı. Elə bil o da qocalıb. Ona baxanda adamın ürəyi qısılır.

Ata yazda o bici oğlun göndərdi ki, armud ağacından bir xəbər gətirsin.

Oğul geri qayıdanda atasına dedi:

– Məndən əvvəl ora gedən qardaşım səhv deyib. Ağac elə gözəlləşib, yaşıllaşıb ki, gəl görəsən. Çiçəklərinin qoxusu adamı bihuş edir.

Üçüncü oğlunu ata yayda armud ağacı olan yerə göndərdi.

Geri qayıdanda bu oğul ataya dedi:

– Armud ağacının budaqları bir az da böyüyüb. Budaqlarından, dadlı, şirəli meyvələr sallanıb. Adamı heyran edir.

Payızda ata dördüncü oğlun o yerə göndərir. Bu oğul da geri dönəndə atasının hüzuruna gəlir və deyir:

– Armudun vəziyyəti qardaşlarım deyən kimi deyil. Yarpaqlarında müxtəlif rənglər duyulur. Demək olar ki, hər bir rəngin çaları yarpaqlarda görünür.

Ata oğlanlarının dördün də yanına çağırıb dedi:

– Qardaşlarınızın heç biri yalan danışmayıb. Hər biriniz fəslə uyğun olaraq ağacı düzgün təsvir etdiniz. Bilməlisiniz ki, fəsillərin hər biri insan həyatında da özünü göstərir. Buna görə də insan çətinliklərlə–qarlı qışla rastlaşanda ümidsizliyə qapılmamalı, güllü-çiçəkli baharın onun həyatında nə vaxtsa özünü göstərəcəyinə inanmalıdır.

Allah-Taaladan istəyim budur ki, ümid işığnı heç vaxt itirməyəsiniz. Ümidsiz yaşamaq–yaşamamaq deməkdir.

## SƏNƏ ÜRƏK VERİLİB

Bir nəfər taxılı–qış rüzusunu dəyirmanda üyütdürməzdən əvvəl kiçik çayda yudurtmuş, sonra quruması üçün xərmən yerinə palazın, çadırın üstə sərmişdi ki, qurusun. Dəni bu kişi quşlardan qorumaq üçün bir insan müqəvvası düzəlmişdi. Bu müqəvvanın içərisinə saman doldurmuşdu. Kənardan baxanda elə bilirdin ki, insandır, sərilən taxıla keşik çəkir. Müqəvva elə düzəldilmişdi ki, xəfif küləkdən də yerindən tərpəşir, quşları qovurdu. Təsadüfən burdan keçən bir şəxs sahibkarın bir qurğusuna mat qaldı. Üzünü müqəvvaya tutub dedi:

– Boynuna qoyulan vəzifəni icra edə bilirsənmi? Gördüyün işdən zövq alırsanmı?

Gülümsəyən müqəvva dedi:

– Quşları qorxuzub qovduğuma görə işimdən ləzzət alıram.

Həmin şəxs cavabında:

– Elə mən də adamları qorxuzanda bu işimdən ləzzət alıram, – dedi

Müqəvva dedi:

– Sən mənə baxma. Mənim içimə saman doldurublar. Amma sənin içərində ürək döyünür və döyünməsi ilə səni yaşadır. Sən insanları qorxuzmaqdan deyil, onlara etdiyin yaxşılıqlardan, xeyirxah əməllərindən zövq almağı, xoşlanmalısan. Ürəyi döyünən hər bir insanın müqəddəs işi yaxşılıq və xeyirxahlıq olmalıdır.

## PAK İMAM SAHİBİ OLMAQ

Müsəlman ölkələrindən birində təmizəqidəli, sözü ilə əməli bir olan iman sahibi şeyx yaşayırdı. O, islam dininin düzgün istiqamətdə təbliğinə var gücü ilə çalışır, insanları da iman sahibi kimi görmək istəyirdi.

Bir dəfə bu pak iman sahibinin yanına bir şəxs gəldi. Həmin şəxs salam-kəlamdan sonra gətirdiyi bir qədər pulu ortaya qoyub dedi:

– Bu pulu gətirmişəm ki, siz bu pulun imam yolunda sərf edilməsini təşkil edəsiniz.

Şeyx soruşdu:

– Nə peşənin sahibisiniz?

– Çörəkçiyəm. Ailənin dolanışığı çörəkçilikdən çıxır. Şükürlər olsun ki, qazancım da yaxşı olur.

– Sənin çörək dükanının yaxınlığında başqa çörək dükanı da varmı?

– Xeyr, yoxdur

– Sən razı olarsanmı ki, başqa bir şəxs də sənin çörək dükanının yaxınlığında çörəkçiliklə məşğul olsun, çörək dükanı işlətsin?

– Yox, heç vaxt mən buna razı olmaram. Yol verməərəm ki, mənim dükanımın yaxınlığında kimsə bu işlə məşğul olsun.

Bu kişi əvvəldən də qeyd eləmişdi ki, mən iman sahibi olduğuma, imama sidq ürəkdən inandığıma görə bu pulu gətirmişəm. Şeyx bir neçə sorğu-sualdan sonra dedi:

– Sən pak iman sahibi deyilsən. Sənin rüzunun Allah tərəfindən verildiyinə inanmırsan. Ona görə də sənin pulun İmama lazım deyil, götür pulunu apar. Pak iman sahibi sənin kimi hərəkət etməz. Bilməlisən ki, hər birimizin rüzusunu verən Allahımızdır. Ona da güvənmək lazımdır.

**BAKIXANOV DÜNYASINDAN**

Görkəmli Azərbaycan mütəfəkkiri Abbasqulu Bakıxanov dərin zəkası, istedadı, əhatəli yaradıcılığı ilə ədəbiyyat tariximizdə özünü təsdiq edən, həm də tarixşünaslığın əsasını qoyan sənətkarlardan biri olmuşdur. O, həm də hazırcavablığı ilə fərqlənmişdir. Tarixşünaslığımızın əsası sayılan «Gülüstani-İrəm» əsəri ona böyük uğur qazandırmışdır. Bakıxanov istefaya çıxmaq üçün Peterburqa səfər edən zaman bir çox şəxsiyyətlərlə, Puşkinin və çar Nikolayevin ailəsi ilə də yaxından tanış olmuş, onun şəninə verilən ziyafətlərdə iştirak etmişdi. Bakıxanov əsl müsəlman kimi ömürboyu dilinə içki vurmamışdı. Çarın verdiyi ziyafətdə iştirak edərkən çarın xanımı şərab dolu badəni öz əliylə Bakıxanova vermiş və demişdir:

– Bu badəni mənim sağlığıma içməlisiniz

Çarəsiz qalan Bakıxanov badəni xanımın əlindən almış, ona dərin minnətdarlığını bildirmişdi. Ayağa duraraq, badə əlində üzünü çarın xanımına tutaraq demişdir:

– Mən müsəlmanam, indiyə qədər dilimi şəraba vurmamışam. İndi mənim Allahım deyir ki, şərab içməməlisən, sizin kimi xanım da deyir ki, mənim sağlığıma içməlisiniz. Qoy çar həzrətləri desin: «Böyük Allahımızın dediyinə əməl edim, ya da sizin dediyinizə».

Bu sözləri eşidən çar Bakıxanovun iman sahibi olmasın təqdir edir və deyir:

– Əlbəttə, böyük Allahımızın dediyinə əməl etməlisiniz.

## MAKEDONİYALI İSGƏNDƏR VƏ DİOGEN

Makedoniyalı İsgəndər böyük fateh və elm hamisi kimi tanınandan sonra da müəllimi Aristotel və görkəmli filosof Diogenlə məsləhətləşməyi, onlarla söhbət etməyi xoşlardı. Bir dəfə yenə Diogenin hüzuruna gəldi. Onu sorğu-suala tutdu, xeyirxah məsləhətlərinə qulaq asdı. Axırda Diogen dedi:

– Bir çox ölkələri fəth etmisən. Yenə hərbi hazırlığa başlamısan, de görək növbəti səfərin hara olacaq?

– Güman ki, Yunanıstan olacaq?

– Yunanıstandan sonra hansı yerləri fəth etmək istərdin?

– Kiçik və Ön Asiyanı

– Bundan sonra hansı ölkələri fəth etmək istərdin?

– Bütün dünyanı.

– Sonra nə edəcəksən?

– Oturub dincələcəyəm, istirahət edəcəyəm. Günlərimi əyləncələrdə keçirəcəyəm.

– Dediklərini indi də edə bilərsən. Sənə nə mane olur ki, indinin özündə arın-arxayın istirahət edə bilməyəsən?

– Şöhrət azarı!

Bu sözdən sonra heç biri bir kəlmə də danışmadı. Sağollaşıb ayrıldılar.

## BOYUNA XAM İP TUTMAQ

«Boyuna xam ip ölçüm» ifadəsi məişətdə, adi həyatda danışıq prosesində əsasən mənfi mənada işlənən ifadələrdəndir. Xüsusilə bir nəfərin başqa birisi ilə arası olmayanda, o şəxs lazımsız, yersiz, düşünülməmiş hərəkət edəndə, ağzının qıfılın itirib hərzə-hərzə danışanda işlədilir. Əsasən qarğış mənası bildirir. Əslində bu ifadənin işlənmə yeri lap qədimlərə gedib çıxır. O vaxtlar dünyasın dəyişən hər hansı bir şəxsin kəfənini ölçüb-biçmək üçün indiki kimi müxtəlif iplər, ölçü vahidi olan metr yox idi. Metr ölçüsünü insan qolunun bir hissəsindən buruna qədər olan hissəsinin ölçüsün bildirən arşın əvəz edirdi. Kəfən ölçülüb-biçiləndə isə çox vaxt cəh-

rədə birinci dəfə əyrilən xam ipdən istifadə edirdilər. Bu ip keçi qəzilindən, yaxud qoyun yunundan əyrilirdi. Deməli, insanın kəfənin xam iplə ölçürmüşlər. Qarğış mənası bildirən bu ifadə insanın ölümü ilə bağlı olmuşdur. Bu gün də olduğu kimi işlənir. Bu ifadəni işlədən şəxs münasibəti yaxşı olmayan başqa bir insana ölüm arzulayır. Bu ifadə klassik ədəbiyyatda daha çox işlənib.

## XEYRİ OLMAYAN SÖZÜ SÖYLƏMƏ

Ara vuran, bundan ona, ondan buna söz gəzdirməyi özünə peşə edən bir şəxs qonşusuna yaxınlaşıb dedi:

– Özümə borc bildim ki, özünü sizə dost kimi göstərən insanın sənin haqda danışdıqlarını sənə çatdıram.

Qonşusunun hansı simə vuracağını anlayan qonşu onun sözün yarımçıq kəsib dedi:

– De görüm, mənə deyəcəyin xəbərin mənə bir faydası olacaqmı?

– Xeyr.

– Dediyin söz mənim əhvalımı yaxşılaşdıracaqmı?

– Xeyr.

– Dediyin söz insanlar arasında dostluq körpüsü yaradacaqmı?

– Xeyr.

Bu kiçik sorğu-sualdan sonra qonşu kişi ara vurmağı, xəbərçiliklə məşğul olmağı sevən qonşusuna üz tutdu:

– Əgər sənin deyəcəyin sözlərin mənə bir faydası olmayacaqsa, əhvalımı yaxşılaşdırmayacaqsa, dostluq körpüsünü uçuracaqsa, susmağın, ürəyində saxlamağın daha yaxşıdır.

Dahi Nizami Gəncəvi demiş:

*Pis sözü ağzına alınca insan*
*Qəlbində öldürsə yaxşıdır inan.*
*Bu dünya dolanıb döndükcə rüzgar,*
*Qoy səndən yaxşı söz qalsın yadigar.*



## PADŞAHIN SORĞUSU

Şərq ölkələrindən birində hökmdarlıq edən bir əhli-hal padşah yaşayırdı. Bu padşah həm də söz sərrafı, söz xridarı idi. Əhli-ürfan sahiblərinə rəğbət bəslər, onların məqamını həmişə uca tutardı. Ətrafında olan əyan-əşrəfi də hikmət dünyasının sirlərinə agah olmağa yönəltməyə çalışardı. Bir gün yenə əyan-əşrəfi ətrafına yığıb onlarla müxtəlif sahələrə aid sual-cavab aparırdı. Sonda üzünü vəzir, vəkil, bir də bu sarayın arif şəxslərindən sayılan şairə üz tutaraq dedi:

– Bir düşündürücü əhvalat danışacağam. Danışacağım məsəldəki hikməti kim doğru tapsa, o şəxs mükafatlandırılacaq.

Əhvalat belədir:

– Bir cavan, həm də imkanlı kişi evlənmək, düşüncələrinə uyğun qadına sahib olmaq istəyirdi. Çox müşahidə aparandan sonra üç cavan qadın xoşuna gəldiı. Ancaq bu üç qadından ən uyğun olanını seçməkdə tərəddüd edirdi. Ona görə də onların hər biri ilə ayrılıqda görüşdü və o dövrün qiymətli pulu sayılan puldan hər qadına beş yüz dinar verdi. Qadınların üçü də bir yerdə olanda bu işi icra etdi. Onlara dedi:

– Hər üçünüzə eyni miqdarda pul vermişəm. Necə istifadə etməyin seçimi sizin olacaq. Üç aydan sonra mən nəticəni öyrənəndən sonra hansınızla evlənmək istədiyimi də bildirəcəyəm. Qadınlar evlərinə yollandı. Biri bu beş yüz dinarı ancaq özünün bər-bəzəyinə sərf elədi. Biri pulları ancaq bu cavan kişiyə qiymətli pal-paltar almağa xərclədi.

Üçüncüsü isə aparıb xeyirli bir işə qoydu ki, üstünə əlavə faiz gəlsin. Bəlkə, bununla kişinin ürəyini fəth edə bilə.

Üç ay tamam oldu. Bu kişi qadının üçü ilə də birlikdə görüşdü. Hər bir qadın pulları hara sərf etdiyini söylədi.

– Vəzir, de görək bu kişi hansı qadınla evlənmək qərarını verəcək.

Bir xeyli düşünən vəzir cavab verdi:

– Məncə, pulu xeyirli işə qoyan qadını seçər. Çünki belə qadınlar yığımcıl, evcanlı olarlar.

Sonra padşah:

– Vəkil, sən fikrini de görək?

– Elə bilirəm verilən pula o kişiyə qiymətli əyin-baş alan qadını seçər. Çünki əvvəldən belə başlayan qadın gələcəkdə də ərinə diqqət, qayğı göstərən olar.

Padşah bu dəfə üzünü şairə tutdu:

– Sənin fikrin daha maraqlı olar. Kişi hansı qadını seçəcək?

Şair cavab verdi:

– Mən vəzir-vəkilin cavablarına hörmətlə yanaşıram. Ancaq mənim düşüncəmlə pulu özünə bər-bəzəyə sərf edən qadını seçəcək. Çünki bu qadın kişiyə daha çox xoş gəlmək üçün, ona sahib olmaq üçün belə hərəkət etmişdi.

Ətrafındakılardan da hərə bir cür izah etdi. Şairin sözünə qüvvət verən az oldu. Axırda padşah şairin cavabının daha uyğun olduğunu bildirdi və təyin edilən mükafatı şairə təqdim etdi.

## SÖZÜN QÜDRƏTDƏN DÜŞMƏSİ

Ölkələrdən birində çox bilikli, dərin zəkalı söz sahibi yaşayırdı. Onun ibrətamiz fikirləri, dürr saçan kəlamları eldən-elə yayılmışdı. O, iştirak etdiyi məclislərdə hamı susar, ancaq ona qulaq asar, bu qiymətli incilərdən ibrət götürərdilər. Bu aqil şəxs qiymətli kəlamları ilə bir çox yolunu azanı düz yola qaytarmışdı.

Bir dəfə bu aqil şəxs ustadlıq etdiyi beş şagirdi ilə bu şəhərdən keçən karvan qəfiləsinə qoşulub, uzaq bir səfərə yön aldı. Qoşulduqları karvanda bir nəfər öz davranışı, ağzından çıxardığı insanlığa yaraşmayan sözlərlə bütün karvan əhlini boğaza yığmışdı. Bu insan nifrəti, qəzəbi, kin-küdrəti ilə sanki insanlığa düşmən kəsilmişdi.

Vəziyyəti belə görən bu aqil söz sahibi ona çox nəsihətlər etdi, qəlbindən insanlara olan kin-küdrəti, nifrəti çıxarmağa çalışdı. Hətta gecələr bu zavallı insanı yanında saxladı ki. bəlkə, bir nəticəsi ola. Ancaq qoz kümbəzə dəyib, aşağı yuvarlandığı kimi, bu aqil insanın sözləri də kişinin başına dəyib, aşağı yuvarlanırdı.

Yolun bir yarısında bu aqil şəxs beş şagirdi ilə karvandan ayrılmalı oldu. Onların yolu başqa istiqamətdə idi. Karvan adamları ilə hal-hümbət edib ayrılanda bu aqil şəxs karvanın arxasınca bir xeyli baxdı. Sonra isə hönkür-hönkür ağlamağa başladı. Şagirdləri tez ustadlarını dövrəyə aldılar, belə şiddətli ağlamağının səbəbini soruşdular. Bu əhli-ürfan sahibi göz yaşlarını silib, qəmli-qəmli dilləndi:

– O karvan əhli bizdən ayrıldı. Ancaq o zavallı insanın qəlbinə hopmuş pislikdən, naqislikdən yoğrulmuş düşüncələr ondan ayrılmadı. Görünür, qocalmışam, sözlərim əvvəlki kəsərini, qiymətini itirib. Mən buna görə ağlayıram. Nadanın nadanlığını başa düşə bilməməsi, əhli-ürfan sahibinin belələrini islah edə bilməməsi, doğru yola yönəldə bilməməsi insan cəmiyyətində böyük fəlakətlər törədə bilər.

## BU YAXŞILIĞI ÖZÜMƏ EDİRƏM

Bir şəhərdə bir ailə yaşayırdı. Ailənin təməli olan qoca baba xəstəlik və qocalıq girdabında çabalayırdı. Qarısı öləndən sonra bir vaxtlar bir sözü iki ola bilməyən kişinin əhvalı lap pisləşmişdi. Gəlinin mırt-mırtı, oğlunun tənəli sözləri babaya çəkdiyi ağrılardan daha çox təsir edirdi. Ağrıları da kəsmək bilmirdi.

Axır ki, oğlu arvadının hökmü ilə bir gecə atasını aparıb uzaq bir yerdə yol kənarına qoydu. Zavallı baba oğluna bir söz demədi. Razıydı ki, onu burada qurd-quş yesin, gəlinindən və oğlundan tənələr eşitməsin.

Oğlu geri dönəndən sonra balanın ağrıları daha da artmışdı. Daha səsini içində boğa bilmədi. Hay-harayına yoldan keçən adamlar yaxınlaşdılar. Onlardan biri atasını bura gətirib qoyan oğlanı görmüşdü. Yolçuların heç biri qocaya yaxınlaşıb yardım etmək istəmədi. Qorxurdular ki, qoca yoluxucu xəstəliyə tutulub. Ona yaxınlaşsalar, özləri də xəstələnə bilərlər.

Bu halda başqa bir ahıl kişi gəlib ora çıxdı. Bura atılan babanın bu fəna vəziyyəti ahıl kişini sarsıtdı. Ona yaxınlaşdı

ki, qocanı öz evlərinə aparsın, onun xəstəliyini müalicə etdirsin, ona xidmət göstərsin.

Qocanın oğlu tərəfindən bura gətirilib atılmasını görən cavan oğlan dilləndi:

– Siz nə edirsiniz? Onu oğlu gətirib bura atıb. Yəqin ki, yolxucu xəstəliyə tutulub. Özünüzün və ailənizin taleyiniz barədə heç düşünmürsünüz?

Ahıl kişi dedi:

– Mən ona etdiyim yaxşılığı, insanlığı özümə edirəm. Elədiyim bu xeyirxahlıq Ulu Yaradanın nəzərindən uzaqda deyil. Elədiyim bu insanlığı nə vaxtsa qabağıma çıxardacaq. Deməli, elədiyim yaxşılığı da özümə edirəm. Qaldı oğlun və gəlinin məsələsinə, onlar da elədiklərinin nəticəsin bir gün öz həyatlarında görəcəklər. Bu qeyri-insani hərəkət nə vaxtsa qabaqlarına çıxacaq. Tanrının haqq dərgahında da cavab verməli olacaqlar.

## DOĞRU VƏ YALAN

Bir padşahın qəbul günü idi. Şikayətçilərin şikayətlərini dinləyir axırda son qərarını verirdi. Günün sonuna qədər padşah nə qədər güc vursa da, özlərini haqlı sayan iki nəfərin şikayətini həll edə bilmədi. Tələbkeşlərin hər ikisi müqəddəs ziyarətgahlara, kitablara and içir, hətta «Quran»a əl basmaq istəyirdilər.

Bir nəticəyə gələ bilməyən padşah axırda sevimli nədiminin onun yanına gətirilməsini əmr etdi.

Nədim hökmdarın qəbul otağına gedib çıxdı. Padşah üzünü Nədimə tutdu:

– Mənim sevimli Nədimim, de görüm doğru ilə yalanın fərqi nədədir?

– Gözlərlə qulaqlar arasında olan fərq kimidir?

Padşah başa düşməyib bir də soruşdu:

– Dediklərimi necə başa düşək?

– Gözlərlə qulaqlar arasında olan fərq kimidir!

– Necə yanı? Nəyə görə?

– Gözlərimizlə gördüklərimiz həqiqətdir, şah sağ olsun! Eşitdiklərimiz yalandır.
Eşitməmisiniz, deyiblər:
«Qulağa inanma, gözə inan».
Nədimin cavabı hökmdarın xoşuna gəldi. Birinci şikayətçinin haqlı olduğunu bildirdi, ikinci şikayətçi isə cəzalandırıldı.
Görkəmli söz ustadı Aşıq Ələsgər də yerində deyib:

*Haqqı, ədaləti arayan hakim,*
*Arasın qulaqla göz arasında.*

## İKİ EŞŞƏK YÜKÜ

Şahla şahzadə bir dəfə obaşdan ova gedirdilər. Günorta isti düşəndə şahla şahzadə üst libaslarını çıxarıb təlxəyə verdilər. Obaşdan evdən çıxardıqlarına görə təlxək də olub-qalan qalın paltarını geyinmişdi. Bu iki nəfərin də yükü təlxəyin belinə yükləndi. Belə isti havada yerimək çətinləşmişdi. Bir tərəfdən də tər üz-gözlərindən axırdı. Göründüyü kimi, təlxəyin işi lap ağır idi. Təlxəyi bu vəziyyətdə görən şah ona sataşmaq, ələ salmaq məqsədilə dodaqaltı gülüb deyir:
– Təlxək, sənin götürdüyün yük, sözsüz, bir eşşəyin yüküdür.
Təlxək hökmdara tərəf çəpəki nəzər salıb deyir:
– Hökmdarım, şah sağ olsun, bir yox, iki eşşəyin yüküdür.
Təlxəyin bu cavabı hökmdara güllə kimi dəydi. Ancaq təlxəyi cəzalandırmadı. Dodaqaltı pıçıldadı: «Günah məndə oldu. Atalar gözəl deyib: Hərzə sözün lərzə cavabı olar».

## TƏLXƏK VƏ SULTAN MAHMUD

Günlərin birində Sultan Mahmud bərk qəzəblənmişdi. Vəzir-vüzəra bilirdilər ki, belə hirslənmək xatasız ötüşmür.

Sultanın da yanına qorxudan heç kəs keçə bilmirdi. Bu bəladan sovuşmaq üçün axtarıb Sultanın təlxəyini tapıb, əhvalatı ona danışdılar. Belə halların bir çoxunda təlxək Sultanı güldürmüş, xata-bəla da sovuşmuşdu.

Təlxək qapını açıb icazə almadan içəri keçdi. Sultanın sifəti əsəbdən qapqara qaralmışdı.

Təlxək salamsız-kəlamsız dedi:

– Sultanım, atanızın adı nədir?

– Ay yaramaz köpək oğlu, sənin nəyinə gərəkdir mənim tünbətün atamım adı?!

– Sultanım, atanın adı məlum oldu. İndi də babanın adını de.

Burada Sultanı gülmək tutdu, xata-bəla da sovuşdu.

## SULTANA MƏXSUS HƏDİYYƏ

Bir dəfə bayram münasibəti ilə Sultan Mahmud əyanlarının hamısına xələt bağışlanmasını əmr edir. Təlxəyə isə eşşək palanı bağışlanmasını tapşırır. Mərasim günü əyanlar padşahın bağışladığı xələtləri geyərək, şad-xürrəm saraya daxil oldular. Təlxək də ona verilən palanı dalına alaraq məclisə gəldi. Palan dalında ortaya düşüb, sağa-sola süzməyə başladı. Saray əhli uğunub getdi.

Axırda təlxək üzünü əyanlara tutub dedi:

– Ey möhtərəm ağalar, Sultanın sizə təzə xələt bağışlaması ilə öyünməyin. Sultanın mənə olan iltifatı burada da özün büruzə verir. Sizə o, xəzinədən xələt verilməsini buyurmuşdu. Mənə isə şəxsən öz çiynindəki xalatı bağışlamışdır.

## ƏBÜ NÜVAS VƏ HARUN-ƏR-RƏŞİD

Bir gün xəlifə Harun-ər-Rəşidin kefinin saz olduğu vaxtlardan idi. Əyanları da başına toplayıb onlarla şənlənirdi. Xəlifə Əbü Nüvası çağırtdırıb ona belə bir əmr verdi:

– Al bu kağızı, məclisdəki ən axmaq adamın adını yaz. Biz də onu tanıyaq!



Əbü Nüvas dedi:

– Belə adamın adını yazsam, qorxuram xəlifənin xoşuna gəlməsin.

– Sən həqiqəti yaz, qorxma. Əbü Nüvas kağızı alıb xəlifənin adını yazdı. Xəlifə qəzəblənib dedi:

– Mənim axmaqlığımı sübuta yetirməsən, sənə ağır cəza verdirəcəyəm.

Əbü Nüvas dedi:

– Dəlilim budur ki, iki yüz min dinarını tanımadığın bir nökərə verib, başqa məmləkətdən müxtəlif şeylər alıb gətirməyə göndərdin. O nökərin burada nə mal-mülkü var, nə də qohum-qardaşı. Birdən qayıdıb gəlməsə, onu necə tutacaqsan?

Xəlifə edi:

– Gəlməsə, sən deyəndir. Amma mənim tapşırığımı icra edib qayıtsa, onda nə deyəcəksən?

Əbü Nüvas cavab verib dedi:

– Onda xəlifənin adını silib, onun adını başdan yazacağam.

**İLİN HANSI VAXTI YAXŞIDIR**

Bir padşah kefinin saz vaxtlarında əyan-əşrəfi başına cəm eləmişdi. Onlarla müxtəlif məsələlərə aid sorğu-sual aparırdı. Əyanlara üz tutan hökmdarın suallarından biri də belə oldu:

– İlin dörd fəslindən hansı yaxşıdır?

Oturanların hərəsi bir cavab verməyə başladı. Kimi yazı, kimi yayı, kimi payızı, kimi də padşaha xoş gəlsin deyə, qışı tərifləməyə başladı.

Təsadüfən əyanlara qarışıb içəri girənlərdən biri də Bəhlul Danəndə idi. Əyanların cavabları ilə razılaşmayan padşah üzünü Bəhlula tutdu, verilən suala ondan cavab istərdi. Bəhlul belə cavab verdi:

– Hökmdar, toxlar üçün ilin bütün fəsilləri yaxşıdır, aclar üçün isə bütün fəsillər pisdir.

## SƏSİ SABAH ÇIXACAQDIR

Cüha gecəyarı tappıltıya yuxudan oyandı. Evin ortasında əli qulağında olan bir nəfərin dayandığını gördü. Qorxa-qorxa ona yaxınlaşıb soruşdu:

– Burada nə edirsən, ay əmi?

– Oxuyuram

– Bəs səs niyə eşidilmir?

– Səs sabah çıxacaqdır

Cavaba qane olan, həm də qorxan Cüha yerinə girir, yorğanı da başına çəkir. Tezdən oyanan Cühanın arvadı hər şeyin aparıldığını görüb haray qoparır. Onun qışqırığına oyanan Cüha qoruşur:

– Nə olub, nə hay-həşir salmısan?

– Gecə hər şeyimizi aparıblar!

Cüha deyir:

– Qəribədir, o adam haqlıymış. Düz deyirmiş ki, mən səsi səhər eşidəcəyəm.

İndinin özündə də belə bir müəmmalı məsələ ortaya çıxanda məsələnin mahiyyətin başa düşən şəxs deyir:

– Hələ bu məsələnin səsi sonra çıxacaq.

## MƏN DÜŞÜM, SONRA KƏSƏRSƏN

Bir kefli ağaca çıxıb düşmürmüş. Qonum-qonşu, tanış-biliş nə qədər yalvarırmış sərxoş onlara qulaq asmırmış. Üstəlik büdrəyə-büdrəyə budaqdan budağa adlayır, yerdəkilərin ürəyin üzürmüş. Bu vaxt baltası belində Abdal Qasım meşədən gəlirmiş. Qələbəliyi görüb ora yaxınlaşır. Nə üçün bura toplaşdıqlarını, hay-həşir saldıqlarının səbəbini soruşur. Ordakılardan biri deyir:

– Ağaca çıxan adam sərxoşdu. Nə qədər yalvarırıq aşağı düşmür. Hələ daha təhlükəli uca budaqlara dırmaşır. Yıxılacaq, bir çətən küflət başsız qalacaq.

Abdal Qasım bir qədər fikirləşir, baltanı götürüb həmin ağacı dibindən baltalamağa başlayır. Vəziyyəti belə görən kefli elə bil sərxoşluqdan ayrılır. Üstdən çığırır:

– Ağrın alım, aman günüdü, kəsmə. Səbr elə mən düşüm, sonra kəsərsən.

Sürətlə ağacdan yenməyə başlayır.

### NƏ QARPIZ QALIB, NƏ DƏ BOSTAN

Abdal Qasım bir dəfə iri bir qarpız bostanı əkir. Sonra da üzünü göyə tutub deyir: «Ey qadir Allahım, əzabımı əlimdə qoyma, rüzumuzu bol elə. Bu il bu bostanı səniynən ortağıq».

O il bostan çox bəhərli olur. Qarpızın biri 10–15 kq olur. Abdal Qasımın kefi kökəlir Axşam evə gəlib arxası üstdə uzanır, yığılacaq məhsulun haqq-hesabını xəyalında götür-qoy eyləyir. Kefi ərşi-əlaya qalxır. Ancaq bir az keçəndən sonra hava qaralır, göy üzü tutulur, ildırım şaqqıldayır. Göydən hər biri bir qoz boyda dolu tökülür, sel-su hər tərəfi ağzına alır. Dolunun zərbəsindən qarpızların çoxu partlayır. Şaqqıldayan ildırımın, şimşəyin təsirindən hər tərəf işıqlanır.

Qorxudan dodaqları çatdayan Abdal Qasım daha dözə bilmir, üzünü göy səmtinə tutaraq deyir:

– Kəráminə min şükür, ey Allahım! Çaxmağını çəkib daha niyə baxırsan? Xatircəm ol, daha nə qarpız qalıb, nə bostan! Şərikli bostanımızdan sənin seyid və dərvişlərinə, kasıb-kusuba, əlsiz-ayaqsıza pay verəcəydim. Ona da imkan vermədin. Bundan belə onların da vəbalı sənin boyuna düşür. Nə etdiyini özündən başqa bilən yoxdu. Düzdü, mən də şəriklik məsələsinə tam əməl etməyəcəkdim. Camaat görsün deyə, seyidə, dərvişə, əlsiz-ayaqsıza bir yüngülvari əl tutacaqdım. Yəqin, mənim də sözümə düz olmadığımı görüb, belə elədin.

### «QANACAQLI» OĞRU

Sübh çağı Cühanın evinə oğru gəlir. Cüha da oyaq olur, oğrunu tutub əllərini bağlayır. Cinayətkarı təhvil vermək üçün qalabəyinin yanına gedir. Qalabəyi soruşur:

– Oğrunu neyləmisən?
– Əllərini bağlayıb evdə qoymuşam.
– Ayaqlarını bağlamısanmı?
– Xeyr.
Qalabəyi hirslənib deyir:
– Əcəb ağıllı adamsan!
Əllərini yox, ayaqlarını bağlamaq lazım idi. Axı, o, indi qaçacaq.
Cüha sakitcə deyir:
– İnanıram. Belə şey onun ağlına gəlməz.
– Nəyə görə?
– Ona görə ki yerlimizdir.
Qalabəyinin adamları ilə Cüha evə gəlirlər. Görürlər ki, oğru əvvəl olduğu kimi qolları bağlı sakitcə oturub. Qıçları da açıq vəziyyətdə Cüha gülümsəyib deyir:
– Mən bilirdim ki, bizim yerlilərdə ağıl, huş o dərəcədə deyil. Durub getmək heç yadına düşməyəcək. Oğrunu qabaqlarına qatıb qalabəyinin hüzuruna aparırlar.

## DOSTLUĞUN SINAĞI

Şibli Nemani müsəlman dünyasının görkəmli alimlərindən biri olmuşdu. Misir ölkəsində şəxsiyyətinə, ləyaqətinə, biliyinə görə böyük nüfuz sahibi idi. Haqqı, düzü danışmaqdan heç vaxt çəkinməzdi, ağa ağ, qaraya həmişə qara deyərdi. Hətta ölkə hakimiyyətinin də nöqsanlarını deməkdən çəkinməzdi. Dostluqda, yoldaşlıqda sədaqətli idi. Dostların mənafeyini, onların tərəfini həmişə özününkündən üstün tutardı.

Hökmdar bu böyük alimi həbs etmək, zindana salmaq üçün bir bəhanə axtarırdı. Bu barədə adamlarına da göstəriş vermişdi.

Nəhayət, müxtəlif bəhanələrlə bu böyük alimi dustaqxanaya saldılar.

Arxadan xeyli vaxt keçmişdi. Hökmdar gözləyirdi ki, bu alim də başqaları kimi gəlib onun ayağına düşəcək, «səhvlərini» etiraf edəcək, üzr diləyəcək, bağışlanmasını xahiş edəcəkdi.

Ancaq mənəviyyatı, biliyi ilə hökmdardan çox ucada dayanan Nemani bunu etmədi. Ölkənin özünü Nemaniyə dost tutan görkəmli şəxslərindən bir qrupu görüş günü Nemaninin ziyarətinə gəldilər. Görüş zamanı ona dedilər ki, bizə rüsxət ver, hökmdarın qəbuluna gedək, sənin azad olunmağını ondan iltimas edək.

Nemani dedi:

– Sizi mənim rəva bilmədiyim bu işə qoşulmağınızın səbəbi nədir?

– Sizə olan dostluq münasibətimiz.

Elə bu vaxt Nemani yerdən bir neçə daş götürüb bunlara tərəf atmağa başladı. İşi belə görən bu insanlar tez oradan qaçıb qurtarmağa çalışdılar. Üzünə acı təbəssüm qonan Nemani dedi:

– Siz mənim bir daş atmağımın cəfasına dözməyib, meydandan baş götürüb qaçırsınız. Bəs hökmdarın təhhüdlərinə necə dözəcəksiniz? Deməli, siz mənim deyil, özünüzün dostlarısınız.

**XƏYANƏTKARIN AQİBƏTİ**

Bir eldən beş nəfər uzaq bir vilayətdə işləməyə, ailələri üçün qazanc əldə etməyə getmişdilər. Bu insanlar hamısı kirayə tutduqları bir binada birlikdə qalır, birlikdə işləyirdilər. Hər kəs qazandığı paranı ayrıca saxlayırdı. Ayın sonuna yaxın bu beş yoldaşdan birinin tər tökə-tökə qazandığı pullar yoxa çıxdı. Bundan halı çox pisləşdi, pulunun yoxa çıxdığını yoldaşlarına bildirdi. Ancaq heç bir nəticə hasil olmadı, bu işə görə yoldaşları and-aman elədi. Məcbur qalan bu zavallı ədalətxanaya şikayətə getdi. Vəziyyəti qazıya bildirdi. Qazı bu kişinin dörd yoldaşını çağırıb sorğu-sual etdi. Yenə bir nəticə hasil olmadı. Qazı onların hər birinə eyni ölçüdə xüsusi çöplər verdi və onlara belə dedi:

– Gedin mənzilinizdə rahatlanın. Səhər bu vədə qəbulumda olacaqsınız. Bu müddətdə pulları kim götürübsə, ona verilən çöp bir santimetr uzanacaq. Onda həmin şəxs öz cəzasına çatacaq.

Bu sözlərin vahiməsindən qorxuya düşən xəyanətkar yoldaş gecənin yarısı xəlvətcə onda olan çöpün ucundan həmin ölçüdə qoparıb atdı ki, çöpün uzanması bilinməsin. Bəlkə, bu xata-bəla ondan sovuşa.

Deyilən vaxt yoldaşlar qazının yanında oldular. Qazı hər birindən çöpləri alıb yoxladı. Ucu sındırılan çöpü görən kimi xəyanətkarın xəyanəti aşkar oldu. Pullar alınıb sahibinə verildi, cinayətkar isə zindana salındı.

Bu insan çöpün ucun ona görə sındırmışdı ki, onda olan çöp uzansa, bilinməsin. Atalar demiş: «Xain xoflu olar». Ona görə də haqlı cəzasına şatdı.

## SƏMƏD VURĞUN DÜNYASINDAN

Həyatı keşməkeşli, ağır sınaqlardan keçən S.Vurğunun taleyi lap əvvəldən yaxşı gətirməmişdi. Altı yaşında anasını itirmiş, onun tərbiyəsi ilə ana nənəsi məşğul olmuşdu. Atası Yusif ağa müflisləşmiş bəy nəslindən idi. Ailənin dolanışığı çox ağır keçirdi. Qıraq Salahlıdan Qazaxa köçüb gələndə orada Əsəd adlı imkanlı bir şəxsin zirzəmisində yaşayırdılar. Bu vaxtlar yeniyetmə olan Səməd o ailənin gözəlliklə süslənmiş qızına altdan yuxarı həsrətlə baxar və bu baxmağından da zövq alardı. Bu halı bir neçə dəfə müşahidə edən böyük qardaşı Mehdixan Səmədə iradın bildirir və axırda deyir:

– Ay Səməd, bu ailənin gözəl qızına qaldığımız bu zirzəmidən altdan yuxarı baxmaqla o ailənin bizə olan münasibətini dəyişərsən. Fikirləşirsənmi, onda bizim güzəranımız necə olar?

Bu sözlərdən bərk tutalan Səməd deyir:

– A qağa, narahat olma, inanıram ki, vaxt gələcək onlar mənə altdan yuxarı baxacaqlar. Buna varlığım kimi inanıram. Doğrudan da, sonralar belə oldu. S.Vurğunun yaşadığı dövrdə poeziya aləmində onun yüksəldiyi zirvəyə zirzəmilərində qaldıqları evin adamları, eləcə də söz-sənət sahibləri altdan yuxarı baxmalı oldular.

## M.Ə.SABİRİN CAVABI

M.Ə.Sabirin Azərbaycan ədəbiyyat tarixində öz möhürü, öz dəstxətti vardı. Yeganə kitabı olan «Hophopnamə» ilə öz adını əbədilik olaraq ədəbiyyat tariximizə həkk eləmişdir. Şeirlərində hərdən acınacaqlı keçən həyatına aid şeirlər də yazmışdır, səkkiz qız, bir oğul sahibi olan bu böyük şəxsiyyətin təxminən öz həyatını əks etdirən şeirlərindən birində bir neçə beytə nəzər salaq:

*Tanrı hər yerdə pulu bir ürəyi səxtə verir,*
*Mərifət müftədi çün kasıbı bədbəxtə verir*
*Hacı Rüstəm əmiyə, yeddi oğul cümlə qəmi,*
*Leyk baqqal Cəbiyə yeddi qızı süftə verir*
*Kosasaqqal Sofiyə il uzunu gündə plov,*
*Leyk abdal kosaya həftədə bir küftə verir.*

Həyatının sonlarında ailəsinin maddi durumu daha da pisləşir. Buna görə də şair kitablarından bir qismini satmaq istəyir. Bunu eşidən kitab həvəskarlarından biri özünü tez Sabirin evinə çatdırır. Kitabları nəzərdən keçirir. İlk olaraq vaxtilə müəllimi və ustadı olan S.Ə.Şirvaninin şairə hədiyyə etdiyi N.Gəncəvinin «Xəmsə»sini əlinə alır. Buna ürəyi tab gətirməyən M.Ə.Sabir «Xəmsə»ni o insanın əlindən alır və başının altına qoyub deyir:

– Mən acından ölməyi qəbul edərəm, ancaq heç vaxt Nizamisiz yaşaya bilmərəm.

## M.S.ORDUBADİNİN HƏYATINDAN MARAQLI ANLAR

Azərbaycanda oktyabr inqilabının qələbəsindən bir müddət sonra M.S.Ordubadini «Kommunist» qəzetinə redaktor təyin edirlər.

O, məşhur ədəbiyyat xadimi olmaqla yanaşı, həm də baməzə bir insan olub. «Kommunist» qəzetində işlədiyi vaxtlarda bir dəfə N.Vəzirov, Ə.Haqverdiyev və A.Şaiq onun kabinetinə gəlirlər. Bunları görən M.S.Ordubadi katibə qızı çağırır.

Katibə kabinetə daxil olur. Sual dolu baxışlarını ədibin üzünə dikir. Ordubadi deyir:

– Get, arxvin açarını bura gətir

Onun üzünə maddım-maddım baxan qız deyir:

– Hansı arxivin açarını?

Ordubadinin baməzəliyinə bələd olanVəzirov tez qıza deyir:

– A qızım, narahat olma, yəqin ki, o, biz üçümüzü arxivə qoymaq istəyir.

Bu cavabdan şaqqanaq çəkib gülür, onlara xoş sözlər deyir və katibəyə ortaya çay gətirməsini tapşırır.

M.S.Ordubadi həmişə kitabların müzakirəyə çıxarılmasının əleyhinə olub. O, deyərmiş: «Kitabı müzakirəyə vermək yol qırağında ev tikmək kimi bir şeydir. Danışmaq xatirinə qanan da danışacaq, nadan da. Di gəl hövsələ elə, iki eşşəyin arpasın bölə bilməyənin iradlarına qulaq as».

M.S.Ordubadinin 70 illik yubileyində görkəmli yazıçı S.Rəhman da ədibin yaradıcılığı barədə əhatəli, səmimi çıxış edir. Sonda deyir:

– Gün o gün olsun ki, yüz əlli illik yubileyini də elə bu zalda təntənə ilə qeyd edək.

Tez Ordubadi yerdən deyir:

– Dədə, çox böyük rəqəm dedin, sən o vaxta qədər sağ qalmazsan.

### ƏL TUTMAQ

Tanrı dağları yaradanda mələklər dağ görməmişdilər. Mələklər Tanrıya üz tutdular.

– Yaratdığınız bu daşlı dağdan üstün bir şey varmı?

– Var. O torpaqdır

– Bəs torpaqdan üstün nədir?

– Oddur

– Bəs oddan üstün nədir?

– Küləkdir

– Bəs küləkdən üstün nədir?

– İmkansızlara gizli əl tutmağın savabından üstün heç nə ola bilməz.

Bu cavabdan şadlanan mələklər Tanrıya dua-səna, şükürlər etməyə başladılar.

## QARDAŞ SƏDAQƏTİ

Bir vilayətdə halallıqla yaşayan, çörəkləri daşdan çıxan əməkçi ailə yaşayırdı. Bu ailənin iki oğul övladı vardı. Ata və ana hələ uşaqlıqdan oğlanlarını əməksevər, halallıq, insanpərvərlik ruhunda tərbiyə edirdilər. Bu qardaşlar da valideynlərinin arzu etdikləri kimi böyümüşdülər. Valideynlər dünyadan köçəndən sonra onların ənənəsini davam etdirirdilər. Bu iki qardaş əkinçiliklə məşğul olurdular. Günlərin birində qardaşlardan biri ailə qurdu. Üç övladı dünyaya gəldi. Ancaq o biri qardaş hələ ailə qurmamışdı. Hər birinin ayrı evi vardı, ayrı yaşayırdılar. Həmişə tər tökə-tökə əldə etdikləri taxılı da ortadan tən bölərdilər. Ona görə də yenə əldə etdikləri taxılı yarı böldülər. Evlənməyən kiçik qardaş fikirləşdi ki, böyük qardaşın beş nəfərlik ailəni əldə etdiyimiz bu taxılla dolandırır. Mən isə hələ tək yaşayıram. Qardaşım çətinlik çəkər. Ona görə gecə xəlvətə salıb, öz taxılından bir qədərini qardaşının taxılının üstünə tökdü.

Böyük qardaş da fikirləşirdi ki, mənim ailəm, ev-eşiyim var. Kiçik qardaşım isə hələ özünə düz əməlli yurd-yuva qurmayıb. Ona kömək etməliyəm. O da xəlvətə salıb öz taxılından bir qədər qardaşının taxılının üstünə tökdü. Ancaq hər iki qardaş hiss edirdi ki, taxıl tığları elə əvvəlki qədərdi. Heç artıb-azalmayıb. Bu işə mat qalmışdılar. Bir gecə hər ikisi bir-birindən xəbərsiz əvvəlki hərəkətlərin təkrar edəndə qəfildən rastlaşdılar.

Eyni istəklə, eyni ürəkdə olan qardaşlar arxalarındakı taxıl kisəsini yerə qoyub qucaqlaşdılar və hönkür-hönkür ağladılar.

## ÖLÜMÜN ELÇİLƏRİ

Müsəlman dünyasının ən görkəmli şəxsiyyətlərindən biri olan Sədi Şirazinin «Gülüstan» əsərində belə bir rəvayət var: «Bir nəfər uçmaqda olan evinin qarşısında dayanıb ağlayırdı. Hərdən də evi ilə danışırmış kimi deyirdi: «Ey evim, gözümdə od götürə-götürə səni tikib başa çatdırmışam. Uçmağını heç olmasa bir az əvvəldən xəbər verərdin, mən də tədbirini görərdim. İndi başıma haranın daşını salım? Nə edim? Heç özüm də bilmirəm. Əvvəldən uçacağını xəbər versəydin, mən də lazımi tədbirlərimi həyata keçirərdim».

Birdən uçan binanın divarları arasında bir səs yüksəldi: «Mən neçə illər idi ki, çatlayan divarlarımla, aşınıb tökülən suvaqlarımla vəziyyətimin necə olduğunu sənə çatdırırdım. Sən isə çatlayan yerlərə hərdən bir az palçıq vurmaqla işini bitmiş hesab edirdim. Bu hərəkətinlə elə bil mənim ağzımdan vururdun».

Əslində ölüm də belədir. Ölüm gəlməmişdən əvvəl bizə bir xeyli elçilər göndərir, xəbərdarlıqlar edir. Biz isə heç nəyə məhəl qoymur, ömrümüzün uzun olacağı ilə özümüzə təsəlli veririk. Ömrümüzü bitib-tükənməyən bir xəzinə hesab edirik. Əcəl köhləninin qarşımızda həmişə hazır dayanmasının fərqinə varmırıq. Bir çoxumuz bizə verilən ömür payının mənalı keçməsinə, yaxşılığa, xeyirxahlığa həsr edilməsinə fikir vermirik. Ölüm qarşımızı kəsəndə, ölüm mələyi sinəmiz üstdə çökəndə həyəcan və qorxu içində deyirik: «Ey ölüm mələykəsi, niyə əvvəldən xəbərdarlıq eləmədin?»

Ölüm isə cavab verməyə borclu deyil. Çünki o, xəbərdarlıqlarını insana ağlı kəsən vaxtlardan dəfələrlə göndərmişdi. Hər bir insan bilməlidir ki, insan ana bətnindən yerə düşəndən həyatın son nöqtəsi olan ölümə doğru addımlayır. Həyatın iki qapısı var. Bu qapının birindən dünyaya ayaq açarsan, o biri qapıdan isə əbədilik tərk edirsən. Ona görə də hər bir insan övladı hər bir hərəkətində, hər bir addımında daima səninlə yol yoldaşı olan ölümü düşünməli, ömür yollarında mənalı yaşamağa çalışmalıdır.

## HAZIRCAVAB

Fransa imperatoru Lüdovik qüdrətli dövlət başçısı olmaqla yanaşı, həm də baməzə, zarafatcıl insan olmuşdu. Özü də yaşlı olduğu üçün qocalmış insanlarla daha çox zarafat edərdi. Onların qocaldığını, bu fani dünya ilə vidalaşmağın yaxında olduğunu yadlarına salıb gülərdi.

Bir dəfə də vaxtilə sarayda söz sahiblərindən biri, həm də elm-ürfan sahibi olan əyanla rastlaşdı. Salam-kəlamdan sonra Lüdovik həmin hikmət sahibinə dedi:

– Görürəm, yaman qocalmısan. Məzarıstanla aranda iki-üç addımlıq məsafə qalıb. Öləndə harda dəfn edilməyini istərdin?

Bir anlığa imperatoru başdan ayağa süzən hikmət sahibi olan bu əyan Lüdovikin heç vaxt eşitmədiyi cavabı ona verdi:

– Hörmətli hökmdarımızın məzarı yanında.

Əyandan belə cavab gözləməyən imperatora bu cavab bir sillə kimi dəydi. Günahkar olduğuna görə ona başqa söz demədi. Bundan sonra yaşlı adamlarla bu mövzuda zarafat etmədi. Elə buna görə atalarımız gözəl deyib: «Hərzə sözün lərzə cavabı olar».

## LOĞMANIN CAVABI

Hərtərəfli biliyə malik olan böyük zəka sahibi Loğman həftənin hər cümə günü qapılarını onu sevənlərin, ondan öyrənməyə gələnlərin üzünə açar, onlarla elm və hikmət dünyasından söhbət aparardı.

Yenə belə günlərdən biri idi. Böyük qəbul otağı insanla dolu idi. Hamı burada Loğmana qulaq kəsilmişdi. Heç kəs danışmırdı. Hər kəs bu zəka sahibindən yeni bir hikmət öyrənməyə çalışırdı.

Nəhayət, Loğman son sözlərini də deyib ayağa durdu. Zaldakı elm aşiqlərindən biri də ayağa durdu və Loğmana üz tutdu.

– Ey böyük zəka sahibi, eşitmişəm ki, siz əvvəllər çoban olmusunuz. Bu, düzgündürmü:

– Loğman cavab verdi:

– Bəli

– Bəs bu hikmət dünyasına necə sahib ola bildiniz? Çobanlıqla dahilik arasında nə dayanır?

Zaldakıların hamısı nəfəs çəkmədən Loğmanın cavabını gözləyirdi. Loğman ona verilən suala belə cavab verdi:

– Daima öyrənmək, çalışmaq yanğısı, bir də düzlük. Çobançılıqla hikmət dünyası arasında olan sərhəd bunlardır.

## SOKRATIN CAVABI

Antik dövrün böyük filosofu Sokrata bir gün bir gənc yaxınlaşdı. Elm və fəzilət dünyasında qazandığı uğurların hikmətini, səbəbini soruşdu. Bu nailiyyətlərə necə çatmasının sirrini öyrənmək istədiyini bildirdi.

Sokrat dedi:

– Səhər günəş çıxanda axar çayın kənarına gələrsən. Orada görüşüb söhbətləşərik. Oğlan razılaşdı. Sabahı gün deyilən yerdə görüşdülər. Sokrat soyunub onunla birlikdə çaya girmək lazım olduğunu bildirdi. Oğlan narazı halda dedi:

– Mən üzmək bilmirəm. Çayda boğula bilərəm. Sokrat cavabında:

– Qorxma, mənimlə birlikdəsən. Həm də çayın dayaz yerinə girəcəyik. Hər ikisi əl-ələ verib çayın orta hissəsinə doğru irəlilədilər. Burada çay dərin idi. Oğlandan qat-qat güclü olan Sokrat oğlanı qamarlayıb başını suyun dərinliyinə batırdı.

Oğlan nə qədər çapaladısa, Sokratın əlindən qurtara bilmədi. Bir azdan filosof oğlanı sudan çəkib kənara çıxardı. Rəngi qaralmışdı, nəfəsi təngimişdi. Çətinliklə nəfəs alırdı.

Sokrat oğlandan soruşdu:

Suyun altında–o qaranlıq aləmdə çabalaya-çabalaya nə edirdin?

– Təmiz hava axtarırdım. Hava almaq arzusu ilə çarpışırdım.

– Bax, mən də ömrüm boyu axtarmaq, nəyi isə tapmaq arzusu ilə yaşamışam. Nailiyyətlərimin əsas sirri də bundadır.

**HÖKMDAR VƏ DƏRVİŞ**

Bir ölkənin hökmdarı başının adamları ilə dağları gəzməyə çıxmışdı. Dar bir yolda təsadüfən bir dərvişə rast gəldilər. Hökmdar dərvişə deyir:

– Yoldan kənarə çəkil!

Dərviş dedi:

– Sən kimsən?

– Mən bu ellərin hökmdarıyam.

Dərviş gözəl fürsət olduğunu görüb dedi:

– Mən bir dərviş balayam. Mənə istədiyim hədiyyəni verə bilərsinizmi?

– Nə istəyirsiniz, – deyin.

– O qarşıdakı böyük kəndi mənə hədiyyə edin. Ömrümün axırına qədər taxtı-səltənətinə duaçı olaram.

Dərvişi təpədən-dırnağa bir də nəzərdən keçirən hökmdar dilləndi:

– Sənin istədiyin peşkəş sənə və dünyagörüşünə uyğun deyil. Minlərlə insanın yaşadığı o böyük kəndin taleyini sən düşüncədə olan insana tapşırmaq olmaz. Öz səviyyənə, dünyagörüşünə uyğun da peşkəş istə. O zaman sənin arzunu yerinə yetirmək olar.

**İBRƏT DƏRSİ**

Ulu Peyğəmbərimiz məscidlərin birində dini mövzuda söhbət aparır, verilən suallara ətraflı cavab verməyə çalışırdı.

Bu əsnada oturanlardan biri Peyğəmbər Salavatullaha üz tutdu:

– Ya Peyğəmbər, bilirik ki, siz nəvələriniz Həsən və Hüseyni həddən çox istəyirsiniz. Müsəlman ümmətinə də həmişə uşaqları sevməyi, onlara qayğı göstərməyi tövsiyə edirsiniz. Ancaq mən bilmək istəyirəm ki, siz Həsəni çox istəyirsiniz, ya Hüseyni?

Ulu Peyğəmbər fikirləşmədən həmin şəxsə bir tikə qənd verib buyurdu:

– Bu bir tikə qəndi iki yerə böl və ayrı-ayrılıqda ye.

Həmin şəxs deyilənə əməl etdi. Peyğəmbər ondan yenidən soruşdu:

– Qənd tikələrinin hansı daha çox şirin idi?

– Ya Peyğəmbər, hər ikisinin şirinliyi, dadı eyni idi, heç bir fərq yox idi.

Peyğəmbər gülümsəyərək dedi:

– Yəqin ki, qənd tikələrinin şirinliyinə aid söhbətdən verdiyin sualın cavabını aldın. Övladlar da belədir. Valideynlər üçün onların hamısı eyni əzizlikdə, eyni şirinlikdədi. Aralarında heç bir fərq olmamalıdır.

## BAŞMAQ SEYRİNƏ ÇIXMAQ

Bu ifadə klassik ədəbiyyatda, eləcə də adi danışıq dilində özünə geniş yer tapmış semantik ifadələrdən biridir. Həm də bir növ arxaikləşmiş ifadə kimi indi az işlənir. Bir növ gəzmək, gəzintiyə çıxmaq mənasında daha çox anlaşılır. Yusif Vəzir Çəmənzəminlinin «Qan içində» romanında belə bir ifadə işlənmişdir: «Qarabağ xanının vəziri, həm də görkəmli şair olan M.P.Vaqif onlara qonaq gələn yaxın dostu M.V.Vidadi və həmyerliləri Kazımla başmaq seyrinə çıxmışdılar».

Buradakı «Başmaq seyrinə çıxmaq» ifadəsi gəzintiyə, gəzməyə çıxmaq mənasında işlənmişdir.

«Başmaq seyrinə çıxmaq» ifadəsi klassik ədəbiyyatda və danışıq dilində başqa mənada da işlənmişdir. Məlumdur ki, o dövrlərdə həddi-buluq yaşına çatmış qızlar, eləcə də digər qadınlar qara çadraya bürünərdilər. Təkcə başmaqları, baldırın aşağı hissələri aydın görünərdi. «Başmaq seyrinə» çıxan gənclər qızların başmaqlarını, topuq hissəni seyr etməklə gələcək həyat yoldaşlarını təxminən müəyyən edərdilər. Sonralar ailəyə yaxın qadınların köməkliyi ilə nişan verilən qızın kimliyi öyrənilər, elçilik, «söz almaq» adətinin icrasına başlanardı. Beləliklə, «Başmaq seyrinə çıxmaq» ifadəsi indi başa düşülən mənadan fərqli tamam başqa mənada işlənərdi. Gənclər, yenidən ailə qurmaq məcburiyyətində qalan kişilər bütün bədənləri çadraya bürünən qadınların başmaqlarını seyr etməklə gələcək həyat yoldaşlarını təxminən müəyyənləşdirmiş olurdular.

## ƏVƏZİNİ GƏTİRİN

Əldən-ayaqdan uzaq, dağlarla, meşələrlə əhatə olunmuş bir kənd vardı. Əsasən buranın camaatı heyvandarlıqla məşğul olardılar. Bu kənddə savadları olmayan, dünyanın get-gəlindən bixəbər olan, övladları olmayan bir ər-arvad da yaşayırdı. Evin kişisi imkanlı adamların heyvanların otarar, qadını da ərinin otardığı heyvanları sağmaqla məşğul olardı. Çörəkləri daşdan çıxan bu ər-arvad halallıqla və mehriban yaşayır, bir-birinə «can» deyib, «can» eşidirdilər. Axşam işdən evə yorğun-arğın dönən bu iki şəxs qismətləri olan bir tikə pendir-çörəyi gülə-gülə yeyər, üstündən qara çaydanda dəmlənmiş kəklikotu çayını ləzzətlə içib, şirin yuxuya gedərdilər. Özlərini dünyanın ən xoşbəxt insanları hesab edərdilər.

Bir gün bu ailənin üstünə qara yellər əsdi. Evin qadını qəfildən xəstələndi. Gecənin yarısından keçmişdi. Sevimli ömür-gün yoldaşını narahat etməmək üçün qadın ağrılarını içində çəkir, ərinə təsəlli verirdi ki, narahat olma, ağrılarım azalıb.

Səhər yuxudan oyanan kişi hər gün ondan qabaq durub çay-çörək hazırlayan arvadını yataqda görüb təəccübləndi. Onu səslədi. Səs çıxmadığını görüb, yorğanı üstündən götürdü. Bu cəfakeş vəfadarını ölmüş görüb haray qopardı. Səs-küyə qonum-qonşu, qohum-əqrəba tökülüb gəldi. Başına döyən, qanlı göz yaşı tökən kişini sakitləşdirməyə çalışdılar. Ölünü dəfn etmək üçün işə başladılar.

Bu mənzərəni də görəndə dəli kimi olan kişi özünü meyidin üstə atdı. Qışqıra-qışqıra deyirdi:

– Ölərəm, onu qəbiristanlıqda basdırmağa qoymaram. Bir neçə ağsaqqal kişini dilə tutmağa başladı. Ölünün dəfn olunmasının məcburi olduğunu ona bildirdilər, təsəlli verdilər.

Bir az özünə gələn kişi ağlaya-ağlaya dedi:

– Bu şərtlə razı olaram ki, onun əvəzini gətirin indidən bu evə qoyun, sonra aparıb basdırın. Yoxsa göy imam dirilə gələ, basdırmağa qoymaram. Əvəzini gətirin, sora öləni qəbiristanlığa aparın.

## LÜTFƏLİ ABDULLAYEV DÜNYASINDAN

Xalqımızın sevimli sənətkarı Lütfəli Abdullayev hələ gənclik illərindən xalqımızın sevimlisi olmuş, sənət dünyasında özünə əbədilik qazanmışdı. Baməzəliyi, hazırcavablığı ilə də başqalarından seçilmişdi.

Bir dəfə böyük sənətkar bərk xəstələnir. Onu müalicə üçün o vaxtkı Azərbaycan Mərkəzi Komitəsi nəzdində olan məşhur xəstəxanaya aparırlar. Oradakı yüksək ixtisaslı həkim kollektivi Lütfəli Abdullayevin sağalması üçün var gücləri ilə çalışırlar. Bir müddət sonra bu görkəmli gülüş ustasının vəziyyəti qismən yaxşılaşır. L.Abdullayevlə möhkəm zarafatları olan bir nəfər bir baytar həkimini və sevimli şairimiz Bəxtiyar Vahabzadəni də yanına alıb görkəmli aktyorumuzu yoluxmağa gedirlər. Onu yoluxmağa gələnləri görən Lütfəli Abdullayevin üzünə xoş bir təbəssüm qonur. Balınca söykənib oturur.

Onunla zarafat etməyi xoşlayan baməzə dostu deyir:

– Ay Lütfəli, Bəxtiyar müəllimi tanıtmağa lüzum yoxdu. Ancaq səni yoluxmağa gələn bu dostumuzu tanımırsan. Bu da baytar həkimidi.

Dostuna sözünün arxasını deməyə imkan verməyən L.Abdullayev deyir:

– Yaxşı, baytar həkimi olmağı aydın oldu. Ancaq deyin görək, ikinizdən hansınızın həkimidir?

Bu cavabdan otaqdakıların hər üçü ucadan şaqqanaq çəkib gülüşdülər. Belə bir cavab türk dünyasının istiqlal şairi Mehmed Akif Ərsoyun da həyatında öz əksini tapmışdır. Türkiyənin «İstiqlal marşı» və digər vətənpərvərlik ruhunda yazdığı şeirlərlə məşhur olan Mehmet Akif Ərsoy ixtisasca baytar həkimi olmuşdu.

Bir dəfə onu istəməyənlərdən biri mötəbər şəxslərin də iştirak etdiyi bir yığıncaqda şairi pərt etmək üçün deyir:

– Eşitdiyimə görə, siz baytar həkimsiniz. Bu, düzgündürmü?



O, cavab verir:

– Bəli, elədir. Ancaq sizin xəstəliyiniz nədir? Bir işarə verin, müalicəyə başlayaq.

Ağzının qaytanını saxlaya bilməyən bu cılız insan aldığı cavabdan qıpqırmızı olur, xəcalətdən başın aşağı sallayır. Ətrafdakılar isə onun bu vəziyyətinə qəh-qəh çəkib gülüşürlər.

Odur ki, atalarımız da deyib: «Ağzının qaytanını saxlaya bilməyən başına qapaz vurdurar».

## ÇƏTİN SUAL

Ömrü-günü karvan yollarında keçən, yad ölkələrə ayaq açan bir bilikli, ağıllı tacir vardı. Yaxın dostu cavan oğlunu da ona qoşmuşdu ki, ondan dərs alsın, oğlu da gələcəkdə tacir olsun. Oğlan da diribaş idi, çoxlu kitablar oxumuşdu. Tacir də bu diribaşlığına görə oğlandan heç bir qayğısını əsirgəmirdi.

Bir dəfə yenə karvanın qabağında hər ikisi birlikdə irəliləyirdilər. Oğlan elə hey suallar verir, nələri isə öyrənməyə çalışırdı. Yaşlı tacir bu suallardan lap yorulmuşdu. Oğlanın biliyini, məntiqi düşüncəsini öyrənmək üçün aşağıdakı əhvalatı danışmağa başladı. Oğlana da dedi ki, söhbətə diqqətlə qulaq as, bu dəfə də suala sən cavab verməli olacaqsan.

– Xristianlığın bir qolu olan katoliklərdə belə bir adət var. Gənc yaşlarından öz istəkləri ilə kişi cinsindən olanlar rahibliyi, əks cinsdən olanlar isə rahibəliyi qəbul edir, ömürlərinin axırına qədər özlərini bir çox dünya ləzzətlərindən məhrum edirlər. Ancaq kilsəyə, ruhaniliyə xidmət edirlər. Bir dəfə iki cavan rahib uzaq yol gedirdilər. Yolda coşqun dağ çayına rast gəldilər. Çayın kənarında çayı o tərəfə keçmək istəyən gözəl, yaraşıqlı bir qadın onların nəzərini cəlb etdi. Rahibin biri qadına fikir vermədən soyunub çayı o tərəfə keçdi. Ancaq o biri rahib qadına yaxınlaşıb ona öz köməyini təklif etdi. Bu gözəl qadın ona təşəkkür etdi və razılığını bildirdi. Rahib qadını qucağına alıb, çətinliklə o taya keçirdi. Burada qadın bir daha minnətdarlıq edib, onlardan ayrıldı. Bu iki gənc rahib də dinib-danışmadan iki saata qə-

dər yol gəldilər. Yolun bir hissəsində dinclərini az da olsa almaq istədilər. Bu zaman qadına kömək etməyən rahib yoldaşına öz iradını bildirdi:

– Bizim dinimizə, əqidəmizə, inamımıza görə sən günah iş gördün, sən o qadına baxmamalı, onu qucağına alıb çayı keçirməməli idin. Böyük günah sahibi oldun.

Söhbətin bu yerində tacir onu maraqla dinləyən oğlana dedi:

– Qadını çaydan keçirən rahib özünü müdafiə etmək üçün bir neçə cavab verə bilərdi. Səncə, hansı cavabı versəydi, daha məntiqli, daha ağıllı cavab olardı?

İndi bu sualın da cavabın sən verməlisən. Fikirləş, sonra ən doğru cavabı ver. Bu cavabla sənin hansı düşüncəyə, ağıla sahib olduğunu da mən müəyyənləşdirəcəyəm.

Cavan oğlan heç düşünmədən, həm də kamil ağıl sahibi olduğunu yaşlı tacirə göstərmək üçün aşağıdakı cavabları sadaladı:

– O qadın köməksiz olduğuna görə ona kömək edilməli idi. Bütün insanları dünyaya analar gətirir. Ona görə də anaya kömək edilməli idi.

Yaşlı tacir oğlanın dediklərini başı ilə təsdiq elədi və dedi:

– Sualıma cavab olaraq sadaladıqların da doğrudur. Ancaq mən səndən məntiqi baxımdan ən doğru cavabı verməyi tələb etdim. Günahkar hesab edilən rahib hansı cavabla ona irad tutan rahibi susdurmalıdır.

Bir cavab tapa bilməyən cavan tacir gözlərini döyməyə başladı.

Yaşlı tacir dedi:

– Qadına kömək edən rahib bir az fikirləşib, ən məntiqli cavabı ona verdi:

– Mənim o qadına kömək etdiyim vaxtdan iki saatdan artıq vaxt keçib. Qadın da yadımdan çıxıb. Ancaq, görünür, o qadının görkəmi, gözəlliyi sənin ürəyində elə yer tapıb ki, onu ürəyindən kənarlaşdıra bilmirsən. Ona görə də əsas günaha sahib olan da sənsən.

Yoldaşını təqsirləndirməyə çalışan rahib bu doğru və məntiqi cavab qarşısında başını aşağı dikdi.

## ƏNUŞİRƏVANIN SUALI

Ənuşirəvan Adil bir gün yenə əyan-əşrəfi, vəzir-vüzəranı başına yığıb ölkənin problemli məsələlərini müzakirə edirdi. Onlarla sorğu-sual aparırdı. Nəhayət, yığıncağın sonuna yaxın üzünü vəzirlərinə tutdu:

– Deyə bilərsinizmi, insan üçün ən böyük xəta, nöqsan nədir?

Bu suala qorxa-qorxa hərə bir cavab verdi.

Baş vəzir dedi:

– Ən böyük xəta yalan danışmaqdı. Bir başqası kasıbçılığı, biri oğurluğu, biri tamahkarlığı, biri nəfsə qalib gələ bilməməyi və sairəni dedi.

Lakin bunların heç biri ilə razılaşmayan Ənuşirvan Adil dedi:

– İnsanlar arasında ən böyük günah, qəbul edilə bilməyən cəhət dördgözlükdür. İnsanlar arasında mehribançılığa, mehr-ülfətə qənim kəsilən xislət dördgözlükdür. Bu cəhət insanlar arasında olmasa, insanlar daha yaxşı, daha mehriban yaşayarlar.

## ŞƏMS TƏBRİZİ DÜNYASINDAN

Müsəlman dünyasının böyük şəxsiyyətlərindən olan Şəms Təbrizinin adı, dahiliyi, həmişə böyüklüyü ilə ona bərabər səviyyədə dayanan Cəlaləddin Rumi ilə bir çəkilmişdir. Onu böyük alim kimi daima axtaran Şəms Təbrizi, nəhayət Konya şəhərində tapmışdır. Maraqlıdır ki, Cəlaləddin Rumi Şəms Təbrizini, Ş.Təbrizi də onu özünə ustad hesab emişdir.

Bir dəfə əhli-ürfan yığıncağında bir nəfər Ş.Təbrizidən soruşmuşdur:

– İnsanlara qarşı ilahinin qəzəbi çoxdu, ya mərhəməti?

Şəms Təbrizi belə cavab vermişdir:

– Əlbəttə, İlahinin mərhəməti daha böyükdür. Əgər insanların törətdikləri qəbih hərəkətlərin, fitnə-fəsadların hər birinə Ulu Yaradan qəzəb göstərsəydi, insanların bir çoxu bəlaya düçar olardı. Ancaq hər bir insan bilməlidir ki, o dünyada mizan-tərəzi qurulanda əməllərinə görə cavab verməli olacaq.

Bu şübhəsiz, belə olacaq. Məclisdə olan bir dərviş də aşağıdakı sualı verdi:

– Balıq tutmağa gedənlər çalışırlar ki, torlarına balıq düşsün, bununla ailələrini dolandırsınlar. Balıqlar da gecə-gündüz dua edirlər, çalışırlar ki, balıqçı toruna düşməsinlər. Bu məqamda Allahtala hansının tərəfində durar?

Şəms cavab verdi:

– İnanıram ki, hər ikisinə eyni səviyyədə münasibət göstərər.

Ancaq insan Tanrının şah əsəri sayılır. Təbiətdə nə yaranıbsa, insan üçündür. Ona görə də güman edirəm ki, Ulu Yaradanımız insaflı balıqçıların tərəfində olar.

## OĞRUNUN SUALLARINA CAVAB

Bir nəfər insanlığa ləkə olan oğurluq yolunu özünə dolanışıq yolu seçmişdi. Ancaq həmişə qorxu və təlaş içində yaşaması onu bezdirmişdi. Bu insanlığa yaraşmayan «peşəsindən» əl çəkmək istəyirdi. Qət etdi ki, bu şəhərdə hərtərəfli biliyə malik görkəmli din aliminin yanına gedib, ondan məsləhət alsın. Belə də edir. Alim onu düz yola qaytarmaq üçün dəyərli məsləhətlər verir, yol göstərir. Alimin məsləhətlərindən razı qalan və qəbul edən oğru ayrılarkən bu böyük şəxsdən onun bir neçə sualına da cavab verməsini xahiş edir:

– Mən, eləcə də digər mənim kimilər düz yolu tutmaq üçün birinci nə etməliyik?

– Dinimizin buyurduqlarına əməl etməlisiniz.

– Bəs ikinci məsləhətin nə olar?

– Halallıqla kəsbkarlıq etməklə var-dövlətə sahib olmaq.

– Bəs üçüncüsü?

– Həya pərdəsin özümüzə örtük tutmalısınız

– Bəs dördüncüsü?

– Yaxşı əməl sahibi olmaq

– Bəs beşincisi də varmı?

– Əldən tutmaq. Yəqin ki, eşitmisən: «Əldən tutmaq Əlidən qalıb».

Oğru yol gedə-gedə nisbətən ürəyində onu daima sıxan ağırlığın nisbətən azaldığını hiss edir, alimin məsləhətlərinə əməl edəcəyi haqda özünə söz verirdi.

## RUZİNİ VERƏNİ TANIMALI

Bistani həzrətləri Bəyazidin görkəmli alimlərindən, imanlı şəxslərindən biri idi. Bir dəfə Bistani həzrətləri böyük bir məsciddə namaz qılırdı. Tanımadığı bir şəxsin arxasında dayanmışdı. Namaz qılmaq mərasimi qurtarandan sonra arxasında namaz qılınan şəxs bu böyük, imanlı alimi tanıdı. Ona çox mehribanlıqla salam verdi, təzim etdi. Sonra üzünü Bistani həzrətlərinə tutub dedi:

– Ey iman sahibi, səndən bir müəmmanı öyrənmək istərdim. Nə ilə dolanırsınız, necə ötüşürsünüz?

Bistani həzrətləri dilləndi:

– Qoy, namazımı qılım, sonra sənin sualına cavab verərəm. Bunu deyib namaza başladı.

Namaz qurtarandan sonra həmin şəxs yenə üzünü bu iman sahibi olan şəxsə tutdu:

– Siz indicə mənim arxamda namaz qıldınız. Namazı təkrar qılmağa səbəb nə oldu?

– Sən Ulu Yaradanın kəramətinə, varlığına inanmırsan, kəramətinə şübhə ilə yanaşırsan? Ona görə sənin kimi inamda təqvalı olmayan şəxsin arxasında namaz qılmaq batil sayılır. Ona görə də mən namazımı yenidən qılmalı oldum.

Görünür, iman yolunda sabitqədəm deyilsən. İlahi dərgahına bütün varlığınla bağlanmamısan. Hələ bu günə qədər anlamamısan ki, hamımızın ruzisini yetirən Tanrımızdır. Onun ətəyindən sidq ilə yapışan ac qalmaz.

## ƏLAĞA AĞAYEV DÜNYASINDAN

Azərbaycan aktyorluq aləmində özünəməxsus yeri olan Əliağa Ağayev canlandırdığı zəngin xarakterli rolları ilə xalqımızın qəlbində özünə əbədilik qazanmışdır.

Uşaqlıq illərindən anasını və atasını itirən Əliağanın həyatı çox ağrılı-acılı keçmişdir. Evin böyük uşağı olduğuna görə ailə dolanışığının əsas ağırlığı onun çiyninə düşmüşdü. İncəsənətə, aktyorluğa maraq da onda məktəb illərindən başlamışdır. Bədii-özfəaliyyət dərnəklərində fəal iştirakı, dram cəmiyyətlərində daim iştirakı, görkəmli aktyorların sənət yolu onun formalaşmasında əsas amil olmuşdur. Böyük sənətkarın səhnəmizdə və kinomuzda yaratdığı rollar ona əbədilik qazandırmışdır. «O olmasın, bu olsun» filmindəki Məşədi İbad rolu, eləcə də «Görüş», «Sehrli xalat», «Bizim Cəbiş müəllim», «Əhməd haradadır» və başqa filmlərdəki rolları onu xalqa sevdirmişdir.

Əliağa Ağayev başda olmaqla bir qrup aktyor o dövrdə pambıqçılıq rayonlarından birində əmək adamları ilə görüşə getmişdi. Əvvəldən kolxozçulara raykomun birinci katibinin adından göstərişlərini verən kolxoz sədri həm də qeyd elədi ki, görkəmli artistimiz Əliağa müəllim həm də Bakının «26 Bakı Komissarı» rayonundan rayon sovetinə deputat seçilmişdir.

Söz səhnə ustalarına verilir. Əlağa Ağayev nə qədər dəridən-qabıqdan çıxırsa da, zaldan gülüş səsi eşidilmir. Fasilə zamanı sədr kolxozçuların üstünə qışqırır:

– Ə, mal kimi gözüzü döyürsünüz. Bə niyə gülmürsünüz?

Yerdən bir yaşlı kişi ayağa durub deyir:

– A yoldaş sədir, məgər deputata da gülərlər? Bizim başımız xarab olmayıb ki?

Bu söhbət sonralar dil-ağıza düşdü. Hamıdan çox da gülən elə Əliağa Ağayev oldu.

Əliağa Ağayev elə ölümü də deyə-gülə qarşılamışdı. İş yerində baməzə söhbətləri ilə yoldaşlarını bir xeyli güldürən Əliağa Ağayev fasilə zamanı iş yoldaşlarının bir qrupunu özüylə «Qağayı» restoranına apardı. Süfrə arxasında baməzə söhbətləri ilə dostlarını bir xeyli əyləndirdi.

Qəfil ölüm elə burada, süfrə başında bu böyük sənətkarımızı yaxaladı.

Lakin inanırıq ki, Əliağa Ağayev adı əbədilik xalqımızın yaddaşında yaşayacaqdır. Bu böyük səhnə fədaisi «Evlənmək

istəyirəm» filmindəki rolunu ağır xəstə ola-ola ifa edirdi. Rolun ifasından əvvəl iynə vurulur, sonra ifanı davam etdirirdi. Yaxınları bunu böyük səhnə fədaisinə irad tutanda deyirmiş: «Filmdə Ə.Haqverdiyevin yaratdığı Kərbəlayı Zal məni özünə çəkən surətlərdən biri olmuşdu. Onun surətini layiqincə yaratmalıyam. Görünür bu rol kino sahəsində mənim sonuncu rolum olacaq».

Elə, belə də oldu.

## DOĞRU DANIŞMAQ

Üç nəfərdən ibarət olan bir ailə çox çətinliklə yaşayırdı. Ancaq bir oğul övladları olan bu ər-arvadın bir-birinə münasibətləri çox mehriban idi. Necə deyərlər: Bir-birinə «can» deyib, «can» eşidirdilər.

Günlərin birində ailənin xanımı qəfildən dünyasını dəyişdi, ailənin 8–9 yaşlarından olan oğlu çox dəcəl, intizamsız bir uşaq idi. Ailənin kişisi əlacsız qalıb, ikinci dəfə bir qadınla ailə qurdu. Ailəyə yeni gələn qadın elə ilk günlərdən ailənin dəcəl övladını ipə-sapa yatırtmağa çalışırdı. Lakin qadının oğlanla əlaqədar gördüyü işlərin ciddi nəticəsi olmurdu.

Bir gün ata oğlu ilə təklikdə olanda oğlundan soruşdu:

– Oğlum, mənim bir sualıma doğru cavab verməlisən. Rəhmətə gedən doğma ananla indiki ögey anan arasında hansı fərqli cəhətləri görürsən?

Oğlan dedi:

– Ata, mənim doğma anam yalançı idi. Ancaq ögey anam yalançı deyil.

Oğlunun cavabından təəccüblənən ata dilləndi:

– Oğlum bunu nədən bilirsən?

Oğlu cavab verdi:

– Mən dəcəllik edəndə, sözə baxmayanda doğma anam məni hədələyir və yemək verməyəcəyini deyirdi. Amma yemək vaxtı çatanda çox şövqlə, həvəslə məni yedizdirməyə çalışırdı.

Amma ögey anam yalan danışmır, dediyi sözün üstdə durur. İki gün əvvəl dəcəlliyimə görə məni hədələdi, yemək

verməyəcəyini bildirdi. Sözünün üstdə də durdu. Buna görə iki gündü ki, mən acam, yemək yeməmişəm.

Oğlanın həqiqəti bu cür söyləməsi atanı dərin fikirlərə dalmağa məcbur etdi.

## ÜZEYİR HACIBƏYOV DÜNYASINDAN

Dahi musiqişünas, nurlu insan olan Üzeyir Hacıbəyov Azərbaycan tarixində özünəməxsus yeri olan bir sənətkar kimi bu gün də milyonların qəlbində əbədilik yaşayır. Onun operettalrı əsasında çəkilən «O olmasın, bu olsun» və «Arşın mal alan» filmləri müəllifə dünya şöhrəti qazandırmışdır.

O, həm də xalq arasında böyük ürək sahibi, xeyirxah insan kimi şöhrət tapmışdır. Yüzlərlə istedadlı vətən övladına əl tutmuş, keşməkeşli həyat yollarında çoxlarına işıq yandırmışdır. Müəllifin ilk operamız olan «Leyli və Məcnun», «Koroğlu» operaları o dövrdə SSRİ məkanında, eləcə də Moskvada dəfələrlə oynanılmış, ifa edilmiş, böyük şöhrət qazanmışdır. Bütün bunlara baxmayaraq, qardaşı Ceyhun Hacıbəylinin Azərbaycan Demokratik Cümhuriyyətinin qurulmasında yaxından iştirak etməsi, sonralar isə məcburən Fransada yaşaması və orada da vətən naminə fəaliyyət göstərməsi onun həyatında ağır, faciəli anların yaşanmasına səbəb olmuşdur. Görünür bu böyük şəxsiyyətin xeyirxahlığı, haqq yoluna sadiqliyi Ulu Yaradanın kölgəsini onun üstündən əskik eləməmişdir.

Görkəmli musiqişünas bəstəkar, Şərqdə ilk qadın opera müəllifi kimi tanınan Şəfiqə Axundova xatirələrində yazırdı: «Cavan vaxtlarımız idi. İncəsənət aləmində təzə-təzə addımlayırdıq. Maddi vəziyyətimiz də yaxşı deyildi. Bir soyuqlu gündə həmkarım, rəfiqəm Ağabacı Rzayevlə məni rayonlarımızdan birinə qastrol səfərinə göndərmək istəyirdilər. İmkansızlıq ucundan hər ikimizin əynimizdəki paltar belə havaya, rayona getməyə uyğun deyildi. Bu fikirlərlə büzüşüb, bir tərəfdə durmuşduq. Bu məqamda istedadı ilə insanlığı üst-üstə düşən Ü.Hacıbəyov qarşımızdan keçəndə bizi görüb

dayandı. Burada nə üçün durduğumuzun səbəbini soruşdu. Məsələni öyrənəndən sonra dedi: «Bu əyin-başla belə tutqun havada rayona qastrola getmək istəyirsiniz?»

Sonra isə cavabımızı gözləmədən işçilərindən birinə göstəriş verdi. Bizim əyin-başımız mağazadan alınmış isti, həm də qiymətli paltarlarla bəzəndi.

Bu dahi insan vaxtsız köç edən zaman xalq şairi böyük S.Vurğun ona həsr etdiyi şeirin bir bəndində yazırdı:

*Ölüm sevinməsin qoy! Ömrünü vermir bada*
*El qədrini canından daha artıq bilənlər!*
*Şirin bir xatirətək qalacaqdır dünyada*
*Sevərək yaşayanlar, sevilərək ölənlər!*

### ACIN İMANI OLMAZ

Bir nəfər ucu-bucağı görünməyən səhrada ac-susuz vəziyyətdə qalmışdı. Acından taqəti tükənmiş, dizləri bükülmüşdü. Ölüm kabusunun onun başı üzərində fırlandığını hiss edirdi. Gözləri də yumulmuşdu. Çətinliklə nəfəs alması hiss edilirdi.

Bu vəziyyətdə şeytan insan cildində onun başı üstünə gəldi. Qucağında da insanı yaşadan dadlı yeməklər və su vardı. Bunları görən bu ölümlə qalım arasında çarpışan bu zavallı insanın gözlərinə həyat eşqi gəldi. Çətinliklə olsa da uzandığı yerdən dikəldi, oturmuş halda gözlərini başı üstdə dayanan insan cilidli şeytana dikdi. Onun vəziyyətini anlayan şeytan dilləndi:

– Bu dadlı-duzlu yeməkləri, sərin suyu, yəqin ki, görürsən. Bunları sənə verəcəyəm, sən də ölümdən qurtulacaqsan. Ancaq bu şərtlə ki, sən də imanını mənə verməlisən.

Ac insan bu təkliflə razılaşdı, imanını ona verdiyini bildirdi. Şeytan əllərində saxladığı ərzağı, suyu onun qarşısına qoydu. Kişi acgözlüklə yeməyə girişdi, sərin suyu yanğı ilə başına çəkdi. Axırda şeytan dedi:

– Mən insan cildində şeytanam. Aldadıb bir qarın yeməklə imanını aldım.

Kişi cavab verdi:

– Yox, heç vaxt imanımı sənə verə bilmərəm və bunu da etməmişəm.

– Dilindən özün bəyan etmisən, geri çəkilə bilməzsən

Kişi ucadan gülərək dilləndi:

– Olmayan şeyi sənə necə verə bilərəm? Eşitməmisən? Atalarımız deyib ki, acın imanı olmaz

Şeytan fikirli və peşman halda yoluna davam etdi

## XORUZUN QOLTUĞUNA VERMƏK

«Xoruzun qoltuğuna vermək» ifadəsi danışıq dilində geniş işlənən aforizmlərdən biridir. Bu ifadə işlənəndə başa düşülür ki, bir adamı vəzifə kürsüsündən çox pis vəziyyətdə kənarlaşdırdılar. Yaxud bir adam nə isə əldə etmək üçün ümidlə getdiyi yerdən əliboş qayıdanda da bu ifadəni işlədirlər.

Elçilik zamanı da elçilər məqsədlərinə çatmayanda bu ifadə işlənir. Bəs bu ifadənin yaranma tarixi necədir?

Rəvayətə görə, oğlan tərəfi qız evinə elçiliyinə gedəndə gələcək bəy, yəni oğlan qoltuğunda bir zorba qırmızı rəngli xoruz da aparmalıydı. Razılıq baş tutsaydı, elçiliyinə gedilən qız gəlib xoruzu oğlanın qoltuğundan alar, evə aparar. Orada xoruzun başı kəsilər, əti bişirilər. Oğlan və qız tərəfin adamları deyə-gülə xoruzun ətindən bişirilən xörəyi ləzzətlə yeyər, sonra nişan və toy günü dəqiqləşdirilərdi. Əgər razılıq baş tutmasaydı, qız xoruzu gətirib oğlanın qoltuğuna verərdi. Sonra bu ərazidə ətrafa yayılan söz-söhbətdə deyilərdi: «Elçilik baş tutmayıb, oğlanın xoruzunu qoltuğuna veriblər».

İndi də vəzifədən qərarla, töhmətlə çıxarılan şəxs haqda deyirlər: «Filankəsin xoruzunu qoltuğuna veriblər».

## HƏR PİSDƏ BİR YAXŞI TAPMAQ

Xristian dininin yaradıcısı, ilahinin sevimlisi İsa Peyğəmbərin böyüklüyü, ucalığı haqda çoxlu rəvayətlər mövcuddur. Bu rəvayətlərdən birində hər zülmətdə bir işıq haləsi, hər pisdə bir yaxşılıq nişanəsi də olduğu nəql edilir.

Bir gün İsa Peyğəmbər başının adamları ilə bir yerdən irəliləyirdi. Çöllük yer olan bu yerdə təsadüfən bir it leşinə rast gəldilər. İtin cəmdəyi günəşin şüaları altda iylənmişdi, pis qoxu verirdi. Peyğəmbərin ətrafında olan insanlar bunu görüb, əlləri ilə ağızlarını qapayıb, qaçıb buradan uzaqlaşdılar. İsa Peyğəmbər isə onlar kimi hərəkət etmədi. Itin cəsədinə diqqətlə baxmağa başladı. Peyğəmbərin başının adamları bu vəziyyəti görüb, yenidən İsa Peyğəmbərin yanına qayıtdılar. Onlardan biri Peyğəmbərə üz tutdu:

– Ya Peyğəmbər, görürsünüz ki, bu it cəmdəyi çox pis qoxu verir. Ona görə də biz buradan uzaqlaşmaq istədik. Ancaq siz burada durub ona tamaşa edirsiniz. Bunun nə illəti var, səbəbi nədir?

İsa Peyğımbər cavab verdi:

– Baxın, bu itin çox gözəl dişləri var

Bu cavabla İsa Peyğəmbər ətrafındakılara anlatmaq istədi ki, hər qaranlıq arxasında bir işıq topası, hər naqis, pis bildiyimiz əşyalarda, canlılarda da yaxşı tərəflər var. Biz bunu görməyi və qiymətləndirməyi bacarmalıyıq.

**ATA-BALA ÇIXDILAR**

Bir küçə ilə müxtəlif adamlar hara isə tələsirdilər. Kimi iş yerinə, kimi çölə, kimi isə ailənin ehtiyacların ödəmək üçün mağazalara, bazara doğru hərəkət edirdi. Birdən bir az qabaqda bir ortayaşlı kişi ilə ondan nisbətən cavan olan kişinin əlbəyaxa olduğunu gördülər. Burada olanların bəziləri başlarını cəncələ salmamaq üçün bu işə qarışmayıb, yollarına davam etdi. Ancaq dörd-beş nəfər köməkləşib savaşanları bir-birindən ayırdı. Elə bu vaxt əlbəyaxa olanlardan nisbətən cavanı yaşlı kişiyə dedi:

– Sən eşşəksən, eşşəkdən də betərsən!...

Bu təhqiramiz sözə cavab verməyə qərar verən yaşlı kişi də dedi:

– Sən də qoduxsan, çul-çuxandan da görünür.

Onları aralaşdıranlardan olan bir baməzə kişi yoldaşlarına üz tutdu:

– Gəlin gedək işimizin dalınca. Daha burada bizlik bir iş qalmadı. Savaşanlar ata-bala çıxdılar, daha savaşmazlar.

## ATÜSTÜ ƏRRƏHMAN

1950-ci illərdə Şahbuz rayonuna Ərrəhman adlı bir nəfəri məhkəmə təyin etmişdilər. Bu adam elə ilk günlərdən qarşısına məqsəd qoymuşdu ki, fürsəti gərək bada verməyəm, özümə dərbədirrik eləyəm. Həm də gərək elə edəm ki, camaat məndən qorxsun, çəkinsin. Düşündüyü kimi də işə başladı. Bir yüngülvari günahı olanı, xəta edəni elə günə salır, elə ağır cəza verirdi ki, hamı əvvəlki məhkəmə sədrinə dualar edir, ata-anasına rəhmət oxuyurdu.

«Qılıncını» sağa-sola çırpan, hakim adına ləkə olan bu insan sonralar bir ayama da qazandı. Rayonda hamı ona «Atüstü Ərrəhman» deyirdi. Bura işləməyə gələndən o qədər yoğunlamışdı ki, yerişin də itirmişdi. İdarənin xidmətçisinin köməyi ilə ancaq ata minə bilirdi. Milis idarəsindən, prokurorluqdan vətəndaşlar haqda gələn sənədlərə baxar, qeydlər edər, atını minib həmin kəndlərə yola düşərdi. Orada həmin adamı tapdırar, elə atın üstündə deyərdi:

– Sənə beş il, üç il, yaxud altı il iş vərdim.

Onun bu at üstdə verdiyi qərarlar da 2–3 günə mütləq icra olunurdu. Atlı milis nəfərləri kəndlərə gəlir, Ərrəhmanın hökm verdiyi adamları atdöşü edib, rayon mərkəzinə aparırdılar. Oradan da həbsxanaya göndərərdilər. Beləliklə, rayonda bir Ərrəhman xofu dolaşırdı: «Kimlə arası olmasaydı, onun bığının altdan keçməsəydin, atın üstəcə qərarı verilərdi. Burada qorxudan bir nəfər də ona qaşın üstdə gözün var» deyə bilmirdi. Bir gün rayona yeni raykom katibi qoyulmuşdu. Açıq büro iclası keçirilirdi. Rayonun Nursu kəndindən Bəbir adlı bir qorxmaz şəxs icazə alıb söz istədi. İcazə alıb xitabət kürsüsünə qalxdı. Büro üzvlərinə üz tutdu:

– Mən kəfənimi boynuma salıb bura çıxmışam. Bilirəm ki, «Atüstü Ərrəhman» adıyla tanınan məhkəməmiz məni də atdöşü elətdirəcəkdi. Ancaq sözümü deyəcəyəm. Ərrəhmanın bütün

nöqsanları, kəndlərdə olan dayaq nöqtələri, aldığı rüşvətlər barədə ətraflı məlumat verdi. Alnının tərin silib yerinə keçdi. Yerdə oturanlardan Bəbirin haqlı olduğu haqda səslər ucaldı.

Səhəri günü təzə katibin göstərişi ilə Ərrəhman vəzifədən kənarlaşdırıldı. Ancaq «Atüstü Ərrəhman» ifadəsi bu gün də yaşlı adamların danışıqlarında işlədilir. Tez, tələsik, necə gəldi bir qərar veriləndə, bir iş görüləndə deyirlər «Bu, lap Atüstü Ərrəhmanın işinə» oxşadı.

## LOĞMANIN CAVABI

Bir ölkədə hörmətli, ləyaqətli, dərin bilikli bir həkim yaşayırdı. Onun xalq arasında hörmət-izzəti hökmdardan da üstün idi. Onun qəbuluna gələn, müalicə etdiyi insanlara da hökmdarın, onun əyanlarının ölkədə gördüyü qanunsuz işlər barədə danışardı. Hamı da bilirdi ki, Loğman nə deyirsə, doğrunu, haqqı deyir. Bu insan həm də imkansızların xeyirxahı kimi tanınmışdı.

Hökmdar xəlvətdə, aşkarda ha çalışırdı ki, Loğmanı ələ alsın, öz tərəfinə çəksin. Bununla da hörmət-izzət sahibi olduğunu sübut etsin. Neçə dəfə Loğmana qiymətli daş-qaş, hədiyyə göndərsə də, hədiyyəsi geri qaytarılmışdı.

Bir dəfə diribaş, dildən pərgar olan bir xidmətçisinə dedi:

– Loğmana bir qədər peşkəş, hədiyyə hazırlamışam. Aparıb bu hədiyyələri o kəsə versən, səni azad edəcəyəm.

Sevincdən xidmətçinin gözləri parıldadı, sevindiyindən atılıb-düşdü. Səhərisi günü hökmdarın verdiyi hədiyyələri götürüb Loğmanın hüzuruna yollandı. Nə qədər dil tökdüsə də, Loğman hədiyyələri qəbul etmədi.

Əlacsız qalan xidmətçi axırda yalvar-yaxarla dedi:

– Mənə yazığın gəlsin. Sən bu hədiyyələri qəbul eləsən, hökmdar məni azad edəcək. Mən bundan sonra azad insan xoşbəxtliyinə nail olacağam.

Loğman dedi:

– Ey zavallı insan, hədiyyələri qəbul etsəm, sən azad olacaqsan, boynundan əsarət zənciri atılacaq, o əsarət zənciri mənim boynuma bağlanacaq. Ona görə də bu işi qəbul edə bilmərəm.

## SEVGİ, SƏADƏT, HÖRMƏT, MEHRİBANÇILIQ

Cavan bir oğlanla qız məhəbbət aləminə dalıb, şirin-şirin söhbət edirdilər. Sevgi və ayrılıq isə onlardan bir qədər aralı dayanıb özlərini xoşbəxt hiss edən bu cavanlara tamaşa edirdi. Ayrılıq sevgiyə dedi ki, gedirəm onların yanına, onları bir-birindən ayıram. Sevgi dedi ki, dayan, mən onların yanına gedim, sevgini onlara verim, sonra sən gedərsən. Belə deyib ora yollandı, sonra geri qayıtdı. Ayrılıq onların yanına gəldi. Gənclərin gözlərinə baxdı və peşman halda geri döndü. O gördü ki, sevgi hissi gənclərin gözündə alışıb yanır. Ayrılıq dedi ki, mən onları indi ayıra bilmərəm. Bir müddət sonra ayrılıq o gəncləri yenidən tapdı. Onlar artıq ailə qurmuşdular. Evdə körpə uşaq da vardı. Hiss etdi ki, bu gənc ailə səadət içində yaşayır. Onları ayıra bilməz. Aradan yenə neçə illər keçdi. Ayrılıq gedib yenə onları tapdı. Gördü ki, bu evdə uşaqların sayı artıb, uşaqları böyüyüblər. Bu ər-arvad arasında hədsiz hörmət var. Ayrılıq hiss etdi ki, bu ailə arasında olan hörmət onları ayırmağa qoymaz. Bir müddət sonra ayrılıq yenə bu ailəyə gəldi. Gördü ki, həmin ər-arvad qocalıblar, saç-saqqal ağarıb. Uşaqlar böyüyüb ailə qurublar. Nəvə-nəticələr də bu qocalara çox hörmət-izzətlə, sevgi və məhəbbətlə yanaşırlar. Təməli sevgi və hörmətlə yaranan bu ailəni ayıra bilməyəcəyini ayrılıq bir daha dərk etdi.

## ƏL ŞƏKLİ

Şəhərlərdən birində çox savadlı, xeyirxah, alicənab bir müəllimə yaşayırdı. O, evində məktəb açmışdı. Əsasən valideynlərini itirən, yoxsul ailələrin uşaqlarının təlim-tərbiyəsi ilə məşğul olurdu. Bu müəllimə xüsusilə istedadlı, tərbiyəli uşaqları daha çox sevərdi. Belə uşaqlardan biri də hər iki valideynini itirmiş, lakin çox istedadlı, tərbiyəli oğlan idi. Müəllimə onu həmişə tərifləyir, əlini onun başına çəkərdi. Həm də onu yoldaşlarına nümunə kimi göstərərdi. Bir dəfə müəllim şagirdlərinə tapşırdı ki, hərə öz istədiyi şəkli çəksin.

Uşaqların hərəsi bir şəkil çəkib, müəllimə göstərdi. Ancaq müəllimin diqqətini cəlb edən hər iki valideynini itirən istedadlı şagirdinin çəkdiyi şəkil oldu. Şagird əl şəkli çəkmişdi. Müəllimə əvvəl sinifdəki uşaqlara müraciət etdi:

– Sizin fikrinizi bilmək istəyirəm. Nə üçün yoldaşınız əl şəkli çəkib?

Bu suala hərə bir cür cavab verdi. Biri dedi o şəkil həmişə kölgəsi insanların üstündə olan Allahımızın əlinin şəklidir. Başqaları dedilər ki, o şəkil yer şumlayan, toxum səpən, bağ-bağat becərən, mal-heyvan saxlayan insan əlinin şəklidir. İnsanlar belə əllərin hesabına qidalanırlar.

Cavablar müəllimin xoşuna gəlmişdi. Ancaq oğlandan da nə üçün əl şəkli çəkdiyini soruşdu.

Şagird dedi:

– Müəllimə bu əl şəkli sizin əlinizin şəklidir. Bu əl hər dəfə mənim başıma sığal çəkdikcə məndə yaşamaq, oxuyub-öyrənmək əzmimi daha da artırmışdır. Ona görə sizin əlinizin şəklini çəkdim.

Bu sözlərdən müəllimə çox təsirləndi, gözlərindən damlalar axmağa başladı. Elə bu halda qeyri-ixtiyari əlini yenə oğlanın başına çəkdi.

## NƏFSİN ÖLDÜRƏN ARİF

Məlikşah Səlcuqi bir gün təklikdə at belində gəzintiyə çıxmışdı. Bir şəhərin kənarından keçəndə orada kitab oxuyan bir şəxsə rast gəldi. Kitab oxuyan şəxs arif, əhli-hal ürfan sahibi idi. Məlikşah Səlcuqi onun qarşısından keçəndə heç etina da etmədi. Kitab oxumağı ilə məşğul oldu. Bundan təsirlənən hökmdar dedi:

– Nə üçün ayağa durub təzim etmədin? Yəqin ki, məni tanımamısan. Bilirsən mən kiməm? Sualının cavabını özü verməyə başladı. Mən ölkələr fəth eləyən, neçə-neçə adlı pəhləvanın kürəyin yerə qoyan Məlikşah Səlcuqiyəm. O, əhli-ürfan sahibi başın qaldırıb sakit tonla dedi:

– Mən səndən qüdrətli insanam.

– Necə ola bilər ki, sən ölkənin yenilməz şahından qüdrətli olasan?

– Çünki sənin qul olduğun şöhrəti, nəfsi-əmmarəni mən çoxdan özümə qul eləmişəm.

Bu sözlər Məlikşah Səlcuqiyə bir güllə kimi dəydi. Daha bir söz deməyib, atını dəhmərlədi, bu insandan uzaqlaşmağa çalışdı.

### LAÇIN VƏ ABDAL SÖZLƏRİNİN ETİMOLOGİYASINA AİD AÇIQLAMA

Klassik ədəbiyyatımızda abdal sözü bir neçə mənada işlənmişdir. Bu söz ağıldan kəm, yüngülxasiyyətli, dərvişanə həyat keçirən, baməzə və s. insanlara aid deyilmişdir. Hətta Ağdamın kəndlərindən olan Abdal Gülablı kəndi, çox-çox əvvəl o kənddə yaşamış hazırcavab, baməzə insan olan Abdal Qasım adları da bu sözün işlənmə dairəsini aydınlaşdırır. Abdal Qasımla bağlı bir çox lətifələr xalq arasında indi də işlənir. Dədə Ələsgərin yaradıcılığında da abdal sözü öz yerini tapmışdır. Aşığın gəraylılarından birində işlənmiş aşağıdakı bəndə nəzər salaq:

*Ələsgərəm abdal oldum,*
*Eşqin girdabında qaldım,*
*Küsdürmüşəm, könlün aldım,*
*Yalvara-yalvara, ceyran*

Göründüyü kimi, burada da abdal sözü əvvəl izah etdiyimiz mənada işlənmişdir. Maraqlı burasıdır ki, indiki Laçın rayonuna da qədimlərdə «Abdallar» deyilmişdir. Sovet hakimiyyəti qurulandan sonra 30-cu illərdə Azərbaycan ərazisində də uyğunsuz adları dəyişdirməyə başlamışdılar. Belə bir komissiya o vaxtlar «Abdallar» adlanan bölgəyə, indiki Laçın rayonuna gəlir. Klubda «Abdallar» sözün başqa bir uyğun adla dəyişmək barədə razılığa gəlinir. Komissiya üzvlərindən, yerli rəhbərlərdən hərə bir təklif irəli sürür. Mərkəzdən gələn komissiya üzvlərindən biri pəncərədən görünən əzəmətli dağı görüb soruşur:

– O dağın adı necədir?

Yerdən deyirlər ki, «Laçın»dır.

Laçın sözü komissiya üzvünün və digərlərinin də xoşuna gəlir. Elə oradaca rayonun adının Laçın adlandırılması razılığına gəlinir.

Laçın sözü də klassik ədəbiyyatımızda bir neçə mənada işlənmişdir. Laçın yırtıcı quş mənasında işlənmişdir, indi də işlənir. Qasım bəy Zakirin «Durnalar» qoşmasının bir misrasında deyilir: «Laçın yatağıdır bizim məkanlar».

Eləcə də Nəcəf bəy Vəzirovun «Yağışdan çıxdıq, yağmura düşdük» əsərində Hacı Qənbər haqda Qıdı kirvə deyir: «Cavanlıqda bu bir laçın oğlan idi ki, gəl görəsən». Burada isə laçın igid, qorxmaz, vurub-yıxan mənalarında işlənmişdir.

***Qeyd:*** *Son olaraq onu da qeyd edim ki, Ş.İ.Xətainin təşkil etdiyi Qızılbaş tayfalarından biri də Abdallar olmuşdur. Bu ad samlu, ustaclı və digər məşhur tayfa adları ilə birgə işlənmişdir.*

## ŞAİR SURXAYIN ÖMÜR SƏHİFƏLƏRİNDƏN

El arasında şair Surxay ləqəbi ilə tanınan Surxay Abduləli oğlu Quliyev 1904-cü ildə Şahbuz rayonunun Zırnel kəndində anadan olmuşdur. Mədrəsə təhsili almış, 16 yaşından şeir yaradıcılığı ilə məşğul olmuşdur. O, şeirlərini heç vaxt nəşr etdirmək fikrində olmamışdır. Ancaq şeirləri el-oba, ədəbiyyat vurğunları arasında dillər əzbəri olmuşdur. Əvvəl nəşr edilən kitablarımda da şair Surxayın dillər əzbəri olan şeirlərindən nümunələr dərc etdirmişəm. Onu da qeyd edim ki, şair Surxay 1964-cü ildə Badamlı Su qəsəbəsinə köçmüş, ömrünün sonuna qədər orada yaşamışdır.

Hazırcavablığı, bədahətən şeirləri deməsi, baməzəliyi, ağsaqqal ləyaqəti ona el-oba arasında böyük nüfuz qazandırmışdı. Onun şeirlərindən bəzi nümunələri oxucuların nəzərinə çatdırmaq istəyirəm.

## MAL KİMİ İÇİR

Bu şeir mağaza müdiri işləyən balacaboy Allahverdi adlı insanın heç kimə məhəl qoymadan bir butulka arağı gillətməsi münasibəti ilə yazılıb.

*Yazıq şərab, gör nə günə qalmısan*
*Allahverdi səni mal kimi içir.*
*Şərab içən deyər, danışar,*
*Bu, gözlərin yumur, lal kimi içir*

*Allahverdini bizə Allah veribdi,*
*Təbiət gücüylə ancaq hörübdü,*
*Elə bil ac yetim ayran görübdü,*
*Döşənib üstünə qul kimi içir*

*Yarım şüşə içmək çox zor hünərdi,*
*Özünü butula şir tək göstərdi.*
*Baxma balacadı, nər oğlu nərdi,*
*Tapanda çaxırı fil kimi içir.*

*Şair Surxay, bəxtin niyə yatıbdı,*
*Allahverdi dostum işə çatıbdı.*
*Susuz camış qaramalıq tapıbdı,*
*Somurur, gömürür, mal kimi içir.*

## MƏTƏL QALMIŞAM

*Vətənim azaddır, çiçəkli bahar,*
*Könüllər azaddı yoxdu qəm-qübar.*
*Oğlanlar saç qoyur, qız geyir şalvar,*
*Mən belə modaya mətəl qalmışam*

*İş vaxtı oturub nərdə-nərd vurur.*
*İçir, piyan olur, partapat vurur.*
*Ata öz oğluyla karta-kart vurur,*
*Mən belə ataya mətəl qalmışam.*



*Qız verənlər qız alana kəf verir,*
*El çağırır, yemək-içmək kef verir.*
*Qızın verir, bir qurulu ev verir,*
*Mən belə sevdaya mətəl qalmışam.*

*Şair Surxay bu sözləri sanıbdı,*
*Çay tökülüb bir gün qıçım yanıbdı.*
*Həkim deyir bu, qripdən qalıbdı,*
*Dərd ilə dərmana mətəl qalmışam.*

## DOSTLARIMI

*Sığındım sübhana, tutdum Allahdan*
*Yoxladım dünyada bil, dostlarımı.*
*Canım quruyanda, yerdə yatanda,*
*Görmədim yanımda pul dostlarımı.*

*Nə üçün deyirsən sən bilə-bilə,*
*Dostdan gileylənib, gəlirsən dilə.*
*Dünyada bir şeyi bilmirsən hələ,*
*Özünə dost bilmə, pul dostlarını.*

*Şair Surxay, ərzi-halın olarsa,*
*Güzəranın, xoş əhvalın olarsa,*
*Qapıda dövlətin, malın olarsa,*
*Görərsən qapıda bol dostlarını.*

## BAŞDAN ÇIXIR

*Kiminin ruzisi o haqdan çıxır,*
*Bizimki torpaqdan, ya daşdan çıxır.*
*Qananın noxtası qanmaz əlində,*
*Nə noxta qırılır, nə başdan çıxır.*

*Görmüşəm çoxları yaxalanıbdır,*
*Çoxları puluna arxalanıbdır.*
*Kişilər ayaqdan buxovlanıbdı,*
*Nə buxov qırılır, nə qıçdan çıxır.*

*Dərələr, təpələr örtübdü düzü,*
*Kim daxilən gözəl, kiminsə üzü.*
*Atalar sözüdü, Surxayın sözü*
*Nə qəlbdən silinir, nə huşdan çıxır.*

## HƏR ADAMLA DOSTLUQ ETMƏ

Bir yaşlı tacirə dostları br cavan oğlanı tuş eləmişdilər. Xahiş etmişdilər ki, ticarətin sirlərini o cavan oğlana da öyrətsin, birlikdə ticarət etsinlər. Cavan oğlan da işlərində ona kömək edər. Yaşlı tacir dostlarının sözünü yerə sala bilmədi. Ticarət qaydalarını yavaş-yavaş oğlana öyrətməyə başladı. Bir dəfə iş elə gətirdi ki, onlar piyada bir ağaclıq yerdən keçib qonşu kəndə getməli oldular. Birdən gördülər ki, bir ayı onlara tərəf gəlir. Yaşlı tacir cavan oğlana dedi:

– Gəl əl-ələ verək, ayı yaxınlaşanda səs-küy qoparaq. Yəqin ki, onda ayı bizdən qorxar, geri qayıdıb gedər. Belə də etdilər. Ancaq zorba ayının yaxınlaşdığını görəm cavan oğlan bərk qorxuya düşdü. Yaşlı tacirin əlin buraxıb tez yaxınlıqdakı ağaca dırmandı. Vəziyyəti belə görən yaşlı tacir çox pis vəziyyətə düşdü. Qaçıb ağacın dibində üzüqoyulu yerə yıxıldı. Özünü ölülüyə vurdu. Bilirdi ki, ayı ölü insana, heyvana toxunmur.

Ayı ağacın dibinə gəldi. Nəfəsin içinə çəkən kişini iylədi, qulağını kürəyinə dayadı. O insanı öldü zənn edib, ordan uzaqlaşdı. Bir azdan cavan oğlan da yerə düşdü, tacirin yanına gəldi. Tacirdən soruşdu:

– Mən hiss elədim ki, ayı sənin qulağına nəsə pıçıldayır. O, sənə nə deyirdi:

– O, mənə dedi ki, ilqarı düz olmayan qorxaq kimsənə ilə heç vaxt dostluq və yoldaşlıq etmə. O, yaxşı gündə səninlə olar, yaman gündə isə baş götürüb qaçar.

## İÇİNİ HƏSƏD GƏMİRƏN İNSAN

Ölkələrdən birində bir kişi yaşayırdı. Özünə görə orta səviyyəli gün-güzəran da qura bilmişdi. Ancaq gözü-könlü tox deyildi, dargöz adam idi. Gözü onun-bunun mal-mülkündə olardı. Harda dəbdəbəli bir yaşayış binası, bir bahalı maşın, bağ-bağat, məişət əşyaları görsəydi, fikri onların yanında qalardı. İçəridən kişini həsəd gəmirərdi. Fikirləşirdi ki, niyə mənim belə imarətim, bahalı maşınım, televizorum yoxdu. Bütün bunlar kişinin dincliyini də əlindən almışdı. İndiyə qədər düşündüklərini içində boğurdu. Ancaq son vaxtlar belə dargözlüyünü içində boğa bilmirdi. Dostları, yaxınları ilə gəzməyə çıxanda, bir yerdə olanda dərdlərini yana-yana onlara da danışırdı. Dostlarının isə belə söhbətlərindən xoşları gəlməzdi. Ona görə də yavaş-yavaş bu paxıl, dargöz dostlarından aralanmağa başladılar. Daha onunla söhbətə, gəzintiyə çıxmadılar. Dostlarının niyə ondan uzaqlaşdıqlarının səbəbini anlamayan bu insan daha çox darıxmağa başladı. Dərdini bölüşməyə bir adam tapa bilmirdi. Bir gün dağ kəndlərindən birində yaşayan, çoxdan görüşmədikləri bir uşaqlıq dostu onlara qonaq gəldi. Həm də əlidolu gəlmişdi.

Ev sahibi dostunun gəlişinə çox sevindi. Çay-çörəkdən sonra keçmişləri yada salıb xeyli söhbət etdilər, deyib-güldülər. Sonra şəhərə gəzməyə çıxdılar. Bahalı evləri, maşınları görən kişinin dərdləri yenə təzələndi. Yana-yana dostuna dedi:

– Görəsən, camaat bu dəbdəbələrə sahib olanda biz haralarda imişik?

Dostu bu danışıqdan xoşlanmadı, ona bir çəpəki nəzər saldı. Gəzə-gəzə bir xəstəxananın yanından keçəndə orada çoxlu insanların dayandığını gördülər. Bu dəfə dostu bu dargöz kişiyə dedi:

– Bəs, görəsən, insanlar arasında bu xəstəliklər paylananda biz hardaydıq?

Dostunun bu cavabından tutulan kişinin deməyə daha bir sözü qalmadı. Anladı ki, Allah-taala heç vaxt hər yaxşı, xeyirli işləri tək bir quruma qismət eləmir. Birinə var-dövlət verir, həm də xəstəlik, birinə də kasıblıq qismət eləyir, bir də sağlamlıq.

## HİKMƏT DÜNYASINDA

Bir ustad, dərin zəkalı, şagirdlərini öz övladları qədər sevən müəllim yenə şagirdlərini başına toplayıb, onlara hikmət dünyasının inci sözlərindən, ibrətamiz rəvayətlərdən danışa-danışa gəzintiyə aparırdı. Bir evin kənarından keçəndə gördülər ki, bu evin kişisi və arvadı bir-birinin üzərinə qışqırırlar. Hərə özünün haqlı olduğunu çığırmaqla sübut etmək istəyirdi.

Bu vaxt şagirdlərdən biri müəlliminə dedi:

– Ustad, nə üçün belə xoşagəlməz hallarda insanlar qışqıra-qışqıra danışırlar? Niyə səslərini başlarına atırlar?

– Belə hallarda ürəkdə sevgi hissi tükənir, ürəklər bir-birindən aralanır.

– Bəs bir-birini sevəndə necə?

– Onda sakit, asta danışarlar

– Daha çox sevsələr necə?

– Bu anda pıçıltıyla danışarlar

– Sevgi bundan da yüksək səviyyədə olanda becə?

– Onda danışmağa daha lüzum qalmaz. Hər şeyi ancaq baxışlar, gözlər anladar: sükutlu, səssiz baxışlarla.

## TANRIYA DOĞRU BİR ADDIM ATMAQ

Müsəlman ölkələrindən birində Əbu Xeyir adlı bir görkəmli alim, şeyx yaşayırdı. Böyük hörmət və nüfuz sahibi idi. Məscidlərdə cümə söhbətlərində az hallarda danışardı. Bir dəfə o şəhərdə islam dininə qəlbən bağlı olanlara xəbər yayıldı ki, bu cümə Əbu Xeyir cənabları moizə edəcək, ürfan dünyasından söhbət açacaq. Bunu eşidənlər məscid tərəfə axışıb gəldilər. Məscid dolmuşdu, bayırda da xeyli adam vardı. Əbu Xeyir isə minbərdə gözləyirdi. Alimin şagirdlərindən biri məscidin içərisində olanlara üz tutdu:

– Sizi Ulu Tanrı dərgahına and verirəm, heç olmasa, bir addım qabağa atın ki, bayırdakılar da içəriyə yönləşsinlər.

Bu sözləri eşidən hər kəs güc-bəla ilə bir addım qabağa çəkildilər. Bundan sonra bayırda dayananlar da məscidə yönləşdilər.

Ancaq Əbu Xeyir moizə etməkdən imtina etdi. Bundan bir çoxları narazı qaldı. Minbərə yaxın duranlardan biri dedi:

– Ey böyük alim, səbəb nə oldu ki, moizə etməkdən imtina etdiniz?

– Çünki mənim demək istədiyimin əsas məğzini sizlərə mənim şagirdim dedi. Sizlər bir addım qabağa atmaqla bayırda dayanan din qardaşlarınıza yer elədiniz. Yəni hər kəs Ulu Tanrı dərgahına doğru sidq-ürəklə bir addım atarsa, Ulu Tanrı sizlərə tərəf yüz addım atar.

## ÖZÜMƏ YARDIM EDİRƏM

Bir nankor oğul xəstə atasını gecəykən aparıb bir yol kənarına atdı. Tələsik də geri qayıtdı. İşıqlaşanda oradan keçən insanlar sancıdan doğranan kişini görüb, yaxın gəldilər. Ancaq qorxudan yaxına getməyə hər kəs cürət etmədi. Ondan qorxurdular ki, bu qoca kişi də yolxucu xəstəlik olar, onların özlərinə, ailələrinə xətər yetişər.

Elə bu anlarda ora bir qoca kişi də gəldi. İnildəyən atılmış qocaya yaxınlaşdı, onu qucaqlayıb ayağa durquzdu. Ətrafdakılar narahat oldular. Qocanı tanıyanlardan biri dedi:

– Siz nə etdiyinizi düşünürsünüzmü? Qorxmursunuz ki, o, yolxucu xəstə olar, özünə, ailə üzvlərinə bəla yetişər?

Bu insanpərvər qoca dedi:

– Mən ona etdiyim xeyirxahlığı özümə edirəm. Mən ona bu halında mərhəmət göstərməsəm, Uca Yaradanımızdan necə mərhəmət umaram? Qəlbində xeyirxahlıq, mərhəmət hissi olmayanı Tanrımız da bağışlamaz.

## DOST SƏDAQƏTİ

Müharibə gedən cəbhələrdən birində iki sadiq dost da birlikdə neçə müddət idi ki, vuruşurdular. Düşmən tərəfin qəfil hücum etməsi nəticəsində dostlar bir-birindən ayrı düşdülər. Dostlardan biri yaralı əsgər yoldaşını atəş altdan çıxarıb arxaya apardı. Qayıdanda gördü ki, döyüş daha da şiddətlənib,

dostu isə atəş altda qalıb. O, komandirindən dostunu xəbər aldı. Komandir cavab verdi:

– Sənin cəhdlərinin heç bir xeyiri yoxdu. Daha atəş altda qalan bir neçə əsgərimizin taleyi sönüb. Ora getməklə özünü də fəlakətə salarsan. Ancaq dostu komandirin sözünə baxmadan sürünə-sürünə dostu vuruşan yerə tələsdi. Dostunu yarımcan halda tapdı. Ona köməyə gələn dostunu görən yaralı dost azca gülümsədi və dedi:

– Bilirdim ki, mütləq köməyə gələcəksən.

Bu sözdən sonra yaralı dostunu araxasına alıb çox çətinliklə geri gətirə bildi. Onu yerə qoyanda gördü ki, sadiq dostu keçinib.

Komandir dedi:

– Gördünmü, sənin cəhdlərinin, risq etməyinin heç bir xeyiri olmadı.

Əsgər dedi:

– Yox, oldu. O, ölüm ayağında olsa da, mənim ona köməyə getməyimi gördü və gülümsəyərək dedi:

– Bilirdim ki, gələcəksən.

**MƏCNUN SEVGİSİ**

Rəvayət olunur ki, Məcnun Leylinin eşqi ilə bir sərgərdan kimi çöllərdə, səhralarda hey dolaşır, Leyliyə qovuşmaq eşqi ilə alışıb yanırdı. Gözünə Leylidən başqa, heç bir insan görünmürdü. Belə pəjmürdə halda yenə səhrayi-biyabanda dolaşırdı. Təsadüfən orada bir bədəvi ərəb namaz qılırdı. Ancaq Məcnunun gözü onu görmədi, qarşısından, səccadənin kənarından keçib getdi. Bundan bərk əsəbiləşən ərəb qaçıb qabaqda Məcnunu yaxaladı. Boğmaladı, ağzına gələni danışdı. Nə üçün namaz qıldığı halda onun qarşısından keçdiyini, namazı pozması səbəbini soruşdu.

Məcnun dedi:

– Mən Leylinin eşqi ilə elə yanıram ki, gözüm ondan başqa heç kimi görmür. Sənin də orada namaz qılmağını görməmişəm.

Bu cavabdan ərəb yenə onu söyüb yamanlamağa başladı.
Məcnun bu tərs adama dedi:

– Sən namazını görüntü üçün qılırsan.

Sənin İlahiyə olan məhəbbətin mənim Leyliyə olan məhəbbətim qədər olsaydı, sənin də gözün İlahidən başqa heç kimi görməz və namazı pozub mənim üstümə hücum etməzdin.

Bu cavab bədəvi ərəbi də düşünməyə məcbur etdi. Hərəkətindən peşman olub yavaş-yavaş namaz qıldığı yerə addımladı.

### EVİ YANANA KÖMƏYƏ GEDƏN KİŞİ

***(Gülməcə)***

Kəndlərin birində bir kişinin evinə qış fəslində od düşür, səs-küyə, hay-haraya gələn kənd adamları yanğını söndürməyə çalışırdılar.

Qonşulardan tənbəlliyi, astagəlliyi ilə tanınan bir kişi də qışın bu şaxtalı günündə tuman-köynəyin üstündən bir şineli tələsik əyninə geyib ev yanan tərəfə qaçır. Ora çatanda hiss edir ki, şaxta bunun amanını kəsir. Dişləri şaqqaşaq bir-birinə dəyir. Əlindən də bir iş gəlmir. Qaçıb alovda bir təhər canını qızdırmağa başlayır.

Kənd adamları, qonum-qonşu da vurhay odu söndürməkdə idilər. Kişi qızınan tərəfi keçirib, evin o biri tərəfinə keçirdilər. Bu işbilməz vasvası kişi də qaçıb alov hardan gur yanırdısa, orda qızınmağa başlayırdı. Birdən gördü ki, alovu söndürənlər bu dəfə də onun tərəfinə yaxınlaşırlar. Üzünü onlardan birinə tutub dedi:

– A canım, bu nə vurhaydı salmısınız? Qoymazsınız bu şaxtada canımızı bir az qızdıraq?

### A.P.ÇEXOV DÜNYASINDAN

A.P.Çexov bir həkim kimi M.Qorkini müayinə edirmiş. Müayinə qurtarandan sonra M.Qorki ona demişdir:

– Hə... İndi mənim sizdən gizli sirrim qalmadı. Siz mənim daxili aləmimə tamam bələd oldunuz.

– Ümumiyyətlə, bəli... Cildçi kitabın daxili aləminə bələd olduğu qədər, – deyə Çexov cavab vermişdir.

A.P.Çexov demişdir:

– Həkimlik mənim kəbinli arvadımdır, ədəbiyyat isə sevgilimdir.

## VİKTOR HÜQONUN MƏKTUBU

Yeni çapdan çıxmış əsərinin necə satılacağını bilmək istəyən Viktor Hüqo nəşriyyat müdirinə məktub yazmaq qərarına gəlmişdi. O, məsələni üstüörtülü başa salmaq məqsədi ilə açıq məktub göndərmiş və məktubda ancaq «?» (sual işarəsi) yazmışdı.

Müdir yazıçının işarəsini anlamış, ! (nida işarəsi) yazmışdı. Bu, o demək idi ki, sizin bütün şərtlərinizlə cavabda razıyam. Başqa heç bir söz-söhbət ola bilməz.

## HİPPOKRAT

Qədim Yunanıstanın böyük həkimi Hippokrat demişdir:

– Ağıllı adam ara-sıra aynaya baxsa yaxşıdır. Əgər o, çirkindirsə, bir də pis hərəkətləri ilə özünü daha da ləkələməz. Yox, gözəldirsə, pis işləri ilə gözəlliyini gözdən salmaz.

Hippokrat demişdir:

– Sənətkarlıq genişdir, həyat isə qısadır

Hippokrat dünya tibb elmində o qədər məşhur olmuşdur ki, indi bütün dünyada həkimliyə başlayan şəxs ilk öncə «Hippokrat andı» içməli olur.

## SUVOROVUN CAVABI

Böyük rus sərkərdəsi Suvorov cansız-cüssəsiz olsa da, öz adını dünya hərb tarixində zirvəyə yazdırmışdı. Bir dəfə bir zabitin qadını Suvorovun yanına gəlir, ərindən şikayət etməyə başlayır. Sonda deyir:

– Hörmətli general, o, mənimlə çox pis rəftar edir.

Suvorov deyir:

– Bu məsələnin mənə dəxli yoxdu.

– O, sizin də dalınızca danışıb, haqqınızda pis sözlər deyir.

– Bunun da sizə dəxli yoxdur, – deyə Suvorov cavab vermişdir.

### SUVOROV ŞƏXSİYYƏTİ

Suvorov (1730-1800) sarayda gözdən düşüb doğma kəndində yaşadığı vaxt çar I Paveldən bir məktub alır. Məktubun üstündə «Feldmarşal qraf Suvorov» sözləri yazılmışdı. Suvorov bunu gördükdə acıqlanır, məktubu geri qaytarır və deyir:

– Bu məktub mənim deyildir. Feldmarşal orduda olmalıdır, mən isə kənddə yaşayıram.

### SOKRATIN CAVABI

Sokratın arvadı bir gün ona hücum edib, qışqırmağa başlayır. Sokrat qadınını daha da əsəbiləşdirməmək üçün ona cavab verməmiş, öz işi ilə məşğul olmağa başlamışdı.

Arvad bunu görüb daha da acıqlanmış, dolu vedrəni götürüb onun başına yendirmişdir. Əhvalın pozmayan Sokrat sakitcə demişdir:

– Təbiətin qanunudur, həmişə göy gurultusundan sonra yağış yağar.

### PLATON DÜNYASI

Bir nəfər qədim Yunanıstanın görkəmli filosofu Platonun yanına gəlir və deyir:

– Özünü alim sayan və sizi istəməyənlərdən biri sizi tərifləyirdi.

Bu sözləri eşidən Platon dərin fikrə gedir.

Xəbər gətirən şəxs yenə ona üz tutur:

– Ey böyük alim, nə üçün belə fikrə getdiniz?

– Fikirləşirəm görüm son vaxtlar əlimdən və dilimdən nə xəta baş vermişdir ki, belə bir cahil məni tərifləsin – deyə Platon cavab vermişdir.

**KRILOVUN CAVABI**

Rus ədəbiyyatının ölməz təmsilçisi İ.A.Krılovdan soruşurlar:

– Bu qədər istedadınız olduğu halda nə üçün az yazırsınız?

O, cavab verdi:

– Yaxşısı budur ki, mən az yazdığım üçün qoy məni danlasınlar. «Ancaq nə üçün çox yazırsan?» – deyib soruşmasınlar.

**DEMOKRİT**

Məşhur yunan filosofu Demokrit demişdir:

– İnsanın bədbəxtlik və xoşbəxtliyi sərvət və qızılda deyildir. Səadət və fəlakət mələyi insanın özündədir.

**DİVGEN DÜNYASI**

Görkəmli filosof Divgendən soruşdular:

– Dünyada ən çətin şey nədir?

O, cavab verdi:

– İnsanın özünü dərk etməsi və fikirlərini gizlətməyi bacarması.

– Sənin sərvətin və mülkün hardadır?

– Bax, bunlardır! – deyə alim öz şagirdlərini göstərdi

**KƏRİM XAN ZƏND**

İran hakimi Kərim xan Zəndə bir tərlan quşu bağışlamışdılar. O, quşa baxıb dedi:

– Bu quş nə üçündür?
– Göyərçin, kəklik, bildirçin ovlamaq üçün.
– Özü nə yeyir?
– Gündə bir quş.
– Elə isə buraxın getsin, özü tutsun, özü də yesin.

## MARK TVENİN FİKRİNCƏ

Görkəmli Amerika yazıçısı Mark Tven təkcə Amerikada deyil, dünya ədəbiyyatında sevilən, şöhrət zirvəsinin yüksəklərində dayanan şəxsiyyətlərindən biri olmuşdu. O, həm də duzlu-məzəli sözləri, baməzə yumoru ilə də fərqlənmişdir. Bir dəfə qonaqlıqda iştirak edən zaman onun yanında oturan varlı zadəgan bahalı qalstukunu yazıçıya nümayişkarənə göstərərək demişdir:

– Bir bu qiymətli qalstuka baxın. Buna düz əlli dollar vermişəm.

Mark Tven cavabında:

– Düz eləmisiniz. Amerika cəmiyyətində uzunqulağın da boynuna varlılar belə qalstuklar taxırlar.

Bu cavabdan pərt olan zadəgan söhbətin səmtin dəyişmək üçün yazıçıya aşağıdakı sualı vermişdir:

– Siz böyük adamsınız. Deyə bilərsinizmi ən qorxulu yer haradı?

– Yorğan-döşək

Təəccüblənən zadəgan demişdir:

– Nə üçün yorğan-döşəyi nəzərdə tutursunuz?

– Çünki dünyanı tərk edənlərin əksəriyyəti öz ölümlərini yorğan-döşəklə başa vururlar.

## ACIYA DÖZMƏK

Nizamülmülk adlı bir görkəmli alim Tus şəhərində bir məktəb yaratmışdı. Orada əhli-ürfan sahiblərinə dərs verirdi. Ona kimlər hədiyyə gətirsəydilər, şagirdləri arasında bərabər paylaşardı. Bir dəfə kənddə yaşayan bir əməkçi insan Niza-

mülmülkün görüşünə gəlmişdi. Üç ədəd də öz bostanından dərdiyi xiyar gətirmişdi. Bu əhli-ürfan sahibi kişini yola salandan sonra otağına çəkildi. Xiyarın üçünü də özü yedi.

Dərsdən sonra diribaş şagirdlərdən biri ustadına dedi:

– Siz həmişə gətirilən payları şagirdlərinizlə bölüşürdünüz. Nədən bu dəfə belə etmədiniz?

Ustad cavab verdi:

– Xiyarlar o qədər acı idi ki, acısı boğazımı yandırdı. İstəmədim ki, mənim şagirdlərim də bu acını duysunlar, boğazları acıdan yansın.

Şagird yenə davam etdi:

– Xiyarların əvvəldən acı olduğun bildiyiniz halda niyə qaytarıb sahibinə vermədiniz?

– Onda mən onu sındırardım, qəlbinə dəyərdim. O, bostanından ilk nübarı mənə hədiyyə gətirmişdi. Ona görə xiyarın acılığın ona bildirmədim. Hətta ona minnətdarlıq etdim.

Bu sözlərdən ustadının bir daha böyüklüyünü ürəyində təsdiq edən şagird fikirlər aləmində evə doğru yol aldı.

## ULU PEYĞƏMBƏRİN İRADI

Ramazan ayı islam dinində ayların sultanı adlanır. Bu ay ən müqəddəs, şərafətli ay sayılır. Bu ayın ən üstün, müqəddəs fəzilətlərindən biri insanlarda mərhəmət hissinin, xeyirxahlığın daha da uca tutulmasıdır.

Bu barədə Ulu Peyğəmbərimizə aid olan hədisdə deyilir:

– Peyğəmbərimizin sağlığında Ramazan ayı imiş. Onun xanımlarından olan biri də hamı kimi oruc tutmuş imiş. Necə olursa bu qadın əsəblərini cilovlaya bilmir, xidmətçiyə acıqlanır. Bunu eşidən Peyğəmbərimiz bu xanıma deyir:

– Get çörəyini ye, orucun batil oldu

Bu sözdən sarsılan qadın deyir:

– Nə üçün?

– Çünki sən oruc olduğun halda, başqasının qəlbin qırdın. Bu hal nə oruc tutana, nə də müsəlmanlığa yaraşmaz.

## QONŞUDAN SORUŞMAQ

Bir şəxs Allahın Rəsuluna yaxınlaşaraq ondan xeyirverici nəsihət deməsini xahiş etdi. Həm də qeyd elədi ki, sizin buyurduqlarınıza mütləq əməl edəcəyəm. Rəsulullah o şəxsə yaxşı adam olmağı, ehsan etməyi məsləhət bildi. Həmin insan soruşdu:

– Ya Rəsulullah, yaxşı adam olmağımı hardan və necə biləcəyəm?

Rəsulullah buyurdu:

– Qonşulardan soruş. Əgər onlar sənin yaxşı adam olduğunu söyləsələr, demək, yaxşısan, pis olduğunu söyləsələr, demək, pis adamsan.

## HƏDDİ GÖZLƏMƏK

Bir adam Rəsulullahın yanına gələrək qonşusundan şikayətlənməyə başladı. Rəsulullah buyurdu:

– Get səbir et.

Həmin adam daha bir neçə dəfə şikayətə gəldi. Son gəlişində Rəsulullah belə buyurdu:

– Get ev əşyalarını bayıra tök. Həm də yol qırağına. Qoy ordan keçənlər, qonum-qonşu bu mənzərəni görsünlər.

Həmin şəxs deyilənlərə əməl etdi. Camaat ordan keçərkən nə üçün belə etdiyinin səbəbini soruşurdu. O da qonşusu ilə aralarında olan vəziyyəti anladırdı. Buna görə də ordan gəlib-gedən insanlar pis qonşuya lənət oxuyurdular.

Nəhayət, bu hadisələrə səbəbkar qonşu vəziyyəti eşidib, ora gəldi. Qonşusuna üz tutaraq üzrxahlıq etdi və dedi:

– Evinə qayıt. Bundan belə məndən xoşuna gəlməyən bir hərəkət görməyəcəksən. Elədiyim səhvlərin xəcalətin indi çəkirəm.

## HƏKİM MƏSLƏHƏTİ

Bir hökmdar köklükdən əziyyət çəkir, çox vasitələrə əməl etsə də, ciddi təsiri olmurdu. Məmləkətin bütün tanınmış həkimləri, elm adamları saraya axışsa da, hamısı aciz idi.

Bir gün paytaxda bir qərib təbib peyda oldu. O, hökmdarın mübtəla olduğu bu dərdə çarə edə biləcəyini söylədi. Onu hökmdarın qəbuluna apardılar. Təbib hökmdarla bir qədər söhbət edəndən sonra bu barədə ulduzlara baxacağını deyərək bir günlük möhlət istədi. Ertəsi gün hökmdarla görüşəndə bu etirafda bulundu.

– Hökmdarın, müalicənin bir faydası olmayacaq. Ulduzlar göstərir ki, sizin bir aydan artıq ömrünüz qalmamışdır. Əgər mənə inanmırsınızsa, zindana salınmağım haqda əmr verin. Əgər dediklərim düz olmasa, boynumu vurdurarsınız.

Hökmdar bu sözlərdən bərk qəzəbləndi və həkimi həbsə aldırdı.

Deyilənlərə baxmayaraq hökmdar əvvəlki saray həyatını davam etdirirdi. Lakin həkimin dediyi müddət yaxınlaşdıqca hökmdarın qəlbinə üzüntülü qüssə və qorxu çökməyə başlayır. Hər şeydən soyuyur, istahdan düşməyə başlayır. Yeyib-içmədiyi üçün ayın sonunda arıqlayıb, tanınmaz hala gəlir. Həkim zindandan vasitəsi ilə vəziyyəti öyrənir. Hökmdara belə bir sifariş göndərir:

– Hökmdarım, məqsəd hasil olmuşdu. Məni azad edə bilərsiniz, öləcəyinizi düşünməyin! Ömrünüz hələ uzun olacaq.

Hökmdar dərhal təbibi zindandan azad etdirdi və ona xeyli ənamlar verdi.

## MƏRHƏMƏTƏ SIĞINAN İNSAN

Bir ehtiyac içində olan şəxs yaxınlarından mərhəmət sahibi olan imkanlı şəxsin dükanına getdi. Ehtiyac içində boğulduğuna görə ona 400 dirhəm pula ehtiyacı olduğunu bildirdi. O mərhəmət sahibi onun hüzuruna gələn şəxsin dediyi məbləği gülərüzlə ödədi. Ancaq geri dönərkən ağlaya-ağlaya evlərinə girdi. Bunu görən xanımı çox pərişan oldu. Vəziyyəti öyrənəndən sonra ərinə dedi: «Əgər pul vermək sənə zor gəlirdisə, bir bəhanə tapıb, geri qaytaraydın».

Əri ona belə cavab verdi:

– Mən verdiyim pula görə deyil, onun durumuyla maraqlanmayıb, onu ehtiyac içində qapıma gəlməyə məcbur etdiyimə görə ağlayıram. Allahımız məni də onun gününə bir andaca sala bilər.

## ALLAH QORXUSU

Görkəmli din alimlərindən Əhməd oğlu Hənbəl həzrətlərinin iştirak etdiyi məclisdə bir nəfər nüfuz sahibi olan Bişr Hafi həzrətlərinin elminin azlığından söhbət açdı. Görkəmli din alimi Hənbəl o şəxsə belə cavab verdi: «Güman edirəm ki, səhv xülyalara dalmısınız. Bişrdə elm yetərincədir. Bütün elmlərin başı Allah qorxusudur. Bu da onda yetərincədir. Ürəyində Allah qorxusu olan insanlar həmişə düzlüyə, ədalətə, paklığa meyil edərlər. Bundan isə bütün cəmiyyət faydalanar».

## HİKMƏT DÜNYASI

Sabit Mərdan oğlu öz elmi, bütöv şəxsiyyəti ilə ürfan dünyasının görkəmli şəxsiyyətlərindən olmuşdu. O, bir dəfə uşaqlıq çağlarında məhəllə uşaqlarına uyaraq qonşunun bağından bir neçə alma dərib yemişdi. İllər ötdü, o, elmi, şəxsiyyəti, halallığı ilə seçilən alim oldu. Bir gün haram, oğurluq sayılan alma yeməyi yadına düşdü. Bu vaxt otuz yaşı adlamışdı. Ancaq ailə qurmamışdı. Soraqlaşıb yaşa dolmuş o bağ sahibini tapdı. Ondan üzr istədi, yediyi almalara halallıq istədi.

Bu şöhrətli gəncin belə saflığı kişinin xoşuna gəldi. Onu bir daha sınamaq istədi. Dedi:

– Bir şərtlə halal edərəm. Mənim bir qızım var. Gözləri görmür, qulaqları eşitmir, dili danışmır, ayaqları yerimir. Onu sənə nikah etmək istəyirəm. Razı olsan, almaların halallığın verərəm.

Gənc bir qədər fikirləşib razılıq verdi. Nikahdan sonra oğlan çox üzüntülü halda zövcəsinin olduğu otağa daxil

oldu. Burada onu gözəl-göyçək, şirindilli, mehriban bir qız qarşıladı. Gənc gözlərinə inanmadı. Yaşlı kişinin dediyi nişanələrdən heç biri bu qızda yox idi. Gənc xanımına bu hikməti açmasın xahiş etdi. Xanım belə cavab verdi:

– Atam dinini sevən bir insandır. Sözlərində heç bir yalan yoxdur. İllərdir ata evindən bayıra çıxmamışam. İndiyə qədər heç bir naməhrəm üzümü görməyib. Mən də naməhrəm üzü görməmişəm. Bu səbəbdən gözlərim harama kordur. Qulağım bir naməhrəm sözü eşitməmiş və günah işləməmişdir. Buna görə günaha qarşı qulağım kardır. Ayaqlarım günah olan yerə getməz. Buna görə də günaha qarşı topalam. Dilimdən günaha səbəb olacaq bir kəlmə çıxmayıb. Ona görə də lal deyilmişdir. Atamın sözlərindəki hikmət dediklərimdir.

Oğlan belə atadan və qızından çox razı qaldı. Tanrının bu qismətinə şükürlər etdi.

## SULTANIN İNAMI

Bir ölkənin sulatını adiliyi, səxavəti, mərhəməti, xalqa inamı ilə başqa hökmdarlardan fərqlənirdi. Həmişə müharibələrdə əldə etdiyi qənimətləri xalqa paylatdırardı. Bu sultanın hökmdar dostlarından biri onu yoluxmağa gəlmişdi. Söhbət əsnasında qonaq bu mərhəmətli sultana məsləhət gördü ki, döyüşlərdə qazandığı qənimətləri xəzinəyə doldursun. Xəzinəsi dolu olmayan ölkə gücsüz sayılar. Camaatın varlanmağının dövlət başçısına heç bir xeyiri olmaz.

Bu sözləri eşidən sultan elə qonağının yanındaca göstəriş verdi ki, çarçılar car çəksin, xəzinəni doldurmaq üçün onlardan kömək istənilsin. Qısa müddətdə kimin nəyə imkanı çatırdısa, gətirib xəzinəyə verdi. Xalqın ürəkaçıqlığı ilə belə hərəkət etməsi sultanı fərəhləndirdi, göylərə qaldırdı.

Qonağına üz tutub dedi:

– Gördünmü, hökmdarına arxalanan, inanan xalq dar gündə onu darda qoymaz. Hökmdarın, dövlətin arxasında dayanar.

## HƏZRƏT ƏLİNİN (Ə) CAVABI

Həzrət Əli (ə) xaricdə savaşa gedərkən Əfif İbn Qeys adlı bir münəccim ona ərz elədi:

– Ya Əmirəlmöminin, bu gün döyüşə getsək, qalib gələ bilməyəcəyindən qorxuram. Ulduzlar pis göstərir.

Həzrət ona buyurdu: «Sənin fikrincə bir saat var ki, o saatda döyüşə gedənə yamanlıq yetişməz, bir saat da var ki, o saatda döyüşə gedənə yamanlıq yetişər, eləmi? Kim sənin bu sözünü təsdiq edərsə, o, «Quranı» təkzib etmiş olar. Çünki arzuladığı şeylərə qovuşmaq və arzulamadığı şeylərdən qurtulmaq üçün Allahın yardımına möhtac olmadığını düşünər. Sənin bu sözlərinə uyanın rəbbinə deyil, sənə həmd etməsi gərəkdir. Bu da küfr sayılar.

Sonra üzünü camaata tutdu: «Nücumu (ulduz elmi)» öyrənməkdən çəkinin. Onu yalnız quruda və dənizdə yolu tapmaq üçün öyrənin. Çünki ulduz elmi qeybdən xəbər verməyə aparır. Münəccim kahin kimi, kahin sehrbaz kimi, sehrbaz da kafir kimidir. Kafir isə cəhənnəmlikdir».

Həzrət elə o gün döyüşə getdi və qalib gəldi.

## EYNŞTEYN DÜNYASI

Var-dövlətin, şan-şöhrətin bu dahi insanın həyatında elə bir əhəmiyyəti, qiyməti yox idi. Eynşteyn bir dəfə məcburən, həm də arvadının ciddi təkidi ilə bir zəngin ailənin toy şənliyində iştirak etməli olur. Bu kübar ailənin toy şənliyinə gələn xanımların əksəriyyəti qiymətli daş-qaşlardan özlərini bəzəmişdilər. Bu qızıl hərislərini acı-acı seyr edən Eynşteynin qanı bir andaca qaraldı. Dərin fikirlər aləminə daldı. Bunu hiss edən ömür-gün yoldaşı narahat oldu. Ərindən belə dərin fikrə dalmağının səbəbini soruşdu. Eynşteyn əsas səbəb haqda danışmaq istəmədi. Yenə fikirlər aləmində vurnuxmağa başladı. Bu haldan narahat olan qadın ikinci dəfə belə fikrə dalmağının səbəbini soruşdu. Bu dəfə Eynşteyn belə cavab verdi:

– Fikirləşirdim ki, bu şöhrət düşkünü qadınların daş-qaşlarından necə elmi laboratoriya yaratmaq olar?

## BİSAVAD TEYMURDAN BİR YARPAQ

El-oba, şeir-sənət xridarları arasında böyük hörmət və nüfuz sahibi olan Bisavad Teymur XIX əsr Azərbaycan ədəbiyyatının sayılıb-seçilən simalarından biri olmuşdur. Onun şeir rübabı əsasən xalq şeiri ruhunda köklənmişdir. Dövründə baş verən hadisələrə münasibətin satirik, yumoristik şeirlərində əks etdirmişdir. Şeirləri hələ sağlığında ikən dillər əzbəri olmuşdur. Belə mövzulara aid bədahətən dediyi şeirlər xalq arasında nəsildən-nəsilə keçərək bu gün də yaşamaqdadır. Bisavad Teymurun bədahətən dediyi bir şeirlə bağlı əhvalatı oxucuların nəzərinə çatdırmaq istəyirəm. O, həm də baməzəliyi, duzlu-məzəli söhbətləri, hazırcavablığı ilə də məşhur olmuşdur.

İş elə gətirir ki, sevimli baharın gül-çiçəkdən xonça tutduğu vaxtlardan birində Bisavad Teymur yaxınlıqdakı qonşu kəndə piyada getməli olur. Təsadüfən kəndlərinin bir dəstə qız-gəlini şairin keçdiyi yolun kənarında pencər yığmağa çıxmışdılar. Qız-gəlin Bisavad Teymuru görən kimi şadlandılar. Bildirdilər ki, şair onları güldürməmiş, keflərinə xoş ovqat qatmamış keçib gedən deyil. Yaşı ötmüş, üz-gözdən də çirkin olan bir qızdan başqa heç kim çadralarını başlarına çəkmədi. Yaxınlaşıb Teymur əmiyə salam verdilər. Dilli-dilavər bir gəlin dilləndi:

– Teymur əmi, baharın bu gözəl çağında, yəqin ki, bizi güldürməmiş buradan keçməyəcəksən.

Bərk-bərk çadraya bürünüb, kənarda dayanan yaşlı qızın hərəkəti bir anlığa Teymur əmini düşündürdü. Bədahətən aşağıdakı şeiri əzbərdən dedi:

*Çox da naz eyləyib, üzünü bürümə,*
*Mən səni görmüşəm, a qara çirkin,*
*Ördək kimi qılçaları sürümə*
*Mən səni görmüşəm, a qara, çirkin.*

*Dodağı yekəsən, ağzı peləsən,*
*Haqq yaradıb, yoxsa özün beləsən?*
*Qonşuyla savaşıb üz-üzə gəlsən,*
*Qaxarlar başına, dübarə çirkin.*

*Qapını döyməyib elçilər hələ,*
*Atan-anan edir sənə hövsələ.*
*Sabun götür, üz-gözünü hövxələ*
*Bəlkə, ağarasan, a qara çirkin.*

*Toyda bayramlarda çəkərsən pərdə,*
*Sağlam cavanları salarsan dərdə.*
*Bisavad Teymuru getdiyi yerdə*
*Eylədin yolundan avara, çirkin.*

Şeir bitər-bitməz qız-gəlinin şaqraq gülüşü ətrafa yayıldı. Bisavad Teymuru alqışladılar, xeyirli yol arzuladılar. Çadraya bürünən həmin qız da xəcalətindən utandı. Büründüyü çadranı başından yerə atdı.

## ÇANAQ İÇİ ÇIXARTMAQ

Bu ifadə adi danışıq dilində, xalq arasında əhatə dairəsinə görə geniş işlənən aforizmlərdəndir. Yaşlı insanlar bu aforizmi daha çox işlədirlər. Bir nəfər asan bir işi görə bilməyəndə, əlindən adi bir iş gəlməyəndə, həm də çox çətinliyə düşdüyünü deyəndə bir işgüzar, hərtərəfli qabiliyyətə malik insan ona deyir:

– O, nə olan işdi ki, sızıldaya-sızıldaya gileylənirsən? Çanaq içi çıxartmırdın ki?

Bəs nə üçün çanaq içi çıxartmaq ağır, həm də çox incəlik tələb edən peşə sayılıb?

Bu peşə ilə əsasən dülgərlik oyma sənəti, xarratçılıq sahəsini bacaranlar məşğul olub. Qədimdə adi məişətdə əsasən qarağacdan, palıddan, qırmızı şamdan, dəmir ağacından istifadə etməklə kamil ustalar məişətdə geniş işlənən qab-qacaq hazırlayırdılar. Bunlardan teşt, tabaq, qənddan, qənd doğramaq üçün çanaq, eləcə də itlərə yal vermək üçün canağı göstərmək olar.

Görkəmli yazıçımız Mirzə İbrahimovun «Böyük dayaq» romanı əsasında çəkilmiş eyniadlı filmində kolxoz sədri Rüstəm kişi deyir: «Hər it yalını öz çanağında yalasa yaxşıdır».

Bu adlarını qeyd elədiyimiz məişət əşyaları çox çətinliklə başa gələn incə, həm də ağır iş sayılardı. Hər usta bu işləri görə bilməzdi. Düzəldilən çanağın, yaxud hər hansı qabın içərisi çox çətinliklə, ağır zəhmət hesabına kiçik hissələrlə çıxarılardı.

Uşaqlıq vaxtlarımda evimizdə babamızdan yadigar qalan, qarağacdan düzəldilən çanaq adlanan qənd doğramaq üçün olan taxta məişət avadanlığını özüm görmüşdüm. O qaba baxanda hiss olunurdu ki, bu qabın əmələ gətirilməsinə nə qədər ağır, həm də zərgər dəqiqliyi ilə işlənən əmək sərf edilib. Elə buna görə də o işlərin ağırlığın nəzərə alıb deyirlər: «Çanaq içi çıxartmırdın ki?» Musiqi alətlərimizdən tarın, sazın, kamançanın düzəldilməsində əsas hədəf, həm də ağır iş çanaq hissənin başa gəlməsi olub. Ona görə də bütün dövrlərdə çanağın içinin düzəldilməsi ağır, həm də maraqlı peşə növü olub.

Ölkəmizdə əvvəllər ustad sənətkarlarımız taxılı ölçmək üçün «çanaq» adlı uyğun ağac materialından xüsusi qab da düzəltmişdilər. Taxıl əsasən «çanaq» adlı bu qabla ölçülmüşdür. Beş çanaq buğda, beş çanaq arpa və s.

## LƏLƏ BAYATISI

Lələ sözü klassik Azərbaycan ədəbiyyatında, eləcə də adi danışıq dilində geniş işlənmişdir. Bu sözün daşıdığı məna yükü təxminən tərbiyəçi və dayə sözləri ilə sinonimlik təşkil etmişdir. Bəzi ailələrdə hətta ataya da «lələ» – deyə müraciət etmişlər. Lələ adlı oğlan adları da olmuşdu.

Bu sözün məna yükü, «Əsli və Kərəm» dastanında daha qabarıq verilmişdir. Hələ uşaqlıqdan Kərəmin Lələsi onun təlim-tərbiyəsi ilə məşğul olmuş, ağır və çətin anlarda həmişə ona yol göstərən, qayğısına qalan olmuşdur. Azərbaycan tarixində öz adını qılıncı və qələmi ilə əbədiləşdirən Şah İsmayıl Xətainin də sağ qalmasında, böyük fatehlər sırasında dayanmasında onun tərbiyəçisi Lələ Hüseyn bəyin böyük rolu olmuşdur. Qədim dövrlərdə xüsusilə kübar ailələrdə

sayılıb-seçilən, bilikli, savadlı şəxsləri öz oğlan uşaqlarına lələ təyin edərdilər. Qızların tərbiyəsi ilə məşğul olanlar isə dayə adlanardı.

Seçilən lələ və dayələr kiçik yaşlı uşaqları gələcək həyat yollarında layiqli yer tutmağa hazırlayırdılar. Onlar xüsusilə folklorumuzu dərindən bilməli, bildiklərini uşaqlara öyrətməli idilər.

Lələ təyin edilən şəxs özü çoxlu bayatı, layla, oxşama, nağıl, dastan, rəvayət, məsəllər, atalar sözləri və sairəni dərindən bilməli və tərbiyəçi təyin edildiyi uşağa bunları öyrətməli idi.

Lakin lələ təyin edilərkən bəzən səhvlərə də yol verilərdi. Savadı, təhsil səviyyəsi az olan belə lələ vəzifəsin icra edənlər heç bir ictimai əhəmiyyət olmayan, hardansa yaddaşlarında ilişib qalan bayatıya oxşar şeir nümunələrini də öyrətməyə çalışırdılar. Bu həmin lələnin bilik səviyyəsinin azlığını göstərən əlamət sayılardı. Sonralar belə heç bir məna yükü, qafiyə və ölçü quruluşu olmayan şeirə oxşar nümunələr xalq arasında «Lələ bayatısı» adlanmağa başlandı. Bəzən lazımi yerdə, bir məclisdə belə şeirə oxşar nümunə söyləniləndə kənardan bir aqil şəxs deyərdi: «Sənin bu sözlərin lap oldu lələ bayatısı».

İndinin özündə də heç bir əhəmiyyəti olmayan iş görüləndə ustad insanlardan biri deyir: «İş gör, iş olsun, mənə lələ bayatısı çağırma».

## ÖZGƏ ÖZGƏ ÖLÜSÜN BAYATI İLƏ AĞLAYAR

Bu aforizm də el-oba arasında, danışıq dilində geniş işlənən ifadələrdəndir. Bəs «Özgə özgə ölüsün bayatı ilə ağlayar» aforizminin məna yükü, açılışı necədir?

Danışıq dilində buna uyğun gələn başqa bir atalar sözü də işlənir: «Özgə ölüsü özgəyə yatmış kimi görünər».

Bu atalar sözündəki mənanın anlamı əvvəlkinə nisbətən anlaşıqlıdır. Ancaq əvvəl işlətdiyimiz aforizmin məna yükünü açmağa dəyər.

Görərsən ki, bir eldə-obada qəfildən yas mərasimi düşdü. Belə halda əvvəl həmin yas yerinə qonum-qonşu, qohum-

qardaş özün yetirər, tökülən göz yaşları ilə dünyasın dəyişən insanın yaxınlarına bir növ təsəlli verər, bununla onun ağır kədərinə şərik olduqlarını bildirmək istərdilər. Lakin yas yerinə adət xatirinə elə insanlar da gəlir ki, nə qədər cəhd etsələr də, gözlərindən bir damla da yaş çıxmır. Bir növ ölənin taleyinə ürəkdən yanmır. Ancaq ürək yanmasa da, gözdən yaş çıxmasa da, yas sahibinə yaxın görünmək üçün ucadan bayatı çəkib, nəzərləri öz üzərilərinə cəlb edərlər. Bu cür hay-həşirlə yas sahibinə yaxın, ürəyi yanan insan olduqlarını, üzdən də olsa, bildirmək istərlər. Elə buna görə də belə qarayaxa adamlar haqda deyərlər: «Özgə özgə ölüsün bayatı ilə ağlayar».

Bu barədə nakam şairimiz M.Müşfiqin bir məşhur rübaisini xatırlatmaq yerinə düşər.

*Qönçə açılarmı bahar olmasa,*
*Yarpaq titrəyərmi, rüzgar olmasa.*
*El kəsib qarşımı burdaca sordu,*
*Gözdən yaş çıxarmı, ürək yanmasa?*

## ZƏHMƏT QİSMƏTDƏN ÜSTÜNDÜR

Bir əyalətin hakimi həm əməli, iman yolçusu olması ilə hörmət sahibi olmuşdu. Oturub-durduğu adamlar da elm adamları və üləmalar idi. Bir dəfə üləmalarla söhbət zamanı baş üləmaya məclis iştirakçılarından biri belə bir sual verdi:

– İnsan həyatında zəhmət üstündür, ya qismət?

Üləma bu sualın ətrafında geniş danışdı. Ancaq qisməti zəhmətdən üstün qiymətləndirdi. Əyalətin hakimi onun sözlərindən razı qalmadı. Məclis dağılanda təklikdə ona iradını bildirdi və bunu yaxınlarda sınaqdan keçirəcəyini də dedi.

Hakim bir neçə gündən sonra camaatın çox gediş-gəlişi olduğu, ancaq çətinliklə getmək mümkün olan yolun görünməz bir hissəsinə gəldi. Axşamüstü idi. Get-gəl kəsilmişdi. Lingin köməyi ilə çox çətinliklə iri bir daşı yuvarladıb yolun ortasına saldı. Səhəri gün özü dalda bir yerdə gizlənib, gəlib-gedənləri

müşahidə etməyə başladı. Gördü ki, ordan gəlib keçənlər heç daşla maraqlanmadılar. Ya daşın alt tərəfindən, ya da üst tərəfindən bir təhər keçib getdilər. Axırda bir ortayaşlı əkinçi burdan keçməli oldu. Əkinçi başqaları kimi hərəkət etmədi. Çalışdı ki, daşı yoldan kənarlaşdırsın, insanlar yoldan asanlıqla istifadə etsinlər. Çox əlləşdi, axır ki, daşı itələyib yoldaan çıxara bildi. Gördü ki, daşın altında bir kiçik kisə qızıl, bir də yazılı kağız var. Qızılı da, kağızı da götürdü. Kağızdakı yazını oxumağa başladı. Kağızda yazılmışdı: «Həyatda hər bir çətinliyin həyat şirinliyi də vardır».

Əkinçi qızılı və kağızı cibinə qoyub, evinə doğru sevincli anlarla yol aldı.

Bayaqdan əkinçini müşahidə edən əyalət hakimi dodaqaltı pıçıldadı: «Düzdü, həyatda qismətin də öz yeri var. Ancaq zəhmət çəkməsən, bağlı qapılar həmişə üzünə açılmaz». Əkinçi daşı yoldan kənarlaşdırmağa çalışmasaydı, qızıla da sahib ola bilməyəcəkdi. Deməli, zəhmət qismətdən üstündür.

### SƏN ÇALDIN

Bu ifadənin açılması, məna dərinliyi haqda «Molla Nəsrəddin» lətifələrində açıqlama verilir. Həmin lətifədə deyilir:

Bir gün Molla Nəsrəddin şəhərə gedirdi. Bundan istifadə etmək istəyən qonum-qonşu, qohum-əqrəba, kəndlilərinin bəziləri Molla Nəsrəddindən bəzi şeyləri alıb gətirməyi xahiş edirlər. Ancaq heç kim pul vermir. Deyirlər ki, alıb gətirəndən sonra pulunu verəcəyik. Elə bu əsnada kənarda dayanıb bu hadisələri müşahidə dən bir oğlan mollanın yanına gəlir və deyir:

– Molla əmi, al bu bir abbasını, mənə bir tütək al.

Pulu alıb cibinə qoyan Molla Nəsrəddin deyir:

– Bala, sən çaldın.

Yəni sən tütəyin pulun nağd ödədiyinə görə tütəyi mütləq alacağam, sən də çalacaqsan.

Müasir dövrdə sən çaldın ifadəsi, eləcə də «çalmaq» ifadəsi müxtəlif mənalarda işlənir. İndi birinin işi düzələndə, yaxşı dosta, yaxşı həyat yoldaşına tuş gələndə ona da deyirlər:

«Sən çaldın». Yəni həyatda nəyisə qazandın, işlərin qaydasına düşdü.

Çalmaq sözü müasir ədəbi dilimizdə, eləcə də danışıq dilində həm omonim, həm də çoxmənalı söz kimi işlənir. Bunlardan bir neçəsini misal göstərək:

1. Sən çaldın, yəni işin düzəldi, uğur qazandın.
2. Hər hansı musiqi aləmində çaldı.
3. Qapının zəngini çaldı.
4. Ot çaldı.
5. İlan çaldı.
6. Ana qatıq çaldı, halva çaldı.
7. İgid qılınc çaldı və s.

Çalmaq sözü dilimizdə həm fel, həm də sifət kimi işlənir. Fikrimizi yekunlaşdırmaq üçün Dədə Ələsgərin məşhur «Çataçat» dodaqdəyməzinin sonuncu bəndin nəzərinizə çatdırmaq istəyirəm.

*Ələsgərin xətti çıxdı, çal indi.*
*Heyi yeyə, dalı reyə çal indi.*
*Hərcayının kəlləsindən çal indi,*
*Sal çəngəlin, çək ciyərin çataçat.*

**Qeyd**: *Ələsgərin xətti ifadəsi ruhanilərin saxladıqları gödək saqqal, xəttin çal olması isə ağ türklə qaranın bir-birinə qarışması anlamındadır.*

*Heyin yeyə, dalın reyə çalınması, yəni yazılması Heydər mənasın-Həzrət Əlinin adını bildirir.*

*Beləliklə, çalmaq sözünün bir neçə məna çaları haqda bilgimizi oxuculara çatdırmaq istədik. Bu da dilimizin dillər sırasında yüksəkdə dayanmasına bir nümunədir.*

## İLAHİ MƏRHƏMƏTLİLƏRİ QORUYAR

Qədimlərdə ölkələrdən birində il nəs gəlmişdi. Aclıq, qıtlıq hökm sürürdü. Belə bir vaxtda məhdud səviyyədə olsa da toy şənlikləri birtəhər keçirilir, yeni ailələr qurulurdu.



Yenə bu ildə bir-birini dəlicəsinə sevən iki gəncin toy şənliyi idi. Nəhayət, gəlini bəy otağına gətirdilər. Bəy otağı ümumi yaşayış evindən bir az aralı idi. Qayınana gəlinə xörək gətirdi və dedi:

– Qızım, yəqin ki, acsan. Sən xörəyini yeməyə başla. Sevgilini gözləmə. Adətimizə görə o, toran düşəndən sonra sənin yanına daxil olacaq. Allahımız sizi xoşbəxt eləsin!

Bunu deyib, qayınana burdan aralandı.

Gəlin bir-iki tikə yemişdi ki, qapı döyülməyə başladı. Qapını döyən yaşlı bir dilənçi kişi yalvar-yaxar edir, neçə gündü ac olduğunu bildirirdi. Gəlin qapıya çıxdı. Özü ac qalsa da, ona verilən xörəyi çörəklə birlikdə dilənçiyə verdi. Dilənçi dua-səna edə-edə buradan aralandı.

Toran düşəndə sevgilisi otağına daxil oldu. Həsrətlilər bir-birinə qovuşdu, vüsal şərbətini içdilər. Dünəndən bu yeni qurulan ailəni narahatlıqla izləyən dərviş baba (o həm də münəccim idi) qayınatanın yanına gəldi. Dərdli-dərdli təzə bəyi soruşdu.

Ata oğlunun vacib iş dalınca getdiyini bildirdi. Dərviş İlahi dərgahına şükürlər etdi. Ata ilə birlikdə bəy otağına daxil oldu. Yolda dərviş ataya demişdi:

– Mən oğlanın gözlərindən və ulduzların falından faciə baş verəcəyini anlamışam.

İçəri keçən kimi dərviş axşamdan salınan yataq yerinə yaxınlaşdı. Döşəyi qaldırdı. Döşəyin altında qıvrılıb yatan zəhərli ilanı görüncə dərvişi də, atanı da xof basdı. Dərviş dilləndi:

– Ey Allahın heyvanı, Allah xatirinə dilə gəl! Bu necə işdi? Sən bu gecə oğlanı çalmalı idin. O, sevgilisinə qovuşmamalı idi. Buna səbəb nə oldu?

Allahın rizası ilə ilan dilə gəldi:

– Mənə siz deyən kimi göstəriş verilmişdi. Ancaq gəlin özü ac qalsa da, çörəyi xörəklə birlikdə neçə gün ac olan dilənçiyə verdiyinə görə hökm dəyişildi. Mənə də göstəriş verildi ki, döşəyin altında qıvrılıb yatım.

Bunu deyib xallı gürzə sürətlə açıq qapıdan bayıra çıxdı, buradan uzaqlaşdı.

Dərviş əllərini Haqq dərgahına qaldırdı, şükürlər etməyə başladı. Öz-özünə dedi: «Şükürlər olsun mərhəmətinə, Ulu Yaradan! Bir ac dilənçinin qarnın doyurmağa görə iki gənci faciədən qurtardın, vüsala yetişmələrinə fərman verdin! Gərək heç bir insan övladı bu halı yaddan çıxarmaya! Cəlalına bir daha şükürlər olsun!».

**DOVŞAN QUYRUĞU**

***(Gülməcə)***

İki nəfər bir-birindən uzaqda yerləşən kəndlərdə yaşasalar da, dədə-babadan qalan dostluqlarını davam etdirirdilər. Bunlardan Əli adlı kişinin yaşı otuzu adlamış ağıldan yüngül bir oğlu vardı. Əli kişi çox çalışdısa da, kəndlərindən heç kim onun oğluna qız vermədi. Birdən uzaq kənddə yaşayan, çoxdan görmədiyi dostunun həddi-buluğ yaşına çatmış qızı olduğunu xatırladı. Elə səhərisi gün hazırlaşdı, paylı-pürüşlü dostu yaşayan kəndə yol aldı. Orada qonaq çox hörmətlə, mehribanlıqla qarşılandı. Axşam çörəyindən sonra Əli kişi nə mətləbə gəldiyini dostu Vəliyə bildirdi. Vəli kişi də onunla həm də qohum olmağını özünə şərəf saydığını bildirdi. Ancaq dedi:

– Qardaş, sənin sözünü heç vaxt yerə sala bilmərəm. Ancaq mən də səninlə gedəcəyəm. Oğlunu mən görüb bəyənsəm, sonra qızımla da görüşüb fikirlərini bildirərlər.

Bu sözdən Əli kişinin dalağı sancdı. Bildirdi ki, oğlu bir-iki kəlmə danışsa, ağlını büruzə verəcək.

Səhəri günü hər iki dost atlanıb yola çıxdılar. Kəndə çatan kimi ata oğlunu xəlvətə çəkib, öyüd-nəsihət verdi. Əlavə də dedi ki, kürsünün altında mən qıçına toxunan kimi söhbəti dəyişərsən. Qış günü olduğuna görə kürsü qaydaya salınmışdı. Başqaları kimi oğlan da gəlib oturmuşdu. Vəli kişi oğlandan soruşdu:

– Oğul, nə peşənin sahibisən?

Oğlan sevincək cavab verdi:

– Ovçuyam. Gündə də bir dovşan vururam.

Vəli kişi elə ilk andan oğlanın ağlından şübhələnmişdi. Elə ona görə də dedi:

– Bala, dovşanın quyruğu neçə metrdir?

– Əmi, üç metrdir.

Elə bu vaxt ata oğlunun qıçına bir təpik vurdu. Atanın işarəsin anlayan oğlan yenə tələsik cavab verdi:

– İki metr.

Bu dəfə də atanın təpiyindən oğlan ayağa durub atanın üstünə qışqırdı:

– Sənin deməyindən belə çıxır ki, dovşanın heç quyruğu yoxdu?

Bu cavabdan şaqqanaq çəkib gülən qız atası ayağa durdu. Atın minib geriyə döndü.

## XAN ŞUŞİNSKİ DÜNYASINDAN BİR YARPAQ

Xan Şuşinskinin böyük şöhrət zirvəsində olduğu vaxtlar idi. Filarmoniyada Azərbaycanın görkəmli mədəniyyət xadimlərindən ibarət bir komissiya təşkil edilmişdi. Xan Şuşinskinin başçılığı ilə fəaliyyət göstərən bu komissiya muğamlarımızı yaxşı ifa edən bir qrup gəncin içərisindən ən yaxşılarını seçməli idi. Müsabiqə başlayanda xan əmi qabaq sırada oturan Əvəzxan Xankişiyev adlı bir gəncə müraciət etdi:

– Ə, bala, nə oxuyacaqsan?

Gənc Əvəzxan cavab verdi:

– Mirzə Hüseyn segahı.

– Başla görək.

Bu gənc Mirzə Hüseyn segahını eynilə xan əminin oxuduğu kimi ifa etməyə başladı. Bundan heyrətlənən Xan Şuşinski ucadan dilləndi:

– Ə, bala, saxla. Bu, mən idim, indi özün ol!

Əvəzxan bu dəfə də öz stilində bu segahı daha da məharətlə oxumağa başladı.

Bu gəncin şirin avazı, zənguləsu xan əmiyə ləzzət elədi. Xan əmi öz aləmində elə düşünürdü ki, yaxşı oxuyanlar müt-

ləq Qarabağ oymaqlarından olmalıdır. Yaxşı səsi olan ayrı bölgədən olduğunu desəydi, bu, xan əminin xoşuna gəlməzdi.

Üzünü Əvəzxana tutan xan əmi yenə dilləndi:

– Ə, bala hardansan?

– Xan əmi, anam Qarabağdandı, – Bərdədən.

– Deyirəm axı, başqa cür də ola bilməzdi! Bu səs şirin Qarabağ ləhcəsidir. Beləliklə, xan əminin, eləcə də digər münsiflərin rəyi ilə Əvəzxan müsabiqənin qaliblərindən biri kimi filarmoniyada işə qəbul edildi.

**Qeyd:** *Çox istedadlı şəxs olan Əvəzxan həm də Aşıq Şakirin şagirdi olmuşdu. Ona görə də Əvəzxan həm xanəndə, həm də aşıq kimi şöhrət qazanmışdı. Bu yolda ona yaşıl işıq yandıran xan əmini, aşıq Şakiri və Sabir Mirzəyevi indi də ehtiramla xatırlayır.*

## MƏHƏBBƏT DÜNYASININ CƏFAKEŞİ

Azərbaycanın azadlığı, müstəqilliyi yolunda əsl mücahid, vətən fədaisi olan görkəmli şairimiz Əhməd Cavad keşməkeşli, sonu faciə ilə qurtaran ağrılı-acılı bir tale yaşamışdır. Cümhuriyyət dövrünün fədaisi və tərənnümçüsü olmuşdur. Qardaş Türkiyənin ağır günlərində–Canaqqala döyüşlərində Azərbaycandan gedən könüllü mücahidlərə başçılıq etmişdir. Türkçülük onun yaradıcılığında yaşıl bir xətt kimi yer almışdır. O dövrdə Cümhuriyyətimizin himninin sözlərini Əhməd Cavad, musiqisini isə dahi bəstəkarımız Üzeyir Hacıbəyov yazmışdır. Bugünkü müstəqil Azərbaycanımızın himni də elə Ə.Cavad və Ü.Hacıbəyoun ərsəyə gətirdiyi həmin himndir. Bu kiçik yazıda Əhməd Cavadın sədaqətli, dəyanətli ömür-gün yoldaşı Şükriyyə xanım haqda danışmaq istəyirəm.

Şükriyyə xanım Acarıstanda yüksək zirvələrdə sayılıb-seçilən Süleyman bəyin ailəsində dünyaya göz açmışdır. Elə öz vətənində də yüksək səviyyədə təhsil almış, kübar bir xanım olmuşdu.

Gözəllikdən süslənən, sonalanan vaxtlarında Ə.Cavada rast gəlmiş, çox çətinliklərdən, sınaqlardan sonra qovuşa bilmişdilər. Şükriyyə xanım el-obasını, ailəsini atıb, Əhməd Cavada bağlanmış, ömürlük ona sığınmışdır.

Təəssüf ki, bu xoşbəxt günlər uzun sürməmiş, rus bolşevik ordusunun işğalından sonra Ə.Cavad «xalq düşməni», «türk casusu» adı ilə təhdid edilməyə, hər tərəfdən sıxılmağa başlamışdır. Nəhayət, gecənin birində Ə.Cavadı da «gedər-gəlməzə» apardılar. Körpə uşaqları ilə çox acınacaqlı həyat keçirən Şükriyyə inanırdı ki, vətəninə bu qədər bağlı olan Əhməd Cavad heç vaxt xalqına düşmən ola bilməz. O, nə vaxtsa qayıdıb gələcək, lakin belə olmadı. Zülmət gecələrin birində onun da qapısı döyüldü. Gələn qarageyimli üç nəfər onu tanımadığı bir yerə apardılar. Orada Şükriyyə xanıma bildirildi ki, əriniz «xalq düşməni»dir. Əgər siz uşaqlarınızın, eləcə də özünüzün taleyinizi düşünürsünüzsə, ərinizdən boşanmalısınız. Bunun üçün qarşınıza qoyulan bu vərəqə qol çəkməlisiniz. Bundan sonra istədiyiniz yerdə gedib azad yaşaya bilərsiniz.

Bu sözlərdən Şükriyyə xanım elə bir qiyyə çəkdi ki, bu təklifi edən məmur diksinib ayağa durdu. Yenə Şükriyyəni dilə tutmağa çalışdı. Şükriyyə xanım gözlərindən od ələnə-ələnə, hıçqırıqlar içində çığırdı:

– Heç vaxt!...Heç vaxt!.... Mən el-obamı, Acarıstanın «açar-kilidi» sayılan atam Süleyman bəyi atıb Ə.Cavadı tutmuşam. İndi istəyirsiniz mən o kağıza qol çəkəndən sonra aparıb ərimə göstərib, sonra da onu güllələyəsiniz!... Mən ölərəm, bu təklifə heç vaxt razı olmaram!

Bu sözlərdən sonra elə ordaca Şükriyyə xanımı həbs edib, bir qrup başqa qadınlarla sərt iqlimli uzaq Qazaxıstan çöllərinə səkkizillik dəhşətli sürgün həyatına göndərdilər. Bu ağlasığmaz, dəhşətli sürgün illərində də şərəfini, ləyaqətini qorumağa çalışdı. Onun böyüklüyü bir də onda oldu ki, vaxtilə onlara düşmən kəsilən bolşevik Əli Bayramovun həyat yoldaşı, qatı bolşevik Ceyran Bayramovanı dəfələrlə rus əsgərlərinin caynağından xilas edə bildi. Çətin günlərdə Ceyran Bayramovaya arxa-dayaq oldu.

Bu dəhşətli sürgün həyatından 1956-cı ildə xilas oldu. Qayıdıb pərən-pərən olmuş balalarını çox çətinliklə başına yığa bildi. Ömrünün qalan hissəsini Şəmkirin Seyfəli kəndində vaxtilə Ə.Cavadın yaşadığı evdə yaşamağa başladı.

Eşq olsun belə məhəbbət əzabkeşlərinə!

Məhəbbət əzabkeşi olan Şükriyyə xanım boşanma haqda kağıza imza atsaydı, dəhşətli sürgün taleyin yaşamazdı, övladları kiçik yaşlarında dərbədər olmazdı. Bu addımı hər qadın da ata bilməzdi.

## ANA MÜQƏDDƏSDİR

Bir ölkədə çox əzazil, zalım hökmdar kəsərli qılıncını sağa-sola işlədirdi. Ağlına gələni yerinə yetirməyə çalışırdı. Bir gün də fərman verdi ki, qocalmış, yaşı ötmüş qadınlar öldürülməlidir. Kim bunu icra etməsə, boynu vurulmalı idi. Ölkəyə qorxunc matəm sükutu hakim kəsilmişdi. Hökmdarın adamları dəhşətli fərmanın yerinə yetirilməsinə nəzarət edirdi. Beləliklə, öz övladları yaşlı analarını məcburən, göz yaşı tökə-tökə öldürməyə başlamışdılar. Növbə bütün varlığıyla anasına bağlı olan kasıb bir oğlana çatdı. O, üç gün müddətinə verilən fərmana əməl etməsəydi, özü asılacaqdı. Bunu ana da bilirdi. Oğlunun asılmasını qəbul edə bilməyən ana oğlunu yanına çağırıb dedi:

– Oğul, bilirəm, sən bu müdhiş fərmanı icra etmək istəmirsən. Özünün öldürülməyini istəyirsən. Sən mən deyəni yerinə yetirməlisən! Yoxsa, südüm sənə haram olar. Bu gecə fərmanı yerinə yetirməlisən. Ancaq bir arzumu yerinə yetirməlisən. Məni qaranlıq meşəyə apararkən bir iri qutu ağ qərənfil də götürməlisən. Gedə-gedə qərənfilləri yola səpməlisən. Oğlan göz yaşı tökə-tökə yola çıxdı. Təyin edilən yerə çatanda qaranlıq yola səpilən ağ qərənfillər də qurtarmışdı. Ananı bura gətirdiyinə görə içəridən yana-yana qalan oğlan utandığından ananın üzünə baxa bilmirdi. Ana yenə dilləndi:

– Ay oğul, gəl hökmdar fərmanını icra et! Yoxsa sabah hökmdar səni də asdıracaq, körpə uşaqların, arvadın başsız

qalacaq. Onsuz da, qocalmışam, bir gün gec, bir gün tez bu fani dünyanı tərk edəcəyəm!

Oğlan qırıq-qırıq sözlərlə dedi:

– Ana, mən hələ də başa düşə bilmədim ki, o ağ qərənfilləri nə üçün yola səpirdin?

– Oğul, ona görə belə hərəkət etməyi tapşırdım ki, qaranlıqda sən geri dönəndə ağ qərənfillər yol seçməkdə sənə köməklik edəcək, yolu azmayacaqsan.

Bu sözləri eşidən oğlan varından yox oldu. Dünya başına fırlandı. Bir göz qırpımında ananı yerdən qaldırıb, arxaya doğru yola düşdü. Ananı evə qoyandan sonra hökmdarın sarayına yollandı. Hökmdarla görüşmək istədiyini bildirdi.

Hökmdar oğlanı qəbul etdi. Oğlan hökmdara dedi:

– Cəlladlara hökm elə, məni assınlar!

Təəccüblənən hökmdar səbəbini soruşdu.

Oğlan bütün əhvalatı, qərənfil məsələsini olduğu kimi danışdı. Bu sözlərdən xəcalət çəkən hökmdar verdiyi fərmanı ləğv etdi. Belə hərəkətinə görə oğlanı mükafatlandırdı.

## MÜŞFİQ DÜNYASININ FACİƏLİ ÖMÜR YOLU

Mikayıl Müşfiqin atası Mirzə Qədir İsmayılzadə dövrünün sayılıb-seçilən ziyalılarından biri olmuşdu. Hətta tarixi qaynaqlarda, «Şah İsmayıl» operasının librettosunun da Mirzə Qədir tərəfindən yazıldığı qeyd edilmişdi. M.Müşfiq də belə bir ziyalı ailədə dünyaya gəldiyindən sonralar fitri istedadı, dərin zəkası ilə seçilmişdir. Uşaqlıqdan yetimçiliyin ağır sınaqlarına tuş gələn M.Müşfiq ilk gənclik illərindən ədəbiyyat aləmində bir şimşək kimi çaxmışdır. İti, fenomen yaddaşı ilə dövrünün tanınmış ziyalılarını heyran etmişdi. Onun özünə ustad hesab etdiyi şairlər isə əsasən H.Cavid, Ə.Cavad və A.Şaiq olmuşdur. Bir dəfə bir ədəbi yığıncaqda Hüseyn Cavid fars dilində bir qəzəli əzbər demiş, sonra qəzəlin məzmununu Azərbaycan dilində izah etməyə başlamışdı. Cavid əfəndi fikrini tamamlayandan sonra M.Müşfiq icazə alıb ayağa durdu, həmin qəzəli fars dilində əzbər

dedi, sonra da Azərbaycan dilində tərcüməsini daha ətraflı izah etməyə başladı. Şagirdinin bu fitri istedadını alqışlayan H.Cavid onu bağrına basdı, riqqətlə dedi: «Sən bir odsan, atəşsən! Qorxuram ki, bu atəşlə öz-özünü də yandırasan!». 1937-ci illərin qasırğalı illəri əsl mənada ziyalı, vətəninin, el-obasının aşiqi olan insanlardan da yan keçmədi. Yığıncaqlarda H.Cavidi, Ə.Cavadı və romantizm ədəbi cərəyanına mənsub olan digər ziyalıları «Türkiyə çavuşları», «Pantürkist» adlandırmağa başladılar. Gənc Müşfiqi də bu siyahıya daxil etmişdilər. Bir gecə gəlib M.Müşfiqi «ölüm kabusu» adlandırılan NKV – deyə apardılar. Çox söz-söhbətdən sonra ona belə bir təklif olundu: «Azad olmaq istəyirsənsə, izahatında H.Cavidin və Ə.Cavadın «xalq düşməni» olmalarını təsdiq etməlisən».

Bu ağlasığmaz təklifdən sinirlənən M.Müşfiq müstəntiqə belə demişdir: «Necə qıyırsınız ki, o cür vətən aşiqlərini «xalq düşməni» adlandırırsınız? Əgər sağ əlim siz deyəni yazsa, sol əlimdəki balta ilə sağ əlimi kəsib yerə ataram».

Elə bu səbəbdən də az sonra keçirilən bir yığıncaqda M.Müşfiqi iyirmi doqquz yaşında həbs edib, Nargin adasına apardılar. Orada da güllələndi.

Bundan sonra M.Müşfiqin böyük bacısı Böyükxanımı aparmağa gələn üç qarageyimli məmur sənədi göstərib onlarla getməli olacağını bildirdi. Böyükxanım eşitmişdi ki, «xalq düşməni» ailəsi adlandırılanları o zindanlarda şərəfi, namusu tapdalanan bir tale gözləyir. Ona görə də icazə istəmişdi ki, keçim o biri otaqda geyimi, üst-başımı qaydaya salım. Ona icazə verilmişdi. Böyükxanım orada üstünə neft töküb özünü yandırmışdı.

M.Müşfiqin kiçik bacısı Kiçikbəyimi də izahat almaq üçün NKV – deyə aparmışdılar. Orada izahat alan erməni müstəntiqi M.Müşfiqi «xalq düşməni» adlandırmışdı. Bu sözdən əsəbi pozulan Kiçikbəyim masanın üstündəki iri mürəkkəbqabını qapıb müstəntiqin başına çırpmışdı.

Sonralar Kiçikbəyim də, onun həyat yoldaşı da uzaq Sibir çöllərində işgəncələrə dözməyərək bu fani dünyadan vaxtsız köçdülər.

Çox acı tale yaşayan nakam şairimiz o insanlardandı ki, ölümündən sonra xalqının qəlbində əbədi yaşayır. Dövlətimiz, hörmətli prezidentimiz M.Müşfiqin adın əbədiləşdirmək üçün bir sıra tədbirlər həyata keçirmişlər. Doğma Xızıda və Bakıda heykəli qoyulmuş, bir sıra park və xiyabanlara, mədəniyyət mərkəzlərinə onun adı verilmişdi. Hər il şairin xatirəsi respublika səviyyəsində təntənəli qeyd edilir.

Sevindirici haldır ki, 1918-ci l dekabr ayının ikisində Bakıdan gələn bir qrup hörmətli sənətkarın iştirakı ilə Naxçıvandakı H.Cavid məqbərəsinin qarşısında möhtəşəm bir tədbir keçirildi. Burada bu iki böyük şəxsiyyət görüşməsələr də, onların ruhları görüşdü.

M.Müşfiq «Həyat sevgisi» şeirində yazırdı:

*Ah, mən gündən-günə bu gözəlləşən,*
*İşıqlı dünyadan necə əl çəkim?*
*Bu yerlə çarpışan, göylə əlləşən,*
*Dostdan, aşinadan necə əl çəkim?*

Nakam şairimizin ürəyinə damdığı qorxunc fikirlər axır ki, başına gəldi. İnanıram ki, o, cismən aramızdan getsə də, yaradıcılığı, bütöv şəxsiyyəti əsrlər boyu şairi yaddaşlarda yaşadacaqdır.

**HÜSEYN CAVİD DÜNYASINDAN ƏSİNTİLƏR**

Türk dünyasının böyük oğlu Cavid əfəndinin aşağıda verilən bir beyti indi də dillər əzbəridir:

*Bəxtiyarsan, əgər çəkdiyi əmək*
*Cahan süfrəsinə versə bir çiçək.*

Bu beytdə verilən fikirlər elə onun özünə aid oldu. Yazdığı çox qiymətli əsərləri ilə o, cahan süfrəsinə bir yox, onlarla ətirli, heç zaman solmayan çiçəklər bəxş elədi. Ancaq yaradıcılığının çiçəkləndiyi vaxtlarda həyatı tufanlara, qasırğalara bələndi.

Cavid həbs edilməmişdən bir gün əvvəl evə dönərkən sevimli, cəfakeş Müşkünaz xanıma sevinclə dedi:

– Bu günə qədər sənə bir qiymətli hədiyyə ala bilməmişəm. Ancaq bu yaxın vaxtda əlini hansı brilyantın üstünə qoysan, onu sənə alacağam.

Bu dahi insanı fəxarətlə süzən həyat yoldaşı dilləndi:

– Mənim brilyantlarım sənsən, Turan və Ərtoğruldu. Mənə daha heç nə lazım deyil. Uca Tanrı bizi pis gözlərdən qorusun! Bu qədər pul səndə hardandır? Xəzinə tapmamısan ki?

Gülümsəyən Cavid cvab verdi:

– Bunu bu gün mənə Azdramada bildirdilər.

Lakin sən saydığını say, gör fələk nə sayır?

Səhərisi gecə üç nəfər qarageyimli məmur qapını döydü. Həmin gecə Cavid, M.Müşfiq və Ə.Cavad həbs olundu. Hər üçünün əlyazmaları, kitabları da aparıldı.

Uzaq Sibirə–Maqadana sürgün olunan Cavid əfəndi qatarda xeyirxah insan olan həkim Mürsəl Şahverdiyevlə tanış oldu. Bu həkim də represiyaya məruz qalanlardan biri idi. Mürsəl həkim H.Cavid dünyasını dəyişənə qədər Cavid Əfəndidən heç bir qayğısını əsirgəmədi. Mürsəl Şahverdiyev dustaqlara xidmət edən həkim kimi fəaliyyət göstərirdi. Kolonun rəhbərliyi yanında da sözü keçərli idi. Məhz onun köməyi, təkidi ilə H.Cavid həkimin yanında tibb qardaşı kimi fəaliyyət göstərməyə başladı. Bir müddət ağır, əzablı işlərdən canı qurtardı. Mürsəl həkim Cavid əfəndinin son gününə qədər ondan heç bir qayğısını əsirgəmədi. 1956-cı ildə bəraət alanlardan biri kimi sonralar Maqadandan vətənə dönən Mürsəl həkim Cavid yadigarı Turan xanımı axtarıb tapdı. Cavidlə bağlı xatirələrini ona danışdı. Harada, neçə nömrəli qəbirdə dəfn olunması haqda ilk məlumatı da Turan xanıma bu qayğıkeş, vətənpərvər həkim verdi.

Sonralar Ulu öndərin ciddi səyi nəticəsində Cavid əfəndinin cənazəsinin qalıqları çox çətinliklə olsa da, doğma Naxçıvana gətirildi. Möhtəşəm qəbirüstü abidə ucaldıldı. Sonralar Müşgünaz xanımın, Ərtoğrulun, Turan xanımın da cəsədləri bu məqbərəyə köçürüldü.

Onu da qeyd edim ki, H.Cavidin nəşinin qalıqlarının Kolıma qəbiristanlığından gətirilməsinin əsas ağırlığını Naxçıvan torpağının qeyrətli oğullarından Həmid Cəfərov, Telman Əliyev və Zakir Nəsirov çəkdilər.

## ÜMİDİ İTİRMƏYƏK

Şeytan bir gün qərara gəldi ki, gərək elə hərəkət eləyəm daha heç bir insan övladı «lənət şeytana» deməsin, talelərində baş verən naqis işləri məndə görməsinlər. Buna görə də nifaq salmaq, şər işlər törətmək üçün istifadə etdiyi əsas vasitələri, alətləri, bər-bəzək vurandan sonra yol qırağına töküb müştəri haraylamağa başladı. Onun istifadə etdiyi vasitələr, alətlər əsasən aşağıdakılardan ibarət idi. Şər, böhtan, tamah, hiylə, həsəd, paxıllıq, fəsad, şəhvət, acgözlük, yalan, ümidsizlik və s. Bu vasitələrin içərisində ən köhnəsi və baha qiymətə dediyi «ümidsizlik» idi. Bir nəfər şeytandan soruşdu:

– Nə üçün bu aləti başqalarından çox baha qiymətə satırsan? Halbuki, vasitələrin hamısından ən köhnə budur.

Şeytan gülümsəyərək dedi:

– Mən şər işlər törədəndə həmişə köməyimə ümidsizlik vasitəsi gəlib. İnsanlar ümidsizliyə tez qapılır, bu vasitə ilə mən arzularımı tez yerinə yetirirəm. Ona görə ümidsizliyi başqa vasitələrimdən baha satıram. Həm də bu vasitə ilə insanları daha asan yolla tora salıram.

## HARAM TİKƏ

Qədimlərdə bir vilayətdə halallığı, düzlüyü, xeyirxahlığı ilə seçilən bir mömün müctəhid yaşayırdı. Evində açdığı məktəbdə özü imtahan edib seçdiyi zəkalı uşaqlara həm şəriət elmlərini, həm də dünyəvi elmləri, insanşünaslığı öyrədirdi. Ancaq bu əqidəli müctəhid hələ islam dinində ən müqəddəs ziyarət sayılan Həcc ziyarətinə gedə bilməmişdi. İmkanlı adamlar onu öz hesablarına Həcc ziyarətinə göndərmək istəsələr də, qəbul etməmişdi. Qeyd eləmişdi ki, öz halal pulumla, həm də qəbiləmin adamları ilə birlikdə ziyarətə gedəcəyəm.

Bu iman-quran sahibi olan müctəhid ailə qurduğu vaxtdan beş il sonra bir oğlan uşağı dünyaya gəlmişdi. Bu uşaq hələ 6–7 yaşından dəcəlliyi ilə başqalarından seçilirdi. Ancaq «uşaqdır» – deyib, fikir vermirdilər.

Nəhayət, müctəhid Həcc ziyarəti çatdığı vaxt qəbiləsi ilə yola çıxdı. Həyat yoldaşı və on yaşı haqlayan oğlu da onunla birgə idi. Bu ağır səfərdə öz qəbilələrinə müctəhid başçılıq edirdi. Yolda dəhşətli isti, qum fırtınası başladığına görə karvan əhli çox çətinliklə yavaş-yavaş irəliləyə bilirdilər. Karvanda insanları və yükləri aparan at, dəvə və ulaqlar da yeriyə bilmirdilər. Karvanı saxlayıb, fırtınanın yatmasını gözəməyi məsləhət bildilər. Karvan əhlinin tuluqlarda aparılan suyu azalmağa başlamışdı. Bu xəbər müctəhidə də çatdırılmışdı. O, köməkçisinə göstəriş verdi ki, suyun belə sürətlə azalmasının səbəbini öyrənsin, tuluqları kimin deşdiyindən xəbərdar olsun.

Köməkçi bir neçə gecə yuxusuz qaldı. Nəhayət hava işıqlanana yaxın tuluğu deşib aradan çıxmaq istəyən oğlanı yaxaladı. Gəlib əhvalatı müctəhidə danışdı. Müctəhidin başından sanki ildırım çaxdı. Öz həyatını göz önünə gətirdi. Keşməkeşli ömür yolunda bir qəbih hərəkətə, səhvə rast gəlmədi. Həyat yoldaşın yanına çağırdı, əhvalatı ona danışdı və qeyd elədi:

– Ya sən, ya da mən bir haram işə qol qoymuşuq ki, aman-zaman bir oğlumuz da bu haram yola düşüb. Mən keçmişimi ələk-fələk elədim, bir haram tapa bilmədim. Sən də keçmişinə bir nəzər sal, xüsusilə bu uşaq boynuna düşəndən bəri hansı səhvləri etdiyini xatırlamağa çalış, düzünü de. Yoxsa, hiss edirəm ki, ürəyim partlayacaq.

Göz yaşı tökə-tökə qadın keçmiş günlərə boylandı. Oğlu boynuna düşəndən sonra ağzı dadsız idi. Ürəyi nardan, nar suyundan ötəri nanə yarpağı kimi əsirdi. Ərinə də bu barədə ağız açmağa utanırdı. Birdən qonşunun onların bağına tərəf əyilmiş üstü bəhərli yetkin nar ağacının budağı yadına düşdü. Narın birin qoparmaqdan qorxdu. Öz-özünə fikirləşdi: «Birdən bizə tərəf əyilən budaqdakı narları sayarlar, bilinər, biz rüsvay olarıq. Ona görə toran düşən vaxtı evdən bizi gətirdi, bir neçə narı deşib, şirəsin sümürdü».

Qadın əhvalatı olduğu kimi ərinə danışdı. Əri dedi:

– Bizim qonşumuz da karvan əhlinin içərisindədi. Nə istəyirsən apar ver, elə indi halallıq al. Yoxsa, bu dünya başı-ma dar gələr.

Qadın qonşunun çadırına getdi. Bütün əhvalatı olduğu kimi danışdı. Halallıq verməlerini göz yaşı tökə-tökə xahiş etdi. Sonra nişan qoyulan vaxtı barmağına taxılan üzüyü ailə başçısının qarşısına qoydu. Ər də, qadın da qətiyyətlə üzüyü geri götürməsin tələb etdilər. Ürəkdən halallıq verdiklərini bildirdilər. Onda müctəhidin arvadı torbasında gətirdiyi, öz əli ilə təndirdə bişirdiyi qalını ortaya qoydu və dedi:

– Heç olmasa bu halal neməti alıb yeyin, mən də birdəfəlik rahat olum. Qadın geri dönüb, əhvalatı ərinə danışdı. Haram tikənin halallığı alındığına görə həmin gecədən tuluqların deşilməsi də dayandırıldı.

**RƏSSAM FANTAZİYASI**

Bir yaz günü idi. Baharın havası, gül-çiçək ətri insanların üz-gözündə də bur şuxluq, sevinc oyadırdı. Belə bir vaxtda üç dost təbiətin qoynuna gəzməyə çıxmışdılar. Təsadüfən bir rəssam da gəlib bu üç dostun yanına çıxdı. Orada təbiət mənzərəsi çəkməyə başladı. Bunu görən üç dost rəssama yaxınlaşıb üçünün də birlikdə şəkillərinin çəkilməsini xahiş etdilər. Rəssam əlindəki etüdü şəkib qurtarandan sonra bu üç dostun şəkillərini təbiətin fonunda çəkməyə başladı. İşin qurtarmasına az qalırdı. Bu kəmhövsələ, üz-gözündən zəhər tökülən orta yaşlı bir köntöy kişi gəlib bura çıxdı. Gənclərin yenicə tamamlanan şəkillərinə heyranlıqla baxdı. Rəssama yaxınlaşdı. Əlindəki zorba dəyənəyi yerə döyərək hirslə dedi:

– Bax, elə indicə mənim də rəsmimi çəkməsən, səni bu çomaqla şil-küt edəcəyəm!

Çarəsiz qalan rəssam bu kəmhövsələ kişinin şəklini daş üstdə oturmuş, dəyənəyinə söykənmiş halda çəkməyə başladı. Lakin kişinin üzünün cizgilərini xeyirxah, mərhəmətli bir insan sifəti kimi təsvir etdi. İş qurtarandan sonra bu köntöy kişi portretinə tamaşa etdi. Əvvəl sevindi, ancaq bir az sonra bənizi qaraldı. Rəssama dedi:

– Çox sağ olun! Xeyli zəhmət çəkdiniz, vaxtınızı bu işə sərf etdiniz. Ancaq üz-gözümün cizgilərini düzgün təsvir etməmisiniz! Elə bil mən deyiləm!

Gülümsəyən rəssam dilləndi:

– Siz belə də ola bilərsiniz. Mən sizi təsvir etdiyim kimi də görmək istəyirəm.

Bu xeyirxahlıqla deyilən sözlərdən köntöy kişi mum kimi yumşaldı. Üz-gözündə sevinc haləsi görünməyə başladı. Öz-özünə dodaqaltı pıçıldadı: «Bəli, Allahımız insan övladını şər işlər üçün deyil, xeyirxahlıq, mərhəmət üçün yaratmışdır».

## MİRZƏ İBRAHİMOV DÜNYASI

Azərbaycan ədəbiyyatında şöhrət zirvəsinə yüksəlmiş böyük sənətkarlardan biri də M.İbrahimov olmuşdur. Uşaqlıqdan ağrı-acıyla başlayan həyatı zirvələrə doğru əzablı bir yol keçmişdir. 1911-ci ildə Cənubi Azərbaycanın Sərab şəhəri yaxınlığında Evə kəndində yoxsul bir ailədə dünyaya göz açmışdır. Üç yaşında anasını itirmişdir. Atası Mirzəni və böyük qardaşını aclığın əlindən qurtarmaq üçün Bakıya üz tutmuş, çox çətinliklə gəlib Bakıya çıxmışdılar. Burada da həyat onun üzünə gülməmişdir. Yeddi yaşı olanda atası Əjdər kişi də dünyasın dəyişmişdir. Hələ kiçik yaşlarından Zabrat kəndində imkanlı adamların quzularını otarmağa, özünə gündəlik çörək qazanmağa başlamışdır. Sonralar neft mədənlərində ağır fəhlə həyatını yaşamağa məcbur olmuşdur. Yazıb-oxumağı müstəqil öyrənmiş, xeyirxah adamların köməyi ilə fəhlə-gənclər məktəbində təhsilini davam etdirmişdir, yaradıcılığa şeirlə başlamışdır. Artıq o dövrdə şeirləri, az-az olsa da, qəzet və jurnallarda dərc olunmağa başlamışdır. Sonralar isə ədəbiyyatımızda nasir, dramaturq, tərcüməçi və publisist kimi şöhrət qazanmışdır. «Gələcək gün», «Böyük dayaq», «Pərvanə» romanları, eləcə də digər əsərləri müəllifə şöhrət və hörmət qazandırmışdır. «Böyük dayaq» romanı əsasında çəkilən filmdə Ələsgər Ələkbərovun yaratdığı Rüstəm kişi bir çox hallarda müəllifin protipini xatırladır. O dövrdə, eləcə də sonralar yüksək vəzifələrdə işləmiş, ürəyi həmişə xalqı ilə bir döyünmüşdür. Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüş, SSRİ Yazıçılar İttifaqında, eləcə də

Azərbaycan Yazıçılar İttifaqında rəhbər vəzifələrdə işləmiş, Azərbaycan Elmlər Akademiyasının akademiki seçilmişdi. O dövrdə bu vətənpərvər insan hiss edirdi ki, Azərbaycan dilinin işlənmə dairəsi get-gedə daralır, hər yerdə rus dili hökmranlıq edir.

1954–1958-ci illərdə Azərbaycan Ali Soveti Rəyasət Heyətinin sədri işləmişdir. Bu illərdə bu böyük insanın şəxsi təşəbbüsü və ciddi təsiri ilə Azərbaycan Konstitusiyasında dəyişiklik edilmiş, Azərbaycan dilinin dövlət dili kimi işlənməsi bu mühüm sənəddə öz əksini tapmışdır. Elə həmin illərdən bütün dövlət idarələrində Azərbaycan dili sərbəst işlənməyə başlamışdır. Məhz bu qərara görə M.İbrahimov ağır təzyiqlərə məruz qalmış, bütün vəzifələrdən kənarlaşdırılmış, «xalq düşməni» adıyla onu məhv etməyə çalışmışdılar. Bu cür riskli hərəkəti ancaq M.İbrahimov kimi vətən aşiqləri edə bilərdi.

Uşaqlıqdan yetimçiliyin, ehtiyacın məngənəsində sıxılan bu insan öz sadəliyi, xeyirxahlığı ilə həmişə başqalarına nümunə olmuşdu. Onun nişanında ancaq bir neçə qələm dostu iştirak etmişdi. Könül verdiyi məşhur tarzən Qurban Pirimovun qızının barmağına taxmağa aparılan yeganə üzüyü Rəsul Rzanın həyat yoldaşı, şairə Nigar Rəfibəyli taxmışdı. O dövrdə yeni istifadəyə verilən bir bina Mircəfər Bağırovun göstərişi ilə ancaq bir qrup məşhur ziyalıya verilmişdi. O binada M.İbrahimova da ikiotaqlı ev verilmişdi. M.İbrahimov Azərbaycan Ali Soveti Rəyasət Heyətinin sədri seçiləndə ona daha yüksək səviyyəli yaşayış evi vermək istəmişdilər, lakin sevimli həyat yoldaşı buna qəti etiraz etmiş və belə demişdi: «Mən bu evə gəlin gəlmişəm, dünyadan köçəndə də burdan gedəcəyəm».

Azərbaycanda represiyanın tüğyan etdiyi zamanın sonları idi. Mircəfər Bağırovun başçılığı ilə yaradıcı ziyalıların əhatəli yığıncağı keçirilirdi. Sonda M.Bağırov yekun nitqi söylədi. Zaldakıların hamısı qorxu və səksəkə içərisində idi. Bilirdilər ki, bu yığıncaqda da yenə kimlərsə qara maşınlarla aradan götürüləcək.

M.Bağırov üzünü zaldakılara tutaraq zəhmli səsi ilə dilləndi:

– Mənə elə gəlir ki, Üzeyir Hacıbəyov və S.Vurğun da düşmən dəyirmanına su tökənlərdəndir. Onların əməlləri bizim müqəddəs sosializm quruluşu ilə uyğun gəlmir.

İnsanların başlarına elə bil soyuq su tökdülər, ancaq qorxudan heç kim cınqırını da çıxara bilmədi.

Bu vaxt M.İbrahimov söz istəyib ayağa durdu. Üzünü Bağırova tutdu:

– Yoldaş Bağırov, mən sizinlə razı deyiləm. «Koroğlu» kimi opera yazan Ü.Hacıbəyov, «Vaqif» dramı kimi möhtəşəm əsər yaradan S.Vurğun heç zaman xalq düşməni ola bilməz!

Belə cavabı gözləməyən M.Bağırov qəzəblə qışqırdı:

– Otur yerinə, elə sən də onların tayısan!..

M.İbrahimovun cavabından sonra Bağırov daha onlara toxunmadı.

Bəli, M.İbrahimov belə böyük ürək sahibi idi. O, bir növ kəfən geyib bu sözləri deyə bildi. Bunu hər adam edə bilməzdi. 1988-ci ildə bədnam qonşularımız əzəli Azərbaycan torpağı olan Dağlıq Qarabağı Ermənistana birləşdirmək iddiaları ilə ayağa qalxanda Kremldə Qorbaçovun iştirak etdiyi yığıncaqda M.İbrahimov erməni başçılarına və Qorbaçova kəskin çıxışı ilə cavab vermişdir.

### ALİMİN MƏSLƏHƏTİ

Bir görkəmli din alimi insanlardan ayrılaraq, kəndin kənarındakı meşəlikdə özünə ev-eşik qurmuş, burada yeniyetmələrə həm dini, həm də dünyəvi dərslər verməyə başlamışdı. Müşkülü olanların çoxu bu zəka sahibinin yanına gələr, müşküllərinə ondan çarə istərdilər.

Bu vilayətdə bir nəfər çox çalışqan kişi vardı. Gecə-gündüz çalışsa da, qazandığı onu qane etmirdi. Əzabı çox olurdu, qazancı az.

Bir gün bu əməkçi insan zəka sahibinin yerini öyrənib, ondan məsləhət almağa getdi. Onunla görüşüb dərdini izhar etdi. Məlum oldu ki, bu əməkçi insan çalışqan olsa da, heç vaxt elm öyrənməyə cəhd etməyib. Müsəlmançılığın heç bir şərtinə də əməl etmir. O zəka sahibi bu əməkçi insana dedi:

– İnsanın daxilində iki istək, iki hiss birlikdə yaşayır. Bunlardan biri sərvət istəyi, o biri idə elm istəyidir. Sən seçim qarşısında qalsan, bunların hansına üstünlük verərsən?

– Əlbəttə, sərvətə sahib olmaq hissinə.

Alim buyurdu:

– Sənin ən böyük səhvin də elə bundadı. Böyük Yaradanımız və Ulu Peyğəmbərimiz həmişə elmə üstünlük veriblər. Ona görə də sən fiziki əməklə məşğul olduğun kimi, elm öyrənməyə, müsəlmançılığın qanunlarına da əməl etməyə başlamalısan. Onda sənin bəsirət gözün açılar, qazandığının bərəkəti artar, Tanrımıza layiqli bir bəndə olarsan.

## TANRIYA SIĞINMAQ

İki nəfər ailələrinə ruzi qazanmaq üçün uzaq bir məmləkətə gəlmişdilər. İş elə gətirdi ki, onlar burada ayrılmalı oldular. Hərəsin ayrı bir imkanlı adam işləməyə apardı. Vaxt-vədə tamam olanda onlar vətənlərinə doğru dönməli oldular. Yol sərt dağların dolaylarından keçirdi. Güclü yağış, leysan yağmağa başladı, ildırımlar şaqqıldadı. Nisbətən aralıya düşən ildırımın zərbəsindən yer parçalandı, qayalar yerindən qopdu dərin dərəyə doğru hay-harayla dığırlanmağa başladı. Yolçunun biri tez bağırdı:

– Allah, aman günüdü!

Sözlərin ağzından çıxması ilə həmin şəxsin qaya parçaları ilə birlikdə yarğanın dərinliyinə yuvarlanması bir oldu. Ancaq yolçunun biri sağ-salamat qaldı, çox çətinliklə bu fəlakətdən canını qurtara bildi. Yoldaşı düşdüyü yarğanın dərinliyinə baxdısa da, gözünə bir kimsə görünmədi. Güman etdi ki, yəqin o insan daş-qaya parçalarının altında qalıb məhv oldu. Bundan çox qəmgin oldu. Ancaq canını qurtarmaq üçün çalışdı ki, bu təhlükəli yerlərdən tez uzaqlaşın.

Aradan bir il qədər vaxt keçmişdi. Təsadüfən şəhər bazarında bu iki insan rastlaşdılar. Hər ikisi gözlərinə inanmadı. Qucaqlaşıb, görüşdülər. Yarğanın dərinliyinə yuvarlanan, ağır zədə alan yoldaşı o birinə dedi:

– O müsibətli anda mən Allahı çağırıb yalvardım! Amma fəlakətə düçar oldum. Sən isə orada heç Allahımızın adın da çəkmədin. Bəs necə oldu ki, sağ qaldın?

– Çünki sən dara çətinliyə, düşəndə Allahımızı köməyə çağırır, ondan nicat istəyirsən. Mən isə ömrümün hər anında Allahıma sığınıram. Hər namazımı qıldıqca, başqa ibadətlər etdikcə Tanrımıza sığınır, ondan mərhəmət diləyirəm.

Bu sözləri eşidən günahkar şəxs başını aşağı saldı, haqlı iradlar qarşısında bir söz deyə bilmədi.

## MÜƏMMALI CAVAB

Uzun illər ayrı-ayrı vilayətlərdə yaşayan iki dost təsadüfən bir dəyirmanda görüşdülər. Hər ikisi bu təsadüfü görüşdən kövrəlib ağladı. Hal-xoşdan sonra dostun biri o birindən soruşdu:

– Qardaş, ailədə neçə nəfərsiniz?

Dostu cavab verdi:

– Qardaş, gün ərzində qazandığım çörəyin ikisini borcuma verirəm, üçünü borc verirəm, ikisini də havayı.

Bu cavabdan heç nə anlamayan dostu üzünü qarşı tərəfə tutub təəccüblər dedi:

– Ay qardaş, mən səndən küflətin sayın soruşdum. Sən mənim sualıma cavab vermək əvəzinə başlamısan borc haqda danışmağa. Çox müəmmalı cavab verdin. Bu cavabdan heç nə anlamadım.

Gülümsəyən dostu dilləndi:

– A qardaş, elə bu müəmmalı sözlərlə sualına cavab verdim. Görünür, fikrin məndə olmayıb. İndi qulaq as:

– Çörəyin ikisini borcuma verirəm, yəni məni böyüdən ata-anama. Üçün borc verirəm, yəni üç oğluma. İkisin də havayı verirəm, yəni bir müddət sonra köç edib gedəcək iki qızıma. İki nəfər də biz ər-arvad. İndi hesabla gör neçə nəfər ailə üzvümüz var? Deməli, ailəmizin sayı doqquz nəfərdir.

## ANASI NAMAZ ÜSTDƏ İMİŞ

Bəs, görəsən. «Anası namaz üstdə imiş» ifadəsi hansı məqamlarda işlənir? Bu ifadə əsasən bir nəfərin qorxulu xətabəladan qurtardığı vaxt deyilir. Bunu namaz qılmağın, Allahımıza sığınmağın hesabına olması ilə yozurlar. Əslində Allaha sığınmaq, onun qoyduğu ibadətləri yerinə yetirmək, əlbəttə, birinci şərtdir. Ancaq bu ifadənin ikinci yozumu aşağıda verilən kimidir:

– Orta yaşı adlamış bir kişi hazırlaşırdı ki, namazın qılsın. Elə bu vaxt Əzrayıl ona yaxınlaşır. Vədəsinin tamam olduğunu, bu fani dünya ilə vidalaşacağını bildirir. Bərk yerdə yaxalandığını görən kişi Əzrayıla üz tutur.

– Ey Allahın müqərrəb məleykəsi, bilirik ki, bu dünyaya gələn nə vaxtsa bu fani dünyanı tərk edib, Haqq dünyasına qovuşmalıdır. Ona görə sənə sözüm ola bilməz. Ancaq rüsxət ver, namazımı qılım, sonra istədiyini edərsən. Bir də mənə söz ver ki, namazı qılıb qurtarmayınca mənlə işin olmayacaq.

Cavabında əzrayıl deyir:

– Mən sənlə razı. Namazını qılıb qurtarmayınca sənlə işim olmayacaq.

Bu sözdən sonra kişi namaza başlayır, iki rükət qılandan sonra cənamazı, möhür-təsbehi yığışdırıb ayağa durur və Əzrayıla deyir:

– Namazımın qalanın da özüm nə vaxt istəsəm, onda qılacağam. Bu müddətdə canımı almayacağına görə söz vermisən. Elə bilirəm, sən də sözünə əməl etməyə borclusan.

Deməli, yuxarıda izahın verdiyimiz ifadənin bir yozumu da bu rəvayətlə bağlıdır.

## DOĞMALIQ

Bir böyük kənddə iki sədaqətli, mehriban dost yaşayırdı. Dostlardan biri ailə üzvləri ilə uzaq bir səfərə çıxmalı olur. Minik vasitəsi olan at azlıq edirdi. Ona görə sadiq dostuna ağız açmaq istədi. Ancaq bilirdi ki, dostu o atı heç kimə etibar etmir. Buna baxmayaraq dostunu sınamaq üçün ona ağız açmalı oldu.

Atı çox istəyən dostu onun sözünü yerə salmadı. Atı darvazadan çıxaranda dedi:

– Mənim sadiq dostum, bilirsən ki, bu atı indiyə qədər heç kimə etibar etməmişəm. Sənin sözünü heç vaxt yerə sala bilməzdim. Ancaq xahiş edirəm, uzaq səfərdə öz atınla mənim atıma fərq qoymayasan.

Dostu cavab verdi:

– Arxayın ol, öz atımdan da yaxşı baxacağam.

Səfər zamanı dostu ona əmanət olunmuş ata daha ciddi qayğı göstərir, hətta öz atına verdiyi arpa-samandan artıq miqdarda dostunun atına verirdi. Həmişə əvvəl dostunun atın suvarırdı. Ancaq hiss edirdi ki, dostunun atı az da olsa, arıqlayır. Ürəyində fikirləşdi ki, yəqin xəstəliyi var.

Günlər sovuşdu, səfər başa çatdı. Dostunun atını yedəyində gətirib, dostunun qapısına çıxdı. Dostlar qucaqlaşdılar, hal-xoş elədilər. Ancaq ev sahibi hiss etdi ki, onun sevimli atı arıqlayıb. Dostuna dedi:

– Ay qardaş, bu at səfərdə ölsəydi də, mən sənə bir söz deməzdim. Ancaq görürəm ki, sənin atınla müqayisədə mənim sevimli atım arıqlayıb. Buna səbəb nə olub?

Dostu cavab verdi:

– Ay qardaş, kəsdiyimiz çörəyə anda olsun ki, sənin atına öz atımdan daha çox xidmət göstərmişəm. Yəqin, xəstəliyi var, ona görə belə olub.

– Yox, mənim atımın heç bir xəstəliyi yoxdu. Fikirləş, səfər zamanı hansı səhvə yol vermisən. Belə bir şey yadına düşsə, mənə deyərsən

Üç gün ərzində at aparan dost fikirlər aləmində oldu. Özündə elə bir ciddi nöqsan tapa bilmədi. Bircə o yadına düşdü ki, yorğun atların yəhərini alanda əvvəl öz atının yəhərini alıb. Bu vaxt atının sağrısına hərdən də tumar çəkib. Üç gündən sonra dostu ilə qarşılaşanda bunları da dostuna danışdı. Gülümsəyən dostu dilləndi:

– Əsas səbəb bu ögeylik olub. Sən də sağ ol ki, elədiyin səhvi mərdi-mərdanə danışdın. Heyvanlar da doğmalığı, ögeyliyi fərqləndirə bilirlər.

## NƏFSİN QULU

Böyük şan-şöhrət sahibi olan Ənuşirəvan bir gün sarayda adına layiq bir qonaqlıq təşkil etmişdi. Ortaya gətirilən qablar çox qiymətli qızıl və gümüşdən idi. Dəvət edilən qonaqlardan biri nəfsinin qulu idi. Nəfsini boğa bilməyən bu şəxs qarışıqlıqdan istifadə edib, qızıl qablardan birini çuxasının altında gizlətdi. Ancaq bu hərəkəti Ənuşirəvan gördü, üstünü vurmadı.

Süfrəni yığışdıran xidmətçilərdən biri Ənuşirəvana qızıl qablardan birinin yox olduğunu dedi. Şah ona bu işə fikir verməməsini tapşırdı.

Qonaqlıqdan üç gün sonra həmin oğurluq edən şəxs çox bahalı geyimdə Ənuşirəvanın sarayına gəldi. Görüşəndən sonra şah o şəxsə dedi:

– Bu bahalı paltar güman ki, qonaqlıqda əldə etdiyim xələtdir.

Ənuşirəvanın onun naqis hərəkətindən xəbərdar olduğunu dərk edən əyan xəcalətdən başını aşağı saldı. Şah göstəriş verdi ki, bir qədər qızıl pul gətirsinlər. Sonra qızıl pulları əyana verib dedi:

– Bu pulları götür, nəfsini, tamahını cilovlaya bilməyəndə bunlardan xərclə və pis, naqis əməllərindən uzaqlaş. Yoxsa, həm bu dünyada, həm də axirət imtahanında xəcil olarsan.

## İNAM

Bir vilayətə quraqlıq öz amansız nəfəsini yetirmişdi. Hər şey quruyub məhv olurdu. Mal-heyvanlar da içməyə su tapmır, məhv olurdular. Camaat kənd ağsaqqallarının məsləhəti ilə məscidin həyətinə yığışdı. Belə qərara gəlindi ki, kənd əhalisinin əsas hissəsi sabah tezdən məscidin həyətinə toplaşacaq, oradan kəsiləcək qurbanlıq heyvanlarla birlikdə çöldəki böyük düzənliyə gedəcək. Orada müsəllə deyilən mərasim axşama yaxın vaxta qədər davam edəcək, qurbanlar kəsiləcək, ilahidən mərhəmət yağışı yağdırmasını, onların dadına yetişməsini istəyəcəklər.

Belə də etdilər. Ancaq ora gələnlərdən yalnız bir qız xeylağı özü ilə yağışdan qorunmaq üçün çətir götürmüşdü.

## ANA MÜQƏDDƏSLİYİ

Ana müqəddəsliyi insan cəmiyyəti formalaşandan bu günə qədər davam edib gəlmişdir. Ulu Peyğəmbərimiz də ana müqəddəsliyini həmişə uca tutmuşdur.

Bir dəfə dindən, imandan uzaq bir şəxs Peyğəmbərimizin qəbuluna gəlib deyir:

– Ya Peyğəmbər, bu günə qədər elə bir şər, insanlığa yaraşmayan iş olmayıb ki, əlimdən gəlməsin. Çirkaba batmış adam olmuşam. Ancaq indi istəyirəm ki, haqq yola qayıdam. Bunun üçün mən nə etməliyəm. Mənə yol göstərin!

Ulu Peyğəmbərimiz belə buyurdu:

– Anan varmı?

– Xeyr, anam vəfat edib

– Atan yaşayırmı?

– Bəli, qoca və xəstədi.

– Get, ona layiqincə xidmət elə, qulluğunda dur. Onda Allahımız günahından keçər

Həmin şəxs geri dönərkən Ulu Peyğəmbər yenə buyurdu:

– Kaş anası sağ olardı.

## DÜŞÜNDÜRÜCÜ QƏRAR

Bir imkanlı şəxs dağlıq ərazidə gözəl təbiəti, təmiz havası, büllur bulaqları olan kənddə ev almaq istəyirdi. Baxdığı bir neçə evdən bağlı-bağatlı bir ev onun xoşuna gəldi. Qiymət də münasib idi. Ev sahibi ilə həyət-bacanı, bağı gəzməyə başladılar. Müxtəlif meyvə ağacları ilə bəzənən, insana zövq verən bağ xüsusilə alıcının xoşuna gəldi. Sol tərəfə gedərkən ağacların ortasında böyük bir daşa rast gəldilər. Evi almaq istəyən bağ sahibindən soruşdu:

– Bu gözəl bağın içində böyük daş hardandı? Daş hardan gəlib bura düşüb?

Ev sahibi cavab verdi:

– Çox əvvəllər bu ərazilərə dəhşətli leysan yağdı, sel-su hər tərəfi altına aldı. Bu daşı da sel suları onda gətirib bura salıb.

Bu cavabı eşidən evi almaq istəyən kişinin əhvalı dəyişdi. Ev sahibinə dedi:

– Ay qardaş, daha bizim sövdamız baş tutmadı.

– Nəyə görə?

– Bu daşı bura gətirib salan nə vaxtsa o daşı buradan apara da bilər.

## ANA EHTİRAMI

Ulu Peyğəmbərimizin Rəbbimizin göstərişi ilə Ərəbistan yarımadasında islam dinini yaymaq uğrunda mübarizə apardığı vaxtlar idi. Hər yerdə Məhəmməd Peyğəmbərin böyüklüyündən, möcüzələrindən söhbət açılırdı. Yəməndən köçüb müqəddəs Mədinə şəhərinin lap kənarında anası ilə məskunlaşan Əbu Übeyd adlı bir cavan oğlan yuxularında hey İslam Peyğəmbərini görür və canlı şəkildə Peyğəmbəri görmək, onu ziyarət etməyi arzulayırdı. Bir gün eşitdi ki, Ulu Peyğəmbər günorta moizəsini Mədinə şəhərinin mərkəzindəki məsciddə edəcəkdir.

Əbu Übeydin anası qoca və xəstə olduğuna görə ona Əbu Übeyd özü xidmət göstərirdi. O, nəvazişlə anasına yaxınlaşıb, ondan izn istədi ki, gedib orada Peyğəmbəri görsün, ziyarət etsin.

Ana razılıq verdi və dedi:

– Ancaq çox yubanma. Namaz vaxtına qədər evimizə dön. Sənsiz mən çörək yeyə bilmərəm.

Oğlan sevinə-sevinə yola düşdü. Çox yerdə qaça-qaça gedirdi ki, Peyğəmbəri görə bilsin. Onunla bir neçə dostu da gedirdi. Nəhayət, deyilən məscidin yanına gəlib çıxdılar. Vaxt keçsə də, Ulu Peyğəmbər söz verilən vaxt məscidə gəlib çıxa bilməmişdi. Söz-söhbət gəzirdi ki, yolda islam düşmənləri Peyğəmbərin adamlarına hücum ediblər. Vuruş olub.

Deyilən vaxtdan çox gözlədilər, lakin o müqəddəs şəxs hələ də gəlib çıxmamışdı. Əbu Übeyd çox narahat, pərişan halda idi. Anasına söz verdiyi vaxt çoxdan keçmişdi. Əbu Übeyd dostlarına dedi:

– Siz qalın, İslam Peyğəmbərini görün və ziyarət edin. Mən geri dönməliyəm.

Dostlarından biri getməyinin səbəbini soruşdu. Əbu Übeyd dedi:

– Mən anama söz vermişəm. Mütləq indi geri dönməliyəm

Bəli, ana böyüklüyü, ana ucalığı Əbu Übeydin bu qərarı ilə bir daha təsdiq olundu.

## MAKEDONİYALI İSGƏNDƏRİN BİR GÜN ARTIQ YAŞAMAQ İSTƏMƏSİ

Bütün dünyada fatehliyi ilə məşhur olan Makedoniyalı İsgəndər anasına söz vermişdi ki, dünyanı fəth edəndən sonra o torpaqları sənə hədiyyə verəcəyəm. Ana bu sözlərdən fəxarət hissi keçirsə də, oğluna hərbi səfərləri dayandırmağı, qan tökməməyi məsləhət bilirdi. İsgəndər Çin və Hindistan səfərlərində də böyük qələbə qazanıb, geri dönürdü. Anasını görmək, bu cahanşümul qələbələri ilə ananı daha da sevindirmək, ona verdiyi sözə əməl etmək üçün çox tələsirdi. Ona görə də çox sürətlə vətənə doğru hərəkət edirdilər. İsgəndər qəfildən yolda xəstələndi. Bir gün, bir gecə də hərəkət etsəydilər, Makedoniyalı İsgəndər anası ilə görüşə biləcəkdi. Lakin təbiblər dərk elədilər ki, İsgəndər ölüm ayağındadı. Onun ana ilə görüşü baş tutmayacaq.

İsgəndər təbibləri yanına çağırtdırdı. İnildəyə-inildəyə onlara dedi:

– Çalışın, məni bir gecə, bir gün də sağ saxlayın, mən:

– Anama verdiyim sözü yerinə yetirim.

Lakin həkimlər elan etdilər ki, bu, mümkünsüzdü. Bir-iki saata siz bu fani dünya ilə vidalaşacaqsınız.

İsgəndər yenə təkid etdi:

– Bütün tutduğum torpaqların və xəzinəmin yarısını sizə verirəm. Elə edin ki, dediyim vaxta qədər mən yaşayım.

Təbiblər son olaraq qəmli-qəmli bildirdilər ki, heç bir vəchlə bu, mümkün deyil. Başlarını sinələrinə doğru əydilər. Bu sözlərdən sarsılan İsgəndər son kəlmələrini dilə gətirdi.

– Heyhat! Deməli, mənim bütün yürüşlərim əbəs imiş. Bir gün artıq yaşamağa qadir deyiləmsə, bu qədər torpaqlar, xəzinəm nəyə lazım imiş?! Deməli, hər birimiz əlinin üstdə əl olmayan Yaradanın fərmanını qəbul etməli imişik.

## DAŞINI ATMAQ

Bu ifadə xalq arasında ta qədim əyyamlardan işlənir. İndinin özündə bir nəfər başqa birini müəyyən bir işdən, zərərli bir vərdişdən çəkindirmək üçün deyir: «Daha bəsdi, özündə güc topla, bu ziyanlı işlərin daşını at».

Bəs nə üçün «daşını at» ifadəsi işlənir? «Daşını atmaq» aforizmi işləndiyi ilk anlarda başqa başqa mənada işlənmişdir.

Rəvayətə görə, qədimlərdə gəlin aparan oğlan tərəfin yaxın adamlarından biri xəlvətə salıb qız evinin həyətindən bir daş götürərmiş. O daş ailəlik həyatı dövründə gizlində saxlanarmış. Bu daş onların fikrincə, gəlinin ömrünün sonuna qədər bu ailədə qalmasının təminatcısı sayılarmış. İşdi, gəlin boşanardısa, yaxud dünyasın vaxtsız dəyişərdisə, həmin daş onun arxasınca atılardı. İnsanlar belə hesab edirdilər ki, o daş gəlinin arxasınca atılmasa, oğlan tərəfin evinə xəta-bəla toxunar. Həm də həmin daş qara rəngdə olmalı idi. Gəlin ər evindən inciyib gedəndə ər, yaxud qayınata deyərmiş: «Rədd olsun cəhənnəmə, dalınca da bir qara daş».

Bu ifadə xalq arasında indi də başqa mənada işlənir. Biri zərərli vərdişlərdən biryolluq əl çəkəndə deyir: «Onun daşını çoxdan atmışam». Xüsusilə ərindən ayrılan qadının, yaxud dünyasını dəyişən qadının arxasınca atılan daş haqda düşünmüşlər ki, daşın atılmasıyla bu ev xata-bəladan uzaq olacaq.

Görkəmli rus şairi Vladimir Mayakovskinin «Mən sovet vətəndaşıyam» adlı şeirinin son misralarında deyilir:

*Rədd olsun cəhənnəmə*
*Hər hansı kağız,*
*Dalınca da bir qara daş!*

**MÜDRİK ALİMİN CAVABI**

Bir qədim şəhərdə yaşlı, müdrik, ürfan sahibi olan qoca müəllim yaşayırdı. Müşkülü olanlar çarə tapa bilməyənlər gəlib ondan məsləhət alardılar. Dərs verdiyi şagirdlərin bir çoxu elm-ürfan sahibi olmuş, cəmiyyətdə şöhrət zirvəsinə yiyələnmişdilər. Bu ustad alim şagirdlərinin uğurları ilə həmişə fəxarət hissi keçirmiş, qüsurlarını isə özünə dərd eləmiş, onların kamillik dərəcəsinə yüksələ bilməməsinin səbəbini özündə axtarmış, daxilən özünü ittiham etmişdi.

Bir gün ömrünün qürubunu yaşayan bu ustad dərsi yekunlaşdırarkən üzünü şagirdlərinə tutdu:

– Mənə aid kimin sualı vardır

Daha istedadlı şagirdlərindən biri dedi:

– Ey böyük ustad, bu qədər kamilliyə, dərin elmə necə yiyələnə bilmisiniz?

Ustad cavab verdi:

– Cavan vaxtlarım olsaydı, bəlkə də sənin sualına cavab verməzdim. Ancaq ömrümün qürub şağlarını yaşadığıma görə cavab verirəm:

– Qırx yaşın sonuna qədər nəfsimi özümə qul etmişəm. Qırx yaşdan sonra isə rəbbimə sığınaraq daima öyrənmək yanğısı ilə çalışmışam. İnsanlara etdiyim yaxşılıqları heç bir əvəz ummadan Allah xatirinə etmişəm. Elə buna görə də böyük Yardanımız da həmişə məni uca məqamda saxlayıb.

**ADI DƏFTƏRƏ DÜŞMƏK**

Bu ifadə qədim dövrlərdən üzübəri xalq danışıq dilində geniş işlənir. Biri baş vurduğu bir işdən boyun qaçırıb uzaqlaşmaq istəyəndə başqa birisi ona deyir: «Hara qaçırsan? Bu işdən yaxanı qurtara bilməzsən. Adın dəftərə düşüb». Aşağıda

verilən iki misrada da bu ifadəyə toxunulub. Oğurluq edən, lakin yaxası ələ düşməyən oğru haqda deyilir:

*Oğru pişik, aç qapını cəftələ,*
*Adın düşər bir gün axır dəftərə.*

Bəs bu ifadənin işlənmə etimologiyası necə olmuşdur? Rəvayətə görə, bir vilayətdə əzazil, zülmkar hakim taxta çıxır. Xəzinəni doldurmaq üçün müxtəlif vasitələrlə camaatı soyub talamağa başlayır. Əhalidən alınan vergini daha da artırmaq üçün məmurlara göstəriş verir ki, on beş yaşdan altmış yaşa qədər olanların siyahısını dəftərlərə yazıb, onun hüzuruna gətirsinlər. Həm də vaxt təyin edir.

Bu iş başa çatandan sonra dəftərlərin üzü əlavə olaraq köçürülüb bölgələr, kəndlər, şəhərlər üzrə vergi yığanlara verilir. Onlar da başlayıb camaatdan zor gücünə vergi yığmağa başlayırlar. Verginin ağırlığından zülm çəkən əhali nə edəcəyini bilmirdi. Siyahıya düşən xəstələri, qocaları siyahılardan çıxarmağı tələb edirdilər, lakin məmurların bir cavabı olurdu: «Heç cürə mümkün deyil, adları dəftərə düşüb. Mütləq vergi ödənməlidir».

Narazı qalan həmin siyahı yazılan dəftərləri «it dəftərləri» adlandırırdılar. İndinin özündə də bir işə yaramayan, əlindən iş gəlməyən adama deyirlər: «Sən o qədər naqis adamsan ki, adın heç it dəftərində də yoxdu». Belə dəftərlərlə bağlı görkəmli yazıçımız Ə.Haqverdiyevin «Mütrüb dəftəri» adlı hekayəsi də vardır.

## Ş.İ.XƏTAİNİN QƏRARI

Böyük fateh, görkəmli şair olan Xətai babamızın hakimiyyəti zamanı ölkənin ərazisi bir milyon iki yüz min kvadratkilometrə çatmışdı. O, İraqı da tutmaq üçün hazırlıq görürdü. Bu vaxt aşkar olundu ki, şahın vəzirlərindən biri İraq hakimiyyətinə satılmış, xeyli qızıl almışdı. S.İ.Xətai göstəriş verdi ki, vəziri də, aldığı qızılı da dar ağacından assınlar. Şaha yaxın olan əyanlardan biri dedi:

– Şahım, xəyanətkar vəzir asılmalıdır. Ancaq qızılın asılmasında nə məna olduğunu anlaya bilmirəm. Elə bilirəm o qızılı xəzinəyə qoymaq lazımdı.

Şah o hörmətli şəxsə belə cavab verdi:

– Mən xəzinəni də halallıqla doldurmuşam. Haram yolla əldə edilən qızılı heç vaxt halal xəzinə qızılına qatmaram. Bu xəzinənin də, var-dövlətimizin də bərəkətini göyə çəkər.

## KƏNDİRİ KƏSİLMƏK

Bu ifadə həm qədimlərdə, həm də indi danışıq dilində geniş işlənən ifadələrdəndir. Xüsusilə qarğış xarakterli ifadələrdə bu ifadə geniş işlənir. «Səni görüm kəndirin kəsilsin», «Allah kəndirini kəssin», «Sən kəndiri kəsilməli adamsan» və s.

Bəs nə üçün bu ifadələr belə işlənir? Kəndirin kəsilməsində hansı mənalar var?

Mifologiyaya görə, yer üzündə yaşayan hər bir insan gözlə görünməyən nazik kəndirə oxşar tellərlə göy üzünə, Allah dərgahına bağlıdır. Bu kəndir nə vaxt qırılarsa, ona bağlı insanın taleyi də faciəli sonluqla bitər. Yəni ilahi həmin şəxsi cəzalandırar.

Bu ifadə bir az yumşaldılmış formada da işlənir. Bir nainsaf imkanlı şəxs bir neçə fəhləni səhərdən axşama qədər qan-tər içində işlədər, onlara heç bir istirahət verməzmiş. Axşam evə dönəndə işçilərdən biri deyir: «Bu kəndiri kəsilmiş sahibkar bizi kəndirimiz kəsilənə qədər işlətdi».

## HAMAM SUYU İLƏ DOST TUTMAQ

Hamam suyu ilə dost tutmaq ifadəsi də danışıq dilində bu gün də yeri gələndə işlənən aforizmlərdəndir.

Bu aforizm müasir dövrdə işlənmə mənasına görə ucuz, dəyərsiz vasitə ilə hörmət qazanmaq istəyənlər haqda deyilir. Görürsən ki, biri yaxınının xeyir, yaxud şər işində özünü gözə soxmaqdan ötəri özünü ev sahibinə ən yanımlı insan kimi

göstərmək istəyir, ağır işlərə girişmir, ona-buna göstərişlər verir. Belə adamlar haqda deyirlər: «Hamam suyu ilə özünə dost tutur». Bəs nə üçün bu ifadə belə işlənir? Nə üçün hamam suyu ilə dost tutmaq ifadəsi işlənir?

Qədimlərdə, elə indinin özündə də ər evinə getməyə hazırlaşan qızı deyə-gülə hamama aparırlar. Əvvəlki hamamlar indiki hamamlar səviyyəsində deyildi. Hamamda suyu başa tökmək üçün satıl (təxminən indiki vanna və vedrəni əvəz edən qab) adlı su qabı olardı. Ərə gedən qız ilk əvvəl satılı hamam suyu ilə doldurub orda evlənmək yaşında olan bir qızın başına töksəydi, inanca görə o qız yaxın müddətdə ərə gedərdi. Suyu başa tökən qız da bu hamam suyunun hesabına hörmət qazanardı. «Hamam suyu ilə dost tutmaq» ifadəsi belə yaranmışdı.

Başına su tökülən qızın yaxınları bu hərəkəti çox hörmətlə qeyd edərdilər.

## İBRAHİM XƏLİLULLAH VƏ ATƏŞPƏRƏST

İbrahim Xəlilullah peyğəmbər çox qonaqpərvər insan idi. Evinə bir gün qonaq gəlməyəndə çox məyus olar, özünü narahat hiss edərdi. İş elə gətirdi ki, İbrahim Xəlilullahın evinə üç gün qonaq gəlmədi. Bundan peyğəmbər çox məyus oldu. Ancaq üçüncü günün axşamı darvaza qapısının çaxçaxı döyüldü. Ev sahibi darvazanı açdı. Qarşı tərəfdə ahıllıq yaşına qədəm qoyan bir kişi dayanmışdı. O kişi ev sahibinə ərz elədi:

– Mən yad müsafirəm. Mənzilbaşına çata bilmədim, axşama düşdüm. Əgər imkanınız varsa, məni bir gecəliyə qonaq saxlayın.

İbrahim (S) vuyurdu:

– Hansı dinə sitayiş edirsiniz?

– Mən atəşpərəstəm, – deyə o şəxs cavab verdi.

Bu cavabdan bir az da əsəbiləşən İbrahim (S) dedi:

– Elə isə gedə bilərsən, mən ancaq tək Allaha inananları qonaq qəbul edərəm.

Bu cavabdan yad müsafir çox məyus oldu. Əks istiqamətdə fikirli halda addımlamağa başladı. Bu vaxt İbrahim Xəlilullahın qulağına İlahi dərgahından səda gəldi:

– Ya İbrahim, necə olur ki, mən o atəşpərəstin rüzusunu altmış ildi yetirirəm, ancaq sən onu bir gecəliyə qonaq edə bilmirsən?

Bu sədadan çox narahat olan İbrahim yad müsafirin arxasınca qaçıb, onu geri çağırdı. Qonaq bu hərəkətin səbəbini ondan soruşdu. İbrahim əhvalatı ona danışdı.

Bu sözləri eşidən atəşpərəst elə oradaca İbrahim Xəlilullahın əllərini öpdü, bundan sonra tək Allaha sitayiş edəcəyini bildirdi.

## İSGƏNDƏR VƏ VƏZİRİ

Makedoniyalı İsgəndər bir çox ölkələri fəth eləmişdi. Onun qılıncına tabe olan torpaqların, əhalinin sayı-hesabı bilinmirdi. Bundan kifayətlənməyib, yeni yürüşlər haqda fikirləşirdi. Bir gün vəzirlərindən biri ilə söhbət əsnasında həmin vəzir İsgəndərə dedi:

– Çox şükürlər olsun ki, məğribdən-məşriqə bir çox ölkələr sənin qılıncına tabedi. Hakimiyyətinin o yerlərdə səndən sonra da bərqərar olması üçün gərək həmin ərazilərdə bir çox gənc qadınlarla ailə qurasan, çoxlu övladların dünyaya gələ. Gələcəkdə hakimiyyəti o yerlərdə sənin övladların əldə saxlayar.

Vəzirin bu məsləhətindən dərin fikrə dalan İsgəndər vəzirə belə cavab verdi:

– Hakimiyyəti övladların sayı ilə əldə saxlamaq mümkün olan iş deyil. Əksinə, dünyaya gələn çox övladlar gələcəkdə hakimiyyət uğrunda bir-birinə qənim kəsilər, ölkə də parçalanıb dağılar.

Hər bir hökmdar gələcəkdə adının yaşaması, xalqın yaddaşında qalması üçün xeyirxah əməllər sahibi olmalıdır. İnsan dünyaya çılpaq gəlir, iki-üç metr kəfənə bükülmüş halda çılpaq da gedir. Bu fani dünyadan xeyirxah, savab əməllərindən başqa heç nə apara bilmir. Biz bu amal uğrunda çarpışmalıyıq. Ona görə də sənin verdiyin məsləhət mənim üçün məqbul sayıla bilməz.

## FİL HƏSSASLIĞI

Yer üzünün ən böyük canlısı fillər hesab edilir. Təsadüfi deyil ki, belə bir atalar sözü müasir dövrdə danışıqda geniş işlənir: «Dəvədən böyük fil də var».

Burada məcazi anlamda işlənməsinə baxmayaraq, fillərin bioloji cəhətdən böyüklüyü də nəzərə çarpdırılır.

Fillər həm də başqa canlılarda olmayan yüksək həssaslığa malikdirlər. Əvvəla, qədim dövrlərdə döyüş fillərindən müharibələrdə istifadə edilmişdi. Fil sümüyü dünya bazarında indi də yüksək qiymətə satılır.

Fillərdən hər hansı biri ölümün yaxınlaşdığını hiss edəndə fil sürüsündən ayrılıb, vaxtilə suyunu içdiyi, ətrafında dincəldiyi gölün sahilinə gedir. Həmcinslərinin həyatla son vida üçün ora getdiyini dərk edən fil sürüsü həmin gölün ətrafına yola düşür. Hər biri təklikdə göz yaşı tökə-tökə xortumlarını həmin filin xortumuna, bədəninə sürtürlər. Sonra ölüm məqamında olan fil qabaqda olmaqla bütün fil sürüsü gölün ətrafında dövrə vurmağa başlayırlar. Bir neçə dövrə vurandan sonra həmin fil titrəməyə başlayır və yerə yıxılır. Bir neçə dəqiqədən sonra bu keşməkeşli fani dünya ilə əbədi vidalaşır. Fil sürüsü isə əvvəlkitək sıraya düzülür, göz yaşı axıda-axıda asta addımlarla bu yerlərdən uzaqlaşırlar.

Fillər həm də sonralar öz həmcinslərinin sümüklərinə rast gələndə o sümüklərin fil sümüyü olmasını tanıyırlar. Narahat səslər çıxara-çıxara fil sümüklərini torpağın altına basdırırlar. Bu iş başa çatmayınca oradan uzaqlaşmırlar.

## HÜSEYN BAYQARA VƏ VƏZİRLƏRİ

Özbəkistan hökmdarı Hüseyn Bayqara bir gün vəzirləri ilə söhbət edirdi. Söhbət zamanı hiss etdi ki, onun sarayında söz və nüfuz sahibi olan iki vəziri özlərini elm aləminin başbiləni, ağıl və zəka sahibi kimi aparır. Onun qarşısında belə, lovğalanmaqdan çəkinmirlər.

Hökmdarlığı ilə yanaşı, həm də əhli-ürfan sahibi olan Hüseyn Bayqara vəzirlərini sınamaq istədi.

Onlara belə bir sual verdi.

– Ən yaxşı və nə vaxt yeyilən yemək bütün yeməklərdən üstündür?

Vəzirlər bir-birinə aman vermədən hökmdarın daha çox xoşladığı yeməkləri sadalamağa başladılar. Onların cavabları ilə razılaşmayan hökmdar sərt şəkildə dedi:

– Siz üç gün möhlət verirəm. Bu üç gün müddətində verilən suala doğru cavab verə bilməsəniz, tutduğunuz vəzifə ilə vidalaşacaqsınız.

Çox pis vəziyyətdə qalan vəzirlər ora-bura baş vurur, üləmalardan, ağıllı bildikləri mötəbər adamlardan bu suala cavab tapmağa çalışırdılar. Lakin özləri də hiss edirdilər ki, hökmdarın müəmmalı sualının cavabını hələ doğru-düzgün tapa bilməyiblər. Ona görə də qanları çox qara idi. Cavab verməyə bircə gün vaxtları qalırdı. Onlara yaxın olan əyanlardan biri dedi:

– Bu sualın cavabını, yəqin ki, ustad şair, əhli-ürfan sahibi Əlişir Nəvai açıqlaya bilər. Ona da siz pislik etmisiniz. Sizin təhrikinizlə bu cür görkəmli şəxsiyyət saraydan qovulub. Ancaq elə bilirəm ki, böyük şair kin saxlayan, pislik edən deyil. Üzünüzə ələk tutub, onun hüzuruna getməlisiniz.

Vəzirlərin elə bil gözlərinə işıq gəldi. Utancaq halda, çəkinə-çəkinə o böyük insanın evinə getdilər. Qapıya çıxan Ə.Nəvai heç nə olmayıbmış kimi onları qapıda hörmətlə qarşıladı, içəri dəvət etdi.

Hal-xoşdan sonra vəzirlər utana-utana üzrxahlıq dilədilər, üzr istədilər. Vəziyyəti şairə bildirdilər.

Əlişi Nəvai belə cavab verdi:

– Hökmdara deyərsiniz ki, günün hansı vaxtında olur-olsun, bir tikə çörəyə möhtac olan ac-yalavaca verilən yemək dünyanın ən yaxşı, ən ləzzətli yeməyidir.

Vəzirlərin hər ikisi ona bir daha minnətdarlıq edib, birbaşa hökmdarın qəbuluna getdilər. Cavabı ona ərz etdilər. Hüseyn Bayqara cavabın düzgünlüyünü təsdiq etdi. Ancaq bu cavabı kimdən öyrəndiklərini də soruşdu. Ə.Nəvainin adın eşidən hökmdar qəzəbli halda dilləndi:

– Siz ikinizin fitnə-fəsadı ilə o böyük insan saraydan qovulub! Məni də siz başdan çıxardınız. Onun böyüklüyü bir də o olub ki, sizi elə ehtiramla qarşılayıb. Ona görə də onun yenidən saraya gətirilməsinə nail olmaq sizin üzərinizə düşür. Gedin dəxil düşün, etdiyiniz qəbahəti düzəldin.

## ÇANAQ BAŞINDA ÇATLAMAQ

«Çanaq başında çatlamaq» ifadəsi çox zaman mənfi mənada, qarğış xarakterli sözlərlə işlənir. Hədsiz zülmkarlıq, qudurğanlıq edən şəxs haqda deyirlər: «Görüm çanağın öz başında çatlasın». Yaxud ağır günün, fəlakətin yaxınlaşdığını hiss edən insanlar deyir: «Yenə çanaq bizim başımızda çatlayacaq».

Bu ifadədə işlənən çatlayacaq «sözü» sınacaq sözü ilə sinonim kimi işlənir. Bəs nə üçün «çanaq» sözü işlənir? Çanaq sözü hansı mənaları daşıyır?

İnsan orqanizmində «gözün çanağı», «başın çanağı», insanın oturacaq hissəsinə deyilən «çanaqlıq» sözləri bu gün də daşıdığı mənalara görə danışıq dilində, eləcə də yazılı ədəbiyyatda yerinə görə işlənir. «Çanaq» sözü həm də arxaikləşmiş mənalarda da işlənmişdir. Qədim əyyamlarda taxılı ölçmək üçün ağacdan, taxdadan yonulub düzəldilmiş xüsusi ölçü qabı olmuşdu. Bu qab bir putun (16 kq) yarısı qədər, yəni səkkiz kiloqram buğda tuturmuş. Hətta taxıldan vergi alınanda da dövlət adamları taxılı həmin çanaqla ölçüb alarmışlar.

«Çanaq» sözü həm də itlərə yal verilən saxsıdan düzəldilmiş xüsusi qablara da deyilirmiş. Mirzə İbrahimovun «Böyük dayaq» romanında Rüstəm kişi deyir: «Hər it öz çanağında yalasa yaxşıdır».

«Çanaq» sözü musiqi alətlərindən sazda, tarda, kamançada da işlənir: Sazın çanağı, tarın çanağı kamançanın çanağı və s.

Bəs «çanağın insan başında çatlaması» necə yozulmalıdır?

İnsan beyni başın çanaq hissəsində yerləşir. Baş sümüyü həm də çox bərk olur. Bu çanaq sümüyü bərk zədələnəndə, yəni çat verəndə insan həyatını böyük fəlakət gözləyir. Bu, bütün canlılarda da belədi. Ancaq indi işlənən «çanağın baş-

da çatlaması bir növ məcazi mənada işlənir. Görkəmli şairimiz Q.Zakir M.F.Axundzadəyə yazdığı mənzum məktubdakı bəndlərin birində bu ifadə belə işlənmişdir:

*Qütaitərgin vüfru vardır,*
*Yaylaqda, aranda qatar-qatardı.*
*Yenə ötür-ötür, apar-apardı,*
*Bizim başımızda çatladı çanaq».*

**SƏDİ ŞİRAZİ DÜNYASINDAN**

Şərq dünyasının böyük alimi, görkəmli şair S.Şirazi «Gülüstan» əsərində aşağıda verilən ibrətamiz əhvalatı qeyd eləmişdi: Sultanın yaşadığı paytaxt şəhərlərdən birində iki elm əhli olan qardaş yaşayırdı. Sultan bu iki qardaşın sorağını alınca onların ikisini saraya dəvət edir. Ancaq qardaşlardan biri sarayda qulluq etməyi qəbul edir, o biri qardaş isə qəbul etmir.

Sarayda yaşayan qardaş Sultanın himayəsində olduğuna görə var-dövlət sahibi olur, ikinci qardaş isə ailəsini alnının təri, əllərinin qabarı ilə dolandırmalı olur.

Bir gün Sultanın himayəsində yaşayan qardaş gəlib qardaşın tapır, onunla görüşür, hal-əhval tutur. Qardaşının kasıb vəziyyətin görəndə deyir:

– Sözümü eşitmədin. İndi sən də mənim kimi Sultanın himayəsində yaşasaydın, bu vəziyyətdə olmazdın, var-dövlət sahibi olardın.

O biri qardaşının bu sözlərinə qarşı deyir:

– Sən də tamahının qulu, var-dövlət aşiqi olmasaydın, az yeməklə kifayətlənsəydin, boynunu sultanın məhkumluq zəncirinə salmazdın.

**HÖKMDAR VƏ VƏZİRİ**

Bir hökmdar sarayında sevimli vəziri ilə həyat dolaylarından, insan talelərindən söhbət edirdilər. Sonda hökmdar vəzirinə belə bir sual verdi:

– Hər bir insanın həyatda normal yaşaması üçün ilk öncə hansı şərt lazımdı?

Vəzir dedi:

– İlk olaraq ağıl və bilik

– Əgər bunlar olmasa, başqa nəyi qeyd eləyə bilərsiniz?

– Səbir etməyi, bir də var-dövlət əldə etməyi, çalışqanlığı.

– Bu dedikləriniz də hər hansı insan övladında olmasa, onda nəyi məsləhət bilərdiniz?

– Hökmdarım, daha məsləhət yeri qalmadı. Dediklərimdən kənar olan insan üçün ildırım atəşin arzulayardım.

Bu cavabdan hökmdar dərin fikrə daldı. Vəzirə başqa bir söz deməsə də, ürəyində vəzirin sözlərini təqdir etdi.

## ASLAN VƏ TÜLKÜ

Bir aslan çox qocalmışdı. Daha əvvəllər olduğu kimi asanlıqla ov edə bilmirdi. Qocalığın zəhmətindən güclü pəncəsi, qıçları heydən düşmüşdü. Vaxtilə bir pəncəsi ilə vurub yerə sərdiyi çöl heyvanlarının ətinin dadı da yadından çıxmışdı. İşlər belə getsə, bir neçə gündən sonra ölüm girdabında əl-qol atmalı olacaqdı. Çox fikirləşdi, axır belə qərara gəldi ki, heyvanları hiylə ilə tora salsın. Öz yuvasına çəkilib, bərkdən inildəməyə, göz yaşı tökməyə başladı.

Bu heyvanlar şahının iniltisin eşidən çöl heyvanlarından bəzilərinin aslana yazığı gəldi, yenib ona baş çəkmək, dərdinə şərik olmaq istədilər. Beləliklə, yaxına gələn heyvanları elə ordaca boğazlayıb yeməyə başladı.

Bir gün burdan keçən tülkü də onun səsini eşitdi. Aslanın nə üçün belə inlədiyinin səbəbini öyrənmək üçün o da aslanın yuvasına endi. Ancaq ehtiyat edib, çox yaxına getmədi. Ətrafı çox diqqətlə seyr etməyə başladı. Gördü ki, yuvanın girəcəyindəki yumşaq torpaq üzərində aslanın yuvasına girən heyvanların ayaq izləri var, ancaq geri dönmə izləri yoxdu. Elə buna görə tülküyə hər şey aydın oldu. Bura girən heyvanların aslana yem olduğunu anladı. Daha bayaqdan iniltili, acgözlüklə onun yaxına gəlməsini gözləyən aslanın yuvasından

sürətlə çıxıb qaçdı. Ağlına, müşahidəsinə üstünlük verən tülkü aslanın pəncəsindən özünü qurtardı. Atalar necə də yerində deyib: «Ehtiyatlı baş salamat olar», yaxud: «Ehtiyatlı igidin anası ağlamaz».

**HER-HES BİLMƏMƏK**

«Her-hes» bilməmək ifadəsi əsasən danışıq dilində işlənir. Çox nadan, kobud, danışığını, oturuş-duruşunu bilməyən adam haqda deyirlər: «Çox köntöy, yonulmamış, her-hes bilməyən adamdı».

Bəs her-hes bilməmək aforizmi necə yaranıb? Əvvəllər hansı mənanı ifadə edibdi?

Vaxtilə bu ifadə əkinçiliklə məşğul olan insanların danışığında əkinçilikdə işlənən bir termin kimi danışıq dilinə daxil olmuşdur. Əkinçilikdə yer şumlanan zaman cütə, yaxud kotana öküz qoşulardı. Öküzlərin boynuna boyunduruq qoyular, samı və sanbağı ilə möhkəm bağlanardı. Bununla bağlı öküzün dilindən verilən nəğmə yaşlı insanların yaddaşında bu gün də yaşayır:

Öküz deyər:

*Qış olanda samanlığı doldurun,*
*Yaz olanda boyunduruğu yondurun.*
*Kotana getməsəm, vurun öldürün,*
*Deyin ki, qocaqlığım var mənim.*

Cüt, yaxud kotanla yer şumlananda arxada cütün, kotanın macından tutan orta yaşlı kişiyə garvan, boyunduruğun üstündə oturub öküzləri idarə edən cavan oğlana isə xödək deyərdilər.

Yeri şumlaya-şumlaya irəliləyən öküz getdiyi xətdən şumlanan yerə tərəf dönmək istəyəndə xödək əlində olan uzun çubuqla öküzü vuran, qışqırardı: hess, hesss...

Şumdan kənara–xozan yerə tərəf çıxmaq istəyəndə isə: her, her... deyə öküzü şumun açıldığı düz cızığa döndərərdi. Bu işdə püxtələnən öküzlər «her-hes» ifadəsini, bellərinə

dəyən çubuğun ağrısından hiss edər və cütün, kotanın torpaqda açdığı şırıma düz istiqamətdə irəliləyirdilər. Cütə təzə qoşulan xam öküzlər isə «her-hesi» müəyyən vərdişdən sonra öyrənərdilər.

İndi dilimizdə, xüsusilə dialektdə işlənən «her-hes bilməyən adam» ifadəsi qeyd etdiyim qaynaqdan formalaşmışdır. Adi sağ-solu bilməyən adam haqda da belə deyirlər.

## ÖZ ARŞINI İLƏ ÖLÇMƏK

Bu frazioloji birləşmə də məcazi məna – yəni hər kəs müəyyən problemi, həlli vacib olan bir məsələni öz xeyrinə həll etmək istəyəndə işlənir. Görürsən ki, belə mübahisəli məsələlər həll ediləndə tərəflərdən biri o birinə deyir:

– Sən düzgün hərəkət etmirsən, hər şeyi öz arşının ilə ölçürsən. Sənə nə xeyirdisə, problemin o istiqamətdə həll edilməsini istəyirsən. Bu ifadə həm danışıq dilində, həm də bədii ədəbiyyatda geniş işlənir. Bəs «öz arşını ilə ölçmək» ifadəsinin etimologiyası necədir?

Məlum olduğu kimi, arşın sözü bir növ ölçü vahidi olan metr sözünə sinonim kimi işlənir. Metr olmadığı müddətdə parçanı, ipi və sairəni arşınla ölçürdülər. Arşın insanın burnunun ucundan sağ əlin barmaqlarının ucuna qədər olan məsafə hesab edilirdi. Dükançılar, dərzilər də parça ölçəndə öz arşınları ilə ölçürdülər. Ancaq məlumdur ki, arşın kimi işlənən qolun uzunluğu hamıda eyni ölçüdə olmur. Birinin qolu uzun, birininki gödək ola bilər. Onda da kimə necə sərf edirsə, arşın da o ölçüdə işlədilir.

Böyük sənətkarımız Ü.Hacıbəyovun «Arşın mal alan» filmində «arşın» sözü yerinə görə işlənir. Dədə Ələsgərin «Dünyadı» şeirinin bir bəndində belə deyilir.

*Guşumda sırğadı, sinəmdə dağdı:*
*Ağıllı unutmaz neçə ki, sağdı,*
*Dövlətdən qismətin beş arşın ağdı,*
*Çəkdiyin qovğadı, qaldı dünyada.*

Müasir dövrdə arşınla heç nə ölçülmür. Bu sözün yerinə daha dəqiq uzunluq vahidi olan metr işlənir. Qədim türklərdə bir arşın təxminən 68 sm idi. İranda isə arşını «ərzin» kimi də işlətmişlər. Dirsəkdən barmaqların ucuna qədər olan məsafə hesablanmışdı. «Rus arşını» adıyla adlanan arşının uzunluğu 71 sm olmuşdur.

## APARDI SELLƏR SARANI

Bu nəsildən-nəslə, ağızdan-ağıza, eldən-elə ötürülüb gələn xalq mahnısının etimologiyası, yaranma tarixi haqda müxtəlif variantlar söylənilir.

Ancaq bu xalq mahnısının yaranma əhvalatı, tarixi aşağıda qeyd edilən kimi olmuşdur. Mahnının bəndlərindən birində deyilir:

*Gedin deyin Xançobana*
*Gəlməsin bu il Muğana.*
*Muğan dönübdü al qana*
*Apardı sellər Saranı,*
*O alagözlü balanı.*

Burada qeyd edilən Muğan ərazi adı doğma Azərbaycanımızda böyük ərazisini əhatə edən, Sabirabad, Neftçala, Salyan və s. rayonları əhatə edən ad deyildir. Hətta bu bölgəyə aid xalq şairi S.Vurğun «Muğan» adlı məşhur poemasını yazmışdır.

Mahnıda adı çəkilən Muğan, Arpaçayı Şərur rayonu ərazisində yerləşir. Rəvayətə görə, Xançoban adlı bir çoban olur. O, sürüsünü gah aranda, gah da dağlıq zonalarda otarırmış. Aranda olarkən Sara adlı bir el gözəlinə dəlicəsinə vurulur. Sara da onu ürəkdən sevir. Bir-birinə söz verib, əhd-peyman bağlayırlar. Xançoban sürünü xeyli uzaqda olan, başıqarlı dağların ətəklərində bəsləməyə aparmışdı. Bu arada yağılar Şərur ellərinə basqın edirlər. Basqınçılar çeşmə başından evlərinə tərəf dönən el gözəlləri ilə rastlaşırlar. Dəstə başçısının gözü bu qızlar içərisində olan alagözlü,

qələm qaşlı, ucaboylu Saranı alır. Saranı tutmağı əmr edir. Həmin vaxtda Arpaçayı bərk daşmışdı.

Sara bütün gücünü toplayıb, qaçıb aradan çıxmaq istəyirdi. Ancaq basqınçılar hər tərəfdən onu dövrəyə alıb tutmaq istəyirdilər. Əhatəyə alınmışdı. Qarşıda isə qan-qan deyən Arpaçayın insanı vahiməyə salan gurultusu eşidilirdi. Düşmən əlinə keçməmək, şərəfini, namusunu qorumaq üçün bir anda özünü qorxunc dalğaların qoynuna atdı.

*Arpaçayı aşdı-daşdı,*
*Sel Saranı aldı qaçdı.*

– misraları o vaxtdan dildən-dilə düşərək bu günə qədər gəlib çıxmışdı.

Bu əhvalatı bəzi təzkirəçilər cənubi Azərbaycanın Üştibin oymağında yaşamış Nəbati, Xançoban təxəllüsləri ilə şeirlər yazan məşhur şairimizin həyatı ilə də bağlayırlar. Ancaq bu mülahizə düzgün deyil.

## PADŞAHIN VƏSİYYƏTİ

Müsəlman ölkələrindən birində çox ədalətli, mərhəmətli padşah hökmdarlıq edirdi. Ədalət, yoxsullara mərhəmət onun əsas amalı idi. Bu yüksək məziyyətlərə sahib olan hökmdar qocalıb əldən düşmüşdü. Ömür yoluna əsən xəzan yelləri hər an onun bu vəfasız dünya ilə vidalaşacağından xəbər verirdi. Bu anlarda o, inandığı vəzirindən qələm, kağız istədi. Ətrafında olanların hamısının bayıra çıxmaların əmr etdi. O, təklikdə dərindən nəfəs aldı. Əlləri əsə-əsə qarşısındakı vərəqə aşağıdakı sözləri yazdı: «vəzir-vüzəranın, əyan-əşrəfin hərəkətlərindən hiss edirəm ki, mənim dəfn mərasimimi çox təntənəli keçirmək istəyirlər. Məzarımın üstünü qızılla işlənmiş daşlarla bəzəmək istəyirlər. Bunları son vəsiyyətim olaraq qadağan edirəm! Məni adi bir insan kimi dəfn edərsiniz. İnsan dünyaya çılpaq gəlir, çılpaq və əliboş da gedir. Ondan yadigar qalan isə xeyirxah əməlləri, mərhəmət işığına bələnmiş mənalı ömür yolu olur. İnanıram ki, hamıdan çox

inandığım imanlı, mərhəmətli vəzirim mənim yolumu davam etdirəcəkdir. Onda mənim ruhum da həmişə sizinlə olacaq, məzar evində də rahat uyuyacağam».

Yazdığı kağızı zərfə qoydu, ağzın bağladı, zərfin üstünə möhür vurdu.

Elə bu an qapı döyüldü. Başqa vəzir olmaqla yaxınları onun ətrafına toplaşdı. Vəsiyyətnaməni vəzirə verib, xırıltılı səslə dedi: «Mən öləndən sonra zərfi açarsınız və yazılanlara əməl edərsiniz».

Ağzından çıxan bu son sözlərdən sonra gözləri axdı, xırıldamağa başladı. Sarayın baş mollası bəlağətli, həm də qəhərli səslə «Quran» oxumağa başladı.

## MÜƏLLİMİN ŞAGİRDİNƏ MƏSLƏHƏTİ

Ölkələrdən birində çox hörmətli, bilikli müəllim yaşayırdı. Bu müəllim xeyirxah əməlləri ilə şöhrət qazanmışdı. Onun bir sözü dillər əzbəri idi: «Qabiliyyətli şagirdlər yetişdirə bilməyən müəllim kamil insan sayıla bilməz». Bu müəllim xüsusi istedadı olan şagirdlərini daha çox sevir, belələrini obanın gələcəyi olacağına inanırdı.

Daima öyrənməyi özünə və şagirdlərinə həyat idealı seçən bu ustad çox istedadlı bir şagirdini öz yerinə hazırlaşdırırdı. Həmin gəncin çox iti yaddaşı, dərin mühakimə qabiliyyəti vardı. Ona görə də şagird yoldaşlarına da əlindən gələn köməyi edirdi. Bunu hiss edən müəllim ona belə bir göstəriş verdi: «Mənim icazəm olmadan heç kimə kömək etməyə çalışma. Qoy özlərini əziyyətə salıb, həyatı və kitablarla işləməyi öyrənsinlər».

İki ildən sonra bu ustad sevimli şagirdinə dedi:

– İndi sənə icazə verirəm, ancaq lazımi məqamlarda yoldaşlarına kömək edə bilərsən. Ancaq onlara heç vaxt nəsihət vermə.

Şagird çəkinə-çəkinə soruşdu:

– Nə üçün?

Ustad dedi:

– Bu yaşda sən elm öyrədə bilərsən. Ancaq nəsihət verməyin hələ tezdi. Bunun üçün yaşa dolmalı, həyatın yenişyoxuşunu, yaxşısını-pisini dəfələrlə təcrübələrdən keçirməlisən. bundan sonra nəsihət vermək üçün sənin mənəvi haqqın ola bilər. Onda sənin nəsihətlərini dinləyən şəxslər də xeyir tapa bilərlər. Bunları heç vaxt unutma.

## ƏDİL İSGƏNDƏROV BÖYÜKLÜYÜ

Ədil İsgəndərov adı (çox vaxt səhv olaraq bu adı Adil İsgəndərov kimi işlədirlər) Azərbaycan mədəniyyət tarixində, eləcə də o dövrkü SSRİ ərazisində çox hörmətlə çəkilən adlardan biri idi. Uzun illər rəhbərlik etdiyi sahədə heç zaman haqqı nahaqqın ayağına verməmişdi. Rejissor və aktyor kimi Azərbaycan mədəniyyətinin inkişafında böyük işlər görmüşdü. Onun bu gün də çəkildiyi filmlərdəki rolları xalqımız tərəfindən sevilir və qiymətləndirilir, Bunlardan «O olmasın, bu olsun»dakı qoçu Balaqardaşı, «Qanun naminə» filmindəki Kamilovu, «Axırıncı aşırım» filmindəki Kərbəlayı İsmayılı və başqalarını göstərə bilərik.

O həm də insanlığı, vətənpərvərliyi ilə bu gün də qəlblərdə yaşayır.

Bu görkəmli şəxsiyyətin hansısa səbəbdən xalq artisti Ə.Ələkbərovla aralarında soyuq yellər əsmişdi. Buna baxmayaraq, Ədil İsgəndərov dram əsərlərində rolların bölgüsündə, filmlərin çəkilişində Ə.Ələkbərovu həmişə önə çəkərdi. O illərdə S.Vurğunun «Vaqif» dramı səhnədə oynanılmağa hazırlaşarkən bir neçə məşhur adam Vaqif surətini ifa etməyə iddialı idi. Ə.İsgəndərova bu barədə vəzifəli, hörmətli şəxslər də ağız açmışdılar. Lakin bu işin öhdəsindən Ə.Ələkbərovun layiqincə gələcəyini bildiyindən rolun səhnə təcəssümünü gözlənilmədən ona tapşırdı. Nəticəsi də çox uğurlu alındı. Moskvada Dekada günlərində V.Şeksprin «Otello» əsərində Otello surətinin ifa edilməsində Ə.İsgəndərov yenə də bu surətin ifasını Ə.Ələkbərova tapşırdı. Nəticə yenə də çox uğurlu alındı. Sonralar Ə.Ələkbərov demişdi: «Bu rolun

mənə tapşırılması ilə mən həm SSRİ məkanında, həm də İngiltərədə məşhurlaşdım. Bu rolun ifasının mənə tapşırılacağına inamım yox idi».

Bununla Ə.İsgəndərov öz böyüklüyünü bir daha sübut etdi.

Sonralar «Nəsimi» filminin çəkilişinə başlayanda Teymurləng rolunun ifası Ə.İsgəndərova tapşırıldı. Lakin o, könüllü olaraq bu roldan imtina etdi. Həmin rolun Yusif Vəliyev tərəfindən daha yaxşı oynanılacağını bildirdi və bu işin belə həll edilməsinə də nail oldu.

Heç bir məqsəd güdmədən hər kəsə qabiliyyətinə görə iş tapşırmaq onun həyat amalı idi. Elə buna görə də Ə.İsgəndərov haqda maraqlı, yaddaqalan rəvayətlər bu gün də sənət adamları arasında söylənilir. Bunlardan ikisini bir daha oxucuların yadına salmaq istəyirəm.

1. Ə.İsgəndərov vəzifədə olarkən Moskvada təhsil alıb geri dönmüş bir erməni rejissoru Ə.İsgəndərovun qəbuluna gəlir, ona Bakı haqda film çəkmək istədiyini bildirir. Bu erməni dığasını başdan-ayağa diqqətlə süzən Ə.İsgəndərov demişdi:

– Get, belə filmi Ermənistanda çək. Burada Bakı haqda film çəkən tapılar.

2. Xalq şairi S.Vurğunun «Komsomol» poemasının motivləri əsasında film çəkilməsi barədə qərar verilmişdi. Filmin çəkilişinə məsul rejissor rolları ifa edəcək aktyorların siyahısın Ə.İsgəndərovun masası üzərinə qoyub deyir:

– Ən yaxşı aktyorları siyahıya salmışam. Təkcə yeddi oğuldan biri olan Mirpaşa üzərində tərəddüd keçirirəm. Bu rola nəzərdə tutduğum Elçin Məmmədovun aktyorluq təhsili yoxdu. İxtisası rəssamdı. Atası görkəmli rejissor Mehdi Məmmədov, anası isə Barat Şəkinskayadır.

Bu sözləri eşidən bu dahi insanın üzünə təbəssüm qonur, gülə-gülə deyir:

– Qada, Elçinin məşhur valideynləri Elçinin diplomunu tam əvəz edər. Seçimi düzgün etmisən. O, mütləq etimadı doğruldacaq.

Sonralar, doğrudan da, belə oldu. İndi də o yeddi oğulun içərisində ən çox yadda qalan Şahmar Ələkbərovun oynadığı

Qəzənfər və Elçin Məmmədovun oynadığı Mirpaşa rolları xatırlanır.

Son olaraq qeyd edim ki, vəzifə kürsüsündə hər adam yaxşı əməllər sahibi ola bilmir. Ədil İsgəndərov isə həmişə yaxşılığı özünə həyat amalı etdi, mənalı ömür karvanını da gözəl insan kimi başa vurdu.

**ELÇİN MƏMMƏDOV – MİRPAŞA KİMDİR?**

Elçin Məmmədov 1946-cı il mayın 29-da azman sənətkarlaımız Mehdi Məmmədovla Barat Şəkinskayanın ailəsində dünyaya göz açmışdır. Anasının vaxtı olmadığına görə uşaqlıqdan onun böyüməsi, tərbiyəsi ilə ondan 14 yaş böyük olan bacısı Solmaz məşğul olmuşdu. Buna görə Solmaz hətta bir il məktəbə də gedə bilməyib.

Orta məktəb illərində həm məktəbdə, həm də ailədə Elçin ipə-sapa yatmayan dəcəl uşaq olub. Məhz buna görə də oxuduğu 46 №-li orta məktəbdə xalq artisti Barat Şəkinskayanı tez-tez məktəbə dəvət edərmişlər. Elçin uşaqlıqdan zəkalı şagird kimi müəllimlərinin nəzərini cəlb edirdi. Ancaq onu tutmayan, özünə cəlb etməyən mövzuları oxumazdı.

Anasının təsiri ilə Elçin əvvəlcə Bülbül adına musiqi məktəbində skripka üzrə məşğələlərə davam edir. Lakin bu iş ürəyincə olmadığına görə ordan uzaqlaşır. Rəssamlığa ciddi marağı olduğuna görə bir müddət də Ə.Əzimzadə adına rəssamlıq məktəbində oxuyur. Orta məktəbi bitirəndən sonra incəsənət institutunun rəssamlıq fakültəsinə daxil olur. Elə o illərdə tez bir zamanda məşhur bir rəssam kimi tanınır, sərgilərdə iştirak edir. Burada müəllimləri onun iti yaddaşına, dərin zəkasına heyran qalırdılar.

O, teatr rəssamı kimi tez məşhurlaşdı. Gənc Tamaşaçılar Teatrında bir müddət fəaliyyət göstərən bu istedadlı gənc sonralar Azərbaycan Dövlət Akademik Dram Teatrının baş rəssamı səviyyəsinə qədər yüksəlir. Bakıda fəaliyyət göstərən bütün teatrlarda, eləcə də Moskva, Arxangelskdə və digər şəhərlərdə yüzdən çox tamaşalarda rəssamlıq edir. Sonralar

isə atası Mehdi Məmmədovla birlikdə çalışır. 1984-cü ildə «İblis» tamaşasına görə Dövlət mükafatına layiq görülür.

Ancaq onu daha çox məşhurlaşdıran Tofiq Tağızadənin rejissorluğu ilə çəkilən «Yeddi oğul istərəm» filmindəki Mirpaşa rolu oldu. Bu rolun ifasından sonra əksər adamlar onu Mirpaşa deyə çağırardılar.

Onu da qeyd edim ki, Elçin Məmmədov tam varlığı ilə dinimizə bağlı adam olub. Hətta «Quran» oxuyub, onun ayələrini lazımınca izah edərmiş. Filmin çəkilişi dövründə də məscidə iti bağlamağın onun ürəyincə olmadığını deyərmiş.

Pəhləvan cüssəli, ötkəm səsli Elçin Məmmədov at minib çapmağı yaxşı bacarmadığına görə çəkiliş zamanı bir neçə dəfə zədələnmişdi. Mirpaşa rolu ilə məşhurlaşan Elçin Məmmədov bir müddət sonra «Dədə Qorqud» filmindəki Qaraca Çoban roluna dəvət edilir. Bu rolda da öz sözünü deyir, uğur sahibi olur.

Ancaq burada da çəkilişə məsul olan rejissorla aralarında narazılıq yaranır. Deyir ki, mən heç vaxt diri-diri qoyunları qayadan ata bilmərəm. Onlar parça-tikə olarlar. Allahın qəzəbinə düçar olarıq.

Məcbur qalan rəhbərlik axırda Elçinlə razılaşmalı olur. Heyvanların maketin hazırlayırlar. Qaraca Çobanın ifaçısı Elçin də o heyvanların maketini düşmənlərə tərəf tullayır.

Bu filmin çəkilişində də bağlandığı ağacın yerdən çıxarılması səhnəsində zədələnir, yandırılan lopalar biləklərini yandırır. Ancaq bu filmdə də Qaraca Çoban surətində Mirpaşada qazandığı uğuru layiqincə başa vurur.

Həm rəssamlıq, həm də aktyorluq fəaliyyətinə görə ona əməkdar incəsənət xadimi adı verilir. Səhnəmizin Mirpaşası, Qaraca Çobanı, məşhur rəssamı cəmi əlli beş il yaşadı.

Öz sağlamlığına heç vaxt fikir verməzdi. Ağır infakt keçirməsinə baxmayaraq, bu haqda heç fikirləşmirdi də. 2002-ci il fevralın 18-i idi. O, həmişəki kimi maşınına oturub mikrorayondakı emalatxanasına yollanır. Blokun qarşısında maşından düşəndə özünü çox narahat hiss edir. Maşının qapısını bağlayır, ordakı uşaqlardan birini emalatxanaya gön-

dərir ki, ordan rəssam yoldaşını çağırsın. Lakin rəssam gələndə bir şimşək kimi tez yanıb, tez də sönən Elçin Məmmədovun bu vəfasız dünyanı tərk etdiyini görür. Ondan yadigar qalan üç oğlu da atalarının yolunu davam etdirirlər. Xüsusilə 12 yaşlı oğul nəvəsi həm boy-buxunda, danışıq tərzində, ötkəmliyində tam babasına bənzəyir.

Elçin Məmmədov dünyadan vaxtsız köçsə də, Mirpaşa, Qaraca Çoban və digər surətlər, yaratdığı momunental rəsm əsərləri onu əbədi olaraq qəlbimizdə yaşadacaqdır.

## ZƏR QƏDRİNİ ZƏRGƏR BİLƏR

Keçmiş şagirdlərindən biri böyük alim olan ustadı Buzərcümehrin yanına gəlmişdi. Aralarında elm-ürfan sahəsindən söhbət gedirdi. Söhbət əsnasında ustadın şagirdi başladı başqa alimlərin haqda yaramaz sözlər danışmağa, onları tənqid etməyə. Bu, istada çox pis təsir elədi. Barmağındakı ən qiymətli üzüyünü barmağından çıxarıb, oğlana verdi və dedi:

– Apar bu üzüyü sadə adamlara göstər, qiymətin öyrən və satmağa çalış.

Şagird deyilənə əməl etdi, lakin həmin adamlar bu bahalı üzüyə çox ucuz qiymət dedilər. Şagird yenidən ustadın yanına qayıtdı. Vəziyyəti ona bildirdi. Bu vaxt ustad, şagirdinə dedi ki, üzüyü indi də ləl-cəvahirat satılan, zərgərlər işləyən yerə aparsın, üzüyün qiymətini onlardan öyrənsin.

Şagird belə də etdi. Orada üzüyə şagirdin heç gözləmədiyi qiyməti dedilər. Şagird yenidən ustadın yanına qayıtdı, əhvalatı ona danışdı.

Ustad bu dəfə tənəli baxışlarla şagirdini süzərək dedi:

– Bu üzüyə münasibətdən özün üçün dərs götür. Səndən elm sahəsində üstün olanları pisləməklə özünü alçaldırsan. Görürsənmi, adi adamlar bu qiymətli üzüyə layiq olan qiyməti verə bilmədilər. Ancaq ləl-cəvahir xridarı olanlar üzüyün bahalı qiymətini dəqiq verdilər. Bundan sən də öz həyatın üçün nəticə çıxar, bir də belə səhvlərə yol

vermə. Yaxşı olar ki, hər kəs öz səviyyəsində olana qiymət versin.

Şagird bu sözlərdən sonra xəcalətdən qıpqırmızı qızardı, utandığından başın aşağı saldı. Xəcalətli baxışlarla ustadın komasından aralandı.

## HALAL MAL

Şərq ölkələrindən birində halallığı ilə seçilən, əlinin əməyi ilə yaşayan bir mömün insan yaşayırdı. Neçə illər idi ki, halallıqla çalışır, sərmayə toplayırdı ki, Həcc ziyarətinə getsin. Nəhayət, bir vaxt hesabladı ki, əldə etdiyi sərmayə həm Həcc ziyarətinin xərcini, həm ailənin xərcini ödəyir, qızıllardan bir qədər də artıq qalır. Uşaqları azyaşlı, qadını da tək olduğuna görə qızılları evdə qoymağa qorxdu. Gecənin birində kəndlərindən xeyli aralıda bitən çiçəklərindən, yarpaqlarından, zoğundan dərman kimi istifadə edilən qol-budaqlı ağacın dibinə getdi. Dərin çala qazıb, qızılları orda basdırdı. Qazdığı yerin üstünə şax-şəvəl, daş-kəssək də tökdü ki, çala bilinməsin.

O, ziyarətdən geri dönəndən bir neçə gün sonra həmin ağacın dibinə getdi. Nə qədər çalışdısa da, qızıldan xəbər çıxmadı. Məlum oldu ki, kimsə oranı qazıb, qızılı da aparıb. Çox peşman halda padşahın qəbuluna getdi. Başına gələnləri ona danışdı. Padşah o şəxsə dedi ki, üç gündən sonra yenə qəbuluma gələrsən. Padşah təbibliyi ilə məşhur olan türkəçarəçi həkimi qəbuluna çağırtdırdı.

Ondan bu yaxınlarda səhradakl ağacın zoğlarından, çiçək və yarpaqlarından düzəltdiyi məlhəmlərdə istifadə edib-etməməsini soruşdu.

Təbib o ağacın çox xeyirli olmasından, əhəmiyyətindən bir az danışandan sonra dedi:

– Bu arada köməkçimi yollamışdım o ağacın yanına. Gələndə ağacın zoğlarından, çiçək və yarpaqlarından gətirmişdi. Düzəltdiyim məlhəmlərdə indi istifadə edirəm.

Padşah tez bir cəllad, iki fərraşı təbibin köməkçisinin arxasınca göndərdi və dedi:

– Ona deyərsiniz ki, ağacın dibindən çıxardığı qızılları padşahın hüzuruna gətirməsə, başın padşahın hüzuruna aparacağıq.

Cəllad və fərraşları görənköməkçinin qorxudan bədəni yarpaq kimi əsirdi. Bir çətən külfəti gözü önünə gəldi. Tez gedib qızılları basdırdığı yerdən çıxardı.

Saray qapısından içəri girən kimi padşahın qıçlarına düşüb, yalvarmağa başladı.

Padşah qızıl sahibini içəri dəvət etdi. Halal yolla qazandığı qızılları ona təqdim etdilər. Bu halal insan padşaha bir xeyli dua-səna edəndən sonra qızıllardan bir qədərin də zorla təbibin köməkçisinin cibinə qoydu.

Halal şəxsin bu hərəkəti padşaha da xoş gəldi.

**NƏRİMAN HƏSƏNZADƏ DÜNYASINDAN**

Xalqımız tərəfindən sevilən, görkəmli şair Nəriman Həsənzadə mənalı, keşməkeşli bir ömür yaşamışdır. Onun ömür qatarı həm bir şair, həm də görkəmli elm xadimi kimi zamanın dolayları ilə asta-asta zirvələrə doğru hərəkət edir.

Tale hələ uşaqlıq illərindən ona qarşı amansız olmuşdu. Ağstafa rayonunda Poylu adlı dəmiryol stansiyasında uçuq-sökük bir daxmada yaşayırdılar. Atası Alməhəmməd o, altı yaşında olanda dünyasın dəyişdi. Ancaq anasının, yaxşı insanların qayğısı nəticəsində orta məktəbi yüksək qiymətlərlə bitirib, Gəncə Pedaqoji İnstitutuna daxil oldu. Burada oxuduğu müddətdə Gəncədə yaşayan ögey bacısı ona arxa-dayaq oldu. Toyunu da ögey bacısı elədi.

İnstitutu qurtarandan sonra əsgəri xidmətə çağrıldı. Bu müddətdə onu gözüylə od götürə-götürə böyüdən anası da dünyadan vaxtsız köçdü. N.Həsənzadə xatirələrində yazır: «Əsgərliyimi Salyanski kazarma deyilən yerdə davam etdirirdim. Bir gün əlimdə avtomat hissəmizin bayrağı yanında keşik çəkərkən anamın qəfil ölümü haqda mənə teleqram verdilər. Dünya başıma fırlandı. Əlimdə silah komandirimizin otağına daxil oldum. Vəziyyəti ona danışdım, anamın yasına

getməyimə icazə istədim. O, keşiyində durduğum bayrağın yanından icazəsiz gəldiyimə görə məni cəzalandıracağını bildirdi. Həm də qeyd elədi ki, bir teleqramla sənə icazə vermək olmaz. Ananın ölümü haqda dövlət nümayəndəsinin möhürlü kağızı lazımdı.

– İzacə versən də, verməsən də mən gedəcəyəm deyib, avtomatı ayağa çəkib, ona tərəf tuşladım. Qorxudan rəngi ağappaq ağaran komandir əllərini göyə qaldırdı və əsə-əsə dedi:

– İcazə verirəm, get ananın yasına...

Çıxış qapısına çatanda orda əli silahlı əsgərləri gördüm. Elə o an fikirləşdim ki, onlar məni tutmaq üçün komandir tərəfindən bura göndəriliblər.

Avtomatı hazır vəziyyətə gətirib, onlara tərəf tuşladım və uca səslə dedim:

– Silahları atıb getməsəniz, hamınızı qıracağam!!!

Əsgərlər elə həmin an silahların yerə atıb, ordan uzaqlaşdılar. Anamın ölümünə görə özümdə-sözümdə deyildim. Hər an əlimdən xəta çıxa bilərdi.

Nəhayət, yaxın adamlardan birinin evinə gəlib çıxdım. Orda öz paltarım vardı. Paltarımı dəyişdim. Avtomatı da etibarlı yerdə gizlətdim. Poyluya qatarla yola düşdüm. Bu anlar həyatımın ən ağrılı anları idi. Həyatını mənim yolumda şam kimi yandırmış arxam, dayağım da məni tərk etmişdi. Yasdan sonra hərbi hissəyə qayıtdım. Məlum oldu ki, məni hərbi tribunalara veriblər. Altı ildən doqquz ilə qədər həbs gözlənilirdi. Əsgərliyə çağrılmazdan qabaq Azərbaycan Yazıçılar İttifaqının üzvü seçilmişdim. Müəyyən qədər tanınırdım. Mətbuatda ara-sıra yazılarım dərc edilmişdi. Belə ağır günümdə təsadüfən bu hərbi hissəyə gələn görkəmli şairimiz Rəsul Rza və onun həyat yoldaşı-şairə Nigar Rəfibəyli ilə rastlaşdım. Rəsul Rza vəziyyəti bilən kimi, birbaşa respublika hərbi komissarına müraciət etdi. Məhz bu alicənab, xeyirxah insanın sayəsində həbsdən qurtula bildim.

N.Həsənzadə xatirələrində yazmışdı:

– Həyatım təlatümlərlə ağrı-acılarla dolu olduğu kimi, xeyirxah insanların da kölgəsi həmişə üstümdə olub. Bunlardan

xüsusilə Mircəlal müəllimi, Rəsul Rzanı, Nazim Hikməti və başqa xeyirxahlarımı heç vaxt unutmayacağam.

Özüm də həyatımda bu cür xeyirxah insanların yolunu davam etdirməyə çalışıram.

**TİKƏDƏ TÜK**

Aclıq, qıtlıq illəri imiş. İş elə gətirir ki, uzaq səfərə çıxan bir şəxs gecəyə düşdüyünə görə yoldan bir az aralı kəndə dönməli olur. Həm də bu kənddə onun çoxdan görüşmədiyi bir köhnə dostu yaşayırdı. Axtarıb dostunun evini tapdı, darvaza qapısının çaxcağın döyəclədi. Dostu qapıya gəldi. Köhnə dostunu əvvəl tanımadısa da, sonra tanıdı. Qucaqlaşıb görüşdülər. Hal-xoşdan sonra Allah qismət edəndən yeyib yatdılar.

Səhər nahar yeməyin iki dost birlikdə yeyirdi. Birdən qonaq ağzına tikəni aparan zaman ev sahibi onun biləyindən yapışdı, tikəsində tük olduğunu bildirdi. Bu hal qonağın kefinə soğan doğradı, küsüb evdən getmək istədi. Ev sahibi qonağına dedi:

– Burada mən hansı qəbih iş gördüm ki, sənin belə xətrinə dəydi?

Qonaq cavab verdi:

– Bilirəm qıtlıqdı, aclıqdı. Belə bir məqamda sənin mənim tikəmdə tükü görməyin mənə çox pis təsir elədi. Belə çıxır ki, sənin gözlərin mənim ağzıma apardığım tikələrə dikilib. Ev sahibi and-aman elədi. Belə fikirlərlə onun biləyindən yapışmadığını bildirdi. Çox çətinliklə köhnə dostunu yenidən süfrə başında oturtdu, onun könlün aldı.

**DİLİNİ ÇEYNƏMƏK**

Bəzən elə vəziyyət olur ki, hər hansı bir insan cəmiyyət arasında, yaxud dostun, tanışın yanında ağzına gələn sözü əhvalatı danışmaq istəyir. Ancaq bir anda fikrindən vaz keçir, fikirləşir ki, bu söz, bu söhbət buranın yeri deyil. Həmin sözü, əhvalatı boğazındaca boğur, dilin dişləyir, münasib bilmədiyi sözlərin ağzından çıxmasına mane olur. Məşhur

atalar sözlərimizdən birində deyilir: «Söz neçə ki ağzından çıxmayıb, o sənin qulundu. Ağzından çıxandan sonra isə sən o sözün qulu olursan».

Deməli, belə görünür ki, insanlar lazım olmayan, məqamına düşməyən sözü demək istəməyəndə dillərini dişləmişlər. Bununla da söz ağızlarından çıxmayıb. Belə adamlar sonralar bir yaxını ilə söhbət edəndə deyər: «Filan vaxtı bilmədən ağzımdan münasib olmayan söz çıxacaqdı, yaxşı ki, tez dilimi dişlədim, hörmətdən düşmədim».

Bəs bu ifadənin etimologiyası haradan qaynaqlanır? Nə üçün dili dişləmək? Qədim çinlilərdə və yaponlarda belə bir adət olmuş, həm də sərt qanun kimi qəbul edilmişdi. Əgər Çin, yaxud yapon kəşfiyyatçısı düşmən tərəfin əlinə keçsəydi, tez dillərini dişləyib parça-tikə etməliydilər. Bununla onlarda olan dövlət sirrinin düşmən tərəfə verilməsinin qarşısın almış olurdular. Əgər belə etməsəydilər, ağır işgəncələr nəticəsində həmin sirr onlardan alına bilərdi. «Dilimi dişlədim» ifadəsi də buradan qaynaqlanmışdır.

## DOSTUN CAVABI

İki kasıb dost olur. Birlikdə dolanır, birlikdə işləyir, kəsb-karlıqlarını da bir yerdə edirdilər. Kədərli günləri də, şad günləri də birlikdə keçirər, bir-birinə arxa-dayaq olardılar. Məktəb illərini də bir yerdə başa vurmuşdular. İş elə gətirdi ki, bu iki dostun biri ailəliklə başqa şəhərə köçdü. Xeyli müddət bir-birindən aralı düşdülər. Hərə gündəlik qayğılar, ailə problemləri ilə məşğul olmağa başladı. Uzun müddət sonra doğma şəhərində qalan dost eşitdi ki, köçüb gedən dostun yüksək vəzifəyə seçiblər. Orada özünə yaxşı güzəran qurub. Bu dost onunla hərdən maraqlansa da, vəzifəli dost isə onunla heç maraqlanmayıb.

Doğma şəhərində qalan dost bir gün qürbətdə yaşayan dostunun görüşünə getdi. Çox çətinliklə onun qəbuluna düşə bildi. Vəzifəli dost rəsmi şəkildə ondan soruşdu:

– Nə istəyirsən, qəbula gəlməyinin məqsədi nədir?

Dostunun onunla belə rəsmi rəftar etməsi, özünü çox təkəbbürlü aparması qonaq gələn dostu bərk sarsıtdı. O dedi:

– Eşitdim ki, gözlərin tutulub. Ona görə müsibətinə çarə qılmağa, sənə başsağlığı verməyə gəlmişdim.

Bu sözlər vəzifəli dosta güllə kimi dəydi, yatmış insani duyğular baş qaldırdı. Qaçıb küçəyə çıxan dostuna yetişdi, onu bağrına basdı. Hər ikisi hönkür-hönkür ağlamağa başladı.

### ŞAGİRD VƏ USTAD

Bir görkəmli alim ustad və gözəl tərbiyəçiliyi ilə şöhrət tapmışdı. Bütün mənalı həyatını istedadlı şagirdlər tapıb, onları gələcək nəsillər üçün kamil insan kimi yetişdirməkdə görürdü. Həm də çalışırdı ki, gördüyü işləri Allah rizasına görsün. Həm də belə şagirdləri əsasən yoxsul təbəqələrin içərisindən arayıb tapardı.

Neçə illər boyu hazırlaşdığı, qayğısına qaldığı zəkalı şagirdlərindən biri ilə ayrılacaq, onu müstəqil yaşamaq, xeyirxah işlər görmək üçün sərbəst buraxacaqdı.

Şagird də bu sevimli ustadından heç ayrılmaq istəmirdi. Ancaq qərar verilmişdi. Son məqamda şagird bir daha ustadına üz tutdu:

– Bu ayrılıq məqamında da sizdən bir neçə məsləhət almaq istəyirəm. Bundan sonra mən hansı xarakterləri öz həyatımda əks etdirim? İlk əvvəl necə başlayım?

Ustad bu ağıllı şagirdini süzərək dedi:

– Ən əvvəl bu dediklərimə əməl etməlisən. Dinimizi kamil öyrənməlisən, halal yolla var-dövlət əldə etməlisən, səxavətli, əliaçıq şükürlü və səbirli olmalısan. Təkəbbür və riyadan uzaq olmalısan

### GÖRKƏMLİ ALİM EDİSSONUN DÜNYASINDAN

Dünya çöhrətli alim Edisson uşaqlıq illərində çox dəcəl, nadinc uşaq olmuşdu. Atasını vaxtsız itirdiyinə görə onun tərbiyəsi ilə anası məşğul olardı.

Məktəbdə müəllimləri onun hərəkətlərindən lap cana doymuşdular. Müəllimləri hiss edirdilər ki, Edisson çox istedadlıdır, ancaq dərslərinə hazırlaşmır. Bir dəfə məktəbin müdiri ona bir məktub verdi ki, aparıb anasına versin.

Ağzı bağlı zərfi Edisson gətirib anasına verdi. Ana əlləri əsə-əsə zərfi açdı, məktubu oxumağa başladı. Məktubda Edissonun bir şagird kimi özünü apara bilməməsi, nöqsanlı cəhətləri bir-bir sadalanırdı. Məktubu oxuyan ana hönkür-hönkür ağlamağa başladı. Ancaq oğluna heç bir söz də demədi. Anasını sakitləşdirməyə çalışan bu dəcəl uşaq onun göz yaşlarını silirdi. Ağlamaması üçün ona yalvarırdı. Nə fikirləşdisə məktubu alıb özü də oxudu. Ürəyində özünə söz verdi ki, bundan sonra o, anasını ancaq sevindirəcək, heç vaxt ağlatmayacaq. Ananın boynunu qucaqlayıb bu sözləri ona da dedi.

Aradan bir aydan artıq vaxt keçmişdi. Müdir yenə Edissona bir məktub verdi ki, aparıb anasına çatdırsın.

Çox qorxuya düşən bu oğlan bütün hərəkətlərini götür-qoy edə-edə evlərinə çatdı. Bikef halda məktubu yenə anaya verdi. Ana məktubu oxumağa başladı. Gözlərindən yenə yağışlar ələnirdi. Ancaq bu göz yaşları sevinc göz yaşları idi. Üz-gözündə təbəssüm hiss olunurdu. Məktubu oxuyub qurtarandan sonra oğlunu bağrına basdı, üz-gözünü öpüşlərə qərq elədi. Oğlan özü də məktubu oxudu. Üzünə xoş bir təbəssüm qondu. Məktubda yazılan sonuncu cümlə heç yadından çıxmırdı: «Biz inanırıq ki, sizin oğlunuz gələcəyin dahi insanlarından biri olacaqdı».

Aradan illər keçmişdi. Ana da, ona təlim-tərbiyə verən müəllimlərin də bir çoxu dünyaların dəyişmişdi. Edisson isə dünyanın məşhur alimlərindən biri olmuşdu. Birdən ananın boxçası nəzərini cəlb elədi. Boxçanı açdı. Vaxtilə onun haqqında anaya yazılan məktubların ikisi də orada idi. Hər ikisin göz yaşı tökə-tökə oxudu. Keçmişləri xatırladı. Bu məktublar onun həyatında dönüş nöqtəsi olmuşdu. Sonralar memuarlarını yazan dünyaşöhrətli alim onun həyatında dönüş nöqtəsi olan bu iki məktubdan, müəllim və valideynin təlim-tərbiyəsindəki rolundan geniş bəhs etmişdi.

## AYAĞIAĞIR, YAXUD QARADABAN NƏ DEMƏKDİR?

Bu ifadələr adi danışıq dilində, eləcə də yazılı ədəbiyyatda da geniş işlənən aforizmlərdəndir. Bəs necə olur ki, bəzi insanlara ayağıyüngül, bəzilərinə isə ayağıağır. Yaxud qaradaban deyirlər? Bu haqda fikirləşərkən bir vaxtlar nənəmin dediyi sözlər yadıma düşür.

Çörək yapmağa, yaxud gəbə, palaz, gecim hanasını asmağa başlayanda deyərdi:

– A bala, sən gündüz anadan olmusan, ayağın yüngüldü. Get küçəyə, ordan qayıt gəl işimizin üstünə. Denən ki, işiniz yüngül olsun, xeyirli olsun. Onda işimiz də yaxşı alınar.

Bəzən də qohumdan, qonşudan belə işlərin üstə təsadüfən bir adam gələndə, iş də alınmayanda deyərdilər:

– Filankəsin ayağı ağır idi. Qaradaban sayılırdı. İşin üstdə birinci gəldiyinə görə işimiz alınmadı. Belə hallar yer şumlananda, əkin-biçin başlayanda, tikinti işləri aparılanda da baş verərdi. Deməli, qədim insanların təsəvvüründə gündüz doğulan insanlar ayağıyüngül, xeyirli olub, gecə doğulanların ayağı isə ağır, qaradaban sayılıb. İndinin özündə də bu adət-ənənə davam edir, nəsildən-nəslə ötürülür. Xalq təsəvvüründə qeyd etdiyim bu ifadələr düzgünlüyündən, səhvliyindən asılı olmayaraq bu gün də işlənir. Bəzən təzə gəlin gələn bir evdə xoşagəlməz hadisə baş verərsə, deyərlər: «Gəlinin ayağı düşmədi, qaradabandı».

## ƏN ŞİRİN XATİRƏ

Bir neçə dost təbiətin gözəl çağında kənddən xeyli aralıda olan bir səfalı yerdə, bulaq başında toplaşmışdı. Deyə-gülə çörək yeyəndən sonra dostlardan biri dedi:

– Burada dörd nəfərik. İstərdim ki, hər kəs həyatında baş verən, bir iz buraxan gözəl bir xatirə danışsın.

Söhbətə birinci yaşca onlardan böyük olan dost başladı.

– Həyatımda yaddaqalan, şirin xatirəli anlar çox olub. Ancaq mənim üçün ən şirin xatirə indi mənim həyat yoldaşım olan qadına ilk sevgi etiraflarını bildirdiyim, onun da mənə müsbət cavab verdiyi anları hesab edirəm.

İkinci dost sözə başladı:

– Mənim üçün ən şirin, duyğulu xatirə mənim və sevdiyim qızın toyunun çalındığı gündü. Çünki bizim ailə qurmağımıza atam heç cürə razılıq vermirdi. Nəhayət, ağsaqqalların, qohum-əqrəbanın köməkliyi ilə atam razılaşdı və bizə xeyirdua verdi. Elə səhərisi gün də toy başladı.

Üçüncü dost da sözünə belə başladı:

– Hər bir insanın həyatında şirin duyğulu, xoş xatirəli anlar olur. Mən həyatımda ən xoş, şirin duyğulu anlar ali məktəbə daxil olduğum günü hesab edirəm.

Dostların ən kiçiyi sözə başladı:

– Mən dostlarımla razılaşıram. Çünki insan xarakteri mürəkkəb və çətin anlaşılandı. Ancaq qeyd etdiyiniz o şirin, duyğulu xatirələr artıq illərin arxasında qalıb. Mənim üçün ən şirin, duyğulu anlar indi burada sizinlə keçirdiyim anlardır. Ömürboyu da yaddan çıxmayacaq. Bu sözə görə dostların üçü də kiçik dostu bağırlarına basdılar.

## SULTAN VƏ VƏZİRİ

Bir ölkədə bir-birinə çox mehriban olan Sultan və ağıllı vəziri yaşayırdı. Həmişə ağıllı vəzirin məsləhətlərinə qulaq asan Sultan ad-san sahibi olmuşdu. Ancaq çox dünyagir, dünya varına aşiq adam idi. Hər vəchlə var-dövlətin artırmağa, xəzinəni doldurmağa çalışırdı. Vəzir isə bunun əksi idi. Əlinə keçən var-dövləti kasıb-kusuba, fəqir-füqəraya paylar, bundan xeyli xoş olar, rahatlıq tapardı. Vəzirinin bu hərəkətlərini içindən qırıla-qırıla müşahidə edən Sultan vəzirin hərəkətlərinə dözə bilmirdi. Ancaq aradan pərdəni də götürmək istəmirdi.

Nəhayət, bir gün səbrini cilovlaya bilmədi. Vəzirə üz tutdu:

– Ey mənim ağıllı vəzirim, mən bir işə məəttəl qalmışam. Görünür, sən var-dövləti mənim kimi sevmirsən. Əlinə ke-

çəni fəqir-füqəraya xərcləyirsən. Əgər o pullar sənə lazım deyilsə, onları mənə ver.

Bu sözlərdən vəzir tutuldu, ancaq Sultana ibrət verməyi də qarşısına qoydu. Sultana dedi:

– Ey mənim əzəmətli Sultanım, mən dünya malını səndən çox istəyirəm. Düşün, hətta səndən də çox. Mən fəqir-füqaraya sərf etdiyim var-dövləti özümlə axirətə aparacağam. Sən isə apara bilməyəcəksən, axirətə əliboş gedəcəksən. Sultan bir az da əsəbi halda vəzirə üz tutdu:

– Anlaya bilmədim dediklərini. Necə ola bilər ki, axirətə sən əlidolu, mən isə əliboş gedəm?

– Ona görə ki, mən fəqir-füqəraya sərf etdiyim dünya malının savabını özümlə axirətə apara biləcəyəm. Sənin yığdığın var-dövlət isə bu fani dünyada qalacaq, özünlə bir quruş da apara bilməyəcəksən.

Ağıllı vəzirin bu sözlərindən Sultan elə bil yuxudan ayıldı. Ömrünün qalan hissəsin o da vəzir kimi yaşamağa başladı.

## QONŞUYA XƏBƏR GƏTİRƏN KİŞİ

Qonşuluqda bir neçə ailə yaşayırdı. Bu ailələrdən biri nisbətən varlı idi. O biri qonşuların hamısı çalışırdı ki, varlı qonşu ilə daha yaxın olsun. Bu işdə bir növ qonşular arasında rəqabət yaranmışdı. Qonşulardan biri bu işdə daha çox səy göstərir, o biri qonşuları varlı qonşunun gözündən salmağa çalışırdı. Varlı qonşunun təklikdə yanına gələn kimi digər qonşuların varlı qonşunu istəməmələri, orda-burda onun haqqında nalayiq sözlər danışmaları haqda dil boğaza qoymadan danışırdı. Varlı qonşu bu cılız insanın belə söhbətlərindən cana doymuşdu.

Həmin şəxs bir gün yenə belə söhbətə başlamaq istəyəndə varlı qonşu idi:

– Ay qonşu, daha bəsdi. Sən ağzını açmaq istəyəndə nə danışacağını əzbər bilirəm. Bu söhbətlərin sənə başucalığı gətirmir, mənim də əsəblərim pozulur. Yaxşı olar ki, dilini yaxşı, xeyirxah işlər barədə danışmağa alışdırasan. Onda bi-

zi yaradan Allahımız da, insanlar da səndən razı qalar. Həm bu dünyanı, həm də axirəti qazanmış olarsan.

Aldığı bu cavabdan sonra şeytançılıqla məşğul olan kişi bir də varlı qonşusunun yanına ayaq döymədi. Daxilən bir müttəhim kimi özünü ittiham etməyə başladı. Dodaqaltı pıçıldadı: «Yaxşı olardı ki, varlı qonşuya başqalarının xeyirxah münasibət bəsləməsindən söz açardım?»

## ÜZEYİR HACIBƏYOV DÜNYASINDAN

Vətəninə, el-obaya ürəkdən bağlanan, xalqına şərəf-şan gətirən Ü.Hacıbəyovun da həyatı çox keşməkeşli, ağrılı-acılı olmuşdur. Xüsusilə qardaşı Ceyhun Hacıbəylinin Azərbaycan Demokratik Cümhuriyyəti dövründə Türkiyədə yaşaması, orada səfir işləməsi, Cümhuriyyətin süqutundan sonra Parisdə yaşaması ona qarşı təhdidlərin, basqıların artmasına səbəb olmuşdu. Ancaq bu dahi insan adını mədəniyyət tariximizə əbədilik hək eləmişdi. «Leyli Məcnun , «Koroğlu» operalarının, eləcə də «Arşın mal, alan» və «O olmasın, bu olsun» əsərləri ilə dünya şöhrəti qazanmışdı. «Arşın mal alan» əsəri dünyanın otuz beş xalqının dilinə tərcümə edilmişdir.

Erməni xislətinə sadiq qalan Maqelyan bu əsərin onda olan surətini özüylə Amerikaya aparmış, «Arşın mal alan»ın orada geniş şəkildə səhnədə oynanılmasına nail olmuşdur. Buna görə orada zəngin insanlardan biri olmuş, həm də özünü əsərin müəllifi kimi qələmə vermişdi.

Sonralar azərbaycanlıların da iştirak etdiyi bir nümayəndə heyəti İrana dövlət səviyyəli bir tədbirdə iştirak etməyə gedir. Orada erməni Maqelyanın çəkdirdiyi və erməni dilində səsləndirilən «Arşın mal alan» filminin afişalarına rast gəlirlər. Müəllif kimi də Ü.Hacıbəyov deyil, Maqelyanın adı qeyd edilmişdir. Onu da qeyd edim ki, alman F.Bodenştet də XIX əsrdə görkəmli Azərbaycan şairi M.Ş.Vazehin əsərlərini öz adına çıxmışdı. İrandan qayıdan nümayəndə heyəti bu barədə Ü.Hacıbəyova məlumat vermişlər. Ü.Hacıbəyov bu barədə M.Bağırova və SSRİ xarici işlər naziri Molotova

müraciət edir. Məsələ İ.V.Stalinə də çatdırılır. Stalin Ü.Hacıbəyovu yaxından tanıdığına görə qanlı-qadalı 1942-ci ildə Ü.Hacıbəyovun «Arşın mal alan» əsəri əsasında film çəkilməsinə beş milyon manat pul ayrılmasına sərəncam verir. Elə həmin il film çəkilir və böyük şöhrət qazanır. Sonralar dünya arenasında böyük şöhrət qazanan bu film respublikamızda dəfələrlə ekran taleyini tapmışdır.

## HAQQ YOLU

Bir müsəlman ölkəsində var-dövlət hərisliyi, şeytani əməllərə bulaşmış bir şəxs yaşayırdı. Var-dövlətini artırmaqdan ötəri gecə-gündüz çalışar, halalı-haramı bir-birinə qatardı. Orta yaşlarında idi. Bir gecə çox qorxulu, ağır bir yuxu gördü. Yuxuda onu diri-diri tonqala atır, hərdən də odlu kürzlə vuraraq nə üçün haqq yolundan uzaq düşdüyünü soruşurdular. Zərrə-zərrə yığdığı var-dövlət gözü qabağında alışıb yanırdı.

Yaxşı ki, yuxuda qışqırığına oyanan arvadı onu bir təhər yuxudan oyatdı. Tər onu yuyub aparırdı. Səhərə qədər gözünə yuxu getmədi. Gördüyü dəhşətli yuxunu həyat yoldaşına da danışdı. Arvad da bir tərəfdən onu danlamağa başladı.

Səhər yuxudan duran kimi yuyundu, namaz qıldı. Əlini Qurana basdı ki, bir də şərə-şür işlərə qoşulmayacaq, haqq yolunu tutacaq. Soraqlaşıb bu əyalətin haqq yolunda heç nəyini əsirgəməyən, mömin zahidi tapdı. Əvvəlki əməllərini, gördüyü yuxunu zahidə danışdı. Son olaraq ona dedi:

– Mənə yol göstər. Bu gündən haqq yolundan heç zaman kənara çıxmayacağam. Ancaq mənə elə məsləhət ver ki, bundan belə məndən həm Allahımız razı qalsın, həm də bəndələr.

Mömin Zahid buyurdu:

– Gecə-gündüz müqəddəs dinimizin qanunlarına əməl eləməli, ibadətindən dörd əllə yapışmalı, kasıb-kusuba isə ancaq gecələr əl tutmalısan. Sənin bu xeyirxahlığını bir Allahımız biləcək, bir də özün. Dinimizdə deyildiyi kimi: «Sağ əlin verdiyin sol əl bilməməlidir». Elə bilirəm böyük yaradan axirət aləmində səni bağışlar.

Sonralar həmin şəxs zahidin nəsihətlərindən heç vaxt kənara çıxmadı.

### SƏMƏD VURĞUN DÜNYASINDAN

Xalq artisti, xalqımızın ən sevimli xanəndələrindən olan Teymur Mustafayev ana televiziyamızın «Ovqat» proqramında xalq şairi S.Vurğunla bağlı xatirəsini, onunla Muğanda görüşünü, böyük ürək sahibi olmasını belə söylədi:

– Gənclik illərindən musiqiyə bağlı olduğum kimi, ovçuluğa da çox maraqlı idim. Ovçular içərisində sərrast atıcılığımla seçilirdim. Dayımın köməkliyi ilə bir qaval, bir də təklülə tüfəng də əldə etmişdim.

Azərbaycanda ilk xalq şairi adına layiq görülmüş S.Vurğunun şöhrət zirvəsində olan vaxtları idi. Vəzifəli şəxslər tərəfindən mənə bildirildi ki, S.Vurğun səninlə görüşmək istəyir. Təxminən 1955–56-cı illər olardı. Mənə demişdilər ki, S.Vurğun səninlə ceyran ovuna getmək istəyir. Nəhayət, bu görüş baş tutdu. Mən də bu görüşə hazırlıqlı, tüfəngli-qatarlı getmişdim. Onun şeirlərindən bir neçəsini əzbər bilir, həm də toy şənliklərində oxuyurdum.

Rayon rəhbərlərinin yanında mənimlə çox səmimi görüşdü. Keçirdiyim təşviş, narahatlıq bir anda yox oldu. Tüfəngimi də alıb baxdı, ancaq bir söz demədi. Orada bizə kömək üçün 3–4 nəfər də adam qoşdular. O dövrlərdə Muğan düzlərində ceyranlar sürü-sürü idi.

Lazım olan yerdə biz gizləndik. Həmin adamlar ceyranları biz tərəfə qovmağa başladılar. Lap yaxına gəlmişdilər. Şairə baxdım. Xəyallar aləmində idi. Ceyranı tuşlayıb, atəş açmaq istəyəndə şair qoluma toxundu. İşarə etdi ki, atəş açmayım. Ürkək ceyranlar bizim üzərimizdən, sağ və solumuzdan tullanıb qaçdılar. Xəyallar aləmindən ayrılan şair sürücüsü Volodyaya dedi ki, maşından sazı və qələm-dəftər gətirsin. Sazı alıb çalmağa başladı. Sonra sazı yerə qoyub zümzümə edə-edə şeir yazmağa başladı. Mən də həsrətlə marıxdan uzaqlaşmış ceyranların arxasınca baxırdım. Şairin səsinə xəyaldan

ayrıldım. O, yazdığı «Ceyran» adlı şeiri zümzümə eləyirdi. Mən də heç nə demədən şairin tüfəngini götürüb o tərəf-bu tərəfinə baxırdım. Görünürdü ki, çox bahalı tüfəngdi. Üstündəki yazıdan da bilinirdi ki, kimsə şairə hədiyyə verib.

Şairin zümzüməsindən cürətlənib dedim:

– Lap yaxına gəlmişdilər. Niyə qoymadın atəş açam?

O, bu dəfə gülümsəyərək «Ceyran» şeirini yüksək pafosla oxumağa başladı.

Elə həmin gün şeiri əzbərlədim. Toylarda şairin ifa etdiyi ritmlə oxumağa başladım. Həmin anlardan «Ceyran» şeiri dilə-ağıza düşdü. Şairdən ayrılanda o bahalı tüfəngi zorla mənə verdi. «Məndən sənə yadigar qalsın», – dedi.

Mənə verilən bir çox qiymətli hədiyyələrdən biri kimi o tüfəngi indi də saxlayıram. Sonralar oğlu Vaqiflə dostluq əlaqəsi saxladıq. Bu böyük ürək sahibi ilə bağlı əhvalatı ona da danışdım.

Bu söhbətdən sonra səksən yaşı yenicə tamam olmuş şöhrət ordenli Teymur Mustafayev qavalı üzünə qaldırıb, həm də «Muğana Ceyran» adlanan bu dillər əzbəri olan şeirin birinci bəndinin misralarını xoş avazla oxumağa başladı.

*Yerdən ayağını quş kimi üzüb,*
*Yay kimi dartınıb, ox kimi süzüb,*
*Yenə öz sürüsün nizamla düzüb,*
*Baş alıb gedirsən hayana, ceyran?!*

## DÖVLƏT QUŞU

Bu ifadə xalq arasında, eləcə də folklorumuzda geniş işlənən aforizmlərdəndir. Bir nəfərin işi yaxşı alınanda, yaxud yüksək bir vəzifəyə təyin ediləndə çox vaxt belə deyirlər: «Dövlət quşu başına qonub».

Bəs bu ifadənin etimologiyası, daşıdığı məna tutumu necədir?

Bizim nağıllarımızda «Dövlət quşu başına qondu» ifadəsi daha çox işlənir. Qədimlərdə bəzən padşah seçmək üçün sa-

rayda bəslənən quşu uçurarmışlar. O quş kimin başına qonsaydı, onu padşah seçərdilər. Başına quş qonan adamı təbrik edər və deyərdilər: «Xoşbəxt adamsan, dövlət quşu sənin başına qondu».

Bununla bağlı başqa bir rəvayət də klassik ədəbiyyatımızda işlənmişdir.

Rəvayətə görə, yüksək dağlıq ərazilərdə «Hüma quşu» adlanan nəhəng quş yaşayırmış. O quş uçanda kölgəsi kimin üstə düşsəymiş, o şəxs xoşbəxtliyə qovuşarmış. Nağıllarımızda Humay quşu, Simurq quşu adlarıyla da adlandırılmışdı. Məşhur «Məlikməmməd» nağılında simurq quşunun Məlikməmmədi xilas etməsi əhvalatı verilmişdir. Dahi Nizami Gəncəvi də insanları xeyirxahlığa səsləyən nəsihətamiz şeirinin sonunda yazmışdır:

*Sən ki «Hüma quşu»san, şərəfli iş gör əlbət,*
*Az ye, az danış, vermə başqasına əziyyət.*

**HÖKMDARIN SORĞU-SUALI**

Bir aqil hökmdarın ağıllı vəziri bu fani dünyanı tərk eləmişdi. Hökmdar nəzərdə tutduğu insanlardan birini vəzir təyin etmək istəyirdi. Ancaq qəti qərar verməkdə çətinlik çəkirdi. Nəhayət, o, nəzərdə tutduğu beş nəfəri saraya dəvət etdi. Onlardan ən münasibini seçmək üçün aşağıdakı sualları verdi.

– Sizə verilmək üçün var-dövlət, ağıl, bilik və səbir təqdim olunur. Lazım olan zirvəyə çatmaq üçün bunlardan hansını seçərdiniz?

Bu insanlardan dördü var-dövlət və biliyin üstə dayandı. Ancaq çox da şöhrətli olmayan şəxs ağıl və səbrin üstə dayandı. Qeyd etdi ki, ağlı və səbri olan sonralar var-dövlətə də, biliyə də yiyələnə bilər. Bu şəxsin cavabı hökmdarın xoşuna gəldi və onu özünə vəzir seçdi.





**DAXİLİ GÖZƏLLİK**

Bir hökmdarın iki qulluqçusu vardı. Bunlardan biri zahiri görünüşünə görə o biri xidmətçidən çox üstün səviyyədə idi. Bir gün hökmdar onlara tapşırılan xidməti vəzifələrini lazımınca yerinə yetirdiklərinə görə birinin vəzifəsini böyütmək istədi. Qərar verməzdən əvvəl bu iki xidmətçinin mənəvi səviyyəsini yoxlamağı qərara aldı. Zahiri gözəl görünən xidmətçini başqa yerə iş dalınca göndərdi. Zahirən çirkin olan xidmətçiyə dedi:

– Sənin iş yoldaşın, dostun həmişə sənin pisliyin, xəbis adam olmağın haqda danışır. Sənin o şəxs haqda fikrin necədir?

O şəxs hökmdara belə cavab verdi:

– O xidmətçi çox gözəl, xeyirxah və ləyaqətli insandı.

Səhərisi günü hökmdar zahirən çirkin olan bu xidmətçini başqa yerə iş dalınca göndərdi. Yanında qalan zahirən gözəl olan xidmətçiyə də həmin sözləri təkrar elədi və sonda dedi:

– Təklikdə qalan kimi sənin iş yoldaşın, dostun sənin yaramazlıqların haqda danışır.

Hökmdardan bu sözləri eşidən bu xidmətçi aşıb-daşmağa başladı. Həmin xidmətçinin qarasınca nalayiq sözlər danışmağa başladı. Səhərisi günü hökmdar zahirən çirkin olan xidmətçinin vəzifəsini böyütdü. Zahiri gözəl, batini xəbis olan həmin şəxsi isə ona xidmətçi təyin etdi.

**SEVİMLİ QADIN**

Qədimlərdə bir şəhərdə ortabab səviyyədə yaşayışı olan bir kişi yaşayırdı. Yaşı otuza yaxınlaşsa da, hələ evlənməmişdi. Özünə uyğun qadın axtarırdı. Nəhayət, zahiri gözəl olan bir qadın onu yerindən elədi. Sevgi burulğanında əl-qol atmağa başladı. Axır ki, ailə qurdular. Ətrafdakılar ilk günlərdən bu ər-arvada qibtə ilə yanaşırdılar. Lakin bu ailənin mehribanlığı uzun sürmədi. Ailədə qiyli-qal, didişmə, mənəmlik iddiaları baş qaldırdı. Zahiri gözəlliyinə güvənən qadın özünü çox

təkəbbürlü aparmağa başladı. Ərindən bir söz eşidəndə çalışırdı ki, bir sözün qabağına on söz qoysun.

Bunlara dözə bilməyən ər bu zahiri gözəl qadından ayrıldı. Boşanmalı oldular.

Bir müddət sonra kişi zahiri çox da gözəl olmayan başqa bir xanımla ailə qurdu. Birlikdə çox mehriban dolanmağa başladılar. Günlərin birində qonşu kişilər bir yerə yığışıb, ordan-burdan söhbət edirdilər. Ağzının qaytanını vaxtında cilovlaya bilməyən kişilərdən biri bu kişiyə üz tutdu:

– Ay qonşu, biz, qonşular sənin hərəkətlərinə mat qaldıq. Sən nə səbəblə elə gözəl-göyçək xanımı boşayıb, gözəl olmayan başqa bir xanımla ailə qurdun?

Bu kişi qonşuya belə cavab verdi:

– Qadının gözəlliyi zahiri əlamətlərə görə qiymətləndirilmir. Daxili gözəlliyi üstün olan qadınlar daha çox hörmətə layiqdirlər. Mən də bu səbəbdən belə addımı atdım. Hesab edirəm ki, bu hərəkətimdə səhv etməmişəm. Ən doğru qərar vermişəm. Bu qadınla özümü daha xoşbəxt hiss edirəm.

## BAŞA TÜPÜRƏN DƏLLƏK

***(Gülməcə)***

Bir cavan oğlan dəlləklik eşqinə düşmüşdü. Ürəyində götür-qoy edirdi ki, çox befər adamam. Əlimdən bir iş gəlmir. Ancaq dəlləklik həm asan, həm də pullu peşədir. Gərək mən də dəllək olam.

Bir müddət bir dəlləyə şagirdlik etsə də, oradan yarımçıq uzaqlaşdı. Müstəqil dəlləklik eləməyə başladı. Ancaq bu vaxt hiss elədi ki, dəlləklik peşəsi də onun düşündüyü kimi asan peşə deyilmiş.

Bir dəfə ortayaşlı bir kişinin başını qırxırdı. Bu zaman əlindəki qayçı ilə müştərisinin saçını gah dibdən vurur, gah da üzdən. Hər səhv elədikcə də əlinə tüpürürdü. Dəlləyin bu hərəkətin duyan müştəri dəlləyə acıqlandı:

– Niyə mənim başıma tüpürürsən?

Bu iraddan pis vəziyyətə düşən naşı dəllək tez cavab verdi:

– Narahat olma! Sənin başına tüpürmürəm, gördüyüm səhv işə tüpürürəm. Əlimin səliqəsinə tüpürürəm.

### TARİXİN İBRƏT ANI

25 aprel 1956-cı ildə SSRİ Ali Məhkəməsinin hərbi kolleksiyası Mir Cəfər Bağırov haqda güllələnmə hökmü çıxardı. Hökm oxunduqdan sonra məhkum məhkəmə kollegiyasında yeganə bir xahiş etdi. O, böyük vətən müharibəsində qəhrəmanlıq göstərmiş, «Lenin ordeni»nə layiq görülmüş, müharibədə şəhid olmuş oğlu Mir Cahangirin məzarını ziyarət etmək, şəhid oğulunun məzarı ilə vidalaşmaq arzusu olduğunu bildirdi. Ona bu şərait yaradıldı.

Bağırov gözətçilərin müşayiəti ilə Badamdar qəbiristanlığına gətirilir. M.Bağırov göz yaşı tökə-tökə məzarın üzərinə sərilir. Baş daşını hönkürtü ilə ağlayıb, bağrına basır, soyuq baş daşını öpməyə başlayır.

Bu vəziyyət orda olan insanları da sarsıdır. Göz yaşı tökənlər də olur. Orada olan azərbaycanlı mühafizəçilərin xahişi ilə dəstənin rus komandirləri məhkum atanın məhrum oğulla vidalaşmasına mane olmurlar. Vida mərasimi 1 saat 26 dəqiqə çəkir. Sonda Mir Cəfər Bağırov oğlunun göz yaşlarından islanmış sinə daşını bir daha öpür və deyir: «Sənin yanında ölmək mənə qismət olmadı». Bu sözlərdən sonra məzardan ayrılır.

Sonralar Bağırovu Sibirdə güllələdilər, cənazəsini də vermədilər. Sovet ideologiyasına ürəkdən inanan bu insanın keşməkeşli ömür yolu, müsbət işləri ilə yanaşı, mənfilikləri hər bir insan üçün ibrət götürməli bir tarixdir.

İstər vəzifədə olanlar, istərsə də adi insanların hər birinin ürəyində Allah xofu olmalıdır. Bu zümrədən olan hər bir insan elə hərəkət etməlidir ki, gələcəkdə haqqın cəzasına tuş gəlməsin. Özünə rəva bilmədiyin hərəkəti heç vaxt başqasına da etməyəsən. Əks halda etdiyin cinayət bumeranq kimi qayıdıb özünə dəyəcək.

## NƏFSƏ QALİB GƏLMƏK

Rəvayətlərdə Ənuşirəvanın ədalətə yönəlməsinin bir səbəbi belə anladılır.

Bir gün şah öz dəstəsi ilə ova çıxır. Ov zamanı adamlarından ayrı düşür, bərk susayır. Yaxınlıqdakı bağı görüb, ora tərəf gedir. Bağdakı narın yetişmiş vaxtı idi. Nar budaqları meyvələrinin ağırlığından torpağa doğru əyilmişdi. Oradakı kiçik odada yeniyetmə bir uşağa rast gəlir. Ondan bir nar istəyir. Oğlan onun sözünə əməl edir. Nar çox sulu olduğuna görə susuzluğunu yatırır.

Nuşirəvan bağ sahibini tapıb, bağı ondan almağı xəyalından keçirərək daha bir nar istəyir. Ancaq bu dəfəki nar turş və susuz çıxır. Şah bunun səbəbini soruşur. Ora gələn oğlanın atası deyir: «Bəlkə də, şah zülm etməyi içindən keçirmişdir, ona görə şirin nar ağzınızda turş dadıb».

Nuşirəvan içindən tövbə edərək, daha bir nar istəyir. Bu dəfəki nar birinci dəfə yediyindən də şirin və sulu idi.

Şah bunun da səbəbini bağbandan soruşur. Bağban deyir: «Bəlkə də, hökmdar tövbə edib, peşman olmuşdur».

Nuşirəvan bundan ibrət götürür, bir daha tövbə edərək ədalətə, haqqa sığınmaq yoluna üz tutur.

## İBRƏT ALMALI HƏYAT

İslam dünyasının yetirdiyi şanlı hökmdarlardan Səlahəddin Eyyubi son anlarını yaşayırdı. Səlib savaşında xaçpərəst ordularını dalbadal məğlubiyyətə uğradan, 1187-ci ildə Qüdsi 88 illik xristian işğalından azad edən bu böyük Sultanın xahişi ilə Qüdsün imamı Şeyx Murad əfəndi gəlib ona Quran oxuyurdu. Quranın xətmindən sonra şeyx Murad Sultanın baş tərəfinə keçərək vəsiyyət etməsini istədi. Səlahəddin Eyyubi: «Mənim vəsiyyətim ümmətin səadət və hüzurunu diləməkdən başqa bir şey deyildir» buyuraraq əliylə Qurani-Kərim oxunmasına işarə etdi.

Şeyx Murad əfəndi yanıqlı bir avazla tilavətə başladı. Lakin çox keçmədən ara verməli oldu. Sultan uca səslə kəlmeyi-şəhadətini dilə gətirdi.

Səlahəddin Eyyubi torpağa tapşırılarkən sərkərdələrdən Mahmud xan əlində tutduğu bir qılıncı havaya qaldıraraq bu sözləri deyirdi:

– Ey müsəlmanlar, baxın, hökmdarımızın bütün sərvəti bu qılıncdan ibarətdir. Onun şanlı həyat yolu hər birimiz üçün bir nümunə, örnək olmalıdır».

**ALLAHA SIĞINMAQ**

Əski çağlarda bir vilayətdə bərk quraqlıq baş verdi. Bu əlamət qıtlığın, yoxsulluğun əsas əlamətlərindən sayılırdı. Ona görə də hər kəsin üz-gözündən nisgil, kədər anlamları hiss edilirdi. Bunu hər kəsin gözlərinə baxanda daha aydın görmək olurdu. Belə bir vaxtda bir mömin kişi bazara gəldi. Bazarda da bu məyusluğu görəndə halı lap pərişan oldu. Birdən gözü bir nəfərin deyib-gülməsinə sataşdı. O şəxs at yedəyində bazardan tox addımlarla çıxırdı.

Mömin şəxs həmin adama yaxınlaşıb dedi:

– Məgər sən xalqın üz-gözündəki məlalı görmürsənmi? Anlamırsan ki, qarşıdan qıtlıq, fəlakətli günlər gəlir? Bu hal heç səni düşündürmür?

O şəxs gülərüzlə mömin kişiyə cavab verdi:

– Mən 6–7 kəndi olan varlı bir ağanın qulluqçusuyam. Onun anbarlarında xeyli taxıl var. Hər halda ağa öz qulluqçusunu darda qoymaz. Bu əhvalımla mən ona güvənirəm.

Bu sözləri eşidən mömin kişinin huşu başından getdi, yerə yıxıldı. Ətrafdakıların köməyi ilə bir azdan özünə gəldi, haqq dərgahına əl qaldırdı: «İlahi Pərvərdigara, əfv et, bağışla! Sənin bir qulluqçun kimi günaha batdım. Mənimlə qarşılaşan varlı ağanın qulluqçusu mənə böyük dərs verdi. O, varlı insana arxalandığına görə özünü fəlakətdən uzaq sayırdı. Mən isə sənin qulluqçunam. Sənin kərəmin, lütfün hamıdan artıqdır. Mən və bütün insanlar sənin inayətinə bağlıyıq. Küfr etdiyimə görə yaratdıqlarını bağışla!»...

Səhərisi günü yağan sızqa yağış insanların ürəyinə bir təpər, dizlərinə qüvvət gətirdi.

## ULU PEYĞƏMBƏRİN QƏRARI

İki iddiaçı mühakimə olunmaq üçün Allah Rəsulunun (ə) yanına gəlib mübahisələrini açıqladı. O Məhəmməd (s) hər iki tərəfi dinləyərək buyurdu: «Mən də sizin kimi bir insanam. Siz isə yanıma mühakimə olunmaq üçün gəlirsiniz. Biriniz dəlilini digərindən əskik ifadə edə bilər. Mən də eşitdiyimə görə hökm verirəm. Bundan dolayı hər kimin xeyirinə qardaşının haqqından bir şeyə hökm verirəmsə, ona bir atəş parçasını hökm etmiş oluram».

Tərəflər bunu eşidəndə hər ikisi ağladılar. Hər biri: «Mənim haqqım onun olsun», – dedi.

Rəsulallah (s) buyurdu: «Gedin, araşdırın, püşk atın, sonra da bir-birinizlə halallaşın».

## HƏR İŞİN ÖZ SAHİBİ VAR

Bir hökmdar göstəriş verdi ki, şəhərin mərkəzində bir insan heykəli ucaltsınlar. Heykəltəraş deyilən vaxtda heykəli hazır etdi. Hökmdar, əyan-əşrəf gəlib heykələ tamaşa etdilər. Heykəltəraşın işin bəyəndilər, ona qiymətli hədiyyələr verdilər.

Saraya qayıdanda hökmdar belə söylədi:

– Heykəltəraşın yaratdığı heykəldə kim bir nöqsan tapsa, o, yüksək mükafat alacaq.

Heykəlin yanına özünü birinci yetirən vəzir və vəkil oldu. Ancaq bir əsaslı nöqsan tapa bilmədilər. Bundan sonra hökmdarın dediyi söz hər tərəfə yayıldı. Dəstə-dəstə adamlar gəlir, heykəlin o tərəf-bu tərəfinə diqqətlə baxır, hərə öz fikrini deyirdi.

Bu şəhərdə bir pinəçi yaşayırdı. Öz-özünə qərar verdi ki, gedim mən də bəxtimi sınayım. Səhərisi iş yerinə deyil, heykəlin yanına yollandı. Heykəlin hər tərəfini gözdən keçirdi. Heykəlin ayaqqabısı nəzərini cəlb etdi. Çox diqqətlə baxdı. Gördü ki, heykəlin bir qıçındakı ayaqqabının bağ salınan yerində bir tərəfdə dörd deşik açılıb, o biri tərəfində üç deşik açılıb. Ancaq bu iş elə ustalıqla görülüb ki, hər adam onu seçə bilməzdi. Bu sahənin ustası oluğuna görə nöqsanı

tapa bildi. Gözlərinə işıq gəldi. Birbaşa hökmdarın qəbuluna getdi. Hökmdar onu qəbul etdi. Heykəldə buraxılan nöqsanı deyəndə hökmdar soruşdu:

– Oğul, nə peşənin sahibisən?

– Pinəçiyəm.

Hökmdar gülümsədi, başını mənalı-mənalı tərpədərək: «Hər işin bir ustadı gərəkdir».

Axırda mükafatlandırılan pinəçi hökmdara və heykəltəraşa dua-səna edə-edə evlərinə tərəf yola düşdü.

### ƏBƏDİ QALAN NƏDİR?

Var-dövləti, ölkəsinin şah-şöhrəti ilə öyünən bir sultan çox böyük və əzəmətli sarayın tikilməsinin binasın qoydurdu. Bu əzəmətli sarayın tikintisi təxminən on il çəkdi. Sarayın tikintisi, bəzək-düzəyi başa çatanda Sultan təklikdə bu möhtəşəm sənət abidəsinə daxil oldu. Baş memarla bütün mərtəbələri, otaqları, salonları gəzdi. Hər şey qaydasında başa çatmışdı. Bu, hökmdarı çox sevindirdi. Memara təşəkkür etdi. Onun əməyinin yüksək səviyyədə qiymətləndiriləcəyini bildirdi.

Bundan xoşhal olan memar dedi:

– Böyük hökmdarım, bu abidənin quruluşunda bir sirr də var. Onu ancaq sizə deyəcəyəm.

Hökmdar üzünü memara tutdu:

– O, nə sirdir elə?

– Bu imarətin gözlə seçilməyən yerində bir kərpic var. Əgər o kərpici oradan çəkib çıxarsaq, bu imarət yerləyeksan olar.

Bu sözdən hökmdarın gülərüz çöhrəsi qaraldı. Fikirləşdi ki, memar bu sirri başqalarına da deyər. O bir kərpici oradan çıxarmaqla bu təmtəraqlı abidə məhv olar. Elə oradan çıxan kimi göstəriş verdi, memarı binanın ən uca yerindən aşağı tulladılar.

Aradan bir müddət keçəndən sonra Sultan çox ağıllı, dünyagörüşlü vəziri ilə sarayı seyr etməyə gəldilər. Sarayı gəzib qurtarandan sonra Sultan vəzirinə dedi:

– Ey ağıl sahibi, bu sarayın tikintisində bir nöqsan gördünmü?

– Gördüm, hökmdarım

– O, nə nöqsandı elə?

– Bu sarayın əbədi qala bilməyəcəyi.

Qaşları düyünlənən Sultan yenə dilləndi:

– Məgər bu dünyada əbədilik qalacaq bir şeymi var?

– Bu dünyada var-dövlət, şan-şöhrət, nə varsa gedərgidi. Qalarğı ancaq xeyirxah, savab əməllərdir. Hər bir insan bu fani dünyadan köç edəndən sonra onu ancaq xeyirxah əməlləri yaşadacaq.

**İMAN ƏLDƏN GETMƏSİN**

Dövrünün görkəmli alimlərindən Cüha öz sevimli tələbələri ilə yenə dərsə başlamışdı. Bu gün tələbələri ilə imandan, mənəviyyatdan, ləyaqətdən, insanlıqdan daha geniş söhbət apardı. Elə dərsin şirin yerində bir nəfər qapını açıb içəri keçdi, otağın küncündə əyləşdi. Yuxu onu apardı. Müəllim dərsini bitirəndən sonra şəxsin yanına getdi. O insan yarıyuxulu vəziyyətdə idi. Ustad ona yaxınlaşıb deyir:

– Ey insan övladı, bu necə haldı səndə? Özün burda olsan da, xəyalların, bütün varlığın ayrı aləmdədir.

O zavallı cavab verdi:

– Həyatımda ağır faciə baş verib. Oğru evinə girib, var-yoxumu talayıb aparıb. Ona görə bu haldayam.

Cüha asta-asta sözə başladı:

– Sən İlahiyə şükürlər etməlisən ki, qəlbinə şeytan girməyib, imanını oğurlamayıb. İman əldən getdisə, yaşamağa dəyməz. Çalışmaq və şükür etməklə var-dövləti yenidən əldə edə bilərsən. Ancaq iman əldən getdisə, onu qaytarmaq çox çətin olar. Daim şükür et ki, şeytan qəlbinə girməyib, imanını oğurlamayıb.

## BİR BARDAQ SÜD

Qədim əyyamda şəhərlərdən birində bir yeniyetmə oğlan yaşayırdı. Tale bu oğlanın üzünə gülməmiş, ata-anası dünyadan vaxtsız köç etmişdilər. Özü öz başını saxlamaq məcburiyyətində qalmışdı. Bazarda, dükanlarda, evlərdə kimin işi olsaydı, o işi ürəklə yerinə yetirər, bu qaydada özünə çörək pulu, yalavaclıq əldə edərdi. Taleyi üzünə gülməyən bu oğlana Allahtaala iti yaddaş, yüksək əxlaq bəxş eləmişdi. Bunu ətrafdakı insanlar da hiss edirdilər. Elə gün olurdu ki, bir tikə çörəyi də əldə edə bilmirdi.

Bir gün yenə heç kəs ona iş tapşırmadı. Orda-burda gecələdiyindən həm də soyuqlamışdı. Susundan dodaqları qurumuşdu. Nə edəcəyini bilmirdi. Bir küçədən keçəndə tanımadığı bir qapını döydü. Qapıya bir cavan qız çıxdı. Ondan bir içim su istədi. Bunun təhər-töhərini görən qız gedib kiçik bir bardaqda təzə bişirilmiş süd gətirdi Oğlan dua edəedə o südün hamısın başına çəkdi. Bir az özünə gələn oğlan qıza dedi:

– Pulum yoxdu. Ancaq bu südün müqabilində nə iş desəniz görə bilərəm.

Qız heç nə istəmədiyini, iş görməyə də ehtiyac olmadığını bildirdi.

Aradan illər keçmişdi. Həmin qızın ailəsi başqa bir şəhərə köçmüş, atası da burada vaxtsız vəfat etmiş, ana-bala tək qalmışdı. Ailənin maddi durumu da çox pisləşmişdi. Belə bir vaxtda bu qız ağır xəstələndi. Nə qədər həkim gəlib baxdısa da, əlac olmadı.

Anaya bir nəfər məsləhət bildi ki, şəhərin mərkəzində çox bahalı, ancaq bilikli həkimləri olan xəstəxana var. Qızı ora aparsa, yəqin ki, dərdinə çarə tapılar. İçindən qırıla-qırıla ana elə də etdi. Orada qızın üzərində ağır cərrahiyyə aparıldı, qız ölümün qara əllərindən xilas oldu.

Ana bilirdi ki, xəstəxananın haqqın heç cürə ödəyə bilməyəcəklər. Ancaq baş həkimə yaxınlaşdı, ona dua-səna etdi, dərin minnətdarlıq elədi. Nə qədər pul ödəməli olacaqlarını soruşdu.

Böyük ürək sahibi olan bu təbib buyurdu ki, onlar pul ödəməyəcəklər. Bir məktub da verib dedi:

– Məktubu açıb evdə oxuyarsınız.

Ana-bala evdə məktubu açdılar. Məktubda yazılmışdı: «Xəstəxananın, həkimin haqqı neçə illər qabaq bir bardaq süd ilə ödənmişdir».

Gözlərindən yaş axan qızın yaddaşına həmin anlar – kiçik bir bardaqda oğlana verdiyi süd düşdü.

Ana əllərini haqq dərgahına qaldırdı:

– Ey Ulu Yaradan, mən çətin anlarda da şükrümü səndən əsirgəməmişəm. Çox şükürlər olsun ki, haramın halala qarışdığı, pislərin at oynatdığı bu dünyada yaxşıları da qoruyub saxlayırsan. Yoxsa dünyanın pərgarı pozulardı.

## KİŞİ SƏDAQƏTİ

Bir ölkənin hökmdarı xırda sərdarlıqları birləşdirib, böyük, əzəmətli bir dövlət yaratmaq istəyirdi. Ətrafdakı sərdarlıqları ləğv edib, öz ölkəsinə qatmışdı. Qalan bir sərdarlıq isə ona tabe olmaq istəmirdi. Hökmdar o sərdarlığa qoşun göndərdi. Gedənlər hökmü yerinə yetirdilər, sərdarı və onun sevimli həyat yoldaşını bir əsir kimi hökmdarın hüzuruna gətirdilər. Boylu-buxunlu, pəhləvan cüssəli sərdarı gözdən keçirən hökmdar belə bir şücaətli insanın öldürülməsini rəva bilmədi. Ona üz tutdu:

– Sənin canına qıymasam, sağ buraxsam nə edərsən?

– Öz torpağımda ömrümün axırına qədər sizin valiniz olaram.

– Həyat yoldaşını bağışlasam, nə edərsən?

– Özümü sizə qurban deyərəm

Bu sözlər hökmdara xoş gəldi, onların hər ikisini azad etdi.

Dünənki sərdar, bugünkü vali sevimli həyat yoldaşı ilə öz məmləkətlərinə doğru hərəkət edirdi. Yolda kişi qadınına dedi:

– Hökmdar sarayının dəbdəbəsini, təmtərağını gördünmü?

Qadın cavab verdi:

– Dediklərini mən görmədim. Mən ancaq öz canını həyat yoldaşının yolunda qurban vermək istəyən bir ər kişinin surətini gördüm.

## İPİ ƏLDƏN VERMƏK

Bir vaxtlar uşaqların tərbiyə olunmasında, fiziki cəhətcə möhkəmlənməsində mühüm rolu olan oyunlar indi, demək olar ki, unudulmaq üzrədir. Belə oyunlardan «Cızığa girmə», «Gizlənpaç», «Ana, məni qurda vermə», «Papaq aldı qaç», «Həbə-həbə», «İp sürütdəmə» və başqalarını göstərmək olar. «İp sürütdəmə» oyunu ilə bağlı bir atalar sözü kimi işlənən ifadə: «İpi əldən vermisən» bu gün də dağ kəndlərində yaşlı və orta yaşlı nəslin nümayəndələrinin dilində işlənir. «İpi əldən vermisən» ifadəsinin daşıdığı məna bundan ibarətdir ki, hər hansı bir işi görərkən ehtiyatlı olmalı, səhvlərə yol verməməlisən. Belə olan halda da sənin həyatında qasırğalı günlər başlayır, sonrakı peşmançılıq isə fayda verməz. Həmin ifadənin işləndiyi oyunun adı «İp sürütdəmə» idi. Təxminən on nəfər iki-iki yoldaş olurdu. Püşkatma nəticəsində iki yoldaşdan biri quru bir yerdə oturub qıçın uzadardı. Sicimin bir tərəfi ilgək edilib oturan yoldaşın qıçlarına dizdən yuxarı salınar, bir metrdən artıq sicimin bir ucu qıçından kənarda qoyulardı. Ayaq üstə olan yoldaş sicimin qalan hissəsini əlində tutar, qıçı iplə bağlı yoldaşını qorumağa, ipi əldən verməməyə çalışardı. Əgər o, ipi ələ keçirməyə çalışanlardan birini təpiklə vura bilsəydi, onda qalib sayılardı, təpiklə vurulan cütlük oyunu yenidən təkrar edərdi. Ancaq yerə uzadılan ipin ucu yoldaşların əlinə keçsəydi, ipi qıçına bağlı yoldaşı sürüyüb aparardılar. Bir azdan cəldlik göstərən, deyib-gülən gənclər oyuna təzədən başlardılar. Hər yoldaş o birinə deyərdi: «Diqqətli ol, çalış ki, ipin ucunu əldən verməyəsən. Əldən verdinsə, uduzdun. İndinin özündə də bir insanın işinə biganə yanaşmasına, səhvlərə yol verməsinə görə peşmançılıq keçirməsini görənlər deyirlər: «Uduzmusan, ipin ucun gərək əvvəldən əldən verməzdin».

## HÖKMDARIN SEÇİMİ

Bir hökmdarın çox ağıllı, uzaqgörən vəziri vardı. Hökmdar həmişə onun ağıllı məsləhətləri ilə uğur qazanmışdı. Yaşlaşmış bu vəzir bir gün qəfildən dünyasını dəyişdi. Hökmdar bir ağıllı vəzir tapmaq üçün çox götür-qoy etdi. Axırda yaxşı vəzir tapmaq üçün aşağıda göstərilən kimi hərəkət etdi. Vəzirliyə şanslı olan dörd ağıllı şəxsi saraya çağırtdırdı. Onları yanına salıb təmtəraqlı bir otağa apardı. Bu otağın çox qiymətli, böyük bir qapısı vardı. Qapının üzərinə sirli naxışlar, rəqəmlər həkk edilmişdi.

Hökmdar üzünü bu dörd nəfərə tutub dedi:

– Gördüyünüz kimi, bu otağın bir sirli qapısı var. Sizə deyilən vaxt ərzində hansınız bu qapını aça bilsəniz, vəzirim o şəxs olacaqdır.

Bunu deyib, bayırdan ağır qapını çəkib örtdü. İçəridəki dörd nəfər fikirləşməyə başladı. Üçü bir yerə cəm olub, fikirlərini bölüşməyə, məsləhətləşməyə başladılar. Qapının üzərindəki rəqəmləri əbcəd hesabı ilə hesablamağa, sirli şəkilləri araşdırmağa cəhd etdilər. O bir nəfər isə qapının dəstəyi, kilidi ilə maraqlanmağa başladı. Nəhayət, əli qapının üzərinə bərkidilmiş bir düymə boyda dəmirə toxunanda qapı şappıltı ilə açıldı.

Elə bu vaxt hökmdar və adamları içəri keçdilər. Hökmdar onlara dedi:

– Qapını açmaq üçün dördünüz də səy göstərdiniz. Üçünüz ancaq fərziyyələr irəli sürməklə məşğul oldunuz, ancaq bu bir nəfər qapını öz ağlının zəkası ilə açmağa cəhd elədi və buna da nail oldu. Deməli, vəzirim də bu insan olacaqdır.

## İBRƏT GÖTÜRMƏK

Qədim bir ölkədə çox savadlı, zəkalı bir təbib yaşayırdı. Bu təbib həm də bir qrup gəncə təbibliyin sirlərin öyrədirdi. Bu təbibin bir nəfər də sədaqətli, dəyanətli tacir dostu vardı. Bu tacir ad-sanı, xeyirxahlığı, düzgünlüyü ilə el-oba içərisində hörmət-izzət sahibi olmuşdur. Bir dəfə iş elə gətirdi ki, həmişə

düzgünlüyü ilə başqalarına nümunə olan, sayılıb-seçilən bu hörmətli tacirə tor quruldu, aldandı, var-yoxu əldən çıxdı. Lakin o, ruhdan düşmədi, əvvəlki səviyyəyə çatmaq üçün var gücü ilə yenidən çalışmağa başladı. Ancaq hiss edirdi ki, var-yoxu əldən çıxdığına görə insanlar ona daha əvvəlki sayqını, hörməti göstərmirlər. Bütün bunlara baxmayaraq, o, var gücü ilə əvvəlki zirvəyə yüksəlmək üçün çalışırdı. Belə anlarda atasının tez-tez işlətdiyi bir atalar sözünü xatırlayardı: «İgid odu atdan düşə atlana, igid odu hər əzaba qatlana».

Həyatında da bu atalar sözündən çıxan məna yükünə əməl etməyə çalışırdı.

Bir gün bu tacirin təbib dostu da oğlunun birini ticarət sahəsinə yönəltməyə çalışdı. Bu işdə səriştəli olan bir insandan məsləhət almaq istədi. Ayrı şəhərdə yaşayan tacir dostu yadına düşdü. Şagirdlərindən birini onun dalınca göndərmək istədi. Həmin tacirin həyatında baş verən hadisələri bilən bu şagird ustadına dedi:

– O tacirdən məsləhət almaq, öyrənmək məsləhət deyil.

– Ey oğul, o gözəl insan haqda belə danışırsan?

– Çünki o, işini bilən, ticarətdən baş çıxaran insan olsaydı, müflisləşməzdi. İndi çalışır ki, uduzduqlarını yenidən əldə eləsin.

Bu söhbətdən qaşları düyünlənən təbib dedi:

– Sən fikrində yanlışsan. Mənim dostum ticarətdə əvvəllər qazandığı uğurların, indi isə düşdüyü çətinliklərdən çıxmağın, yenidən ayaqüstə qalxmağın sirlərini, güman ki, çoxlarından yaxşı bilir. Görünür ki, bu insan iradəli, dözümlü, səbirli, həm də ümid işığını itirməyən bir şəxsdir. Beləsindən öyrənən şagird, yəqin ki, uğur qazanar. Çünki həyatın yenişli-yoxuşlu yolları onun taleyində bir ustaddan artıq rol oynayıb.

### ƏN AXMAQ ADAM

Əski vaxtlarda bir kasıb kişi yaşayırdı. Nə qədər çalışsa da, rüzusu az olar, ailəsin çox çətinliklə dolandırardı. Bir gün bu kişi öz-özünə dedi:

– Belə güzəran olmaz. Hamıdan çox çalışıram, hamıdan da az qazanıram. Gedib Allahı axtarıb tapacağam, dərdimi deyəcəyəm. Bəlkə, o, mənə kömək edə. Beləliklə, kişi yola çıxdı. Yolda bir padşahla qarşılaşdı. Padşah kişinin hara getdiyini soruşdu. Bu yoxsul kişi səfərə çıxmağının məqsədini ona danışdı. Hökmdar dedi:

– Mənim də şikayətimi Allahımıza söylə. Qoşunum, silahım başqalarından üstün olsa da, döyüşdə həmişə məğlub oluram. Bunun səbəbi nədir?

Yolçu kişi dedi:

– Baş üstə, çatdıraram.

Kişi yoluna davam etdi. Yolda bir əkinçi ilə rastlaşdı. Əkinçinin gözəl taxılı əmələ gəlmişdi. Əkinçi də bu kişi ilə sorğu-sual apardı. Məsələni biləndən sonra dedi:

– A qardaş, mənim də ərzimi Allahımıza çatdır. Həmişə taxılım hasiləgəlmə vaxtı alışıb yanır, qalıram əli qoynunda.

Yolçu cavab verdi:

– Baş üstə. Sənin də şikayətini deyərəm.

Bu kişi bir xeyli aralanmışdı. Bir canavara rast gəldi. Canavar da o birisilər kimi sorğu-sual apardı. O da bu kişiyə dedi:

– Mənim də dərdimi Allahımıza deyərsən. Baş ağrısı mənə çox əziyyət verir. Gecə-gündüz zülm çəkirəm.

Kişi onun da ərzini Allaha çatdıracağını bildirdi.

Nəhayət, bir çöllü-biyabanda bu kişi bir ağsaqqal, nurani kişiyə rast gəldi. Bu nurani kişi yuxarıdan gələn suyu arxlar, yerlər arasında bölürdü. Lap kənardakı arxa da az su vurmuşdu. Yolçu kişi yaxınlaşıb bu nurani ağsaqqala salam verdi. Nəçi olduğunu, nə iş gördüyünü soruşdu. Nizami kişi cavabında:

– Mən Allaham, – dedi. Bu su da dünya varıdı. Bəndələr arasında bölürəm.

Gözünə işıq gələn bu kişi dedi:

– Bəs mənim payım hansıdı?

Allah-taala cavab verdi:

– Bu kənarda lap az axıdılan su.

– Mən elə bundan ötəri neçə aylardı çöllərdə səni axtarırdım. Mənə də kömək elə.

– Baş üstə, eləyərəm. Arxayın ol.

Sonra yolda rastlaşdığı padişahın, əkinçinin və canavarın da şikayətlərin dedi. Allah-taaladan nida gəldi:

– Padşaha deyərsən ki, o, qadındı! Ərə getsin, ondan sonra qalib gələr. Əkinçiyə de ki, taxılın sağ yanın qazsın. Orda böyük bir küp qızıl var, onu çıxarsın. Taxılına od qızıldan düşür. Daha taxılı yanmaz. Canavara da deyərsən ki, ən axmaq adamın başın yesən, başının ağrısı kəsilər.

Kişi dua-səna edərək geri döndü. Həmin padşahla rastlaşdı. Cavabını ona dedi. Padşah ona üz tutdu:

– A kişi, bu sirri səndən başqa heç kim bilmir. Məni al, padşahlığı da sən idarə elə.

– Kişi razılaşmadı, onun rüzusunu Allah verəcəyini bildirdi. Sonra əkinçiyə rast gəldi. Onun da cavabını bildirdi. Əkinçi də dedi ki, gəl qızılı çıxardaq, dədə malı kimi bölək. Kişi yenə razılaşmadı, padşah verdiyi cavabı buna da dedi.

Axırda canavarla rastlaşdı. Canavar əvvəl padşaha və əkinçiyə nə cavab verildiyini soruşdu, sonra özünün dərdini.

Kişi qayıdanda padişahla, əkinçi ilə rastlaşdığını, aralarında olan söhbəti canavara danışdı. Canavara da dedi:

– Allahımız buyurdu ki, ən axmaq adamın başın yesən sağalacaqsan.

Canavar fikirləşdi:

– Belə çıxır ki, mən bundan axmağın tapa bilməyəcəyəm. Bayaq ha kişini süpürləyib parçaladı. Başladı başın yeməyə.

## YOXSULUN CAVABI

Bir ölkənin çox əzazil, zalim, var-dövlət hərisi olan bir sultanı var idi. Yoxsulları görməyə gözü yox idi. Onlarla rastlaşanda oradan üz döndərər, geri dönər, yaxud səmtin dəyişərdi. Bir dəfə bu sultan vəzir-vəkili ilə gəzintiyə çıxmışdı. Bunların yolu təsadüfən bir neçəsinin yığışdığı yerin yanından keçirdi. Sultan yoxsulları görəndə onlara əl tutmaq əvəzinə, geri döndü. Bunu yoxsullar da gördü. Yoxsullardan bir dilli-dilavəri, diribaşı dolayı yolla zirək gəlib Sultanla qarşılaşdı və dedi:

– Ey Sultan, bizim taleyimizi Allahımız sənə tapşırıb. Kasıbların halına çarə qılmaq sənin borcundu. Ancaq bir haldan da agah ol. Əvvəla, yetim-yesirin, kasıb-kusubun halına yanmayan Sultanın hakimiyyəti uzun sürməz. Bir də onu bilməlisən ki, biz yoxsullar səndən rahat yatırıq. Sən gecə-gündüz hakimiyyətinin əldən getməsi, var-yoxunun əldən çıxması qorxusu ilə yaşayır, gecələr də rahat yata bilmirsən. Ancaq biz yoxsullar sənin keçirdiyin hissləri keçirmirik, gecəni də çox rahat yatırıq. Bu da bizim səndən üstünlüyümüz sayılır.

## SEVGİ YOLU

Həzrəti Davud (ə) başqa bir əyalətə səfərə gedirdi. Yolda gözü bir qarışqaya rast gəldi. Qarışqa bir kiçik təpənin ətəyindən torpaq hissələrin başqa bir səmtə daşıyırdı. Bu cansız-cüssəsiz həşəratın belə canfəşanlıqla çalışması Həzrəti Davudun (ə) nəzərini cəlb etdi. Bu hikməti öyrənmək istədi. Ona görə də İlahi Pərvərdigara üz tutdu. Bu sirdən agah olmaq istədiyini bildirdi. Sonra çönüb qarışqaya üz tutdu:

– Ey Allahın heyvanı, bu sirdən məni agah elə. Bu torpaq zərrəciklərin hara daşıyırsan? Bu ağır işi nəyə görə icra edirsən?

Allahın hökmü ilə qarışqa cavab verdi:

– Mənim sevgilim mənə deyib ki, bu torpaq təpəsini daşıyıb ayrı bir yerə yığsan, sənin sevginə müsbət cavab verərəm.

Həzrəti Davud (ə) buyurdu:

– Ey Allahın heyvanı, sənin ömrün bu təpəni daşımağa çatacaqmı? Bu sevgi məşəqqətinə dözməyə dəyərmi?

Qarışqa cavab verdi:

– Mən fəxr eləyirəm ki, mənim ömrüm sevgilimin yolunda, onun istəyinin həyat keçməsi amalına həsr edildi.

## ZALIM VALİ

Misir ölkəsində bir əyalətə çox əzazil, zalım, tamahkar, qəddar vali təyin etmişdilər. Buranın camaatı əvvəlki validən də narazı qalmışdılar. Ancaq bu təzə valinin hərəkətlərinin, əxlaqının, tərbiyəsinin əndazəyə gəlməyən olduğunu görəndə əvvəlki valini xeyirxah bir insan kimi xatırlamağa başlamışdılar. Ona əksər vaxt dualar edir, ata-anasına rəhmət oxuyardılar.

Bir gün təzə vali bir neçə nümayəndəni yığıb iclas keçirirdi. Yığıncaqda özünü bir xeyli tərifədi, ədalətindən, xeyirxahlığından dəm vurmağa başladı. Hətta ayağının bu bölgəyə də düşərli olduğunu dedi. Mən valiliyə başlayandan buralarda tüğyan edən taun xəstəliyi də yoxa çıxıb. Buna görə həmişə mənə dua-səna etməlisiniz.

Valinin rəhbərə sığışmayan sözlərinə dözə bilməyən bir nəfər əlin qaldırıb söz istədi. O, valiyə üz tutub dedi:

– Ey hörmətli vali cənabları, Allahımız adildi. O, heç vaxt bir başa iki yumruğun vurulmasına tərəfdar olmaz. Allahımız sənin hərəkətlərini görüb, taun xəstəliyini göyə çəkdi.

## SƏADƏTİ ƏLDƏN VERMƏRƏM

Əski zamanlarda bir ölkənin sultanı bərk xəstələndi. Köməyə çağırılan təbiblər heç bir çarə edə bilmədilər. Başqa yerlərdən də əcnəbi təbiblər gəldi. Yenə çarə olmadı. Sultan belə bir qərar verdi:

– Kim məni sağalda bilsə, ölkənin yarısını ona verəcəyəm.

Yenə başqa təbiblər axışıb gəldi. Ancaq heç bir çarə tapa bilmədilər. Qoca bir təbib sifariş göndərdi ki, sultanın sağalmasını ancaq mənim məsləhətimlə həll edə bilər.

Bu xəbəri eşidən sultanın adamları yığışıb qoca təbibin yanına gəldilər, ondan məsləhət istədilər.

Qoca təbib dedi:

– Səadətlə yaşayan bir şəxsin köynəyini aparıb sultana geydirsələr, sultan sağalar.

Bundan sonra sultanın yaxınları, saray adamları ölkədə səadətlə yaşayan insanı axtarmağa başladılar. Ancaq belə

insan tapa bilmədilər. Kimi səadətlə yaşayan şəxs bilib yaxınlaşsalar da, məqsədlərinə çata bilmədilər. Çünki hər kəs özünü səadətlə yaşayan hesab etmir, dərdlərini sadalayıb tökürdülər. Beləliklə, deyilən nişanda, dərdsiz, düyünsüz insan tapılmadı. Bir gecə sultanın oğlu uzaq bir səfərdən gəlirdi. Bir kasıb, uçuq-sökük daxmanın yanından keçəndə oradan qulağına bir səs gəldi. Bu binada yaşayan bir yaşlı kişi əllərini haqq dərgahına qaldırıb Ulu Yaradana dualarını, şükranlığını bildirir, səadət içində yaşadığına görə təkrar-təkrar şükürlər edirdi. Sultanın oğlu icazə alıb içəri daxil oldu, bu nurani kişiyə baş əydi. Atasının sağalması üçün onun köynəyini istədi. Bunun əvəzində ölkənin yarısının ona veriləcəyini bildirdi. Nurani kişi dedi:

– Sultanın sağalması üçün köynəyimi verərəm. Ancaq əvəzində heç nə istəmirəm. Var-dövlət qayğısı, buna hərislik mənim səadətimi əlimdən alar.

## GÖZÜ ÇIXAN QARDAŞ

Bir şir, bir qurd, bir də bir tülkü dostluq binası qoydular. Birlikdə ova çıxdılar. Şikarları uğurlu oldu. Bir qoyun, bir keçi, bir də dovşan ovladılar. Şir qurda dedi:

– Ovumuzu böl

Qurd dedi:

– Ey bizim hökmdarımız, bu şikarları elə Allah bölüb. Qoyun sənin, keçi mənim, dovşan da tülkünün.

Bu sözləri eşidən şir qurdun təpəsinə elə bir zərbə vurdu ki, gözlərinin ikisi də pırtdayıb çıxdı.

Bu dəfə tülküyə dedi:

– Şikarlarımızı böl.

Zavallı qurda baxa-baxa tülkü şiri bir xeyli təriflədi, onun ədalətindən dəm vurdi və dedi:

– Bu şikarları Allahımız sizə bəxşiş göndərib. Qoyunu nahara yeyərsən, keçini günortaya, dovşanı da axşama.

Şir bu bölgüyə qah-qah çəkib güldü və dedi:

– Ey ağıllı heyvan, bu bölgünü kimdən öyrənmisən sən?

Tülkü dedi:

*Bilməzdim binadan, başdan,*
*Öyrənmişəm gözüçıxan qardaşdan.*

**QUYRUQ YARASI**

Əski zamanlarda bir dağ kəndində ailəsini çobançılıqla dolandıran şəxs yaşayırdı. Bir gün sürünü dağlardan aran tərəfə yendirən çoban sürünü yeni arxaca gətirdi. Hələ günorta olduğundan arxacın alt tərəfində gözünə bir ilan dəydi. İlan sürüşüb yuvasına girdi. Çoban bir qab süd sağıb yuvanın ağız tərəfinə qoydu. Bir müddət sonra çoban gördü ki, ilan çıxıb südü içib, qabın yanına da bir qızıl pul qoyub. Çoban bir müddət yenə ora süd qoydu. İlan da südü yalayıb, ora qızıl pul qoydu. İş elə gətirdi ki, çoban bərk xəstələndi. Daha çölə gedə bilmədi. Ona görə oğluna dedi:

– Gedərsən heyvan saxladığımız yerə. Arxacın alt tərəfində ilan yuvası var. Ora bir qab süd qoyarsan. İlan südü içib, ora qızıl pul qoyacaq. Götürüb gələrsən.

Oğlan bir də bir oraq götürüb, həmin yerə yollandı. Atası dediyi kimi elədi. Bir azdan qızıl pulu götürüb geri döndü.

Səhərisi gələndə atasına demədən fikir etdi ki, ilanı öldürərəm, yuvasındakı qızılların da hamısın götürüb gətirərəm. İlan süd içməyə çıxdığı zaman oğlan onu öldürmək istədi, oraqla quyruğun qırdı, ancaq öldürə bilmədi. İlan oğlanı çaldı. Aradan bir xeyli keçəndən sonra çoban yenə ora getdi, yuvanın ağzına süd qoydu. İlan bir neçə dəfə yenə südü içdi, ora qızıl qoydu. Ancaq bir gün çobanı görərkən Allahın hökmü ilə dilə gəlib dedi:

– Bir də bura gəlmə. Nə mənim yadımdan quyruq yarası çıxar, nə də sənin yadından oğul dağı.

**SƏDAQƏT GÜLÜ**

Şərq ölkələrindən birində padşahın oğlu evlənmək istəyirdi. Deyirdi ki, ancaq mənim imtahanımdan çıxan qızı özüm

seçəcəyəm. Vəzirin iştirakı ilə əsil-nəsibi, gözəlliyi ilə seçilən gözəllərdən iyirmiyə qədərini saraya dəvət etdilər. Bu sarayda xidmətçi işləyən bir kişi yaşayırdı. Onun həddi-buluğ yaşına çatmış bir qızı vardı. Bu qız padşahın oğlundan ötəri dəli-divanə idi. Eşidəndə ki, hökmdar oğlu gözəllər içərisindən özünə həyat yoldaşı seçəcək, ürəyinin teli qırıldı. Atasına dedi:

– Ata, izn ver, mən də qızlarla saraya gedim.

Ata dedi:

– A qızım, bizim nə vəzifəmiz, nə də var dövlətimiz var. Sən də elə gözəl deyilsən. Ora getməyinin nə faydası ola bilər?

Ancaq qızın təkidi qarşısında onun sözünü yerə sala bilmədi. Həmin gün bu qız da ora dəvət edilən qızlar sırasında saraya getdi. Qızlara bir müştəri gözü ilə baxan oğlan qızların hər birinə bir qədər gül toxumu, dibçək verdi və dedi:

– Bu gül toxumlarını üç ay müddətində əkib becərəcəksiniz. Vaxt tamam olanda saraya gətirəcəksiniz. Mən qərarımı onda verəcəyəm.

Vaxt tamam oldu. Qızlar dibçəkdəki gözəl, ətirli güllərlə saraya gəldilər. Təkcə həmin xidmətçinin qızının dibçəyi boş idi. Nə qədər cəhd eləmişdisə də o toxumlar cücərmədi. Qız çox qəmgin, pəjmürdə halla kənarda dayanmışdı.

Padşah oğlu bütün qızları və gülləri seyr elədi. Axırda kənarda dayanan qıza yaxınlaşdı, əlindəki dibçəyi alıb baxdı. Oğlan dedi:

– Bəs sənin toxumların niyə cücərməyib?

Qız sıxıla-sıxıla cavab verdi:

– Nə qədər qulluq etdimsə də cücərmədi. Yəqin mənim bəxtimdən imiş.

Oğlan gülümsədi və dedi:

– Mən o toxumların hamısın bişirmişdim. Onlar göyərə bilməzdilər. Görünür ki, bu gözəllər toxumu dəyişib, başqasın əkiblər. Bu sınaqda təkcə sən sədaqətli çıxdın, halallığa əməl etdin. Sənin əlindəki o boş gül dibçəyi səadət gülləri bitirdi. Ona görə də mənim seçimim sən oldun. Çünki sınaqdan uğurla çıxdın. Elə bilirəm ki, yaşaya biləcəyimiz ömür yollarında sən heç vaxt mənə yalan danışmaz və məni aldatmağa cəhd eləməzsən. Həyat yolumuz düzlük və halallıq olar.

## KAMİL İNSAN

Şeyx, həkim, alim olan Əbülhəsən Fərabidən soruşdular:

– Kamil insan olmaq üçün neçə il bəs elər?

O cavab verdi:

– Qırx il.

– Hörmətli alim, qırx ilə çox deyilmi?

– Çox deyil. On il düz danışmaq, qeybətdən, acıdillikdən uzaq olmaq üçün dilinə təlim verməlisən. On il əllərinə, qıçlarına təlim verməlisən ki, əyrilikdən, haramdan uzaq olsunlar, düzlüyə alışsınlar. On il gözlərinə harama baxmamaq üçün qadağa qoyub, iradə göstərməlisən. On il də ümumən nəfsinə qalib gəlməyi, səbri özünə bayraq etməyi, ümidlə, şükürlə yaşamağa vaxt sərf etməlisən. Bir də bu on ildə qəlbini tərbiyə etməlisən.

## XƏLİFƏNİN SORĞU-SUALLARI

Xəlifə saray əyanlarını başına yığıb, onlarla söhbət edir, əyanlarla əylənirdi. Çaydan sonra üzünü əyanlara tutdu:

– İndi sizə verəcəyim suallara kim doğru cavab versə, ona ənam verəcəyəm. Suallarım bunlardır:

– Ən yaxşı bar hansıdır, ən yaxşı süd hasıdır, ən yaxşı şirniyyat hansıdır?

Bu suallara hərə bir cavab versə də, xəlifə razılaşmadı, heç kimə ənam vermədi. Elə bu an Bəhlul içəri daxil oldu, aşağı başda əyləşdi.

Bu sualları xəlifə ona da verdi:

– Xəlifə sağ olsun. Ən yaxşı bar oğuldur. Onun səbəbinə ataların və babaların adları nəsildən-nəslə keçir. Ən yaxşı süd ana südüdür. O, hamını qidalandırır, böyüdür. Yəqin ki, eşitmisiniz. Ana nacins övladına qarğış edəndə deyir: «Südüm sənə haram olsun». Şirniyyatdan ən gözəli dil şirinliyidir. Şirin dili olanın dostu çox olar. Atalarımız da deyib: «Şirin dil ilanı da yuvasından çıxarar».

Verilən cavablar əyan-əşrəfin də, xəlifənin də xoşuna gəldi. Xəlifə ağıllı cavablarına görə Bəhlulu mükafatlandırdı.

## SEVGİ, DÖZÜM VƏ BARIŞIQ

Günlərin birində sevgi, dözüm və barışıq mübahisə etməyə başladı. Hər biri özünü öydü. Cəmiyyət üçün, insanlar üçün hər biri özünün gərəkli, vacib olduğunu isbat etməyə çalışdı. Mübahisə böyüdü. Qərara aldılar ki, hər üçü dağların arxasında yaşayan aqil, bilici insanın hüzuruna getsinlər, ondan suallarına cavab alsınlar.

Belə də etdilər. Nurani baba onları dinlədi və gülümsünərək dedi:

– Yaxşı olar ki, insanların qəlbində sevgi də, dözüm də, barışıq da bir yerdə olsun. Onda insanlar daha əzəmətli olar. Ancaq sözlərdən birini seçmək lazım gələndə mən sevgini üstün tutardım. Çünki sevgi olan yerdə dözüm də olar, barışıq da. Yaşasın sevgi!

## HƏR İŞ VAXTINDA GƏRƏK

İki gənc ov etmək üçün birlikdə çölə getmişdi. Yolda onlar hər biri özün öyür, ovçuluq məharətlərindən dəm vururdular.

Ovlaq yerinə təzəcə çatmışdılar ki, göy üzünə bir dəstə ördək, bir dəstə də çöl quşu göründü. Ovçulardan biri tüfəngin çiynindən aşırıb götürdü və yoldaşına dedi:

– İndi patronu tüfəngin lüləsinə qoyacağam. O ördəyin birin vuracağam. Evdə bişirtdirəcəyəm, ördək ətinə səni də qonaq edəcəyəm. Çoxdandı dilimizə ördək əti dəymir. O biri yoldaşı etiraz etdi:

– Ördək ətinin kababı dadlı olur. Yaxşı olar ki, elə burada bir ocaq qalayaq, ördək kababından ləzzətlə yeyək.

Elə buna görə də aralarına mübahisə düşdü, söz uzandı. Axırda belə qərara gəldilər ki, ördəyin ətinin yarısını burada kabab eləsinlər, yarısını da aparıb evdə bişirsinlər.

Nəhayət, ördəyi vurmaq istəyən oğlan tüfəngi göyə tərəf tuşladı. Ancaq səmada heç nə gözə dəymirdi. Ördək və çöl quşları xeyli aralanmışdılar. Uzaqdakı dağın arxasına keçmək üçün qanad çalırdılar. Ovçular isə peşman-peşman yerə oturmuşdular. Biri rişxəndlə dedi:

– Yaman da ovçuyuq, ovu vurmamış başlamışıq boş-boş mübahisə etməyə, ördək kababını tərifləməyə. Atalarımız gözəl deyib: «Vaxt qızıldan qiymətlidir», «Vaxtını itirən baxtını itirər», «Keçən zaman bir də geri dönməz».

## SULTANIN SƏHVİ

Herat ölkəsinin sultanı Hüseyn şah yenə əyan-əşrəfi çağırtdırıb bəzi məsələləri müzakirə edirdi. İçəridə çoxlu milçək uçuşurdu. Sultan deyinməyə başladı. Bu şəhərdə milçəyin çoxluğundan şikayətləndi. Vəziri Nəvai buyurdu:

– Şahım, harda insan varsa, orada da milçək vardır.

Sultan cavab verdi:

– Lap uzaq yerlərdə də milçək vardır. İnsan olmasa da, o yerlərdə milçək yaşayır. İndi səni də götürüb uzaq bir səhraya aparacağam. Orada milçək olmasa, səni cəzalandıracağam, olsa yüz qızıl verəcəyəm.

Beləliklə, 7–8 nəfər atlanıb uzaq səhraya doğru yol aldılar. Bir müddətdən sonra dayanıb dincəlmək istədilər. Bir azdan sultan Hüseyn gördü ki, burada da milçək var. Sevincək vəzirinə dedi:

– Görürsənmi, bu ucsuz-bucaqsız, insan yaşamayan səhrada da milçək vardır.

Vəzi Nəvai gülümsəyərək buyurdu:

– Hörmətli şahım, bəs biz insan deyilik? Bizi insan hesab etmirsən? Sultan Hüseyn səhv etdiyini başa düşdü və vəziri Nəvaiyə yüz qızıl verdi.

## ÇÖRƏK KƏSMƏK

Bir böyük kənddə iki tayfa arasında düşmənçilik hökm sürürdü. Düşmənçilik elə həddə gəlib çıxdı ki, tayfanın birinin adamları düşmən tayfanın adamlarından cavan bir kişini öldürdülər. Nəhayət, fürsət axtaran o tayfanın adamlarının əlinə girəvə düşdü, onlar da düşmən tayfanın bir cavan kişisini vurub öldürdülər. Ağsaqqallar, hökumət adamları əlavə qan tökülməsini dayandırmaq üçün, müvəqqəti də olsa,

arada sülh yaratdılar. Hər iki tayfada ölən şəxslərin evində iki oğlan uşağı böyüyürdü. Onların da beynin uşaqlıqdan doldurmuşdular ki, böyüyəndə atamızın qisasını alarsınız. Ailənin birində Qara, birində isə Nəzər kənddən atlanıb çıxdı. Harasa uzaq səfər gedir. Xəbəri eşidən kimi Qara xəncərini də götürüb atlandı. Nəzər gedən tərəfə at çapmağa başladı. Qıraqdan gördü ki, Nəzər bir bulağın başında atdan düşüb dincəlir. Xəlvəti yerlərlə gəldi ki, onun gəlişini düşmən oğlu bilməsin. Qəfildən Nəzərin başı üstün kəsdi. Gördü ki, təzə süfrə açıb, çörək yemək istəyir. Həm də onu oturduğu yerdə arxadan vurmağı özünə sığışdırmadı. Şıqqıltıya arxaya dönən Əli xəncərli Qaranın onun başının üstünü kəsdiyini gördü. İş işdən keşmişdi. Buna baxmayaraq ona dedi:

– Gəl çörək kəsək. «Çörək kəsək» sözün eşidən Qaranın xəncəri əlindən düşdü. Gəlib Nəzərin yanında oturdu. Sakitcə, fikirlər aləmində çörəklərini yeyib, Ulu Yaradana şükür etdilər. Sonra qucaqlaşıb doyunca ağladılar. Birlikdə çörək kəsdiklərinə görə bu gündən düşmənçiliyə son qoyulacağını bildirdilər. Xalqımızın müqəddəs adətləri burada da nahaqq qan tökülməsinin qarşısını aldı.

## ULU PEYĞƏMBƏRİMİZİN ZƏKA NURUNDAN

Ulu Peyğəmbərimiz bütün həyatı boyu həmişə ananı uca tutmuş, müqəddəs saymış və ümmətinə də bunu təbliğ etmişdi. «Cənnət anaların ayaqları altdadır» deyən Rəsulullahın hüzuruna gəlib məsləhət istəyənlərə əvvəl ananın, sonra da atanın qulluğunda durmalarını məsləhət bilərdi.

Bir dəfə döyüşdən yaralı halda evə dönən Rəsulullahı qızı Fatimeyi-Zəhra bağrına basır və ağlaya-ağlaya deyir:

– Bu halında kaş anan sağ olardı, yaralarına məlhəm edər, nəfəsi ilə səni sağaldardı.

Bu sözlərdən təsirlənən Peyğəmbər (s) qızının başını sinəsinə sıxır və kövrək halda deyir: «Mənim anam sənsən».

Bir dəfə də döyüşdən başının dəstəsi ilə geri dönən Rəsulullah Bəqiyə qəbiristanlığının yanından keçəndə atdan yerə

düşür və sürətli addımlarla sağ tərəfə irəliləyir. Qabaq tərəfdəki bir qəbrin baş daşını qucaqlayıb hönkür-hönkür ağlayır. Təəccüb içində olan əsabələr atlardan, dəvələrdən yerə düşüb təlaş içində Rəsulullahın ağladığı yerə qaçırlar. Nə qədər cəhd etsələr də, Peyğəmbər (s) ağlamağını dayandırmır, daha şiddətlə ağlamağa başlayır. Həzrət Əli, Salmani Farsi və başqaları da ona qoşulub ağlayır. Həzrət Əli buyurur:

– Ya Rəsulullah, nə üçün belə şiddətlə ağlayırsan? Nə səbəb olub? Kim qəlbinizə dəyib? Əmr edin, qılıncımızla ulduzları göydən yerə yendirərik.

Peyğəmbər (s) ağlaya-ağlaya buyurdu:

– Bu müqəddəs məkan anam Əminənin qəbridir. Namaz qıldığım halda da o, məni çağırsaydı, namazı pozub onun tapşırığına əməl edərdim.

Salman Farsi namazın posulması halını izah etməsini xahiş etdi. Peyğəmbər (s) buyurdu:

– Namazın qəzasın qılmaq olar. Ana sözünü yerə salmağın nə qəzası, nə də haqqı var.

Ana sözün yerə salmaqdan böyük günahı yoxdur.

## İLAHİ MƏRHƏMƏTİ

Bir mömin, imanlı kişi kiçik oğlunu da yanına alıb dağlara doğru gəzməyə çıxdı. Kiçik təpələr olan yerdən keçəndə oğlan atasından soruşdu:

– Ata bunlar nədir, necə adlanır?

– Oğul, bunlar təpələrdir, dağın bir nişanəsidir.

– Ata, bunlardan böyük dağ varmı?

– Var, oğul, indi səni ora aparacağam.

Onlar gəzə-gəzə böyük, hündür bir dağın yanına gəlib çıxdılar.

Dağın böyüklüyündən heyrətə gələn oğlan atasından yenə soruşdu:

– Ata, bundan da böyük dağ varmı?

– Var, oğlum, var.

– O dağ haradadır, ata?

– O böyük dağ mənim və bütün insanların günahlarıdır.

– Ondan da böyük dağ varmı?

– Var, oğlum. Daha böyük dağ İlahinin mərhəmətidir. O, axıra qədər günahlara batmayan, yarıyoldan haqqa, düzlüyə qayıdan, «tövbə» edən insanların günahın bağışlar.

**AĞZININ QAYTANINI SAXLAMAQ**

Bir kişi ailədə, el arasında ağzının qaytanını saxlaya bilmir, lazım oldu-olmadı qonum-qonşu haqda lazımsız sözlər üyüdüb tökürdü. Xüsusilə evinin arxasında yaşayan qonşunun dalınca hey söylənir, uyğun olmayan yaramaz sözlər danışırdı. Qonşu isə onun sözlərinə fikir vermir, öz iş-gücü ilə məşğul olurdu. Yeri düşəndə bu narahat qonşunun hal-əhvalını soruşar, ehtiyacları ilə maraqlanardı. Axırda ağzının qaytanını saxlaya bilməyən qonşu əməllərindən xəcalət çəkməyə başladı. Qəlbinə insanlıq hissi hakim kəsildi. Günah etdiyini anladı. Günahlarını yumaq üçün bir aqil şəxsin hüzuruna getdi ki, ondan məsləhət alsın, daha düz yola qayıtsın. Belə də etdi, o, aqil şəxsdən məsləhət istədi. Aqil şəxs dedi:

– Bir toyuğun başın kəsərsən, onun tüklərini aparıb harada qonşun haqda qeybət etmisənsə, oralara səpərsən. Üç gündən sonra yanıma gələrsən.

Narahat qonşu belə də etdi, üç gündən sonra aqilin yanına gəldi. Aqil şəxs dedi:

– Get toyuğun tüklərini hara tökmüsənsə, yığ gətir.

Kişi həmin yerlərə getdi. Ancaq toyuq tüklərinin çox hissəsini külək aparmışdı. Ordan-burdan bir az tapıb aqilin yanına gəldi. Əhvalatı ona danışdı. Aqil şəxs dedi:

– Söz necə ki sənin ağzından çıxmayıb, sənin qulundu. Ağzından çıxandan sonra sən onun qulu olursan. Ağzından çıxan sözlər də o toyuq tükləri kimidir. Ağzından çıxandan sonra qısa müddətdə hər tərəfə yayılır. Ona görə hər bir insan övladı ağzının qaytanını bərk saxlamağı bacarmalı, ən böyük günah sayılan qeybətdən uzaq olmalıdır. Sənə də son məsləhətim budur ki, gedib tövbə eləyəsən, haqq yoluna, düz yola qayıdasan. Onda özün də həyatın boyu rahatlıq taparsan.

## MƏNİ İTİRMƏYİN

Su, od, və vicdan dostluq edirdilər. Onlar bir-birini çox sevir, bir-birindən ayrılmırdılar. Günləri bir yerdə keçir, bir yerdə ömür edirdilər. Hara gedirdilərsə, birlikdə gedirdilər. Bir gün də onlar yol gedərkən aralarında belə bir söhbət oldu. Od dedi ki, biz həmişə birlikdə oluruq. Ancaq ola bilər ki, bir-birimizdən ayrı düşək. Onda bir-birimizi necə taparıq? Su dedi:

– Əgər yollarımız ayrı düşsə, harda yaşıllıq görsəniz, mən orda olacağam.

Buna görə od da dilləndi:

– Harda tüstü görsəniz, mən orada olacağam. Məni belə yerlərdə axtararsınız.

Vicdan isə heç bir söz demədi, dinib danışmadı. Buna görə od və su vicdana üz tutdular:

– Bizim vəfalı ömür-gün dostumuz, ayrı düşsək, səni harada tapa bilərik?

Vicdan heç bir cavab vermədi. Od və su ondan bu barədə ikinci dəfə soruşdular.

Vicdan ağır-ağır dilləndi:

– Çalışın, məni itirməyin, məni itirsəniz, bir də tapa bilməyəcəksiniz. Vicdan itəndə cəmiyyətdə tarazlıq pozular, xaos, anarxiya yaranar. İt yiyəsin tanımaz.

**Qeyd:** *Bu ibrətli rəvayəti ali məktəbdə oxuyanda tələbələrinin, eləcə də xalqımızın sevimlisi, Xalq yazıçısı, gözəl insan, ədaləti və xeyirxahlığı ilə seçilən İsmayıl Şıxlı danışmışdı. Ona görə də çalışmalıyıq ki, hər birimiz vicdan mühakiməsindən üzüağ çıxaq.*

## GÖZ OLMAQ

«Göz olmaq» ifadəsi danışıq dilimizdə, eləcə də klassik ədəbiyyatımızda bir neçə mənada işlənib və bu gün də işlənir. Danışıq dilində işlənən bir neçə nümunəyə nəzər salaq. Bir qonşu evdən başqa yerə gedəndə qonşusuna deyir:

– Ay qonşu, bir müddət burada olmayacağıq. Bizim evin üstə də gözün olsun. Yaxud azyaşlı uşağını müəllim yanına gətirən valideyn müəllimə deyir: «Gözün bu uşağın üstə olsun». Bu ifadələrdə «göz olmaq» ifadəsi tapşırmaq, nəzarətdə saxlamaq, «qayğı göstərmək» mənalarında işlənir.

«Göz olmaq» ifadəsi başqa mənada da işlənir. İşğalçı rus ordusunun komandanı general Sisianov hesab edirdi ki, Gəncə xanlığının tarmar edilməsi, məhv edilməsi başqa Azərbaycan xanlıqlarına da göz olacaqdır.

Tarixdə öz qəddarlığı ilə seçilən Nadir şah başqalarına göz olsun deyə, oğlu Rzaqulunun gözlərini çıxartdırmışdı. Bu barədə N.Nərimanovun «Nadir şah» tarixi faciəsində, eləcə də Əhməd Oğuzun tarixi «Nadir şah» romanında söhbət açılmışdır.

Nadir şah haqda olan rəvayətlərdən birində deyilir: «Nadir şah hakimiyyətə keçdikdən sonra əvvəlcə ölkə daxilində qanun-qaydanı möhkəmlədir, qonşular tərəfindən zəbt edilən torpaqları, eləcə də müqəddəs Xorasan əyalətini əfqanlardan geri alandan sonra Hindistana hərbi yürüş etdi və qələbə çaldı. Böyük qənimətlərlə geri dönən Nadir Şaha xəbər verdilər ki, Şirvanda üsyan baş vermiş, ölkədən ayrıldıqlarını, özlərinə yeni hökmdar seçdiklərini elan etmişlər».

Bu sözlərdən bərk qəzəblənən Nadir şah üsyançılara dəhşətli divan tutmuş, Şirvanı xarabazara çevirmişdi. Qan su yerinə axmışdı. Bu ərəfədə şaha xəbər verirlər ki, Şəkidə də üsyana hazırlaşırlar. Daha da qəzəblənən Nadir şah Şirvanda əsirlikdə saxlanan üsyançıların gözllərinin çıxarılmasını əmr etdi. Çıxarılan gözlərdən dörd batman (təxminən yüz kq) Şəkiyə göndərdi ki, onlara göz olsun, üsyan etməyə cürət etməsinlər. Bununla həm də şəkililərə, «göz dağı» göstərmək istəyirdi, üsyan etsələr, başlarına belə müsibətin açılacağını bildirmək istəyirdi.

### YA ŞİŞ SINACAQ, YA MURÇALIQ ÇIXACAQ

Bu məsəl dağ kəndlərindən birində yaranmışdır. Böyük Vətən Müharibəsi illərində ölkədə aclıq, qıtlıq baş alıb gedirdi. Əldə edilən taxıl əsasən cəbhəyə göndərilirdi. Çörək

göyə çəkilmişdi. Yerli əhali çörək əvəzinə, əsasən ağartı məhsullarından və çöllərdə bitən otlardan istifadə edirdilər. Çörəyi müəyyən qədər əvəz edən bitkilərdən biri də şumluqda, xırda təpəciklərdə bitən murçalıq adlı bitki idi. Murçalığın kök hissəsi təxminən iri qoz (ceviz) boyda olurdu. Dəmirçilər tərəfindən döyülüb yastılanmış şətə adlanan dəmir parçasının bir tərəfi enli və iti olurdu. Murçalığı torpağın üstünə çıxan yarpaqlarından tanıyan insanlar şətəni zorla torpağa sancır və murçalığın kök hissəsini, yəni yeməli yerini çıxarar, qabığın soyub yeyərdilər. Murçalıq həm aclığın qabağın alırdı, həm də vitaminlərlə zəngin idi. Kəndin adamları buna görə də murçalıq çıxanda dəstələrlə onu yığmağa gedərdilər. Bu gedənlərin içərisində Hüsü adlı cavan, lakin çox tənbəl insan da vardı. Əlindəki şətə də yaxşı deyildi, torpağa sancan kimi əyilirdi. Çöldə yığdığı murçalıq heç qarnını görmürdü, çox vaxt evə əliboş gəlirdi. Evdə o ki var danlanırdı. Buna dözə bilməyən Hüsü bir gün naqolay şətəsini götürüb kənddə dəmirçilik edən, həm də xeyirxah insan olan dəmirçinin yanına getdi. Şətəni dəmirçiyə verdi ki, düzəltsin. Dəmirçi gördü ki, bu şətə ilə murçalıq yığmaq olmaz. Onu kənara tulladı, keyfiyyətli bir dəmirdən çox yaxşı bir şətə düzəltdi və heç bir haqq almadan Hüsüyə verdi. Hüsü şətə əlində küçədən gedərkən tay-tuşları dedilər:

– Hüsü, deyəsən, işin düzəlib.

Bu sözdən şeşələnən, lovğalanan Hüsü dedi:

– Ta bu xına, o xınadan deyil. Ya şiş sınacaq, ya da murçalıq çıxacaq.

O vaxtdan bu söz dillər əzbəri olub, bu günə qədər işlənir. Yəni daha avaralığa yol yoxdu. Mütləq qarşıya qoyulan iş başa çatdırılmalıdır. Belə bir iş olanda deyirlər: «Ya şiş sınacaq, ya da murçalıq çıxacaq».

## ATAMI XATIRLAYARKƏN

Mərhum atam Dünyamalıyev İsa Qara oğlu bir əsr ömür sürmüşdü – (1900–2000-ci il Keçili kəndi). Dövrünün savadlı ziyalılarından olmuşdu Əvvəlcə molla məktəbində, sonra

isə Kənd Şahbuz və Naxçıvan şəhərində təhsilini davam etdirmiş, mühasiblik ixtisasına yiyələnmişdir. Fars və ərəb dilini isə kamil öyrənmişdi. Muxtar respublikada ən savadlı ruhanilərdən biri sayılırdı. Aşıq sənətini, sazda çalıb-oxumağı mükəmməl öyrənmişdi. Təxminən ona qədər dastanı əzbər bilirdi. Özü də arabir şeirlər yazırdı. Hətta 60-cı illərdə məşhur Çınqıllı bulağına qonaq gələn sevimli şairimiz İslam Səfərli ilə şeirləşmişdi.

Bu istedadına görə İ.Səfərli onu bağrına basıb, xeyli tərifləmişdi. Bu barədə sevimli şairimizə həsr olunan «Poeziyanın İslam Səfərli zirvəsi» kitabında (2006-cı il) bəhs edilmişdir.

Onu da qeyd edim ki, atam böyük sənətkarımız Üzeyir Hacıbəyovla məktublaşmış, sazda çalıb-oxumasını, şifahi xalq ədəbiyyatımızı dərindən bilməsini ona bildrimişdi. Elə buna görə də böyük bəstəkarımız yazdığı məktubda atamı Bakıya dəvət etmişdi. Həmin məktubu mən özüm də oxumuşdum. Lakin ailə vəziyyətinə görə atam Ü.Hacıbəyovun dəvətini yerinə yetirə bilməmişdi.

Onu da qeyd edim ki, İsa Dünyamalıyev bir xeyirxah insan kimi də kənd sakinlərinin yaddaşında yaşayır. O dövrdə çox çətinliklə, ağır xərc hesabına biz yaşadığımız məhəlləyə həyət-bacanı suvarmaq üçün dəmir borularla təxminən 3 km məsafədən su çəkilməsinə nail olmuşdu. Atamın təşkilatçılığı və yaxın dostlarından Savalan Şahverənovun, İsa Bayramovun, Məhəmməd Gülmalıyevin köməkliyi ilə xeyli aralıda yerləşən «Ana Çınqıllı» adlı bulağın suyunu ağır zəhmət və xərc hesabına çəkib «Çınqıllı» bulağının suyuna qoşmuşlar. Elə buna görədir ki, kəndin əksər məhəllələri indi həmin sudan istifadə edir. Atamın əlimizdə olan şeirlərindən ikisini oxucuların nəzərinə çatdırmaq istəyirəm.

**NAXÇIVANDADIR**

*Azadlıq istəyən comərdlər yurdu,*
*Axtarsan dünyanı Naxçıvandadır.*
*Atıb dərdi-qəmi əl-ələ verən,*
*Xalqların birliyi Naxçıvandadır.*

*Tükənməz sərvəti, tükənməz varı,*
*Barlı-bəhərlidir üzüm bağları.*
*Qüdrətdən səngərli uca dağların,*
*Alınmaz qalası Naxçıvandadır.*

*Heydəri tapşıraq haqqa-Heydərə,*
*Hamı sinə gərsin çətinliklərə.*
*İnşallah! Çatarıq xoşbəxt günlərə,*
*Heydər kimi rəhbər Naxçıvandadır.*

*«Naxçıvan» jurnalı 1998-ci il*

**ŞAHBUZUM**

*Qarlı dağlar sinəsində yerləşən,*
*Gündən-günə çiçək açan Şahbuzum.*
*Tarixlər oxunur hər bir daşında,*
*Naxçıvanın vüqarısan, Şahbuzum!*

*Biçənək meşəsi, Batabat düzü,*
*Üçqardaşa nəğmə deyir Şahbuzum.*
*Ürəkdən söyləyir hər gələn qonaq,*
*Mən vurğunam çiçəyinə, Şahbuzum.*

*«Çınqıllı», «Zorbulaq» sənin dastanın,*
*«Badamlı» şöhrəti Azərbaycanın!*
*Vüqarlı görünən uca dağların,*
*Naxış vurur bəzəyinə, Şahbuzum.*

*«Camal qala» zirvələrdən boylanır,*
*«Fərhad evi» tarixlərdə adlanır.*
*Sonaların göllərində nazlanır,*
*Nəğmə deyir bu hüsnünə, Şahbuzum.*

**Qeyd:** *Onu da bildirim ki, mərhum atam həm də mahir ovçu olmuşdu. Anamız Gülxanım Dünyamalıyeva ilə yeddi uşaq böyüdüb tərbiyə etmişlər. Uşaqlardan beşi ali təhsil*

*almış, ikisi isə texnikum bitirmiş, orta ixtisas təhsili almışlar. Bu, məhz valideynlərimizin ciddi tələbi, nizam-intizamı qoruması, bizləri əməksevər ruhda tərbiyə etmələri nəticəsində baş vermişdi. Atamın bir sözü hələ də yaddaşımdadı: «Uşaq əzizdi, tərbiyəsi ondan da əzizdi». O, bizə görə anamla mübahisələri düşəndə deyərdi: «Qoy uşaqlar böyüsünlər, həyatı dərk eləsinlər. Onda biləcəklər: «Onları sən çox sevirsən, yoxsa mən?» Atamız həm də el içində halallığı ilə seçilən məşhur arıçı olmuşdu.*

## AQİLİN İBRƏT VERMƏSİ

Bir cavan oğlan evlənmək istəyirdi. Yaşı da otuza çatmışdı. Ancaq ona məsləhət bilinən, bəyənilən hansı qızı göstərirdilərsə, hərəsinə bir qulp çıxarırdı. Bir də gözün açanda gördü ki, yaş otuz beşə çatıb. Dostlarından biri ona məsləhət gördü ki, dağın arxasındakı kənddə bir aqil, nurani şəxs yaşayır. Onun yanına get, ondan məsləhət al. O, sənəköməklik eləyər.

Nəhayət, evlənmək istəyən oğlan gedib o aqil şəxsi tapdı. Vəziyyəti ona müfəssəl danışdı. Oğlana diqqətlə qulaq asan aqil özü ortaya çay gətirdi. Hərəsi bir stəkan çay içdi. Aqil şəxs ona dedi ki, sənə bir ağıllı məsləhət verməyə hələ hazır deyiləm. Sabah bu vədə gələrsən. Sabah da yenə çay içdilər. Aqil şəxs yenə məsləhət verməkdən imtina etdi. Beləliklə, oğlan yeddi gün ərzində aqil şəxsin evinə yol aldı və bir stəkan çay içib geri qayıtdı. Yeddinci gün aqil şəxs ona fikrini bildirəcəyini dedi. Ondan soruşdu:

– Bu yeddi gün ərzində içdiyin çaylardan nə anladın? Bir-birindən kəskin fərqlənən əlamət duydunmu?

– İçdiyim çaylarda elə də ciddi fərqlər duymadım. Çaydı da. Ciddi nə fərq ola bilər ki?

Aqil şəxs cavabını belə verdi:

– Bax, içdiyin çaylar kimi qadınlar da əsasən biri-birinə bənzəyir. Halbuki çayın birini darçın, birini zəncəfil, birini mixək, o biriləri də kəklikotu, qantəpər, çobanyastığı və s. ilə dəmləmişdim. Bir o qalır ki, sən onlara hansı gözlə, hansı



istəklə baxasan. Yəqin ki, eşitmiş olarsan: «O dövrdə bir qəbilə başçısı eşidir ki, Məcnun Leyli adlı ərəb qızından ötəri dəli-divanə olub, çöllərə düşüb. Qət edir ki, gedib o qızı tapacağam, onun necə gözəl olduğun gözlərimlə görəcəyəm. Belə də edir. Leylidə başqa qızlardan fərqli çox da üstün bir əlamət görmür. Gedib səhrada Məcnunu tapır. Ona deyir:

– Leylinin hansı üstünlüyü səni dəli-divanə edib? Mənim özümün, eləcə də qəbiləmin elə qızları var ki, sənin Leylindən də gözəldilər. Hansın bəyənsən, sənə verəcəyəm. Gəl mənimlə gedək.

Məcnun deyir:

– Sən mənim Leylimə mənim gözümlə baxsan, mənə belə təklif etməzsən!»

Aqil şəxsin çay əhvalatından və bu söhbətindən təsirlənən oğlan ibrət alır. Qısa müddətdə nəzərdə tutduğu qızların biri ilə ailə qurur.

## SƏDAQƏTLİ KİŞİ

Bir şəhərdə çox mehriban ailə yaşayırdı. Ər və arvadın mehribançılığı digər ailə üzvlərinə də təsir etmişdi. Dövran dolandı, bu ər və arvad yaşa doldu. Evin qadını təxminən səksən yaşında yaddaşını da itirmişdi. Müalicə üçün aparıb xəstəxanaya qoymuşdular. Səksən beş yaşında kişi hər gün eyni saatda xəstə həyat yoldaşına evdə bişirilmiş xörəyi xəstəxanaya aparar, xəstə arvadına yedirərdi. Bir gün kişi də xəstələnir, onu yoxlanmaq üçün həkimin qəbuluna aparırlar. Həkim səbirlə bu yaşlı kişini yoxlayır, müayinə edirdi. Qoca kişi xəstəxanaya yemək aparmağın vaxtının çatdığını görüb deyir:

– Oğul, çox sağ ol. Resepti yaz, mən gedim. Mütləq getməliyəm.

Həkim isə hələ onu aparata da saldırmaq istəyirdi. Qoca kişi də getməyə tələsirdi. Aparata salandan sonra səbirli həkim ondan soruşdu:

– Bu yaşında belə təlaşla sən hara tələsirsən, nə vacib işin var?

– Oğul, səksən yaşında olan həyat yoldaşım xəstəxanada yatır. Gündə bir dəfə onun yeməyini gərək özüm aparam və onu yedirdib, geri qayıdam. O, yaddaşın da itirib, daha heç məni də tanımır.

Həkim dedi:

– Bir şey ki, o, səni tanımır. Yeməyi kimin aparmağının, kimin yedirtməyinin nə fərqi? Yenə səni tanısaydı, başqa məsələ?

Kişi dərdli-dərdli cavab verdi:

– O, bütün həyatını mənə həsr edib. Məni tanımağı əsas deyil. Əsas odu ki, mən onu tanıyıram.

Bu cavabdan sonra bu qoca kişi həkimin gözündə daha da böyüdü. Qocaya da heç bir söz demədi.

## BÖYÜK ÜRƏK SAHİBİ

Görkəmli xalq şairi S.Vurğun adı dillər əzbəri olan böyük şair olmaqla yanaşı, həm də çox xeyirxah, yaxşı bir insan kimi xatirələrdə əbədi yaşayır. O dövrdə onun əl tutduğu, kömək etdiyi insanlar məhz onun sayəsində ürəklərində təpər, dizlərində qüvvət tapa bilmişdilər. Bu sahədə xüsusilə ədəbiyyat sahəsinə meyil edənlərin sayı daha çox olmuşdur. Belələrindən Ə.Kürçaylı, Aşıq Şəmşir, H.Arif, Z.Cabbarzadə, T.Bayram, Z.Xəlil, S.Tahir və bir çoxlarının adını sadalamaq olar. Bunlardan, qısa da olsa, bir neçəsinin haqda qeydlər vermək istəyirəm.

S.Vurğun 1955-ci ildə Kəlbəcərdə Aşıq Şəmkirlə görüşəndən sonra onun ilk kitabın çap elətdirdi, haqqında verilişlər verilməsin təşkil etdi. Məhz bundan sonra Aşıq Şəmkir adı dillərə düşdü, şöhrətləndi. Salyanda S.Vurğunla görüş keçirilən zaman hesabdar (mühasib) işləyən Ə.Kürçaylının 1-2 şeirinə qulaq asandan sonra onun Bakıya aparılmasını, ali məktəbə daxil olmasını təşkil etdi. Tanınmış şair olmasına xeyir-duasını verdi.

Belələrindən biri də görkəmli şairimiz İslam Səfərli olmuşdur. O vaxt universitetdə «Gənclər günü» adlı şeir gecə-

ləri keçirilərdi. Həmin illərdə universitetdə oxuyan İ.Səfərli də bir şeirin oxumuş, təsadüfən orda olan S.Vurğun da həmin şeiri dinləmişdi. Tanınmış yazıçılarımızdan olan Əlfi Qasımov xatirələrində yazırdı: «Bir gün yenə universitetdə S.Vurğunla görüş keçirilirdi. Böyük şairimiz gənclərə öz tövsiyələrin dedi, poeziya yollarında bir növ bizlərə yol göstərdi. Çıxışının sonunda üzünü zala tutub dedi:

– O mənə oxşar qara İslam burdadı?

Arxadan tələbə yoldaşımız İ.Səfərli ayağa durub dedi:

– Səməd müəllim, burdayam. Onu xitabət kürsüsünə çağırıb dedi:

– O günü «Gənclər günü»ndə bir şeir oxudun. Onu burda oxuya bilərsənmi?

İslam Səfərli «Beşik başında» adlı həmin şeiri yüksək pafosla əzbərdən dedi. Bütün zal onu alqışladı. Bundan sonra mətbuat aləmində S.Vurğunun dəstəyi nəticəsində İ.Səfərliyə yaşıl işıq yandırıldı və tezliklə tanındı, dövrünün məşhur, sevilən şairlərdən biri oldu».

## NƏRİMANOV UCALIĞI

Böyük ədib, siyasi xadim, dəyərli şəxsiyyət olan N.Nərimanov Azərbaycan xalqının taleyində misilsiz xidmətləri olan bir vətən fədaisi olmuşdur. O vaxtlar görkəmli xeyriyyəçi Z.Tağıyevin maddi köməyi ilə Odessada həkimlik üzrə universitet bitirən N.Nərimanov yazıçı, dramaturq, publisist kimi də geniş fəaliyyət göstərmişdir. Azərbaycan ədəbiyyatında ilk tarixi faciə dramının (Nadir şah) da əsasını N.Nərimanov qoymuşdur. O illərdə Dağlıq Qarabağın və Naxçıvanın Ermənistana verilməsinin qarşısının alınması məhz onun səyləri və Leninlə yaxınlığı nəticəsində mümkün olmamışdır. Onu da qeyd edim ki, aldığı güllə yarasından ağır vəziyyətdə olan Lenin öz yerinə əsas namizəd N.Nərimanovun olacağını bildirmişdi. Elə buna görə də Mikoyan, Orcenikidze və Stalinin təşkilatçılığı ilə 1924-cü ildə Kremlin bufetində orada işləyən Bakı ermənisi tərəfindən zəhərlənib öldürülmüşdü.

Türkiyənin hər tərəfindən mühasirəyə alındığı, parçalanma təhlükəsi olduğu zamanda Azərbaycan Komissarlar Sovetinin sədri işləyən N.Nərimanov qardaş xalqa həm mənəvi, həm də maddi baxımdan böyük köməklik göstərmişdir. 1921-ci ilin 17 martında təmənnasız olaraq Türkiyə Cümhuriyyətinə beş yüz kq qızıl da vermişdir. Böyük Atatürk N.Nərimanova yazdığı məktubda buna görə hədsiz minnətdarlıq etmiş, həmin qızılın əvəzinin nə vaxtsa Azərbaycana qaytarılacağını bildirmişdi.

O məktuba cavabında isə N.Nərimanov yazmışdı: «Qardaşın qardaşa etdiyi bu maddı kömək əvəzi ödənilmək üçün edilməmişdi. Sizin Azərbaycan türklərinə 1918-ci ildə göstərdiyiniz böyük qayğının əvəzi olaraq biz də bu köməyi etdik».

Sonralar hansı yollarlasa bu məktubun surəti Mikoyanın əlinə keçmişdi. Kremldə keçirilən bir yığıncaqda N.Nərimanov çıxış edirmiş. Mikoyan ayağa durub həmin məktubun surətini oxuyur və deyir:

– Doktor, siz o məktubda 1918-ci ildə türklərin törətdikləri erməni qırğınlarını xatırlatmısınız?

N.Nərimanov tərəfindən çox sərt cavab alan Mikoyan sustalıb yerində oturmuşdu.

Bu böyük şəxsiyyətin adının əbədiləşdirilməsi üçün ulu öndər H.Əliyev Ulyanovski şəhərində, eləcə də Bakı şəhərində N.Nərimanovun heykəlinin ucaldılmasına nail oldu.

Onu da qeyd edim ki, o illərdə Nərimanov Türkiyəyə həm də xeyli neft məhsulları hədiyyə etmişdi.

## HƏR ÇİÇƏYİ PULA SATMAZLAR

Bir şəhərdə üç nəfər ta uşaqlıq illərindən dostluq edirdilər. Bunlardan biri kasıb, biri əli ağzına çatan, yəni ortabab, o biri isə varlı idi. Bir gün qəza elə gətirdi ki, ortabab yaşayan dost bərk xəstələndi. Varlı yaşayan dostla kasıb dost qərara aldılar ki, eyni vaxtda, birlikdə dostlarını yoluxmağa getsinlər. Pulsuzluqdan həmişə cibləri üşüyən kişi şəhərdəki məşhur

gül dükanına getdi. Kəmali-ehtiramla, nəvazişlə gül dükanının sahibini salamladı və ona dedi:

– Mənim yaxın dostum ağır xəstələnibdi. İstəyirəm sizdən bir gözəl gül buketi alıb, onu yoluxmağa gedim. Ancaq cibimdə pul yoxdu. Söz verirəm ki, əlimə imkan düşən kimi gəlib sizin borcumuzu qaytaracağam. Dükan sahibi bu kasıb, dosta verdiyi sözə sədaqətli insanın sözün yerə salmadı. Ona ətirli güllərdən gözəl bir buket hazırlayıb verdi.

Şərtləşdiklərinə görə dostlarını yoluxmağa günortadan sonra gedəcəkdilər.

Bir müddət sonra varlı dost da gəlib bu mağazadan bahalı bir gül buketi aldı. Qərara alınan vaxt hər ikisi müxtəlif istiqamətlərdən xəstə dostların evlərinə tərəf gəldilər. Hər biri dostlarının yanında aldıqları gül buketin ortaya qoydular. Məlum oldu ki, hər ikisi eyni mağazadan alınıb. Ancaq kasıb dostun buketi görünüşü və ətriylə varlınınkındaan daha üstün idi.

Geri dönəndə varlı dost gül dükanına girib, sahibkara dedi:

– Mən aldığım gül dəstəsinə görə dediyiniz məbləği verdim. Bəs necə olub ki, kasıb dostumun buketi mən aldığımdan daha ətirli, daha təravətli oldu?

Dükan sahibi dedi:

– Yadda saxla, hər çiçəyi pula satmazlar!

## ƏZAZİL HAKİM

Xilafət dövründə bir vilayətdə əzazil, özündən müştəbeh bir hakim yaşayırdı. Kobudluğu, ləyaqətsizliyi ilə ad çıxarmışdı. Onun qəbuluna gələnlər, şikayət edənlər də bu adamın hüzurundan peşman qayıdardılar. Bir dəfə yenə hakimin qəbul günündə bir yoxsul, var-yoxu əldən çıxmış fəqir bir insan dərdinə çarə üçün onun qəbuluna gəldi. Dərdlərini danışdı. Hakim ona kömək etmək, əl tutmaq, yol göstərmək əvəzinə, onu yaramaz sözlərlə təhqir etdi, acılayıb hüzurundan kənarlaşdırmaq istədi. O zavallı şəxs hakimliyə yaraşmayan

bu insandan eşitdiyi sözlərə görə xəcalət çəkdi. Ancaq son anda onun nə cür insan olduğunu özünə bildirmək istədi. Ona dedi:

– Ey bizim «böyük» hakimimiz, görünür, sizdə Peyğəmbərimizdə olmayan cəhətlər daha çoxdur.

Bu sözləri eşidən hakim daha da əsəbləşdi və dedi:

– Ey qanmaz insan, mən kiməm ki, məndə Peyğəmbərimizdə olmayan cəhətlər olsun?

O fəqir dilləndi:

– Peyğəmbərimizdə lütfkarlıq, xeyirxahlıq, xoş sima və əxlaqi dəyərlər var. Sizdə isə bunların heç biri yoxdu. Yadda saxlayın, elə bunlara görə nə vaxtsa məzlumların ahı sizi tutacaq və Allahın qəzəbinə tuş gələcəksiniz.

Bu sözlər bu əzazil hakimi sanki qəflət yuxusundan ayıltdı. Bundan sonra ədaləti, xeyirxahlığı, mehribanlığı özünə sipər elədi. Onu qəflətdən ayıldan, fəqirin haqlı şikayətinin həll edilməsi üçün göstəriş verdi.

## XAİN XOFLU OLAR

Bir ölkədə ananın bacarığı, ciddi səyi ilə yeganə oğlu axır ki, hökmdar oldu, ölkəni ananın məsləhəti ilə idarə etməyə başladı. Bir müddətdən sonra ana oğluna dedi:

– Sən gərək hikmət dünyasından xəbərdar olasan. Ona görə də ayda iki dəfə şairləri, hüləmaları, söz adamlarını saraya cəm elə, onlarla söhbət apar, onlardan hikmət öyrən. Oğul ananın sözlərinə əməl etməyə başladı. Ancaq kütbeyin olduğuna görə yaddaşında bir şey qalmırdı. Təkcə sonuncu yığıncaqda qoca şairin bir əhvalatla bağlı dilindən eşitdiyi ikisətirlik şeir yadında qalmışdı:

*Sən, ey boynu bükük dəvə,*
*Nə hiylə qurmusan mənə?*

Bu beyti lazım oldu, olmadı işlədərdi.

Bir gün bu ağıldan dayaz hökmdarın vəziri plan qurdu ki, hökmdarı öldürsün, özü onun yerinə keçsin. Buna görə

hökmdarın dəlləyini pulla ələ aldı. Ona dedi ki, hökmdarın başını qırxanda ülgüclə boyun damarların doğra. Mən hər şeyi yerbəyer eləyəcəyəm. O öləndən sonra hakimiyyəti ələ alacağam. Səni də vəzir təyin edəcəyəm. Dəllək də razılaşdı. Bir gün yenə hökmdarın başını qırxırdı. Başın qurtarıb üzünə keçəndə niyyətini həyata keçirməli idi. Elə bu vaxt hökmdar yeganə əzbər bildiyi o bir beyti dəlləyin gözlərinə baxa-baxa deməyə başladı:

*Sən, ey böynu bükük dəvə,*
*Nə hiylə qurmusan mənə?*

Bu sözləri eşidən dəlləyin əl-ayağı əsməyə başladı. Elə bildi ki, hökmdar onun fitnəsindən xəbərdardı. Ülgücü yerə atıb, hökmdarın qıçlarına düşüb yalvarmağa başladı. Günahın vəzirdə olduğunu, onu bu işə sövq etdiyini bildirdi.

Hökmdar hər ikisinin başın vurdurdu. Bir beyt şeir onu ölümdən xilas etdi.

**DAVA SALACAQDIN**

«Növbahar» restoranının aşıb-daşan vaxtları imiş. Bir dəstə yazıçı ora gedir. Yeyib-içəndən sonra başlar qızır. Ağızlarına gələni danışırılar. Qışqırıq-qiyamət başlayır. Restoran xidmətçiləri ilə əlbəyaxa olurlar. Məsələ böyüyür. Bu xəbəri respublikanın rəhbəri Vəli Axundova da çatdırırlar. Vəli Axundov Azərbaycan Yazıçılar İttifaqının sədri Əli Qara oğluna zəng edir Yazıçıların sərxoş olmaları, dava-dalaş salmaları haqda danışandan sonra deyir:

– Hətta mənim də, yoldaş N.S.Xruşşovun da haqqında nalayiq sözlər işlədiblər.

Əli Vəliyev telefonun bu başından deyib:

– Yoldaş Axundov, narahat olmayın, onların haqda lazımi ölçü götürəcəyəm!

Əli müəllim bu dava-şava salanların adlarını öyrənir, siyahı tutdurur. Lap başdan da yeyib içməklə, lazımsız sözlər danışmaqla məşhur olan, ancaq həmin vaxt Moskvada olan

bir şairin də adını siyahının başından o biriləri ilə birlikdə yazdırır. Hamısına yazılı şiddətli töhmət verilir. Siyahı lövhəyə vurulur. Bir-iki gün sonra Moskvada olan şair gəlib çıxır. Siyahını oxuyub qanı qaralır. Əli Vəliyevin kabinetinə daxil olub deyir:

– Ay Əli müəllim, bu nə oyundu mənim başıma açmısınız? Mən burda olmaya-olmaya, məni də qatmısınız «Növbahar»da şuluqluq salanların siyahısına!

Əli müəllim deyir:

– Bala, mən səni yaxşı tanıyıram. Burda olsaydın, sən onlardan betər mərəkə qopardın. Yaxşı ki, elə burda olmamısan! Yoxsa, sənin söz-söhbətin təkcə Axundovun yox, lap Xruşşovun da qulağına gedib çatacaqdı.

### «DÜNYA QOPUR»

Əli müəllim «Azərbaycan» jurnalında redaktor işləyən vaxtlar imiş. Əbülhəsən Ələkbərzadə «Dünya qopur» adlı romanını yazıb gətirib qoyur Əli müəllimin masasının üzərinə və deyir:

– Özün oxu, sonra da tapşır jurnalın növbəti nömrələrində çap eləsinlər.

Aradan xeyli müddət keçir. Əbülhəsən Ələkbərzadə gəlib yenə girir Əli Qara oğlunun kabinetinə və deyir:

– Əli müəllim, bəs mənim romanımı jurnalda niyə çapa vermədiniz?

Əli Qara oğlu sakitcə deyir:

– Siz romanın adını «Dünya qopur» qoymusunuz. Mən onu başdan ayağa oxudum. Heç tüküm də tərpənmədi. Ona görə də çap eləmədik.

### ƏLİ VƏLİYEVİN ETİRAFI

Əbülhəsən Ələkbərzadə «Azərbaycan» jurnalında baş redaktoru işlədiyi vaxtlar idi. Əli Vəliyevin  jurnalda irihəcmli yazısı dərc edilmişdi. Əli müəllimə də vacib pul lazım

olur. «Azərbaycan» jurnalı redaksiyasında Əbülhəsənin yanına gəlir, hal-xoşdan sonra deyir:

– Əbülü, mənə təcili pul lazımdı. Göstəriş ver, jurnalda çıxan əsərimin qonorarını elə bəri başdan versinlər. Vacibdi. Baməzə adam olan Əbülhəsən deyir:

– Bir şərtlə pulu verdirə bilərəm.

– Nədi o şərt?

– Gərək bir sualıma doğru cavab verəsən. Doğru cavab versən, pulu da bəri başdan alacaqsan.

– De görüm, Qumru xanımdan başqa, ayrı bir qadınla haqq-hesabın olub, ya yox?

Bu sualdan bərk tutulan Əli müəllim ayağa qalxır və deyir:

– Ətin tökülsün, Əbülu, mən getdim!

Bu vaxt Əbülhəsən arxadan deyir:

– Özün bilərsən, şərtimiz şərtdi.

Əlacsız qalan Ə.Vəliyev geri dönür və deyir ki, düzünü deyəcəyəm:

– «Kommunist» qəzetində redaktor işləyəndə bir cavan, işvəli-qəmzəli xanım qəbuluma gəldi. Dediyindən aydın oldu ki, onun ərinin heç bir günahı olmaya-olmaya həbs etdirmək istəyirlər. Ağlamsına-ağlamsına dedi:

– Ümidim sizədi, ona gör bura gəldim!

Yazığım gəldi. Telefonu götürdüm, elə o xanımın yanında Mircəfər Bağırova zəng vurdum. Məsələ müsbət həll olundu. Xanım sevincindən bilmədi neyləsin. Yetirib qapının dalını vurdu və atıldı üstümə. Başladım qaçmağa. O qovdu, mən qaçdım. Xırman öküzünə döndüm. Çox qaçandan sonra nəfəsim kəsildi, stolda oturmalı oldum. Xanım yetirib məni marça-marçla öpməyə başladı. Elə zor gücünə öpürdü.

Əbülhəsən müəllim həyəcanla soruşub:

– Eləcə öpdü?

Əli müəllim deyib:

– Bə..bəli, eləcə öpdü.

Əli Qara oğlunun bu söhbətindən uğunub gedən Əbülhəsən pulun verilməsi haqda göstəriş verir.

**XALQIN SƏSİ**

İlyas Əfəndiyev ilk hekayələrindən birini gətirib Əli Vəliyevin yanına. Görüb ki, Əli Vəliyev uzanıb çarpayıda, arvadı Qumru xanım da oturub yanında şirin söhbət edirlər.

İlyas Əfəndiyev deyib:

– Əli müəlim, hekayə gətirmişəm.

– Yaxşı eləmisən. Oxu, xoşuma gəlsə, çap edəcəyəm.

İlyas Əfəndiyev başlayıb hekayəni oxumağa. Hərdən dağ-daş mənzərələrinin təsvirin eşidən Qumru xanım deyirmiş:

– Yaxşı əsərdir.

Yenə bir kənd sözü, qoyun-quzu söhbəti eşitdikcə Qumru xanım özünü saxlaya bilməyib, deyib:

– Alı, vallah yaxşı əsərdi!

Belə-belə hekayə qurtarıb, amma Qumru xanımın «yaxşı-yaxşı» deməyi qurtarmayıb.

Axırda İlyas Əfəndiyev üz tutub Əli müəllimə:

– Əli müəllim, niyə dinmirsən? Heç demirsən hekayə necə hekayədir?

– Xalq deyəndən sonra mən nə deyəcəyəm? Sovet hökuməti xalq hökumətidir. Bizim də borcumuz xalqın səsini eşitməkdir. Hekayə yaxşı hekayədir. Gətirərsən, çap eləyərik.

**ZƏKA SAHİBİ**

Bir məktəbdə qonşuluqda yaşayan iki məktəbli oxuyurdu. Bunlardan biri çox tərbiyəli, həm də əlaçı oxuyan şagird idi. Onun qonşusu, həm də onunla bir sinifdə oxuyan oğlan isə intizamsız, həm də pis oxuyan tənbəl uşaq idi. Bu tənbəl intizamsız uşağın atası o biri uşağın atasına nisbətən imkanlı və sayılan, seçilən bir şəxs idi. Müəllim bu valideynə sifariş etmişdi ki, məktəbə gəlsin, oğlunun dərsləri ilə maraqlansın.

Ata məktəbə gəlir. Müəllimlərin əksəriyyəti imkanı az olan ailənin övladını tərifləyir, bunun övladından isə narazılıq edirlər. Ata bərk hirslənir, günahın müəllimlərdə olduğunu bildirir. Deyir:

– Nə o uşağın atası məndən hörmətlidi, nə də o oğlan mənim oğlumdan dərrakəlidir! Siz qəsdən belə şərait yaratmısınız!

O sinfə rəhbərlik edən müəllim deyir:

– Sənin yanında bu iki oğlanın məntiqi təfəkkürünü yoxlamaq üçün onlara bir tapşırıq verəcəyəm. Nəticəsini də səninlə birlikdə səhər yoxlarıq.

Müəllim oğlanlara təklikdə deyir:

– Səhər hər biriniz qonşunun hinindən bir yumurta oğurlayıb gətirməlisiniz. Ancaq bunu heç kim bilməməlidir.

Səhər içəri girən kimi intizamsız, tənbəl uşaq gətirdiyi yumurtanı müəllimin qabağına qoyur və deyir:

– Müəllim, elə elədim ki, heç kəs məni görmədi.

Müəllim o biri oğlandan yumurtanı istəyir. Oğlan deyir:

– Mən bu işi icra edə bilmədim.

– Nə üçün?

– Çox götür-qoy etdim. Düşündüm ki, əvvəla, vicdanım bu səhv hərəkətimə şahiddi. İkincisi də, hər şey bizi xəlq edən Tanrımıza aşkardır. Ona görə də sizin tapşırığınızı icra edə bilmədim.

Tənbəl və intizamsız oğlanın atası bu iki uşağın düşünmə tərzini müşahidə edəndən sonra xəcalət çəkdi və geri döndü.

### TOFİQ BAYRAM DÜNYASINDAN

Xalqımızın sevilən, şeirləri dillər əzbəri olan şairlərindən biri də Tofiq Bayram olmuşdur. Hələ gənclik illərində S.Vurğun kimi qüdrətli sənətkar onun yaradıcılığına yüksək qiymət vermişdi.

Tofiq Bayram həm də baməzə bir insan olmuşdur. Onun dilindən eşidilən bir çox lətifələr onu tanıyanlar arasında indi də işlənir.

Tofiq Bayram qələm yoldaşları ilə «Ulduz» jurnalı redaksiyasında olan vaxtlarda Xaçmazdan olan bir cavan oğlan şeirlərini gətirib redaksiyaya verir. Şeirlərə T.Bayram baxır. Xoşuna gələni də olur, olmayanı da. Üz tutur gəncə:

– A bala, Xaçmazda nə işlə məşğulsan?

– Bitkilərə ziyan verən həşəratlara qarşı mübarizə aparan bir təşkilat var. Orada işləyirəm.

– Lap yaxşı. Vacib işdi. Deyirəm, bəlkə, ordakı işini atasan, gələsən bu Yazıçılar İttifaqında ziyanvericilərə qarşı mübarizə aparasan? Əməkhaqqı da ordakından çox olacaq.

Bu danışıqdan bir şey başa düşməyən oğlan gözlərini döyə-döyə deyir:

– Tofiq müəllim, mən burda haranı dərmanlayacağam?

– Kabinetlərdən başlamış, bütün redaksiyanı, nəşriyyatı, əsl ziyanvericilər burdadılar.

Ətrafdakıların şaqqıldayan gülüşlərindən sonra həmin oğlan deyir:

– Yox, Tofiq müəllim, bunu mən bacara bilmərəm.

Şeir dəftərin də götürüb tələsik otaqdan çıxır. Gülüş səsinə o biri otaqda işləyən məsul katib Əhməd Muxtar da gəlib, bu şaqraq gülüşün, səs-küyün səbəbini öyrənmək istəyir. əhvalatı eşidəndə o da uğunub gedir.

Tofiq Bayramın başçılığı ilə bir dəfə bir dəstə şair, yazıçı Astara rayonuna ezamiyyətə göndərilir. Onlara təhkim edilən raykomun təlimatçısı gələn qonaqları yanına alıb Astaranın görməli yerləri ilə tanış edir. Dəlləkxanadan, qəssabxanadan, klubdan, kitabxanadan, çay evindən tutmuş gözünə xoş gələn nə vardısa başlayır təriflməyə.

Günortadan keçdiyinə görə qonaqlar bərk acmışdılar. Axırda T.Bayram üzün tutur təlimatçıya:

– Az təriflə bizə, bu Astaranı.

Tez ol, indi göstər o restoranı.

Gözün döyən təlimatçı özündən asılı olmayaraq restorana tərəf qıçın sürüməyə başlayır.

### ƏN YAXŞI TƏRİF

Bir məclisdə Hüseyn Arifi çox tərifləyiblər:

– Qağamız böyük şairdi! Gözəl şairdi! Əvəzsiz şairdi!

Hüseyn Arif tərifləyənlərin hamısına qulaq asıb deyir:

– Sağ olun! Var olun! Amma bilin ki, tərifin ən yaxşısını demədiniz.

– Nəyi demədik?

Hüseyn Arif deyib:

– Demədiniz ki, Hüseyn qağa Bəxtiyar Vahabzadədən yaxşı yazır.

## QAZAXLI

Eldar Baxışın «Azərbaycan gəncləri» qəzetində dərc edilən «Davanın son günü» poeması uğurlu alındığına görə əldən-ələ gəzirdi. Poemanı Hüseyn Arif də oxuyub bəyənmişdi. Eldar Baxışı axtarırmış ki, ona bir-iki tərifli söz desin. Redaksiyaya gələndə iş yoldaşları Eldar Baxışa deyirlər ki, səni Hüseyn qağa axtarır. Eldar Baxış da başlayır H.Arifi axtarmağa. Axır ki, onu çayxanada tapır. H.Arif Eldar Baxışı görən kimi ayağa durur, onu tərifləyərək deyir:

– Oxudum poemanı, qağa.

– Çox sağ olun.

H.Arif deyir:

– Qazax torpağı yetişdirir da...

E.Baxış cavab verir:

– Çox sağ olun, ancaq mən qazaxlı deyiləm, qubadlılıyam.

– Yox, qazaxlısan.

– Qağa, qubadlılıyam.

H.Arif deyir:

– Heyif sənə, sən gərək qazaxlı olardın!

## ALLAHYAR PARTİYAYA KEÇİR

Kommunist Partiyasının meydan suladığı vaxtlar idi. Bəziləri vəzifəyə keçmək üçün ətək-ətək pul verib partiyaya keçirdilər.

Bir gün Əbülfət Əliyev Xan Şuşinskiyə zəng vurub deyir:

– Xəbərin var?

– Yox, nə olub?

– Allahyarı partiyaya keçirdilər.
– Hansı Allahyarı?
– Qardaşın Allahyarı.
Qardaşından incik olan xan əmi deyir:
– Yaxşı eləyib, keçiriblər. Ona o da azdı.

## HANSI OĞLU

Şuşada bir cavan oğlan Xan Şuşinskiyə yaxınlaşıb deyib:
– Salam, Xan əmi
Xan salama salamla cavab verib, sonra başlayıb düz oğlanın gözünün içinə baxmağa.
Oğlan soruşub:
– Tanımadın məni?
– Yox.
– Mən Mustafanın oğluyam, ətçi Mustafanın.
– Hə..A bala, Mustafanın iki oğlu vardı. Biri ölüb, biri qalıb?
– Hə.
– İndi sən məni başa sal görüm ətçi Mustafanın hansı oğlusan?

## İKİ OD ARASINDA QALMAQ

Bu ifadə insanın iki tərəfdən sıxılması, iki tərəfdən çətinliklərlə, ağır təhdidlərlə üz-üzə qalması kimi başa düşülür. Yusif Vəzir Çəmənzəminlinin «Qan içində» romanının əvvəlki adı «İki od arasında» olmuşdur. əsərin baş qəhrəmanlarından olan Qarabağ xanı İbrahim xan M.P.Vaqiflə söhbətində xanlığın qorunmasının çətin olduğunu, iki od arasında qaldığını deyir. Burada iki od dedikdə xanlığı iki tərəfdən sıxan, tabeliklərinə keçirmək istəyən İran və Rusiya nəzərdə tutulur. Elə bu cəhətdən də Y.V.Çəmənzəminli əsərin adını «İki od arasında» qoymuşdu. Sonralar əsərin yeni nəşrini hazırlayan ədəbiyyatşünas alim Əkbər Ağayev guya Rusiyanın mənafeyinə toxunmasın deyə, əsərin adını dəyişib «Qan içində» qoymuşdu.

İndinin özündə də iki tərəfdən asılı, həlli çətin iş olanda işi həll etmək istəyən adam deyir: «Bilmirəm, necə hərəkət edim? Qalmışam iki od arasında». Bəs «İki odun arasında qalmaq» ifadəsinin kökü necədi?

Qaynaqlarda göstərilir ki, qədim türklər dövlət başçısını, ordu rəhbərini seçəndə onları bir neçə ağır sınaqlardan keçirərmişlər. Bu sınaqların sonuncusu iki odun arasından çox ehtiyatla, qorxusuz-hürküsüz, sağ-salamat keçmək imiş. Təxminən yez metr məsafədə üz-üzə yeddi böyük tonqal yandırılarmış. Bir-birindən az aralı, üz-üzə yanan tonqalların arasında dar cığır olardı. Sınaqdan keçən şəxs tonqalların üz-üzə yandığı dar cığırdan elə keçməli idi ki, tonqallara toxunmasın, ehtiyatsızlıq edib üst-başını, əl-ayağını yandırmasın. Bu «imtahanı» da uğurla başa vuran şəxs başçı seçilər, başına qiymətli çələng qoyulardı.

## EŞŞƏK ÖLÜSÜ

Lütfəli Abdullayev Şəkidən Bakıya gəlirmiş, özü də bərk tələsirmiş. Bir də görür ki, maşın-maşına dayanıb. Düşüb əhvalatı öyrənmək istəyir. Görür ki, yolun ortasında bir eşşək ölüsü var. Camaat da eşşək ölüsünün ətrafına toplaşıb. Düşünüb-daşınan Lütfəli Abdullayev deyir:

– Hə, qardaşlar! İş belədi. Mərhumun qohumları qalsın, qalanları dağılsın.

Bircə dəqiqənin içində camaat dağılır, yol açılır.

## LÜTFƏLİ ABDULLAYEV DÜNYASI

Görkəmli aktyorumuz Lütfəli Abdullayev Şəkidən beş manat avtobusa verib gəlir Bakıya. Bakıda da bir taksi tutub, deyir:

– Məni apar Musiqili Komediya Teatrına.

Taksi sürücüsü gülüş ustasını dediyi ünvana aparır.

Lütvəli sürücüyə neçə manat verəcəyini soruşanda beş manat haqq istəyir. Heyrətlənən Lütfəli Abdullayev dillənir:

– İşə bax, ha. Ha indi, Şəkidən Bakıya da beş manat, Bakıdan Bakıya da beş manat?..

**TOQQA**

Bir nəfərin babadanqalma çox qiymətli toqqası olur. O, toqqanı belinə bağlayıb şəhərin kənarında gəzintiyə çıxır. Yolda bir tacirə rast gəlir. Tacirin gözü o saat toqqanı alır. Həmin oğlana üz tutub deyir:

– Ey cavan oğlan, o toqqanı mənə satarsanmı? Qiymətindən artıq pul verrəm.

Oğlan başa düşür ki, tacir onu aldatmaq istəyir. Ona görə deyir:

– Mən razı, mən toqqanı dediyin qiymətə, ya da əvəzində ayrı bir toqqa almaqla sənə verərəm. Ancaq bir şərtlə.

– O nə şərtdir elə?

– Gərək bizdən aralıda olan o ağacın dibinə gedəsən. Ordan eşşək kimi anqıra-anqıra mənim yanıma gələsən.

Tacir bu gəncin sözü ilə razılaşır. Gedib ağacın yanından anqıra-anqıra oğlanın hüzuruna gəlir və deyir:

– İndi toqqanı ver, bu bəzəkli toqqanı da mən sənə verim.

Oğlan bu tamahkar tacirin kürəyinə bir şapalaq vurub deyir:

– Ay özün öləsən! Niyə sən eşşəkliyinlə bu toqqanın hansı qiymətdə olduğun bilirsən, mən bilmirəm? Toqqa görəndə, qulağının dibin görərsən!...

**DAŞ**

Bir kasıb, həm də tənbəl kişi yoxsul daxmasında tək yaşayırdı. Yaxınlarının, qonum-qonşunun verdiyi pay-pürüşlə bir təhər ötüşürdü. Bir gün yenə evdə ac halda uzanmışdı. Hələ ona pay gətirən yox idi. Əlacsız qalıb bacadan görünən göy səmtinə tərəf üz tutur, İlahi dərgahına əl qaldırır:

– Ya Allah, hər şeyə sahib ixtiyarsan. Mənə beş-on manat pul göndər. Acından ölürəm.

Görür ki, Allahdan səs çıxmadı. Bu dəfə dedi:

– Pul göndərmirsən, göndərmə. Onda bir daş sal başıma, ölüm, canım qurtarsın.

Elə bu vaxt çoxdan təmir görməyən bacanın kənarına qoyulmuş daşın biri tappıltı ilə kişinin düz qənşərinə düşdü.

Bərk hirslənən kişi yenə göy səmtinə üz tutdu:

– Kəráminə min şükür! Neçə gündü «çörək pulu» deyib yalvarıram, bir manat da göndərmirsən. Ancaq daş deyən kimi «səxavətini» göstərirsən.

### XAÇI NİYƏ BATIRIRSAN?

Bir qarğa gündə gəlib qonurmuş erməni kilsəsinin üstündəki xaçın üstünə. Uçanda da zil atıb xaçı batırırmış. Pis günə qoyurmuş. Bir gün keşiş bir badyaça çaxırı doldurub qoyur xaçın yanına. Düşüb aşağıdan müşahidə edir ki, görsün qarğa neyləyir?

Qarğa yenə gəlib xaçı batırandan sonra başlayıb badyadakı çaxırdan içməyə. İçib-içib, axırda keflənib, kəllə-mayallaq aşıb düşüb yerə-kilsənin həyətinə. Keşiş kefli qarğanı alıb əlinə, biraz kötəkləyib, sonra deyib:

– A köpəyoğlunun heyvanı! Ermənisən, xaçı niyə batırırsan, müsəlmansan çaxırı niyə içirsən?

### XALQ ARTİSTİ

Yaxşı oxuduğuna görə yox, pambıqdan, neftdən, partiyadan oxuduqlarına görə layiq oldu, olmadı «xalq artisti», «əməkdar artist» adı incəsənət adamlarına paylanırdı. Xan Şuşinski kimi xanəndəyə isə hələ əməkdar artist adı da verilməmişdi. Dostlarından biri deyir:

– Get Mərkəzi Komitəyə şikayət elə, qoy o adlardan birini də sənə versinlər.

Nəhayət, xan əmi gəlib çıxır Mərkəzi Komitəyə. Qəbul otağından onu aparırlar o işlərə baxan şöbə müdirinin yanına.

Hələ də bu adların mahiyyətini yaxşı qavramayan Xan əmi şikayətlənib deyir:

– Dünənki uşaq-muşağa bu adları paylayırsınız. Birin də mənə verin.

«Zaslujeniy» vermirsiniz verməyin, heç olmasa «narodnıy» verin, yəni əməkdar artist vermirsiniz verməyin, heç olmasa xalq artisti adı verin. Şöbə müdiri gülümsünərək deyir:

– Xan əmi, çalışarıq bu yaxınlarda sizə «narodnı» olmasa da «zaslujeni» adı verilsin.

Ancaq bir müddət sonra Xan əmiyə birbaşa «Xalq artisti» adı verdilər.

## ÇÖRƏYİ DAŞDAN ÇIXMAQ

«Çörəyi daşdan çıxmaq» ifadəsi adi danışıq dilində geniş işlənən sözlərdəndi. Çörəyi, dolanışığı çox çətinliklə əldə edilən insan haqda deyirlər: «Bunun çörəyi daşdan çıxır».

Bu ifadəni əsasən bir tikə çörəyi çox çətinliklə, zillətlə əldə edilən insanlar haqda deyirlər. Xüsusilə dağ kəndlərində heyvandarlıq və əkinçiliklə məşğul olan insanlar haqda bu ifadə tez-tez işlənir: «Kəndlinin çörəyi daşdan çıxır». Bəs bu ifadənin kökü haradan qaynaqlanıb, leksikamızda özünə geniş yer tapıb?

Rəvayətə görə, ölkələrin birində zalım hökmdar, özü kimi də vəziri varmış. Vəzirin məsləhəti ilə adi bir işə də ağır vergilər qoyulurmuş. Dolanışıq get-gedə çətinləşirmiş. Çoban, naxırçı, əkinçi, biçinçi, bütün sənətkarlıq növləri üçün vergi qoyulmuşdu.

Bu ölkədə öz işinin ustası olan məharətli daşyonan yaşayırdı. Bu usta vergidən yaxalarını qurtarmaq üçün beş-altı nəfər özünə uyğun adamı başına yığır, aparır hər tərəfi qayalıq olan bir əraziyə. Ora bələd idi. Bilirdi ki, buranın daşları tez hamarlanır, cilalanır. Ona görə də burada vergidən kənar olmaq üçün işə başlayırlar. Əvvəl işləri yaxşı gedir. Xüsusilə şəhərdə ev tikdirən imkanlı adamlar gəlib bu daşları uyğun qiymətə alırdılar. Daşyonanların da qazancı yaxşı olurdu.

Hardansa bu məsələni öyrənən vəzir padşaha yeni vergi növü tapdığını söyləyir. Daşyonanlar ağır vergiyə cəlb edilir. Ustanın başçılığı ilə həmin dəstə padşahın qəbuluna gəlir, şikayət edirlər. Usta qabarlı əllərini göstərərək deyir:

– Qibleyi aləm sağ olsun. Mərhəmətinizi əsirgəməyin, bizim çörəyimiz daşdan çıxır.

Bu ifadə həmin vaxtdan dillər əzbəri olmuşdur. İndi həmin ifadə birbaşa daşıdığı mənada deyil, məcazi mənada işlənir. Yəni çox çətinliklə, ağır zəhmət hesabına gündəlik çörəyin qazanılması mənasın daşıyır.

## UZUNDƏRƏ RƏQSİ

Xalqımızın lap qədimlərdən gələn nəsildən-nəslə ötürülən bir çox rəqs növləri vardır. Bunlardan biri də «Uzundərə» rəqsidir. Bu rəqs «O olmasın, bu olsun» filmində filmin baş qəhrəmanı Məşədi İbad tərəfindən ifa edilir. Elə buna görə də çox vaxtı bu rəqsi «Məşdibad» adıyla adlandırırlar. Bəs nə üçün bu rəqs növü «Uzundərə» adlandırılıb? Tarixi, etnoqrafik qaynaqlarda bu barədə iki variant bu günə qədər xalq arasında yaşayır.

Birinci varianta görə çox sərt, yamac yerdə yerləşən qədim kəndlərimizdən birində toy şənliklərini eləmək üçün münasib düzən yer yox imiş. Kəndin aşağı tərəfində «Uzundərə» adlı çox uzanıb gedən bir dərə varmış. Dərənin ətrafı da geniş imiş. Ona görə camaat toylarını burada edər, doyunca rəqs edərdilər. Beləliklə, dərənin coğrafi vəziyyətinə görə burada ifa edilən rəqslərdən biri «Uzundərə» adlandırılmışdı.

İkinci varianta görə, bu yamacda yerləşən dağ kəndindən kənar yerlərə qız köçürüləndə, yaxud bu kəndə kənardan gəlin gətiriləndə toy sahiblərindən bir qismi musiqinin müşayiəti ilə gəlinin qabağında rəqs edirmişlər. Bu rəqs dərə uzunu davam edərmiş. Elə buna görə də bu gözəl oyun havası «Uzundərə» adıyla adlandırılmışdı. Görkəmli meyxana ustadı Vüqar Abdulovun rəqslərimiz haqda olan məşhur meyxanasında bu barədə də yazılmışdır.

Həm də əvvəllər «Uzundərə» havası gəlin ata evindən çıxanda çalınardı, bir də bəyin oynamasında. Elə «O olmasın, bu olsun» filmində də Məşədi İbad bu havanı oynayır.

**OD ALMAĞA GƏLMƏMİSƏN Kİ?**

«Od almağa gəlmək» ifadəsi xalqımız arasında bu gün də işlənir. Bir nəfər qonşuya, yaxud bir dostunun, yaxınının evinə gedib, tələsik geri qayıtmaq istədikdə deyirlər: «Nə tələsirsən, od almağa gəlməmisən ki?» Ümumiyyətlə, tələsik, tezbazar iş görənlər haqda bu aforizm indi də geniş işlənir.

Bəs niyə od almağa gəlmək?

Bu ifadə indi aforizmin əvvəllər işlənən həqiqi mənasında deyil, məcazi mənada işlənir.

Ta qədimlərdən odu qorumaq, daim saxlamaq bütün xalqlarda, xüsusilə Azəri türklərində əsas məsələlərdən biri olmuşdu. Hətta yanan ocağın, təndirin külü altında qorun saxlanması da həmişə diqqət mərkəzində olmuşdur. Bəzən bir ailədə od, kül altdakı qor sönəndə bir uşağı, yaxud ailənin bir üzvünü qonşuya göndərirdilər ki, qonşudan od alıb gətirsin. Odu da ya bir dəmir qabda, taxta parçası üstdə gətirərdilər, ya da bir köz qırıntısını nisbətən qalın əskiyə bükübtez geri qayıdardılar. Ona görə tez qayıtmaq lazım gəlirdi ki, aparılan köz yolda keçə bilərdi. Ona görə də bu iş tez görülər, gələn adamı da ev sahibi tez yola salardı. Məhz məişətimizə vacib olan «Od almağa gəlməmisən ki?» ifadəsi həmin məişət qayğısı ilə bağlı olmuşdu. Çünki o dövrdə od əldə etməyin müasir vasitələri yox idi. Odu əsasən çaxmaq daşından, qovdan əldə edirdilər ki, bu da çox çətinliklə başa gəlirdi.

**LOĞMANIN HƏRƏKƏTİ**

Loğman bir ağanın qulu idi. Ağası ona dedi:

– Qoyunu kəs, ən yaxşı yerlərini mənə gətir.

Loğman qoyunu kəsdi, ürəyi və dilini gətirib ağanın qarşına qoydu. Başqa bir gün də ağa Loğmanı yanına çağırıb dedi:

– Qoyunu kəs, ən pis yerlərini mənə gətir.

Loğman yenə bir qoyun kəsdi. Yenə dilini və ürəyini aparıb ağasının qarşısına qoydu.

Ağa hirslənib dedi:

– Bu necə işdir ki, dillə ürək həm yaxşı, həm də pis olur?

Loğman sakit səslə cavab verdi:

– Bütün fəlakətləri ürəyi və dili pis olanlar törədir. Bütün xeyirxahlıqları da ürəyi və dili olanlar törədir.

Ağa bir az fikrə gedib, daha heç bir söz demədi, loğmanı nökərçilikdən azad etdi.

### ƏHMƏDDƏN QORXAN TÜLKÜ

Görkəmli şairlərimizdən olan Əhməd Cəmil «Azərbaycan» jurnalına baş redaktor təyin edilir. Nizam-intizamı möhkəmləndirmək üçün müxtəlif inzibati tədbirlər həyata keçirir. Nəşriyyatın işçilərindən biri olan, həm də yazı-pozusu ilə az-çox tanınan Vidadi Məmmədov Əhməd Cəmilin zəhmindən, baxışından bərk qorxurmuş. Nə vaxtsa onu redaktorun qəbuluna çağıranda canına vicvicə düşürmüş. Bir dəfə yenə baş redaktor onu otağına çağırtdırır. İçəridə nə söhbət olursa, Vidadi bayıra çıxanda yoldaşları görürlər ki, Vidadi qapqara qaralıb, kişini tər basıb.

Əməkdaşlardan biri deyir:

– Ay Vidadi, sənə nə olub? Lap tülküdən qorxan Əhmədə dönmüsən. Bizim hər birimiz gündə neçə dəfə Əhməd müəllimin qəbuluna girib çıxırıq, heç sənin kimi olmuruq.

Bu sözləri dinləyən Vidadi deyir:

– Sən Allah, mənə tülküdən qorxan Əhməd demə. Denən Əhməddən qorxan tülküsən. Məndən asılı deyil, onun kabinetinə girəndə əsməcə tuturam.

### ALLAHIN EVİ

Ucqar dağ kəndlərinin birində bir baməzə kişi yaşayırdı. Günlərini bir təhər kasıbçılıqla keçirərdi. Bir gün bu kişi sax-

ladığı az miqdarda mal-heyvanı yan-yüng eləyib, evə gəldi. Arvadın bişirdiyi duru xörəyi təzəcə yeyib qurtarmışdılar. Arvad da, uşaqlar da kişini gözləyirdilər ki, Tanrının verdiyinə şükürlər etsinlər, sonra süfrə yığışdırılsın. Belə də oldu. Elə bu vaxt sınıq-sökük darvaza qapısı döyüldü. Kişi qapıya çıxdı, qapını açdı. Qapı önündə tanımadığı bir kişi dayanmışdı. Ev sahibi ondan nə istədiyini soruşdu. Yad adam cavab verdi:

– Allah qonağıyam. Bu gecəliyə məni qonaq elə.

Ev sahibi tez dilləndi:

– A kişi, səhv gəlmisən, Allahın evi olan məscid bu döngənin yuxarı tərəfindədi. Allah qonağının Allahın evində gecələməyi də savab olar.

## NƏ ÜÇÜN «ŞAH TƏNBƏLİ» DEYİRİK?

Bir şahın idarə etdiyi ölkədə tənbəllərin sayı get-gedə artırdı. Şah bu pis vərdişi aradan qaldırmaq istədi. Göstəriş verdi ki, ölkədə nə qədər tənbəl var yığıb bura gətirin. Belə də edirlər. Bir xeyli adamı gətirib iri bir samanlığa doldururlar. Şahın göstərişi ilə küləş və samana samanlığın içində od vururlar. Samanlıqda istidən, kəsif tüstüdən nəfəs almaq olmurdu. İçəridəki tənbəllər haray qoparırdılar: «Ay yandım, ay öldüm!»...

Kimlər belə qışqırırdılarsa, onları samanlıqdan çıxarırdılar. Axıra qalan iki nəfərdən isə səs çıxmırdı. Axırda onlardan biri də qışqırmağa başladı. Ancaq o biri qışqırmadı. O da tez-tez qışqıran kişiyə deyirdi:

– Denən yoldaşım da yanır, boğulur. Məni də de...

Hökmdar əl qaldırdı. Sonuncu qışqırmayan kişini də bayıra çıxardılar. Şah dedi:

– Bundan belə yalandan özünü xəstəliyə vurub, işə-gücə getməyənlər ağır cəzalanacaq. Bir qaldı bu kişi, bundan velə o da «Şah tənbəli» adlandırılacaq.

Bu ifadə xalq arasında indi də işlənir. Biri adi işləri də görməyəndə, özünə gün-dirlik eləməyəndə deyirlər: «Ə, bu lap şah tənbəlidir».

## BƏHRAM GURUN SƏXAVƏTİ

Bəhram Gurun hakimiyyəti dövrü idi. Bir il ölkəyə bərk quraqlıq, bəla, qənim kəsildi, çaylar, göllər qurudu. Naçar qalan o yerin əhalisi Bəhram Gura məktub yazıb, vəziyyəti ona bildirdilər. Məktubu alan şah öz əli ilə imdad ərizəsinin arxasına yazdı: O vilayətdə quraqlıqdan dəyən zərər xəzinə hesabına ödənilsin». Lazımi adamlara göstərişlər verildi. O il quraqlıq çəkən vilayətin ehtiyacları xəzinə hesabına ödənildi. Əhali yığıncaqlarda, məscidlərdə şaha dua-səna etməyə başladı.

Bu, şahın da qulağına çatdı. Elədiyi xeyirxahlıqdan çox məmnun oldu, rahatlıq tapdı.

Məşvərət günlərinin birində vəzirlərdən biri dedi:

– Əzəmətli şahım, quraqlıqdan əzab çəkən insanlara etdiyiniz yardımın nəticəsində xəzinə boşalmaq üzrədir. Gərək tədbir görək.

Şah dedi:

– Narahat olmayın, xəzinəni yenidən doldurmaq olar. Ancaq qıtlıqdan sarsılan, əzab çəkən insanların dadına yetməyimiz Allahımızın da xoşuna gələr, elədiklərimizin əvəzin artıqlaması ilə ödəyər. Vay o günə ki, pis günə düşən əhali arxalandığı şahından bir mərhəmət görməyə. Əsl fəlakət də onda başlar.

## PEYĞƏMBƏRİN CAVABI

Ulu Peyğəmbərimiz öz zəkası, əxlaqı, mənəviyyatı ilə həmişə ətrafındakı insanlara nümunə olmuş, onları haqq yoluna, doğru yola səsləmişdi.

Bir dəfə ramazan ayında Peyğəmbər aşiqlərindən biri ona bir layiqli qurban hədiyyə gətirmişdi. Peyğəmbərin əsabələri də bu vaxt onun ətrafında idi. Onun hikmət dünyasından zərrələr öyrənirdilər. Elə həmin an belə işlərdən başı çıxan əsabələrdən birinə Peyğəmbər göstəriş verdi ki, o heyvanı kəsib doğrasın, paylara bölsün. Həmin şəxs belə də etdi. Peyğəmbərin göstərişi ilə qurban payları Peyğəmbərin

dediyi evlərə paylandı. Axıra təkcə heyvanın bir budu qalmışdı. Vəziyyəti belə görən əsabələrdən biri narazı halda dilləndi:

– O köklükdə heyvandan bizə qalan elə bu bir bud oldu?

Ulu Peyğəmbər ona belə bir ibrətamiz cavab verdi:

– Xeyir, bizə qalan elə o payladıqlarımız olacaq.

Bu cavabdan qızaran əsabə utandığından başın sinəsinə salladı.

**ELDAR BAXIŞIN CAVABI**

Azərbaycan ədəbiyyatında öz dəstxət, yaradıcılıq yolu olan sənətkarlardan biri də Eldar Baxışdır. O, hər şeydən əvvəl vətəninə, el-obaya bağlı insan olmuşdu. O, qanlı-qadalı illərdə daşnak törəməsi Zori Balayanın «Ocaq» kitabına daha kəskin, daha sərt cavab yazanlardan biri Eldar Baxış olmuşdu. Əlyazması şəklində olan o yazını o dövrdə qorxudan heç bir nəşriyyat çap etmək istəməmişdi. Ancaq makinada çıxan nüsxələr vətənimizin bir çox yerlərinə çatdırılmışdı. Buna görə Eldar Baxış milli ədavəti qızışdırmaqda ittiham olunmuş, haqqında cinayət işi açılmışdı. Lakin bütün bunlara baxmayaraq, Eldar baxış öz ideallarından heç vaxt geri çəkilməmişdi.

Bir dəfə də Ayaz Mütəllibovun vaxtında qəzetlərin birində «Prezident Ayaz Mütəllibova məktub» şeiri dərc edilmişdi. Yaltaqlardan biri o qəzeti A.Mütəllibova çatdırmışdı. Eldar Baxış xatirələrində yazırdı: «Aradan bir müddət keçmişdi. Çox narahat idim. Bu vaxt Abbas Abdulla mənə zəng elədi. Dedi ki, prezidentin qəbuluna getmişdik. Sənin şeirin dərc olunan qəzet Ayaz Mütəllibovun stolunun üstündə idi. Aradan bir az keçəndən sonra prezident aparatından bir cavan oğlan mənə zəng elədi.

– O cür şeirin üstündə bilirsən adama neylərlər?! Adamın dərisini soyarlar! Barmağını sındırarlar! Başını kəsərlər!»

Oğlan bunları deyəndən sonra gördü ki, dinmirəm, soruşdu:

– Niyə dinmirsən?

Dedim:

– Dəri məsələsi, barmaq məsələsi öz yerində. Amma o baş məsələsində səninlə razıyam. Bu baş təkcə sizin başınıza bəla deyil, elə mənim də başıma bəladı. Bu baş bu gen dünyanı mənim başıma dar eləyib.

Oğlan mənim bu sözlərimdən tamam çaşıb soruşdu:

– İndi neyləyim, deyirsən?

Dedim:

– Kəs başımı, kəs! Amma bir iş var...

Oğlan yenə soruşdu:

– Nə iş?

Dedim:

– Mənim özüm başımı gətirim kəsəsən, yoxsa sən özün gəlirsən?

Hiss etdim ki, bu sözlərdən çaş-baş qalan oğlan tez dəstəyi telefonun üstünə qoydu. Daha cavab gəlmədi.

## BUZƏRCÜMEHRİN CAVABI

İran padşahı Ənuşirəvanın nədimi, görkəmli düha Buzərcümehrdən soruşdular:

– O hansı sərvətdir ki, adamlar onun qədrini bilmir?

O dedi:

– Təvazökarlıq.

– Nə üçün dost asanlıqla düşmən ola bilir, amma düşmənin dost olması çətindir?

– Çünki evi yıxmaq tikməkdən asandır. Qabı sındırmaq yamamaqdan qolaydır, pulu xərcləmək qazanmaqdan asandır.

Buzərcümehr deyərdi:

– Çiçək baharda, meyvə payızda yaxşıdır. Qızın gözəlliyi, oğlanın cəsarəti və insanın təvazökarlığı isə həmişə lazımdır.

Buzərcümehrin arvadı bir gün ona nə sual verdisə, əri cavab verə bilmədi. Arvad dedi:

– Sən padşahın nədimisən, hələ bunun üçün maaş da alırsan. Amma mənim suallarıma cavab verə bilmirsən?

O dedi:

– Mən bildiklərim üçün maaş alıram, bilmədiklərim üçün yox. Əgər bilmədiklərim üçün maaş versəydilər, padşahın xəzinəsində pul qalmazdı.

## ƏBÜLÜLA MÜƏRRİ

Böyük ərəb alimi Əbülülanın yanında təhsil alan azərbaycanlı alim Xətib Təbrizi bir dəfə dərs zamanı mədrəsə həyətində iki nəfər müsafirin durduğunu görür. Əbülüla ondan soruşur:

– Onlar kimdir?

– Həmyerlilərimdir. Məni görməyə gəliblər.

– Elə isə get görüş.

Xətib cavabında:

– Sizin verdiyiniz elm mənim üçün onlardan qiymətlidir. Onları sonra görərəm.

Ancaq Əbülüla onu təkidlə müsafirlərin yanına göndərir.

Qayıdıb gələrkən Əbülüla soruşur:

– Sən onlarla hansı dildə danışırdın?

– Azərbaycan dilində.

– Azərbaycancanı mən bilmirəm. Lakin danışdığınız sözlərin hamısın təkrar edə bilərəm! – deyə Əbülüla eşitdiklərin eyni ilə təkrar edir.

## ƏNUŞİRƏVAN

Qədim İran şahlarından Ənuşirəvana deyəndə ki:

– Gözün aydın, filan düşmənin öldü!

Ənuşirəvan belə cavab vermişdi:

– «Gözün aydın» sən ölməyəcəksən xəbəri deyildir.

Ənuşirəvan əmr vermişdi ki, heç kim onun yediyi xörəklərdən yeməməlidir.

Bu əmrdən sonra əyanlardan biri Ənuşirəvanın çox istifadə etdiyi xörəklərdən birin bişirtdirmiş, yaxın bildiyi başqa

bir əyanı da qonaq çağırmış, birlikdə yemişlər. Sonra həmin əyan şahın hüzuruna getmiş, bu xəbəri ona çatdırmışdı.

Ənuşirəvan xəbərçiyə demişdi:

– Sənin bizə olan sədaqətini qiymətləndiririk, həmin adamın bizim sözümüzdən çıxmasını pisləyirik. Həmin adamı bir də ona görə pisləyirik ki, o, sirr saxlaya bilmir və açıb sənin kimi adama deyir.

## HƏSƏNBƏY ZƏRDABİ DÜNYASINDAN

Həsənbəy Zərdabi bir gün «Füyüzat» jurnalına baxarkən onun ərəb və fars sözləri ilə dolu olduğunu görür. Redaktor Əlibəy Hüseynzadəyə deyir:

– Bunları kimin üçün yazırsınız?

– Camaat üçün!

Həsənbəy gülümsəyərək ona deyir:

– Elə isə camaatın dilində yazın ki, başa düşsünlər.

## EYNŞTEYNİN CAVABI

Eynşteynin yanında mətbuat konfransı təşkil edilmişdi. Bu hadisədən bir az qabaq Bikini adlı bir yerdə atom bombası sınaqdan keçirilmiş və uzaq bir adanın əhalisi ondan zərər görmüşdü. Bu məsələ ilə əlaqədar etirazlara cavab olaraq ABŞ atom komissiyasının sədri demişdir:

– Narahat olmağına dəyməz, zərər görənlərə on donuz verib, münaqişəni həll etmişlər.

Bu məsələ barədə Eynşteynin fikrini soruşduqda Eynşteyn demişdir:

– Bunu on birinci donuzdan soruşun.

## ZƏRDÜŞT DÜNYASINDAN

Eramızdan təxminən səkkiz əsr qabaq yaşamış Azərbaycanın böyük simalarından olan Zərdüşt «Avesta» (qanun)

adlı kitabı ilə şöhrət tapmışdır. O, «Avesta»da yazmışdır: «Torpağın üzərində zəhmət çəkməyənə torpaq deyir: «Mənim üstümdə sağ və sol əlinlə işləmədiyin üçün ömrü boyu dilənçilərlə birlikdə başqalarının qapısında duracaq, başqalarının tör-töküntüsü ilə dolanacaqsan».

O da qeyd edilməlidir ki, «Avesta» həm də atəşpərəstliyin dini kitabı, qanun kitabı sayılır.

## ZÜLALİ ŞAİRİMİZDƏN

Azərbaycanın bir çox söz sərraflarının vətəni olmuş Şamaxı şəhərində doğulub boya-başa çatan Zülali adlı şairimiz uzun müddət qürbətdə yaşadıqdan sonra vətənə qayıtmış və 1705-ci ildə İran hökmdarı Nadir şahın Şamaxını yandırıb, əhalini Ağsu çayı ətrafına köçürdərək burada yeni şəhər saldırdığını görmüşdür. Zülali bu münasibətlə yazmışdır:

*Qürbətdə deyərdin ki, Zülali, vətənim var!*
*Yensin gözünə qarə su, Ağsu vətən oldu!*

## ALİMİN TUTARLI CAVABI

Məşhur ərəb alimi İbnəlcövza Əbülfərəc moizə zamanı demişdi:

– Dünyada hər söz söyləyən öz ifadəsi ilə mənə fərəh verir və sevinc gətirir.

Dinləyicilərdən biri yerindən:

– Ya şeyx, natiq eşşək olarsa, ona nə deyərdiniz? – deyə soruşduqda Əbülfərəc belə cavab vermişdir:

– Sus, eşşək, – deyərdim.

## ƏBÜLHƏSƏN RUMİDƏN

Ərəb şairi Əbülhəsən Rumi həcvləri ilə məşhur idi. O, ölkənin hakimini həcv etdiyinə görə saraya çağırılmış və xörəyə zəhər qatıb ona verilmişdi. Şair zəhərin təsirini hiss edincə

tez çarəsini tapmaq üçün durub getməyə hazırlaşmışdı. Bunu görən hakim demişdi:

– Hara gedirsən?

Şair cavabında:

– Göndərdiyin yerə–deyə cavab vermişdi.

– Elə isə mənim atama da salam söylə!

– Cəhənnəmə getmirəm ki, atanı görüb salam deyəm! – deyə Əbülhəsən Rumi cavab vermişdir.

## GÖZÜN QORASINI TÖKMƏK

Bu deyim ta qədimlərdən bu günə qədər xalq danışıq dilində geniş işlənmişdir, bu gün də işlənir. Biri müəyyən qəmli hadisə ilə bağlı çox ağlayanda görərsən ki, bir nəfər deyir: «Ta bəsdi, azca gözünün qorasın tök, olacağa çarə yoxdu».

Bəs «Gözünün qorasın tökmək» ifadəsi necə başa düşülməlidir? Ağlamağın qora sözü ilə nə əlaqəsi vardır?

Məlumdur ki, «qora» sözü əsasən üzümçülükdə işlənir. Üzümçülükdə çiçəkdən sonra əmələ gələn kal gilələr qora adlanır. Qoranın suyu acı tamda olur. Ancaq xalq təbabətində müalicəvi əhəmiyyətinə görə geniş işlənir. Tərkibinə və dadına görə də insanın göz yaşına bənzəyir. Hətta sənaye üsulu ilə emal edilən «Abqora», yəni qoranın suyu bu gün də təbabətdə geniş istifadə edilir. «Qora suyu» ilə göz yaşı arasında olan bu oxşar cəhətlərə görə deyilir: «Gözünün qorasın azca tök».

Həm də ədəbiyyatımızda qara üzüm giləsi insan gözünün giləsinə bənzədilmişdi. Görkəmli şairimiz Ağacavad Əlizadə qəzəlxan şairimiz, böyük söz ustadı Əlağa Vahidin vəfatı ilə bağlı yazdığı məşhur şeirin bir bəndində deyilir:

*Yağdı söz bağıma, yağdı xəzəllər,*
*Ağladı bayramlı, toylu qəzəllər.*
*Şanı gözlərini sıxdı gözəllər,*
*Lalə yanaqlarda qorası qaldı.*

## İSGƏNDƏRİN VƏSİYYƏTİ

İsgəndər ölümünün yaxınlaşdığını hiss edərək demişdir:

– Anama yazın ki, böyük süfrə açıb, insanlara doyunca yemək versin. Ancaq yaxın adamları ölməmiş şəxsləri bu süfrəyə çağırmasın.

Bu vəsiyyətin səbəbini soruşduqda o, belə cavab vermişdir:

– Anam belə edərsə, görər ki, əzizi ölməmiş adam yoxdur. Ölmək çarəsizdir. Buna görə də təskinlik tapıb, az qüssə edər.

## MEHDİ ƏBBASİ

Misir Əbbasi xəlifələrindən Mehdi bir gün səyahət etdiyi zaman öz adamlarından uzaqlaşıb, bir kəndli ərəbin evinə gəlmişdi. Xəlifə ərəbdən su alıb, içmiş və demişdi:

– Ərəb qardaş, bilirsən mən kiməm?

– Yox.

– Mən xəlifənin yaxın adamlarındanam, – deyib yenə su istəmişdi. Bir az sonra isə ərəbə demişdi:

– Mən xəlifə Mehdi Əbbasiyəm! – dedikdə kəndli su bardağını onun əlindən alıb:

– Bir az da keçsə, deyəcəksən ki, mən Allaham! – deyib onu qovmuşdu.

## MİRZƏ CƏLİL DÜNYASINDAN

Mirzə Cəlil az danışan, sakit, çox düşünən və başqalarını dinləməyi bacaran bir adam idi. 1920-ci ilin sentyabrında Mirzə Cəlil qadını Həmidə xanımla birlikdə ilk dəfə faytonla Təbrizə daxil olurlar. Orada polis nəfəri onu dayandırmış və demişdi:

– Burada qadın ilə kişinin birlikdə faytona minməsi qadağandır. Düş yerə!

– Bu, mənim öz qadınımdır, – deyə Mirzə Cəlil etiraz etmişdir.

– Fərqi yoxdu, olmaz!

– Düşüm, bəs bu qədər yolu şəhərə piyada necə gedim?

– Piyada getmə, min mənim atıma
– Bəs sən?
– Mən faytonçunun yanında oturaram.
– Elə isə faytonçunun yanında mən özüm oturaram! – deyə Mirzə Cəlil faytonçunun yanında oturmuş və şəhərə daxil olmuşdu.

## M.S.ORDUBADİNİN CAVABI

Qüdrətli qələm sahibi, böyük ədib M.S.Ordubadi 1907-ci ildə yazdığı «Doğulmuş inqilab» adlı əsərini çap etdirmək üçün çap senzoruna müraciət edir. Mirzə Şərif adlı senzor əsəri alıb baxır, əsərin canlı və kəskin yerlərini pozub qaytarır. 1920-ci ildə Ordubadi «Əxbar» qəzetində çalışdığı zaman həmin Mirzə Şərif onun yanına gəlir. «Hindistan müsəlmanları» adlı cəfəngiyyatdan ibarət əsərini çap etdirmək üçün Ordubadiyə müraciət edir. Ordubadi bir qəzet parçasını mürəkkəblə batırıb, Mirzə Şərifin əsərinin səhifələrini qaralamağa başlayır.

– Yoldaş, nə edirsən? – deyə Mirzə Şərif heyrətlə qışqırdıqda Ordubadi:

– Cənab senzor, əsərinizi təshih edirəm, etdiklərinizin əvəzin yerinə yetirirəm.

## PİFAQOR

Qədim yunan riyaziyyatçısı və filosofu Pifaqor dövrünün, eləcə də sonrakı zamanların görkəmli şəxsiyyətlərindən biri olmuşdu. O, həm də olimpiya yarışlarında yumruq döyüşündə qalib çıxmışdı. Onun adıyla bağlı olan «Pifaqor qanunu» fizika sahəsində bu gün də işlənir. Bir dəfə elm aşiqləri ilə söhbət əsnasında orda olanlardan biri bu elm dahisinə belə bir sual verdi:

– Səbəb nədir ki, alimlər varlıların yanına gedib görüşürlər, lakin varlılar alimlərin yanına getmir və onların söhbətləri ilə maraqlanmırlar?

Pifaqor dedi:

– Çünki alimlər sərvətin qədrin bilirlər, varlılar isə elmin qiymətini anlamırlar.

## ƏHMƏD RƏVƏNDİ HƏYATINDAN

Məşhur ərəb alimi Əhməd Rəvəndi öz zəkası ilə dövründə yüksəkdə dayanan insanlardan olmuşdu. Həmişə müsəlman dünyasını cəhalətdə saxlayan mövhumata qarşı kəskin mübarizə aparmışdı. Ona görə də hakim təbəqənin adamları onu bir alim kimi qəbul etməmiş, «kafir» adlandırmışlar.

Əhməd Rəvəndi bir dəfə uzaq səfərə çöllük bir yerdən piyada gedərkən bərk yorulduğunu hiss eləmiş, üzünü və əllərini göy üzünə tutaraq yalvarmışdı.

– Allahım, daha yeriyə bilmirəm. Mənə bir at yetir, ayaqlarımı yerdən götürsün!

Elə bu vaxt xəlifə məmurlarından birisi yanı dayçalı at ilə ona rast gəlmiş və demişdi:

Dayça təzə doğulub, yol gedə bilmir. Onu götür çiyninə, – deyə Rəvəndini məcbur etmişdi ki, dayçanı çiynində aparsın. Alim bunu görüb yenə göy səmtinə üz tutdu:

– Böyük Allahım, mən səndən at istədim ki, özüm minəm. Daha demədim ki, at göndər, məni minsin!

## SƏDİ ŞİRAZİ DÜNYASINDAN

Sədi Şirazi buyurmuşdur:

– Padşahın bağışladığı paltar nə qədər gözəl olsa da, kişinin bez parçadan tikilmiş paltarından yaxşı ola bilməz. Varlı süfrəsinin xörəyi nə qədər ləzzətli olsursa-olsun, insanın öz süfrəsindəki yavan çörəyin dadını verə bilməz.

* * *

Sədi Şirazi xaç yürüşçülərinin əlində əsir olan zaman düşmən zabitlərdən biri ona demişdi:

– Biz namus üçün vuruşuruq, siz isə qızıl üçün.

Cavabında Sədi demişdir:

– Sözləriniz tamamilə doğrudur. Hər kəsin nəyi yoxdursa, onu ələ keçirmək üçün vuruşur.

## BƏYAZİDİN CAVABI

Teymurləng 1402-ci ildə Ankara yaxınlığında gedən müharibədə osmanlı ordusunu məğlub etmiş və Türkiyə sultanı İldırım Bəyazidi əsir etmişdi. Teymur topal, Bəyazid isə gözdən çox zəif idi. Teymur işrət məclisi qurub, Bəyazidi də qəfəs içində ora gətirmişdi. Əmir Teymur əyanlar ilə kef məclisində iştirak etdiyi zaman qəfəsdə oturan Sultanın qəmgin olduğunu görüb deyir:

– Sultan əfəndim, belə qəmgin oturub nə düşünürsünüz?

Bəyazid:

– Düşündüyüm odur ki, görəsən bu dünyanı bir colaq ilə bir koramı tapşırıblar, – deyə cavab verir.

## MÜƏLLİMİN CƏZASI DA XEYİRLİDİR

Orta Asiyada qüdrətli dövlət yaratmış Samanilər sülaləsinin qüdrətli nümayəndələrindən biri də Səmərqənd hakimi Əhməd Samani olmuşdur. Əhməd Samani uşaq vaxtı bir tələbkeş müəllimdən dərs alırdı. Dərsdə tənbəllik etdiyinə görə müəllimi tərəfindən döyülürdü. Buna görə onun ürəyində hələ uşaqlıqdan müəllimə qarşı ədavət hissi törənmişdi. İllər ötdü, bu uşaq–Əhməd Samani Səmərqəndin hakimi oldu. Bir gün həmin müəllim yadına düşdü. Nökərlərindən iki nəfəri yanına çağırdı. Birinə dedi ki, get bağdan şiv heyva çubuğu qır gətir. O birinə də müəllimini öz hüzuruna gətirməyi tapşırdı. Müəllimi gedib tapan nökər hakimin əmrini bildirdi. Müəllim dedi:

– O, sizə nə tapşırdı?

– Nökərin bizim bağdan heyva çubuqları qırmağa yolladı, məni də səni saraya aparmağa.

Müəllim tez bir ətirli, iri heyva tapdı. Xəlvəti cibinə qoyub, nökərlə hakimin qəbuluna getdi.

Hakim müəllimi görən kimi heyva çubuqlarını müəllimə göstərib dedi:

– Yəqin, bu heyva çubuqları sənə tanış gəlir. Çubuqları tanıyırsan?

Müəllim ətəyinin altından heyvanı çıxarıb demişdi:

– Tanıyıram, tanıyıram...

O çubuğa yaxşı baxılarsa və zəhmətinə qatlaşan olarsa belə ləzzətli meyvələr yetirər!...

Bu sözləri eşidən hakim səhvini anladı, müəllimini bağrına basdı, əllərindən öpdü. Ona qiymətli hədiyyələr verdi və dedi: Atalarımız gözəl deyib: «Ağladan ustadın yanına get, güldürənin yox».

## SOKRAT UCALIĞI

Görkəmli yunan filosofu Sokrat haqda ölüm hökmü çıxarılmışdı. Həm də hökmdə göstərilmişdi ki, o, zalda, insanlar qarşısında bir kasa zəhər içib, özün həlak etməlidir. Bu hökmü Sokrat çox soyuqqanlıqla qarşılamışdır. Zəhər dolu piyaləni əlinə alıb, ağzına yaxınlaşdırdıqda arvadı haray qoparmışdı: «Mənim ərimin heç bir günahı yoxdur. Günahsız olduğu halda öldürmək istəyirlər». Bu harayı eşidən Sokrat ona belə demişdi:

– Yoxsa, sən istəyirdin, ərini müqəssir kimi məhv eləsinlər?

Bununla arvadına təskinlik vermək istəmişdi.

## HƏR KƏSİ ÖZÜNƏ GÖRƏ

Sokrat bir nəfər varlı şəxslə yola çıxmışdı. Yolda onların qarşısına çıxan yolçular yolun xatalı olduğunu, qabaqda quldurların yolkəsənlik etdiyini onlara bildirdilər.

Bunu eşidən varlı insan qorxa-qorxa dedi:

– Quldurlar məni tanısalar, vay mənim halıma!

Sokrat da dedi:

– Quldurlar məni tanımasalar, vay mənim halıma!

## XANƏNDƏNİN CAVABI

Teymur Hindistan səfərində çaldığı qələbəyə görə Dehli şəhərində şənlik məclisi düzəltmişdi. Kefi yaxşı idi. Üzünü xidmətçilərə tutaraq dedi:

– Eşitmişəm bu şəhərdə yaxşı oxuyan sənətkarlar var. Onlardan ən ləyaqətlilərini tapıb bu məclisə gətirin, bizi feyziyab etsinlər!

Soraqlaşıb Dehlinin ən məşhur xanəndəsi olan kor xanəndəni Teymurun məclisinə gətirmişlər. Xanəndənin səsi, avazı, zəngulələri Teymurun çox xoşuna gəlmişdi. Ona görə də xanəndədən addını soruşdu.

O, cavab verdi:

– Dövlətdir.

– Dövlət də kor olarmı? – deyə Teymur soruşduqda xanəndə:

– Dövlət kor olmasaydı, gəlib Teymurun hüzuruna çıxmazdı, – deyə cavab vermişdi.

## NƏDİMİN CAVABI

Teymurləng çox çirkin olduğuna görə heç vaxt güzgüyə baxmazdı. O, bir dəfə təsadüfən aynada öz əksini görüb, çox pərişan olmuşdu. Bunu görüb hiss edən nədimi Əmirdən soruşmuşdu:

– Böyük Əmir, birdən-birə əhvalınız nə üçün pərişan oldu?

Cavabında Əmir Teymur demişdir:

– Allah bu qədər dövlət və hökmranlığı mənə vermiş, ancaq bir gözəlliyi məndən əsirgəmişdi. Yəqin ki, insanlar mənə baxanda nifrət edirlər. Hələ özüm də özümdən diksinirəm.

Bu sözləri eşidən nədim:

– Özünüzə bir kərə baxıb pərişan olursunuz. Mən isə sizə hər gün baxmağa məcburam, – deyə cavab vermişdi.

## L.N.TOLSTOYUN CAVABI

Dünya ədəbiyyatında tanınan böyük yazıçı L.N.Tolstoy «Müharibələrin bəhanələri» adlı komediya yazmışdı. Əsər səhnədə oynanılırdı. Bu zaman müəllif özü də teatrda imiş, tamaşaçı kimi zalda əyləşmişdi. Bu əsərin tamaşası böyük uğur qazanmışdı. Bu gün də tamaşa alqışlarla qarşılandı. Tamaşaçılar bir ağızdan: «Müəllif» – deyə səslənməyə başladılar. Tolstoyu səhnəyə çağırdılar. Tolstoyun yanında oturan tamaşaçılardan biri Tolstoya dedi:

– Səhnəyə çıxın, təzim edin, xalq sizi alqışlayır.

Tolstoy bu sözləri deyən şəxsi təpədən-dırnağa süzərək deyir:

– Siz nə danışırsınız? Mənim əlimdən nə xəta baş vermişdi ki, çıxım təzim edim?

## FİRDOVSİNİN CAVABI

Fars ədəbiyyatının böyük nümayəndələrindən olan Ə.Firdovsi «Şahnamə» əsərini yazarkən bir kəlmə də olsun ərəb sözü işlətməyəcəyinə söz vermişdi. Lakin əsər yazıldıqdan sonra orada Rüstəm Zalın rəşadətinə «fələk əhsən dedi, mələk mərhəba» misralarını görənlər:

– «Əhsən» də, «mərhəba» da ərəb kəlmələridir, – deyə etiraz etmişdilər. Firdovsi bu etiraza cavab olaraq demişdir:

– Onu mən deməmişəm, mələk ilə fələk demişdir. Bununla da özünə bəraət qazandırmışdır.

## XACƏ BAHƏDDİN

Bir nəfər kəndli İsfahanda Xacə Bahəddin Sahib-Divanın qapısına gəlib, qapıçıya dedi:

– Xacəyə xəbər ver ki, xuda (Allah) gəlib səni görmək istəyir.

Qapıçı onun sifarişini xacəyə çatdırdıqda o, təəccüb etmiş və kəndlini yanına çağırtdırmışdı. Ona demişdi:

– Sən Allahsan?

– Bəli!

– Hansı dəlillə?

– Dəlil budur ki, mən həm kəndxuda, həm bağxuda, həm də xanəxuda idim. Sənin məmurların kəndi, bağı və xanəni (evi) əlimdən alıblar. Məndə ancaq xudalıq qalıbdır.

## ŞEYX MƏHƏMMƏD XİYABANİ

Ş.M.Xiyabani 1917–1920-ci illərdə Cənubi Azərbaycanda milli azadlıq hərəkatına başçılıq etmiş, azad Azərbaycan uğrunda aparılan qanlı hadisələrdə ağır yaralanmış, bu fani dünya ilə vidalaşarkən görkəmli türk şairi Namiq Kamalın aşağıda verilən beytini oxuyub ölmüşdür:

Ölərsəm görmədən millətdə ümid etdiyim feyzi,
Yazılsın səngi qəbrimdə: vətən məhzun, mən məhzun.

Bu görkəmli vətən fədaisinin aşağıdakı sözləri indi də zərbi-məsəl kimi işlənir.

1. Din, məzhəb, tayfa və milliyət siyasi əqidə qarşısında təsir və nüfuz göstərə bilməz. Məslək vəhdəti məhəbbət və birlik doğurar.

2. Biz öz əsrimizə ağ ola bilmərik. Əsrin tələb etdiyi rejim bu ölkədə qurulmalıdır.

3. Ey Azərbaycan! Heç vaxt yorğunluğa və yasa qapılmamalısan! Heç vaxt!

Ey Azərbaycan! Ey bu əyalətin demokratik qüvvəsi! Sən keçmişdə vətənin dayağı olmusan, gələcəkdə də elə olmalısan!

4. Ey mənim xalqım! Bu gün sizin qoyduğunuz papaq–dünən atalarımızın qoyduğu papaq deyildir! Gələcəyi nəzərə almalısınız! Övladlarınızı o zaman üçün tərbiyə etməlisiniz.

## GÜNAHKARIN CAVABI

Harun ər Rəşidin xəlifə olduğu zaman idi. Oğurluq, quldurluq, məmurların özbaşınalığı baş alıb gedirdi. Asayiş

işçiləri bir nəfəri tutub Harun ər Rəşidin hüzuruna gətirdilər. Xəlifəyə dedilər:

– Bu adam hər yerdə şayiə yayır ki, xəlifə ölüb.

Xəlifə bu hərəkətinin səbəbini o adamdan soruşur.

O şəxs xəlifəyə belə cavab verir:

– Ya xəlifə, ona görə belə demişəm ki, sənin məmurların imkan düşən kimi xalqı soyub talayır. Ölkədə ədalətsizlik baş alıb gedir. Fikirləşdim ki, yəqin sən ölmüsən. Ona görə də məmurlar sağdan sola, soldan sağa at oynadırlar. Yoxsa, bu məmurlar əhalini soymağa cəsarət etməzdilər.

**ƏBDÜRRƏHMAN CAMİ**

Fars-tacik ədəbiyyatının böyük simalarından olan Ə.Cami dahi N.Gəncəvinin «Xəmsə»sinə nəzirə yazanlardan biri olmuşdu. Dini xürafatın, fırıldaqçı ruhanilərin əleyhdarı olmuşdu. Bir dəfə geniş bir yığıncaqda iştirak edirmiş. Bir nəfər ağzı köpüklənə-köpüklənə şəhərin məşhur ruhanisi Şeyx Hüseyn haqda tərifli sözlər deyirmiş. Axırda da qeyd elədi ki, Şeyx Hüseyn bu gün də əmmaməsini bir kafirin başına qoydu, onu müsəlman elədi. Bunu eşidən Cami dedi:

– Şeyx o əmmaməni altmış ildir başına qoyur, müsəlman olmur. İndi o əmmaməni kafirin başına bir kərə qoymaqla kafir dönüb müsəlman olacaq?

**ŞEİRİN ALLAHI**

Şair Abdulla Hatifi bir gün öz dayısı Əbdürrəhman Caminin yanına gəlib dedi:

– İstəyirəm Nizami Gəncəviyə bir nəzirə yazam. Fikriniz necədir?

– Sən əvvəlcə Ə.Firdovsiyə nəzirə yazmağı bacar, sonra Nizamiyə nəzirə yazmaq fikrinə düş! – deyə Cami cavab vermişdir. Hatifi bu cavaba təəccüb etmişdir. Cami onun təəccübünü görüncə farsa bu beyti oxumuşdur:

*Şeir aləmində olubdur üç peyğəmbər*
*Firdovsi, Sədi, bir də Ənvəri.*

Hatifi şeiri dinləyib dedi:
– Burda Nizaminin adı çəkilmir.
Cami cavab verdi:
Biz şeirin peyğəmbərləri haqda danışırıq. Nizami isə şeirin Allahıdır.

**ŞİLLER DÜNYASINDAN**

Görkəmli alman şairi, mütəfəkkiri Şiller deyərdi:
1. Əgər özünü öyrənmək istəyirsənsə başqalarına, onların əməllərinə bax. Başqalarını öyrənmək istəyirsənsə, öz ürəyinə bax.
2. Heç bir şeydən qorxmayan hamının qorxduğu adamdan daha qüdrətlidir.

**CÜHANIN CAVABI**

Cühanın dostlarından biri ona qonaq gəlmişdi. Darvazadan içəri girən kimi başlayıb atı şallaqlamağa. Vurduqcan da deyirmiş:
– Ay yaramaz, un yükləyirəm gətirmirsən, yağ yükləyirəm gətirmirsən. Dostların yanında məni xəcalətli, utancaqlı qoyursan.
Bunu eşidən Cüha pəncərədən başın çıxarıb deyir:
– Narahat olma. Burada xəcalət çəkməyə səbəb yoxdur. Kənddə yüklənib bura bir şey gətirmədiyi kimi, burada da yüklənib, kəndə bir şey aparmaz. Bununla da əvəzi çıxar.

**ORUCOV QARDAŞLARI**

Azərbaycanda ilk milli mətbuatın əsası 1875-ci ildə H.B.Zərdabi tərəfindən qoyulmuş, «Əkinçi» qəzeti işıq üzü

görmüşdür. Sonralar isə Ünsizadə qardaşları Tiflisdə «Ziya», «Zoyayi Qafqaziyyə», «Kəşkül» qəzetlərinin nəşrinə nail oldular.

1906-cı ildə Mirzə Cəlil, Ömər Faiq Nemanzadə, naxçıvanlı tacir Bağırzadə «Şərqi-rus» qəzetinin mətbəəsini M.Şaxtaxtinskidən satın alaraq, ona «Qeyrət» mətbəəsi adın verdilər. Sonralar məşhur «Molla Nəsrəddin» jurnalı da bu mətbəədə nəşr olunmağa başladı.

XX əsrin əvvəllərində Azərbaycanda ən böyük və məşhur nəşriyyat Orucov qardaşlarının nəşriyyat-mətbəəsi oldu. Oruc, Qənbər və Abuzər Orucov qardaşları Bərdənin Alpout kəndində doğulmuş, Tiflisdə, Gəncədə və Rusiyada yüksək təhsil almışdılar. Rus, ərəb və fars dillərini mükəmməl bilmələri onların sonralar jurnalist, tənqidçi, tərcüməçi və redaktor kimi işləmələrinə imkan vermişdi.

Ata-babalarından qalma mülkü və əmlakı satmaqla əldə etdikləri vəsait hesabına Almaniyadan yeni çap ləvazimatı və mətbəə avadanlığı alaraq Bakıya gətirmişdilər. Ö dövr üçün Bakıda güclü mətbəə və nəşriyyat qurmuşdular. Bu, Bakıda elektrik enerjisi ilə işləyən ilk mətbəə idi. Mətbəə Z.Tağıyevin açdırdığı və himayə etdiyi Qız məktəbinin binasında yerləşirdi. Yer kirayəsi kimi hər il Orucov qardaşları məktəbi bitirən məzunlara nəfis şəkildə nəşr edilən «Qurani-Kərim» kitabı hədiyyə edirdilər.

Beləliklə, Orucov qardaşları nəşriyyat biznesinin əsasını müasir səviyyədə qurmuş iş adamları idilər. Onlar bir çox qəzet və jurnalların naşiri kimi çıxış edirdilər.

Orucov qardaşları Azərbaycan tarixində ilk dəfə olaraq müəlliflərə qonarar verməyə başladılar. Məsələn, böyük şairimiz Sabirə hər gün yazdığı taziyanələr üçün ayda on manat verirdilər. Orucov qardaşları tərcümə etdikləri bir çox görkəmli yazarların əsərlərini oxuculara təqdim edirdilər.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyəti yaranarkən qardaşlar könüllü olaraq öz mətbəələrini müstəqil dövlətin ixtiyarına vermişdilər. 1920-ci ildə hakimiyyətə gələn bolşevik rejimi isə bu nəşriyyatı, mətbəəni «milliləşdirmə» adı ilə onların əlindən aldı.

Bundan sonra Orucov qardaşları təqiblərə məruz qaldı. Məcburən doğma kəndlərinə qayıtdılar. Burada da onlar rahat buraxılmadı. Qənbər və Abuzər 30-cu illərdə dünyaların dəyişdilər. Böyük qardaş Oruc isə 1954-cü ildə Bərdədə vəfat etdi.

### DƏRVİŞİN CAVABI

Günlərin birində bir nəfər qərib müsafir yad bir ölkəyə gəlmişdi. Karvan yolu ilə şəhərə getmək istəyirdi. Bir qədər getmişdi, yol üstdə oturub dincələn dərvişə rast gəldi. Dərvişə salam verdi və soruşdu:

– Mən heç vaxt bu şəhərdə olmamışam. Burada necə adamlar yaşayırlar?

Dərviş onun sualına cavab verdi:

– Bəs sənin gəldiyin şəhərdə necə adamlar yaşayırdı?

– Onlar bədxasiyyət və xüdbin adamlar idilər. Əslində mən elə buna görə oranı tərk elədim.

– Bu şəhərdə də eynən elə adamlar yaşayırlar.

Bu sözləri eşidən qərib bir qədər fikirləşib, geri döndü. Az sonra həmin dərvişə başqa bir qərib yanaşıb eyni sualı verdi. Dərviş bu qərib insandan da yaşadığı şəhərin sakinlərinin necə insan olduqlarını soruşdu.

Bu qərib, gənc insan cavab verdi:

– Onlar olduqca mərhəmətli, xeyirxah, qonaqpərvər adamlar idi. Orada mənim çoxlu dostlarım qalıb. Onlardan ayrılmaq mənim üçün çox ağır oldu.

– Darıxma, oğlum, sən bu şəhərdə də yaxşı adamlarla rastlaşacaqsan, özünə sədaqətli dostlar tapacaqsan.

Oğlan dərvişə təşəkkür edib, yoluna davam etdi.

Yaxınlıqda bir sarvan dəvələrini suvarırdı. Hər iki söhbəti eşidən sarvan dərvişə yaxınlaşıb soruşdu.

– Sən niyə iki adamın eyni sualına tamamilə müxtəlif, bir-birinə əks cavablar verdin?

Dərviş gülümsəyərək dedi:

– Oğlum, hər bir kəs öz dünyasını öz qəlbində daşıyır. Gəldiyi yerdə yaxşı heç nə tapmayan adam burada da tap-

mayacaqdır. Əvvəl yaşadığı yerdə çoxlu dostları olan isə burada da özünə sədaqətli dostlar tapacaq. Hər bir kəs ətrafını görmək istədiyi kimi və görə bildiyi kimi görür.

**ATANIN DƏRSİ**

Hər şeydən gileylənən, şikayət edən bədbin xarakterli bir qız vardı. Həmişə həyatın dözülməz olduğunu düşünürdü. Bir problemi qurtarmamış digəri ilə rastlaşır, hər dəfə də bədbinliyə qapılırdı. Bəzən hətta ətrafındakılara qarşı kobudluq edirdi. Atası qızının bu vəziyyətini görüb qızına yaxşı bir dərs verməyi qərara aldı.

Qızın atası aşpaz idi. Bir gün qızını mətbəxə apardı. Üç qabı su ilə doldurub sobanın üstünə qoydu. Sobanın altın yandırdı. Su qaynamağa başlayanda qabın birinə yerkökü, birinə yumurta, birinə də qəhvə dənələri qoydu. Qızına bir kəlmə demədən gözləməyə başladı. Qız heç nə başa düşmədiyinə görə heç nə demir, sakitcə işin necə qurtaracağını gözləyirdi.

Bir azdan ata əvvəl yerkökünü, sonra yumurtanı, axırda da qəhvəni götürüb bir fincana tökdü.

Üzünü qızına tutub dedi:

– Nə görürsən?

– Yerkökü, yumurta və qəhvə.

Ata dedi:

– Çox diqqətlə bax. Əlini onlara sürt. Yumurtanı da sındırıb soy.

Qız deyiləni etdi.

Ata dedi:

– Hansı vəziyyətlə rastlaşdın?

Qız dedi:

– Yerkökü yumşalıb, yumurta bərkiyib. Fincana tökülmüş qəhvənin də dadına baxdı. Qəhvənin xoş ətri, dadı qıza xoş gəldi, üzünə təbəssüm qondu. Qız bundan da bir şey başa düşməmişdi. Üzünü atasına tutdu:

– Bütün bunlar nə deməkdir, ata?

Ata belə izahat verdi:

– Yerkökü, yumurta və qəhvə hər üçü eyni təsirə məruz qaldı. Ancaq hər birinin buna münasibəti fərqli oldu. Yerkökü əvvəl bərk və güclü görünsə də, qaynar suyun içərisində yumşaldı, gücdən düşdü. Yumurta isə nazik qabıq içərisində maye idi. Qaynar suyun təsirindən bərkidi. Qəhvə isə qaynar suyun təsirindən suda həm özü dəyişdi, hən də suyu dəyişdirdi. Sən bunlardan hansısan? Həyatda bir problemlə qarşılaşdıqda necə münasibət göstərəcəksən?

Yerkökü kimi yumşalıb əziləcəksənmi? Yumurta kimi qatılaşacaqsanmı? Yoxsa qəhvə kimi çalışacaqsan ki, başına gələn hər bir hadisə həyatına yeni bir dad versin?

Qız atasının nə demək istədiyini artıq başa düşmüşdü.

## HİKMƏTİN VƏZİFƏLƏRİ

Bir ölkədə öz işinin kamil ustadı olan görkəmli bir həkim, loğman yaşayırdı. İllər arxada qalmış, bu müdrik insan qocalıb əldən düşmüşdü. Ölümün yaxınlaşdığını hiss edirdi. Onun barmağında çox bahalı, yaqut və brilyantla bəzədilmiş bir üzük vardı. Əhvalının belə böhranlı vaxtalarından birində gözü üzüyünə sataşdı. Nə fikirləşdisə üzüyünü barmağından çıxardı. Üzüyü etibarlı bir şəxslə hökmdara göndərdi. Tapşırdı ki, mən öləndən sonra ədalətli padşahımız bu üzüyü ən müdrik insana verər.

Həkimin vəfatından sonra hökmdar göstəriş verdi ki, sayılıb-seçilən ağıllı insanları saraya yığsınlar. Padşahın sözü yerinə yetirildi. Padşah üzünü məclis əhlinə tutdu, böyük həkimin vəsiyyətini elan etdi. Dedi ki, üzüyə sahib olmaq istəyən şəxs mənim üç sualıma doğru cavab verməlidir. Doğru cavab verən üzüyə sahib olacaq.

Hökmdarın birinci sualı belə oldu:

– Dünyada ən xeyirli nədir?

Bu suala müxtəlif cavablar verildi. Tamahkar olanlar zərin, qızılın ən xeyirli olduğunu dedilər. Müşavirlər «xərac», tacirlər «şadlıq və rəvac» cavablarını verdilər.

Bu cavablar hökmdarı qane etmədi.

Axırda bir qocanın cavabı hökmdarı razı saldı.

Qoca dedi:

– Hər şeydən xeyirli hünərdir. Hünərsiz heç nə edilə bilməz.

Şah qocanın cavabını qəbul elədi. Yenə sözünə davam etdi:

– Hər şeydən yaxşı nədir?

Zaldan müxtəlif cavablar eşidildi. «Şahın razılığı», «Şadlıq», «Firavanlıq», «bolluq» və s. Cavablarla razılaşmayan şah yenə üzünü kasıb qocaya tutdu. Qoca dedi:

– Hər şeydən yaxşı «yaxşılıq» özüdür.

Cavaba görə şah da, adamlar da qocanı alqışladı.

Şah üçüncü sualı verdi:

– İnsan üçün ən lazımlı nədir?

Yenə də şahı qane etməyən müxtəlif cavablar eşidildi. Şah yenə qocanın cavabını soruşdu.

Qoca dedi:

– Ən lazımlı şey həqiqətdir. Həqiqət olmayan ölkədə qanunlar işləməz, qarmaqarışıqlıq düşər.

Şah yerindən qalxıb, qocaya təzim etdi və üzüyü onun barmağına taxtdı. Onu məsləhətçi kimi həmişəlik sarayda saxladı.

**ÜMİD İTMƏSİN**

Otaqda səssizlik olduğu üçün şamların pıçıltısı aydın eşidilirdi. Qapının arxasında dayanan uşaq diqqətlə onların söhbətinə qulaq asdı.

Birinci çam:

– Mən sülhəm. Ancaq heç kim mənim yanmağıma kömək etmək istəmir. Nə qədər yanmaq istəsəm də, bilirəm ki, sönəcəyəm, – dedi və söndü.

İkinci şam:

– Mən səmimiyyətəm, ancaq heç kim bir-birinə qarşı səmimi olmur. Mənim də yanmağımın artıq mənası qalmadı, – deyərək söndü.

Üçüncü şam:



– Mən sevgiyəm, ancaq insanlar son vaxt məni özlərindən uzaqlaşdırırlar. Onlar artıq öz yaxınlarını da sevmirlər, – deyərək bir göz qırpımında söndü.

Pıçıltıların səsin eşidən uşaq içəri girdi. Sönmüş şamlara baxaraq hönkür-hönkür ağlamağa başladı. Dördüncü şam uşağa təskinlik verərək dedi:

– Qorxma, nə qədər ki, mən yanıram, həyat işıqlı olacaq.

– Bəs sən kimsən? – deyə uşaq gözünün yaşını silib soruşdu:

– Mən ümidəm.

Uşağın gözləri parladı. O, ümid şamını götürüb o biri şamları yandırdı.

**SƏSSİZ DƏRS**

Qədim əyyamda müdrik bir ustad yaşayırdı. Tələbələrə pulsuz-parasız dərs deyir, onların kamil bir insan kimi formalaşması üçün əlindən gələni əsirgəmirdi. Günlərin birində ustad fikir verdi ki, tələbələrindən biri çoxdandı dərsə gəlmir. Bir qədər də gözlədi, tələbədən xəbər çıxmadı. Buna görə də axşamçağı tələbəni yoxlamaq üçün onlara yollandı. Qış mövsümü idi. Tələbəsi evdə tək idi. Ustadını qapının ağzında qarşılayan tələbə ustadına «xoş gəlmisiniz» elədi və onu içəri dəvət etdi. Otaqdakı sobanın içindəki odunlar çırtla-çırtla yanırdı. Ustadın gəlişinin səbəbini təxmin edən tələbə sobanın qarşısında yer düzəltdi. Onlar bir müddət səssiz oturdular. Tələbə gözləyirdi ki, ustad nə vaxt öyüd-nəsihətə başlayacaq, onun məktəbə gəlməməsinin səbəbini soruşacaq. Lakin ustad sükut içində alova baxırdı. Sanki otaqda ondan başqa heç kim yoxmuş kimi, sobadakı odunların alovun təsirindən min bir rəngə düşməsinə tamaşa edirdi.

Tələbə bu sükuta dözməyib, – gedim çay gətirim, – dedi.

Ustad bir söz demədi. Eləcə alova baxmaqda davam etdi. Bir azdan tələbə iki fincan çayla qayıtdı. Fincanın birini ustadın qarşısına, birini də öz qabağına qoydu. Əvvəl ustad, sonra da tələbə çayı içməyə başladı.

Tələbə iki il ustadın yanında dərs almışdı. Məktəbin ağıllı, çalışqan tələbələrindən biri sayılırdı. Bu anlar ustad nə tələbəsinə, nə də çaya məhəl qoymurdu. Deməli, ustad danışmırdısa, bunun da bir səbəbi vardı. Gözləmək lazımdır. Tələbə danışmağa birinci başlamamalıdır. Axı, o nə deyə bilər? Desinmi ki, üç aydır başqa ölkəyə ticarətə gedən atasından xəbər yoxdur? Ona görə də dərsə olan həvəsim ölüb? Ancaq ustad bu barədə heç nə soruşmur axı? Ustadın kənara qoyduğu közün işartısı sönməkdə idi. Ustad çay içə-içə gah ocağa, gah da kənara qoyduğu közə baxırdı.

Nəhayət, kənardakı közün işığı və istiliyi söndü, qara-boz rəngli kömürə çevirildi. Ustad kömürü əlinə alıb ora-burasına baxdı. Üstündəki külü üfürüb, yenidən sobaya atdı. Bir qədər gözlədi, sobaya atdığı kömür yenidən alovlandı, qıpqırmızı qızarıb istilik verməyə başladı.

Ustad çayın son qurtumunu da içib ayağa durmaq istədi. Tələbəsi tez ona kömək etdi. Onlar qapıya qədər gəldilər. Birdən ustad geri döndü, yenidən sobaya baxmağa başladı. Onun nəzərləri bayaq sobaya atdığı kömürə zillənmişdi. Bunu hiss edən tələbə də sobada alışıb-közərən kömürə baxdı və birdən hər şeyi başa düşdü. Qapının ağzında ustadını yola salarkən onun əlindən öpüb dedi:

– Gəlişinizin səbəbini başa düşdüm ustad. Bu dərsimiz üçün sizə minnətdaram. Söz verirəm ki, bundan sonra heç zaman dərslərimizi buraxmayacağam.

## SİLİNMƏZ DOSTLUQ

Bir-birini çox sevən iki səmimi dost birlikdə səyahətə çıxırlar. Yolboyu söhbət edə-edə dağlardan, meşələrdən, çaylardan keçirlər. Uzun yol dostların birinin ürəyini sıxmağa başlayır. Dostunun sözləri onu əsəbləşdirir. Hirsini cilovlaya bilməyib ona bir sillə vurur. Yorğunluqdan taqəti tükənən, üstəlik də dostundan sillə yeyən dost heç nə demir. Aşağı əyilib yerdən bir çubuq götürür və qumun üstünə yazır: «Bu gün ən yaxşı dostum mənə sillə vurdu».

Dostlar yollarına davam edirlər. Gəlib bir dəniz sahilinə çıxırlar. Əyinlərini soyunub suya baş vururlar. Bu zaman dostundan sillə alan gənc boğulmağa başlayır. Bunu görən dostu özünü yetirib, dostunu xilas edir. Sahilə çıxandan sonra boğulan dost cibindən bıçaq çıxarıb sahildəki qayaya yaxınlaşır və daşın üstündə bu sözləri cızır: «Bu gün ən yaxşı dostum məni ölümdən xilas etdi». Axşam düşür. Dostlar ocaq qalayıb ətrafında otururlar. Xeyli susduqdan sonra xilaskar dost özünü dostuna tutub deyir:

– Dostum, sənə sillə vurduğuma görə çox peşmanam. Ancaq sən məni bir işdən agah elə. De görüm, sillə vuranda bunu qumun üstünə yazdın, ancaq dənizdə xilas edəndə daşın üstünə həkk elədin?

Dostu gülümsəyib dedi:

– Sən mənə sillə vuranda «Bu gün ən yaxşı dostum mənə sillə vurdu» sözlərini ona görə qumun üstünə yazdım ki, əsən küləklər yazını silib aparsın və sənin bu hərəkətini əbədilik unudum. Mənu boğulmaqdan xilas edəndə isə bunu daşlara yazdım ki, heç bir külək dostluğumuzu silib aparmasın. Dostluğumuz əbədi olsun.

## YUSİF MƏMMƏDƏLİYEV DÜNYASINDAN

1942-ci ilin dekabr ayının 31-i idi. Bu gün onun yaxınları, iş yoldaşları Yusif Məmmədəliyevi həm doğum günü münasibətilə, həm də neft kimyası sahəsində etdiyi böyük kəşfə görə təbrik edirdilər. O, 37 yaşında aviasiyaya yeni, yüksək keyfiyyətli yanacağın alınmasını kəşf eləmişdi. Məhz bunun sayəsində Böyük Vətən Müharibəsi zamanı faşistlərlə gedən döyüşlərdə sovet qırıcı təyyarələri havada üstünlüyü ələ keçirmişdi. Bununla əlaqədar o dövrün qəzetləri yazırdı: «Sovet aviasiyasının məşhur qəhrəmanlarından, igid qırıcı təyyarəçilərdən soruşun, hava da düşmən təyyarələri üzərində ağalıq etməkdə sizə kim kömək etdi? Bir ağızdan deyəcəklər: Yakovlev, Mikulin və Yusif Məmmədəliyev. Onlar sovet təyyarələrinə hamıdan yüksəkdə, hamıdan uzağa uçmağa kömək elədilər».

Gənc alimin elmi kəşfi yüksək qiymətləndirildi. O, Ali Baş Komandan İ.V.Stalinin təşəkkürü ilə mükafatlandırıldı. Lenin ordeni ilə təltif edildi. O dövrdə bu, SSRİ-də ən yüksək mükafat idi. Yusif Məmmədəliyevə kimya elmləri üzrə doktor elmi dərəcəsi və professor elmi adı verildi.

Bu kəşfdən 12 il sonra, yəni 1954-cü ildə Y.Məmmədəliyev digər böyük ixtirası ilə dünya elminə yeni töhfə verdi. Onun icad etdiyi bərk raket yanacağının köməkliyi ilə sovet kosmik raketləri atmosferin dərin qatlarını yarıb keçdi. 1957-ci il oktyabr ayının 27-də məhz sovet süni peyki çəkisizlik şəraitinə qalxdı.

Bütün bu yüksək nailiyyətləri nəzərə alan keçmiş SSRİ-nin elmi dairələri Y.Məmmədəliyevin Nobel mükafatına namizədliyi məsələsini irəli sürdülər. Bu məsələ 1957-ci il dekabrın 29-da Moskvada dövlət səviyyəsində keçirilən iclasın gündəliyinə çıxarıldı. İclas iştirakçıları Y.Məmmədəliyevin kəşfi ilə bağlı sənədlərin Nobel komitəsinə təqdim edilməsi barədə razılığa gəldilər. Elə bu zaman iclasa ünvanlanmış bir məktub üzə çıxdı. Bu məktubun müəllifləri Sovet İttifaqı marşalı Baqramyan və tank qoşunları komandanı general Babacanyan idi. Onlar məktubda bu kəşfin Nobel komitəsinə göndərilməsin lazım bilmirdilər. Bunu onunla əsaslandırırdılar ki, bu kəşf hərbi sirr olaraq qalmalıdır.

Onların fikrini o vaxt ticarət naziri işləyən Mikoyan da müdafiə etdi. Beləliklə, bu görkəmli alimimizin Nobel mükafatı ilə təltif edilməsi yolu qapandı.

Buna baxmayaraq, bu dahi insan sonralar ADU-nun rektoru, Azərbaycan Elmlər Akademiyasının prezidenti vəzifələrini çox uğurla icra etdi. Onu da qeyd edim ki, o vaxtlar Azərbaycanda Elmlər Akademiyası hələ fəaliyyət göstərmirdi. 1945-ci ildə SSRİ Elmlər Akademiyasının prezidenti Komarov Yusif Məmmədəliyevin elmi fəaliyyətini yüksək qiymətləndirərək demişdir: «Təkcə Y.Məmmədəliyevə görə Azərbaycanda Elmlər Akademiyası açılmalıdır». Görkəmli alim 1961-ci ildə dünyasın dəyişdi.

Elmin inkişafında böyük kəşflərinə görə 1998-ci ildə Bakıda, Elmlər Akademiyasının Rəyasət Heyətinin binası yanında alimin heykəli qoyuldu.

## NEMAN VƏ SİMNAR

Dünya şöhrətli N.Gəncəvinin «Yeddi gözəl» əsərində məzmun aşağıda qeyd edilən maraqlı bir əhvalat verilmişdir.

Zülümkarlığı ilə ad çıxaran Yəzdügürd şahın neçə övladları olmuşdusa da, az müddətdən sonra tələf olmuşdular. Sonuncu doğulan oğul övladı isə sübh şəfəqlərinin günəşi qarşıladığı vaxt dünyaya gəldi. Münəccimlər bunu yaxşı hal hesab etdilər. Bu doğulan uşağın xoşbəxt gələcəyi olacağını bildirdilər. Bir müddətdən sonra Yəzdügürdə məsləhət gördülər ki, uşağı İranda deyil, Ərəbistanda saxlasınlar. Orada tərbiyə alsın, boya-başa çatsın.

Yəzdügürd üçün bu məsələ çətin olsa da, oğlunun sağ qalması xatirinə razılıq verdi. Yəmən hökmdarı Nemanı çağırtdırıb Bəhram adı verilən oğlunu ona tapşırdı.

Neman uşağln təlim-tərbiyəsi ilə ürəkdən məşğul oldu. Ona pəhləvanlığın, hökmdarlığın qanun qaydaları öyrədilməyə başladı.

Bir müddət sonra Neman oğlu Mənzərə dedi:

– Bizim yaşadığımız bu şəhər çox istidi. Bəhramı səhhətinə pis təsir göstərə bilər. Ölkə ərazisində gözəl yaxşı havası, suyu olan bir yer tap. Orada gözəl bir qəsr tikdirək Bəhram orada böyüsün, təlim-tərbiyə alsın.

Bir müddət axtarışdan sonra belə bir ideal yer tapıldı. Orada Bəhrama layiq bir gözəl, qiymətli qəsr tikilməsi qərara alındı. Nemanın əyan-əşrəfi xəbər verdilər ki, Simnar adlı belə bir memar Rumda yaşayır. Hökmdarın göstərişi ilə Simnarı onun hüzuruna gətirdilər. Tikiləcək qəsr və yer haqda memarla söhbət aparıldı. Bütün şərtlərlə razılaşan memar isə çox həvəslə girişdi. «Xavərnəg» adlandırılan bu dəbdəbəli, misli-bərabəri görünməyən qəsr beş ilə başa gəldi. Günəşin doğması, batması ilə sarayın rəngləri də dəyişir, gözəllikdən don geyirdi.

Bu dəbdəbəli sarayın tikilişi Nemanın xoşuna gəldi. Memar Simnarı gözlədiyindən daha artıq dərəcədə mükafatlandırdı. Qiymətli xələtlər, peşkəşlər, dəvə yüklü qızıl, hesaba gəlməyən cəvahirat bəxş elədi. Bunları gözləməyən memar Nemana dedi:

– Bilsəydim ki, mənim əməyimi belə yüksək səviyyədə qiymətləndircəksiniz, bu qəsri daha gözəl, daha əzəmətli saray tikərdim.

Simnarın bu cavabından tutulam Neman dedi:

– Başqa bir yerdə bundan daha əzəmətli, gözəl qəsr tikə bilərsinizmi?

Memar cavab verdi:

– Bundan xeyli əzəmətli və yaraşıqlısını tikə bilərəm.

Hökmdarın sifəti qaraldı, əsəbləri gərildi. Adamlarına göstəriş verdi ki, Simnarı tikdiyi qəsrin üstündən aşağı tullasınlar. Bir anda əmr icra olundu.

Memarın dilinə sahib olmamağı, Nemanın isə qəzəbini boğa bilməməsi belə bir faciəli sonluqla bitdi. «Xavərnəq sarayı» memar Simnarın son yadigarı oldu.

## «MEHMAN»IN KİNO TALEYİ

«Azərbaycan ədəbiyyatının uzaq vuran artilleriyası» adını qazanan xalq yazıçısı Süleyman Rəhimov ədəbiyyatımızda həm də ilk epopeyanın yaradıcısı olmuşdur. Müəllifin sanballı romanlarında olduğu kimi, «Aynalı», «Məhtəban», «Qardaş qəbri», «Mehman» və digər povestlərində də həyat həqiqətləri realist qələmlə təsvir edilmişdir. Xüsusilə «Mehman» povesti yüz min tirajlarla nəşr edilmiş, bu povest əsasında «Qanun naminə» filmi çəkilmişdir. «Mehman» povesti, eləcə də povest əsasında çəkilən film gənclərimizin mənəvi həyatında böyük rol oynamış və bu gün də oynayır.

Görkəmli rejissorumuz Muxtar Dadşov «Qanun naminə» filminin çəkilişində əsərin senarisindən kənara çıxaraq, filmdə Mehmanın ölümün canlandırmışdır. Bunu eşidən xalq yazıçısı, Sosialist Əməyi Qəhrəmanı S.Rəhimov çox pis vəziyyətə düşmüş, rejissora ciddi iradın bildirmiş, hətta filmdə bu hissənin dəyişdirilməsini tələb etmiş, bunun əsərin məzmununa xələl gətirəcəyini bildirmişdir.

Lakin görkəmli rejissor Muxtar Dadaşov fikrindən geri durmamışdır. O dövrdə Kazan şəhərində keçirilən kino-festival-

da «Qanun naminə» filmi də mükafata layiq olan filmlər sırasına salınmışdır. Filmdə Mehmanın ölüm səhnəsi göstərilən zaman zaldakı gənclərin əksəriyyəti ayağa qalxmış, onun «ölümü» qarşısında baş əymişlər. «Qanun naminə» filmi, eləcə də əsas rolların ifaçıları mükafatlandırılmışdır. Bu gün də xalq arasında povestdə verilən bir sıra aforizmlər işlənir və yaşadılır.

S.Rəhimov «Qanun naminə» filminin uğurlarını eşidəndən sonra rejissor Muxtar Dadaşova, əsas rolların ifaçıları olan Rza Təhmasibə, Ədil İsgəndorova və digərlərinə öz minnətdarlığını bildirmişdir.

## ŞEYX SƏFİ MƏQBƏRƏSİ

Yaxın Şərqin dini liderlərindən biri, təriqət başçısı sayılan Şeyx Səfi 1252-ci ildə Ərdəbildə anadan olmuşdur. Öz zəkası, dərin biliyi ilə seçilən Şeyx Səfinin tərəfdarları günü-gündən çoxalır, böyük bir siyasi qüvvəyə çevrilirdi. 1334-cü ildə dünyasın dəyişən Şeyx Səfi Ərdəbil şəhərində dəfn edildi. Sonralar onun məzarı üstündə türbə, ətrafında isə karvansaralar, mədrəsələr tikildi. Zəngin kitabxana, muzey yaradıldı, Bura geniş bir mədəni mərkəzə çevrildi. Şəfəvi şeyxlərindən bir çoxu burada dəfn edildi.

Şeyx Səfi nəslindən olan Şah İsmayıl 14 yaşında hakimiyyətə gələrək səfəvilər sülaləsinin əsasını qoydu. O, həm qüdrətli bir dövlət xadimi, həm də torpağının, doğma dilinin qədr-qiymətini bilən hökmdar kimi adını tarixlərə həkk elədi. Babasının yaratdığı kitabxananı tikdirdiyi böyük binaya köçürtdürdü, kitabxananı daha da zənginləşdirdi.

Sonralar Şah İsmayılın oğlu Şah Təhmasib burada daha böyük abadlıq, quruculuq işləri apardı. Onun əmri ilə məqbərəni bəzəyən, həcminə və ağırlığına görə ən iri, əzəmətli bu sənət inciləri Şeyx Səfi məqbərəsini bəzədi.

Şah İsmayıl da, Şah Təhmasib də çox vaxtı xarici nümayəndələri burada qəbul edirdilər.

XIX əsrin əvvəllərindən İran ruhanilərinin rəhbərlik etdiyi bu kitabxana Şərqdə ən zəngin kitabxana sayılırdı. Bura-

da olmuş məşhur rus şərqşünas alimlərindən bir qrupu kitabxananı ələ keçirmək üçün rus çarına müraciət etdilər. 1828-ci ildə Ərdəbili tutan rus generalı Suxtelin kitabxanaya nəzarət edən ruhanilərə dedi:

– Çarın əmri ilə bu kitablar Peterburqa aparılacaq, orada üzü köçürüləndən, tərcümə ediləndən sonra geri qaytarılacaq. Sonra da Şeyx Səfinin məzarı üstünə 800 qızıl onluq qoydu. Bunu görən ruhanilər Suxtelinin təklifi ilə razılaşdılar. Lakin qızıla aldanan ruhanilər də bilirdi ki, bu zəngin xəzinə bir də geri qayıtmayacaq. Sonralar belə də oldu.

Təxminən 1873-cü ildə Ərdəbildə baş verən güclü zəlzələ nəticəsində Şeyx Səfi məqbərəsinə də ciddi ziyan dəydi. Məqbərəni yenidən təmir etmək üçün Təhmasibin əmri ilə toxunan iki məşhur xalça satışa çıxarıldı. İngiltərədə olan Viktoriya və Albert Muzeyləri Şeyx Səfi xalçalarını 200 funt strelinqə satın aldılar.

Beləliklə, bu əvəzsiz incəsənət yadigarları da əldən çıxdı. Xalqımızın zəngin maddi və mənəvi irsi beləcə talan edildi, yad ölkələrə daşındı.

## ÖLÜMCÜL XƏSTƏ VƏ LOĞMAN

Qədim əyyamlarda bir ölkədə ağır xəstə olan, dərdlərinə çarə edilə bilməyən xəstə kişi yaşayırdı. Yerli həkimlər, türkəçarə ilə məşğul olanlar bu xəstənin üzərində nə qədər çalışdılarsa da, elə bir nəticəsi olmadı. Axırda bu dərdlərinə əlac tapılmayan kişini ayrı bir şəhərdə yaşayn loğmanın hüzuruna göndərdilər. Loğman xəstəni müayinə etdi. Ümidsiz halda üzünü xəstəyə tutdu:

– Mən səni aldada bilmərəm Sənin xəstəliyini müalicə etməyə mənim gücüm çatmaz. Yapış İlahinin ətəyindən, get dağ-daşda gəzib günlərini keçir.

Ümidsiz halda geri dönən xəstə evdəkilərə də bildirmədən bir gün üz qoydu dağlara tərəf öz-özünə dedi: «Ölsəm də, qoy bu dağların qoynunda ölüm, yer-yurdumu da bilməsinlər».

Başladı otdan-əncərdən yeyib qaidalanmağa. Günlər keçdikcə hiss edirdi ki, səhhətində az da olsa dəyişiklik var.

Bir dəfə də gəlib bir bulaq başında çobanın sürüsünü saxladığı yerə çıxdı. Kənardan gördü ki, çoban insan kəlləsindən düzəldilmiş kasaya oxşar bir qala süd sağdı. İtləri çağırıb onların qarşısına qoydu. Çobanın iti südün çox hissəsin yaladılar, sonra sürünün arxasınca getdilər. Xəstə kənardan gördü ki, bir qara ilan itlərin yaladığı süd qabının yanına gəldi. Bir az süddən yalayandan sonra zəhərini də artıq qalan südün içinə töküb, buradan aralandı.

Xəstə öz-özünə dedi: «Yaxşı oldu. Gedim o zəhərli südü içim, rahat ölüm, bu əzab-əziyyətdən də canım qurtarsın».

O, belə də etdi. Qalan zəhərli südün hamısını başına çəkdi, gedib bir kolun kölgəsində uzandı. Onu yuxu apardı. Bir xeyli yatandan sonra oyandı. Gördü ki, əhvalı əvvəlkinə nisbətən xeyli yaxşılaşıb. Otdan-əncərdən yeyə-yeyə gəlib evlərinə çıxdı. Kişinin sağalıb gəlməsinə evdəkilər də sevindi.

Bir gün daha özünü sağlam hesab edən kişi loğman yaşayan şəhərə doğru yol aldı. Axır ki, gəlib loğmanın yanına çıxdı. Dedi:

– Bəs sən deyirdin ki, sənin dərdinə çarə yoxdu?

Gülümsəyən loğman cavab verdi:

– Mən insan kəlləsindən düzəldilmiş, qara ilan zəhərini hardan tapa bilərdim ki, səni də sağaldam?

## AĞILLI QIZ

Qədim əyyamlarda xalq arasında belə bir adət olmuşdu. Evlənmək istəyən oğlanı qız evi bir növ sınaqdan çıxarırdı. Onu evlərinə dəvət edər, qarşısına düyünlü bir kötük qoyar, balta verər. Düyünlü kötüyü yarmağı tapşırardılar. Əgər qızın könlü olsaydı, oğlan da kötüyü yara bilsəydi, qızı oğlana verməyə razılıq verərdilər.

Aran tərəflərdə yaşayan bir oğlan təsadüfən dağ kəndlərindən birində iştirak etdiyi toy məclisində rastlaşdığı bir qıza ürəkdən aşiq olmuşdu. İstəyini, sevgisini bu kənddə ya-

şayan qohumları vasitəsi ilə qıza çatdırmışdı. Oğlanı kənardan bir neçə dəfə görən qız da razılıq vermiş, imkan tapıb təklikdə görüşmüş, bu məhəbbət sevdasında sözlərinə sadiq olacaqlarını bildirmişdilər. Ancaq qızın valideynləri qızı yaxın qohumlarından birinə verməyi qərara almışdılar. Oğlanın elçilərini dəfələrlə əliboş geri qaytarmışdılar.

Ancaq qızın iradəsi, sözünə sadiq olması qarşısında valideynləri oğlanı birdəfəlik başdan eləmək üçün düyünlü kötüyün yarılması məsələsini ortaya atdılar. Onlara gəlib qızın ata-anasına yalvar-yaxar edən oğlanın qrşısına evin kişisi bir düyünlü kötük, bir də balta qoydu və dedi:

– Bu, sənin üçün son şansdı. Əgər bu kötüyü yara bilsən, qız sənindi. Yara bilməsən, bir də qızımızın adın çəkməyəcəksən və bu sevdadan əl çəkəssən. Əlacsız qalan oğlan kötüyü yarmağa başladı. Ancaq belə işlərdə naşı olduğuna görə gücünə-qüvvəsinə güvənərək kötüyün ortasından zərbələr vurur, kötüyü bölməyə çalışırdı.

Daldadan oğlanın işini izləyən qız oğlanın bu işdə naşı olduğunu görüb içindən qırıla-qırıla qalmışdı. Açıq-aşkar ona bir kömək edə bilməzdi. Buna dözə bilməyən qız oğlana işarə vermək, istiqamət vermək üçün həyətdə saxlanan iti çağırdı. Yerdə qazılmış itin yalağına süd tökdü. İt sürətlə südü yalamağa başladı. Bunu görən qız itə acıqlandı:

– At ut, üzdən-üzdən yala, üzdən-üzdən. Yoxsa bir azdan südü kənara çırtdadacaqsan, torpağı yalamalı olacaqsan. Üzdən-üzdən yala.

Bununla oğlana demək istəyirdi ki, kötüyü üzdən-üzdən yar. Yoxsa, o qaydada yara bilməyəcəksən.

Oğlan işarəni anladı. Kötüyü üzdən-üzdən, qəlpə-qəlpə yarmağa başladı və nəhayət, kötüyü yara bildi. Axır ki, iki sevən gəncin bir-birinə qovuşmasına razılıq verildi.

**SÜLEYMANA QALMAYAN DÜNYA**

Əfsanəyə görə Süleyman peyğəmbər təbiətin bütün qüvvələrinə hökm edir, hətta bütün heyvanların dilini bilirmiş.

Bir sözlə, yer üzündə onun hakimiyyətinin həddi-hüdudu yox imiş. Lakin hamı kimi bir gün o da dünyasını dəyişir. Ölümündən əvvəl Süleyman peyğəmbər tuncdan uca bir qəsr tikdirir. Həmin qalanı görmək çox az adama nəsib olur. Çünki bu qala yaşayış yerlərindən uzaq, insan ayağı dəyməyən bir səhrada tikilmişdi. Lakin onu görmək istəyən, uzaq yol qət edib gələn insanlar Süleyman peyğəmbərin qala divarlarına həkk elətdirdiyi bir yazını oxuya bilərdilər: «Ey yenilməz qüvvəsinə və ömür uzunluğuna inanan insan, bil ki, dünyada heç kim əbədi deyil. Əgər mal, ləşkər çoxluğu və ya elm gücü ilə dünyada əbədi qalmaq mümkün olsaydı, gərək Davud oğlu Süleyman ölməyə idi. Bu qalanı tikdirdim ki, dünya malının kimsəyə qalmayacağını biləsiniz... Məhz bu son cümlədən də «Süleymana qalmayan dünya» ifadəsinin yarandığı etimal olunur».

Bunu düşünən hər bir insan bu dünyada var-dövlət, şan-şöhrət hərisliyinə qapılmamalı, gördüyü xeyirxah əməlləri ilə yaddaşlarda yaşamalıdır.

## İLANIN ZƏHLƏSİ YARPIZDAN GEDƏR, O DA GƏLİB YUVASININ AĞZINDA BİTƏR

Bu ifadə xalq arasında bu gün də deyildiyi kimi işlənir. Bir insanın başqa birisi ilə münasibəti olmayanda qarşısına tez-tez çıxarsa deyər: «Mən çalışıram bundan aralı gəzəm, bu da gözümün qabağından kənara çəkilmir. Bir misalda deyildiyi kimi: İlanın zəhləsi yarpızdan gedər, o da gəlib yuvasının ağzında bitər».

Əslində bu aforizm indi təhrif olunmuş şəkildə işlənir, Mahmud Kaşgarlının «Divanü-lüğat-it-türk» əsərində bu ifadə belə işlənmişdir: «İlan yarbuzdan qaçar, hara getsə, yarbuz qabağına çıxar». Burada yarbuz ilanlara qənim kəsilən vəhşi heyvanın adı olmuşdu. Manqusta ilanın yuvasın dəqiq və asan müəyyənləşdirər, onun yuvası ağzında saatlarla gözlər. İlan bayıra çıxan kimi tutub yeyər. Manqustanın əsas adı

yarbuz olmuşdur. Sonralar bu ifadə işləndikcə yarbuz sözü təhrif edilərək yarpuz kimi işlənmişdir.

Məlum olduğu kimi, ilan quru, susuz yerdə yuva qurub orada yaşayar, yarpız isə rütbəli, sulu yerlərdə bitər. Ona görə də ilanın yuvası qabağında yapızın bitməsi həqiqətə uyğun gəlmir. Misalda işlənən bitmək ifadəsi orada xeyli durub-dayanmaq ifadəsi kimi başa düşülməlidir. Mahmud Kaşgarlı də əsərində yarbuz sözünü manqusta mənasında işlətmişdir.

## LAKONİZM NƏDİR?

Qədim Yunanıstanın bir hissəsi olan Spartada müdrik və eyni zamanda sərt qanunlar hökm sürürdü. Spartalılar hesab edirdilər ki, bərabərlik olmayan yerdə nizam-intizam da ola bilməz. Ona görə də məmləkətdə bütün torpaqlar və torpaqlardan əldə edilən gəlirlər ailələr arasında bərabər bölünürdü. İnsanlar arasında paxıllıq yaranmasın deyə, spartalılar bir yerdə, eyni masa arxasında eyni qidanı yeyirdilər. Uşaqlar çox sərt qayda-qanunlarla tərbiyə edilirdi. Onlar yeddi yaşından etibarən böyüklərdən ayrı yaşayır, qamışdan hörülmüş bərk çarpayılarda yatır, az yeyirdilər. Bütün günlərini fiziki məşqlərə, qılınc və nizə ilə döyüş bacarığının öyrənilməsinə həsr edirdilər. Bu yolla uşaqlarda iradə, səbir və dözüm tərbiyə edirdilər. Çox keçmədi ki, «spartalı» sözünün özü rəmzi məna daşımağa başladı. Bu gün bir çox xalqların dillərində aza qane olan, fiziki cəhətdən güclü, bütün məhrumiyyətlərə dözən adamları belə adlandırırlar. Spartalı qadınlar da güclü iradələri və təmkinli davranışları ilə seçilirdilər. Oğlunu müharibəyə yola salan ana qalxanı ona uzadaraq deyirdi: «Qalxanda, ya da qalxan üstdə», yəni ya qalib ol və əlində qalxan qayıt, ya da döyüşdə həlak ol, səni qalxanın üstdə gətirsinlər» (o dövrdə döyüşdə yaralananları və ölənləri daşımaq üçün qalxandan xərək kimi istifadə edirdilər).

Yığcam danışıq tərzi mənasında işlənən lakonizm sözü də sparta ilə əlaqədardır. O dövrdə Spartada insanlar yaşadıqları kimi də danışırdılar. Uzunluğa və boşboğazlığa ikrahla baxan

spartalıların nitqi ilə də qısa və qəti olurdu. Sonralar belə bir danışıq tərzini spartanın yerləşdiyi Lakoniya əyalətinin adı ilə «lakonizm» adlandırmağa başladılar.

Spartalıların «lakonizm»ə aid ən gözəl nümunəsi onların Makedoniya kralı II Filipə cavabı olmuşdur.

Demək olar ki, bütün Yunanıstanı ələ keçirmiş II Filip indi də Spartanı ələ keçirməyə hazırlaşırdı. Lakin o, spartalıların döyüşkənliyindən qorxurdu. Buna görə də əvvəl onlara hədə-qorxu dolu bir məktub göndərdi: «Əgər təslim olmasanız, ölkənizi işğal edəcəyəm. Əgər ölkənizi işğal etsəm, hər şeyinizi əlinizdən alacağam».

Bir neçə gündən sonra spartalılardan cavab gəldi. Cavab bu xalqın bütün əzəmətini və cəsarətini ifadə edirdi. Bu məktub cəmi bir sözdən ibarət idi: «Əgər» sözünün daşıdığı məna böyük əhəmiyyət kəsb edib. Bu, belə başa düşülməlidir: «Əgər bizim torpağa ayaq bassanız, qan gölündə boğulub məhv olacaqsınız».

## HƏZRƏT ƏLİ ŞƏXSİYYƏTİ

İslami dəyərləri dərindən mənimsəmiş Həzrət Əli insanlar arasında irqi ayrı-seçkiliyə yol verməzdi.

Bir gün azad etdiyi qullardan iki qadın onun yanına gəlib kömək istədi:

– Bir qarın çörəyə möhtacıq. Allah eşqinə bizə bir az yardım et.

«Comərdliyin atası» ləqəbin qazanmış böyük insan bu iki qadının hər birinə bərabər miqdarda bir az buğda və pul verdi.

Bu iki qadından biri ərəb, o biri isə əcəm idi. Yəni başqa xalqın nümayəndəsi idi. Onların ikisinə də eyni dərəcədə kömək etməsindən xoşlanmayan ərəb qadın dedi:

– Ey Əmirəlmömin, bu hərəkətinizə mat qaldım

– Mənim hərəkətimdə nə xəta gördün, ey qadın?

– Mən bir ərəb qadınıyam. Bu qadın isə əcəmdir. Necə olur ki, bizim ikimizi də eyni tərəziyə qoyursan? Həzrət Əli hirslənmədi, sadəcə dedi:

– Dinlə, ey qadın! Mən Quranı yaxşı bilirəm. Orada hətta Həzrət İsmayılla Həzrət İshaqın soyundan gələnlər arasında bir fərq olduğunu göstərən ayə yoxdursa, mən niyə sizin aranızda fərq qoymalıyam?!

## İBN SİNA

Avropada «Avtisenna» adı ilə tanınan böyük alim, həkim, şair filosof İbn Sina (980–1037) dünya mədəniyyəti xəzinəsini zənginləşdirən bir irs qoyub getmişdir. O, müxtəlif elm sahələrini əhatə edən yüzlərlə əsər yazmışdır ki, bunlardan bir çoxu dövrümüzə qədər gəlib çıxmışdır. Azərbaycan nağıllarında Loğman adı ilə təqdim olunan qəhrəmanın protipinin İbn Sina olduğu güman edilir. Deyilənə görə, balaca Hüseynin ən sevimli sözü «Nə üçün» imiş. Uşaq ikən o, güclü yaddaşı, dərin müşahidəçilik qabiliyyəti, məntiqi təfəkkürü ilə hamını heyrətə gətirirmiş. Hələ on yaşı olanda Hüseyn artıq Qurani-Kərimi əzbər bilir, Aristotelin, Əl-Fərabinin əsərlərini oxuyurmuş. Sinifdə hamıdan balaca olsa da, şagirdlər ondan məsləhət alırmışlar.

Belə rəvayət edirlər ki, Hüseyngilin sinifində zəngin ailədən olan Ömər adlı bir uşaq oxuyurmuş. Onun zəngin atası Ömərin təhsili üçün pul əsirgəməzmiş və tez-tez müəllimin yanına gəlib oğlunun dərsi ilə maraqlanarmış.

Bir dəfə müəllim sinifdə Ömərin atası ilə söhbət edərkən Hüseyni tərifləyir, onu Ömərə nümunə göstərir. Ömərin zəngin atası etiraz edir: «Axı, onlar eyni məktəbə, eyni müəllimin yanına gəlirlər. Bu, necə ola bilər?» Bu söhbətdən sonra müəllim uşaqları sinifdən bayıra çıxardı. Döşəkcələrin hər birinin altına bir dəftər qoydu. Sonra uşaqları sinif otağına dəvət etdi. Uşaqlar döşəkcələrinin üstündə bardaş qurdular. İbn Sina üzünü uşaqlara tutdu:

– Bu dərs otağımızda bir dəyişiklik hiss edirsinizmi?

Birinic Ömər, sonra da başqaları cavab verdi:

– Heç bir dəyişiklik hiss etmədik, müəllim. Nə olub ki?

İbn Sina isə belə cavab verdi?

– Bilmirəm, ya mən böyüdüm, ya da tavan aşağı gəldi.

İbn Sina paralel şəkildə ərəb dilini, fəlsəfəni, tibbi, astronomiyanı öyrənmək üçün ayrı-ayrı müəllimlərin yanına gedirdi. Yaşıdları arasında onu barmaqla göstərirdilər. Necə çalışması barədə o, xatirələrində belə yazır: «On altı yaşım olanda gecələr və gündüzlər elm oxumaqdan və öyrənməkdən başqa, heç nə ilə məşğul olmurdum. Kitabxanalarda işimi qurtarıb evə qayıdandan sonra da şamı yandırıb çalışmalarımı davam etdirirdim. Bəzən yuxu aparır, yatırdım. Amma yuxuda da məni narahat edən mövzular barədə düşünürdüm. Bütün elmləri öyrənənə qədər belə davam elədi».

On yeddi yaşı olanda elm dairələrində İbn Sinanı nüfuzlu alim kimi qəbul edirdilər. Böyük hökmdarlar onu saraya şəxsi həkim kimi qəbul edirdilər. Lakin müdrik alim saraydan uzaq durmağa çalışır, elmi araşdırmalarla məşğul olmağa üstünlük verirdi. Buna görə də hökmdarların təqibinə məruz qalırdı. Deyilənə görə, İbn Sina xəstəliyə düçar olmuş Həmədan əmrini sağaltdığına görə vəzir vəzifəsinə təyin edilmişdi. Lakin paxıl əyanların böhtanlarına inanan Əmir İbn Sinanı Həmədandan sürgün etdirdi. Bundan qırx gün sonra Həmədan əmri yenidən xəstələndi. O, İbn Sinanı tapıb xahiş etdi ki, saraya qayıdıb onu müalicə etsin.

İyirmi yaşı olanda artıq İbn Sina bir neçə kitabın müəllifi idi: «Təbiət elmlərinə aid geniş ensiklopediya», «Etikaya dair kitab» və s. ən məşhur kitabı isə «Qanun ət-tibb» adlanır. Beşcildlik kitabda ürəyin, qaraciyərin, beynin detallı təsviri verilir. Bu kitab qısa müddətdə «Qanun» adı ilə məşhurlaşaraq bütün dünyada tibb ensiklopediyası kimi qəbul olunur. Çap dəzgahı ixtira olunandan sonra ilk nəşr olunan kitab «İncil» ikincisi isə «Qanun» olub. Avropada beş əsrdən artıq müddətdə tibbi bu kitabdan öyrəniblər.

### «GƏLƏRSƏN-GÖRƏRSƏN QALASI»

Nadir şahın ö dövrdə Şəkiyə hakim təyin etdiyi Məlik Nəcəf xalq kütlələri ilə çox amansız rəftar edir, Nadir şahın

müəyyən etdiyi vergiləri öz mənafeyi naminə bir qədər də artırırdı. Buna görə də Şəkidə tez-tez ixtişaşlar baş verirdi. Nadir şah bu üsyanlara son qoymaq üçün xalq tərəfindən seçilən nüfuzlu əyan Hacı Çələbini Məlik Nəcəfin işlərinə bir növ nəzarət edən vəzifə sahibi kimi təyin etdi. Bir müddət sonra Hacı Çələbi Məlik Nəcəfin səlahiyyətinə aid olan bəzi işləri də öz əlinə aldı.

Buna görə Məlik Nəcəf Arazı bu taya adlayan Nadir Şaha Hacı Çələbidən şikayət etdi. Lakin qolubağlı hüzura gətirilən Hacı öz bəlağətli çıxışı, qətiyyətli sözləri ilə özünə bir növ rəğbət qazandırdı, Məlik Nəcəfi ifşa etdi. Həm də vəzir-vüzəra Hacı Çələbinin mahalda böyük nüfuz sahibi olduğunu Nadir şaha çatdırdılar. Buna görə də Nadir şah Çələbinin ölümdən azad edilməsinə yarıkönül razılıq verdi. Hacı Çələbi gedəndən sonra o, əyan-əşrəfə acıqlanaraq dedi:

– Siz Məlik Nəcəfin yaramaz işlərini bilə-bilə bu vaxta qədər susmusunuz. Amma Hacı Çələbi ölümdən də qorxmadan Nəcəfin iç üzünü açıb tökdü. Bundan sonra Hacı Çələbi adını çox eşidəcəksiniz.

Sonralar Nadir şahın başı İranda baş verən üsyanların yatırılmasına qarışanda Hacı Çələbi də Məlik Nəcəfi aradan götürdü, Şəki xanlığının yaradıldığını elan etdi.

Nadirin hücumundan qorunmaq üçün 1551-ci ildə dərviş Məhəmməd xan tərəfindən tikilmiş «Gələrsən, görərsən qalası»nı möhkəmləndirməyə başladı.

Bu qala Şəki şəhərinin yuxarı hissəsində, Kiş kəndinin qarşı tərəfindəki Qaratəpə dağının üzərində tikilmişdi. Bu qala düşmən hücumlarından qorunmaq üçün çox əlverişli mövqedə idi. Heç vaxt zəndində yanılmayan Nadir şah 1744-cü ilin axırı və 1745-ci ilin əvvəlində, «Gələrsən-görərsən qalası»na hücum etdi, lakin qəhrəman müdafiəçilərin əzmini qıra bilmədi.

Rəvayət edirlər ki, Nadir şah gecələrin birində öz adamları ilə qalaya yaxın gələrək bərkdən qəzəblə söyləyir. Bu, necə qaladır ki, onu almaq olmur? Məgər bu qalanı almağa bizim gücümüz çatmayacaq?»

Bu zaman qaladan səs gəlir: «Gələrsən-görərsən»!

## NƏSİRƏDDİN TUSİ

Nəsirəddin Tusi 1201-ci ildə Tus şəhərində anadan olmuşdur. İlk təhsilini atasından almış, sonralar Tus və Həmədandan görkəmli elm adamlarından təhsil almışdır. Onların arasında İbn Sina və Bəhmənyarın davamçıları var idi.

Nəsrəddin gənclik illərində biliyini artırmaq üçün Yaxın və Orta Şərqin bir sıra şəhərlərinə səfər etmişdi. Sonralar böyük mütəfəkkir yazırdı: «Hansı fənnə aid müəllim tapdımsa, ondan dərs aldım».

Aldığı hərtərəfli və dərin biliklər gənc alimi az bir vaxtda elmi mühitdə məşhurlaşdırmışdır. Otuz yaşında ikən hökmdar onu saraya dəvət edir və əxlaq barədə kitab yazmasını xahiş edir. Beləliklə, N.Tusi sonralar ona bütün dünyada şöhrət qazandıran məşhur «Əxlaqi-Nasiri» əsərini yazır.

Müəllif «Əxlaqi-Nasiri» əsərində yazırdı: «İnsan çox danışmamalı, başqasının sözünü kəsməməli, başqasının nağıl etdiyi nağıl və rəvayəti bilirsə, bunu üzə vurmamalı və onu axıra qədər dinləməyi bacarmalıdır. Başqasından soruşulana cavab verməməli, ümumiyyətlə, edilən sualda camaatı qabaqlayıb irəli düşməməlidir. Biri cavab verirsə, daha qabil cavab verməyə qadir olsa da, səbr etməli, o, sözünü qurtarandan sonra cavab verməlidir, lakin əvvəlkinə tənə etməməlidir. Onun yanında iki adam söhbət edirsə, qarışmamalı, ondan gizlədilirsə, gizlin qulaq asmamalıdır, özləri müraciət etməsələr, söhbətə qarışmamalıdır».

Bir müddət sonra hökmdarın qəzəbinə düçar olan gənc alim həbs edilərək əl çatmaz dağ zirvəsinə yerləşən «Ələmut» (qartal yuvası) qalasına aparılır. O, burada məşəqqətli sürgün həyatı keçirir. Xoşbəxtlikdən qalada zəngin kitabxana var idi. N.Tusi həbsdə keçirdiyi 12 ildən artıq müddətdə dözülməz mənəvi sıxıntılara baxmayaraq, burada elmi yaradıcılıqla məşğul olmuş və bir sıra qiymətli əsərlər yazmışdır. Çingiz xanın nəvəsi Hülakü xanın Yaxın Şərqə yürüşü ilə Tusinin məhbus həyatı sona çatır. Xanın qoşunları fəth olunmaz Ələmut qalasını da tutur. Nəsrəddin və digər alim mıəhbusları da azad edirlər. Nəsirəddin Hülakü xanın məsləhətçisi təyin

edilir. Elmi araşdırmalarını davam etdirmək məqsədi ilə N.Tusi Hülakü xanın köməyi ilə Marağada rəsədxana yaradır. Marağa rəsədxanası bütün dünyada elmin inkişafında müstəsna rol oynamışdır.

Ensiklopedik biliyə malik olan alim elmin müxtəlif sahələrini mənimsəmişdir. Alimin yaradıcılığında, uğurlarında astronomiya və riyaziyyat xüsusi yer tutmuşdur. Onun riyaziyyat sahəsində apardığı tədqiqatlar İtaliya, Fransa və İngiltərədə dəfələrlə nəşr olunmuşdur. N.Tusinin 1594-cü ildə Romada çap olunmuş, «Təhriri iglidis» Evklid həndəsəsinin şərhi ilk mətbəə üsulu ilə çap olunmuş ilk Azərbaycan kitabıdır.

O vaxta kimi kitablar xəttatlar tərəfindən üzündən köçürülərək ərsəyə gəlirdi. XIII əsrin dahisi sayılan Tusinin irsi dünya elm tarixinin ən parlaq səhifələrindəndir. Böyük alim bütün həyatını təbiəti və cəmiyyəti öyrənməyə həsr etmişdir. Onun fikirləri dünya elminin sonrakı inkişafına mühüm təsir göstərmişdir. Tusi irsi bir çox dünya ölkələrinin elm mərkəzlərində tədqiq olunur. Onun qələmindən çıxan yüzə qədər əsər elmin astronomiya, riyaziyyat, fizika, tibb, fəlsəfə, etika, məntiq və digər sahələrinə həsr olunmuşdur.

N.Tusi 1274-cü ildə Bağdadda vəfat etmiş və orada «Came» məscidində torpağa tapşırılmışdır.Qəbrinin üstündə: «Elmin köməkçisi, elm ölkəsinin şahı. Belə oğul hələ doğulmamışdır» yazılmışdır.

## UZUN HƏSƏN VƏ SARA XATUN

Qədim zamanlarda Azərbaycan və Cənubi Qafqazın böyük bir ərazisində Ağqoyunlular adlanan oğuz tayfası yaşayırdı. Bu tayfanın söykökü «Kitabi-Dədə Qorqud» qəhrəmanı Bayandır xana gedib çıxır.

XV əsrdə Ağqoyunlular yaratdığı dövlət Cahangir Mirzənin dövründə xeyli zəifləmişdi. Onun ölümündən sonra isə Ağqoyunlu şahzadələri arasında hakimiyyət uğrunda çəkişmələr başladı. Yalnız Cahangir Mirzənin arvadı Sara Xatunun

müdrikliyi və saraydakı nüfuzu sayəsində dövlətin varlığı qorunub saxlandı. Sara Xatun oğlu Uzun Həsənin Ağqoyunlu taxtına çıxmasına nail oldu.

Hərbi istedadı və uzaqgörənliyi ilə seçilən Uzun Həsən dövləti xeyli möhkəmlətdi. Bu işdə onun ən yaxın məsləhətçisi anası Sara Xatun idi. Bu müdrik qadın türk-müsəlman dünyasının ilk qadın diplomatı olmuşdur. Uzun Həsən Azərbaycanda vahid dövlət yaratmaq istəyirdi. Lakin Osmanlı Sultanı Fateh II Mehmet də Azərbaycan torpaqlarına göz dikmişdi. Osmanlılarla müharibə Ağqoyunlu dövlətini zəiflədə bilərdi. Belə şəraitdə iki türk dövləti arasında sülh müqaviləsinin bağlanması yeganə çıxış yolu idi. Bunu isə yalnız diplomatik danışıqlarda böyük məharəti olan Sara Xatun edə bilərdi.

Beləliklə, Sara Xatun çoxlu qiymətli hədiyyə və mötəbər bir heyətlə Sultan II Mehmetin yanına yollandı. Sultan onu böyük ehtiramla qarşıladı, əlindən tutaraq öz taxtı ilə yanaşı qoyulmuş taxtda əyləşdirdi. Onlar bir-birinə «ana», «oğul» deyə müraciət edirdilər. Sultan Mehmet dedi:

– Ana, Həsən bəylə savaşa girmək istəmirəm. O da mənim qardaşım. Bir-birimizlə anlaşsaq, yaxşı olmazmı?

Sara Xatun onun sözlərini təsdiqlədi:

– Elədir, oğlum, səninlə Həsən bəyin dini də, dili də birdir. Özün söylədin ki, qardaş qardaşa əl qaldırmaz.

Beləliklə, iki türk dövləti arasında sülh müqaviləsi bağlandı. Bu, Azərbaycan diplomatiyasının böyük uğuru idi.

Osmanlılarla münasibəti yoluna qoyandan sonra Uzun Həsən Ağqoyunlu dövlətinin sərhədlərini xeyli genişləndirdi. Amma o, indi yeni bir təhlükə ilə üzləşdi. Teymurilər hökmdarı Əbu Səid Ağqoyunlu dövlətinin güclənməsini özü üçün böyük təhlükə hesab edirdi. Buna görə də müharibəyə hazırlaşırdı. Sara Xatun müharibənin qarşısını almaq üçün bu dəfə Əbu Səidin yanına gəldi. Lakin bütün diplomatik məharətini işə salsa da, Əbu Səidi fikrindən döndərə bilmədi. Sara Xatun geri qayıdıb oğluna belə dedi:

– Əbu Səid Fateh II Mehmet ola bilməz!

Ağbirçək anasının sözünün yerə düşməsi Uzun Həsənə bərk təsir etdi. Ağqoyunlu hökmdarı hərbi-siyasi bacarığını işə

salaraq Teymuri ordusunu darmadağın etdi. Beləliklə, Uzun Həsən qısa müddətdə qüdrətli bir türk dövlətini yaratmağa nail oldu.

Uzun Həsən çox geniş əraziyə malik olan Ağqoyunlu dövlətini daha da möhkəmləndirmək üçün xüsusi «Qanunnamə» hazırladı. Bu sahədə əsasən kəndlilərdən alınan vergilərin miqdarı dəqiqləşdirildi, vergiyığan məmurların özbaşınalığına son qoyuldu.

«Qanunnamə» dövlətin daxili işlərinin qaydaya salınmasında, feodalların tabe olunmasında böyük rol oynadı.

Bu qanunlar toplusu sonralar, «Həsən padşahın qanunları» adı ilə məşhurlaşdı. Uzun Həsənin ədaləti dillərə düşdü. Onun bütün siyasəti dövlətin möhkəmlənməsinə səbəb oldu. Görkəmli dövlət xadimi elmin, mədəniyyətin, maarifin inkişafına xüsusi diqqət yetirirdi. Dövrünün bütün alimlərini, şairləri saraya toplamışdı. Uzun Həsən Quranı Azərbaycan dilinə tərcümə etdirmiş, oğuz türklərinin tarixinə aid kitab yazdırmışdır.

Müdrik ananın–Sara Xatunun layiqli oğlu olan Uzun Həsən Azərbaycanın dövlətçilik tarixində müdrik, ədalətli, uzaqgörən hökmdar kimi qalmışdır.

## BÖYÜK FATEH TEYMURLƏNG

Xəyanət nəticəsində qoşulduğu son döyüşdə ağır yaralanan Teymur onun üçün qurulmuş alaçıqda qıçından və biləyindən aldığı yaralarla baş-başa qalmışdı. Bu vaxt gözləri alaçığın divarıboyu ağzında bir buğda dənəsi yoxuşa dırmaşan bir qarışqanı aldı. Qarışqa özündən ağır olan buğda dənəsini divar boyu yuxarı çıxarmaq istəyirdi. Qarışqanın gücü çatmadığına görə bəzən ya özü diyirlənib divarın dibinə düşür, bəzən də ağzındakı buğda dənəsi divarın dibinə düşürdü. Bununla belə, qarışqa qarşıya qoyduğu məqsəddən geri durmaq istəmir, bütün iradəsini toplayaraq buğda dənəsini divarın üstünə çıxarmağa çalışırdı.

Qarışqanın bu dönməzliyi ağır yaralı olan Teymurun da diqqətini cəlb etmişdi. Yaralarının ağrıları ilə çarpışan, bir növ ümidsizliyə qapılan Teymurun gözlərinə yeni bir işıq,

ümid qığılcımı gəldi. Deməli, ümidsizliyə qapılmamalı, daima irəliyə, yüksək zirvələrə doğru hərəkət etməli, qarışqa kimi iradəli olmalıdır.

Bir neçə gün əvvəl Sistan qoşunu ilə döyüşdə ayağından və biləyindən ox yarası almış Teymuru sadiq tərəfdarları aradan çıxarmış, qərargahına gətirmişdilər.

Artıq ikinci gün idi ki, o, alaçıqdan çıxmırdı. Bu müddət ərzində Teymurun yaralarına məlhəm qoyan təbibdən Teymur soruşdu:

– Bu yaralarla ayağa dura biləcəyəmmi? Yaralarım sağalacaqmı?

Təbib isə: «Narahat olmayın, hər şey yaxşı olacaq,» – demişdi.

Bir müddət sonra təbib Teymura həqiqəti deməyi qərara aldı Onun sorğusuna cavab olaraq təbib həqiqəti söylədi:

– Qolunuz işləməyəcək, ayağınız isə axsayacaq.

Teymur acı-acı düşündü. Deməli, hər şey məhv oldu. Puç oldu o xəyallar–yenilməz sərkərdə, qüdrətli hökmdar olmaq arzusu. Harada görünüb ki, şikəst adam hökmdar olsun? Bir ayaq, bir qolla, Cingiz soyundan olmaya-olmaya hakimiyyət uğrunda mübarizə apar. Ölkələr fəth elə».

Sonralar fatehlik zirvəsinə çatan Teymur tərcümeyi-halında yazırdı: «Mən on iki yaşında ikən özümdə fövqəladə fərasət və əzəmət hiss etdim. On səkkiz yaşımda isə at çapmaq və ovçuluqda olan məharətim barədə düşünməyə başladım. Əksər vaxtımı Quran oxumaqda, şahmat oynamaqda və at çapmaqda keçirirdim».

Bu zaman 25 yaşlı Teymur Keş vilayətinə hakim təyin edilmişdi. Bununla kifayətlənməyən Teymur nüfuzlu bir türk əmrinin nəvəsi ilə evləndi. Ölkədə hakimiyyəti ələ keçirmək üçün qaynı ilə gizli ittifaq bağladı. Ancaq bu arada Sistan döyüşü baş verdi. Bu haqda Teymur yazırdı: «Lənətə gəlmiş Sistan valisi məndən düşmənlərinə qarşı yardım istədi. Dedi ki, qalalarımı azad etsən, qoşununu altı ay ərzaqla təmin edəcək. Sən demə, fikri başqa imiş. Məni gücdən salıb məhv etmək istəyirmiş. Beş qalasını azad etdim. O isə mənə arxadan zərbə vurdu. Xain! Rəqibə inanmaq lazım de-

yilmiş. Onu əzmək, məqsədin uğrunda çarpışmaq lazım imiş-bu qarışqa kimi. Qarışqanın timsalında özünə sanki həm dərd tapan Sərdar elə bil bir az sakitləşdi. Bir neçə gün ərzində ilk dəfə mürgülədi. Bir-iki dəfə gözünü açıb-yumdu, gözü divarda qarışqanı axtardı. Qarışqa yenə ağzında buğda dənəsi üzüyuxarı dırmaşırdı. Öz-özünə deyindi: «Nə inadkar məxluqdu bu qarışqa? Düz yeri qoyub divara dırmaşır. Bəlkə, belə lazımdır? Bəlkə, xoşbəxtlik zirvəyə çatmaqda deyil, ona can atmaqdadır?! Bəlkə, yol daha çətin olduqca insan da bir o qədər xoşbəxt olur Onda mən niyə zarıyıram?! Yəni bu qarışqa qədər də olmadım?! Böyük iş olub, ayağım axsayacaq! Guya ki, ölkələri qaça-qaça fəth edəcəkdim. Ağlım yerində, qüdrətimi itirməmişəm. Yaralanmış ayaqla Sistan qoşununu məğlub etdim. Yox, sevinməyin, düşmənlər! İndi üstümüzə Topal Teymur gəlir, o, sizdən mərhəmət diləmir, lakin siz də bundan aman gözləməyin.

Teymur salamat qoluna dirsəklənib taxtda oturdu. Ağrılara baxmayaraq, yaralı ayağını yavaş-yavaş taxtdan aşağı salladı. Ayağa qalxdı, ancaq yeriyə bilmədi. Bütün ətrafı lərzəyə gətirən bir səslə qışqırdı:

– Ey, kim var orada?!

Deyin hazırlıq görülsün, döyüş təbilləri vurulsun! Gecənin bağrı yarılıb, səmada ayın haləsi görünəndə əsas düşmən üzərinə hücumum başlayacaq.

Qarışqadan ibrət götürən Teymurun fatehliyə gedən yolu yenidən başlandı.

## ŞƏHRİYAR DÜNYASINDAN

Görkəmli Azərbaycan şairi M.Şəhriyar Yaxın və Orta Şərq ədəbiyyatında şöhrət tapan söz xridarlarından biri idi. Hələ gənclik illərində fars dilində yazdığı şeir və poemalar onu şöhrət zirvəsinə qaldırmışdır. Rəvayət edirlər ki, Tehranda yaşayan Şəhriyar xəstələnir, anası onu yoluxmağa gedir. Bir müddət ana-bala bir yerdə qalırlar. Şəhriyar sağalır. Anasına farsca yeni yazdığı bir qəzələni oxuyur. Anası deyir:

– Ay oğul, fars dilində yazdığın şeirdəki mənanı mən anlaya bilmirəm. Nə üçün öz dilimizdə şeirlər yazmırsan?

Ananın bu sözləri Şəhriyarı elə bil silkələdi. Həmin gündən Azərbaycan dilində bir çox qiymətli şeirlər yazdı. Xüsusilə «Heydər babaya salam» adlı lirik poeması şairə böyük uğur gətirdi. Qeyd edim ki, İran, eləcə də Azərbaycan ədəbiyyatında ən çox nəzirə yazılan əsərlərdən biri «Heydər babaya salam» poeması olmuşdur. Şair bu poemada Azərbaycan dilinin şəhdini, şəkərini, milli, etik adət-ənənəmizi böyük ustalıqla tərənnüm etmişdir. Şimali Azərbaycanda yaşayan görkəmli şərqşünas alim Rüstəm Əliyevlə sıx münasibəti olmuş, M.Rahim, S.Rüstəm, B.Vahabzadə, N.Xəzri və başqalarına həsr edilən şeirlər yazmışdır.

Qeyd edim ki, ədəbiyyatın şöhrət zirvəsində dayanan bu uzman şairimizin həyatı çox acınacaqlı keçmişdir. Tehranda tibb institutunda oxuyarkən İran şahının qohumlarından olan və burada oxuyan Sürəyya adlı qıza dəlicəsinə vurulmuş, Sürəyya da onu sevmişdi.

Məhz buna görə vəzifəli şəxslərin təhriki ilə M.Şəhriyar tibb institutundan qovulmuş, uzun illər ərzində Nişapura sürgün edilmişdi. Bu münasibətlə Nişapurda bir sıra dillər əzbəri olan şeirlər yazmış, ömrünün sonlarına qədər Sürəyya həsrəti onun həyatını cəhənnəmə döndərmişdirr. Yazdığı əsərlərin nəşri qadağan edilmişdi. Sonralar xalqımızın böyük oğlu Cavad Heyətin köməkliyi ilə Təbrizə gəlmiş, orada «Əkin və zirət» bankında mühasib köməkçisi işləmişdir. Bu münasibətlə yazdığı şeirdən bir parçanı burada görmək istəyirəm:

*Bizdən çox qabaqdı avropalılar,*
*İşi işbilənə tapşırır onlar.*
*Atalar nə gözəl misal deyiblər*
*Deyiblər çörəyi çörəkçiyə ver.*
*Gətir xəyalına firəng dostları,*
*O cərrah bıçaqlı böyük Pasteri,*
*Volteri, Didronu xəyala gətir,*
*Onlar Fransanın əzəmətidir.*

*Valterin əlindən qələmini al,*
*Ona kamança ver, de, bir kaman çal.*
*Kim bilir, bəlkə də alar, çalardı,*
*Fəqət bəşəriyyət onsuz qalardı.*
*Bu dərdlər mənimdir düşünsən əgər,*
*Qələm istəyirəm, sayğac verirlər.*
*Mənə nə idarə, nə möhür gərək,*
*Söz üstə odlanan bir ömür gərək!*

Bu ustad söz sərrafının həyatı çox keşməkeşli olmuşdur. Süreyya həsrəti ilə daim baş-başa qalan şair yaxınları, dostları, nəhayət ki, təxminən qırx yaşında evlənməyə razı saldılar. Əsilli, köklü, həm də ziyalı bir ailədən olan (O, həm də Şəhriyarın qohumu idi) Əzizə müəllimə ilə evlənməyi təklif edirlər. Şair bu təklifə razı olur. Ancaq Əzizə xanım deyir:

– Onunla mənim ailə qurmağım üçün yaş fərqimiz uyğun deyil. Biz ailə qursaq, yaşlı olduğuna görə o, dünyadan tez köçəcək. Onda uşaqlarımız atasız qalar və bu hal mənim üçün çox ağır olar.

Buna baxmayaraq, ailələrinin, qohum-qardaşının təkidi ilə bu izdivac baş tutur. Bir neçə il sonra fələyin çarxının tərsinə fırlanması nəticəsində Əzizə xanım dünyadan vaxtsız köçür. Bu gözlənilməz faciə Şəhriyara böyük müsibətlər gətirir.

Maddi baxımdan da şairin həyatı çox acınacaqlı olmuşdur. Ancaq 1978-ci ildə şah rejimi devriləndən sonra İranda yeni qurulan hakimiyyət bu böyük şairə pensiya təyin etmişdir.

M.Şəhriyar ömürboyu Bakı həsrəti ilə yaşamışdır. Ancaq şah rejimi şairin bu arzusuna qovuşmağa da imkan verməmişdir.

1988-ci ildə dünyadan köç edən M.Şəhriyar məşhur «Şairlər qəbiristanlığında» dəfn edilmişdir.

**GÜPPAN YADINA DÜŞDÜ**

Şahbuz rayonunun Keçili kəndində baməzə, söz-söhbəti bu gün də dildə-ağızda gəzən Həsənqulu kişinin bir qohumu

yaşayır. Onun da bəzi söhbətləri xalq arasında işlənir. Çox əməksevər, dosta sədaqətli olan Şiraz adlı bu kişi hələ yeniyetməlik illərindən əməklə məşğul olmuş, atasızlığın ağrısın çəkmişdir. O illərdə xaraba Keçil ərazisində gəvən yağı yığmaqla məşğul olan Şiraz orada olan suyu çox az olan bir bulağın gözün qazmış, gözün təmizləmiş ətrafına söyüd əkmişdi. Həmin vaxtdan indi ətrafında gövdəli söyüd olan bulağa hamı «Şiraz bulağı» deyir.

Şirazla bağlı bir əhvalatı da oxucuların nəzərinə çatdırmaq istəyirəm:

Dinimizə, imanımıza, milli kökümüzə bütün varlığı ilə bağlı olan Kərbəlayı Şiraz tənbəlləri, şərab içənləri heç istəməz kolxozluq illərində kolxozun QAZ-63-ün sürürmüş. Bir qış günü Keçili kəndinə Bakıdan Tükəzban İsmayılova başda olmaqla bir dəstə incəsənət adamı gəlmişdi. Kənd rəhbərliyi tərəfindən verilən məclisdə o vaxt sovet ordusunda proporşik işləyən bir nəfər də özünü bir təhər qonaqların içərisinə salmışdı. Yeyib-içib hala gələndən sonra çıxış etmək istəyəndə ağzına gələni danışmağa başladı. Məclis qarışdı biri-birinə. Kolxoz sədrinin göstərişi ilə proporşiki evlərinə aparmaq üçün birtəhər kolxozun QAZ-69-na mindirdilər. Maşının sürücüsü isə içki içənlərdən zəhləsi gedən Şiraz kişi idi. Maşında özünü normal idarə edə bilməyən, ağzına gələni danışan bu şəxs Şiraz kişinin lap hövsələsini pozmuşdu. Yolda bir istədi bu içkili şəxsi sürüyüb yerə sala. Ancaq «lənət şeytana» deyib, fikrindən daşındı. Düz onların evlərinin yaxınlığına qədər çətinliklə gəlib çıxdı. Onu evlərinə təhvil verdi. Geri qayıdanda maşında olan başqa bir şəxs üzünü Şiraz kişiyə tutdu:

– Ay Şiraz, çox sağ ol ki, səbrini basdın, onu sürüyüb yerə salmadın!

Şiraz dedi:

– Salacağıdım. Ancaq o maa bir güppan vermişdi. O güppan gəlib durdu gözümün qabağında. Qaldım məəttəl, güppandan keçəmmədim. Yoxsa bilirsən ki, içən, özünü idarə edə bilməyən adamnan zəhləm gedir. Qurban olsun guppana!

## MİNBİR DƏRDİN DƏRMANI – NAFTALAN

Günlərin bir günü tacirlərin karvanı Naftalan ərazisindən keçirdi. Burada çoxlu bulanıq sulu göllər vardı. Onlar ilk dəfə belə göllərlə rastlaşdıqları üçün şübhələnib göllərdən aralı keçirlər. Heyvanlara ziyan dəyməsindən ehtiyatlanıb dəvələri də göllərə yaxın qoymurlar. Gecə növbə ilə keşik çəkirlər ki, birdən heyvanlar özlərini göllərə vurar. Karvanda həddindən artıq, cansız, həm də xəstə bir dəvə vardı. Yük götürməyən, karvanla ayaqlaşa bilməyən bu dəvə sahibini cana yığmışdı. Çox götür-qoydan sonra karvanbaşı həmin xəstə dəvəni karvandan ayırmağı əmr edir və deyir:

– Belə heyvanın bu cür əzab-əziyyətlə yaşamağındansa, gölün suyundan zəhərlənib biryolluq ölməsi daha yaxşıdır. Onu elə burada qoyub gedək.

Tacirlər belə də edirlər. Həmin dəvənin yükünü başqa dəvələrə yükləyib, yollarına davam etdilər. Bir müddət sonra karvan geri dönərkən xəstə dəvə ilə yenidən rastlaşırlar. Görürlər ki, xəstə dəvə tamam dəyişib, kökəlib, gümrahlaşıb. Mat-məəttəl qalırlar. Maraqlanıb dəvəni izləyirlər. Görürlər ki, dəvə gölün sahilində gəzinir, gölə baş vurur, sonra gölün sahilində yatır.

Onlar gölün suyuna əl vurarkən görürlər ki, bu, su deyil, yağdır. Məlum olur ki, xəstə dəvəyə şəfa verən bu yağın hikməti imiş. Sonradan məlum olur ki, bu yerlərin camaatı bu yağdan dərman kimi istifadə edirmişlər.

Naftalan–neft olan, başqa sözlə neftlə zəngin olan yer deməkdir. «Naftalan» neftinin çox böyük müalicəvi əhəmiyyəti vardır. Əsl təbiət mözücəsidir. Onun haqqında ilk məlumat XII əsrə aiddir. Dünyada yeganə təbii neft müalicəxanası olan bu yer Gəncədən 45 km aralı, Goranboy ərazisində yerləşir. Bu günə qədər ölkəmizdə, eləcə də xarici ölkələrdə minlərlə insana şəfa verib.

Alman mühəndisi Yeger 1887-ci ildə buraya gəlir. Böyük sahə alıb bir neçə quyu qazdırır. Çıxarılan neftin bir hissəsi dərman hazırlamaq üçün Almaniyaya aparılır. Tezliklə Berlində məşhur «Naftalan-Yeger» firması yaradılır. Naftalanın

şöhrəti hər yerə yayılır. Rus-yapon müharibəsi illərində yapon əsgərlərinin çantalarında qablarda Naftalan dərmanı olarmış. Həmin çantadakı qabların üstündə bu sözlər yazılmışdı: Kimin əlində bu məlhəmdən varsa, heç bir yaradan qorxmasın».

## TARİXİ YADDAŞIMIZ İSMAİLİYYƏ

XX əsrin əvvəllərində Azərbaycan milyonçularından bəziləri Bakıda tarixin daş yaddaşına hopmuş əzəmətli binalar ucaltmışdılar. Binalardan biri də məşhur milyonçu, Bakıda ən çox tarixi binalar tikdirən, «Şollar» suyunun Bakıya çəkilişində ən çox pul sərf edənlərdən biri olan Musa Nağıyevin tikdirdiyi məşhur «İsmailiyyə» binası idi.

Musa Nağıyevin gənc oğlu Ağa İsmayıl ağır xəstəliyə tutulmuşdu. Onu müayinə edən doktor xəstənin İsveçrədə əlli min manata müalicə edilə biləcəyini dedi. Lakin pulun çoxluğuna görə Ağa Musa bu təklifdən imtina elədi.

Bir müddət sonra xəstənin vəziyyəti pisləşdi. Bu dəfə Ağa Musa əvvəl deyilən pulu verməyə razılıq verdi. Ancaq gec idi. Ağa İsmayıl dünyadan vaxtsız köçdü. Oğlunun ölümündə özünü günahkar bilən milyonçu ata ağır iztirab keçirirdi. Bir gün məşhur milyonçu, xeyriyyəçi Hacı Zeyanalabdin Tağıyevlə görüşəndə Hacı Ağa Musaya dedi:

– Allah oğlun Ağa İsmayıla rəhmət eləsin. Onun adın əbədiləşdirmək istəyirsən?

– Hacı, istəyirəm. Niyə istəməyim ki?

– Mənim açdığım qız məktəbinin alt tərəfi boşdu. Orada tikintiyə başla. Adın da qoyaq «İsmailiyyə». Heç olmasa, yazıq uşağın adı yaddan çıxmasın.

– Nə deyirəm, sən deyən olsun.

Səhəri binanın layihəsin hazırlayan əslən polyak olan Ploşko ilə söhbətdən sonra başılovlu halda özünü Zeynalabdin Tağıyevin yanına saldı:

– Ay Nacı, bu nə işdi, mənim başıma gətirirsən? Bu qədər tanqah məndə hardandı? Məni müflisləşdirmək istəyirsən?

– Ağa Musa varidatına iki milyon verirəm.

– Atam, atam, mənim əlli milyonluq varidatımı iki milyona almaq istəyirsən?

Bərk hirslənir. Ancaq sonra peşmanlayır, geri qayıdır. Tağıyevə deyir:

– Mən razı, qoy sən deyən olsun.

Bir müddət sonra Bakının qala divarlarının qərb hissəsində Musa Nağıyevin sifarişi ilə möhtəşəm bir bina ucaldıldı. Bu möhtəşəm bina xalqımızın tarixində bir çox taleyüklü hadisələrin şahidi oldu. Bina ictimai məqsədlər üçün tikilmişdi. Azərbaycanın ilk İstiqlaliyyət bəyannaməsi də bu binada elan edildi. Xeyriyyə tədbirləri, ədiblər, ziyalılarla görüşlər burada keçirilirdi. Bir müddət Azərbaycan Elmlər Akademiyası da bu möhtşəm binada fəaliyyət göstərmişdi. Binanın foyesində Ağa İsmayılın heykəli ucaldılmış, divarlar milli ornamentlərlə, Quran ayələri ilə bəzədilmişdi. Bu barədə Qılman İlkinin, Manaf Süleymanovun, Seyid Hüseynin kitablarında geniş məlumatlar verilmişdi.

1918-ci ilin mart hadisələri zamanı erməni vandalları bu binanı da top atəşinə tutmuş, Ağa İsmayılın heykəlini uçurub dağıtmışdılar.

Milyonçu Musa Nağıyev erkən vəfat etmiş oğlu İsmayılı xalqın yaddaşında məhz bu əzəmətli bina ilə əbədiləşdirdi.

## ƏLİNCƏ QALASI

Əlincə qalası xalqımızın qürur duyduğu tarixi abidələrimizdən biridir. Bu qala Naxçıvan Muxtar Respublikası Culfa rayonu ərazisində yerləşir. Əlincəçayın sağ sahilindədir. Burada böyük düzənliyin ortasında yüksələn sıldırım qaya üzərində qərar tutmuşdur. Bu qalaya o vaxtlar üç tərəfdən dar «Keçi cığırı» adlandırılan cığırlarla çıxmaq olarmış. Hər tərəfdən divar və bürclərlə əhatə olunmuşdur. Qəsr özü isə dağın zirvəsində yerləşir.

«Əlincə» adının qədim türk dilindəki «yastı», «alan», düzənlik, düzən mənasından yarandığı etimal olunur. Lakin

qədim türk dillərində dağın təpəsi anlamını verən «alın» və «qənimət» anlamı daşıyan «alınc» sözləri də olmuşdur.

2000 ildən çoxdur ki, xalqımızın qədim eposu olan «Dədə Qorqud»da Əlincə qalasının adı çəkilir. XII əsrdə Azərbaycanda Eldəgizlərin hakimiyyəti dövründə Əlincə qalasının əhəmiyyəti daha da artmışdır. O zaman Eldəgizlərin xəzinəsi bu qalada yerləşirdi.

XIV əsrdə dünyanı lərzəyə salan Əmir Teymur qarşısına çıxan şəhərləri, qalaları asanlıqla fəth etsə də, Əlincə qalasını uzun müddət ərzində fəth edə bilməmişdir. Oğli Miranşahın rəhbərliyi ilə qala uzun müddət mühasirədə qalmış, Lakin Miranşah arzusuna çata bilməmişdir. Görkəmli yazıçımız İsa Hüseynovun «Muğanna», «Nəsimi», «Məshər» romanında, eləcə də «Nəsimi» filmində dediklərimiz işıqlandırılmışdır. 1393-cü ildə Əlincə uğrunda amansız, qanlı döyüşlər gedir. Teymur qoşunu dörd dəfə qalanı tutmaq üçün hücuma keçsə də, məqsədinə nail ola bilmir.

Rəvayətə görə, qalanın dərinliyindən Əlincəçaya gizli yol olub. Gecələr qala müdafiəçiləri bu gizli yolla su və ərzaq təminatın əldə edirmişlər.

1399-cu ildə uzun müddət mühasirə vəziyyətində qalan müdafiəçilər arasında münaqişə yaranır. Bundan istifadə edən Əmir Teymurun qoşunu qalanı tuta bilir.

Əlincə qalası haqda müxtəlif janrlarda bir çox əsərlər yaranmışdır. Bu barədə görkəmli şairimiz İslam Səfərlinin məşhur şeirinin bir bəndini oxucuların nəzərinə çatdırmaq istəyirəm:

*Bu dağlar yaşadır məğrur insanı,*
*Burda babaların axmışdı qanı.*
*Qədim Naxçıvanın polad qalxanı,*
*Əyilməz Əlincə qalasıyam mən.*

**BURADA BİR MÜSƏLMAN VARMI?**

Ucqar bir dağ kəndində bir neçə mömün şəxsin köməyi, təşəbbüsü ilə məscid tikilmişdi. Köçəri həyat sürən

camaatı boş vaxtlarında məscidə yığır, dini söhbətlər aparırdılar. Bu xeyirxah işdən razı qalanlar da vardı, narazı olanlar da.

Camaat məsciddə mollanın söhbətlərinə qulaq asan vaxt bir ləzgi məscidin arxasından keçən yolla bir qədər qaramalı dağ tərəfə aparırdı. Ancaq bu ləzgi malları mal sahibinin göstərişi ilə dağa aparırdı. Adicə malın başını kəsməyi də bacarmırdı. Birdən getdiyi yerdə mallardan biri yerə yıxıldı. Çabalamağa başladı. Ləzgi oğlan qaçdı məscidə ki, oradan bir adam çağırsın, gəlib malın başını kəssin. Əlində qəmə hə-yəcanla məscidə girən ləzgi oğlan qışqırdı:

– Burda bir müsəlman var?

Bu vəziyyətdə qorxuya düşən məscid əhlindən səs çıxmadı. Ləzgi oğlan tələsik malın yanına qaçdı ki, bir təhər malı özü kəsə. Ancaq yarıya qədər zorla buğanın başın kəsə bildi, bıçaq sümüyə dayandı. Qan fışqırıb üz-gözünü, paltarını batırdı. Bu vəziyyətdə yenə məscidə tərəf qaçdı. Qəməsindən qan damlaya-damlaya yenə əsəbi şəkildə dedi:

– Burda bir müsəlman yoxdu?

İçəridəkilərin çoxu qorxuya düşdü ki, yəqin, ləzgi oğlan qəməni işə salacaq. Onun qanla üz-gözünə, əlindəki qəməyə baxan bir qorxaq kişi axırda dilləndi:

– A qardaş, xata eləyib məscidə gəlməmişik ki? Hələ müsəlmançılığa təzə başlayırıq. Məni də bura bir növ zornan gətiriblər.

## ƏYAN VƏ KƏNDLİ

Bir kəndli isti havada biçindən geri qayıdırdı. Çox yorumuşdu. Yol qırağında olan bir qollu-budaqlı kolun kölgəsində dincəlirdi. Elə bu vaxt padşahın əyanlarından birinin yolu buradan düşdü. Yorğun-arğın kəndli ayağa durub, ona təzim etmədi. Kəndlinin sayqısızlığını qəbul edə bilməyən əyan kəndlinin üstə hirsləndi.

– Nə üçün ayağa durub təzim etmədin?

Kəndli soruşdu:

– Sən kimsən?
– Mən əyanam.
– Bəs sənin böyüyün kimdi?
– Padşah.
– Bəs padşahın böyüyü kimdi?
– Allah.
– Bəs Allahın böyüyü kimdi?
Bu sualdan bərk hirslənən əyan sərt cavab verdi:
– Heç kim!
Kəndli təhrini pozmadan cavab verdi:
– O heç kim elə mənəm. Bu cavabdan gözləri bərələ qalan əyan kəndlinin yanından sürətlə uzaqlaşdı.

### BUNDA DA BİR XEYİR VAR

Bir hökmdar hakimiyyətə çatandan sonra da uşaqlıq dostundan ayrılmaz, hara getsə, onu da özüylə aparırmış. Onun ağıllı məsləhətlərinə həmişə əməl edərmiş. Hökmdarın uşaqlıq dostunda bir xasiyyət varmış. Bir şər iş baş verəndə də deyərmiş: «Bunda da bir xeyir var». Hökmdar isə onu təəccüblə süzər, başın bulayar, ancaq dostluğun xatirinə bir söz deməzmiş.

Bunlar bir dəfə də ova getmişdilər. Ov tüfənglərinin ikisinə də patron qoyan uşaqlıq dostu tüfəngi hökmdar dostuna verir və deyir:

– Al tüfəngini. Ova birinci atəşi sən açmalısan. Onlar ovun marığına yaxınlaşırlar. Hökmdar ova atəş açır. Lakin atəş geri açılır və hökmdarın bir barmağını qoparıb yerə salır. Bunu görən uşaqlıq dostu yenə deyir:

– Bunda da bir xeyir var.

Həm ağrıdan, həm də dostunun bu sözlərindən bərk qəzəblənən hökmdar əmr edir, dostunu zindana salırlar. Qəzəblə deyir: «Görünür, bunun ağlı qaçıb. Mənim barmağımı güllə qoparıb, yerə salıb. Bu isə deyir ki, bunda da bir xeyir var. Zindanda ağlı başına gələndə danışığını, yer-yurdunu bilər».

Aradan bir ilə qədər vaxt keçir. Adamyeyənlər tayfası ilə gedən döyüşdə hökmdar əsir düşür. Səhərisi adamyeyənlər

meydanın ortasında tonqal qalayıb, onu oddan bişirmək istəyirlər ki, ətini yesinlər. Görürlər ki, onun barmağının biri yoxdu, şikəstdi. Ona görə də onu öldürmür, azad edirlər.

O tayfanın qanunlarına görə şikəst adamı öldürməz, ətin də yeməzmişlər. Nəhayət, hökmdar çox çətinliklə gəlib öz ölkəsinə çıxır. Barmağını güllə qoparanda dostunun dediyi söz yadına düşür, dostunu xatırlayır. Onu zindandan azad etdirib, yanına gətirir. Başına gələn əhvalatı danışır, ondan üzr istəyir. Günahını bağışlamağı xahiş edir.

Dostu deyir:

– Üzr istəməyə dəyməz.

Mənim zindana salınmağımda da xeyir olub.

Hökmdar deyir:

– Day bunun nəyi xeyir olub? Düz bir il zindan əzabı çəkmisən!

– Orası elədi. Atalar deyib: «Hər zərərdə bir xeyir də var». Mən zindanda olmasaydım, yəqin ki, həmin döyüşdə sənlə bir yerdə olacaqdım. Səninlə birlikdə əsir düşəcəkdim. İnsan əti yeyənlər də mənlə haqq-hesab çəkəcəkdilər.

Padşah dostunun bu sözlərindən sonra dərin fikrə getdi. Dodaqaltı pıçıldadı: «Deyəsən, dostunun dedikləri doğrudur. Hər ziyanda bir xeyir də var».

## QIRAĞINA BAX, BEZİN AL

«Qırağına bax, bezin al, anasına bax, qızın al». Bu zərbül-məsəl, aforizm xalqımızın arasında, eləcə də türk dilləri ailəsində geniş işlənən atalar sözlərindən birinə çevrilib. Bu atalar sözünün ikinci hissəsi, yəni anasına bax, qızın al kəlamında işlənən məna çaları oxucu tərəfindən aydın başa düşülür. Əksər hallarda qız övladları analarına oxşayır, ananın xarakterinə, xasiyyətinə yiyələnirlər. Elə buna görə də dədə-babalarımız illərin sınağından çıxan bu hikməti ailə quran gənclərimiz üçün bir yadigar kimi qoyub getmişlər.

Atalar sözünün birinci tərəfinin – «qırağına bax, bezin al»ın mənaları isə aşağıda verdiyimiz kimi iki mənada

işlənmişdir. Bir məna çaları ondan ibarətdir ki, bezin keyfiyyəti, onun bərkliyi qırağından bilinər. İkinci mənası isə xeyirxah, xeyriyyəçi, milyonçu Zeynalabdin Tağıyevin həyatı ilə bağlı olmuşdur.

XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində Azərbaycanda neft sənayesi ilə yanaşı, digər sahələrdə inkişaf etməyə başlamışdı.

O dövrdə Azərbaycanda toxuculuq, parça istehsalı, demək olar ki, inkişaf etməmişdi. Azərbaycana gətirilən bez və digər parçalar əsasən Rusiya, İran və Türkiyədən gətirilirdi. Ona görə də xalqımızın qeyrətli oğlu Z.Tağıyev qarşısına məqsəd qoydu ki, Azərbaycanda bu sahəni inkişaf etdirsin. Ona görə də toxuculuq fabrikinin açılmasına icazə verilməsi üçün bir çox yuxarı təşkilatlara müraciət etdi.

Hacı məsələdə ona görə çox israrlı idi ki, belə fabrikin açılması yüzlərlə insanın işlə təmin edilməsinə kömək edəcəkdi.

Yazılan ərizələrə müsbət cavab ala bilməyən Hacı, nəhayət, o vaxt imperiyanın paytaxtı olan Peterburq şəhərinə getməli oldu. Uzun çək-çevirdən sonra nəhayət, çarın qəbuluna düşə bildi. Məqsədini çara bildirdi. Lakin çar Hacının imperiya qarşısında xidmətlərini nəzərə alaraq, ona toxuculuq fabrikinin deyil, bez fabrikinin açılmasına icazə verilməsinə sərəncam verdi.

Bakıya qayıdan kimi Hacının göstərişi ilə işə başlandı. Almaniyadan fabrik üçün avadanlıq gətirildi. Qısa müddətdə bez fabriki istifadəyə verildi. Açılışda qubernator və digər hörmətli şəxslər iştirak etdi.

Z.Tağıyev xaricdən ölkəyə gətirilən bezlə rəqabətdə üstünlük əldə etmək üçün keyfiyyətə daha çox üstünlük verilməsinə nail oldu. Həm də İrandan, Türkiyədən, Rusiyadan gətirilən bezlərdən fərqlənmək üçün istehsal olunan bezin qırağına iki cızıq da salınmışdı. Bezin qırağına baxan kimi bilirdilər ki, bu bez Hacının fabrikində istehsal olunub. Ona görə də camaat bu bezin alınmasına üstünlük verirdi. Qırağındakı cızıqlardan bilinirdi ki, bu bez Hacının fabrikində istehsal olunub. Hacı xalqının qədirbilən olduğunu, onun

xalq qarşısındakı xidmətlərini unutmayacaqlarını bildiyinə görə belə etmişdi. Ona görə də bez alanda «Qırağına bax, bezini al» ifadəsi geniş işlənirdi. Burada həm keyfiyyətli bezin, həm də iki cızığa görə Z.Tağıyevin fabrikinin istehsalı nəzərə alınırdı. Bu ifadə indi işləndiyi mənada isə əsasən keyfiyyətli bez kimi başa düşülür.

## XAN ŞUŞİNSKİ DÜNYASINDAN

Əsl adı İsfəndiyar olan Xan Şuşinskiyə məlahətli səsinə görə o dövrün məşhur musiqişünasları «musiqinin xanı, yaxud Xan Şuşinski» təxəllüsünü vermişlər. Həm də baməzə, sözünü birbaşa üzə deyən adam olmuşdu. Elə buna görədir ki, indinin özündə də onun haqqında müxtəlif rəvayətlər xalq arasında işlənir.

Təzə məşhurlaşan vaxtları Xan əmi bir dəstə musiqiçi dostları ilə Ağdamda bir xudmani bağda çay içir, maraqlı söhbətlər edirmişlər. Elə bu an Xan Şuşinskinin oxuduğu mahnılardan, muğamlardan bir neçəsi radiodalğalarında səsləndirilir. Təsadüfən buradan keçən bir nəfər ayaq saxlayır, görkəmli sənətkarın ifasını elə ayaqüstəcə axıra qədər çox məmnunluqla dinləyir. Getmək istəyəndə ucadan deyir:

– Ə, bu köpəyoğlu öz şirin avazı ilə yeri-göyü yandırır, insanı lap heyran edir.

Kişinın bu sözlərini eşidən və Xan Şuşinskinin də bağda olduğunu bilən bir baməzə kişi xan əmiyə yaxınlaşır, salam-kəlamdan sonra deyir:

– Xan əmi, bax o gedən ucaboy kişini görürsən?

– Bəli, görürəm.

– O, səni indicə söydü.

– Nəyə görə məni söyürdü?

– Yaxşı oxumağa görə. Dedi ki, köpəyoğlu yeri-göyü yandıra-yandıra oxuyur.

Bayaqdan hövsələdən çıxmaq istəyən Xan əminin dodağı qaçır və deyir:

– Canım, sən narahat olma. Onun işlətdiyi «köpəyoğlu» söyüş mənasında işlədilən «köpəyoğlu»ndan deyil. Yaxşı mənada işlənəndi. Bu «köpəyoğlu» o «köpəyoğlu»ndan deyil.

## YAXŞILIQ VƏ PİSLİYƏ MÜNASİBƏT

Bir kişi həyətində ağ və qara rəngdə iki it saxlayırdı. Həmişə onlara yemək verəndə onlara baxa-baxa xeyli düşünərdi. Bir gün babanın bu halını müşahidə edən nəvə babaya yaxınlaşıb deyir:

– Baba, nəyə görə saxladığın bu itlərin birin qara rəngdə, birini də ağ rəngdə seçmisən? Bir də nə üçün bu itlərin yanına gələndə xeyli fikrə dalırsan?

Baba deyir:

– Ağ rəng yaxşılığın, qara rəng isə pisliyin simvoludur.

– Baba, bu itlərin boğuşarsa, hansı qalib gələr?

– Hansına yaxşı qulluq etsən, o qalib gələr. Gərək hər bir insan övladı da bətnində yaxşılığın daha çox bəslənməsinə, təzahür etməsinə diqqət yetirə. Bətnində pislik duyğularının baş qaldırmasına imkan verməyə. Onda yaxşılıq pisliyə qalib gələr. İnsanlar da bundan böyük fayda görər. Ona görə də hər bir insan qəlbində yaxşılıq toxumlarının boy artmasına bütün varlığı ilə fikir verməlidir. Məşhur atalar sözündə deyildiyi kimi: «Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq ər kişinin işidir».

Bu söhbətdən sonra nəvə də dərin fikrə getdi.

## ATA VƏSİYYƏTİ

Keçmiş əyyamda ata və oğul bir kənd yerində yaşayırdılar. Ata gözəl bağ-bağat salmışdı, ev tikmişdi. Ancaq evin bayır tərəfinə hələ suvaq çəkə bilməmişdi. Ata əməksevər, işgüzar bir insan olsa da, oğlu bu məsələlərdən uzaq idi. Fikri-zikri bağ-bağatı, ev-eşiyi satıb, pul əldə etmək, şəhər yerinə köçmək idi.

Ata bir gün bərk xəstələndi. Həyat yoldaşı dünyadan köçəndən sonra onda belə hallar tez-tez olurdu. Ancaq ata bu dəfə hiss elədi ki, daha bu yataqdan durmaq ona mümkün olmayacaq. Əcəl başı üstə fırlanır. Oğlunu yanına çağırdı, vəsiyyətini elədi. Son olaraq dedi:

– Oğul, bilirəm ki, məndən sonra evi də, bağ-bağatı da, üzümlüyü də satacaqsan. Ancaq sənə son vəsiyyətim budu ki, evi satmamışdan əvvəl bayır tərəfin suvatdırarsan. Bağ-bağata quluq edəsən, ağacların, meynələrin dibin yaxşıca qazarsan. Yazın ortalarında satmaq istəsən satarsan.

Ata bu sözləri deyib, gözlərini əbədi yumdu.

Atanın dəfnindən, yasdan sonra oğul atanın böyüklüyünü duymağa başladı. Elədiyi səhv hərəkətlərə görə xəcalət çəkdi, daxilən özünü danlamağa başladı.

Ancaq heç olmasa atanın son vəsiyyətini yerinə yetirsin deyə, əvvəl evin bayır tərəfini suvatdırdı. Atasının dediyi vaxt ağacların, meynələrin dibini yaxşıca bellədi. Yarpaqlayan ağacların, meynə yarpaqlarının xoş rayihəsi insanın ruhun oxşayırdı. Evləri də kənardan baxanda indi çox yaraşıqlı görünürdü. Bu mülkü satmaq fikri isə hələ də başında dolaşırdı. Ağacların yenicə açmağa başlayan çiçəklərinin ətri bu gözəlliyi daha da artırırdı. Bu evin, atasının min bir əzabla əmələ gətirdiyi bağın bir müddət sonra onun olmayacağını düşünən oğlan elə bil yuxudan ayıldı. Atasının vəsiyyətini xatırladı.

Demək, ata təxminən duyurmuş ki, ilin bu fəsli, bağ-bağatın gözəlliyi, evin yaraşıqlı görünməsi oğlanı, bəlkə, fikrindən yayındıra.

Oğlan dərin fikrə getdi. Öz-özünə dedi: «Heç vaxt bu gözəlliyi satmağa əlim gəlməz. Belə evi, bağ-bağatı başqa yerdə əmələ gətirmək üçün bir ömür lazımdı. O da baş tuta, ya tutmaya».

Beləliklə, bu hisslər altında yaşayan oğlan bu mülkün satılması fikrini beynindən kənarlaşdırdı. Buraları satmaq yox, daha da gözələşdirmək haqda düşünməyə başladı.

## İNSAN ÇƏTİNLİYƏ DÖZMƏYİ BACARMALIDIR

Çətinliklərə sinə gərən, həyatın enişli-yoxuşlu yollarında əzmkarlıqla irəliləyən insanlar kamillik dərəcəsinə çatmış olur. Çətinliklərdə bərkiməyənlər isə ömür yolunu ləyaqətlə, lazımınca başa vura bilmirlər.

Buna aid aşağıdakı məsəl necə də ibrətamizdir.

Barama qurdunun bəslənməsi, tut yarpağının atlasa çevrilməsi nə qədər çətin proseslərdən keçir. Bir dəfə barama qurdunun pupundan kəpənəyin çıxmasını izləyən iki nəfərdən biri kəpənəyin toxunan pupun içərisindən necə çətinliklə çıxdığını görür, kəpənəyin çıxmasına kömək etmək istəyir. Yanındakı adam dostunun bu hərəkətinə irad tutur.

Deyir:

– Dəymə, çətinliklə də olsa, qoy pupu özü deşib çıxsın. Onda o kəpənək sağlam olar.

Lakin dostu onunla razılaşmır, kəpənəyin çıxmasına kömək edir. Sonralar o kəpənəyi müşahidə edirlər. Görürlər ki, pupdan çıxmağına kömək olunan kəpənəyin qanadının birində problem var. Digər kəpənəklərə nisbətən zəifliyini hiss edirlər.

Ona görə də əvvəldən bu işdə dostuna irad tutan oğlan o birinə deyir:

– Gördünmü, sən o kəpənəyin pupdan çıxmasına kömək etmək istədin. Axırda da onun qanadının birində şikəstlik yarandı. O kəpənək özü çətinliyə dözüb, pupu özü deşib çıxmalı idi.

İnsanların da həyatında belə olur. Həyatın çətinliklərinə sinə gərənlər, həyat yollarında mübarizə apara-apara irəliləyənlər axırda xoşbəxtliyə qovuşa bilirlər. Kamil həyat yolu mübarizələrlə dolu anlardan keçməlidir.

## ÜZÜK ƏHVALATI

Qədim əyyamda Əlfi adlı halallığı, düzlüyü özünə bayraq edən bir kişi vardı. Halallığına, düzlüyünə, yalan danışmadığına

görə onun xatirini uca tutanlar çox idi. Ancaq el-oba içində qazandığı hörmət-izzətə görə onu gözü götürməyənlər də vardı. Belələri hər vəchlə bu halal kişiyə kələk gəlmək, var-yoxunu əldən çıxarmaq istəyirdilər. Nəhayət, bu cılız insanlar Əlfi kişinin şərikini ələ aldılar. İnsanlara inamı həmişə uca tutan, şərikinə isə hədsiz inanan Əlfi kişiyə qurulan «tələ» baş tutdu. Bir müddət sonra var-yoxu xəyanət yolu ilə əldən çıxdı. Ailə bir tikə çörəyə möhtac qaldı.

Düşdüyü vəziyyətin ağırlığından ikiqat olan Əlfi kişi ailə üzvlərinin də üzünə baxa bilmirdi. Atasının tez-tez işlətdiyi «Allah-tala heç bir bəndəni süfrə başında xəcalətli qoymasın» tez-tez xatırlayırdı. İndi süfrə başında özü xəcalətli qalmışdı. Həyat yoldaşının, uşaqlarının sualdolu baxışlarını gördükcə içindən buğum-buğum əriyirdi. Ona görə də son qərarını verdi.

Bir sadiq dostundan borc pul alıb evdə qoydu ki, ailə o pulla o, səfərdən qayıdana qədər bir təhər ötüşsün. Arvadına tapşırmalısını tapşırdı. Gecəykən uzaq bir diyara işləməyə getdi. Allah yolunu həmişə uca tutan Əlfi kişi getdiyi yerdə də bir halal, imkanlı ailəyə tuş gəldi. Sahibkarın həyət-bacasında, dükanında işləməyə başladı. O, burada da ibadətini yerinə yetirir, Ulu Yaradandan şükrünü əskik eləmirdi.

Sahibkar bu şəxsin hər hərəkətinə göz qoyurdu. Onu düzlüyünə, halallığına, Allaha yaxınlığına görə ürəyində təqdir edirdi. Elə buna görə də ona verilən haqqı həmişə artıqlaması ilə ödəyirdi. Ev-eşiyi, dükanı ona etibar edir, günlərlə başqa yerlərə səfərlərə gedirdi. Qayıdanda da hiss edirdi ki, Əlfi kişi bu evdə işləyəndən onun var-dövləti daha da artıb. Ona görə də ona verilən haqqı üç qat artırmışdı.

Söhbət zamanı hətta bir dəfə ona demişdi: «Səni özümə qardaş bilirəm. Get ailə uşağını da bura gətir. Evimin birini sənə verəcəyəm. Orada yaşayarsınız. Kürək-kürəyə verib, qardaş kimi fəaliyyət göstərərik». Ancaq qəribliyi, kiminsə himayəsində yaşamağı qəbul edə bilməyən Əlfi kişi ona minnətdarlıq etdi. Dedi:

– Allahımız sizi daim uca eləsin! Qarşıdan gələn Novruz bayramında evdən çıxmağımın bir ili tamam olur. Gedim

ailəmə baş çəkim, onlarla da məsləhətləşim. Sonra sizə qəti sözümü deyərəm.

Bir neçə gün sonra sahibkar özünə çox yaxın hesab etdiyi Əlfi kişiyə əlavə olaraq xeyli pul, qiymətli hədiyyələr verib yola saldı. Yol uzaq olduğuna görə sahibkar Əlfiyə at da bağışlamışdı. Ayrılanda dedi:

Onsuz da, qayıdacaqsan. Qayıdanda da ata minərsən.

Nəhayət, halal-hümbət eləyib, doluxsunmuş halda ayrıldılar.

Əlfi kişi təxminən bir həftəyə ancaq doğma yerlərə çata bilərdi.

Böyük bir yaşayış məntəqəsinin kənarından keçəndə həm yuxusuz olduğunu, həm də bərk yorulduğunu hiss elədi. Qaranlıq işığın qabağını kəsmişdi. Xeyli düşünəndən sonra atı lap kənarda olan, görkəmindən kasıb evinə oxşayan bir daxmanın qapısına sürdü. Ev sahibin harayladı. Bayıra ortayaşlı bir qadın, bir də qoltuq ağacları ilə hərəkət edən bir kişi çıxdı.

Əlfi nə məqsədlə onları harayladığını bildirdi. Evin kişisi üzüntülü səslə dedi:

– Qonaq Allah qonağıdır. Buyurun, varını verən utanmaz.

İçəri keçdilər. İçəridəki mənzərəni, üç azyaşlı uşağı da görəndə bu kasıb, imkansız ailənin güzəranı elə o an Əlfiyə bəlli oldu. Ancaq geri də qayıda bilməzdi.

Ortaya pendir-çörək, bir də kəklikotu çayı qoyuldu.

Əlfi elə də ac deyildi. Bir az əvvəl yemişdi. Yoluna sahibkarın ailəsi xeyli yemək də qoymuşdu. Ancaq çörək yeməsəydi, bu kasıb ailəyə daha bir zərbə dəymiş olardı. İştahla pendir-çörəyi yeməyə başladı. Ortaya qoyulan ərik qurusu ilə üç stəkan da çay içdi. Qara damın bir küncündə nimdaş yorğan-döşəkdən ibarət olan yerinə girdi. Yorğun olduğuna görə şirin yuxuya getdi. Obaşüzü yuxudan ayıldı. Namazını qıldı. Ulu Yaradana dua-səna elədi. Bu zavallı ailə üçün də dualarını yerinə yetirdi. Bir ildən artıq yarı-tox, yarı-ac dolanan küfləti gözü önünə gəldi. Ancaq tərəddüd etmədən ona verilən qiymətli hədiyyələrin bir yarısın, eləcə də bir qədər pulu qapı ağzına qoyub, səs-küy salmadan yola düşdü. Öz hərəkətinə görə özündə bir razılıq, rahatlıq tapdı.

Qarşıdakı şəhərdən keçəndə dilənçi dəstəsi ilə rastlaşdı. Qalan pulların bir qismini də onlara payladı. Gedərkən yolda bir dərvişlə rastlaşdı. Söhbət edə-edə yollarına davam etdilər. Əlfi kişi ona himayədarlıq edən sahibkarı xeyli təriflədi:

Atın üstündəki yarısı boş görünən xurcuna nəzər salan dərviş dedi:

– Sahibkarı çox da tərifləmə. Elə bir imkanlı adam xurcunu doldurmayıb da.

Dərvişin bu sözünə narazılığını bildirən yolçu ona qoyulan payın, pulun bir hissəsini evində gecələdiyi kasıb ailəyə və dilənçilərə verdiyini bildirdi. Həm də əlavə etdi ki, insan elədiyi yaxşılığı heç kimə bildirməməlidir. Məcbur qalıb sənin sorğuna cavab olaraq dedim. Qoy, bu səhvimə görə də Allahımız məni bağışlasın.

Bu cavabdan sonra öz ailəsini ehtiyac içində qoyub, çörək avarası olan bu yolçu dərvişin gözündə daha da böyüdü. Ürəyində ona alqışlar etdi. İlahidən ona mərhəmət dilədi.

Ayrılarkən dərviş kisəsindən bir üzük çıxarıb ona hədiyyə verdi və dedi:

– Belə böyük ürək sahibi olduğuna görə Ulu Yaradan səni həmişə qoruyacaq. Ancaq bilməlisən ki, əlini üzüyün qaşına çəkib, Yaradanımıza şükürlər edəndən sonra yalnız bir arzun həyata keçəcək. Nə istəməyəni, nə arzulamağını isə ancaq özün həll etməlisən.

Yolçu üzüyü qaytarmaq istəsə də, dərviş qəti etiraz etdi. Halallaşıb ayrıldılar.

Nəhayət, Əlfi gəlib öz doğmalarına qovuşdu. Evdəki ümumi vəziyyəti, uşaqlarının geyim-keçimini nəzərdən keçirən ev sahibi hiss etdi ki, ailə o qədər də sıxıntı keçirməyib. Sual dolu baxışlarını arvadının üzünə dikdi.

Kişini başa düşən qadın dilləndi:

– A kişi, heç narahat olma. Yaxın dostların, eləcə də vaxtilə əl tutduğun yaxşı insanlar bu ağır vaxtlarda köməklərini bizdən əsirgəmədilər.

Əlfi kişinin gəlişi ilə əlaqədar yaxınları qonum-qonşu görüşə gəldi. Ev sahibi işlədiyi ev sahibinin, eləcə də qadınının xeyirxahlığından ürəkdolusu danışdı.

Bu söhbəti eşidən yaşlı qonşu – Əli kişi dedi:

– Əlfi kişi, yaxşılıq haqda atalarımız gözəl deyiblər: «Yaxşılığı at dəryaya. Balıq bilməsə də xaliq bilər». «Yaxşı adam insanların naxışıdır». «Yaxşılığı dəryaya atsan, ada bitirər». Sən özün həmişə çalışmalısan ki, insanlara yaxşılıq edəsən. Ona görə də elədiklərin bu gün qarşına çıxır. Yaradanımıza şükürlər olsun ki, elədiklərinin bu ağır vaxtlarında qarşısına çıxıb.

Axşam Əlfi kişi dərvişin verdiyi üzük haqda da danışdı. Ancaq həyat yoldaşı da, uşaqları da dedilər ki, üzüyü hələlik əl vurmayaq. Son məqamda ona əl vurarıq. İndi qarşımıza çıxan problemləri özümüz həll edə bilərik.

Ev sahibi də onlarla razılaşdı. Sahibkarın verdiyi pulların hesabına dükanında yenə ticarətə başladı. Dükanı yaxın, inandığı bir dostuna tapşırdı. Özü isə bayramdan sonra yenə ona dar məqamda arxa-dayaq olan sahibkarın yanına qayıtdı. Bir ilə qədər yenə onunla işlədi. Sonra halal-hümmət edib, vətəninə qayıtdı. Onun var-dövləti əvvəlkindən də artıq olmuşdu. Üzük məsələsin dar gün üçün bir ümid işığı kimi saxlayır, bütün ailə çalışırdı ki, problemləri özləri həll etsinlər. Bir arzunu yerinə yetirəcək. Üzüyə isə lazım olan məqamda əl vursunlar. Kişi də hiss edildi ki, var-dövləti əvvəlkindən qat-qat artıq olub. Bu işdə bir ümid yeri kimi dərvişin verdiyi üzük də öz rolunu oynamışdı.

Ailə üzvləri var-gücləri ilə çalışırdılar ki, bir arzularını həyata keçirəcək üzüyü çətin günlərə saxlasınlar. Bu ailədə olan əməksevərlərin, halallıq, ev sahibinin elədiyi yaxşılıqlar ailəyə gündə-günə uğur qazandırırdı.

Allahımız həmişə yaxşıları qorusun, yaxşılıq yolunu qəlbimizdən uzaq eləməsin!

## EYNŞTEYN DÜNYASINDAN

Elmi kəşfləri ilə söhbət zirvəsinə çatan Eynşteyn həm də baməzəlikləri, duzlu-məzəli söhbətləri, hərəkətləri ilə də yaddaşlarda qalmışdı. Yaşadığı dövrdə Amerika Cəmiyyətində

onu tez-tez müxtəlif şəhərlərdəki elmi cəmiyyətlərə dəvət edərdilər. Orada müxtəlifsəpkili mühazirələrini oxuyardı. Sürücüsünü də ağlına, düşüncəsinə, ustalığına görə özü seçmişdi.

Bir dəfə bu görkəmli alimi Vaşinqtondan xeyli aralıda yerləşən bir şəhərə dəvət etmişdilər. Oradakı elmi cəmiyyətdə mühazirə oxumalı idi. Yolda sürücüsü Eynşteynə dedi:

– Sizin oxuduğunuz mühazirələrin bir çoxunu siz danışdığınız kimi əzbər danışa bilərəm. Eynilə sizin kimi, nöqtəvergülünə qədər.

Bu sözdən gülümsəyən Eynşteyn dedi:

– Yaxşı, bu gün səni yoxlayacağam. Burada məni heç kim tanımır. Üç gün əvvəl Çikaqoda oxuduğum mühazirəni mənim əvəzimdən bu gün sən oxuyacaqsan. Mən sənin sürücün kimi zalda sənə qulaq asacağam. Alimin bu sözlərindən xeyli məmnun olan sürücü həyəcanlı görünsə də, razılığını bildirdi.

Alqışlar altında xitabət kürsüsünə qalxan sürücü eynilə Eynşteyn kimi, onun səsinə oxşar səsi ilə mühazirəni əzbərdən deməyə başladı. Mühazirəni bitirər-bitirməz zalda alqış sədaları qopdu.

Axırda oradakı dinləyici alimlərdən biri fizikadan Eynşteynin rolunu ifa edən sürücüyə bir sual verdi. Bunu gözləməyən sürücü özünü itirmədi. Tez cavab verdi:

– Bu sualın cavabına nə var ki? Bu cavabı mənim sürücüm də izah edə bilər. Buyurun qulaq asın. Eynşteyn elə yerindən ayağa durdu. Elə zaldan verilən bu çətin suala ətraflı, dəqiq şəkildə cavab verdi. Cavab alqışlarla qarşılandı. Sürücü də özündənrazı halda xitabət kürsüsündən aşağı endi.

**ELMİN BAŞI SƏBİRDİ**

Bir nəfər uzaq bir məmləkətə elm öyrənmək üçün uzunmüddətli səfərə getmişdi. Evdə həyat yoldaşı ilə yeniyetmə oğlu qalmışdı. Elm öyrənmək üçün təhsilini başa vuran kişi uzun ayrılıqdan sonra vətənə dönürdü. Uzun yol qət eləməliydi.



Yolda təsadüfən bir çobanla rastlaşdı. Salamlaşdılar, hal-əhval tutdular. Kişi bildirdi ki, elm öyrənmək üçün uzaq diyara getmişdi. Aradan illər keçib.

Çoban dedi:

– Belə çıxır ki, sən bütün elmlərdən halisən. Buna görə də gərək bir sualıma cavab verəsən.

Özünü alim sayan müsafir dedi:

Sualını ver görək. Mənim bilmədiyim şey ola bilməz.

Çoban dedi:

– Elmin başı nədir? Bayaqdan öz elmi ilə lovğalanan alim suala cavab verə bilmədi. Çobana üz tutdu:

– Çoban qardaş, mənim cavablarım səni qane etmədi. Sualın cavabını özün de görək!

Çoban cavab verdi:

– Sualın cavabını öyrənmək istəyirsənsə, sürünü otarmaqda mənə bir il kömək etməlisən.

Əlacsız qalan alim çobanla razılaşmalı oldu. Bir il çobanla birlikdə çobançılıq elədi. Vaxt tamam olanda çobana üz tutdu:

– Daha vaxt başa çatdı. Mən el-obama qayıdıram. Sualın cavabını de.

Çoban dedi:

– Elmin başı səbirdi. Bu dünyada səbrlə iş görsən, lazım gələndə səbrini basa bilsən, hər iş qaydasında gedər.

Bu sadə cavabdan o qədər də razı qalmayan alim yola düşdü. Uzun müddətdən sonra gecənin birində gəlib evlərinə çatdı. Pəncərədən baxanda evdə bir bığlı-saqqallı kişinin də yatdığını gördü. Hirsli halda xəncərini çıxardı. Qapını açıb oğlanı öldürmək istədi. Birdən çobanın verdiyi sualın cavabı yadına düşdü. Bu cavabı öyrənməkdən ötəri o, bir il çobançılıq eləmişdi. Demək, səbrlə hərəkət etmək, səbri basmaq lazımdı.

Qapının taqqıltısına arvad da, oğlan da ayıldı. Hər ikisi alimi mehribanlıqla qarşıladı. Alim evindəki bu yad kişinin kim olduğunu soruşdu.

Qadın dedi:

– A kişi, öz doğma oğlunu məgər tanımırsan?

Alim elə bil yatmışdı, yuxudan ayıldı. Çobanın sualını və sualın cavabını bir də təkrarladı. Öz-özünə dedi: «Çoban düz deyirmiş: «Elmin başı səbirdi. Bəlkə də, səbirsizlik etsəydim, doğma oğlumu öldürə bilərdim».

**BADALAQ ATMAQ**

Qədim əyyamlarda əyalət şəhərinin kənarında kasıb bir ailə yaşayırdı. Evin kişisi fəhləliklə ailəni bir təhər dolandırırdı. Çalışırdı ki, kiməsə möhtac olmasın. Arvadı isə zatıqırıq ailədən çıxdığına görə işdən yorğun-arğın qayıdan ərinin yediyi bir tikə pendir-çörəyi də burnundan tökürdü. Elə hey deyinirdi: «Ode ətrafımızda olanların çoxu kef-damaqla yaşayır, arvadlarına al qumaşdan paltar geydirirlər. İki ildən artıqdı ki, maa bir əməlli paltar almamısan. Belə getsə, çıxıb dədəmgilə gedəcəyəm».

Yazıq kişi bu sözləri eşitməkdən bezana gəlmişdi. Bir dəfə də iş tapa bilmədiyinə görə günortaya yaxın evə dönən ev sahibi onlardan tanımadığı bir kişinin çıxdığını gördü. Onsuz da naməkbəhrəm arvadından elə əvvəldən şübhələnmişdi. Ona görə də qaçıb yad adamın qabağını kəsdi. Soruşdu:

– Sən kimsən, mənim evimdə nə axtarırsan?

Yad kişi bir təhər qaçıb aradan çıxmaq istəsə də, ev sahibi imkan vermədi. Əlbəyaxa tutuşdular. Vəziyyəti belə görən fitnəkar arvad özünü tez ora yetirdi. Özünü elə göstərməyə çalışdı ki, guya o yad kişini tanımır, onunla heç bir əlaqəsi yoxdu. Ona görə də kənardan ərinə qəhmər çıxmağa başladı:

– A kişi, bardalaq at! Badalaq at!

Bu sözləri də namusunu, şərəfini satan arvadından eşidən əri daha da əsəbiləşdi. Arvadına tərəf qışqırdı:

– A tümbətünün qızı, mənim badalaqsız işimi sən badalağa salmısan! İndi də deyirsən, badalaq at! Qoy bunnan qurtarım, badalaq atmağı saa örgədəcəyəm!..

Kişisindən bu sözləri eşidən arvad sınıq-salxaq qapını açıb sürətlə qaçmağa başladı.

## AKADEMİYANIN İLK PREZİDENTİ

Mirəsədulla Mirqasımov adı doğma Azərbaycanımızda, eləcə də o vaxtkı SSRİ məkanında məşhur olan, hörmətlə anılan adlardan, şəxslərdən biri olub. Taleyini müqəddəs peşələrdən biri sayılan həkimlik sənətinə bağlayan Mirəsədulla Mirqasımov orta məktəb, eləcə də ali təhsil illərində müəllimlərinin nəzərini cəlb etmiş, onun parlaq gələcəyinə inanmışlar. Ali təhsilini də uğurla başa vuran bu şəxs bir həkim, cərrah kimi hələ gənclik illərində tez bir zamanda şöhrət qazandı. Xüsusilə böyrək, qara ciyər və digər daxili orqanlarda apardığı uğurlu əməliyyatlar, eləcə də bu sahədə yazdığı sanballı əsərlər onu şöhrət pilləsinin yüksəklərinə qaldırmışdı. Onun insanlığı, ləyaqəti elmdə qazandığı uğurlarla üst-üstə düşürdü. 1941–1945-ci illərdə Bakıdakı qospitallarda yaralı əsgərlərə göstərdiyi qayğı onu bütün xalqın sevimlisinə çevirmişdi. 1945-ci ildə SSRİ hökuməti Azərbaycanda da Elmlər Akademiyası yaradılmasına qərar verdi. O dövrdə akademik adı ilk olaraq Mirəsədulla Mirqasımova, Topçubaşova, Yusif Məmmədəliyevə, S.Vurğuna, Mirzə İbrahimova və başqalarına verildi. Mirəsədulla Mirqasımov bu cür görkəmli adamlar içərisində seçilərək akademiyamıza ilk prezident təyin edildi.

Bu işdə o, Azərbaycan elminin inkişafı, çiçəklənməsi üçün bütün varlığı ilə çalışırdı. Ancaq o, kommunist partiyasının üzvü deyildi və olmaq da istəmirdi. Bu görkəmli alim akademiyanın prezidenti vəzifəsində iki ilə qədər işləmişdi, yenə də partiyanın üzvü deyildi. Bir dəfə yığıncaqların birində ölkənin o vaxtkı başçısı, bir sözünü iki eləməyə heç kimin cürəti çatmayan M.C.Bağırov bu elm cəfakeşinə dedi:

– Elə bilirəm, kommunist partiyasına üzv olmağınızın vaxtıdır. Elə bu gün ərizənizi verirsiz.

Mirqasımov cavab verdi:

– Mən partiyanın üzvü olmaq istəmirəm. Bitərəf kimi də elə fəaliyyət göstərə bilərəm.

Heç kimin gözləmədiyi bu cavabdan qapqara qaralan M.C.Bağırov əsəbi halda dedi:

– Nə üçün?

– Mən Allaha inanıram, həm də həkim kimi Hippoqrat andı içmişəm. Elə bilirəm, mənə bunlar da bəs edər.

Əlbəttə, M.C.Bağırova belə cavabı hər adam verə bilməzdi. Bütöv şəxsiyyəti ilə o bu ağır anda da başqalarından seçildi.

Bir az sonra elə bu cavaba görə o, vəzifəsindən azad edildi.

## XAN ŞUŞİNSKİNİN CAVABI

Görkəmli xanəndəmiz Xan Şuşinski oxuduğu mahnılar, muğamlarla yanaşı, duzlu, məzəli söhbətləri ilə də yaddaşlarda qalmışdı. Belə baməzə söhbətlərdən biri də aşağıda verilən kimi olmuşdur.

Başı toylara, tədbirlərə, studiyalara qarışan Xan əmi ağızdan-ağıza eşidir ki, görkəmli yazıçımız Əli Vəliyev vəfat edib. Bir az sonra bu yas məsələsi birdəfəlik yaddan çıxır. Bir gün təsadüfən Azərbaycan Yazıçılar İttifaqının qabağında Əli Vəliyevin oğlu, görkəmli ədəbiyyatşünas alim Məsudla rastlaşır. Çox mehriban görüşür, bir-birindən hal-əhval tuturlar. Birdən yas məsələsi Xan əminin yadına düşür. Deyir:

– Ay Məsud, sən Allah, məni bağışla. Başım qarışdı, atanın yasına gələ bilmədim.

Məsud gülümsəyərək deyir:

– Xan əmi, mənim atam ölməyib. Ölən görkəmli alimimiz Cəfər Xəndan idi. Rəfiq Zəkanın atası. Bu cavabı eşidən Xan əmi deyir:

– Deyirəm ki, o bicin biridi. Bu tezlikdə ölməz. Hələ çox yaşayacaq.

## ULU PEYĞƏMBƏRİN İRADI

Ulu Peyğəmbər Mədinə məscidlərindən birində ətrafındakı insanlarla hər gün namaz qılır, xalqı islama dəvət edir, haqq yolunu, halallığı uca tutmağa səsləyirdi. Peyğəmbər gördü ki, bir cavan oğlan səhərdən axşama qədər məsciddə namaz qılır, ibadət edir, bütün gününü elə məsciddə keçirirdi.

Bir gün namazdan əvvəl həmin oğlana üz tutdu:

– Ay oğul, nə işin-peşənin sahibisən? Ailənizin gün-güzəranı, dolanışığı necə keçir?

Oğlan cavab verir:

– Ya Rəsulullah, mən günümü ancaq ibadətlə keçirirəm. Ailəmizi qardaşım dolandırır. Səhərdən axşama qədər işləyir, ailəmizi bir təhər dolandırır.

Rəsulullah deyir:

– Sənin qardaşının gördüyü işlər sənin ibadətlə məşğul olmağından üstün sayılır.

Bunu eşidən cavan oğlan deyir:

– Ya Rəsulullah, necə ola bilər ki, mənim ibadətim qardaşımın gördüyü işlərdən aşağı tutulsun?

– Çünki sən gününü ancaq ibadətlə keçirir, evinə, ailənə ruzi qazanılmasında iştirak etmirsən. Qardaşının çox çətinliklə əldə etdiyi ruzi ilə də qidalanırsan. Namaz qılmağın, ibadətin yaxşıdır. Sən bundan əlavə ailənin təminatında da yaxından iştirak etməlisən. Onda sənin ibadətin də Tanrı dərgahında uca tutular.

**DÜNYANIN PUÇLUĞU HAQQINDA**

İki uşaq yolla eyni istiqamətdə gedirdilər. İkisi də eyni anda yolda bir ceviz gördülər. Uşaqların hər biri tez cevizi yerdən götürmək istədi. Ancaq cevizi yerdən cəldliklə yoldaşından seçilən uşaq götürdü. Hər iki uşaq ceviz üsdə bir-biri ilə mübahisə etməyə başladı. Birinci uşaq deyirdi ki, cevizi birinci mən görmüşəm, ona görə də mənə çatmalıdır. İkinci uşaq isə yerdən tez götürdüyünə görə cevizin ona çatmalı olduğunu bildirirdi. Axırda əlbəyaxa tutaşdılar. Təsadüfən ordan keçən bir yaşlı kişi uşaqları araladı. Mübahisənin, əlbəyaxa olmağın səbəbini aydınlaşdırdı.

Kişi dedi:

– Mənim balalarım, bir ceviz üstdə bu vəziyyətə gəlib çıxmağınız sizə yaraşmaz. Yaxşısı budu ki, cevizi elə mənim yanımda sındırın. Cevizin ləpəsinin bir tərəfi birinizin, ikinci tərəfi də o birinizin olsun.

Uşaqlar yaşlı kişinin fikri ilə razılaşdılar. Tez cevizi sındırdılar. Ceviz çürük çıxdı. Uşaqların pərt olduğunu görən yaşlı kişi hər ikisinin başını sığalladı və dedi:

– Mənim balalarım, gələcəkdə də heç vaxt tamahınızın qulu olmayın. Bu dünyada o, ceviz kimidir. Əlləşirsən, çarpışırsan, sona çatanda görürsən ki, bu dünyanın axırı puçdu.

Ölüm başımızın üstünü kəsib. Ona görə də nəfsimiz uğrunda deyil, saleh əməl sahibi olmaq uğrunda hər birimiz çalışmalıyıq.

## GÖYƏRÇİN ƏHVALATI

Şəhərətrafı kəndlərdən birində bir xəsis, malyeməz kişi yaşayırdı. Xəsislikdən ev külfətinə doyunca çörək, pal-paltar alıb verməyə də can çəkirdi. Fikri-zikri var-dövlətini artırmaq, pul yığmaq idi. Heç bir imkansıza, yetim-yesirə əl tutmazdı. Hətta umacaqlı olardı ki, qonum-qonşu ona pay gətirsin.

Bu xəsis kişinin qonşuluğunda bir əliaçıq, səxavətli, xeyirdə-şərdə qohumlara, qonşulara bacardığı köməyi edən kişi də yaşayırdı. Bu xeyirxah kişinin yaxınları qərara gəldilər ki, bu xeyirxah insanın altmış illiyini təntənə ilə qeyd eləsinlər. Hazırlıq başlandı. Ad günü keçirilən gün qonşulardan da hər biri adlarına layiq bir hədiyyə ilə kişini təbrikə getdilər.

Neçə gün idi ki, xəsis qonşu vurnuxur, ad gününə nə aparması barədə bir qərara gələ bilmirdi. Əlindən var gəlmirdi ki, bir qiymətli hədiyyə aparsın. Fikirləşməkdən sozala-sozala qalmışdı. Ora getməsəydi də onun üçün rüsvayçılıq olardı. Gecənin yarısı birdən başına «ağıllı» bir fikir gəldi. Qət etdi ki, saxladığı göyərçinlərdən bir cütünü ad gününə hədiyyə aparsın. Səhərisi üç qonşusu ilə ad gününə yollandı. Göyərçinləri də karton qutunun içərisinə qoyub bağlamışdı. Yolda qonşulardan biri bu xəsisin apardığı hədiyyə ilə maraqlandı. Bunu xəsisin özündən soruşdu. Xəsis kişi ötkəmliklə dedi:

– Bir cüt durna kimi göyərçin aparıram.

– Nəyə görə göyərçin aparırsan?

– Çünki göyərçinlər axırda qayıdıb öz evimizə gələcək. Burda mən bir güllə ilə iki quş vurmuş kimi olacağam. Qonşum məndən razı olacaq ki, onun ad gününə «sülh quşu» kimi tanınan göyərçin aparmışam. Mən də sevinəcəyəm ki, göyərçinlərim qayıdıb evimizə gələcək.

Xəsisin bu sözlərindən matı-mutu quruyan qonşunun deməyə daha sözü olmadı.

### TORPAQ İNSANIN DEYİL, İNSAN TORPAĞINDI

İki qonşu yaşayış məntəqələrindən birində yanaşı yaşayırdılar. Torpaq sahələri də eyni yerdə idi. Aradan kiçik su arxı keçirdi. Nisbətən kəmhövsələ, səbirsiz olan qonşu yazda gedib çöldən çəpər çəkib gətirdi, başladı öz torpaq sahəsini çəpərləməyə. Tamah güc gəldi, aradan keçən kiçik su axını da çəpərin içinə almağa başladı. O biri qonşu etirazın bildirdi. Lakin kəmhövsələ qonşu inadından dönmədi. Təxminən bir addımlıq torpaq üstə bu gör qonşuları əlbəyaxa tutaşmalı oldular. Səs-küyə başqa qonşular, küçədən keçənlər də ora yığışdı. Bu iki qonşunu razı sala bilmədilər. Biri deyirdi bu arx mənim çəpərimin içərisindən axmalıdı, çünki arxın axdığı yer mənim torpağımın bir parçasıdı. O biri qonşu da eynilə qonşusunun sözlərini təkrar edirdi. Ara getgedə qızışırdı. Arvad-uşaq, qohum-qardaş da bu qeylü-qala qoşulmuşdu. Ağız deyəni qulaq eşitmirdi. Bu əsnada təsadüfən Bəhlul Danəndə gəlib ora çıxdı. Savaşan qonşular da, qohumqəblə də razılığa gəldilər ki, bu mübahisəni Bəhlul Danəndə həll etsin. O nə desə, hamı onunla razılaşacaq.

Bəhlul Danəndə heç nə demədən yerə uzandı. Qulağını torpağa tərəf tutdu. Bir neçə dəqiqədən sonra ayağa durdu. Üzünü bir addımlıq torpaq üstdə bir-birini al qana boyayan qonşulara tutub dedi:

– Mən torpağı dinlədim. Torpaq dedi ki, mən onların deyiləm, onlar mənimdi. Axırda mənim qoynumda qərar tutmalı olacaqlar.

Bunu eşidən qonşular xəcalətli halda başlarını aşağı tikdilər. Kəmhövsələ qonşu da aradan çəpər çəkməyi dayandırdı.

## XEYİR DEYƏNƏ XEYİR, ŞƏR DEYƏNƏ ŞƏR QİSMƏT OLSUN

İnsanlar çox zaman öz əkdiklərini biçirlər. Əməllərinin nəticəsini həyatda görürlər. Ona görə də atalar nahaq yerə deməyib, nə tökərsən aşına, o da çıxar qaşığına. Bir şəhərdə sözü düzünə danışan, heç kimdən çəkinməyən, həmişə haqqın tərəfində olan bir kişi yaşayırdı. Xarakterinə görə onun xatirin uca tutanlar da vardı, «qırmızılığına» görə ona düşmən kəsilənlər də. Bu kişiyə düşmən kəsilənlər bir yerə yığışıb, bu kişini aradan götürmək üçün tədbir tökməyə başladılar. Axırda bir qarıya pul verib onu ələ aldılar. Qarı dedi ki, daha siz narahat olmayın. Onun aradan götürülməsi üçün lazım olan tədbiri də özüm görəcəyəm.

Evə dönən qarı aradan götürülməsinə qərar verilən kişinin getdiyi yer-yurdu, yolu öyrəndi. Üç kiçik ölçüdə qalın bişirdi. Hər birinin ortasına insanı tez öldürə bilən zəhər qoydu. Gedib o kişinin daim gedib-gəldiyi yolda oturdu. Bir azdan kişinin harasa getdiyini gördü. Gəlib qarşısından keçəndə qarı ayağa durdu. Kişini şirin dillə dindirdi. Həmin qalınları kişiyə verib dedi:

– Nəzir demişdim. Paylayıb qurtarmışam. Axıra qalan bu kiçik qalınlar da sənin qismətindi. Aparıb evdə yeyərsən, mənə də dua edərsən.

Kişi nəzir adıyla verilən qalınları alıb, qarıya dua elədi və sonda dedi:

– Xeyir iş görənə xeyir, şər iş görənə şər qismət olsun.

Səfəri uzaq olduğuna görə yoluna davam etdi. Yolda üç adamla rastlaşdı. Onlar üçü də ac olduqlarını bildirdilər. Bu yolçudan yardım etməsini xahiş elədilər.

Bu kişi qarı verən həmin kiçik qalınları bu üç nəfərə verdi. Onlar da qalınları yeyə-yeyə yollarına davam etdilər.

Sonra məlum oldu ki, bu üç nəfərin üçü də zəhərlənib ölüb. Həm də məlum oldu ki, bu üç nəfərin biri qarının oğlu, ikisi də qarını bu işə yönəldən nacins insanların övladları imiş. Meyit üstə göz yaşı tökən qarı öldürmək istədiyi adamın sözlərini xatırladı və düşündü: «Doğrudan da, xeyir əməl sahibinin qarşısına xeyir iş çıxır, şər əməl sahibinin qarşısına şər çıxır».

### KƏLƏKBAZ AXIRDA KƏLƏYİN TORUNA DÜŞƏR

Bir nəfər mal-heyvan alveri ilə məşğul olar, ailəsin bu yolla çox çətinliklə dolandırardı. Bir dəfə rayon mərkəzində bu kişi bir cavan oğlanla rastlaşır. Bu cavan oğlan rayon mərkəzindən xeyli aralı kəndlərinə getmək üçün maşın tapa bilmirdi. Əvvəldən kələkbaz olan bu oğlan yenə də kələyə əl atdı. Mal-heyvan alveri ilə məşğul olan Səlim adlı kişiyə dedi:

– Kənddə atamgilin də çoxlu mal-heyvanı var. Hamısın satmaq istəyir.

Murad adlı bu kələkbaz oğlanın sözünə inanan Səlim oğlanı da yanına alıb maşını uzaq kəndə sürdü. Axşamüstü kəndə çatan Murad maşından düşüb evlərinə getdi:

– Bir qədət vaxt keçəndən sonra qayıtdı. Murada dedi:

– Mən burda olmayanda atam mal-heyvanın hamısın satıb.

Səlim hiss etdi ki, Murad yalan danışır. Onu kələyə salıb, bu kəndə gətirib. Ürəyində fikirləşdi: «Dədəmin oğlu deyiləm, bu qisası Muraddan çıxmayam».

Ona görə Murada yaxınlaşıb dedi:

– Mənim də sənə bir işim düşüb. Al bu əlli manatı əlli pişik al. Gəlib aparacağam.

Murad ordan-burdan əlli pişik yığıb düzəltdi. Pulun çoxu da cibində qaldı. Səlimə məktub yolladı ki, gəlib pişikləri aparsın!

Məktubu alan Səlim də sifariş yolladı ki, əlli pişik də əlavə alsın. Gərək yüz pişik ola.

Nəhayət, qonşu kəndlərdən əlli pişik də toparladı. Cəmi yüz pişik oldu. Səlimə sifariş etdi ki, pulun qalanın da gətirib, pişikləri aparsın. Aradan neçə gün keçsə də, Səlimdən xəbər çıxmadı. Axırda Murad payi-piyada gəlib rayon mərkəzinə çıxdı. Axtarıb Səlimi tapdı. Nə üçün gəlmədiyinin səbəbini soruşdu. Səlim dedi:

– Sənin sifarişin çatan günün səhərisi maşınla sizin kəndə gəlirdim. Yolda qəzaya düşdüm. Maşın yarasız hala düşdü. Yaxşı ki, mən ölümdən qurtarıb sağ qaldım. Get pişikləri sahiblərinə qaytar.

Muradın matı-mutu qurudu. Kor-peşman geri döndü. Ancaq Səlimin yalan danışdığını o da duymuşdu. Ürəyində deyinirdi: «Hə, qurduğum kələyin toruna axır ki, özüm də düşdüm. Adım da oldu pişik oğrusu».

## SƏRVƏT, BACARIQ VƏ SEVGİ

Yaşayış məntəqələrindən birinin kənarında bir ailə yaşayırdı. Evin qadını bayıra çıxanda gördü ki, evlərinin qarşı tərəfində üç yaşlı insan dayanıb. Hava da soyuq idi. Qadın onlara yaxınlaşıb, evlərinə dəvət etdi. Yaşlılardan biri ac olduqlarını bildirdi. Qadın dedi:

– Gəlin evə. Hər halda sizə bir qismət çörək tapılar.

Onlardan biri yenə dedi:

– Evin kişisi evdədirmi?

– Yox.

– Onda biz o evə gələ bilmərik.

Qadın dönüb evə getdi. Bir azdan evin kişisi evə gəldi. Qadın əhvalatı kişiyə danışdı. Evin kişisi qadınına onları evə çağırmağı söylədi. Qadın gəlib onları evə dəvət etdi. Onlardan biri dedi:

– Bizim birimiz sərvətik, birimiz bacarıq, birimiz isə sevgiyik. Bizdən birimizi evə dəvət edə bilərsiniz.

Qadın evdə əhvalatı kişiyə danışdı. Kişi dedi:

– Yaxşısı budu sərvəti çağıraq. Onda evimizdə həmişə sərvət olar.

Qadın dedi:

– Bacarığı çağıraq. Bacarığımız olsa, hər şeyi əldə edə bilərik.

Bu vaxt evdəki yeniyetmə oğlan da dilləndi.

– Yaxşı olar ki, sevgini dəvət edək. Evimizdə sevgi olsa, sərvətimiz, bacarığımız da olar.

Ailədə oğlanla razılaşdılar. Qadın gedib sevgini dəvət etdiklərini bildirdi.

Bu söhbəti eşidən yaşlılar bildirdilər:

– Onda bu üçümüz də o evə daxil olacağıq. Sevgi olan yerdə biz də onunla olmalıyıq. Sevgi olan yerdə bacarıq da olar, sərvət də.

**MEHRİBANLIQ**

Ailəsini çox çətinliklə dolandıran kasıb bir kişi vardı. Kasıbkarlığını çox qıvraq, ayaqdan iti olan atı ilə əmələ gətirərdi. Elə bil bu at sahibini başa düşür, onun arzu və istəklərinin yerinə yetirilməsində var gücü ilə çalışardı. Ancaq kişi görürdü ki, sevimli atı da get-gedə arıqlayır, əvvəlki yerişin, baxışın da itirirdi.

Bir gün bu kişi şəhərin darvazasından atının belində içəri keçmək istəyəndə gördü ki, atı titrəyir, əvvəlki yerişin itirib. Kişi atın belindən yerə tullandı. Çalışdı ki, atına su versin, ot yedirtsin. Lakin at nə suya, nə də ota baxmadı. Ətrafda olan insanları bu kişidən atın bu vəziyyətə düşməsinin səbəbini soruşdular. At sahibi dedi ki, at çox işləməkdən, normal yem yeyə bilməməsinə görə bu vəziyyətə düşüb.

At sahibi atın yerindən tərpənmədiyini görüb, atın yəhəryüyənin açıb götürdü, yoluna davam etdi.

At sahibinin bu hərəkətin görən bir arıq, yaşlaşmış kişi ətrafındakılara dedi:

– Mənim də həyatım bu atın həyatına bənzəyir. At sahibi atına vəfasız çıxdığı kimi, mənim ailəm də mənə qarşı naxələf çıxdı. Neçə ki qazanırdım, gətirirdim, əlim iş tuturdu ailəm də mənə hörmətlə yanaşırdı. Əlim işdən üzüləndən

sonra məni də evdən bayıra atdılar. Dilənçilər dəstəsinə qoşulmalı oldum. Burdakı insanların hərəsi axşama yaxın dağılıb bir tərəfə getdi. Ancaq həmin evdən qovulmuş kişi atın qayğısına qalmağa başladı. Atın belini yenidən çulladı, əldə etdiyi yoncanı suyu az-az ata yedirtməyə başladı. Onu tumarlaya-tumarlaya oxşadı. Bir müddət sonra at dirçəldi, əvvəlki yerişi-duruşu özünə gəldi.

Buna çox sevinən kişi, atın başına keçirdiyi ipdən yapışıb, həmin şəhərin bazarına getdi. Əvvəl atı çox fəna vəziyyətdə görənlər dedilər:

– Necə oldu ki, ölümlə çarpışan bu at belə sağaldı?

Kişi dedi:

– Çünki onun mənim kimi mehriban dostu var.

## OĞLUNUN ATAYA MƏKTUBU

Ucqar dağ kəndlərindən birində kasıb bir ailə yaşayırdı. Ailənin yeganə oğlu həbs edilmişdi. Dustaqxanada yatırdı. Oğlanın qoca atası əldən düşdüyünə görə əkin-biçin işlərin yerinə yetirə bilmirdi. Ailənin bir qədər torpağı vardı. Bu yaşlı kişi istədi ki, bu yerini kotanla şumlasın. Ancaq dizində taqət, biləyində güc qalmamışdı. Qocalığın dərdi-səri kişini taqətsiz qoymuşdu. Ona görə də əlacsız qalıb həbsdə olan oğluna məktub yazdı. Məktubda ailələrinin vəziyyətin qeyd elədi. Oğluna bildirdi ki, həbsxananın rəhbərliyindən icazə alsın, gəlib yeri şumlasın.

Oğlu məktubu alandan sonra atasına belə bir məktub yazdı: «Əziz ata, həmin torpaq sahəmizə yaxın getməyin, şumlamaq fikrinə düşməyin. Orada silah basdırmışam».

Bir neçə gündən sonra hökumət adamları gəlib həmin torpaq sahəsinin altını üstünə çevirdilər. Ancaq silah tapa bilmədilər.

Torpaq sahəsi isə ağıllı-başlı şumlanmışdı. Vəziyyəti belə görən ata yaxınlarının köməyi ilə torpağa toxum səpdi. Şumun malalanmasında yaxınları ona kömək etdi. Əslində atanın dustaq olan yeganə oğlu məktubu qəsdən o qaydada

yazmışdı. O, orada heç bir silah gizlətməmişdi. Ancaq bilirdi ki, həbsxana rəhbərliyi məktubu gizli oxuyacaq və silah axtarmaq üçün ona adamlar göndərəcək. Onlar da həmin torpaq sahəsinin altını üstünə çevirəcəklər.

## MƏHƏBBƏT GÜCDƏN ÜSTÜNDÜR

Külək və günəş mübahisə etməyə başladı. Külək dedi ki, mən səndən çox güclüyəm. Günəş gülümsədi:

– Bunu nədən bilirsən?

Külək dedi:

– Bax, qarşıdakı yoldan gedən kişini görürsən. Gəl gücümüzü sınayaq. Kim onun əynindən üst paltarını çıxarsa, güclü də odur. Günəş yenə məhəbbətlə gülümsədi və dedi:

Güclə hər işi həll etmək olmaz. Ancaq istəyirsən, özünü göstər.

Külək əsib coşmağa başladı. Bütün gücü ilə əsməyə başladı.

İşi belə görən yolçu paltarının bütün düymələrin bağladı, əllərini də qabaqdan daraqladı. Külək öz gücü ilə kişinin üst paltarını soyundura bilmədi. Əsməsini dayandırdı. Bu vaxt buludların arxasından günəş yer üzünə gülümsədi. İstiliyin get-gedə artırmağa başladı.

Bunu belə görən yolçu da məhəbbətlə günəşə doğru baxdı. İstiliyə görə üst paltarını çıxarmağa başladı. Bunu görən günəş tənəli nəzərlərlə küləyə tərəf baxdı. Külək utanaraq başını aşağı salladı.

Günəş tənəli baxışlarla sanki deyirdi: «Güclə həll edilməyən işləri, mehr-ülfət və məhəbbətlə həll etmək olar».

## QULAM MƏMMƏDLİ DÜNYASINDAN

Qulam Məmmədli adlı çəkiləndə ədəbiyyatşünaslığımızın, jurnalistikanın, mətnşünaslığın əsas sütunlarından biri yada düşür. Ədəbiyyatşünaslar heç də təsadüfi deyil ki, onu bu elmin «ensiklopediyası» adlandırmışlar.

Əslən Cənubi Azərbaycandan olan Qulam Məmmədli sonralar ailəsi ilə birlikdə Aşqabada köçüb gəlmiş, bir müddət orada yaşamışdır.

Bakıda «Babayi-əmir» adlı satirik jurnalın redaktoru və naşiri kimi fəaliyyət göstərən, o dövrün görkəmli ziyalılarından olan Ələbbas Müznib 1918-ci ildə Aşqabadda olarkən orada on doqquz yaşda olan Qulamla tanış olur. Ona «Babayi-Əmir» jurnalında yazıları dərc edilən bir neçə ziyalının gizli imzaları haqda danışır. Elə bu an ədəbiyyat həvəskarı olan Qulam Ələbbas Müznibə qulaq asır, bəzi imzaların kimə aid olmasını tez əlindəki jurnalın səhifələrinin kənarına qeyd edirdi. Gəncədə bu həvəsi görən Ə.Müznib bu gənci xeyli təriflədi, onu gələcəyin görkəmli ədəbiyyat adamlarından biri olacağını qeyd elədi. Sonralar Bakıya köçən Qulam Məmmədli bütün mənalı həyatını ədəbiyyatşünaslığın, jurnalistikanın, mətnşünaslığın tədqiqinə həsr elədi. İti yaddaşı, yüksək intellekt səviyyəsi ilə elm aləmində həmişə yüksəkdə dayandı. Milli kadrların yetişməsində, formalaşmasında var gücü ilə fəaliyyət göstərdi. Bir xeyli elmlər namizədlərin, elmlər doktorlarının gələcəyinə yaşıl işıq yandırdı. Xüsusilə imkansız, lakin istedadlı gənclərə bir ata nəvazişi ilə yol göstərdi. Onlara maddi və mənəvi tərəfdən köməklik göstərdi. Maraqlıdır ki, o dövrdə ədəbiyyatşünaslıqda bir mübahisəli məsələ olanda gənclər, professorlar və akademiklər də son anda Qulam Məmmədliyə müraciət edərdilər.

Azərbaycan ədəbiyyatşünaslığında işlənən gizli imzaların təxminən dörd mininin kimə aid olmasın, gizli imzanın mənasını tədqiq edərək xeyli əhəmiyyətli və çətin olan bu işin öhdəsindən bacarıqla gəlmişdir.

Vaxtilə bu böyük insanın tələbələrindən olmuş professor adını daşıyan bir nəfər öz xatirələrində Qulam Məmmədli haqda aşağıdakıları bildirdi:

– Qulam müəllim ömrün qışını yaşayırdı. Xəstələnmişdi. Onu yoluxmağa getdim. Üzünə xoş bir təbəssüm qondu. Ədəbiyyatşünaslıqdan, keçənlərdən, olanlardan danışdı. Bu zaman qeyd elədi ki, o dövrdə mənim mətnşünaslığa aid ədəbiyyatımızda işlənən gizli imzalara aid (burada dörd mi-

nə qədər gizli imzanın tədqiqindən söhbət gedirdi) tədqiqat işim Nizami adına Ədəbiyyat İnstitutunda müzakirəyə çıxarıldı. Tədqiqat işinin uğurlu tapıntıları və nöqsanları haqda geniş müzakirə aparıldı. Həmişə doğru danışdığıma, haqqı-nahaqqa vermədiyimə görə bəzi bədxahlarım sanki mənə qarşı hücuma keçmişdilər.

Belə çıxışlara əhəmiyyət vermədim. Dedim:

– Ay yoldaşlar, bu dörd min imzanın minini kənara qoyaq. Bəs üç mini haqda nə deyə bilərsiniz?

Zalda bir sükut yarandı. Axırda bir nəfər kiminsə təsiri ilə ayağa durdu. Ağzı köpüklənə-köpüklənə guya bu tədqiqat işinin nöqsanlarından danışmağa başladı. Bircə onun çıxışı mənə çox pis təsir göstərdi. Çünki o şəxs həm namizədliyi, həm də doktorluğu müdafiə edənə qədər mənim dövrəmdə fırlanır, bir növ məndən istifadə edirdi. Evdə olarkən də onun ardı-arası kəsilməyən telefon zəngləri də məni yormuşdu. Mən də əlimdən gələni o insandan əsirgəmədim.

Bu gün də bu nankor adamın iç üzünü belə göstərməsi, üzüdönüklüyü heç yadımdan çıxmır. Gərək hər birimiz hansı mərtəbəyə yüksəlsək də, insanlğı, ləyaqəti yaddan çıxarmayaq. Haqqa tapınmaq, yaxşılığa qucaq açmaq hər bir insan övladının vacib işi olmalıdır.

## MƏLİKŞAH SƏLCUQİ VƏ ELM AŞİQİ

Böyük fateh Məlikşah Səlcuqi padşahlıq libasını dəyişdi. Atına minib təkbaşına ölkəni səyahətə çıxdı. Xalqın necə dolandığını, hakimlərin xalqla necə rəftar etdiyini yoxlamaq istəyirdi. Bir kəndin kənarından keçəndə bir nəfərin ağac kölgəsində kitab oxuduğunu gördü. O, elə hesab edirdi ki, kitab oxuyan şəxs onu görərkən ayağa duracaq, ona baş əyəcək, öz ehtiramını bildirəcək. Lakin belə olmadı. Kitab oxuyan bu elm aşiqi ona heç etina etmədi, kitabın üzərindən başını da qaldırmadı. Bu hal Məlikşah Səlcuqiyə pis təsir göstərdi. Üzünü kitab oxuyan şəxsə tutub dedi:

– Sən nə üçün öz şahını tanımadın? Nə üçün ayağa qalxıb ehtiramını bildirmədin? Sən bilmirsənmi ki, mənim fəth etdiyim ərazilərin həddi-hüdudu yoxdur? Ölkədə at oynadan quldurbaşıları qısa müddətdə mən asdırmışam. Qonşu hökmdarlar mənim adım gələndə zağ-zağ əsirlər.

Bu sözlərdən sonra elm aşiqi bir anlıq kitab üzərindən başın qaldırdı. Məlikşahı təpədən dırnağa etinasız halda süzüb dedi:

– Sən şan-şöhrət hərisi, nəfsini cilovlaya bilməyən insansan. Mən isə nəfsimi qul edən, dünya nemətlərinə qul olmayan Allah bəndəsiyəm. Buna görə də sən mənə səcdə etməli, məni uca tutmalısan. Çünki sən mən qul etdiyim nəfsi-əmmarənin qulusan.

Elm aşiqinin bu sözlərindən Məlikşah Səlcuqi sarsıldı. Ona daha bir söz deməyib, yoluna davam etdi.

### HÖKMDARIN ETİRAFI

Səlcuq hökmdarı Alparslan 1072-ci ildə özünün ən qüdrətli çağında Yusif Xarəzmi adlı bir qiyamçı tərəfindən xəncərlənərək şəhid edildi. Anadolunun qapısını müsəlmanlara açmış bu şanlı Sultan son anlarında ətrafındakı sərkərdələrinə və digər dövlət adamlarına xitabən ibrətli bir etirafda bulundu.

– Hər zaman düşmən üzərinə yürüş edəndə Allah-taala həzrətlərindən yardım istərdim. Dünən bu təpənin başına çıxanda əsgərlərimin çoxluğundan, ordunun əzəmətindən mənə elə gəldi ki, ayağımın altındakı dağ silkələnir. Qüvvət məni məğrur etdi. Öz-özümə: «Mən dünyanın padşahıyam, kim mənə qalib gələ bilər? – dedim».

Bu gün Haqq-taala ən aciz qulu ilə məni aciz etdi. Çalışın, mənim həyatımdan ibrət götürün».

Sonra Allahdan əfv dilədi, tövbə, istiğfar etdi və kəlmeyi-şəhadətini dilinə gətirərək bu fani dünya ilə əbədilik vidalaşdı.

## ALLAHIN RƏHMƏTİNİ İSTƏYƏN KİŞİ

Zalım bir hökmdar sarayın qabağında üç fağırın dayandığını gördü. Onları hüzuruna çağırdı, ehtiyaclarını soruşdu. Fağırlardan biri: «kasıblığın daşını atmaq üçün hökmdarın xəzinəsindən bir sandıq istəyirəm» – dedi.

Digəri: «Subaylığın daşını atmaq üçün hökmdarın gözəl cariyələrindən birini istəyirəm, – dedi».

Üçüncü fağır isə: «Dünyanın yükünü atmaq üçün Allahın rəhmətini istəyirəm» – dedi.

Hökmdar birinci və ikinci fağırın istəklərini yerinə yetirdi. Ancaq üçüncüyə bir şey verməyib dedi: «Sən rəhməti kimdən umdunsa, get ondan istə».

Fağırlar gedəndən sonra arxalarınca öz adamlarını göndərərək dedi:

– Onların içində kim malsız və boş olsa öldürün. Hökmdarın adamları bir sandıq malı olanı öldürüb qayıtdılar. Çünkü o bədbəxt saraydan çıxandan sonra zəngin olduğunu düşünərək sandığı daşımağı özünə yaraşdırmadı. Muzd müqabilində sandığı Allahın rəhmətini istəyənə yükləmişdi.

Bu səbəbdən bir sandıq mal ona qaldı. Bir azdan bir çaya rast gəldilər. Çayı keçərkən cariyənin sahibi boğuldu. Allahın rəhmətini istəyən şəxs cariyəni də, sandığı da götürüb öz bölgəsinə getdi. Burada o, cariyə ilə evləndi. Gətirdiyi malın hesabına qəriblər və yoxsullar üçün bir hüzur evi inşa etdirdi. Sorağı bütün məmləkətə yayıldı.

Xəbər zalım hökmdarın da qulağına çatdı. O da evi görmək, sahibini tanımaq üçün təğyiri-libas olub, oraya getdi. Görüş zamanı ev sahibi başına gələnləri hökmdara danışdı.

Zalım hökmdar bu əhvalatı eşidəndən sonra peşman oldu, tövbə etdi. Allahın rəhmətini istəyən bu kişini də saraya apardı, ən yaxın adamlarının arasına aldı.

## ƏN BÖYÜK QALİB

Görkəmli filosof Diogen bir dəfə Olimpiya oyunlarına gəlir. Burada qaliblər üçün hazırlanmış çələngi götürüb öz başına qoyur. Filosofun bu hərəkətinə bir neçə insan irad tutur. Ona irad tutanlara cavab olaraq Diogen belə cavab verir:

– Mən ən ciddi düşmən olan ehtiyaca, kinə, kədərə, qorxuya, ən başlıcası isə nəfsə qalib gəlmişəm. Buna görə də özümü qaliblər çələnginə layiq görüb, onu başıma qoydum.

## İNSANLIĞI UNUTMAMALI

Makedoniya hökmdarı Filip Xerney yanındakı döyüşdə afinalılara qalib gələndən sonra öz əvvəlki sadəliyini itirməkdən qorxur. Ona görə də adi insan olduğunu tez-tez hökmdara xatırlatmasını kölələrindən birinə tapşırır.

Həqiqətən də, kölə hər səhər üş dəfə ucadan «Filip insandır» deməyincə hökmdar nə evdən çıxar, nə də bir kimsəni qəbul edərmiş.

## MÜŞAVİRİN CAVABI

Çin hökmdarı bir gün öz müşavirindən soruşur:

– Nanyancay qəzasına rəis lazımdır. Kimi layiq görürsən?

Müşavir dərhal Tze Xunun adını çəkir. Hökmdar təəccüblənir və deyir:

– Axı, o, sizin düşməninizdir. Necə oldu ki, düşməninizi bu vəzifəyə layiq bildiniz?

Müşavir deyir:

– Bəli, o, mənim düşmənimdir. Axı, siz bu vəzifəyə ən yaxşı namizədin kim olduğunu soruşdunuz. Bu söhbətdən sonra Tze Xun həmin vəzifəyə təyin edilir. Tezliklə o, çoxlu xeyirxah işlər görür və camaatın rəğbətini qazanır.

Bir müddət sonra hökmdar yenə müşavirindən məsləhət istəyir. Deyir:

– Saraya hakim lazımdır. Sizcə, bu işin öhdəsindən kim layiqincə gələ bilər?

Müşavir öz oğlunun adını çəkir. Hökmdar heyrətlə deyir:

– Axı, adın çəkdiyin şəxs sənin oğlundu?

Müşavir deyir:

– Siz məndən bu vəzifəyə ən layiqli namizədin adını soruşdunuz. Kimin mənim oğlum olduğunu soruşmadınız?

Bu söhbətdən sonra hökmdar müşavirin oğlunu saraya hakim təyin edir. Çox keçmədən saraya hakim təyin edilən müşavirin oğlu ədaləti ilə məşhurlaşır.

## HÖKMDARIN QƏRARI

Fars hökmdarı II Kambis Lidiya çarı Krezi əsir edir. Müdrikliyini görüb ona çox bağlanır və özünə müşavir təyin edir. Lakin onun növbəti bir məsləhətindən qəzəblənərək edam edilməsi barədə əmr verir. Xidmətçilər hökmdarın xasiyyətini yaxşı bildiklərindən Krezi öldürməyib gizlədirlər. Düşünürlər ki, Kambiz verdiyi əmrdən peşman olub, Krezi soruşacaq, sağ qaldığını biləndə onları mükafatlandıracaqdır. Əgər peşman olmasa Krezi sonra da öldürə bilərlər.

Belə də olur. Kambis qəzəbi soyuyandan sonra Krezi tələb edir. Onun sağ olduğunu eşidən də sevincini gizlətmir. Ancaq xidmətçilərinə deyir ki, əmri yerinə yetirmədiklərinə görə onları cəzalandıracaq. Dediyi kimi də edir.

## ƏDALƏTİ QORUYAQ

Sasani hökmranlığı əzəmətinə, böyüklüyünə görə şöhrət tapmışdı. Hökmdar demək olar ki, ölkədə ədaləti bərpa etmişdi. Ancaq ucqarda olan bir əyalətdən həmişə pis xəbərlər gələrdi. O bölgədə güclülər at oynadar, məzlumlar əzab çəkərdi. Buna görə də hökmdar bir adil, tamahını qul edən şəxsi həmin bölgəyə hakim göndərdi. Bu adil hakim

orada gərgin çalışdı, haqqı, ədaləti axır ki, bərpa edə bildi. Hər şeydən əvvəl ahı göylərə yüksələn məzunları zalimlərdən qorudu. Hakimin bu xeyirxah, ədalətli işləri hökmdarın da qulağına çatdı. Hökmdar sevindi, o, adil şəxsi ora hakim göndərdiyinə görə fəxarət duydu. Ancaq bir müddət sonra xarakterinə çox da yaxından bələd olmadığı bir qohumunu həmin adil şəxsə müavin vəzifəsinə göndərdi. Həmin adil şəxs isə hökmdarın vəzifəyə təyin etdiyi adamı qəbul etmədi, geri göndərdi. Adil hakimin dəlili belə idi. «Mənə müavin göndərilən şəxsin gözlərinin ifadəsi, danışığındakı təkəbbür məni hökmdarın fərmanına qarşı çıxmağa sövq etdi».

Sasani hökmdarı bu adil hakimin hərəkətindən və sözlərindən bərk qəzəbləndi. Onu vəzifədən azad etdi və qohumunu onun yerinə hakim təyin etdi.

Bir müddət sonra bu ərazidə ah-nalə göyə yüksəldi, haqlılar əzildi, haqsızlar yenə meydan sulamağa başladı.

O yerin əhalisinin bir hissəsi hökmdarın sarayı qarşısına toplaşdı. Hökmdara dərdi-sərlərini danışdılar, əvvəki adil hakimi tələb etdilər.

Hökmdar da bur barədə səhv etdiyini başa düşdü. Əmr elədi həmin adil hakimi tapıb yenidən saraya gətirsinlər. Belə də oldu. Lakin bu adil şəxs hökmdarın fərmanını qəbul etmədi və dedi:

– Zülmün acılarını dadmış, haqsızlığın haqqa, ədalətə üstün gəldiyi o bölgədə mən daha işləyə bilmərəm.

Bunu deyib, hökmdardan üzrxahlıq dilədi və yaşadığı obaya doğru yola düşdü. Gedə-gedə öz-özünə dodaqaltı pıçıldayırdı: «Zülm buxarı qalxan yerdə ədalət toxumu cücərməz». Bu adil şəxsin hərəkəti hökmdara bir sillə kimi dəydi. O da səhv hərəkətinə görə ədaləti özünə həmişə bayraq tutan bu insana haqq qazandırır, daxilən öz-özünü danladı.

## NOBEL DÜNYASINDAN

Görkəmli alim Alfred Nobel öz kəşfləri və xeyirxah əməlləri ilə bəşəriyyət tarixinə öz adını əbədilik həkk eləmişdi.

Əvvəldən Nobel qardaşları adıyla məşhur olan bu ailə rus ordusu üçün silah istehsalı ilə məşğul olmuşdu. Bir dəfə apardığı təcrübə nəticəsində yaratdıqları sexdə güclü partlayış baş vermiş, bütün var-yoxları əldən çıxmış, Alfred isə təsadüf nəticəsində sağ qalmışdı.

O vaxt tüfəng qundaqlarını ceviz ağacından düzəldirdilər. Rusiya ərazisində ceviz ağacları az olduğuna görə Alfred Nobel kiçik qardaşını Azərbaycana çoxlu ceviz ağacı olan yerləri tapmağa göndərdi. Nəhayət, kiçik qardaş Lənkəran ərazisində belə bir yer tapdı. Sevincək geri qayıdarkən yolu Bakıdan düşdü. O vaxt Bakıda «neft erası»nın ən yaxşı çağları idi. Kiçik bir torpaq sahəsi olan kasıb bir insan az bir zamanda fantan vuran neft hesabına milyoner olurdu. Bu vəziyyəti görən kiçik qardaş Alfredə teleqram vurdu ki, çoxlu pul götürüb Bakıya gəlsin. Əsl kapitala sahib olmaq yeri buradır. Nəhayət, bir müddət sonra Nobel qardaşları Bakıda öz neft şirkətlərini qurdular. Nobellərin qazandığı milyonların çox hissəsi Bakı nefti hesabına əldə edildi.

Alfred Nobel dünyadan köçərkən beş elm sahəsi üzrə və sülh uğrunda böyük xidmətləri olan şəxslərə varidatının bir hissəsini vəsiyyət etdi. Bu elm sahələri ədəbiyyat, təbabət, fizika, kimya və iqtisadiyyat idi. Ancaq riyaziyyatı çox maraqlıdır ki, o sahəyə aid etməmişdi. Bunu alimlər onunla izah etmişdilər ki, riyaziyyat əsasən nəzəri məsələləri tədqiq edir. Riyaziyyatın o siyahıya salınmamasının bir səbəbi bu olmuşdu. İkinci əsas səbəb isə bir nəfər məşhur riyaziyyatçının Alfredin sevdiyi qızı götürüb qaçırması olmuşdu. Bu hadisədən sonra Alfred ömrünün axırına qədər ailə qurmamış, subay yaşamışdı.

### HARUNUN QƏRARI

Ərəb ölkələrindən birində düz danışmağı özünə adət edən, haqqı nahaqqa verməyən, həmişə məzlumların haqqını müdafiə edən savadlı bir şəxs yaşayırdı. Onun hərəkətləri,

məmurların eyiblərini çəkinmədən deməsi şəhər darğasını daha çox narahat edirdi. Fikirləşirdi ki, bir bəhanə tapıb bu insanı aradan götürmək lazımdır. Yoxsa bunun baş ağrısı çox olacaq. Onun danışdığı sözlər xəlifə Harun ər Rəşidin qulağına çatsa, şəhər hakiminin də, mənim də qətlimə fər man verilər. Ona görə də şəhər hakimi ilə qəti qərara gəldilər ki, bu şəxsi elə Harun ər Rəşidin əli ilə aradan götürmək lazımdı.

Bir gün həmin şəxs bazar əsnafının çoxluq təşkil etdiyi yerdə hakimiyyət nümayəndələrinin, xüsusilə şəhər darğasının rüşvətxorluğu, əyriliyi haqda moizə edirdi. Elə burada əvvəldən təlimatlandırılmış üç-dörd nəfər araya şuluxluq saldı. Bu haqqı danışan kişini kafirlikdə, kafirlərlə əlbir olmaqda suçladılar. Bilirdilər ki, Harun kafirləri heç vaxt bağışlamır. Ona görə də bu şəxsi zindana saldılar. Son qərarı vermək üçün Harun ər Rəşidin hüzuruna apardılar. Yalançı şahidlər də hazır dayanmışdı.

Harun ər Rəşid bu kişini başdan-ayağa süzdü. Sonra zəhmli səsi ilə dedi:

– Sən nə üçün yolunu azmısan?! Məgər qudurmusan ki, müsəlman ola-ola kafirlik edirsən, kafirlərə qoşulursan?! Günahlarını etiraf etməsən, asılacaqsan!..

Bu haqqı sevən kişi and-aman etməyə başladı. Onda Harun ər Rəşid dedi:

– Yaxşı indi əmr edərəm sənə o qədər kötək vurarlar ki, kafirliyini, kafirlərlə dilbir olduğunu boynuna alarsan!

Yenə bu adil kişi and-aman elədi və dedi:

– Siz müsəlman dünyasının xəlifəsi, başçısı sayılırsınız! Nə üçün haqsızlıq edib, mən kafir olmaya-olmaya kafirliyi kötək gücünə boynuma qoymaq istəyirsən? İstəyirsən verilən işgəncə hesabına kafirliyi boynuma alım? Haqq divanını heç vaxt yaddan çıxarmayın.

Bu sözlərdən sonra xəlifə bu şəxsə inandı və şəhər hakimi ilə darğanı cəzalandırdı.

## VARLI VƏ DİLƏNÇİ

Bir vilayətdə gözü həmişə onda-bunda olan, ac-göz dilənçi yaşayırdı. Dilənçiliklə bir qarın ac, bir qarın tox ömür edir, tənbəllikdən özünə gün-güzəran düzəldə bilmirdi. Paxıllıqdan, dargözlükdən həmişə ürəyində varlı şəxslərə qarğıyır, onların da onun kimi olmalarını arzulayırdı.

Axşama qədər bazar yolunda duran bu dilənçiyə bir gün heç kim yardım etmədi. Çox fəna vəziyyətdə qaldı. Təsadüfən oradan keçən bir xeyirxah insan bu dilənçiyə bir qran pul verdi və dedi:

– Buralarda yaşayanlar əsasən yoxsul insanlardı. Yaxşı olar ki, şəhərin şərq tərəfində bir qızılı çadrda yaşayan şəxsə müraciət edəsən. O, xeyirxah insandı. Səni darda qoymaz.

Dilənçi gecəni bir təhər keçirib, gün çıxanda həmin yerə yollandı. Nişan verilən çadırı tapdı. Çadırın qapısın açıb içəri girdi. Çadırın içərisinə baxanda gözlərinə inanmadı. Çadırın yuxarı tərəfində əynində çox bahalı paltarlar olan bir şəxs əyləşmişdi. Qarşısında qızıl qablar vardı. Çadır qızıl mıxlarla yerə sancılmışdı. Gözləri qamaşan dilənçi çadır sahibinə üz tutaraq dedi:

– Ey şəxs, mən bir qarın çörəyə möhtac olduğum halda, siz qızıl mıxlı çadırda yaşayırsınız. Elə olur ki, mənim dilənçi piyaləmə bir qran pul da atan olmur.

Çadır sahibi gülümsəyərək dilləndi:

– Ey insan övladı, deyirsən ki, mən də bu çadırı tərk edim, sənə qoşulum? Dilənçi onun zarafat etdiyini düşünərək:

– Bəli, – dedi

Çadır sahibi ayaqqabılarını çıxarıb, dilənçi ilə yola çıxdı. Yolun yarısında yorulan dilənçi ona yoldaşlıq edən şəxsə dedi:

– Mən yorulmuşam. Həm də dilənçi piyaləm çadırda qalıb. Qayıdıb onu götürmək istəyirəm.

Çadır sahibi heyrətlənərək dilləndi:

– Mən sənə görə qızıllı çadırımı tərk edib, sənə yoldaşlıq etmək istədim. Ancaq sən bir dilənçi piyaləsindən ötəri

çadıra qayıtmaq istəyirsən?! Bu əhvalla bizim yoldaşlığımız tutmaz.

## ƏN AXMAQ ADAM

Rəvayətə görə, bir padşah vəfatının yaxınlaşdığını hiss edir. Vəliəhdi olmadığından nisbətən cavan vəzirini çağırıb, bir şərtlə taxt-tacı ona vermək istədiyini bildirir. Şərt də bu idi ki, vəzir qırx gün ərzində məmləkətin ən axmaq adamını tapmalıdır.

Vəzir tapşırığı alan kimi yola düşür, ölkənin hər tərəfini dolaşır. Bir çox axmaq insanlarla rastlaşsa da, hər növbəti axmağın əvvəlkindən betər olduğunu görüb, heç birinin üzərində dayana bilmir. Nəhayət, qırxıncı gün paytaxta qayıdarkən bir şəhərdə izdihamla qarşılaşır. Görür ki, camaat hündür bir yerdə dayanan iki nəfərdən birinin üzünə tüpürür, digərini isə təbrik edir. Səbəbini soruşduqda məlum olur ki, üzünə tüpürülən şəhərin keçmiş, təbrik olunan isə şəhərin yeni başçısıdır.

Vəzir axtardığını tapdığını düşünərək dərhal, sevincək saraya qayıdır. Şahın hüzuruna gələrək şərti yerinə yetirdiyini bildirir. Padşah axmağın kimliyi ilə maraqlandıqda vəzir şahidi olduğu son hadisəni ərz edib deyir:

– Filan şəhərin təzə başçısından axmağını görmədim. Çünki özündən əvvəlkinin aqibətini gördüyü halda, təzə başçı olmasından məmnundur. Təşkil etdiyi bu tamaşanın gələcəkdə onun da başına gələ biləcəyini düşünmür.

## ZƏMANƏ BİZİMDİR

Bir gün Azərbaycan Mərkəzi Komitəsinin birinci katibi Mircəfər Bağırov indiki İncəsənət Muzeyinin yerləşdiyi möhtəşəm evinin eyvanından paytaxtı, dənizi seyr edirmiş. Yanında dayanmış oğlu uşaq marağı ilə ondan soruşur:

– Ata, bu mülk, bu şəhər, bu dəniz hamısı bizimdir?

Birinci katib başını bulayıb deyir:

– Yox, oğlum, bu mülk, bu şəhər, bu dəniz bizim deyil, zəmanə bizimdi.

## ETİBARA SADİQ İNSAN

Finti adlı bir görkəmli şəxs məşhur filosof Pifaqorun tələbələrindən idi. Onu Dionisiyə sui-qəsddə günahlandırıb edama aparırlar. Hökmün icrasından bir az qabaq o, bəzi işlərini yoluna qoymaq üçün bir az möhlət istəyir və qayıdana qədər dostunu zamin saxlaya biləcəklərini bildirir.

Dionisi belə bir dostun tapılacağına inanmadığından Fintiyə öz dostunu çağırmağı əmr edir. O, dostunu çağırır. Məlum olur ki, çağırılan şəxs Pifaqorun başqa bir tələbəsi Lamondur. Lamon dostunu əvəz etməyə tərəddüdsüz razılıq verir. Hökmdar edamın vaxtını təyin edərək Fintini sərbəst buraxır.

Təkcə tiran deyil, meydanda olanların hamısı bu hadisənin nə ilə qurtaracağını, Fintinin edamadək özünü yetirib-yetirməyəcəyini böyük maraq və intizarla gözləyir. Nəhayət, təyin olunmuş vaxtda Fintinin təngnəfəs edam yerinə qaçdığı görünəndə camaatın alqış sədaları meydanı bürüyür. Bu cür dostluq nümunəsini görən Dionisi isə nəinki Fintini bağışlayır, hətta onu da öz sıralarına götürmələrini dostlarından xahiş edir.

## ƏMİR TEYMUR VƏ HAFİZ ŞİRAZİ

Bir hökmdara bu dünya azlıq edir, – deyən Əmir Teymur Şiraz şəhərini də fəth edəndən sonra Şərqin görkəmli söz ustadlarından Hafiz Şirazini hüzuruna çağırır. Şairin aşağıda verilən məşhur beyti fatehin qüruruna toxunmuşdu.

*Qəlbimi xali etdim qədəminə türk qızının,*
*Verdim hindü-xalına da Buxaranı, Səmərqəndi.*

Teymur Hafiz Şiraziyə deyir:

«Mən dünyanın yarısını bu qılıncımla özümə tabe etdim. Buxaranı, Səmərqəndi az qala dünyanın mərkəzinə, paytaxtına çevriib bəzədim. Sən isə bir gözəlin xalına mənim Buxaramı, Səmərqəndimi verməyə hazırsan».

Şairin taleyi tükdən asılıydı. Sözü hökmdarın xoşuna gəlməsəydi, qətlinə fərman veriləcəyi şübhəsizdi.

Şair kasıb görkəminə işarə edərək bu cavabı verir: «Şahım, elə bu bədxərcliyimin üzündəndir ki, belə fəqir düşmüşəm».

Teymur gülümsəyir, qəzəbi keçib, könlü açılır. Şairi mükafatlandıraraq yanında qalmasını istəyir.

## STALİNİN QƏZƏBİ

O dövrdə ali partiya rəhbərliyi öz aralarında Stalini «xozeyin» adlandırırdılar. Bir dəfə İ.V.Stalinin göstərişi ilə köməkçisi Poskrebişev Sovet İttifaqı marşalı Tuxaçevskiyə zəng vuraraq xozeyin sizi görmək istəyir» dedi. Marşalın ona cavabı kəskin oldu: «İtin xozeyni olar. Mənsə it deyiləm. Partiyanın Baş Katibini tanıyıram».

Ertəsi günü Tuxaçevski sui-qəsddə və dövlətə xəyanətdə ittiham olunaraq güllələndi. Sonra Stalinin şəxsi göstərişi ilə marşalın xanımını, iki qardaşını və bir bacısını da güllələyib, balaca qızı Svetlananı yetimxanaya göndərdilər.

## İMAM CƏFƏR SADİQİN DUASI

Rəvayət olunur ki, Abbasi xəlifəsi Əbu Cəfər hicrətin 147-ci ilində Həcc ziyarətindən sonra Mədinəyə gəldi. Dərhal da İmam Cəfər Sadiqin dalınca bir adam göndərərək dedi: «Onu yorğun-ağrın da olsa yanıma gətir. Əgər onu öldürməsəm, Allah məni öldürsün». İmam gəlib hüzura girdikdə xəlifə onu təhdidlə qarşıladı: «Ey Allahın düşməni, demək İraq xalqı səni imam edibdir və zəkatını sənə göndərirlər. Sən də mənim səltənətimdə dil uzadır, başımı dərdə soxursan, eləmi? Əgər səni öldürməsəm, Allah məni öldürsün!»

İmam Sadiq (ə) bu cavabda bulundu, xoş sözlərlə iltifat göstərdi: «Ey möminlərin əmiri, Süleymana (ə) mülk verildi, o da şükür etdi. Yusif (ə) zülmə uğradı, bağışladı. Eyyub (ə) dərdə mübtəla oldu, səbir etdi. Sən də o əsildənsən». Xəlifənin qəzəbi soyudu, xoş sözlərlə iltifat göstərdi. Sonra əlini uzadıb öz döşəyinə əyləşdirdi. Ardınca da vəzirinə: «Əbu Abdullahın mükafatını və xələtini ver. Onu Allahın hüzr və əmanəti içərisində yola sal, – dedi. Vəzir xəlifədə baş verən bu dəyişiklikdən heyrətə düşmüşdü. İmamı yola salanda soruşdu: «Ey Abdullahın atası, içəri girdiyin zaman nə söylədin? Nə duada bulundun?

İmam Sadiq (ə) buyurdu: «Belə dua etdim: «Allahım, məni uyuşmayan gözünlə nəzərdə saxla, məni kimsənin vara bilməyəcəyi qalan ilə himayə et. Məni mənə olan gücünlə bağışla ki, həlak olmayım. Ümidim sənsən. Allahım, sən qorxduğum və ehtiyat etdiyim şeydən daha böyük və ulusan. Allahım, onun köksündəki səninlə dəf edilir və onun şərindən sənə sığınıram».

## ÖRDƏK OVU

Üç nəfər çöllərə ov ovlamağa getmişdi. Gördülər ki, dağ tərəfdən bir dəstə ördək onlar olan istiqamətdə uçurlar. Bunu görən ovçulardan biri dedi:

– Ördək dəstəsi indi başımızın üstündən uçacaq. Mən onlardan birini vuracağam. Burada bişirib yeyərik. Çöl ördəyinin əti çox daddlı olur. O biri ovçu isə dedi:

– Elə şey yoxdu. Vurduğum ördəyin ətini kabab eləyib yeyəsəyik. Çöl ördəyi kababının dadını heç nə verə bilməz. Bu iki ovçu hələ ortada bir şey olmaya-olmaya mübahisə etməyə başladı. Nəhayət, üçüncü ovçu da bu mübahisəyə qoşulub dedi:

– A qardaşlar, mübahisə etməyin. Ördəyi vurandan sonra ətini iki hissəyə bölərik. Yarısını qazanda bişirərik, yarısını da kabab edərik. Ən əsas məsələ ördəyin vurulmasıdır.

Bu söhbətdən sonra birinci ovçu tüfəngini hazırladı ki, ördəklərə atəş açsın. Gördü ki, bunlar burada boş-boşuna mübahisə etdikləri vaxt ördək dəstəsi başları üzərindən uçub xeyli aralanıblar, daha onlar istiqamətdə atəş açmağın heç bir nəticəsi olmaz. Peşman-peşman öz aralarında yenə mübahisə edib, bir-birini günahlandırmağa başladılar.

Bəli, hər iş vaxtında, məqamında görülməlidir. Vaxtında görülməyən işin nəticəsi də belə olar. Ona görə də atalarımız deyib: «Zaman altundan qiymətlidir».

## ƏMİR TEYMURUN SON VƏSİYYƏTİ

Fatehlər fatehi, məğlubiyyətin nə olduğunu bilməyən Əmir Teymur bu fani dünya ilə vidalaşmazdan əvvəl yaxınlarını, əmirlərini, sərkərdələrini çağırtdırıb son vəsiyyətini elədi. Otuzaltıillik məğlubedilməz hakimiyyəti dövründə son vəsiyyətini ətrafdakılar dinlədi:

– Bilirəm, ruhum bədənimi tərk etmək istəyir. Məni ömür verən və yaradanın dərgahına götürəcəklər. Mənim üçün göz yaşı axıtmayın. Paltarlarınızı cırıb küçələrə tökülməkdənsə, Allaha dua edib mənə rəhm etməsini diləyin. «Allahu Əkbər» deyib ruhuma «fatihə» oxuyun...

Oğlum Cahangirin oğlu Pirməhəmmədi varisim elan edirəm, taxt-tacının sahibi olduğunu bildirirəm. O, Səmərqənddə oturub mütləq hakim kimi səltənəti idarə edəcəkdir. Yadınızda saxlayın ki, mən asayişi və sülhü qorumaq üçün hər bir şeyi etdim. Çalışın ölkədə baş verən hər şeydən xəbərdar olasınız. Cəsur olun, qılıncınızı əlinizdə möhkəm tutun. Necə ki, mən etmişəm. Onda siz nəhəng səltənəti idarə edərsiniz. Mən İranı və Turanı düşmənlərdən, sabitliyi pozanlardan təmizlədim. İnkişaf və tərəqqi gətirdim. Əgər siz son vəsiyyətimə əməl etsəniz, onda hakimiyyət uzun müddət əlinizdə qalar. Aramızda fikir ayrılığı və müharibələr olsa, sizi çox pis aqibət gözləyir. Düşmənləriniz müharibəyə hazırlaşar, siz bu müharibələri qurtarmağa çətinlik çəkər, dövlət və dinə zərər yetirərsiniz. Vəsiyyətini edib əmirlərə və

sərkərdələrə sədaqət andı içirdi. Bundan sonra halı ağırlaşdı. Avazla «Quran» oxuyanların sədaları altında «La ilahə illəllah» kəlmələriylə bu fani dünyaya gözlərini yumdu. Bu zaman altmış doqquz yaşı vardı.

Lakin Teymur ölən kimi vəsiyyəti unuduldu. Pirməhəmməd hakimiyyətə yaxın buraxılmadı və öldürüldü. Fatehin oğulları və nəvələri səltənəti bölüşdürməyə girişdilər. Nəticədə nəhəng Teymurilər dövlətinin ömrü Teymurun öz ömründən də az sürdü.

## ÜZEYİR HACIBƏYOVUN CAVABI

Azərbaycan Mərkəzi Komitəsində Radio Verilişləri Komitəsinin işi müzakirə edilirmiş. Komitənin sədri öz çıxışında bəstəkar Üzeyir Hacıbəyovun radioya biganə münasibət bəsləməsindən gileylənir. Bunu eşidən Mircəfər Bağırov Üzeyir Hacıbəyova tərs-tərs baxır. Ona görə də söz alan Üzeyir Hacıbəyov deyir:

– Mən son vaxtlar bir neçə dəfə zəng vurub sədrlə danışmaq istəmişəm, lakin onun rus katibəsi bizi calaşdırmayıb. Hər dəfə özümü təqdim etsəm də, cavabı bu olub. «Fərqi yoxdur, sədr məşğuldur».

Mircəfər Bağırov Komitənin sədrinə qəzəblənir:

– Bilməmişdik, hərə bir bəydadaş olub. Katibə seçəndə, heç olmasa, elə matışka tapın ki, Üzeyir bəyi tanısın. Elə həmin günün səhərisi bir çox vəzifəlilər rus qızlarından olan katibələrini azərbaycanlı qızlarla əvəz elədilər.

## ƏMİR TEYMUR DÜNYASINDAN

Tarixdə bir çox görkəmli dövlət xadimləri həyatda özlərini bəzi hallarda roldan-rola girən aktyor kimi aparmışlar. Belələrindən Fransa imperatoru Napoleonu, Roma imperatoru Neronu və başqalarını göstərmək olar. Böyük fateh Əmir Teymur da bəzən hakimiyyətdə özünü aktyor kimi aparırdı.

Ancaq o, bunu müharibə şəraitində ancaq düşmənlərinə qarşı edirdi.

Rəvayətə görə Əmir Teymur hələ böyük şöhrətin astanasında olarkən Mavərənnəhr xanı itaət etməsini, ya da döyüşə çıxmasını tələb edir. Teymurun ordusu döyüşə girəcək qədər güclü olmadığından o, özünü xəstəliyə vurur. Xanın elçilərini qəbul edən zaman özünü qan qusurmuş kimi göstərir. Halbuki ağzından gələn vəhşi qabanın qanıydı. Elçilər tam arxayınlıqla xanın yanına qayıdır və ona deyirlər ki, döyüşə ehtiyac yoxdur, tezliklə Teymur öləcək. Bu əhvalatdan sonra Teymur vaxt qazanır, xana qəfil hücum edir, onun hazırlıqsız ordusunu məğlubiyyətə uğradır.

## ZÜLMKAR HAKİMİN ƏYANLARINA DƏRS VERMƏSİ

Şərq ölkələrindən birində zülmkar hökmdar öz əyan əşrəfinə xalqı idarə etməyin sirrini öyrətmək məqsədi ilə ortaya diri toyuq gətirilməsini əmr edir. Toyuğu son lələyinəcən diri-diri yolur. Zavallı toyuğun bircə pipiyi, bir də başının şanası qalır. Sonra lüt toyuğu yerə qoyur.

Hamı onun başını götürüb qaçacağını gözləyirdi. Amma yazıq toyuq hara getsin? Günün altında bişir, kölgədə üşüyür. Buna görə hökmdarın ayağına qısılır. Hökmdar isə yerə təkəm-seyrək dən səpir, toyuq da mütücəsinə onun arxasınca gedir. Toyuq da başa düşür ki, getməsə, acından öləcək, ütülmüş vəziyyətdə özünə yem tapa bilməyəcək.

Hökmdar utanmadan, çəkinmədən əyanlarına deyir: «Bax xalqı bu cür idarə etmək lazımdır».

## QƏTİYYƏTLİ ADDIM

Qətiyyətli addım atmaq lazım gələndə həyatda kasıb bildiyin bir işin görülməsinin əsas şərtlərindən biridir. Tarixən qətiyyətli dövlət xadimləri, sərkərdələr, görkəmli şəxsiyyətlər qarşılarına qoyulan məqsədə çatıb, uğur qazanıblar.

Makedoniyalı İsgəndər 23 yaşında dünyanın fəthi üçün hazırlığa başlarkən ustadı Aristotel ona deyir:

– Sən bu hərəkətinlə böyük bir işə başlamış olursan. Öhdəsindən gələ bilməməyindən qorxuram, çünki çox cavansan. Bəlkə, bir az gözləyəsən, təcrübə toplayasan?

Makedoniyalı İsgəndər müəlliminə bu cavabı verir:

– Yox, illər keçdikcə, bəlkə də, təcrübəm artacaq, ancaq qətiyyətim azalacaqdır.

## PEŞMANÇILIQ

Bir hökmdar öz əsirləri içərisində bir nəfərin ox atmaqda məşhur olduğunu eşidir. Ona hədəf göstərib oxla vurmağı əmr edir. Lakin bu zavallı insan nişan almaqdan imtina edir, hökmdarın əmri icra olunmur, sözü yerə düşür. Nə qədər israr olunsa da, oxçu bu işdən boyun qaçırır. Hökmdar bundan bərk qəzəblənərək onun öldürülməsi barədə hökm verir.

Edama aparılarkən yoldaşları oxçudan nə üçün hökmdarın hökmünü yerinə yetirmədiyini soruşurlar. O yoldaşlarına deyir:

– Çoxdan bəridir nişan almıram. Oxumun boşa çıxıb tənəyə tuş gəlməyindən qorxdum.

Edamdan sonra bu söhbət hökmdara da çatdırılır. Padşah öz şöhrətini, adını ölümündən üstün tutan bu oxçunu öldürtdüyünə görə çox peşman olur.

## ALLAHA SIĞINMAQ

Bir ölkədə çox mömin, dindar, danışığı ilə əməli bir olan və həmişə Allaha sığınan şəxs yaşayırdı. Ətrafındakılar da onu göründüyü kimi deyil, olduğu kimi tanıyırdı. Həmişə sözü düzünə deyərdi. Elə buna görə də onu istəməyənlər, gözü götürməyənlər də vardı. Bir gün bu ölkənin mərkəzində hökmdara qarşı iğtişaşlar baş verdi. O mömin kişini istəməyənlər hökmdara çatdırdılar ki, bu hadisələrin başında

həmin dindar dayanır. Halbuki o insanın bu işlərdən xəbəri yox idi və həmişə çalışardı ki, qeylü-qallı işlərdən uzaq olsun.

Ancaq bu haqqa sığınan və həmişə haqqın tərəfində olan mömin kişini gətirib zindana saldılar. O, zindanda da Ulu Yaradana dua-səna elədi. Üz tutdu həmişə qəlbində gəzdirdiyi Rəbbinə: «Ey Yaradan, səndən başqa sığınmağa elə bir kimsənəm yoxdur. Ancaq sənə sığınmışam. Sən haqsan, bilirsən ki, mən günahsızam».

Kişinin zindanda olmasının üçüncü günü idi. Hökmdar həmin gecə bu mömin kişi ilə bağlı qorxulu bir yuxu gördü. Gecənin yarısı yuxudan ayıldı. Adamlarını çağırıb əmr elədi ki, elə indi o mömin kişini zindandan azad edin. Özü də sarayında dözə bilmədi. Ayaqyalın, başıaçıq zindana gəldi. Artıq qolları zəncir açılan kişidən üzr istədi, onu bağışlamasını xahiş etdi və dedi:

– Məndən nə istyərisən, istə. Bu saat bütün istəklərini yerinə yetirərəm.

Həmin şəxs cavab verdi:

– Sənin mənə verəcəyin dünya malında gözüm yoxdu. Mən gecənin bu vaxtında səni ayaqyalın-başıaçıq mənim hüzuruma göndərən Ulu Yaradana sığınmışam. İstəyim də ondan olar.

## ŞƏXSİYYƏTİN UCALIĞI

Xarəzm hakimi Yusif Sufi Əmir Teymurun vassalı idi. Fatehlə müqaviləni pozaraq, Xarəzmin müstəqilliyini bərpa etmək fikrinə düşdü. Teymur öz ordusuyla vassalının yerləşdiyi Ürgənc şəhərini mühasirəyə aldı. Yusif özünün və şəhərinin hansı aqibət gözlədiyini anladı. Teymura məktub göndərərək hər iki tərəfdən müsəlman qırğınını dayandırmağı və təkbətək döyüşməyi təklif etdi.

Əmir Teymur dərhal çağırışı qəbul edərək, döyüş paltarını geydi və atını mindi. Əmirlər nə qədər onun qabağını kəsmək istəsələr də, Teymur fikrindən dönmədi. Heç kimə qulaq as-

madı. Atını şəhər qalasının divarlarına tərəf çapdı. Çoxsaylı oxucuların gözü qabağında dayanıb gur səslə özünü təqdim etdi.

Lakin Yusif Sufi qüdrətli rəqibinin tək-tənha döyüşə gələcəyini hesablamamışdı. Qabağa çıxmaqdan qorxaraq təhlükəsiz bir yerdə gizləndi. Teymur üzünü qalanın divarları üstündə dayanan oxçulara tutaraq uca səslə hayqırdı: «Kim sözündən qaçırsa, o da ölməlidir».

Sonra öz əsgərlərinin gur sədaları altında düşərgəsinə qayıtdı.

Yusif isə bu rüsvayçılıqdan üç ay sonra xəstəlikdən öldü. Teymur şəxsiyyəti isə əsgərlərinin gözündə daha da ucaldı. Teymur bu hərəkəti ilə gələcək qələbələrin əsasını qoydu.

## KİŞİ LƏYAQƏTİ

Çox da böyük olmayan şəhərlərdən birində bir dəmirçi ailəsi yaşayırdı. Şəhərin kənarında bir kasıb, uçuq-sökük evləri vardı, dörd də azyaşlı uşaqları. Dəmirçi gecə-gündüz ağır zəhmətə qatlaşır, ailəsini güc-bəla ilə dolandırardı. Amma buna baxmayaraq, dildən iti olan arvadı evə gətirilən ruzuya görə zikir etmir, kişinin qarasınca deyinir, yazıq kişini əlindən iş gəlməyən, fərasətsiz adlandırırdı.

Bir gün dəmirçi köməkçisinin səhvi ucundan dəmirçixanada güclü yanğın baş verdi. Yanğını söndürmək istəyərkən qıçı körüyə ilişən kişi aşıb alovun gur yerinə düşdü. Bir qıçı və üzünün bir tərəfi bərk yandı. Ətrafda olan insanlar tökülüb yanğını söndürdülər. Kişini də çox çətinliklə aparıb evlərinə qoydular.

Bundan sonra ailənin güzəranı daha da ağırlaşdı. Arvad isə ərinin qayğısına qalmaq əvəzinə, kişinin üzünə elə hey deyinirdi. Elə vəziyyət yaranmışdı ki, kişi evdən sürünə-sürünə olsa da çıxıb getmək istəyirdi. Ancaq bu mırt-mırt arvad ondan qabağa düşdü. Gedib qardaşlarını çağırdı, kişini evdən bayıra atdılar. Sonralar da heç öldü-qaldısı ilə də maraqlanmadılar.

Bir gün bu kasıb daxmanın qapısı döyüldü. Qadın qapını açdı. Qapıda bir kişi dayanmışdı. Əlində də bağlı boxça vardı. Arvadın gözü elə boxçadaydı. Kişi salam verdi, vəziyyətlərini soruşdu. Arvad yenə kişinin qarasına üyüdüb tökməyə başladı. Ərinin yanğında qıçının, üzünün çox ağır yanmasından, evdən çıxarıb bayıra atmasından danışdı.

Kişi əlindəki boxçanı qadına verib dedi: «İçində ərzaq, bir də qızıl vardır».

Gözləri alacalanan arvad bu şəxsə dua eləməyə başladı və sonda dedi:

– Kaş bütün insanlar sizin kimi xeyirxah olardı.

Kişi bir az aralanmışdı ki, arxaya döndü və arvada dedi:

– Bu bağlamanı sizə başqa bir şəhərdə yaşayan kişi göndərdi. Onun da üzü bərk yanmışdı, bir qıçı da kəsilmişdi.

Eşitdiyi sözlərin təsirindən üz-gözünə xəcalət təri dolan qadın bir müddət yerindən tərpənə bilmədi.

## AĞILLI CAVAB

Bir gün ölkə hökmdarı əyan-əşrəfi ilə Bağdad ətrafına gəzintiyə çıxmışdı. Hökmdarın gözü bir az aralıda cavan tingləri yerə əkən, həvəslə çalışan bir kişini aldı. Ona yaxınlaşıb salam verdi: «İşin irəli», «Allah qüvvət versin» sözlərini işlətdi, sonra qocaya dedi:

– Bu yaşında əzab-əziyyətlə bu tingləri əkirsən, onların barın yeməyə ömrün catacaqmı?

Qoca cavabında dedi:

– Başqaları əkmişlər biz yemişik, biz də əkməliyik başqaları yesinlər. Bu ənənə insan cəmiyyətində ardıcıl olaraq davam etməlidir.

Qocanın sözləri hökmdarın xoşuna gəldi və onu mükafatlandırdı.

## XƏLİFƏNİN TALEYİ

Rəvayət olunur ki, Monqol hökmdarı Hülakü xan 1258-ci ildə Bağdadı işğal etdikdən sonra Abbasilərin sonuncu xəli-

fəsi Əl-Müstəsimin sarayında oldu. Xəlifənin hüzura gətirilməsini tələb etdi. Hüzura gətirilən Əl-Müstəsim bir çox qiymətli hədiyyələr gətirmişdi. Halbuki xan hədiyyələrin hamısını əyan-əşrəfə, orduya, camaata payladı. Bir qızıl tabağı da xəlifənin qabağına qoydu, yeməsini əmr etdi.

Əl-Müstəsim dedi: «Bunu ki, yemək olmaz». Hülakü xan ona belə söylədi:

Bəs niyə bunu saxlayıb qoşuna xərcləmədin? Bəs niyə bu dəmir qapılardan ox. Qılınc düzəltdirib Ceyhun çayının sahilinə gəlmədin ki, mənim ordan keçməyimə mane olasan?

Xəlifə cavab verdi:

– Allah tilsimi belə yazıbmış. Gündüzüm gecəyə dönməli imiş.

Bir neçə gündən sonra Monqol hökmdarının əmri ilə son Abbasi xəlifəsi oğlanları və yaxınları ilə birgə edam edildi.

## ULU PEYĞƏMBƏRİN NƏSİHƏTİ

Bir nəfər mömin, təqvalı şəxs Allah rəsulunun qəbuluna gəldi ki, ondan bir neçə hikmət öyrənsin. O şəxs ərz elədi:

– Ey Allahın Rəsulu, mən nə işlər görüm ki, Allahıma xoş gəlsin?

Allahın Rəsulu buyurdu:

– Acların qarnını doyur.

– Əgər mənim güzəranım onlardan aşağıdırsa, onda necə hərəkət edim?

– Yolun azanları düz yola hidayət elə.

– Əgər özümün də nöqsanlarım varsa, düz yolu tam başa vura bilmirəmsə?

– Onda bütün varlığınla ürəyində yaxşılıq toxumlarımın cücərməsinə, yaxşılığın bir adət şəkli almasına çalış. Onda cənnəti rizvanda bizimlə birgə olarsan.

Bundan sonra o mömün şəxs Rəsulullahın əlin öpdü, yüksək əhvalda öz yaşayış yerinə yollandı. Gedə-gedə Ulu

Peyğəmbərin dediyi son sözlər – Nə iş görsən, birinci özündən başla» beynini döyəcləyirdi.

## HƏYATDA ŞƏXSİ NÜMUNƏNİN ROLU

Cəsur olmaq tarixdə çox rəhbərlərin taleyinə yazılsa da, şəxsi şücaət hər başçıya qismət olmur. Cəsur və şücaətli olan rəhbərin ordu və xalq arasında böyük nüfuzu olur. İkinci Dünya müharibəsindən sonra Sovet İKP Siyasi Bürosu İ.V.Stalini Sovet İttifaqı Qəhrəmanı adı ilə təltif etməyi qərara almışdı. Ali Baş Komandan bunu eşidəndə bərk hirsləndi: «Saray yaltaqları! Bu cür yüksək mükafat döyüş meydanlarında qəhrəmanlıq göstərən əsgərlərə verilir. Mənsə əlimdə tüfəng heç vaxt hücuma getməmişəm və qəhrəmanlıq da göstərməmişəm».

O, ölənə qədər bu mükafatı qəbul etmədi. Buna başqa bir misal göstərək. Tarixçilər yazır ki, Xarəzm hökmdarı Cəlaləddin monqol ordusu ilə döyüşdə məğlub olduqdan sonra öz atını coşqun Hind çayına vurmuş və gur axınla üzərək qarşı sahilə çıxmışdı. Bu zaman Çingiz xan əlini ağzına tutaraq rəqibini dörd gözlə izləmiş və onu təqib etməmək əmri vermişdi. O zaman demişdi: «Kaş hər atanın belə bir oğlu olaydı».

## ƏDALƏTLİ QƏRAR

Xalq artisti Əminə xanım xatirələrində yazır: «Bir dəfə günün günorta çağı Mircəfər Bağırov heç kəsə xəbər vermədən tək-tənha filarmoniyaya gəlir. Bu vaxt filarmoniyada heç kim olmadığından keçib direktorun kabinetində oturur. Bir az keçmiş hökumət telefonu ilə zəng çalınır. Bağırov dəstəyi qaldırır. Zəng edən Mərkəzi Komitənin məsul işçilərindən biri imiş. Hörmətli tərzdə soruşur:

– Danışan kimdir?

– İnzibatçı.

– Direktor hardadır?
– İndi gələr.
– Mən ailəmlə konsertə gələcəyəm. Qapıda mənim adıma dörd dəvətnamə qoyun!
– Baş üstə.

Bağırov bunu və sonrakı zəngləri qeyd edir. Beləliklə, iyirmiyə qədər rəhbər işçi zəng vurub yüzdən artıq yerə dəvətnamə, yəni pulsuz bilet sifariş verirlər.

Direktor gələndə Bağırovu öz kreslosunda əyləşən görüb duruxur. Bağırov deyir:

– Gəl yerini tut. Mən indi bildim ki, sən planı niyə yerinə yetirmirsən...

Bağırov pulsuz bilet tələb edənlərin əksəriyyətini vəzifəsindən kənarlaşdırdı. Ümumiyyətlə, cəzasız qalan olmadı. Beləliklə, pulsuz bilet həvəskarlarının telefonla sifarişlərinə son qoyuldu...»

## İBRƏTLİ CAVAB

Rəvayət edirlər ki, bir tacir satmaq üçün Bağdada mal gətirir. Lakin şəhər darvazasının artıq bağlandığını görüb, gecəni bayırda yatmalı olur. Səhər ayılanda görür ki, oğrular malını oğurlayıblar. Saraya gedib, xəlifə Harun ər-Rəşidə şikayət edir. Xəlifə ona deyir:

– Sən nə üçün yatdın ki, oğrular da malını oğurlasınlar?

Tacir deyir:

– Mən sənin oyaq olduğunu düşünərək yatmışdım.

## QOCANIN HÖKMDARA DƏRS VERMƏSİ

Rəvayət edirlər ki, bir qoca Nuşirəvan Adilə yaxınlaşaraq saray əyanlarının birindən şikayətdə bulunur. Bir əyanın ona çox qəddar olduğunu, hətta onu öldürməklə hədələdiyini bildirir.

– Mən indi vəzirə səni nəzarətə götürməyi tapşıraram. Arxayın ol ki, səni öldürəni on dəqiqənin içində tapdırıb dərhal çarmıxa çəkdirirəm.

Qoca minnətdarlıq edərək deyir:

– Ey adil hökmdarımız, çox iltifat göstərdiniz. Lakin xahiş edirəm bu iltifatınızı bir qədər də artırın.

Həmin əyan məni öldürəndən on dəqiqə sonra yox, on dəqiqə əvvəl çarmıxa çəkin. Əgər siz dediyiniz vaxt bu işi icra etsəniz, bunun mənim həyatımda heç bir əhəmiyyəti olmayacaq.

## AŞINI-SUYUNU VERMƏK

«Aşını-suyunu vermək» ifadəsi xalq arasında adi danışıqda, nağıllarımızda, lətifələrdə məqamına görə geniş işlənir. Bu ifadənin məna tutumuna varanda bir insanı, yaxud başqa canlını möhkəm əzişdirmək, döymək, incitmək mənalarında işlənir. Məsələn, «xanın sərbazları xanın qatırını hürküdən bu yazıq kişinin aşını-suyunu verdilər».

Bəs bu ifadənin etimoloji yozumu nədir?

Tarixi qaynaqlarda göstərilir ki, Qafqaz ərazisində yaşayan Xəzər tayfalarında, yəni xəzərlərdə (qeyd edim ki, Xəzər dənizinin adı da o tayfalarla bağlıdır) belə bir adət olmuşdu. Ölən şəxs qəbiristanlıqda dəf olunandan sonra qaranlıq düşəndə ölən şəxsin yaxınlarından biri yas üçün bişirlən aş və bir az da su götürüb qəbiristanlığa gedər, aşı və suyu həmin qəbrin baş tərəfində qoyar və arxaya baxmadan geri dönərdi. Bununla onlar elə hesab edirdilər ki, ölənin ruhu aş və suyu görəndən sonra gözü bir daha dəfn olunan insanın evində qalmaz, ölən şəxsin ruhu və sahiblərindən inciməz.

## DOST MƏKTUBU

Bir ölkədə iki gənc dost olur. Onların hər ikisi dostluqda sədaqətli idi. Hər ikisi ayrılıqda bağbanlıq və gülçülüklə məşğul olurdular. Hərdən bir-birinə yeni əldə etdikləri gül toxumları verirdilər.

Sonralar elə oldu ki, bu dostlar bir-birilərindən xeyli aralı düşdülər.

Aradan çox sular axmış, çox illər arxada qalmışdı. Dostun biri bir gün fikirləşdi ki, dostumla görüşə bilməsəm də, gərək ona bir məktub yazam. Məktubu yazmağa başladı. Ancaq sonda yazdığı vərəqi cırdı, təzə vərəqə bir cümlədən ibarət məktub yazdı. Məktubda yazmışdı: «Sən verən gülləri sevə-sevə bəsləyirəm».

Yazdığı vərəqi zərfin içinə qoyub, dostuna yolladı. Dostu məktubu alanda çox sevindi. Məktubu üz-gözünə sürtdü, öpdü, sonra açdı. Dostunun yazdığı bircə cümləni dönə-dönə oxudu. Ona cavab yazmaq istəsə də, bacarmadı. Cavabı necə yazmaq haqda hey fikirləşirdi. Təxminən bir aydan sonra elə bil axtardığını tapdı. Ağ vərəqə o da dostuna cavab olaraq bir cümlə yazdı: «Mən də sən verən gülləri bəsləyirəm».

Dostu bir müddət sonra cavab məktubunu aldı, çox sevindi. Bu da bir cümlədən ibarət dost məktubunu üz-gözünə sürtdü, öpüşlərə qərq elədi.

Əvvəl məktub yazan dostun məktubundan belə məna çıxırdı: «Mən səni heç vaxt unutmamışam. Qəlbimdə sənə saf məhəbbət bəsləyirəm. İkinci dost da təxminən eyni cavabı yazmışdı: Mən də səni unutmamışam. Qəlbimdə əbədilik yaşayacaqsan».

### «YENGİM, YE DÜNYASI»

Bir böyük yaşayış yerində kasıb bir kişi yaşayırdı. Bir gün bu kişini toya çağırdılar. Bu kişi əynində olan cırıq-sökük paltarla toy evinə yollandı. Keçib lap başda oturdu. Bundan sonra toy evinə gələnlərin əksəriyyəti geyimlərinə görə başa keçdilər, bu kişini sıxışdıra-sıxışdıra lap aşağı başa saldılar. Yaxşı yemək verilməsinə də heç fikir verən olmadı. Belə davranışdan sıxılan bu insan övladı evlərinə döndü. Bir müddət sonra həmin kişini ayrı bir yerə toya çağırdılar. Kişi bu dəfə özünün ən yaxşı paltarlarını

və qonşudan aldığı bahalı çuxanı geyindi. Çağırılan yerə doğru getməyə başladı. Keçən dəfədən fərqli olaraq bu dəfə onu yolda görənlər ona baş əydi, ehtiramlarını bildirdilər. Toy evinə çatan kişi bu dəfə lap ayaq tərəfdə oturdu. Ev sahibi, eləcə də başqaları kişini təkidlə lap yuxarı başa apardılar.

Yeməklərin ən yaxşıları onun qabağına qoyuldu. Kişi çuxanın ətəyindən tutaraq yeməklərə tərəf yönəltdi və dedi:

– «Çuxam, ye! Bu dünya yengim, ye dünyasıdır». Kişinin bu sözlərindən, hərəkətlərindən bir şey anlamayanlardan biri dedi:

– A qardaş, nə sənin sözündən, nə də hərəkətindən bir şey başa düşə bilmədik. Bəlkə, bunun mənasın bizə də anladasan?!

Kiçi cavab verdi:

– Mən bir müddət qabaq köhnə libasda başqa toya çağırılmışdım. Onda məni itələyib lap ayağa saldılar, düzəmməli yemək də vermədilər. Ancaq bu gün geyimimə görə məni başa keçidilər və qabağıma ləziz yeməklər qoydular. Bunlar hamısı əynimdəki paltarlara, bahalı çuxaya görə idi. Ona görə deyirdim: «Çuxam, ye! Bu dünya yengim, ye dünyasıdır».

## İŞİNLƏ ƏMƏLİNİ SÜBUT ETMƏK

Bir şəxs kəsbikarlıq üçün başqa yerə işləməyə gedirdi. Qaranlıq düşsə də, mənzil başına çata bilməmişdi. Ona görə də çox sürətlə hərəkət edirdi. Birdən qıçı büdrədi, dərin bir quyunun dibinə düşdü. Yaxşı ki, quyuda su çox az idi. Quyu çox dərin olduğuna görə o, buradan heç çıxa bilməzdi. Taleyinə qarğayan kişi işıqlaşanda hay-həşir qopardı ki, bəlkə onun səsini eşidələr, kömək edib buradan çıxardalar. Bir yolçu bu səsi eşidib, quyunun kənarına gəldi. Niyə ora düşdüyünü, nə səbəbə yıxıldığını soruşdu. Bu zavallı insan da başına gələni danışdı. Quyunun ağzında dayanan kişi

başladı quyunun dibində kömək gözləyən o bədbəxt insanı danlamağa:

– Sən əməli düz adam deyilsən. Əvvəllər nə xəta eləmisənsə, indi qabağına çıxıb. Öz günahını özün də çəkməlisən.

Bunları deyib oralardan aralandı. Quyudakı insan yenə haray qopardı. Bu dəfə də yolla keçən bir təbib səs eşidib quyunun kənarına gəldi, ora yıxılmağının səbəbini soruşdu. O da quyuya düşməsinin səbəbini təbibə də danışdı.

Təbib də bir əməli köməkdə bulunmadı. Yanında olan dərmanlardan bir neçəsin ona atdı ki, barı istifadə eləsin, xəstələnməsin. Təbib də işinin dalınca çıxıb getdi.

Bir azdan burdan keçən bir qadın da quyunun başına gəldi. O zavallı insan əhvalatı da danışdı. Qadın bu məzlumun halına bir xeyli göz yaşı tökdü. Sonra o da burdan aralandı.

Axşama yaxın buradan çöl növbəsinə gedən bir çoban da səs eşidib quyunun başına gəldi. Yenə sorğu-sual başladı. Ancaq bu mərd çoban daha uzun danışmayıb, geriyə-kəndlərinə tərəf döndü. Bir azdan əlində bir sicimlə geri qayıtdı. Sicimi sallayıb, o zavallı insanı ölümün cəngindən xilas etdi. Bəli, hər bir insan əməli işi ilə özünü, xeyirxahlığını təsdiq etməlidir. Yoxsa danlamaq, boş-boşuna məsləhət vermək işə yaramır. Xeyirxah o çoban kimi əlindən gələni etməlidir.

## HARUN ƏR-RƏŞİDLƏ SORĞU

Rəvayətə görə könül əhli olan bir şəxs Abbasi xəlifəsi Harun ər-Rəşidin sarayına gəlir və onu ucada taxt üstündə oturan görüb deyir:

– Ey Allah, sənə deyiləsi sözüm var.

Harin ər-Rəşid cavab verir:

– Mən Allah deyiləm.

– Allah deyilsənsə, yəqin ki, Cəbrayılsan

– Mən Cəbrayıl da deyiləm!

– Bəs onda niyə oraya çıxıb tək oturmusan? Düş, bu adamların arasında otur, xalqın dərdi-sərindən xəbər tut.

## HÖKMDAR MƏNLİYİ

Makedoniyalı İsgəndər Hindistan yürüşündən qayıdarkən ordusuyla uzun müddət susuz çöllərdən keçməli olur. Susuzluq hamını əldən salır. Yolda qatırın üstündə bir tuluq su aparan adama rast gəlirlər. İsgəndərin köməkçiləri tuluqdakı sudan bir dəbilqə doldurub hökmdara verirlər. Fateh dəbilqəni alır. Lakin ətrafa baxıb susuzluqdan dodaqları quruyan döyüşçüləri görəndə geri qaytarıb deyir:

– Mən suyu içsəm, onlar ruhdan düşərlər

Döyüşçülər bundan təsirlənərək bildirirlər ki, qoy o, tərəddüd etmədən onları qabağa aparsın. Belə hökmdarla onlar susuzluğa da qalib gələrlər.

## BASARATI BAĞLANMAQ

«Basaratı bağlanmaq» ifadəsi adətən mənfi mənada, bir adamın işi düz gətirməyəndə, dalbadal uğursuz işlərlə qarşılaşanda işlədilir. Ancaq bu ifadə əsasən insanın özündə təpər, çalışqanlıq, hərəkət olmayanda, ailənin dolanışığının başqalarından geri qalanda daha çox işlənir. Belə halda görürsən ki, ailə başçısı öz-özünə deyinir: «Basaratımız bağlanıb, tənbəllik bizi basıb, ona görə də bu acı günlərə düçar olmuşuq».

Əslində «basarat» sözü ərəb dilində olan «bəsirət» sözünün təhrif olunmuş formasıdır. Klassik ədəbiyyatda, xüsusilə qəlb şairi sayılan M.Füzuli yaradıcılığında bu ifadə «bəsirət gözü» kimi işlənib. «Bəsirət gözü» ifadəsi bir hadisəyə, işə, problemə qəlbin, ürfan əhlinin gözü ilə baxmaq mənasında da işlənir. «Bəsirətli insan» sözü çox vaxt imanlı, əqidəsində möhkəm olan şəxslərə də deyirlər. İndinin özündə də ürfan əhli arasında ifadə belə işlənir: «Sən bu işə bəsirət gözü ilə bax. Onda hər şey sənə agah olar».

## HƏZRƏT ƏLİ UCALIĞI

Hicrətin 40-cı ili Ramazan ayının 17-də (yaxud 19-da) İmam Əli (ə) sübh namazı vaxtı Abdurrəhman İbn Mülcəm tərəfindən başına vurulan zəhərli qılıncla ağır yaralandı. Bundan sonra üç gün yaşadı. Bu müddətdə ona gətirilən südün bir hissəsini özü içdi, bir qədərini isə zindandakı qatilinə– İbn Mülcəmə göndərdi. Övladları həzrət Həsənə, həzrət Hüseynə vəsiyyət edərək dedi:

– Ona işgəncə verməyin, öz yediyimizdən ona yedirin, içdiyimizdən ona verin. Əgər mən ölərsəm, onu öldürün. «Müsəlmanların əmiri qətl edildi» – deyib, müsəlmanlara toxunmayın. Mənə görə ancaq mənim qatilim öldürülür. Sağ qalarsam, onunla nə edəcəyimi mən özüm daha yaxşı bilirəm. Onu bağışlamaq mənim üçün daha layiqdir. Çünki biz Əhli-beytik».



# Hikmətli sözlər, ibrətli ifadələr

1. Yaxşıya yanaş, yamandan uzaqlaş.
2. Kiməsə yaxşılıq edən kimdənsə əvəzin görər.
3. Hamıdan ağıllı hamıdan əxlaqlı olanlardır.
4. Qohum gəlməyə-gəlməyə yad olar, yad gələ-gələ qohum olar.
5. Atı dostun kimi bəslə, düşmənin kimi min.
6. Qonaqsız evin bərəkəti olmaz.
7. Qonaqlı evin rüzisi tükənməz.
8. Xoşbəxt o kəsdir ki, başqalarının xoşbəxtliyində rolu daha çox olsun.
9. Həyat ötən günlər deyil, yadda qalan günlərdir.
10. Ömür bir kibrit qutusuna bənzəyir. Onunla ehtiyatla rəftar etməsən, bir anda alışıb partlaya bilər.
11. Məhəbbət ömrü gözəlləşdirir, insanı ürəklərdə yaşadır.
12. İnsanın dəyəri işlərindədir.
13. Ağıllı baş hər şeydən fayda çıxarar.
14. Ağıllı baş salamat olar.
15. İnamı çox olanın çətinliyi də çox olar.
16. İnam işığı iman işığıdır.
17. Çörək verəndən olun, çörək kəsəni Allah da sevməz.
18. Yıxılmaq ar deyil, yenidən durmağı bacara bilsən.
19. Ev yıxanın evi yıxılar.
20. Pul verdin aldın, vermədin qaldın.
21. Yaxşılıq edən özünü Tanrı qəzəbindən qoruyar.
22. Yaxşılığı unutmayanı Tanrı da unutmaz.
23. Gül xonçada qalmaz, söz könüldə.
24. Tikan olub ayağa batınca gül ol, yaxaya sancıl.
25. Elə bir zövq, ləzzət yoxdu ki, ağızda acısı qalmasın.
26. Ürək də dəniz kimidir: sakit anları olduğu kimi, qasırğalı, təlatümlü anları da var.
27. Karvanda axırda gedən dəvənin yükü həmişə ağır olar.
28. Xeyir işləri tanımayan insanlığı tanımaz.
29. El gözündən düşən boy atmaz.
30. Elsiz yaşayan dərd içində çabalar.
31. Məhəbbətdir gözəllərin ən gözəli.
32. İnsanlıqdır insanların şah əsəri.
33. Çağrılan yerə ərinmə, çağrılmayan yerdə görünmə.
34. Qonağı xoş üzlə qarşılamaq ən böyük ləyaqətdir.

35. Sədaqəti uca tutanlar səadətə tez qovuşar.
36. Hər şirində bir acı, hər acıda bir şirin var.
37. Acı olsan da, şirin danış.
38. Həmişə acı danışan şirin söz eşitməz.
39. Qurban bayramı Tanrıya yaxınlaşmaq, günahkarın bağışlanmaq günüdür.
40. Dağ da olsan, dağa arxalan.
41. Dağ nə qədər uca olsa da, el üstündən yol salar.
42. Ananın baxtı – qızına taxt.
43. Könül istəyinə çatmağın açarı addım atmaqdır.
44. Ağıllıya yanaş, ağılsızdan uzaqlaş.
45. Saçların ağarması ağılın ağarmasına dəlalət eləmir.
46. Pulunu ver, məhəbbətini ver, ancaq sirrini vermə.
47. Daima susmaq dahilik əlaməti deyil.
48. Aravermədən danışmaq boşboğazlıq nişanəsidir.
49. Bəlağətli danışmağı bacaran dinləməyi də bacarmalıdır.
50. Dil var baldır, dil də var bəla.
51. Qarşıya çıxan yaxşılığı və pisliyi öz içində ara.
52. Astaca–ustaca.
53. Ləl daşını çay daşına qatmazlar.
54. Çirkaba daş atma, üstünə sıçrayar.
55. İşlərin ən gözəli əl tutmaqdır.
56. Əl tutana əl yetirərlər.
57. At minənin, qılınc qurşananındı.
58. Çirkin tərifləndə həddin aşar, gözəl tərifləndə dodağı qaçar.
59. Dağ quşu dağda, bağ quşu bağda.
60. Daş daşı sındırar, dəmir dəmiri kəsər.
61. İnam olmayan yerdə daş üstdə durmaz.
62. Suda bitən suda da itər.
63. Su səmtinə axar.
64. Su kuzəsi suda sınar.
65. Ağac səmtinə yıxılar.
66. Qolu güclü birini yıxar, elmi güclü olan isə yüzünü.
67. Elm həyatın çırağıdır.
68. Ayran almağa gedən çölməyi arxasınca aparar.
69. Ayranı yox içməyə, gümüş körpü axtarır keçməyə.

70. Vay o günə ki, zəmanə sənə ögey ola.
71. Arzular da insanın cibinə uyğun olmalıdır.
72. İnsanlığın ən uca məqamı inamlı olmaqdı.
73. Böyük bir alimdən soruşdular:
– İnsan hansı sözü heç vaxt dilinə gətirməməlidir?
– Etdiyi yaxşılıq sözünü.
74. Haqqın arxasınca gedənin ağlı kamilləşər.
75. El qabağı – sel qabağı.
76. El atan daş uzağa düşər.
77. El atan xoşbəxtlik tapa bilməz.
78. Dağ olsan da, dağa söykənməlisən.
79. Arxası dağ olanın başı göylərə çatar.
80. Daş daşa, dağ dağa söykənməlidir.
81. İlahinin buyurduqlarına əməl edənlər xoşbəxtlik taparlar.
82. Səpilməyən buğda göyərməz.
83. «Buğdam var, – demə, – anbara tökməyincə.
84. «Oğlum var», – demə, – evlənməyincə.
85. Ağac kökləri ilə yaşayar, insan dostları ilə.
86. Meyvəsi olmayan quru ağac kimsəyə faydası dəyməyən insana bənzər.
87. Torpaq ovuclayan qızıl ovuclar.
88. Torpaqdan yapışan torpaqdan barınar.
89. Şadlıq bilikdən ağıllıdır.
90. Daşın daş dərdi, insanın da insan dərdi var.
91. Quşdan qorxan darı əkməz.
92. Səpməyən biçməz.
93. Fələk aslanı ac saxlar, tülkünü tox.
94. Zərərdən qorxan dükan açmaz.
95. Yükün yüngülü – mənzilin uzaqlığı.
96. Alacağını bilən verəcəyini də bilməlidir.
97. Yaxşılar həyatın çırağıdır.
98. Çalışan mətləbə çatar, oturan fikrə dalar.
99. Çalışmamaq uğursuzluğun əsasıdır.
100. Xeyir Allahdan, şər şeytandandır.
101. Xeyir iş yerdə qalmaz.
102. Səxavət insan üçün şərəfdir.
103. Yayda işləməyən qışda dişləməz.

104. Vaxtın qədrini vaxtında bilək.
105. Oğru olan tox olmaz, doğru olan ac olmaz.
106. Su çəkənin, su içənindir.
107. Atın sağlamdırsa, yoldan qorxma.
108. Zülm etmək qiyamət gününün qaranlığıdır.
109. Zülm edən Tanrı rəhmətindən uzaq olar.
110. Varlının sonu ilə yoxsulun sonu bir olar.
111. Varlılığa çox tələsən yoxsulluğu da tez tapar.
112. Bərəkət hərəkətdədir.
113. Bərəkət ondur, onu da düzlükdədir.
114. Qardaşını olmayan yerdə, dostunu olan yerdə, valideynlərini isə həmişə təriflə.
115. Zəhmətlə qazanılan soğan müftə əldə edilən baldan şirin görünər.
116. Zaman həmişə insanlardan bir addım qabaqda olur.
117. Dahilər ölümdən sonra yaşayanlardır.
118. Yaxşı atın arpasın, tənbəl atın qamçısın hazır saxla.
119. Atalar sözü–sözün gözü.
120. Səhrada gül bitməz, cahilə söz batmaz.
121. Hamını Allah saxlar, ancaq nalı mıx saxlar.
122. Gün buzu əritdiyi kimi, yaxşı əxlaq da günahı əridər.
123. Yaxşı söylə, yaxşı eşit.
124. Söyləyənə baxma, söylədiyinə bax.
125. Sabahların arzusu olan bu günün qədrini bil.
126. Dünənki günü xatırla, bu günü ümidlə, çarpışma ilə başa vur.
127. Arvadı gözəl, atı yüyrək olanla yoldaşlıq etmə.
128. Xırmanda öküzün yan basanı qırmanc zərbəsinə tuş gələr.
129. Hər səhər baş dilə deyər: «Dinc ol, dinc durmursan, ağrını da mən çəkirəm».
130. Dağın dərdi dağ boyda olar.
131. Qardaş bacının qalxanıdır.
132. Yoldaşlığın, dostluğun dəyəri düzlükdü.
133. Pulunu əziz edən özünü zəlil edər.
134. Ürəyin sirrini göz yaşından anlamaq olar.
135. Ürək yazda səhv edər, payızda nəticə çıxarar.
136. Axtarış nailiyyətin əsasıdır.
137. İynə batırana cuvəldəduz batırarlar.

138. İynəni axtaran dəvəni itirər.
139. Allahı arada gör, hər işə düz bax.
140. Biz hərəkətlərimizə nəzarət edə bilməsək, hərəkətlərimiz bizə nəzarət edər.
141. Borcluluq artan yerdə dostluq pozulmağa başlar.
142. İnsanın mədəniliyinin bir tərəfi də dinləməyi bacarmaqdır.
143. Gözəllik hər kəsin əməlində yaşayır.
144. Başqalarının abırın qorumayanın özünün də abırı qalmaz.
145. Dəyirman iki daşdan, məhəbbət iki başdan.
146. Ürəyin duyğuları öz əksini gözdə tapar.
147. İşləyəndə özündən irəliyə, yeyəndə özündən geriyə bax.
148. Xoşbəxtlik qapını döymür, onu əldə etmək üçün çarpışmalısan.
149. Xoşbəxtlik sənin deyil, xoşbəxtliyin qapısını döyənindir.
150. Qızıldan taxtın olunca, qızıl baxtın olsun.
151. Taxt yaratmaq olar, bəxt yaratmaq olmaz.
152. Kədərin əsas dərmanı səbirdir.
153. Ana hər kəsi əvəz edə bilər, ancaq ananı heç kim əvəz edə bilməz.
154. Mütləq gözəlliyi axtaran yarsız qalar.
155. Zahiri gözəlliyin deyil, əxlaqi gözəlliyin aşiqi ol.
156. Vəzifə insana deyil, insan vəzifəyə yaraşıq olmalıdır.
157. Könül bir uşağa bənzər, nə versən razı olar.
158. Könül bir saraya bənzər: qurmaq çətin, yıxmaq asan.
159. Sevgi olmayan ürək tez solan çiçəyə bənzər.
160. Ləyaqətli insanlar bu ləyaqətdən başqalarına da pay verənlərdir.
161. Bu həyatın əlifbası məhəbbətdir.
162. Qəm axtaranların çörəyini yemə.
163. Dostluq və qardaşlıqda axar su kimi ol.
164. Təvazökarlıqda torpaq kimi ol.
165. İnsan vardır zənginliyi yox, qəlbi var. İnsan da var qəlbi yoxdur, zənginliyi var.
166. Yavan çörəyin olmasa da, şirin dilin olsun.
167. Çörəkçi ilə çörəklərini bir tərəziyə qoyma.
168. Bu günün işini sabaha saxlama: sabah üzünə hansı qapının açılacağını bilmək olmur.

169. Aclıqda darı çörəyi halvadan şirin olar.
170. Dağ-daş yerin dəyişsə, inanın, insan xasiyyətin dəyişdi desələr, inanmayın.
171. Həsəd şeytanın ən böyük dodağıdır.
172. Qısqanclıq fəlakətin bir qanadıdır.
173. Ürəyisınığın dərdin ürəyisınan bilər.
174. Bəzən insan yolu seçir, bəzən də yol insanı.
175. Qara gün qaralıb qalmaz.
176. İnsan arzu ilə qanadlanıb, sabahların divarına qonar.
177. Gücünə bax, şələni bağla.
178. Əməyi olmayanın yeməyi də olmaz.
179. Üç çeşid insanlardan qorxmalısan: Dağdan enəndən, dinindən dönəndən, sonradan görəndən.
180. Hər görüş bir qismətdir.
181. Qurdun qisməti – qızın isməti.
182. Çörək kəsəni qılınc da kəsməz.
183. Hesabın hesab – dostluğun dürüst.
184. Söz insanın meyarıdır.
185. Hər sözü hər yerdə deməzlər.
186. Axır sözü əvvəldə deməzlər.
187. Yol var yoxa çıxar, var silinməz.
188. Birinin bəxti gülən zaman digərininki ağlayar.
189. Əxlaqı yaxşı olan Tanrının da, insanların da hörmətini qazanar.
190. Günəş buzu əritdiyi kimi, yaxşı əxlaq da günahlarını əridər.
191. Anlamlı söz yol göstərər.
192. Anlaqsız söz dərd gətirər.
193. Böyüksüz evdə xeyir-bərəkət olmaz.
194. Yaşlı insanlar evlərin sütunlarıdır.
195. Dərd gəzər, dərmanın arar.
196. Dərdini de bilənlərə, göz yaşını silənlərə.
197. Uşağı çox olan yoxsul olar, varı çox olan yuxusuz.
198. Balın dadını onu dadan bilər, arının dadını saxlayan.
199. Övladlar insana verilən əmanətdir.
200. Dağ nə qədər uca olsa da, başından yol gedər.
201. Dağlara baxıb təpələr də özün dağ sanar.
202. Dağ yıxılsa, dərələr yaranar.

203. Dağın da dağ dərdi var.
204. Vaxtında sına ki, sonra qınamayasan.
205. İgid ilqarından, dəvə ovsarından dönməz.
206. İnsan danışanda kim olduğu bilinər.
207. Od düşdüyü yeri yandırar.
208. Özünə önəm verməyən başqasına da önəm verməz.
209. Kuzəçi sınıq kuzədə su içər.
210. Hər adamın başmağın cütləməzlər.
211. Başqasının başmağını geyə bilərsən, amma yerişini yeriyə bilməzsən.
212. İnsan bilmədiyinin düşmənidir.
213. Öz ocağının tüstüsü başqasının ocağından isti olar.
214. İnsan məhəbbəti ürəkdə, gözdə və əldə olar.
215. İşə baş əyməyən başqasına baş əyər.
216. Süfrədə əlini saxla, məclisdə dilini.
217. Qonaq umduğun yeyər.
218. İnsan təkcə danışdıqlarının deyil, susduqlarının da məsuliyyətini daşıyır.
219. Tez evlənənlə tez ayrılan tez ev olar.
220. Başqasını aldadan həm də özün aldadar.
221. Bütün çirkinliklərin açarı yalan danışmaqdır.
222. Adam paltarı ilə deyil, əxlaqi ilə tanınar.
223. Aza qane ol, çoxu Tanrıdan istə.
224. Anlaqsıza biz də kar etməz.
225. Özünə hakim olanın gələcəyi parlaq olar.
226. Xeyirxahlığı unudan insanlığı unudar.
227. Vaxtsız açılan gül tez solar.
228. Bilik ağlın aynasıdır.
229. Hər atılan ox hədəfə dəyməz.
230. Ümid işığı zülmətdə Günəşdir.
231. Biliklilər dünyanın yaraşığıdırlar.
232. Yaxşı əxlaq zülmət qapıların açarıdır.
233. Eli olmayanın dili də olmaz.
234. Həyatda iradəli olanlara həmişə şans var.
235. El insanın keçmişi və gələcəyidir.
236. El yandıran şam çətin sönər.
237. El içində – öl içində.

238. Həyatda özün tapan yolun da tapar.
239. Arvad var ev tikər, arvad da var ev yıxar.
240. Nadürüst arvad kişini tez qocaldar.
241. Hamı baxır, ancaq hamı görmür.
242. Hamı qulaq asır, ancaq hamı eşitmir.
243. Quşu quşla ovlayarlar.
244. Bu günü dünənə satmayan uğur qazanar.
245. Cavanlıq əmanətdir.
246. Bəhrəsiz sevgi barsız söyüddür.
247. İrəli baxmamış addım atma, geri baxmamış söz demə.
248. Çirkin dil, çirkli ayaqdan pisdir.
249. Başının ağlığına baxma, ürəyinin qaralığına bax.
250. Baş yarıb, ətəyə qoz doldurandan həzər.
251. Ləyaqətli qadın istəmədən, ləyaqətsiz qadın sərvətdən yapışar.
252. İsmətli qadın kişinin baş tacıdır.
253. İnam olmasa, daş da dağ üstdə durmaz.
254. İnam uzun illər ərzində yaranar, xəyanət isə onu tez sındırar.
255. Ən dəhşətli faciələr el içində unudular.
256. Ən acı göz yaşı da el içində qurudular.
257. Dəmiri isti-isti döyərlər, sözü soyuq-soyuq.
258. Əl tutanın əlindən tutarlar.
259. Ayran almağa gedənin çölməyi yanında olmalıdır.
260. Aş daşanda çömçənin dəyəri artar.
261. Yayda başı bişənin qışda aşı bişər.
262. Özünü istəməyən başqasını da istəyə bilməz.
263. Dili və ürəyi bir olan xoşbəxtliyə tez çatar.
264. Ağıllı düşmən ağılsız dostdan yaxşıdır.
265. Dost pul kimidir: əldə saxlaya bilməsən, uçub gedər.
266. Düzlük varlığın ən qiymətli töhfəsidir.
267. Düzlük axtaran əvvəlcə onu özündə axtarmalıdır.
268. Saqqalı ağarıb, ağlı hələ ağarmayıb.
269. Yaxşılığı insanlardan əsirgəməyənlərə Tanrı da mərhəmətini əsirgəməz.
270. Tanrı təkəbbürlüləri sevməz.
271. Ata-anaya sevgi İlahi dərgahının ən uca məqamında dayanar.

272. Torpaq deyər: «Əz məni, əzizləyim səni».
273. Sürü öz arxasında rahatlıq tapar.
274. İnsan xoşbəxtliyi öz vətənində tapar.
275. Vətənin bir qış günü dünyanın yüz baharından üstündür.
276. Güzgüyə daha çox baxan qadınlar tez qocalarlar.
277. İstəyirsinizsə sevinəsiniz, həyatı sevindirin.
278. İnsanlara sevgi paylayan həm də özü sevinər.
279. Keçəl Həmzə Qıratı minə bilər, amma Koroğlu ola bilməz.
280. Mal acısı – can ağrısı.
281. Mal yiyəsinə oxşamasa, haramdır.
282. Paxıllıq bütün qəbahətlərin başıdır.
283. Bağ o vaxt bağ olar ki, bacarıqlı bağban olsun.
284. Dəyərli tənqidin dəyərli nəticəsi olar.
285. Dəyirmanda buğdası olmayan un ummamalıdır.
286. Çörək tabaxda olar, seyiz sürünün qabağında.
287. Məhəbbət yaşamın əsasıdır.
288. Birinin bəxti sönəndə bir başqasınınkı qalxar.
289. Söz var xəstə sağaldar, söz var yaralar.
290. Söz var adamı məst edər, söz var ayıldar.
291. Söz vermək asandır, yerinə yetirmək çətin.
292. Sözü at yerə, sahibi götürər.
293. İnsan həyatında qəzəbin vərdişə keçməsi dəhşətdir.
294. Özünə inanan nailiyyətlərə tez çatar.
295. Söz insanın meyarıdır.
296. Söz sahibinin, sahibi isə sözün dustağıdır.
297. Bu gündən sabaha yol sal.
298. El hara, sən də ora.
299. Gələcəyin qoçu quzu küzündə bilinər.
300. Gülərüz insanın siması elə onun var-dövlətidir.
301. Hər axan su içməli olmaz.
302. Hər yolun bir başlanğıcı, bir də sonu var.
303. Yatan itirər, duran aparar.
304. Çalışan tapar, yatan yuxuda görər.
305. Böyüyün yerin bilən özü də böyüklüyə çatar.
306. Həyat bir tapmacadır, onu tap, həyat bir bağçadır, ona bax.
307. Dərdin gizlədən dərmanın tapmaz.
308. Qolu sınığın dərdini qolu sınıq bilər.

309. Evin hörməti böyükləri ilə bəllənər.
310. Böyüksüz evdə hərə bir zurna çalar.
311. Düşünən yaşayandır.
312. Dostla danışanda hiss etməlisən ki, özün-özünlə danışırsan.
313. Qiymət bilmək yanında ikən ağlamaq deyil.
314. Bilik də göz kimi dünyaya pəncərədir.
315. Bilik xərcləndikcə artar.
316. Yalançıya öyüd verən əvvəl özü düz danışmalıdır.
317. Düzlük insanın özündən başlar.
318. Səbr və dözüm uğurun başlanğıcıdır.
319. Qismət də var, himmət də var.
320. Qismət varsa, gələr Yəməndən, qismət yoxsa, düşər dəhandan.
321. Cəhd elə, dost qazan, düşmən elə ocaq başındadı.
322. Baş yoldaşı azdı, aş yoldaşı çoxdu.
323. Ömürlər örtülüdürlər.
324. Ömrün bərəkəti yaxşı əməldədir.
325. Mənasız ömür həyata yamaq sayılar.
326. Dağ başında qış, igid başında iş.
327. Yurd ayrılığı – el ayrılığı.
328. Adamı başdan – ağacı yaşdan.
329. Yaşı at bazarında soruşarlar.
330. İnsan altdan yuxarı qalxanda ətrafa bəsirət gözü ilə baxmalıdır. Üstdən yenişə yenəndə də yanacaq olmayacaq.
331. Yaxşı əxlaq insanlığın daşıdır.
332. İnsanın daxili aləmi onun gözlərindədir.
333. İnsanın gələcəyini yaradan bugünkü düşüncəsidir.
334. Yaxşılıqları bilməyən yaramazlıqları yaşamalıdır.
335. Nisyə vermərəm, dalınca getmərəm.
336. Nağd olsun, soğan olsun.
337. Nisyə – girməz kisəyə.
338. İnsanın yaşı xatirələrdə nə qədər yaşaması ilə ölçülər.
339. Həyat təkcə keçmiş və gələcəkdən ibarət deyil, bəlkə də, elə yaşadığın bu andır.
340. Vaxta dağlar da baş əyər.
341. Gəlin ocağa, kümbə bucağa.
342. Meşəyə odunla getməzlər.

343. Bilik təcrübə ilə qiymətlənər.
344. Təcrübə zəkamızı gücləndirən, gözümüzü açan vasitədir.
345. Sevgi sözünün sinonimi anadır.
346. Ananın cəmiyyətə ən böyük hədiyyəsi övladlarıdır.
347. Baş sağ olsun, papaq tapılar.
348. Hər başda oturan baş olmaz.
349. Kürəyə düşməyən dəmiri istənilən formaya salmaq olmaz.
350. Dəmiri kürədən dəmirlə çıxardarlar.
351. Ayaq üstdə yaşamaqdan yaxşıdır.
352. Yatan ölmür, yetən ölür.
353. Mərdi olan elin dərdi olmaz.
354. İnsan daşdan bərk, dildən incə olmalıdır.
355. İnsan etdiyini dilindən görər.
356. Səbr edən salamat olar.
357. Səbrin əzabı acı, meyvəsi şirin olar.
358. Daim öyrənmək dahilərin dünyasıdır.
359. Qələm fikrin tərcümanıdır.
360. İnsan həyatında ən lazımlı üç şeydir: mehribanlıq, mehribanlıq, mehribanlıq.
361. İnsanlar dünyada xeyirxah əməlləri ilə yadda qalarlar.
362. Ad insana yaraşıq verməz, insan ada yaraşıq verər.
363. Atdan düşsən də, addan düşmə.
364. Ən böyük dəhşət paxıllıqdır.
365. Havanın soyuqluğundan yox, insanın soyuqluğundan qorx.
366. Martda mərək – yarıda gərək.
367. Sevilməyən qadın – dərilməyən gül.
368. Martda mərək – apreldə gərək.
369. Mart əkini – mərd əkini.
370. Şərə qarşı mübarizə xeyirin yanında olmaqdadır.
371. Yaxşılıqları yaxşı insanlardan görə bilərsən.
372. Yaxşılıq Tanrının rəhmətin qazanmaq deməkdir.
373. Könlü gözəl olanın özü də gözəl olar.
374. Könül arzunun gözəsidir.
375. Sürətlə yaşayan həyatı tez tərk edər.
376. Şəlalə çayların qəhrəmanlığıdır.
377. İşin zamanını bilməyən peşman olacaq.
378. Qonaq evə bərəkət gətirər.

379. Gözəllik məhəbbətdir.
380. Daxili gözəllik baş tacıdır.
381. Gözəllik hər kəsin əməlində yaşar.
382. Elmsiz insan nursuz göz kimidir.
383. Kitab nəsillərin bir-birinə yadigarıdır.
384. Böyüyünü tanımayanı heç kim tanımaz.
385. Böyüyün etdiklərini kiçiklər götürər.
386. Sənət insanın təbiətidir.
387. Yazda çalan qışda oynar.
388. Yazda ayransız olan qışda yorğansız qalar.
389. Yalançı həm də imansız olar.
390. Zaman xar çay kimidir.
391. Uzun yol yeriməklə qurtarar, xəyalla yox.
392. Səbirsizin ağlı az olar.
393. Yoldaş olma cahilə,
394. Gələr başına bəla.
395. Elm və bilik insanın ən böyük mirasıdır.
396. Zaman gözəl müəllimdir, ancaq şagirdlərini öldürür.
397. Sabahdan qorxmayanlar bu günü də tez itirər.
398. Halal çörək qazanmaqla yaşayanlar Tanrı fədailəridir.
399. Çalışmayanlar həm bu dünyasın, həm də axirətin itirər.
400. El hikmət ilə, quş qanad ilə.
401. Ağıl bazarda satılmaz.
402. İşləyən inci tapar, istəməyən qandan baxar.
403. İş başdan aşanda dövlət də başdan qaçar.
404. Hər tonqal altında yüzlərlə qığılcım yatır.
405. Həyat insanı yaradır, insan da həyatı yaşadır.
406. Görünənin görünməyən tərəfini tapmaq məharətdir.
407. Ağıl, ürək və idrak bir yerdə olanda gözəldir.
408. Ən böyük qaranlıq içimizdəki qaranlıqdır.
409. Ən hüzünlü məzar Vətən torpağında qazılmayandır.
410. Bərəkət qoca olan evdən əskik olmaz.
411. Ürəyində Tanrı xofu olmayan amanda qalmaz.
412. Gül tikansız olmaz, məhəbbət nöqsansız.
413. Elin yaddaşı – dilin yaddaşı.
414. Vələ qoşulan öküzün ağzın bağlamazlar.
415. İnsanların ən faydalısı insanlığa faydalı olandır.

416. Yaxşı da, yaman da köçər dünyadan,
417. Çalış ki, hər zaman yaxşı olasan. (S.Şirazi)
418. Hər bir insan həyatı bir kitabdır.
419. Gördüyünü qoyub, görəcəyə getmə.
420. Ümid çox vaxt ölümə də qalib gələr.
421. Evin böyüyü buyruqda, kiçiyi qulluqda.
422. Uşağa buyur, dalınca yüyür.
423. Tanrı çalışan əlləri sevər.
424. Arzular insana qanad verirlər, ancaq çalışmasan, uça bilməzsən.
425. Əsəbiliyin əvvəli dəlilik, axırı peşmanlıqdır.
426. Əsəbi adam tez qocalar.
427. Həyatda arzulayan çoxdu, arzuya çatan az.
428. Səbr acı, meyvəsi isə şirindir.
429. Cahil ilə bal yemə, aqillə daş daşı.
430. Güneydə yaşa, quzeydə fırlan, dolan.
431. Əvvəlin gəlincə sonun gəlsin.
432. Qələm düşmən əlində olanda şeytanı mələk donunda yazar.
433. Sevinci axtaran tapar.
434. Varlının əlin bıçaq kəsəndə günahı yoxsul da görər.
435. Xanım sındıran qabın səsi çıxmaz.
436. Məhəbbət ölüm qorxusundan güclüdür.
437. Biz yolçuyuq, ömür yol.
438. Yalançı tamahkarı aldadar.
439. Keçmişinə daş atanı gələcək topa tutar.
440. Qərib yuxusunda yurdun görər.
441. Leylək ömrü leyləklə keçər.
442. Öz işığına güvənən başqasının parlamasını qısqanmaz.
443. Xoşəxlaq və səxavətli adamın dostu çox olar.
444. Taxt yaratmaq olar, baxt yaratmaq olmaz.
445. Bəxtin gətirəndə bəxtin gətirməyəcəyi anları da düşün.
446. Düşmənin sözünə, mədahın tərifinə aldanma.
447. Elmi olmayan hökmdar, elmi olmayan hakim naqis sayılır.
448. İş başından aşınca dövlət əlindən qaçar.
449. İşləyən inci tapar, işləməyən «diringi» oynar.
450. Qızıldan bədənə qaldırılan qol, sınıb əyri bitən barmağa dəyməz.

451. Bütün mənfiliklərin anası yalan və tamahdır.
452. Soruşmaq bir anlıq xəcalətdir, soruşmamaq bir ömürlük.
453. Bütün müşküllərin açarı səbr və çalışqanlıqdadır.
454. Forma məzmunun ifadəsidir.
455. Bal verən arının bircəsi, yəqin,
456. Yüzündən yaxşıdır bal verənlərin. *(N.Gəncəvi)*
457. Dahilər qiymətli sözlər içərisində «Mərhəmət» sözünü ən qiymətli hesab etmişlər.
458. Bütün çirkinlikləri mərhəmətlə dəf etmək olar.
459. Paxıl adamın aramı və istirahəti olmaz.
460. Özü yıxılan ağlamamalı, özü də durmağı bacarmalıdır.
461. Elm və kamal bütün var dövlətdən üstündür.
462. Əməl gəmi, elm isə gəminin yelkənidir.
463. Eşq bir oddur ki, özündən başqa, hər şeyi yandırar.
464. Yol gedənindi, söz götürənin.
465. İnsan bu dünyanın varıdı, sabahın yoxu.
466. Ümidsiz yaşamaq fəlakətə aparar.
467. Ən son ölən ümid olar.
468. Şair anadan şair doğulur, natiqi isə cəmiyyət yetişdirir.
469. Söz var el içində, söz var ev içində.
470. Hər ananın öz balası, hər uşağın öz laylası.
471. Söz var gülə tutarlar, söz var külə.
472. Xoşbəxtlik məqamlardan, anlardan ibarətdir.
473. Mənimkinə dəymə, səninkini istəmirəm.
474. Yeriyən gətirəcək, oturan itirəcək.
475. Dünyada heç kəsə məlum olmayan uzaqlar dedikləri bir yer var ki, hər kəsin sevdiyi şeylər ordadır.
476. İnsanın bəzəyi onun ağlı və xeyirxahlığıdır.
477. Ağıllı məsləhət vermək kömək etməkdən çətindir.
478. Dünyaya işıq ver, qaranlıq öz-özünə çəkiləcək.
479. Yaxşı insan o deyil ki, hamıya yaxşılıq edəsən, əsas odur ki, heç kimə pislik etməyəsən.
480. İnsanın bir əlində şükür, bir əlində səbr olmalıdır.
481. Düşüncən nədirsə, ömrün-günün də odur.
482. Ən böyük müharibə – insanın öz-özü ilə etdiyi müharibədir.
483. Həyat hardadırsa, ölüm də ordadır.

484. İnsanın ən böyük mükafatı ömrün sonunda sağ əlinə verilən xeyir əməlləridir.
485. Fağır ulağa iki-iki minərlər, soncuqlayanı isə minə bilməzlər.
486. Yaxşı qızdan yaxşı da gəlin olar.
487. Hər qabın öz qapağı yaxşıdır.
488. Hər ocağı yaraşığa mindirən əsilli gəlin olar.
489. Toy intizarın təzahürüdür.
490. Çox təəssüf ki, hər gəlin yarıyanlardan olmur.
491. Halallıqdan, haramdan uzaq olmaqdan danışan Ulu Peyğəmbərimizə cavab olaraq biri demişdir: Ya Peyğəmbər, göz baxmaq üçündür də.
493. Rəsulullah ona belə cavab vermişdir:
494. Göz qapaqları da gözü bağlamaq, haramdan qorumaq üçündür.
495. Qızsız ana – duzsuz ana.
496. Oddan muğayat olun, kül, onsuz da, özünə yer tapacaq.
497. Can eşitmək istəyən ən əvvəl «can» deməyi bacarmalıdır.
498. Ənənəsi olmayan cəmiyyətin gələcəyi ola bilməz.
499. Yaradanı sevən insan yaradılanı da sevməyi bacarmalıdır.
500. Qadını Allah-taala bəzədiyinə görə hər bir kişi qadın qarşısında ömür boyu borcludur.
501. Yaxşılıq insanın bətnində doğulur, əməllərində təzahür edir.
502. Hara getdiyini bilənə bütün aləm yol verər.
503. Arzular, ümidlər tükənəndə ömür də tükənər.
504. Tarixinə sahib çıxan xalq məğlubedilməz olar.
505. Gözəlliyi üzdə deyil, ruhda, əməldə axtar.
506. Həyatının gedişatını dəyişmək istəyən insan düşüncələrini dəyişməlidir.
507. Ucadan yıxılan bərk zədələnər.
508. Mərhəmət hissi güclü olanlardan Allah-taala mərhəmətin əsirgəməz.
509. Yalanlarla qazanmaqdansa, doğruluqla itirmək daha şərəflidir.
510. Hisslərə deyil, ağıla arxalanmaq xoşbəxtlik gətirər.
511. Ağzındakı söz sənindir, ağzından çıxdı özgənin.

512. Qoç deyər: «Buynuzun mənə nə ağırlığı».
513. Fərsizin düzəltdiyi şiş kabab yandırar.
514. Ay işığından, quş ləläyindən bəlli olar.
515. Yaxşıya dedilər: Hara gedirsən?
516. Dedi: Yaxşılıq gətirməyə.
517. Pis pisliyindən əl çəkmirsə, yaxşı niyə yaxşılığından əl çəksin?
518. Dünyaya nə qədər yaxşı insanlar gəlirsə, yenə yaxşıların yeri boş qalır.
519. Sınıq könüllər zamana möhtacdır.
520. Dünya səhnə deyil, ömür əyləncə.
521. Barsız məhəbbət, barsız söyüddü.
522. Kimsəni aldatmağa çalışma: çünki aldadan da sən olursan, aldanan da.
523. Məhəbbət odu ölənə qədər gözdə yaşar.
524. Yaxşılıq etmək insanı həyatın incəliklərinə aparar.
525. Sənə edilən pisliyi unutsan, yaxşı olar. Ancaq yaxşılığı unutma.
526. Özünü tanıyan Rəbbini də tanıyar.
527. Bəxti çiçəkləyəndə sevinən insan çiçəklərin nə vaxtsa həşəm olacağına da hazır olmalıdır.
528. Şərəflə ölənlər ölümsüzlük qazananlardır.
529. Sazlı ev – sözlü ev.
530. İt qursağı yağ götürməz.
531. Başqalarının günahın bağışlasan da, öz günahını bağışlama.
532. Peyğəmbərlər Tanrının sözlərini xalqa, şairlər isə xalqın sözlərini Tanrıya çatdırır.
533. İnsan kimi ömrü başa vurmağın özü xoşbəxtlikdir.
534. Könül susmasa, gözlər gülüşdən qalmaz.
535. Çox vaxt «dost» bildiyindən deyən zərbə düşmən zərbəsindən ağır olur.
536. İnsan yaşatdığını yaşar.
537. Keçmişə qayıdış və ehtiram gələcəyə yoldur.
538. Oraq nə bilir yaraq nədir.
539. Ağacın barı ona yük olmaz.
540. Qocadan demək, cavandan eşitmək.
541. Dünya hamını udsa da, özü uduzmaz.

542. Quş nə qədər yüksəyə qalxsa da, axırda enməlidir.
543. Axmaqdan törəyən də atasının yolun tutar.
544. Məcburi yalana dözmək olar, ancaq ona güzəştə getmək olmaz.
545. Hər şair həm də tərbiyəçidir.
546. Çörək açmayan qapını qılınc aça bilməz.
547. Bütün zirvələrdən ən ucası insanlıq zirvəsidir.
548. Sadəliklə dahilik arasında boşluq yoxdur.
549. Böyük olan evdə Allahımız başda olar.
550. Həyat bir güzgüdür. Hər kəs öz əksini bu güzgüdə görər.
551. Yaxşılıq bir tağdır, nə vaxtsa barın verər.
552. Yoldaşlığın, dostluğun meyarı düzlükdür.
553. Yaxşı yoldaşla insan azmaz.
554. Pulunu çox əziz edən özünü zəlil edər.
555. İnsan uşaqlıq vaxtı böyümək üçün, böyüyəndən sonra uşaqlıq üçün darıxar.
556. Boş zaman yoxdu, boşa keçən zaman var.
557. Kişi varına yox deməz.
558. Qızın oldu, qırmızı yaylığı çıxart.
559. Özündən, sözündən və vicdanından muğayat ol.
560. Zamanı biz seçmirik, o, bizi seçir.
561. Elm paylaşanda çoxalar, paylaşmayanda azalar.
562. Xeyirxah əməllərin arxasında tanrı kərəmi dayanar.
563. Muğanda qar gözləmək qarağacdan bar gözləmək kimidir.
564. Qar ilə – bar ilə.
565. Qar gəlir – var gəlir.
566. Yağan hər qar dənəsi bir çiçək ləçəyidir.
567. Böyük işləri böyük insanlar görə bilər.
568. İşi iş bilənə tapşırmasan, işin yanar.
569. Bacarıqlı insan əlində dəmir də muma dönər.
570. Hər kəs öz bacardığını edər.
571. Həyatda hər şeyin sonu olsa da, arzuların sonu yoxdur.
572. Gələcəyin parlaq olması üçün bu gündən çalışmaq lazımdır.
573. Sabah bu günün üzərində dayanır.
574. Tanrı xeyirxahları xeyirə çatdırar.
575. Xeyir dilə qonşuna, xeyir çıxsın qarşına.
576. Qonşu çörəyi qonşuya borcdur.

577. Harda yaşamağın önəmli deyil, yaşam dövründə nə etməyin önəmlidir.
578. Ağıl ilə yaşayan peşmanlıq quyusuna düşməz.
579. Hər çətinliyə qalib gəlmək üçün ağıl və elm birləşməlidir.
580. Zaman pul deyil, onu qaytarmaq olmaz.
581. Var-dövləti yenidən əldə etmək olar, keçən zamanı isə bir də geri qaytarmaq olmaz.
582. Zaman altundan qiymətlidir.
583. İzzət ilə yaşamağa özündə güc tap.
584. Dünya çalışanların əlində olar.
585. Bəndəliyin başı Tanrıdan şükrünü üzməməkdir.
586. Tikə qarın doyurmaz, ancaq məhəbbət artırar.
587. Artıq tamah daş yarar, daş qayıdar baş yarar.
588. Nəfsini boğa bilməyən nəfs quyusunda boğular.
589. Yeməklə dost olan qiyamətə qədər ac qalar.
590. Düşmənindən bir yol qorx, dostundan yüz yol.
591. Dostluğun sonu düşmənliyin ilk addımıdır.
592. Öz quru çörəyin başqasının plovundan yaxşıdır.
593. İşi iş bilməyənə tapşıranda fəlakət törər.
594. Sevgi yol yoldaşın olanda yollarına Günəş doğar.
595. Gözdə olmayan könüldə olmaz.
596. Göz-gözə alışsa, ayrılıq çətin olar.
597. Çətinliyə dözənlər arzularına hakim olarlar.
598. Böyüklük dözümlü olmaqla başa çatar.
599. Özünə inanan şansa arxalanmaz.
600. Məhəbbətin son dayanacağı olmur.
601. Ağlamaq ağlamaq gətirər.
602. Kiməsə daş atanın daşı sonda özünə dəyər.
603. Kitab ruhun carçısıdır.
604. Sənət artım xəzinəsidir.
605. Sənət və ağıl olan yerdə dağlar da alçalar.
606. Atanın övladına ən yaxşı payı elm və ləyaqətdir.
607. Nəzakətli olan böyüklük tapar.
608. Astarsız boyaq tutmaz.
609. Çox vaxtı olduğumuz kimi deyil, olmaq istədiyimiz kimi tanınmaq istəyirik.
610. Etibar itəndə insanlıq da itər.

611. Cavanlıqda zəhmət çəkən qocalıqda möhnət çəkməz.
612. Cavanlıqda şələ daşıyanın yükü qocalıqda yüngül olar.
613. İzzətlə yaşayan bəndəliyin yolun tez tapar.
614. Dünyan yaz ikən qış tədarükünə bax.
615. Həqiqət – insanlıqdır.
616. Qonşum şad, mən də şad.
617. Dünən arxada qaldı, sabah bilinməyəndir, bu gün isə yaşanandı.
618. Cavanlıqda görünüş, qocalıqda ruh güclü olar.
619. Gülüş dostların paroludur.
620. Sevgi İlahinin insanlara verdiyi ən böyük nemətdir.
621. Könüllər məhəbbətlə fəth edilər.
622. Söz insanın meyarıdır.
623. Sözünün yerini bilənin başı toxmaq görməz.
624. Varlıq ağlamaq və gülməyin qatqısıdır.
625. Güllər torpağın gülüşləridir.
626. Mərd dayanar, namərd qaçar.
627. Yersiz gülüş ağlı dayazlıqdandır.
628. Övlad dədədən görər, anadan götürər.
629. Söz ucalığında durmaq hər insanın işi deyil.
630. Bağışlamaq ən uca əxlaqdır.
631. Bağışlayanın özü də bağışlanar.
632. Bağışlayanın həm bu dünyası, həm də o dünyası abad olar.
633. Böyüyünü tanımayanı heç kəs tanımaz.
634. Böyüklərə hörmət et ki, sən də böyüyəcəksən.
635. Çətin günlərdə Tanrıya sığınanlar qorunar.
636. Ağı qaradan seçə bilməyənlər qiyamət yuxusundan ayılar.
637. Ata nəsihəti qılıncdan kəsərlidir.
638. Dağ başına qış, igid başına iş.
639. Tanrı yaxşılıq edənləri sevər.
640. Qarlı il-barlı il.
641. Başqasına yaxşılıq edən özü də yaxşılıq tapar.
642. Sadəlik həm də gözəllikdir.
643. Qadın sevimli olsa, gözəl olar.
644. Tüstü kötükdən çıxar.
645. Haqqın qılıncı iti olar.

646. Su qalxanda balıqlar qarışqanı, su yenəndə isə qarışqalar balığı yeyər.
647. Nəyə təəssüflənsən də, kitab oxumağa sərf etdiyin vaxta təəssüflənmə.
648. Kitab daxili mədəniyyət, ədəb-ərkandır.
649. Görünməyən tərəf görünənin bir hissəsidir.
650. Əlindən iş gələn çalışar, gəlməyən danışar.
651. Yaxşı söz insanın başucalığıdır.
652. Yaxşılıq et qonşuna, xeyir çıxsın qarşına.
653. Haqqa doğru atdığın hər addımda müjdə var.
654. Təvazökarlıq insanı ucaldar, təkəbbür isə yendirər.
655. Söz ölçüdür, vasitədir.
656. Həya əldən getdisə, insanlıq da gedər.
657. Həya imandandır.
658. Həyalı insan Tanrıya ən yaxın olandır.
659. Hərə öz ağacının meyvəsini yeyər.
660. Arpa əkən buğda biçməz.
661. Musiqi ruhun dilidir.
662. Ucuzdur var illəti, bahadır var hikməti.
663. Mehribanlıq olmayan evdə xeyir-bərəkət göyə çəkilər.
664. Quşa qızıl qəfəs də zindandır.
665. Quş qanadı ilə, insan ağlı ilə.
666. Başqasını mühakimə etmək asandır, əsas odur ki, özünü mühakimə etməyi bacarasan.
667. Bütün yaramazlıqların anası yalandır.
668. Başqalarını unutmasan, sən də unudulmayacaqsan.
669. Həyat sevgi üstə qurulub.
670. Sevgi həyat şirinliyidir.
671. Eşq – sevilmək həvəsidir.
672. Kiminin başında tac, kiminin taleyi yalavac.
673. Zaman insanları öz ələyindən keçirər.
674. Ümid varsa, həyat da var.
675. Rəqslər ruhun açarıdır.
676. Bütün yaxşılıqlar nəzakətlə ələ gələr.
677. Əkin yağışa, insan da nəzakətə bağlıdır.
678. Duz-çörək – duz-çörək.
679. Duzu yeyib, duzqabını sındırma.

680. Keçmişə qayıdış və ehtiram gələcəyə yoldur.
681. Qılıncla qalalar fəth olunar, sözlə ürəklər.
682. Dövləti məhəbbət, varı sevgi olanlar bütün varlılardan ucadır.
683. Tanrı xeyir sevənləri sevər.
684. Qonşu çörəyi qonşuya borcdur.
685. Ən böyük müsibət cəhalətdir.
686. Yalanın sabahı yoxdur.
687. Yalançının işığı yarıya qədər yanar.
688. Yalançı çox vaxt anda söykənər.
689. Sevən qadının sevdiyi kişinin üzünü görməsi dənizçinin dənizi görməyinə bənzər.
690. Böyük ağacın kölgəsi də böyük olar.
691. Dünyanı verim açıb.
692. Düşmənin tikəsindən dostun silləsi yaxşıdır.
693. Yeddi arxın suyunu bir arxa calamazlar.
694. Pulluya «bəli» – deyərlər, pulsuza dəli.
695. At meydanında eşşək anqırmaz.
696. Muşqurmamış alçı durandan olma.
697. Kürkçünün kürkü olmaz, börkçünün börkü.
698. Böyük kündə xəmir çox olanda olar.
699. Qızıl arvadın, qılınc ərindir.
700. Qız evlərdə tanınar, ipək dəzgahda.
701. Quş dənə, çibin şirəyə.
702. Qurdun qonaqlığına getsən, köpəyi də özünlə apar.
703. Hər adamın ipi ilə şələ bağlamazlar.
704. Sabahın naharı bədənin mismarıdır.
705. Pulda vəfa olsaydı, əldən-ələ keçməzdi.
706. Pulunu əziz edən özünü zəlil edər.
707. Qəlbdən deyilən qəlbə hopar, dildən deyilən qulaqlarda qalar.
708. Yalnız özünə güvənib yol gedən az yıxılar.
709. Dildən acı, dildən şirin şey yoxdur.
710. Dil ürəkdən su içər.
711. Dişsiz ağız – daşsız dəyirman.
712. Tanrıya sığınanı Tanrı qoruyar.
713. Gücünə bax, şələni bağla.
714. Barışıq yaradanlar Allahın sevimliləridir.

715. İgid ilqarından dönməz, dəvə ovsarından.
716. İgid-tər altda, zər altda.
717. Səhvlər həyatın ibrət dərsidir.
718. Həyat var ki, ölümdən də betərdir.
719. Yaşayış çalışmaqdır.
720. Çalışanın sabaha ümidi çox olar.
721. Ən böyük dövlət dostluqdur.
722. Yaxşı dostları qılınc da ayıra bilməz.
723. Dostluqda sədaqətli olan el içində hikmətli olar.
724. Yetim saxlayan qadının əlləri kötük, saçları süpürgə olar.
725. Cavanlığını itirən həyatını itirər.
726. Xətəkardan xəta əskik olmaz.
727. Xəta məndən, əta səndən.
728. Sən vətəndən çıxarsan, vətən səndən çıxmaz.
729. Şeytan iman oğrusudur.
730. Oğru həmişə doğruluqdan danışar.
731. Oğrunu oğru ilə tutarlar.
732. Oğru kölgəsindən də qorxar.
733. Tamahkarlıq şor su kimidir.
734. Fəlakət çox zaman tamahın artıqlığından törər.
735. Yaxşı əxlaq düzlüklə qoşa olar.
736. Doğrunun yardımçısı əməlidir.
737. Həyası olmayanın əxladı da olmaz.
738. Dəyirmana aparılan dən ardından bilinər.
739. Vaxtdan zamanında istifadə edənlər arzularına tez çatar.
740. Günü-günə satanlar vaxtını satar.
741. Hər kəs ki, vaxtını itirsə əgər,
742. Yəqin ki, tapacaq bir xeyli zərər.
743. And içmə, anda düşərsən.
744. Böyüklüyə çatmaq istəyəni böyük işlər gözlər.
745. İnsanqlıqdan uzaq olana həyat heyifdir.
746. İnsanlığı uca tut ki, ucalasan.
747. Zaman bir məhrdir axar, durmaz.
748. Bir fazil şəxsdən biri soruşdu:
– Bu dünyada murdardan murdar nədir?
– Murdardan murdar artıq tamahdır.
749. Elin atan boy atmaz.

750. Dost da pul kimidir. Ələ gətirmək asan, saxlamaq çətindir.
751. Dostunu təklikdə danla, el içində alqışla.
752. Ən böyük sərmayə düzlükdür.
753. Düz dolananın sözü ötgün, üzü ağ olar.
754. Düz dolanmaq imanın bütövlüyüdür.
755. Söyüdün kölgəsi olsa da, bəhrəsi olmaz.
756. Hər kəsin nəyi yoxdusa, ona çatmağı xoşbəxtlik bilər.
757. Həyat dostluq ilə mənalanar.
758. Aşıq hay ilə şənlik, huy ilə qəm gətirər.
759. Aşın sıyıqlığı dənin azlığındandı.
760. Təzə bardaq suyu sərin olar.
761. İnsan təkcə özü üçün yaşamır.
762. Təkcə özünü düşünməyənlər Tanrının sevimli bəndələri hesab edilər.
763. Cavanlıq gəldi-gedərdi, qocalıq gəldi-getməzdi.
764. Əyriyə aman, düzə zaval yoxdu.
765. Uğurların çoxu ilk addımdan başlanar.
766. Dərd tapan dərman axtarar.
767. Dərdin bilən dərmanın tez tapar.
768. Cahil adama öyüd vermək şoranlığa toxum səpmək kimidir.
769. Əldən gedənin dalınca çox fikir etmək ziyan verər.
770. Yıxılanda gülə bilən insan qüdrətlidir.
771. Gülüş payı verən məhəbbət qazanar.
772. Borc ilə dostluq tutmaz.
773. Dostdan borc alanda dostluq pozular.
774. Dost qapısı–qəlb qapısı.
775. Görünən iş–görülən iş.
776. Yaxşı əxlaq ən böyük sərmayədir.
777. Necə baxmaq deyil, necə yaşamaq önəmlidir.
778. Kədərinə biganə olan sevincini də itirər.
779. Qorxaq gündə yüz yol ölər, igid ömründə bir dəfə.
780. Qorxaq qorxar yay gəlməmiş, çırmalanar çay gəlməmiş.
781. Papaqçının papağı olmaz, çuxaçının çuxası.
782. Paran vardı, cümlə aləm qulundu,
783. Paran yoxdu, dar küçələr yolundu.
784. Paslı dəmirdən qılınc olmaz.
785. Pambıq ilə baş kəsəndən həzər.

786. Ölmüş inək südlü olar.
787. Öküzü ölənə yol göstərən çox olar.
788. Özünə düşmən – öz dostunu itirəndir.
789. Qabil şagird ustad olar ustada.
790. Qavalın səsi uzaqdan yaxşı gələr.
791. Qazan olmayan yerdə güvəc də qazandır.
792. Qarğanı qırğı yerinə uçurtmazlar.
793. İnsan yoldaşlıqda tez tanınar.
794. Həyat təkcə keçmiş və gələcək deyil, bu günü daha bərk tutmalısan.
795. Qardaşın böyüyü, yoldaşın kiçiyi.
796. Yeməkdə qoçaq, köməkdə qaçaq olandan uzaq ol.
797. Qafil başın ağrısın beyin bilər.
798. Qaçırılan fürsət ələ düşməz.
799. Qaş-qabağından qan töküləndən uzaq ol.
800. Qaya uçanda toz qopar.
801. Qələmin ucu, qılıncın gücü.
802. Qərib itin quyruğu qısıq olar.
803. Qiyamət o gün qopar, biri yeyər, biri baxar.
804. Qəlyan-əl-yan, can-yan, mal-yan.
805. Mömin insanların könlü iman işığı ilə işıqlanar.
806. Hər işin yol-yolağı var.
807. Gərəkli malı gərəkli gündə al.
808. Qadın varsa, ruh gözəlliyi var.
809. Kin-küdurət insan ömrünü baltalayar.
810. Gileylənmək zirvələrə ar gələr.
811. Məhəbbət ilə yaşamağı bilməyən necə yaşamağı da dərk etməyəcək.
812. İnsanın gücü qolunda deyil, ağlındadır.
813. Gülmək ağlamağın qardaşıdır.
814. Ağlamaq ilə günah bağışlanmaz.
815. Açılmamış süfrənin eybi olmaz.
816. Danışıqlı söz dağlar aşar.
817. Düz yolda yeriyə bilmir, şumda şıllaq atır.
818. Günəş həmişə bir otaqda qalmaz.
819. Qəm qəmi gətirər, dəm dəmi.
820. Əmək insanı saflaşdırar.

821. Atalar sözü – ağlın gözü.
822. Adamlığı adamdan istə, xoş iyi qızılgüldən.
823. Darvaza qapısını bağlamaq olar, xalqın ağzını bağlamaq olmaz.
824. El ağzı–xaral ağzı.
825. Nailiyyət dünəndən bu günə bir addım qabağa getməkdir.
826. Ömürlər örtülüdü: həm qocaya, həm cavana.
827. Ömrün mənası xeyirxahlıqdır.
828. Vəfasız dost kölgə kimidir, işıqlı gündə səni izlər, buludlu gündə gözdən itər.
829. Gözəllik paylamaq üçün gözəlliyin özü olun.
830. Qənaət kimyadır.
831. Ağ üzdə qara xal zinətdir, qara üzdə xal dəhşətdir.
832. Yaşlısansa, öyüd ver, cavansansa, öyüdə qulaq as.
833. Həlli məlum olmayan məsələni ortaya qoymayın.
834. İnsan Tanrı kitabının bir nüsxəsidir.
835. Sualların bitəcəyi gün həyatın da sonu bitir.
836. Həyat üçün planlar qurma, çünki hamıya o, planlar qurub.
837. Vaxtında deyilməyən sözün heç bir qiyməti olmaz.
838. Adamı başdan, ağacı yaşdan...
839. Cahilə qoşulan özü də cahil olar.
840. Axmağın ağlı başında olmaz, gözündə olar.
841. Axmaq başın cəfasın ayaqlar çəkər.
842. Axsaq eşşək yorğa gedər.
843. Böyük insan cahilə ağır söz deməz, ona yol göstərər.
844. İsti soba kənarı qış gününün laləzarıdır.
845. Atasına oğul, anasına qul...
846. Atanın duası, ananın ahı...
847. Sirr açandan el qaçar.
848. Sidq ilə dost olanlar ürəkdən də bir gərək.
849. Atan soğan, anan sarımsaq, hardan oldun gülməşəkər?..
850. At ölər, itlər bayram edər.
851. İnsanın ən böyük sərvəti onun əxlaqıdır.
852. Nisyə baldan nağd sirkə yaxşıdır.
853. Yaxşı yaşamaq istəyən əxlaqını yaxşılaşdırmalıdır.
854. Ucuz satan tez satar.
855. Ucuzluqda satıcının, bahalıqda alıcının üzünü görmə.

856. İnsan həyatında eniş-yoxuşun olması da vacibdir.
857. Yoxuşlarda səbirli olanlar aydınlığı qazanar.
858. Pul dəyərli qulluqçudur, ancaq pis başçıdır.
859. Dil insanı bəyan edəndir.
860. Dil var bal gətirər, dil var bəla.
861. Vaxt gələni gətirir, gedəni ötürür.
862. Tanrının nəzərindən düşən insan tora tez düşər.
863. Özünü tapa bilməyən istəklərinə çata bilməz.
864. Başqalarına əl tutmaq üçün zənginlik əsas deyil, əsas mərhəmətli və xeyirxah olmaqdır.
865. Arzu – yaşamaq ümidinin könüldə çiçəklənməsidir.
866. Arzu – bacarıqlarınla həmahəng olmalıdır.
867. Yaxşılıq ayaq açıb gəzəndir.
868. Bu gündən sabaha körpü atmaq həyatın qanunudur.
869. Şirin söz ətirli gül butasının açılmasına bənzər.
870. İnsan kölgəsi özünə nə qədər yaxındısa, bir o qədər də uzaqdır.
871. Elm və sənət cəmiyyətin xəzinəsidir.
872. Sənəti sənətkar daha yaxşı qiymətləndirər.
873. İncə sözlər – canlı sözlər.
874. Ürək eşqin yuvasıdır, gözlər qəlbin aynasıdır.
875. Dərd dərmanla birgə gəzər.
876. Dərdini gizlədən dərmanını tapa bilməz.
877. Dərd adamı dindirər, dərd atına mindirər.
878. Bir stəkan çay içməyiblər, amma xaloğlu olublar...
879. Ən böyük dövlət dostluqdur.
880. Yel aparan yelindi, yerdə qalan mənimkidir.
881. Yel qayadan nə aparar?
882. Nakəsi dalına mindir, ya dalına min, ikisi də birdir.
883. Pişik yerə öyrənər, it adama.
884. Pişiyi dara qısnasan, üz-gözünü cırmaqlar.
885. Pəh-pəh ilə plov olmaz, yağla düyü gərək.
886. Küçüyün qulağın küçüklüyündə kəsməlisən.
887. Şərti şumda kəsək, xırmanda yabalaşmayaq.
888. Kotan bilir, öküz nə çəkir.
889. Kişinin özünə baxma, sözünə bax.
890. Kəsildi ağaclar, dağıldı quşlar.

891. Sən deyən ağaclar çoxdan kəsilib.
892. Kəsilsin iki əl ki, bir başı saxlamaya.
893. Kababı köz öldürər, igidi söz.
894. Kamil insan kamalından bəllidir.
895. Yırtıcı quşun ömrü az olar.
896. Dillə ürək bir olsun gərək.
897. Dillə vurulan düyünü dişlə açmaq çətin olar.
898. İnsan bacardığı işin dalınca getməlidir.
899. Elm ağılın çırağı, bağlı qapıların açarıdır.
900. Həyatda hər şey nöqtə ilə qurtarır.
901. İgid ilqarından, dəvə ovsarından dönməz.
902. Enişi-yoxuşu olmayan ömür yolu mənasız keçər.
903. Yaxşılıqdan qaçan–insanlıqdan qaçandır.
904. Vaxtında görülən iş gül bitirər.
905. Axşamdan oduna gedən çox olar.
906. Odun qırmamış şələdən danışır.
907. Böyük insan həyatı öz əli ilə yaradandır.
908. Əli ələ vurmasan, səs çıxmaz.
909. Bağışlayanı İlahi də bağışlar.
910. İnam–səbr və dözüm ilə ələ gələr.
911. Ayaq dəyməyən daş, qovğa çəkməyən baş olmaz.
912. Müsəlman din qardaşının güzgüsü və yol göstərənidir.
913. Kamil insan həm bilər, həm bildirər.
914. Pis əməl sahibi ilə dostluq etmə.
915. Allah-taala üç cür adamı sevməz: çox danışanı, çox yeyəni, çox yatanı.
916. Qəzəbin nəticəsi dəhşətli olar.
917. Dilənçi olmaq nadan olmaqdan yaxşıdır.
918. Pay dolu gələr, dolu da gedər.
919. Paydan pay olmaz.
920. Gəlin öyrənək ki, öyrədə bilək.
921. Əxlaqlı insan imanlı sayılar.
922. Yaxşı əxlaq Tanrı payıdır.
923. İnsanlığı yaxşı tanıdanlardan biri düzlük, biri isə səxavətdir.
924. Qız evi – naz evi.
925. İnsanı ilqarı ilə tanıyarlar.
926. Sözünün sahibi olmaq kişilik nişanəsidir.

927. Haramı mədə həzm etsə də, vicdan həzm etməz.
928. Səhərlər də canlıdır. Kimi üçün başlayır, kimi üçün qurtarır.
929. Mart əkini–mərd əkini.
930. Əkin üstə gələn gəlinin ayağı sayalı olar.
931. İnsana yol göstərən sözlər həyat çırağıdır.
932. Ulduzları barışmayanların salamı da savaş olar.
933. Rəqslər bağlı könüllərin açarıdır.
934. Şükür etmək səadət gətirər.
935. Düz dayanıbsansa, kölgənin əyriliyindən qorxma.
936. İnsanın sözü insanın özüdür.
937. Bu dünyada hər kəs yaxşı insan axtarır. Görəsən, özü də yaxşılardandırmı?
938. Yay günündə tərləməyən qışda çərlər.
939. Yayda ayransız olma, qışda yorğansız.
940. Özünü «yalan»dan qoruyan yaxşılara qovuşar.
941. Kiçik naqisliklər böyük səhvlərə doğru cığırdır.
942. Vaxtı itirsən əgər, çəkərsən xeyli zərər.
943. Bədbəxt o adamdır ki, aqibətini düşünməz.
944. Layiq olmadığın yerdə oturma, istər yuxarı, istər aşağı baş ola.
945. İnsan zamana bənzər, zaman kimi daim hərəkətdə olmalıdır.
946. Dünya bir qərarda qalmaz.
947. Yol yolacağı bizə öyrədər.
948. Yaxşılardan yaxşı – yaxşılığın özüdür.
949. İbadətlərin ən yaxşısı riyasız ibadətdir.
950. Tanrının istəyi ilə çalışan ziyan görməz.
951. İşin zamanını bilməyən hər addımda peşman olar.
952. Qonaq umduğun yox, olduğun yeyər.
953. Əxlaqı kitablardan deyil, həyatdan öyrənməliyik.
954. El hara, sən də ora.
955. El tikəni aləm yıxa bilməz.
956. Hər kimin içərisi ilə çölü bir olsa, arzuları çin olar.
957. Ağıllı dilin qoruyar, ağılsız dilinin qaytanın qırar.
958. İçərisi sevimli olanın çölü də sevimli olacaq.
959. Duyğulu könül sahibinin əməlləri də xoş olar.
960. Gözəllik hər kəsin əməlində yaşayar.
961. İnsanın dəyəri xeyirxahlığı və iradəsi ilə ölçülər.

962. Həyat hörmət və ehtiram olan yerdə gözəl olar.
963. Əvvəl ağıl sağlamlığı, sonra can sağlığı...
964. Duyğularla dolu olan könül uğura tez çatar.
965. Allah sevdiyi insanların naxışına qələm çəkər.
966. Dumanlı qışım, yağmurlu yazım olsun.
967. Ürəkdən sevilənlər başqalarını ürəkdən sevənlərdi.
968. Böyüyünü tanımayanı el tanımaz.
969. Böyük buyurar, uşaq götürər.
970. Əsli olan ətrini itirməz.
971. Əsli qırıq olan nə vaxtsa zatını büruzə verəcək.
972. Gözəllik məhəbbətdədir.
973. Ancaq arzularla yaşayanlar Günəşi görə bilməzlər.
974. Acıqlı başda ağıl olmaz.
975. Tanrı dərgahında hər kəs öz əməlinə görə cavab verəcək.
976. El içində ol, el içində öl.
977. El igidləri ilə tanınar.
978. Gedən gedər, oturan yol gözlər.
979. Su sənin ardınca gəlməsə, sən suyun ardınca get.
980. İtirən qaçmağı yox, ayağa durmağı düşünməlidir.
981. Eli olmayanın dili də olmaz.
982. Gəl daşını çay daşına qatandan uzaq ol.
983. Torpağın sirrini əli torpaqda olandan soruş.
984. Görmədiyin yükü götürməyə söz vermə.
985. Yaxşı məsləhət hər şeydən yaxşıdır.
986. Yaxşılıq var gündə gözə çarpar, yamanlıq hər gündə.
987. Gün altında yatmayan kölgənin qədrini bilməz.
988. Aslan yatdığı yerdən bəlli olar.
989. İnsan yaşadıqları ilə deyil, yaşatdıqları ilə anılar.
990. Bülbülün xoş avazı əsasən qarğaları narahat edər.
991. Ağır adam atını, yüngül adam arvadını, axmaq adam özünü öyər.
992. Tez parıldayan tez də sönər.
993. Tez ərə gedən tez də ayağa düşər.
994. Naxırçı qızının ürəyindən naxır çörəyi keçər.
995. Qonşu haqqı qohum haqqından üstündür.
996. Gördüyünü qoyub, dinlədiyinə getmə.
997. Böyüklərin tökdüyünü kiçiklər yığışdırar.

998. Ölçüsüz sözün biçinsiz cavabı olar.
999. Səbr eyləyən fərəc tapar.
1000. Ən üstün gözəllik əməl gözəlliyidir.
1001. Hər axan su içməli olmaz.
1002. Bərəkət hərəkətdədir.
1003. Bərəkət ondur – onu da düzlük.
1004. Əyriliklə qazanılan ruzi bərəkətsiz olar.
1005. Şadlıq bilikdən ağıllıdır.
1006. Həyat səhərdən başlayır.
1007. Ümidişığı gündəlik çörəkdir.
1008. Əsilliyi olan əsilliyin itirməz.
1009. Zatı xaraba qamçı neyləsin?
1010. Hər bulud fırtına doğurmaz.
1011. Quyular dərin deyil, iplər gödəkdir.
1012. Özgə qapısını bağlı görmək istəyənin öz qapısı bağlı qalar.
1013. Qoca evin sütunudur.
1014. Sevindiyimiz zamanı deyil, sevindirdiyimiz zamanı uca tutun.
1015. Qarın aclığı toxalar, göz aclığı toxalmaz.
1016. Hər kəsin öz dərdi var, hər dərdin də öz acısı.
1017. Köhnə paltarından utanma, köhnə düşüncəndən utan.
1018. Sınıq qabda su qalmaz.
1019. Acıqlı insan tez qocalar.
1020. Alçaq yerdə yatma sel aparar, ucada yatma yel aparar.
1021. Cahil dirilərin ölüsüdür.
1022. Cahilə qoşulan özü də cahil olar.
1023. Bilik ağlın aynasıdır.
1024. Cahil ilə çıxma yola, gətirər başına bəla.
1025. Aqil bazarda satılmaz, gərək başda ola.
1026. Söz var gül düzdürər, söz var baş kəsdirər.
1027. Nadan bazarında ağıldan başqa hər şey satılar.
1028. Başqalarının qüsurlarını açmağa çalışanı Allah da sevməz.
1029. Şirin dil bağlı qapıların açarıdır.
1030. Yaman dost düşməndən pisdir.
1031. Dost ona görə qiymətlidir ki, dostu insan özü seçir.
1032. Bütün yaramazlıqların qaynağı bikarçılıqdır.

1033. Mənən gözəl olanın qarşısına gözəllik çıxar.
1034. Özünü dostun gözündə yox, könlündə ara.
1035. Dostu çox olanın düşməni xar olar.
1036. Yaxşı dost səadət gətirər, nacins dost bədbəxtlik.
1037. Ən böyük xoşbəxtlik göz yaşlarının sevincə çevrilməsidir.
1038. Dosta tapınan düşmənə gülünc olmaz.
1039. Dostu gözündə deyil, ürəyində axtar.
1040. Dostları tez-tez dəyişəndən uzaq ol.
1041. Səbir ağacı hər bağda göyərməz.
1042. Səbr cənnət açarıdır.
1043. Səbr hörmət gətirər, səbirsizlik nifrət.
1044. Ağın adı, qaranın dadı...
1045. Balın olmasa da, bal kimi dilin olsun.
1046. Bal dadan acısına da dözməlidir.
1047. Ana körpəsinə ümid bəsləməsə, ona süd verməz.
1048. Bağban çəkdiyi zəhmətə ümid bəsləməsə, o bağı salmaz.
1049. Ümidlə yaşayanlar deyər: Sabah və sabahlar bizimdir.
1050. İgidin yaraşığı sınaqdır.
1051. İnsanın yaraşığı ləyaqətdir.
1052. Satan dünya, alan dünya–yalan dünya.
1053. Eli olmayanın dili də olmaz.
1054. Dahilik elə bir zirvədir ki, o zirvəni ancaq dahi özü fəth edir.
1055. İnsan həmişə güclünün tərəfində deyil, haqlının tərəfində olmalıdır.
1056. Bir insanı xilas etmək insanlığa xidmət etmək deməkdir.
1057. Xeyirxah olmayan insanın yaşamağı əbəsdir.
1058. Ömür bir iynədir, sapı gödək.
1059. Həyat yolunda hər bir çətinlik həyat sirri ola bilər.
1060. Qanunlara əməl edilməyəndə hər ağızdan bir avaz çıxar.
1061. Nadan dostdansa kamil düşmən yaxşıdır.
1062. Düz həyat yolundan çıxmaq asandı, qayıtmaq çətin.
1063. Ayaqdan tutan olma, əldən tutandan ol.
1064. Həyat yolunun başlanğıcında sonunu görməyə də çalışmalıdır.
1065. Maddiyatı mənəviyyatdan üstün tutanlar bədbəxtlərdir.

1066. Övladını tərbiyə etmək istəyən valideyn əvvəlcə özünü tərbiyə etməlidir.
1067. Həyatda nə qədər yaşamağını deyil, necə yaşamağını düşün.
1068. Səpilməyən buğda göyərməz.
1069. Buğda buğda olmaz anbara tökməyincə, övlad övlad olmaz evlənməyincə.
1070. Allah istəyən danaya qurd dəyməz.
1071. Ət yeyən quşun dimdiyi əyri olar.
1072. Zor fəndə baxmaz.
1073. Dəli utanmaz, yiyəsi utanar.
1074. Əfv edib bağışlamaq böyüklük nişanəsidir.
1075. Günahkarı bağışlayan haqq dərgahında bağışlanar.
1076. Kitablar qocaların ən yaxın sirdaşı, gənclərin isə yol göstərənidir. Kimlərəsə atdığın daş nə vaxtsa qayıdıb özünə dəyəcək.
1077. Xoş rəftar olanın ömrü uzun olar.
1078. Tanrı bağışlayanları sevər.
1079. Bağışlamaq böyük ürək sahibi olanlara aiddir.
1080. Bağışlamaq, səbr etmək cılız insanlara aid deyil.
1081. Qənaət insanlığın yaraşığıdır.
1082. İşləməyən süfrəyə yandan baxar.
1083. Bu dünyada hamı adam doğulur, ancaq hamı adam olmur.
1084. Nə yaxşı dünyada yaxşı var imiş
1085. Yoxsa yox olardı yaman əlində.
1086. Qocalıq–ucalıq.
1087. İnam olmayan yerdə güman da olmaz.
1088. Mən eşqə kölə olanları deyil, eşqi kölə edənləri alqışlayıram.
1089. Böhtan deyəni böhtan tutar.
1090. Çəmək çəkən daşdan su çıxar.
1091. Dar günə dəramət eləməyən darda qalar.
1092. Dünya bizim evimiz deyil, biz dünyanın eviyik.
1093. Dünya bir bazardır udanı az, uduzanı çox.
1094. Haram çörək artmaz, artsa da, müsibət gətirər.
1095. Daş atmaqla çay bulanmaz.
1096. Çox zaman sarımsaq qoxusu ənbər qoxusuna üstün gəlir. Bu təzad həyatda da özünü göstərir.

1097. Ömür qatarı relslər üzərində daim irəliləyir, ancaq geri qayıtmır.
1098. Başqalarını sevindirən özü də sevinc tapar.
1099. Ovu bərədə, dəmiri kürədə...
1100. Köhlən başından, insan dilindən bağlanır.
1101. Kimisinin ələyi var, kimisinin sacı.
1102. Haqq sözü ilə axar sular dayanar.
1103. Haqq nazilər, ancaq üzülməz.
1104. Səbrin dözümü acı, meyvəsi isə şirin olur.
1105. Qocalmayan qoca dərdin bilməz.
1106. Qocaya gülən özünə gülər.
1107. Dözüm və ümidi olmayanı mənhus tale gözlər.
1108. Zaman bir nəhrdir axar, durmaz.
1109. Ötən hər anın qədri bilinməlidir. Çünki o, bir də təkrar olunmayacaq.
1110. Ümidsizlik–inamsızlıq, imansızlıq gətirər.
1111. Ailədə qadın elə bir dağ olmalıdır ki, kişi bir qartal kimi onun dövrəsində fırlansın.
1112. Ən böyük dəhşət nəfsi və səbri basa bilməməkdir.
1113. Din qardaşını sevindirəni Tanrı sevindirər.
1114. Mərdin gözü tox, namərdin gözü ac olar.
1115. Çətin gündə imkansıza əl tutanın haqqın Tanrı verər.
1116. Qohum-əqrəba ilə əl tutmayanın var süfrəsi əllərə düşər.
1117. Dəmir nəmdən, insan qəmdən çürüyər.
1118. Pul-para ilə insanları uca tutanın axırı alçalmaq olar.
1119. Həyat təkcə yaşamaq deyil, yaşatmaq da deməkdir.
1120. Yerində və yerli danışan peşman olmaz.
1121. Bütün çirkinliklərin mənbəyi yalan danışmaqdadır.
1122. Adam paltarı ilə deyil, əxlaqi ilə tanınar.
1123. İnsan ömürboyu yol gedir, təəssüf ki, arxaya yol yox-dur. Yol ölüm qapısınadır.
1124. Axirətdə qonşunun hesabın qonşudan soruşacaqlar.
1125. Artıq tikənin zəhməti də artıq olar.
1126. Məhəbbət əldə, dildə, gözdə olar.
1127. Ana da bir planetdir. Ana böyük səhv edəndə bir planet yetim qalar.
1128. Bir çuxam var, hara olsa ataram, orada da yataram.

1129. Səadət hər kəsə öz pəncərəsindən ayrı cür görünür.
1130. Tənbəllik ölümə doğru, çalışqanlıq isə həyata doğru yoldur.
1131. Çalışqan insan öz şəxsiyyətini qoruyandır.
1132. Adamı başdan, ağacı yaşdan...
1133. İnam olmayan yerdə inamsızlıq at oynadar.
1134. Tənbəl dilənçinin qardaşıdır.
1135. Hörmət qazanmaq istəyən hörmət qoymağı bacarmalıdır.
1136. Çalışqan insanlar başqalarının da sevgisini qazanarlar.
1137. Günah günah gətirər.
1138. Balığı sudan nə vaxt tutsan, təzədir.
1139. Tanrı imkansızlara əl tutanı uca tutar.
1140. Yolun azana yol qənim olar.
1141. İnsan daşdan bərk, güldən incə olar.
1142. Qənaət dolanışığın əsas meyarıdır.
1143. Qışda yorğansız olma, yayda ayransız.
1144. Çəmənlikdə kəpənək qovan ayağı altda əzdiyi bənövşələrdən xəbərsiz olar.
1145. Dünya çalışanların əlindədir.
1146. Dünya sənə yay olduqca qış tədarükünü gör.
1147. Hər könüldən keçən gerçək olmaz.
1148. Bacarıq ağlın nişanəsidir.
1149. Sənət insan üçün xəzinədir.
1150. Əl qoldan qüvvət alar.
1151. Başqasının hesabına qurulan saray tez uçar.
1152. Bir ömür zamanı gözdən düşən damla kimidir.
1153. Musiqi insana ləzzət verir, poeziya isə tərbiyələndirir.
1154. Hər bir sonun bir başlanğıcı var.
1155. Görən bilər, sevən bilər, duyan bilər.
1156. Sözü yerə atsan, hər kəs öz payını götürər.
1157. Səbr etmək bəsirətli olmaq deməkdir.
1158. Arif insan qüsur görməz, qüsuru örtər.
1159. Həqiqətə doğru inamla irəliləyən vəhdət mülkünə sahib olar.
1160. Ruhu gözəl olanın zahiri də gözəl olar.
1161. Zəhmətin qanadlarından möhkəm yapışanlar xoşbəxtliyə tez çatar.

1162. Qız ata evində qızılgüldü, ər evinə getdi atanın üzü güldü.
1163. Gün xoş keçəndə dərd ölər.
1164. Yaxşılıq mənəviyyatın tacıdır.
1165. İnsan şirin anları acılardan çəkib çıxardır.
1166. Getdiyin yola fikir ver ki, geri dönməyin də var.
1167. İnsan qisməti aramazsa, qismət onu arar.
1168. Söz su kimi axar.
1169. Daşa mıxı çalanda çəkic bir dəfə özünə, bir dəfə də mıxa dəyər.
1170. Ağıllı baş bəlasız olar.
1171. Sözü uzadarsan, dadı qaçar.
1172. Söz insanın daxili aləminin güzgüsüdür.
1173. Həmişə insanlarda eyib axtarandan uzaq ol.
1174. Çalış ki, çalışmağın da arzuların qədər olsun.
1175. Diriyə hay, ölüyə pay verməyənləri Allah da bağışlamır.
1176. Nə daş atdın ki, qolun da ağrısın.
1177. İnsanlar bir-birinə inanmasa, insanlıq əldən gedər.
1178. Həqiqət acı olsa da, meyvəsi şirin olar.
1179. Tale yollarını biz seçmirik, bizi tale özü seçir.
1180. Bu gün o günün üstdə boy atar.
1181. İnsanlar çox vaxt itirdiklərinin qədrini sonda başa düşürlər.
1182. Qonşu qonşunun külünə möhtacdır.
1183. Yarpaq var suda batar, daş var suda uçar.
1184. Hər ağızla qatıq ölçməzlər.
1185. İgid arxasında igid dayanmalıdır.
1186. Hər sevdiyin insana etibar etməzlər.
1187. Haqq tapdalayanın haqqı nə vaxtsa tapdalanacaq.
1188. Məzlumlara arxa olmağın savabı bütün xeyirxahlıqlardan üstün sayılar.
1189. Ömür zamanın sovrulan vaxt bölgüsüdür.
1190. Haqqa söykənən haqqa çatar.
1191. Müdriklik ağılla ədalətin birləşməsidir.
1192. Əvvəl qəlbi doldurmaq, sonra başı.
1193. Tək özü üçün yaşayanların ömrü gödək olar.
1194. Heç nəsiz bu dünyaya gəlirik, heç nəsiz də gedirik, bizdən qalan əməllər olacaq.
1195. Keçən keçib, sən gələcəkdən danış.

1196. Keçənə yanma, dünənə güvənmə.
1197. Qarışqaya qəza gəlsə, qanadlanar.
1198. Əlinə gələni yeyəndən, ağzına gələni deyəndən uzaq ol.
1199. Duzsuz çörəyin dadı, çörəksiz  kişinin adı olmaz.
1200. Dost üzündən, düşmən gözündən tanınar.
1201. Aciz adam qorxaq olar.
1202. Yaxşılıq insanı uca edər.
1203. Dəmiri kürədən dəmirlə çıxararlar.
1204. Qəzəb dəliliyin başlanğıcıdır.
1205. Baş sağ olsun, papaq tapılar.
1206. Hər başda oturana başçı deməzlər.
1207. Böyük istedad sığal tələb edir.
1208. Az yeyən naz görər.
1209. Baş-başa verməyincə daş yerdən qalxmaz.
1210. At ölər nalı qalar, igid ölər adı qalar.
1211. Yediyini demir, doğradığını deyir.
1211. Ağıllı baş bəlasız, gedilən yol xətasız olmaz.
1212. Sabahı görənlər bu günü yaşayanlardır.
1213. Əsil olan əsilliyin itirməz.
1214. Könül bir saraya bənzər: Sökülməsi asan, qurulması çətin.
1215. Sevgi bulanmış suları duruldar.
1216. Həyatda ümidi olmayanın heç nəyi yoxdur.
1217. Arzu quyudur: doldurmaq olmaz.
1218. Sular hərəkətlidir, torpaq bərəkətli.
1219. Çox çətinliklər var ki, içərisində asanlıqlar gizlənir.
1220. Böyük səbrin böyük də töhfəsi olar.
1221. Keçmişindən qopa bilməyənin nə bu günü, nə də sabahı ola bilməz.
1222. Əlinə baxandan çörəyi, üzünə baxandan təbəssümü əskik eləmə.
1223. Hikmət qapısının darvazası elm və bilikdir.
1224. Düşüncə cavan-qoca tanımaz.
1225. Yeyəndə çeynə, danışanda fikirləş.
1226. Yaxşılıq olmur, edilir.
1227. Kamil insan kəlamından bilinər.
1228. Borc itaətdir.
1229. Ay gündüz işıq verməz.

1230. Gün altında yatmayan kölgənin qədrini bilməz.
1231. Mərhəmətli baxışlar, səxavətli əllər qiyamət günü yaşamaz.
1232. Torpaq ovuclayan qızıl ovuclar.
1233. İlk nəğməmiz layla, son nəğməmiz ağı oldu.
1234. Daşdan qopar, yoxdan qopmaz.
1235. Hər ağacdan masa olmaz.
1236. Özün yedin, yox oldu, başqası yedi, çox oldu.
1237. Özünü tanımayan Allahını da tanımaz.
1238. Yalnız özünü görən Allahını tanımaz.
1239. Özgə donu başqasına qiymətli görünər.
1240. Arxadan düşən gün insanı qızdırmaz.
1241. Keçmiş çox uzaq olar, gələcək isə yaxın.
1242. Haqqı özündə, əməlində gör.
1243. Həqiqət körpə uşaq kimidir: yıxıla-yıxıla durur.
1244. Ömür bahar deyil ki, bir də qayıda.
1245. Kürə görməyən dəmir yumşalmaz.
1246. Əl çatmayan arzular ayağa zəncirdilər.
1247. Bərəkətin bir yanı xərməndir, bir yanı ana ətəyi.
1248. Elin atan boy atmaz.
1249. Gecəsiz gündüzün nuru bilinməz.
1250. Mal yığınca ağıl yığ.
1251. Cavanlıqda zəhmət çəkən qocalıqda möhnət çəkməz.
1252. Cavanlıq ən qiymətli əmanətdir.
1253. Ən böyük dövlət insanın abırıdır.
1254. Dövləti abıra çəpər edərlər.
1255. Söz var deyərlər, söz var udarlar.
1256. İnsanın sevgiyə olan ehtiyacı təbiətin Günəşə olan ehtiyacı deməkdir.
1257. Dünyada ən qiymətli söz nədir – sualına böyük filosof Konfutsi belə cavab vermişdir: Mərhəmət.
1258. Söz var insanı sağaldar, söz var yaralar.
1259. Xəta məndən, əta səndən.
1260. Heyf ki, bu dünyada görənlər az, baxanlar çoxdur.
1261. Söz gəzdirən Tanrı qəzəbinə tuş gələr.
1262. Qohum-qardaş səndən üz döndərsə də, sən üz döndərmə.
1263. Dözümlülər həyatda qalib olanlardır.
1264. Arpa əkən buğda biçməz.

1265. İnsan əməli nə vaxtsa əkilən toxum kimi qarşısına çıxacaq.
1266. Varlıya yaltaqlanandan, kasıbı qapazlayandan uzaq ol.
1267. Kasıb kişi arvadının qənaətçiliyinə güvənər.
1268. Daş daşı sındırar.
1269. Dağ quşu dağda, bağ quşu bağda.
1270. Arvad qohumu süfrə başında, kişi qohumu tabut başında.
1271. Dünyada 3 yazıq var: taxtdan salınmış hakim, var-yoxdan çıxmış varlı və dəlilər içinə düşmüş ağıllı.
1272. Eşitdin demə, dedin danışma.
1273. Yaxınlaşmağa bir gün bəsdir, dostlaşmağa min gün gərək.
1274. Ən yaxşı adət də, ən böyük biclik də düzlükdür.
1275. Yaman gündə təsəlli–quraqlıqda yağış kimidir.
1276. İnsan öləndən sonra qədri bilinər.
1277. Eşitdiyinə inanma, gördüyünə inan: ancaq heç birini də danışma.
1278. Ağızla bağlananı əllə açmaq olmaz.
1279. Olum ölümə gedən yoldur.
1280. Zaman–hamıdan yaşlı, fəza–hamıdan böyükdür.
1281. Təmiz vicdan yumşaq yastıqdır.
1282. Günahkar adamlar dolama yollarla gedərlər.
1283. Gülüş cavanlaşdırır, sevgi bəzəyər.
1284. Götürən baxmır ki, yerdə nə qaldı.
1285. Qurdun yanında qoyun həmişə günahkardır.
1286. Arvadsız kişi damsız bina kimidir.
1287. Yoxsul varlandıqca ağıllanar: varlı yoxsullaşdıqca sərsəmləyər.
1288. İşləyən o adam deyil ki, iş axtarır: o adamdır ki, iş onu axtarır.
1289. Dil aldadar, göz düzünü deyər.
1290. Qırğı nahar elədiyi yerdə xırda quşlar üçün də nahar tapılar.
1291. Topalla gəzən axsamağı öyrənər.
1292. Səadət qapıdan girəndə, səfalət bacadan çıxar.
1293. Gəncliyin qiyməti bilinsə, qocalığın şikayəti azalar.
1294. Yaxşı övlad atanı vəzir edər.
1295. İş başlamaqda deyil, başa yetirməkdədir.

1296. İki dilənçi bir qapıda yaxınlıq etməz.
1297. Dəli dövran sürər, ağıllı fürsət gözlər.
1298. Kişi tikən evi qadın yıxar, amma qadın tikən evi heç fələk də yıxa bilməz.
1299. Atanın dostluğu, oğula mirasdı.
1300. Alçaqdan uçan ucaya qonar, ucadan uçan alçağa.
1301. Adət qanun deyil, amma qanun kimi hökmü var.
1302. Ağaca çıxan keçinin budağa çıxan oğlağı olar.
1303. Heyvanın dişinə, insanın işinə baxarlar.
1304. İnsanın zilləti də öz əlindədir, illəti də.
1305. Suda qayıq arabanı çəkir, quruda araba qayığı.
1306. Tamah bir qapıdan girər, səadət o biri qapıdan çıxar.
1307. Çayın mənbəyi bulaq, ailənin mənbəyi anadır.
1308. Məhəbbətin özü ürəkdə, kədəri üzdə olar.
1309. Yəhər–ata bəzəkdir, qadın–evə.
1310. Qürbət elə verilən qız qayalara atılan ox kimidir.
1311. Qurumuş gölün sonası olmaz, hərdəmxəyal adamın dostu.
1312. Bərk qaynayan tez buxarlanar; bərk guruldayan tez üzə çıxar.
1313. Xəsis acgöz olar, kinli inadkar adam ağıllıdır ki, elədiyi səhvlər yadındadır.
1314. Günün yaxşı keçəndə qohumun çox olur, pis keçəndə düşmənin.
1315. Yuxarıda olursan–həsəd aparırlar, aşağıda olursan – ayaqlayırlar.
1316. Yeriyən axmaq yatan ağıllıdan yaxşıdır.
1317. Ata-ana bədəni, müəllim ürəyi yaradır.
1318. Qəzəb gələn yerdə susmaq yaxşıdır.
1319. Qolu güclü olan birinə üstün gələr, ağlı güclü olan çoxuna.
1320. Həyat yemək qoxusu kimidir: bilmirsən, haçan gedir.
1321. Məhəbbət ipək kimidir–ölüyə bükülür, dirini geyindirir.
1322. Könülsüz izdivac nəhayətsiz göz yaşıdır.
1323. İnsan qara şüşəyə bənzəyir–içində nə var görünmür.
1324. Qocaların mahnısı göz yaşı ilə qurtarır.
1325. Evi ocaq yox, mehriban həyat qızdırar.
1326. Yalqız qadın əzazil olar, yalqız kişi yazıq.

1327. Birindən soruşdular: «Sən bəxt istəyirsən, yoxsa taxt?!
Dedi: «Bəxt olsa, taxt özü gələcək».
1328. Məhəbbət alovdur, əhd-peyman külək.
1329. Sel gedər–daş qalar, aslan ölər–dərisi qalar, insan ölər adı.
1330. Dünya səbr üstündə dayanıb.
1331. Yaxşılığı bir dəfə eləmək min dəfə deməkdən yaxşıdır.
1332. Səbr bir ömürlük xəzinədir.
1333. Təvazökarlıq müdrikliyin yaraşığıdır.
1334. Soruşmaq bir anlıq xəcalətdir, soruşmamaq bir ömürlük.
1335. Özün haqqında özgədən soruş.
1336. Yolda yoldaş gərəkdir, həyatda həmdəm.
1337. Yalan oğurluğa atılan ilk addımdır.
1338. İstər gül, istər ağla–bir ömürdən artıq yaşamayacaqsan.
1339. Əzab sevincin mənbəyidir.
1340. Qıza baxmamış anasına bax.
1341. Qaradinməz adamdan həmişə özünü gözlə.
1342. Ac it ağacdan qorxmaz.
1343. Gündüzün gözləri, gecənin qulaqları var.
1344. Gündüz doğulan uşaq atasına, gecə doğulan uşaq anasına oxşayar.
1345. Şirin dil insan ürəyinə açardır.
1346. Çox qalxan yıxılar, çox uzanan qırılar.
1347. Suyun yuxarı başı bulansa, aşağı başı da bulanar.
1348. İnsan dilindən iti nə bıçaq var, nə balta.
1349. Bərki kəsərlər, yumşağı əyərlər.
1350. Hər kəsin qiyməti etdiyi yaxşılıqlarla ölçülür.
1351. Xoşbəxtliyin qiyməti bədbəxtlikdən sonra bilinər.
1352. Uşaqlıqda öyrəndiyini qocalıqda da unutmursan.
1353. Tox qarnını qaşıyanda acın sümükləri sızıldar.
1354. Tələsmə ki, sonra ağlamayasan.
1355. Göz yaşıyla dirilən olsaydı, ölü olmazdı.
1356. Kəndli yağış üçün dua edir, bənna yağışsız hava üçün.
1357. Dil həm silahdır, həm də başının bəlası.
1358. Böyük kəslər günahı özündə görər, xırdalar bütün dünyada.
1359. Ağıl təbiətin vergisi deyil, təcrübənin nəticəsidir.

1360. Ağıllı adam qabağa gedər, arxaya baxar.
1361. Həya getsə, bəla gələr.
1362. Səbr sevincin, yalan bütün pisliklərin açarıdır.
1363. Xeyir verən yalandan, ziyan verən doğru yaxşıdır.
1364. Mən ev satmamışam, qonşu satmışam.
1365. İşin axırını fikirləşən bəlanı özündən sovuşdurar.
1366. İnsan həyatının meyvəsi yaxşı addır.
1367. Evlənmək bir aylıq sevinc, bir ömürlük qayğıdır.
1368. Dili gözdən qoymasan–saxlar səni, gözdən qoysan–satar səni.
1369. Dil özü sümüksüz olsa da, sümüyü sındırar.
1370. Borcu verəndə dost olursan, alanda düşmən.
1371. Ağılsızın ürəyi dilində, ağıllının dili ürəyindədir.
1372. Heyvanı qulağından, insanı dilindən tutarlar.
1373. Üç şey adamda məhəbbət oyadar: inam, təvazökarlıq və səxavət.
1374. Susmaq–biliklinin bəzəyi, biliksizin pərdəsidir.
1375. Qadının ağlı gözəlliyində, kişinin gözəlliyi ağlındadır.
1376. Tikanı ayaqdan tikanla çıxararlar.
1377. İti vurmamış öyrən, gör sahibi kimdir.
1378. Ərsiz qız–sükansız gəmi, arvadsız kişi – yüyənsiz at.
1379. Ana öyrədən uşaq diribaş, ata öyrədən ağıllı olar.
1380. Hirslənəndə ağlı itirərlər, dərd çəkəndə iştahı.
1381. Aclıq  soruşmur ki, nə yeməlidir, nə yox.
1382. Barsız ağaca daş atmazlar.
1383. Ərinin ölümü sədaqətli qadın üçün ölümdür.
1384. Pul da qul kimidir, gözün üstündə olmasa, çıxıb gedər.
1385. Ürək odu başdan tüstü buraxar.
1386. Böhtançı şeytanın dostudur.
1387. Məhlədə bir müdrik min varlıdan artıqdır.
1388. Əzrayıl axsaq ulaq kimidir – hər qapıda dayanır.
1389. Birinin qarnına vurdular, «Ay, arxam!» – dedi.
1390. Axmaq danışanda arif susar.
1391. Tüstülənməyən odun yoxdur, yanmayan adam.
1392. Bəd xəbər uçur, xoş xəbər yatır.
1393. Qohum da dərman kimidir–çətin gündə lazım olur.
1394. İşıq zülmətdə gərək, ağıl zillətdə.

1395. Səadətlə bədbəxtlik eyni cığırla gəlirlər.
1396. Qəzəb adamı kor edər.
1397. Səadəti saxlamaqdan tapmaq çətindir.
1398. Yaxşı gün dostları verir, yaman gün də onları yoxlayır.
1399. Vicdanı təmiz olanın yastığı rahat olar.
1400. Bir «indi» ən «sabah»dan yaxşıdır.
1401. Gözəllik axşama kimidir, yaxşılıq ölənə kimi.
1402. Öz buğdasını səpməyə tənbəllik eləyən, özgənin daşını daşımalı olar.
1403. Yaxşı arvad evin yarısıdır.
1404. Hər şey köhnəlir, həqiqətdən başqa.
1405. Bir gün tez əkən, bir həftə tez biçər.
1406. Dili uzun olmayanın ömrü uzun olar.
1407. Bir günlük yola çıxsan, üç günlük azuqə götür.
1408. Dostun köhnəsi, donun təzəsi.
1409. Yarından ayrılan yeddi il ağlar, elindən ayrılan ölüncə.
1410. Biləyi güclü birini yıxar, biliyi güclü minini.
1411. İgid özü üçün doğulur, özgələri üçün ölür.
1412. Ağıllının əli işlər.




# Müəllifə yazılan məktublardan nümunələr

**Hörmətli Dilsuz müəllimə!**

Sizin göndərdiyiniz məktubu aldım. Çox sağ olun, bizi yaddan çıxarmayıbsınız. Çox yaxşı yadımdasınız, sizin imtahanınız, Allahverdigilin maraqlanması, söhbətlərimiz – hamısı yadıma düşdü. Mən, əlbəttə, yalnız arzu edərdim ki, siz ən çox maraqlandığınız sahə üzrə bizim kafedraların biri ilə əlaqə saxlayasınız. Həm də əminəm ki, siz çox yaxşı dissertant olar, vaxtında müdafiə edərsiniz.

Ancaq elmə doğru gedən yollar da məhrumiyyətlərdən, əziyyətlərdən keçir, bəzən bürokratizm, ədalətsizliklərlə qarşılaşmalı, özünün haqlı olduğunu sübut etməli olursan. Sizin kimi adam üçün, haqq-ədaləti daha çox axtaran, bəlkə, bir az səhv edirəm, sentimental ruhlu, öz xəyalları ilə daha çox yaşayan bir adam üçün bir az da çətinlik çox ola bilər. Hər halda fikirləşib mövzu köçürsəniz, ancaq bir az gecikə bilərsiniz. Mən sizə müvəffəqiyyət arzulayıram. İnanıram ki, siz mütləq elm aləminə gələcəksiniz.

İstədiyiniz kitabı və başqa bir kitabımı (Nekrasov və Azərbaycan) da sizə göndərirəm. Çətinliklərdən qorxmayan istedadlı tələbəmə uğurlu yol arzulayıram.

Hörmətlə: **Alməmməd Alməmmədov**

*V.İ.Lenin adına A.P.İ. Ədəbiyyat kafedrasının dossenti*

Bakı, 30 may 1973-cü il

## DAĞLAR OĞLUNA SƏMİMİ MƏKTUB!

*Gözüm gözünüzdən uzaq olsa da,*
*Könüldən könülə yollar görünür.*

**S.Vurğun**

Sakit bir payız havası. Yay. Təbiətin sükuta daldığı lal bir səhər. Yalçın qayaların, şiş dağların köksündən çağlayan ayna sular onsuz da sakit təbiəti həzin laylası ilə uyuya verib Xan Araza qovuşdu. Qovuşdu yel atlı, quş qanadlı arzulara yetişmək üçün, Milə, Muğana qovuşdu söyləmək üçün dost sözünü, salamını dostuma. Söz qasidinin səməndi səyriyib qarşımda durur. Şahə qalxıb dayanır. Şair təbiətli dağlar oğlunun salamını yetirir mənə. Məktubu alıram. Ünvanı oxumamış xətti tanıyıram. Gözlərimə inana bilmirəm. Zərfi açıb min bir dillə izhar olunmuş salamları alıram. Poetik dil ilə yazılmış məktub bir anlığa məni xəyala qaldırıb yaxın keçmişə, ali məktəb həyatına qaytarır. 1965-ci ilin yayını, Dilsuz Dünyamalıyevin «Çağırsan, gələr» cümləsinin mübtədasını tapmağı qəbul sənədlərini vermək üçün dayanmış tələbələrdən soruşmasını, heç kimin cavab verə bilməməsini, kənardan qulaq asan kürən bir oğlanın «Cümlənin mübtədası o» – deyə cavab verməsini xatırlayıram. Əllər tutuşur. «Bir qrupa düşsəydik, yaxşı olardı» cümləsi eşidilir. Dostluğun buradan başlaması, səmimiyyət, ülvilik, müqəddəslik, əməl əqidə dostluğu, prinsipiallıq, şəxsi ləyaqət, mənliyini yüksək qiymətləndirmək pərdə-pərdə gözümün önündə canlanır.

Yaxşı deyiblər ki, keçmişi geri qaytarmaq olmaz. Nə isə...

Salam, Dilsuz müəllim! Necəsən, əzizim? Bilirsən, məni nə qədər sevindirdin? Ayrılan yolları yenidən birləşdirdin, Dilsuz, məktubu kollektivimiz qarşısında oxudum. Şirin dil, şaqraq səs, poetik ifadələr, incə qəlbdən qopan arzular, ürək kövrəkliyi, hamını valeh etdi. «Əhsən» dedilər. Yoldaşlar arasında sizi tanıyanlar da oldu. (Ali məktəbdə yoldaşlığımızdan tanıyırdılar).

Bəli, mətləbdən uzaqlaşdıq. Mənim kefim kök, damağım çağdır. Sizin kimi dostlara şən həyat, xoşbəxtlik, həyatın ən

gözəl neməti olan ailə səadəti arzulamaqdan başqa nə diləyim ola bilər? Dilsuz müəllim, mən kəndimizdə elə həmin məktəbdə işləyirəm. Tapdıq Bədirov Aşağı Çəmənlidə müəllim işləyir. İradə Orucova yenidən həyat qurdu. Ramiz Şükürov Füzuli rayonuna köçdü.

Oradakı yoldaşlarımızdan nə xəbər bilirsən? Görüşsən, salam söylə. Dilsuz müəllim, yola yaxşı körpü salmısan. Davam etdirək. Xeyirxahlığın üçün təşəkkür edirəm. Görəsən, tale bizi yenidən görüşdürə biləcəkmi? Dostlar çoxdur, amma onların xası, səmimisi, billuru–Dilsuz, Mədəd, Dülgər yadıma düşəndə göynərti məni sarsıdır. Gözlərim ixtiyarsız olaraq dolur. Sözlə sizdən doya bilmirəm. Nə isə...

Məndən ailə üzvlərin, iş yoldaşlarına salam yetir.

Hörmətlə: **Ağamirzə Quliyev**

*Beyləqan rayonu, Əlinəzərli kəndi*

19.12.1981-ci il

**Əziz qardaşım, Dilsuz!**

Sizin vaxtında yazılmış məktubunuza vaxtlı cavab verə bilmədiyim üçün, şübhəsiz ki, məni bağışlarsınız. Səbəbi hər kəsə bəllidir. Yarım ildən artıqdır ki, yeganə özümə ata, ana, qardaş, oğul, el-oba zənn etdiyim bir oğuldan ayrılmışam. Arifimdən gen düşmüşəm! Özümə arxa-dayaq bildiyim oğul dağı sinəmə çəkilib.

Mən Arifi sevirdim necə qoç Koroğlu Çənlibeli, Qaçaq Kərəm Molla qayasını sevirdi. Hər iki yer adı hər iki igidin mübarizəsi ilə bağlıdır.

Lakin bu müddət ərzində mənim xeyirxah xalqım bir gün də yazıq şampunu yumadı. Yazıq və bədbəxt olanda da şair kimi yazıq və bədbəxt olasan! Çünki dərd elin dərdi olur.

Mənə Arif bir daha xalqımı dərindən sevməyi öyrətdi. Bu xalqı son nəfəsimə qədər tərənnüm edərəm. Məncə, Hüseyn kimi yox, Hüseyn Arif kimi!

Mən bir də naxçıvanlı dostlara xüsusi ilə minnətdaram! Nə qədər ana, ata, məktəbli mənə təsəlli verib. Yazdığım şeirlərdən birində heç də nahaq deməmişəm.

Dar gündə axtarıb, çətində gəzən Hüseynin dostları Naxçıvandadır.

Yazdığınız şeirlər də təsirlidir. Ailəliklə sizə və ailənizə minnətdarıq.

**Hüseyn Arif**

27.03.1971

**NAMEYİ-DOST**

Ey duzlu Xavərimin sonbeşiyi, mərd məkanım!

Ey mənim, kurort məskəni kimi şöhrət tapmış Mərdəkanım! Sən belə olmasaydın, bəlkə də, dostluğa, sədaqətə can atmazdım. Və dostlarımın sayı da, bu qədər çoxalmazdı!

Ey mənim Xəzər sahilli, dost ocaqlı Mərdəkanım?! Qoy, sənin qırçın ləpələrindən qopan xəfif küləklərin bu dostluq ocağının hərarətli salamlarını Nəqşi-Cahan torpağının gözəlqəlbli, duzlu, sarışın oğluna, mənim hələlik sonbeşik dostum olan Dilsuza çatdırsın!..

Mənim sonbeşik dostum, Dilsuz! Məktubunu alanda, uçmağa bir cüt qanadım çatmadı!.. Kollektivimizin əksəriyyəti, xüsusən qızlar, qadınlar, hamısı sənin bu şairanə cümlələrini dönə-dönə oxuyub, təbəssümlə dolu olan ruhi qida aldılar. Təbii yazırsan, təbii təsirlidir, qəlbində alışan o közün həsrəti hiss olunur. Qəlbinin dərinliyindən gələn səsi isə qələmə almağa heç də utanma!..

Onu da deyim ki, hərarətli məktub yazmaq o qədər də asan iş deyil. Fikirlər çox, arzular müxtəlif, hisslər qarışıq...

Di gəl bunlardan yerli-yerində istifadə et! Həqiqətən, çətindir. Sözü saf-çürük eləmək üçün, gərək söz sərrafı olasan. Bunun üçünsə həssas hisslərin olmalıdır. Onu da sənin cümlələrindən duydum. Bu kiçicik məktubu mənə yazmaya da bilərdin. Səni məcbur edən nə oldu? Daxili hisslərin olmadımı? Madam ki, bütün bu dediklərimə sinə gərib, mənə öz

ürək sözlərini çatdıra bilmisən, demək, elə hər cür hörmətə layiq oğlansan, Dilsuz?! Sağ ol, ülfət etməyi bacardın. İndi ki ilk tanışlığı, haqqı-salamı itirmədin, inan ki, elə nəcib oğlansan, Dilsuz!..

Vaxt olub ki, çoxları ilə oturub, yeyib-içmişik. Və dostluq naminə, bir-birimizin sağlığına badə qaldırmışıq. Ertəsi günü elə bir vəziyyət olub ki, dünənki dostluqdan əsər-əlamət qalmayıb. Yaxud adamda elə bir ikrah hissi yaranıb ki, beləsinə dost deyə nəinki ürək, heç dil də açılmayıb. Ancaq səninlə, heç bir stəkan limonad da içməmişik. Di gəl ki səndəki o ali-insani hisslərə bax! Sənin kiçicik kağız vasitəsilə də olsa, o quru məhəbbətin, mənim üçün dünyaya dəyər, Dilsuz?! Azacıq da olsa, sənin hörmət və məhəbbətini qazandığım üçün minnətdarlığımı bildirirəm. Və sənə həyatda möhkəm cansağlığı, bir də xoşbəxtlik arzulayıram!

**Alim Əsgərov *(Şair)***

*Azərbaycan Yazıçılar İttifaqının üzvü*

12.12.1969

**Hörmətli Dilsuz müəllim!**

Sizin hərarətli qəlb və səmimiyyətlə yazdığınız məktubu oxudum.

Yurdumuza gələn gülüzlü baharın şairanə tərənnümü məni heyran etdi... Siz yəqin ki, ədəbiyyat müəllimisiniz. Gənc nəslin təlim-tərbiyəsi kimi çox məsul və nəcib bir işin belə mahir və etibarlı əllərdə olması məni hədsiz sevindirir. Yəqin ki, şagirdləriniz sizi maraqla dinləyir və siz onlarla şairlər diyarı Azərbaycanın ədəbi irsindən, müasir yazıçılarımızın əsərlərindən, elm adamlarının ecazkar əməyi ilə yaranmış elm və texnikanın nailiyyətlərindən məharətlə söhbətlər aparırsınız. Vətən oğlu–müəllim dostum, sizə bu nəcib işdə müvəffəqiyyətlər arzulayıram.

Mən bir aylıq elmi məzuniyyətə gedirəm. Moskvaya Ümumittifaq Göz Xəstəlikləri İnstitutunda olacağam. Təxminən

may ayının 25-dən sonra Bakıya qayıdaram və sizin gözlərinizin müayinə və müalicəsində daha diqqətli məşğul olmağa vaxt və imkanımız olar. Sizdən rayon göz həkiminin göndəriş vərəqəsi ilə bizim instituta münasib vaxtda (may, iyun, iyul aylarında) gəlmənizi xahiş edirəm.

Qabaqcadan onu deyim ki, ruhdan düşməyin, Mioniya xəstəliyində tətbiq edilən müasir üsullar institutumuzun elm əməkdaşları tərəfinizdən işlənib hazırlanıb və belə hallarda lazımi tibbi yardım göstərilir. Sizin də gözlərinizin vəziyyətini müayinə etdikdən sonra lazım olan müalicə vasitələrini tətbiq etmək üçün nə mümkünsə edəcəyik.

Hörmətlə,

**Professor H.Əfəndiyev**

*Respublika Göz Xəstəlikləri*
*İnstitutunun direktoru*

05.04.1978



# Ömrün fotolarda əks olunan anları



*Dilsuz müəllim gənclik illərində*



*Dilsuz müəllimin valideynləri: İsa kişi və Gülxanım xanım*



*Dilsuz müəllimin ailəsi*



*Dilsuz müəllim və Ağca xanım qızları Əzizə ilə birlikdə*



*Dilsuz müəllim qardaşı Qeybullanın toy mərasimində*






*Dilsuz müəllim Gəncədə Nizami məqbərəsində*



*Dilsuz müəllim Nuru Paşanın komandanlığı altında 1918-ci ildə Azərbaycan xalqına qardaşlıq köməyinə gəlmiş Qafqaz İslam Ordusunun döyüşçüsü olan naməlum türk hərbçisinin Bakı–Şamaxı avtomobil yolunun kənarındakı məzarını ziyarət edərkən*



*Dilsuz müəllim Türkiyədə Sultan Əhməd məscidində*




*Dilsuz müəllim Həcc ziyarətində*



*Dilsuz müəllim oğlu Ülvi ilə Həcc ziyarətində*



*Dilsuz müəllim oğlu Ülvi ilə qızı Əzizəgildə*



*Dilsuz müəllim qızı Əzizə, kürəkəni Lətif və oğlu Ülvi ilə*



*Dilsuz müəllim qızı Əzizə və bacısı Ruqiyyə ilə*



*Dilsuz müəllim ailəsi ilə ad gününü qeyd edərkən*







*Dilsuz müəllim bacıları Zöhrə və Ruqiyyə ilə birlikdə*



*Dilsuz müəllim oğlu Ülvi, qızı Əzizə,*
*bacıları Ruqiyyə və Zöhrə, qardaşı oğlu Hikmətlə*





*Dilsuz müəllim nəvəsi Rzanı hərbi xidmətdə ziyarət edərkən*



*Dilsuz müəllimin nəvələri Ağca, Gülxanım, Tomris, Rza, Turan, oğlu Ülvi və gəlini Nüşabə*



*Dilsuz müəllim oğlu Ülvi və qardaşı oğlu Nurlanla*



*Dilsuz dədənin hər gəlişi bayramdır*



Doğmaları Dilsuz müəllimin ad gününü qeyd edir



Dilsuz müəllim nəvəsi Tomris ilə





*Dilsuz müəllim bacısı Ruqiyyə və Zöhrə ilə*
*Naxçıvanda Əshabi-Kəhf ziyarətgahında*



*Dilsuz müəllim bacısı Ruqiyyə, nəvəsi Rza və qızı Əzizə ilə*
*Naxçıvanda Əshabi-Kəhf ziyarətgahında*





*Dilsuz müəllim Batabatın sahilində. Naxçıvan*







*Dilsuz müəllim təbiət qoynunda. Naxçıvan*



*Dilsuz müəllim qızı Əzizə ilə təbiət qoynunda. Naxçıvan, Batabat*



*Dilsuz müəllim kürəkəni Lətif və qızı Əzizə ilə*



*Dilsuz müəllim qızı Əzizə və oğlu Ülvi ilə el şənliyində*



*Dilsuz müəllim qızı Əzizə və kürəkəni Lətif ilə el şənliyində*



*Dilsuz müəllim kürəkəni Lətif ilə el şənliyində*



*Dilsuz müəllim nəvələri Turan və Rza ilə el şənliyində*



*Yeni uğurlar diləyi ilə...*

# Mündəricat


*Müəllifdən*..........................................................3

*Zirvələrə gedən cığırlar*..........................................6

*Məsəllər, rəvayətlər, esselər, hekayətlər* ..................9

*Hikmətli sözlər, ibrətli ifadələr*.............................317

*Müəllifə yazılan məktublardan nümunələr*...........361

*Ömrün fotolarda əks olunan anları*.......................369

***Dilsuz İsa oğlu Dünyamalıyev***

SÖZ GÜLÜSTANI

Bakı, «Aspoliqraf», 2020.

Bədii və texniki redaktoru ***Abdulla Ələkbərov***

Kompüter tərtibatçıları ***Səbinə Məmmədova, Təhmasib Mehdiyev***

Rəssamı ***Arif Hüseynov***

Korrektoru ***Mətanət Kərimova***

Çapa imzalanmışdır 11.08.2020.
Kağız formatı 60x90 $^{1}/_{16}$.
Fiziki çap vərəqi 24,5. Sifariş 115. Tiraj 100.

**«Aspoliqraf LTD» MMC-nin**
mətbəəsində çap olunmuşdur.
Bakı, AZ 1052, F.Xoyski küç., 151
Tel.: (+994 12) 567-81-28/29
e-mail: aspoligraf.ltd@gmail.com